**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ, SİYASİ VƏ MƏDƏNİ İNKİŞAFI

## RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

***13-14 oktyabr 2016-cı il***

**SUMQAYIT-2016**

# TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Elxan Hüseynov**<br>***(sədr)*** | Sumqayıt Dövlət Universitetinin<br>rektoru, professor |
| **Ramazan Məmmədov**<br>***(sədr müavini)*** | Sumqayıt Dövlət Universitetinin<br>Elm və innovasiyalar üzrə<br>prorektoru, professor |
| **Natiq Talıbov** | Sumqayıt Dövlət Universitetinin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent |
| **Qafar Atayev** | Sumqayıt Dövlət Universitetinin Qiyabi, distant və əlavə təhsil üzrə prorektoru, dosent |
| **Nizami Namazov** | Sumqayıt Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektoru, dosent |
| **Naib Hacıyev** | Sumqayıt Dövlət Universitetinin İqtisadi məsələlər üzrə prorektoru |
| **Anar Namazov** | Sumqayıt Dövlət Universitetinin Elmi hissəsinin müdiri, dosent |
| **Adil Baxşəliyev** | Sumqayıt Dövlət Universitetinin Tarix və Coğrafiya fakültəsinin dekanı, professor |
| **Aynurə Yəhyayeva** | Sumqayıt Dövlət Universitetinin İqtisadiyyat və İdarəetmə fakültəsinin dekanı, dosent |
| **Həsən Sadıqov** | Sumqayıt Dövlət Universitetinin "Fəlsəfə və hüquq" kafedrasının müdiri, professor |
| **Şirxan Səlimov** | Sumqayıt Dövlət Universitetinin "Avropa və Amerika ölkələrinin yeni və ən yeni tarixi" kafedrasının müdiri, professor |
| **Həmid Alıyev** | Sumqayıt Dövlət Universitetinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, tarix üzrə elmlər doktoru, dosent |
| **Bəhram Məmmədli** | Sumqayıt Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasının dosenti |
| **Əmirxan İsayev**<br>***(məsul katib)*** | Sumqayıt Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasının müdiri, dosent |

# PLENAR İCLAS

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ BANİSİDİR

***Hüseynov E.B.***
*Sumqayıt Dövlət Universiteti*

"İdeologiya" sözü qədim yunan dilində ideyalar, təsəvvürlər, anlayışlar sistemi olub ictimai şüurun müxtəlif formalarında (siyasətdə, əxlaqda, elmdə, incəsənətdə, dində) özünü biruzə verir.

Müasir dövrdə isə siyasi ideologiya üstqurum kimi dövlətlərin və siyasi partiyaların strategiya və taktikasına fəal təsir göstərən qüvvəyə çevrilmişdir.

İnsan cəmiyyətinin formasiyalarının tarixi inkişaf prosesi göstərir ki, hər bir xalqın ictimai-iqtisadi quruluşunun müstəqilliyini qoruyan və xalq kütlələrini öz ətrafında birləşdirən mental təfəkkürdə formalaşmış bir məfkurəyə ehtiyacı vardır. Cəmiyyət və dövlət ideologiyasız yaşaya bilməz.

Təməli dahi siyasətçi Heydər Əliyev tərəfindən qoyulan Azərbaycançılıq ideologiyası onun təsis etdiyi Yeni Azərbaycan Partiyasının və müstəqil Azərbaycan dövlətçiliyinin ideologiyasıdır, ümumxalq ideologiyasıdır.

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən bir çox obyektiv amillər vardır.

İlk növbədə onu göstərmək lazımdır ki, Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri vəzifəsində işləyərkən ilk dəfə 16 dekabr 1991-ci ildə Dünya Azərbaycanlılarının Birliyini yaratmaq ideyasını ortaya qoydu və bu məqsədlə də dekabr ayının 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə də, Dünya Azərbaycanlılarının Həmrəylik Günü hər il qeyd olunur və bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi-ideoloji ənənəyə cevrilmişdir.

Siyasi tarixi şəxsiyyət Heydər Əliyevin bütün dünya azərbaycanlılarını milli birliyə çağırışı Azərbaycançılıq ideologiyasının başlanğıcını qoymuşdur, Azərbaycançılıq ideyaları müstəqillik illərində kamil siyasi ideologiya kimi Heydər Əliyev tərəfindən sistemləşdirilmişdir.

Dünya Azərbaycanlılarının birlik və həmrəylik siyasəti həm də xarici ölkələrdə uzun müddət pərakəndə olmuş Azərbaycan diasporunun təşkilatlanmasında və lobbiləşməsində ciddi rol oynayır.

Heydər Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, bütöv Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün ən əsas vasitədir.

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasında ən çox diqqət çəkən amillərdən biri də odur ki, xalqımızın düşüncə tərzində çoxmədəniyyətliliklə (multikulturallıq), çox konfessiyalılıq (müxtəlif dünyagörüşlülük) üzvi vəhdət təşkil edir.

Heydər Əliyevin sistemləşdirdiyi Azərbaycançılıq ideologiyası milli-etnik deyil, siyasi və vətəndaşlıq mövqeyindən qaynaqlanır. Ümummilli lider demişdir: "Dövlət, ölkə nə

qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Bu "azərbaycanlı" sözü bizi həmişə birləşdirib".

Ulu öndər Heydər Əliyev son nəticədə Azərbaycançılıq ideologiyasının fəlsəfəsini izah edərək deyirdi ki, Azərbaycançılıq öz milli mənsubiyyətinin saxlanılması, milli-mənəvi dəyərlərin saxlanılması, eyni zamanda, onların ümumbəşəri dəyərlərin sintezi, inteqrasiyası ilə zənginləşməsi, hər bir insanın inkişafının təmin edilməsi deməkdir.

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının milli-mənəvi dəyərlər sistemində respublikamızda olan azsaylı xalqların dilinə, dininə, adət-ənənələrinə və digər fərqli xüsusiyyətlərinə hörmət və ehtiramla yanaşma xüsusi yer tutur. Bu gün müstəqil respublikamızda tolerant xalq olan azərbaycanlılarla birgə çoxsaylı digər etnosların nümayəndələri mehribançılıq şəraitində yaşayırlar. Statistik məlumatlara görə ölkəmizdə 2054 məscid, 748 pir, 13 kilsə, 7 sinaqoq müxtəlif dinigörüşlü icmaların milli-mənəvi məbədlərinə çevrilmişdir. Hətta bu gün Bakıda erməni kilsəsi də qorunub saxlanılır və fəaliyyət göstərir. Bu isə sözün əsl mənasında xalqımızın tolerant, insanpərvər, bəşəri təfəkkürlü olmasının bariz nümunəsidir.

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasında müstəqil dövlətimizin dil siyasəti müstəsna əhəmiyyət kəsb edir. Respublikamızda rəsmi dövlət dili Azərbaycan dilidir. Eyni zamanda da, mövcud olan çoxsaylı milli-etnik icmaların da ana dillərinin inkişafı üçün geniş üfüqlər açılmışdır. Bu gün Respublikamızda Azərbaycan dili ilə yanaşı rus və gürcü dillərində məktəblər fəaliyyət göstərir. Azsaylı milli icmaların məskun olduqları rayonlarımızda ibtidai siniflərdə ana dili (avar, kürd, ləzgi, talış, saxur, tat, udin, xınalıq və s.) dərslərinin tədrisi təşkil edilmişdir. Dövlət vəsaiti hesabına isə həmin xalqların dillərində əlifbalar, tədris proqramları, dərsliklər, məktəbli lüğətləri çap edilməyə başlanmışdır. Eyni zamanda da Azərbaycan Dövlət radiosunda rus, ləzgi, talış, kürd, gürcü, erməni dillərində dövlət büdcəsindən maliyyələşdirilən radio verilişləri təşkil edilmişdir.

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının fəlsəfəsi müasir dövrün və dövlətçiliyimizin inkişaf istiqamətlərinə müvafiq olaraq Azərbaycan prezidenti İlham Əliyev tərəfindən ardıcıllıqla davam və inkişaf etdirilir.

Müasir dövrdə Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının fəaliyyət miqyası daha çoxəhatəlidir və müstəqil dövlətimizin bütün sferalarının inkişafına öz fəal təsirini göstərir.

Bu gün Azərbaycan Respublikasının digər təhsil ocaqlarında olduğu kimi, Sumqayıt Dövlət Universitetində də ölkəmizin bütün şəhər və rayonlarından olan azsaylı xalqların nümayəndələri - tələbə gəncləri: ləzgilər, talışlar, tatlar, kürdlər, udinlər, ruslar, xınalıqlılar və s. hamısı sağlam və mehriban bir kollektivdə bərabər təhsil alır. Tələbə gənclərə təhsil və tərbiyə verən professor-müəllim kollektivi də çoxmillətlidir. Onların arasında heç bir fərq və ayrıseçkilik yoxdur.

Bu gün Heydər Əliyevin milli və bəşəri dəyərlərdən bəhrələnmiş Azərbaycançılıq ideologiyası elmi-nəzəri, ictimai-siyasi, milli-etnik və dini monolit münasibət kimi ölkəmiz daxilində və eləcə də beynəlxalq dünya birliyində öz bəhrəsini bol-bol verməkdədir: müstəqil Azərbaycan Respublikasında davamlı iqtisadi-ictimai inkişaf uğurla yüksəlir;

ölkəmizdə yaşayan bütün millətlərin, xalqların, azsaylı etnik qrupların hamısı üçün bərabər olan konstitusion hüquqları vardır. Azadlıq, sərbəstlik, əmin-amanlıq hökm sürür. Cəmiyyətimizdə Vətən, Xalq, Prezident anlayışları tam vəhdət kimi formalaşmışdır. Ölkəmizdə məşhur "Heydər – Xalq, Xalq – Heydər" deyimi ilə ifadə olunan mənəvi birlik, doğmalıq, qarşılıqlı hörmət münasibətləri formalaşmış, gənc nəsil, o, cümlədən məktəbli və tələbə gənclər yüksək vətənpərvərlik ruhunda, xalqa, dövlətçiliyə, dövlət başçısına sədaqət və rəğbət ruhunda tərbiyə olunur.

Ümumiyyətlə, bütün Azərbaycan xalqı müdrik Prezidentimiz İlham Əliyevin daxili idarəçilik və xarici diplomatik siyasətini dəstəkləyir və ona yardımçı olur.

Fikrimizi əyaniləşdirmək üçün faktlara müraciət edək. Cari ilin aprel ayında Qarabağda qoşunların təmas xəttində separatçı və millətçi erməni faşistləri atəşkəs rejimini pozduqda ölkə Prezidenti, Ali Baş komandan İlham Əliyev xalqa müraciət etdi. Bütövlükdə xalq isə kişili-qadınlı, qocalı-cavanlı hamısı bir nəfər kimi ayağa qalxdı və Prezidentin geniş miqyaslı əməliyyata başlamaq əmrini gözlədi.

Respublikamızın digər universitetlərində olduğu kimi, bizim universitetdə də dərhal yığıncaq keçirildi. Yığıncaqda professorlar, müəllimlər, tələbələr çıxış edərək universitetdə müəllim və tələbələrdən ibarət hərbi batalyonlar təşkil etməyə və cəbhə bölgəsinə getməyə hazır olduqları barədə fikirlər söylədilər. Budur Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının bəhrəsi.

Digər bir fakt. Sentyabr ayının 26-da Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklərlə bağlı referendumda seçişilərin 70 faizinin iştirak etməsi Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının təntənəsi və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin Azərbaycan xalqı tərəfindən tam qəbul edildiyinin bariz nümunəsidir. Referendumda seçicilərin fəal iştirak etməsi xalqın öz Prezidentinin siyasətinə olan yüksək etimadının birmənalı göstəricisidir.

Qloballaşan müasir dünyada ən yüksək dairələrdə, əhalisi çoxmədəniyyətli və çoxkonfessiyalı ölkələrdə Azərbaycanda mövcud olan Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının tərkib hissələri multikulturallığın və multikonfessiyalığın ideal modelinin öyrənilməsinə ciddi ehtiyac və həvəs artmışdır. Elə bu səbəbdən də respublikamızın paytaxtı Bakı şəhərində yüksək səviyyəli forumlar təşkil olunur və dünyanın bütün qitələrindən beynəlxalq təşkilatların rəhbərləri, dövlət və hökumət başçıları, mədəniyyət, elm, incəsənət və din xadimləri, işgüzar adamlar Bakıya axışaraq, burada yaradılmış çox möhtəşəm Heydər Əliyev adına Multikulturalizm Mərkəzində bir araya gələrək, Azərbaycanın formalaşmış və mətinləşmiş unikal multikultural və multikonfessional modeli ilə tanış olurlar və eyni zamanda da dünya ölkələrində mövcud olan qlobal, regional və lokal problemlərin həlli yollarını müzakirə edirlər və sonda isə birgə əqli nəticəyə gəlirlər.

Yuxarıda deyilənlərə misal olaraq Azərbaycanda keçirilmiş mötəbər beynəlxalq tədbirlərdən biri – bu il sentyabr ayının 29-da Heydər Əliyev Mərkəzində keçirilmiş növbəti – V Bakı Beynəlxalq Humanitar Forumunu göstərmək olar. Bu forum mədəniyyətlərarası, konfessiyalararası, sivilizasiyalararası geniş dialoq üçün əlverişli imkan yaratmışdır. Forumda 80-ə yaxın ölkədən 400-dən çox nümayəndə iştirak etmişdir.

Bu dəfə də möhtəşəm Heydər Əliyev Mərkəzi dünyanın sülh arzulu , dostluq, əməkdaşlıq və tərəfdaşlıq istəkli insanların ixtiyarına verilmişdir.

Forumda yenə də dövlət başçıları, Nobel mükafatı laureatları və müasir dövrün ən nüfuzlu şəxsiyyətləri toplaşmışlar.

Forum iştirakçıları Bakı forumuna öz münasibətlərini bildirmişlər. Məsələn, ABŞ-ın Kaliforniya Texnologiya İnstitutunun əməkdaşı, Nobel mükafatı laureatı Markus Rudolf Artur: "Bakı forumu qlobal problemlərin həllinə yönəlmiş əla platformadır". Argentina Milli Konqresinin Beynəlxalq əlaqələr komitəsinin baş direktoru Xuan de Dios Sinkunegi:"V Bakı Beynəlxalq Humanitar Forumda müzakirə edilən məsələlər dünyamız üçün faydalı olacaqdır"...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş Bakı Humanitar Beynəlxalq Forumuna yüksək qiymət verərək, demişdir: "Beynəlxalq əmək-daşlıq ölkələrarası əlaqələrin inkişafı üçün xüsusi rol oynayır. Son illər ərzində biz bu məqsədlə ölkəmizdə bir çox beynəlxalq tədbirlər keçirmişik. Onların arasında əlbəttə ki, Bakı Humanitar Beynəlxalq Forumu xüsusi yer tutur".

Azərbaycanda ardıcıl olaraq Beynəlxalq forumların yüksək səviyyədə keçirilməsi faktının özü Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının artıq tam təşəkkül tapdığını və dünya ictimaiyyəti tərəfindən cöx müsbət qəbul olunduğunu və dəyərləndirildiyini, əslində bütün dünya ölkələri üçün bir nümunə rolunu oynaya biləcəyini əyani şəkildə göstərən amillərdən biridir.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN MEMARIDIR

**_Baxşəliyev A.B._**

*Sumqayıt Dövlət Universiteti*

> *«İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İ.Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyə böyük ümidlər bəsləyirəm».*
>
> *H.Əliyev*

1993-cü ilin 15 iyun – Qurtuluş günü Azərbaycanın salnaməsinə əbədi daxil olmuşdur. Həmin gün dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi H.Əliyevin bütün xalqın arzu və təkidi ilə böyük siyasətə qayıdışı günüdür. Bu qayıdış Azərbaycanın bir xalq və dövlət kimi dünya dövlətləri və xalqları sırasından silinmək təhlükəsinin az qala reallaşdığı bir dövrdə xalqın və onun qabaqcıl uzaqgörən ziyalılarının etdiyi ən düzgün seçiminin nəticəsi oldu.

Bu tarixi şəxsiyyətin həm hakimiyyətinin birinci dönəmində, həm də 15 iyun 1993-cü ildən başlanan ikinci dövründə Azərbaycan xalqı üçün etdiklərini sistemli şəkildə vermək üçün onun bir tarixi sərkərdə kimi həyatını, fəaliyyətini aşağıdakı 6 böyük və mənalı dövrə bölmək olar.

1. 1923-1939-cu illər: uşaqlıq, gənclik və orta təhsil dövrü.
2. Dövlət təhlükəsizlik orqanları və ali təhsil illəri (1939-1969).
3. 1969-1982-ci illər: Sovet Azərbaycanının çiçəklənməsi dövrü.
4. SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini dövrü (1982 - 1987).

5. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik dövrü (1990-1993). 1990-cı ilin iyul ayında Naxçıvana gəldi və payızda keçirilən parlament seçkilərində parlamentə deputat seçildi.

1990-cı il 17 noyabr Naxçıvan Muxtar Respublikasının Parlamentində keçirilən ilk sessiyaya sədrliyi H.Əliyev etdi. Üçrəngli Bayraq salona gətirildi və Azərbaycan SSR-ın Ali Sovetinə dövlətin milli bayrağı kimi qəbul olunması tövsiyə edildi.

Naxçıvan MSSR adından «Sovet Sosialist» sözləri çıxarıldı.

6. Azərbaycan Respublikasına Prezdentliyi dövrü (1993-2003), xalqın tələbi ilə 1993-cü il 9 iyun saat $15^{00}$-da H.Əliyev Bakıya gəldi. 11 iyunda Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında Azərbaycanın elm xadimləri ilə görüşdü. 13 iyunda Milli Məclisin iclası keçirildi. Milli Məclisin sədri İsa Qənbərin istefası qəbul olundu. 1993-cü il 15 iyunda Azərbaycan Respublikasının Milli Məclisində H.Əliyev Respublika Ali Sovetinin sədri seçildi.

Xalqımızın milli varlığını dünyaya tanıtdırmaq, müstəqil dövləti yaradıb dünya dövlətləri səviyyəsinə çatdırmaq kimi şərəfli vəzifəni həyata keçirən şəxsiyyətin – Heydər Əliyevin siyasi hakimiyyətinin birinci mərhələsinin dövlətçilik xidmətlərinin qısa xülasəsinə nəzər yetirək;

- 1969-cu ilin iyul plenumu, Azərbaycan KP MK-nın I katibi;
- İdarəetmədə bacarıqlı, səriştəli, işgüzar, mənəvi-əxlaqi yetkinlik və yüksək səviyyədə təşkilatçılığı ilə seçilən şəxsiyyət;
- 5 avqust plenumu – Respublikada bütün sahələrdə yeni dövrün başlandığı tarixi plenumu;
- 1969-1982-ci illərdə maddi istehsalın artımı və əhalinin sosial müdafiəsi;
- Sovetlər dönəmində Azərbaycan dövlətçiliyinin ən vacib şərti kimi istehsalın bütün sahələrinin inkişafını təmin etməsi;
- Azərbaycanda 1969- cu ildə 233 iri sənaye müəssisəsi var idisə, 1982- ci ildə 350-yə yaxın iri və orta sənaye müəssisəsi fəaliyyət göstərirdi;

1969-70- ci illərdə Azərbaycanda ümumi məhsul istehsalı 1965-ci ilə nisbətən 34%, milli gəlir 33%, sənaye istehsalı 37%, kənd təsərrüfatı 27%, əsaslı vəsait qoyuluşu 43%, əsas istehsal fondları 34% artmışdı.

- Ümumtəhsil məktəblərinin sayı 3 dəfə artaraq 765-dən 2117-yə çatmışdır.
- 1969-1982-ci illərdə 350 min şagird yeri olan 849 məktəb tikilmişdir.
- 5 yeni ali məktəb açılmışdır. Ali təhsil müəssisəsində tələbələrin sayı artaraq 70 mindən 100 minə çatmışdır.
- Məktəbəqədər tərbiyə müəssisələrin sayı 1600-dən 1875-ə çatdı.
- 1969-82-ci illərdə 8718 təhsil işçisi SSRİ-nin orden və medallarına, 3 nəfər Sosialist Əməyi qəhrəmanı adına, 817 müəllim "Azərbaycan SSRİ-nin əməkdar müəllimi" kimi yüksək fəxri adlara layiq görülmüşdür.
- SSRİ-nin ali hərbi məktəblərinə hər il xeyli sayda gənclər göndərilirdi.
- 1973-cü ildə uzaqgörənliklə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbi çox çətinliklə olsa da açmağa nail oldu. Milli hərbi kadrların hazırlanmasına başlandı. Vaxtılə

bu hərbi məktəbi bitirən kadrlarımız bugünkü ordu quruculuğunda güclü kadr potensialıdırlar.

- 1969-82-ci illərdə SSRİ-nin 50 şəhərinin 170 ali məktəbinə 250 ixtisas üzrə 15 min gənc göndərilmişdir ki, indi «Heydər Əliyevin kadrları» adlanan bu insanlar müxtəlif sahələrdə çalışırlar.

Heydər Əliyevin bu sahələrdə gördüyü işlərin nəticəsi idi ki, Azərbaycan SSR keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından biri oldu.

Heydər Əliyevin hakimiyyətinin ikinci mərhələsi Sovetlər İttifaqından ayrılmış, AXC – Müsavat hakimiyyəti dövründə bütün dövlətçilik strukturları iflasa uğramış Azərbaycanda yeni, müstəqil bir dövlətin dövlətçilik sistemini həm də demokratik prinsiplər əsasında qurmağa xidmət etdi

Hələ 1993-cü ilin oktyabrında prezident seçilən Heydər Əliyev 10 oktyabr 1993-cü ildə andiçmə mərasimində demişdir: «Azərbaycanın daxilində demokratik prinsipləri bərqərar edərək Respublikanın xarici siyasətində Azərbaycanın müstəqilliyini daim qoruyacağıq»

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Azərbaycan dövlətçiliyi üçün xidmətlərinin qısa xülasəsinə nəzər yetirək.

Dövlətçiliyə təhlükə olaraq qalmış hərbi müxalifət:

-1994 – cü ilin oktyabr hadisələri, dövlətçiliyimiz üçün təhlükə yaradan 1-ci cəhdin qarşısının alınması;

- 1995–ci ilin martı, dövlətçiliyimiz üçün təhlükəyə səbəb olan 2-ci cəhd. Hərbi müxalifətin tam sındırılması. Daxildə dövlətçilik üçün heç bir təhlükənin qalmaması;

1994-cü ilin yanvarından Azərbaycan ordusunun əks hücumları. Beyləqan istiqamətində hücumlar və qələbələr;

- 1994-cü il 4 may Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulması;

1994-cü il 8 may «Bişkek» protokolu, yəni atəşkəsin imzalanması. Dövlətçilik üçün xarici təhlükənin başa çatması;

- 1994-cü il 12 may Qarabağ münaqişəsi ilə bağlı atəşkəsin qüvvəyə minməsi;

- 1994-cü il 24 iyul «Əhalinin sosial müdafiəsi haqqında» Qanunun qəbul edilməsi;

- 1994-cü il 20 sentyabr «Əsrin Müqaviləsi»nin imzalanması;

- 1994-cü il 21 noyabr «Əhalinin Sosial Müdafiəsi Fondu»nun təsis olunması;

-1995 -ci il 29 sentyabr «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi» Dövlət Proqramının qəbul edilməsi;

- 1995-ci il 12 noyabr Konstitusiyasının hazırlanması və qəbulu;

- 1996-cı il 16 iyul «Torpaq islahatı haqqında» Qanunun qəbul edilməsi;

- 1996-cı il 2-3 dekabr ATƏT-in Lissabon zirvə toplantısı;

- 1997-ci il 20 aprel «Kitabi Dədə Qorqud» dastanının 1300 illiyinin geniş qeyd edilməsi haqqında Prezidentin Fərmanı;

- 1997-ci il 21 oktyabr «Konstitusiya Məhkəməsi haqqında» Qanunun qəbul edilməsi;

- 1997-ci il 18 dekabr «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Prezidentin Fərmanı;

- 1998-ci il 30 yanvar "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illiyinin keçirilməsi haqqında" Sərəncam;

- 1998-ci il 13 aprel «Azərbaycan Respublikası dövlət atributlarının təbliği işini gücləndirmək haqqında» Prezidentin Fərmanı;

- 1998-ci il 18 iyun «İnsan hüquqlarının müdafiəsinə dair» Dövlət Proqramının təsdiq edilməsi;

- 1998-ci il 18 iyun Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması;

- 1998-ci il 7 sentyabr Bakıda tarixi İpək Yolunun bərpası üzrə Beynəlxalq konfrans keçirilmiş, «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş» və «Bakı Bəyannaməsi» imzalanmışdır

- 1999-cu il 18 noyabr ATƏT-in İstanbul sammitində Prezident H.Əliyevin «Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı» təsis edilməsi təşəbbüsü ilə çıxış etməsi;

- 1999-cu il 12 dekabr Azərbaycan Respublikasında ilk bələdiyyə seçkilərinin keçirilməsi;

- 2001-ci ilin yanvarında Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması;

- 2001-ci il 18 iyun «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» Prezidentin Fərmanı;

- 2001-ci il 9-10 noyabr Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi;

- 2001-ci il dekabr «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu;

- 2002-ci il 5 iyul Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması;

- 2002-ci il 30 sentyabr «Azərbaycan Respublikasında Dövlət dili haqqında» Qanunun qəbul edilməsi;

Milli-mənəvi dəyərlərimizin hamisi olmuş Heydər Əliyevin hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi elm və təhsil sahəsində də tənəzzülün qarşısını aldı. Milli ideologiyaya xidmət edən təhsilimizin inkişafı üçün əlverişli şərait yaradıldı. Heydər Əliyev milli dövlət quruculuğu prosesində «Elmə, təhsilə göstərilən yüksək qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir» meyarı ilə çıxış edirdi. Ümummilli lider Heydər Əliyev prioritet sahə olan təhsilə, elmə diqqət və qayğını getdikcə artırırdı. Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də təhsil sisteminin əsaslı surətdə təkmilləşdirilməsinə, beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaradan «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Fərman imzalamışdı.

Bütün həyatını Azərbaycan dövlətinin qorunmasına və möhkəmləndirilməsinə həsr edən ümummilli liderin varisi İlham Əliyev bu gün Azərbaycan tarixinin ən yeni, möhtəşəm və məsuliyyətli dövrünü yaşadır. Bu günkü Azərbaycan reallığı İlham Əliyevin parlaq şəxsiyyəti və yorulmaz fəaliyyəti ilə bağlıdır. Bu gün xalqımız əmindir ki, möhtərəm

prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımızın, Respublikamızın bütün problemləri tezliklə həll ediləcək, Azərbaycan dünyanın ən qüdrətli dövlətlərindən birinə çevriləcəkdir.

İlham Əliyev fenomeni hər şeydən əvvəl Heydər Əliyev siyasətinin yeni tarixi şəraitdə davam etdirilməsi zərurətindən irəli gəlmiş ictimai hadisə sayılmalıdır. Digər bir tərəfdən, fenomen yeni tarixin müasir çağırışlarına Azərbaycan gerçəkliyinin adekvat reaksiyası hesab oluna bilər. Beləliklə, İlham Əliyev fenomeni mahiyyət etibarı ilə həm Azərbaycanın dövlətçilik ənənələrinin tələblərini, həm də yeni şərait çağırışlarını təmin etmək üçün parametrlərinə malik olması ilə seçilir.

İlham Əliyevin prezidentlik dövründə fəaliyyətinin təhlili bir fenomen olaraq onun başlıca xüsusiyyətlərini müəyyənləşdirməyi mümkün etmişdir. Bu xüsusiyyətlər arasında ən önəmlilərindən biri reallığa söykənən siyasətçi imicinin mövcudluğudur. İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən istənilən proqram və ya islahat öz proqmatizmi ilə seçilir.

İlham Əliyev fenomeninin digər mühüm cəhəti siyasətinin saflığı və səmimiliyidir. Dövlət başçısının qısa zamanda xalq arasında böyük nüfuz və hörmət qazanmasında onun həm özünə, həm də siyasətinə xas olan açıq səmimiyyətinin müstəsna rol oynadığı inkar edilməz faktdır. Mayası Heydər Əliyevin idarəçilik ənənələrindən qaynaqlanan sözügedən keyfiyyət İlham Əliyevin nümunəsində özünü qabarıq şəkildə ifadə edərək «səmimi siyasət» və «səmimi siyasətçi» anlayışlarını əhəmiyyətli dərəcədə yeni məzmunla zənginləşdirə bilmişdir.

Haqqında bəhs etdiyimiz İlham Əliyev fenomeni yüksək qayğıkeşlik, humanizm və xeyirxahlıq kimi əxlaqi-mənəvi keyfiyyətlərlə diqqəti xüsusilə cəlb edir. Hər bir insana qarşı həssaslıq, insanların problemlərini incəliklə duya bilmək qabiliyyəti, xalqın güzəranının yaxşılaşdırılmasını ali məqsəd kimi dəyərləndirmək Prezidentin humanizminin başlıca tərkib hissəsidir.

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI DÜNYA BİRLİYİNDƏ

***Qasımov Ş.M.***

*Azərbaycan Texniki Universiteti*

1991-ci il oktyabrın 18-də Azərbaycan Pespublikasının öz dövlət müstəqilli-yini bərpa etməsi və 80-cı illərin sonu 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılmasını vacib məsələ kimi ön plana çəkdi. Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması onun dünya birliyinə sistemli şəkildə inteqrasiyasına geniş yol açdı. Azərbaycan 1992-ci il martın 2-də BMT-yə üzv qəbul edildi. BMT-nın ardınca ATƏT və 1991-ci ilin dekabrından İKT-nın üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl xarici siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa təşkilatlarla da sıx əlaqə yaratmışdır.

Ulu öndər Heydər Əliyevin apardığı uğurlu xarici siyasət, xarici ölkəyə etdiyi çoxsaylı səfərlər Azərbaycanı müstəqil dövlət kimi bütün dünyada tanıtdı. Azər-baycan beynəlxalq aləmdə layiqli yerini tutdu. Müstəqillik illərində uğurla aparılan xarici siyasətin ayrı-ayrı

göstəriciləri və respublikanın xarici aləmə inteqrasiyası sahəsində görülən işlər ölkədə aparılan siyasətin göstəricisi idi. Belə ki, 2000-ci ilədək ölkəmiz 110-dan artıq beynəlxalq hüquqi sənədə qoşulmuşdu. İftixar hissi ilə qeyd edə bilərik ki, bu gün Azərbaycan dünyanın 100-dən çox dövləti tərəfindən tanınır, 70-ə qədər ölkə ilə diplomatik əlaqə yaratmışdır. Tarixi «İpək yolu»nun Heydər Əliyevin rəhbərliyi dövründə bərpası beynəlxalq aləmdə ölkəmizə müsbət mənada divident gətirmişdi.

XX əsrin sonunda dünyada baş verən qlobal proseslər, xüsusilə də, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti Qarabağda erməni sepera-tizmi və Ermənistanın hərbi təcavüzü şəraitində həyata keçirilirdi. Bu baxımdan təcavüzün və millətçi seperatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə iqtisadi və siyasi inteqrasiyaya girmək zərurəti fəal xarici siyasət həyata keçirilməsini tələb edirdi. Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq işində 1996-cı il dekabrın 2-3-ündə ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən sənəd böyük siyasi uğur sayıla bilər. Bu bəyanat Ermə-nistan istisna olmaqla dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında öz əksini tapdı.

1998-ci il noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, olan üçüncü təklif irəli sürdülər. Təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Təklifi Heydər Əliyev qətiyyətlə rədd etməklə yanaşı, 1999-cu il fevralın 8-də Minsk qrupunun həmsədrləri olan dövlətlərin başçılarına (ABŞ, Rusiya, Fransa) müraciət edərək Minsk qrupunun fəaliyyətini və axırıncı təkliflərini ciddi tənqid etdi.

2001-ci il yanvarın 25-də Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması ilə olkəmiz öz səsini bünya ictimaiyyətinə çatdırmaq üçün yeni və mötəbər bir tribuna qazandı. 2001-ci aprelin 24-27-sində Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti ilk dəfə olaraq bu qurumin iclasında iştirak edərək Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən sənədlər yaydılar. Yayılan sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin qətlə yetirilməsi, Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi, Ermənistanda, eyni zamanda işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlının girov saxlanması faktları və b. məsələr də öz əksini tapmışdır. 2002-ci il sentyabrında keçirilən sessiyasında isə ilk dəfə olaraq beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapmışdı.

Azərbaycan nümayəndə heyətinin səyi ilə AŞPA-da formalaşan müsbət rəyin nəticəsində 2005-ci ildə qəbul edilən sənəd ölkəmiz üçün mühüm əhəmiyyətə malik olmuşdu. Bu sənəddə Azərbaycan ərazilərinin böyük bir hissəsinin hələ də Erməni qoşunlarının işğalı altında olduğu göstərilirdi.

Göründüyü kimi, dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçir-mək üçün konkret addımlar atmaması danışıqlar prosesində irəliləyişin əldə olunma-sına əngəl törədir.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imza-lanmış çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirdi. 1998-ci il il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəılxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onu nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərdəndir.

Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində "Böyük İpək yolu" nun bərpası üzrə həyata keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaratmışdır.

Azərbaycan rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Şərq və Qərbi, Orta Asiya-Qafqaz və Avropanı birləşdirən neft-qaz, nəqliyyat-kommuni-kasiya transmilli layihələrinin mərkəzinə çevrilmişdir.

Hazırda Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxa-rılması üçün Bakı-Novorossiyk, Bakı-Supsa neft kəmərləri ilə yanaşı, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri işə salınmışdır. Azərbaycan bölgənin və dünyanın əsas enerji mərkəzlərindən birinə çevrilmiş və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutmuşdur.

## BAKI-TBİLİSİ-CEYHAN NEFT KƏMƏRİNİN ÇƏKİLİŞİNDƏ AZƏRBAYCANIN TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİ

***Əliyev V.H.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Böyük öndər Heydər Əliyev Azərbaycanın maddi və mənəvi mədəniyyətinin öyrənilməsinə, tarixi abidələrin yenidən qeydə alınmasına diqqətlə mühafizə olunmasına, hərtərəfli elmi tədqiqinə və geniş miqyasda təbliğinə xüsusi qayğı göstərmişdir. Maddi və mənəvi mədəniyyət abidələrinin hərtərəfli elmi tədqiqi nəticəsində əldə edilən zəngin faktik arxeoloji materiallar əsasında Azərbaycan tarixini obyektiv təfəkkürlə, azərbaycançılıq və türkçülük konsepsiyasında yenidən yazılmasının nəzəri prospekt planını yaratmışdır.

H.Əliyevin yaratdığı "Əsrin müqaviləsi" neft strategiyası Azərbaycanın beynəlxalq iqtisadiyyatda özünəməxsus yüksək mövqeyini eləcə də Bakı - Tbilisi Ceyhan neft kəmərinin keçdiyi Sanqaçal və Kür çayı vadisi ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin də ümumbəşəri əhəmiyyətini müəyyən etdi.

Bakı - Tbilisi - Ceyhan neft kəməri və Cənubi Qafqaz Boru (qaz) Kəməri dəhlizində aparılan arxeoloji tədqiqatlar (2004 - cü il) nəticəsində Gəncə - Qazax bölgəsində eneolit dövrü (e.ə.VI - V minilliklər) Leylatəpə mədəniyyətinə aid yeni yaşayış məskənləri (I və II Böyük Kəsik, 1 və II Poylu, Ağıllı dərə) və Soyuqbıulaq tunc dövrü kurqanları aşkar edildi.

Böyük Kəsik qədim yaşayış məskəni 2004 - cü ilin avqust ayında BTC kəməri sahəsində üst qatının texnika vasitəsi ilə götürülməsi mərhələsində aşkar edilmişdir.

Böyük Kəsikdə arxeoloji qazıntı işləri 2004-cü ilin sentyabrın 15-dən oktyabrın 15-dək hər biri 15 gün olmaq şərti ilə (F.Quliyev və V.Kvaçidze aparılmışdır. Abidədə sonrakı müddətlərdə - 2004 - cü ilin oktyabr, noyabr, dekabr aylarında, 2005- ci ilin yanvar, sentyabr, oktyabr və noyabr aylarında qazıntı işləri (M.Hüseynov və N.Müseybli) aparılmışdır.

2004-cü ildə Böyük Kəsikdə BTC kəmərinin 4 m enindəki xəndəyinin abidənin sahəsini cənub - şərq, şimal - qərb istiqamətində kəsib keçəcəyini nəzərə alaraq, ekspedisiya arxeoloji qazıntı işlərini məhz həmin hissədə aparmışdır. Qazıntı sahəsi yuxarıda qeyd edilən istiqamətdə yaşavış yerinin mərkəzinə yaxın hissəsini kəsib keçən zolaqda 4x4 m ölçüsündəki 17 kavdratdan ibarət olmuşdur. Aşkar edilmiş tikintili qalıqlarının bəzilərinin müəyyən hissəsi qazıntı sahəsindən kənarda qaldığından müvafiq kvadratların sahəsi genişləndirilmişdir. Ümumilikdə 2004-cü ildə abidədə 340 $m^2$-dən artıq sahə qazılaraq tədqiq edilmişdir.

CQBK Böyük Kəsik yaşayış məskəninin şimal - şərq sərhəddindən keçir. Həmin sahədə qazıntılar aparılmışdır. 2005-ci ildə BTC Şirkəti tərəfindən ABŞ- dan dəvət edilmiş arxeoloq Kristofer Polqleysin həmin şirkətin rəhbərliyi qarşısında inandırıcı təkidləri əsasında kəmərlərin dəhlizindən kənarda, abidənin mərkəzi hissəsində arxeoloji qazıntılar aparılması barədə təklifləri BTC Şirkəti rəhbərliyi tərəfindən qəbul edildi və ekspedisiyanın fəaliyyəti üçün hərtərəfli şərait yaradıldı.

CQBK mərhələsində BTC və Bakı - Supsa neft kəmərləri arasındakı ərazidə, abidənin mərkəzi hissəsində 100 x 20 m sahədə qazıntı yeri seçildi. Burada 300 $m^2$ ölçüsündə II qazıntı sahəsində tədqiqat aparıldı. Ümumiyyətlə. Böyük Kəsik Leylatəpə mədəniyyətinə aid geniş qazıntılar aparılmış yaşayış məskənidir.

Böyük Kəsikdə qazıntılar zamanı, 2004-cü ilin noyabr ayında bu abidədən 350 m şərqdə, onunla eyni xarakterli daha bir qədim yaşayış məskəni aşkar edilmişdir.

Artıq qeyd edildiyi kimi, BTC və CQBK dəhlizində Böyıik Kəsikdən əlavə, Leylatəpə mədəniyyətinə aid I və II Poylu və Ağıllı dərə yaşayış məskənləri aşkar edilərək arxeoloji qazıntılar aparılmışdır. Bunlardan nisbətən geniş tədqic: olunan II Poyludur. Hər üç abidənin arxeoloji materialları Böyük Kəsiyin arxeoloji materialları ilə eyniyyət təşkil edir. Böyük Kəsikdə olduğu kimi II Poylu yaşayış məskənində də xüsusi gil qablarda körpə uşaqların dəfn edildiyi qəbirlər aşkar edilmişdir.

Bundan əlavə, kəmərlərin marşrutunda Leylatəpə mədəniyyətinə aid Soyuqbulaq kurqanları tədqiq edilnmişdir. Soyuqbulaq kurqanlarının arxeoloji materialları Böyük Kəsik materialları ilə analogiya təşkil edir.

Bu arxeoloji tədqiqatlar nəticəsində əldə edilən materiallar Azərbaycan tarixinin ibtidai icma quruluşu dövrünə aid bir sıra problem məsələlərin öyrənilməsi üçün çox dəyərli elmi qaynaqlardır.

Tunc və ilk dəmir dövrü abidələrinin tədqiqi e.ə. IV - I minilliklərdə Kür çayı vadisində, xüsusilə Gəncə, Goranboy, Tovuz, Ağstafa və Qazax regionları ərazisində türk mənşəli əkinçi - maldar tayfalarının yaşadığını söyləməyə əsas verir.

# I BÖLMƏ
# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ VƏ XARİCİ SİYASƏTİ

## AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ TÜRKİYƏNİN YERİ VƏ ROLU (1993-2003-cü illər)

***Abdullayev N.M.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət Türkiyə olmuş və 1992-ci il yanvar ayının 14-də Azərbaycan – Türkiyə diplomatik əlaqələri yaradılmışdır. Elə həmin vaxtdan da iqtidarın həddindən artıq Türkiyə və qərbyönümlü siyasəti Türkiyənin bölgədəki təsirini artırsa da, Rusiya və İranla əlaqələrin gərginləşməsinə və Qarabağ məsələsində bu dövlətlərin Ermənistan yönümlü siyasət aparmalarına səbəb olmuşdur. Azərbaycanın xarici siyasətində bu istiqamət Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıtmasına qədər davam etmişdir. Bu dövrdən etibarən Heydər Əliyevin hadisələri zamanın tələblərinə uyğun nizamlayan uzaqgörən siyasəti, əsasən, keçmiş iqtidarın daxili və xarici siyasətdə buraxmış olduğu səhflərin düzəldilməsinə yönəlmişdir. Beləliklə də, istər daxili, istərsə də xarici siyasətdə daha çox real iqtisadi və siyasi münasibətlərə əsaslanan bünövrənin qurulmasına başlanılmışdır. Bu istiqamətdə ən uğurlu nəticələrdən biri Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri zamanı əldə edilmişdir. Belə ki, fevralın 9-da Ankarada aparılan danışıqlar zamanı hər iki ölkə arasında bir sıra mühüm sənədlər, o cümlədən əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol imzalanmışdır. Nəhayət, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə Türkiyənin də təmsil olunması bu ölkənin Azərbaycanın strateji partnyoruna çevrilməsinə zəmin yaratdı və bu münasibətlər 1995-ci il dekabrın 7-9-da prezident Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış sənədlərlə daha da inkişaf etdirildi.

Türkiyə və Azərbaycan arasında bu yönümlü münasibətlər baxımından 5 may 1997-ci ildə imzalanmış "Strateji Əməkdaşlıq Bəyənnaməsi" daha böyük maraq doğurur. Çünki bu bəyənnamədə tərəflər konkret olaraq üzərlərinə bir sıra öhdəliklər götürürdülər. Belə ki, ərazi bütövlüyü və sərhəd məsələləri təhlükədə olduğu zaman hər iki ölkə BMT tərəfindən qəbul olunmuş qaydalara əsaslanaraq strateji ortaqlıq prinsipləri çərçivəsində bir-birlərinə kömək edəcəkləri barədə təminat verirdilər. Bu dövrdə Azərbaycanın xarici siyasətində ən mühüm istiqamətlərdən biri də Avropa ilə Şərq ölkələri arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılmasını təmin edəcək layihələrin imzalanmasını reallaşdırmaqdan ibarət idi. Bu baxımdan "Böyük İpək yolu"nun bərpasına dair 1998-ci il sentyabrın 8-9-da Bakıda keçirilmiş beynəlxalq konfrans mühüm iqtisadi və siyasi əhəmiyyət kəsb etmişdir. Bu layihənin həyata keçirilməsi öz xarici siyasətlərində həm Azərbaycanın, həm də Türkiyənin bir-birinə nə qədər önəm verdiklərini bir daha sübut etmiş oldu. Bu baxımdan 1999-cu il

noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında "Xam neftin Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" sazişin imzalanması, digər tərəfdən toplantıda Heydər Əliyevin Türkiyənin iştirakı ilə "Qafqaz paktı" yaradılması ideyası ilə çıxış etməsi, nəhayət, 2002-ci il aprelin 29-30-da Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin Trabzonda keçirilən Zirvə görüşündə bu ideyanın yenidən gündəmə gətirilməsi və bunun nəticəsi olaraq imzalanmış bir sıra mühüm sənədlər həm Türkiyənin, həm də Azərbaycanın strateji və geosiyasi mövqeyinin daha da möhkəmlənməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Beləliklə, bütün bunların nəticəsi olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın müstəqilliyinin ilk illərindən başlayaraq günümüzə qədər davam edən Qarabağ müharibəsində Türkiyə rəhbərliyi həmişə Azərbaycanın tərəfində olmuş və beynəlxalq arenada Azərbaycanı dəstəkləmiş, Ermənistana tətbiq edilən embarqoya qatılmış, Ermənistan ilə olan diplomatik əlaqələrini kəsmişdir.

## AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA DÖVLƏT QAYĞISI

*Alıyev H.A.*
*Sumqayıt Dövlət Universiteti*

Bu gün Azərbaycanda turizm, o cümlədən beynəlxalq turizm sahəsi diqqət mərkəzindədir. Turizm insan kütləsini özündə birləşdirən bir sahə olduğu üçün burada insanların mədəni ünsiyyətinin və onların maarifləndirilməsinin də böyük ictimai-siyasi və kulturoloji əhəmiyyəti vardır. Turizm təkcə insanların səyahətlərinin təşkilinə, onların mənəvi həzzinə xidmət etmir, eyni zamanda turizm insanları müxtəlif bilgilərlə maarifləndirmək, onların dünyagörüşlərini inkişaf etdirmək funksiyalarını yerinə yetirir. Bu gün turizmin təşkili prosesini kulturoloji proseslərdən ayrı təsəvvür etmək düzgün deyildir. Turizmin təşkili forması istirahət və əyləncənin əsas iştirakçıları olur. Azərbaycanın turizm profilli ölkəyə çevrilməsi və dünya arenasında öz sözünü deməsi üçün böyük potensialı vardır. Zəngin təbii sərvətləri, qədim tarixi və memarlıq abidələri özünəməxsus mentaliteti əlverişli ictimai coğrafi mövqeyi, Xəzərin sahil zonaları turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edir .

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev son 12 ildə ölkədə turizmin inkişaf etdirilməsini prioritet sahə hesab edərək bu istiqamətdə çox mühüm sənədlər imzalamışdır. Bu sənədlərdən mühüm əhəmiyyət kəsb edən «Azərbaycan Respublikasında turizmin inkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı» uğurla icra edilir, turizm sahəsində yeni-yeni infrastrukturlar yaradılır. Dövlətimizin bu sahəyə qayğısının nəticəsidir ki, 2011-ci il Azərbaycanda «Turizm ili» elan edildi. İl çərçivəsində yeni layihələr reallaşdırıldı. Bu gün artıq Azərbaycan beynəlxalq aləmdə turizm ölkəsi kimi tanınır. Təsadüfi deyildir ki, Azərbaycanda hər il beynəlxalq turizm sərgisi təşkil edilir, bu sərgidə turizm sahəsində təcrübəsi olan ölkələr iştirak edir. Təkcə ötən ildə 80-dən çox mehmanxana və mehmanxana tipli obyektə xüsusi razılıq (lisenziya) verilib. Hazırda belə obyektlərin sayı 300-dən artıqdır ki, onların da yarıdan çoxu bölgələrdə fəaliyyət göstərir.

Bu gün Azərbaycan turizm ölkələri arasında turizm növlərinin müxtəlifliyi ilə seçilir. Buna biznes turizmini, istirahət turizmini, sağlamlıq turizmini və s. misal göstərmək olar. Eyni zamanda Azərbaycanda saysız-hesabsız tarixi abidələr, turizm marşrutları, xaricilərə tanıtmaq üçün zəngin milli mətbəximiz, turistlərin rahat dincəlmələri üçün beynəlxalq standartlara cavab verən turizm-istirahət mərkəzləri vardır. Bu sahənin inkişafı ilə bağlı kreditlər və subsidiyalar ayrılır. Məhz turizmin inkişafının nəticəsidir ki, ildən-ilə ölkəmizə turizm axını güclənməkdədir. Bakı şəhərində və bölgələrdə turistlərə çox yüksək səviyyədə xidmət göstərən obyektlər tikilmiş və tikilməkdədir. Bakının ən məhşur brend şəbəkəli mehmanxanalarından «Four Seasons Hotel Baku», «Hyatt Regency», «JW Marriot Absheron Baku Hotel», «Jumeirah Bilgah Beach Hotel», «Qrand Hotel Europe», «Hilton Baku», «Kempinski Hotel Badamdar» və digərlərini misal göstərmək olar. Regionlarda da bu tipli mehmanxana və otellərin sayı artmaqdadır. Naftalanda «Qarabag SPA aud Resort» Hotel Kompleksi, Qəbələdə «Tufan» dağ-xizək yay-qış istirahət kompleksinin birinci mərhələsi, «Qafqaz Yengicə Termal Hotel və SPA» Hotel kompleksi, Şamaxıda «Samaxi Palace Platinum By Rixos» Hoteli istifadəyə verilib. Ötən il Bakı Olimpiya Stadionu, Su İdman Sarayı, Atçılıq Mərkəzi, Avropa Oyunlarının və növbəti böyük yarışların yüksək səviyyədə keçirilməsi üçün nəhəng tikililərdən başqa «Qafqaz Bakı Sport Hotel» mehmanxana kompleksi, «Bulvar-Hotel», «Dalğa Beach-Aqua Park» ailəvi istirahət mərkəzi, Qusarda «Park Chalet Shahdağ» Hoteli, Şabranda «Qalaaltı Otel SPA» müalicə-istirahət kompleksi və digər obyektlər işə salınıb.

Məhz görülən bu tədbirlərin nəticəsidir ki, 2005-ci ilğlə müqayisədə 2015-ci ildə turizm obyektlərinin sayı 2,2 dəfə artmış, ölkəyə gələn turistlərin sayı isə 2 milyon 160 minə çatmışdır.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN-FRANSA MÜNASİBƏTLƏRİ

***Axundov A.Y., Abdullayeva S.F., Əliyeva F.B.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*

Azərbaycan ikinci müstəqilliyi əldə etdikdən sonra xarici siyasətdə yüksək dönüş yarandı. Ümummilli Lider Heydər Əliyevin xaricdə respublikamızın imicini qaldırmaq və onun haqqında yaradılmış qeyri-obyektiv fikirlərin, xoşagəlməz miflərin dağıdılması, dövlətlər arasında normal münasibətlər yaradılması, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq məqsədi ilə xarici səfərləri qısa müddətdə öz müsbət nəticələrini göstərməyə başladı.

Azərbaycanın dünyada tanınması, dünya ölkələri ilə münasibətlər, əməkdaşlıq yaradılması üçün respublika prezidentinin xarici ölkələrə tarixi səfərləri başladı.

Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra 1992-ci il yanvar ayının 3-də Fransa onu tanıyan ilk ölkələrdən biri idi. Müstəqil dövlətin başçısı kimi prezidentin ilk rəsmi səfəri Fransaya (19-21 dekabr 1993-cü il) oldu. İki dövlət başçısı Yelisey sarayında görüşdü. Protokol normasından üç dəfə çox davam edən bu görüşdə nəinki Fransa - Azərbaycan münasibətlərinin əsas istiqamətləri, eyni zamanda Qafqaz regionunda vəziyyət,

Ermənistan -Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və həlli yolları ətrafında söhbət aparıldı. Fransa və Azərbaycan arasında dostluq və qarşılıqlı anlaşma, əməkdaşlıq haqqında müqavilə imzalandı. Bu müqavilə ilə iqtisadiyyat, siyasət, elm, texnika, təhsil sahəsində əməkdaşlığın və tərəfdaşlığın istiqamətləri, prinsipləri müəyyən edildi.

Bu xarici səfərlərin Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq da, Azərbaycanla xarici dövlətlər arasında qarşılıqlı mehriban münasibətlər, iqtisadi əlaqələr yaratmaq, dünyaya inteqrasiya olunmaqda, respublikamızın bir çox problemlərinin, xüsusilə, Dağlıq Qarabağ məsələsinin, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yollarının axtarılmasında mühüm rolu olmuşdur. Bu səfərlərin nəticəsində iqtisadi əməkdaşlıq yaradılması üçün geniş üfüqlər açılmış, bu isə respublikamızda investisiya imkanlarının artmasında faydalı tədbirlər həyata keçirilməsinə təsir etmişdir.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA ƏMƏK EHTİYATLARI VƏ ƏMƏK BAZARININ STRUKTURU

***Adıgözəlova G.R.***
*Sumqayıt Dövlət Universiteti*

Cəmiyyətdə əmək münasibətlərinin daşıyıcıları əhalinin işləyən hissəsidir. Mürəkkəb sosial-iqtisadi kateqoriya olan əmək ehtiyatı əmək bazarını formalaşdırır. Elmi ədəbiyyatda əmək ehtiyatları ölkənin əmək fəaliyyəti üçün zəruri olan fiziki və intellektual bacarıqlara malik əhalisi kimi təyin olunur. Əmək ehtiyatları kəmiyyət və keyfiyyət xarakteristikasına malikdir. Əmək ehtiyatlarının keyfiyyət xarakteristikaları isə əmək qabiliyyətli əhalinin yaş, cins, təhsil səviyyəsi, peşə-ixtisas dərəcəsini əhatə edir. Ölkənin əmək ehtiyatının kəmiyyət xarakteristikasının göstəricisi iqtisadiyyatla məşğul olanlarla əmək qabiliyyəti olub, konkret əmək fəaliyyəti ilə məşğul olmayanların toplusudur. Əmək ehtiyatlarının tərkibindən I və II qrup əlillər, qocalığa görə güzəştli şərtlərlə pensiya alanlar çıxarılır. Əmək potensialının fiziki, intellektual və sosial keyfiyyət göstəriciləri vardır. Əhalinin təkrar istehsalının 3 tipini fərqləndirmək mümkündür: 1) geniş təkrar istehsal. Bu halda doğumun sayı ölümün sayını üstələyir. 2) sadə təkrar istehsal. Bu halda artım olmur, doğum və ölüm sayı bərabərdir. 3) məhdud istehsal. Ölüm sayı doğumu üstələyir.

Əhali artımının göstəriciləri doğum, ölüm və təbii artımdır. Əhalinin təkrar istehsalı demoqrafik, iqtisadi və sosial səciyyə daşıyır. Əhalinin təkrar istehsalı əmək ehtiyatlarının formalaşmasını, ərazinin mənimsənilməsini, məhsuldar qüvvələrin vəziyyətini, sosial infrastrukturunun inkişafını təyin edir.

Əmək ehtiyatları tərkibinin beynəlxalq təsnifatına aşağıdakılar daxildir:

1) iqtisadi cəhətcə fəal əhali. Bu, əhalinin ictimai faydalı fəaliyyətlə məşğul olub, gəlir gətirən, mal və xidmətlərin istehsalı üçün işçi qüvvəsini təmin edən və fəal şəkildə iş axtarıb əmək fəaliyyətinə başlamağa hazır olan işsizlər hissəsidir. İqtisadi cəhətdən fəal əhalinin say tərkibinə işləyənlər və işsizlər daxil edilir. 2) iqtisadi cəhətdən qeyri-fəal əhali isə əmək qabiliyyəti olub, əmək fəaliyyəti göstərməyən, iş axtarmayanları özündə birləşdirir.

Azərbaycan Respublikasının məşğulluq haqqında qanunununda əmək bazarı anlayışı belə təyin olunur. Əmək bazarı işçi qüvvəsinə olan tələb və təklifin məcmusudur. Əmək bazarı anlayışını təyin edərkən ilk növbədə bu bazarda alğı-satqı obyekti olan malı müəyyənləşdirmək lazımdır. İşçi əmək prosesində psixofizioloji itkilərə məruz qalır. Təkrar əmək prosesi üçün onun əmək bacarığı bərpa olunmalıdır. Bu isə işçi qüvvəsinin təkrar istehsalı deməkdir. Əmək bazarı sosial-iqtisadi kateqoriyadır. Müasir əmək bazarının aşağıdakı komponentlərini ayırmaq olar: əmək bazarının subyektləri: buraya muzdlu işçilər, onların birlikləri, həmkarlar ittifaqları, sahibkarlar və onların ittifaqları, dövlət və onun orqanları; əmək bazarının subyektlərinin qəbul etdikləri iqtisadi proqramlar, qərarlar, hüquqi normalar; bazar mexanizmi; işsizlik və onunla bağlı sosial ödənişlər; bazar infrastrukturu daxildir.

Əmək bazarının əsas funksiyası əmək bazarının konyukturası haqqında məlumatların toplanması, işlənməsi və ötürülməsindən ibarətdir. Əmək bazarı haqqında informasiya məşğulluq siyasətinin özülünü təşkil edir. Əmək bazarının II əhəmiyyətli funksiyası əmək münasibətləri subyektlərinin iqtisadi maraqlarının uzlaşdırılmasıdır. Əmək bazarının strukturuna əmək qabiliyyətli əhali aiddir. Əmək qabiliyyətli əhalini məşğullar, işsizlər, potensial əmək qabiliyyətlilər, əməyə cəlb olunmamış əmək qabiliyyətlilər aiddir. Əmək bazarını 2 növə ayırmaq olar: 1) klassik-statik əmək bazarı; 2) müasir dinamik əmək bazarı.

Klassik əmək bazarının əsas xüsusiyyətləri: işçi sayının məhdudluğu; əmək təklifi ilə əmək tələbinin planlaşdırılmaması və tənzimlənməməsi; texnologiyanın və istehsal keyfiyyətinin nəzərə alınmaması; işçi qüvvəsi üçün fəaliyyət imkanlarının məhdudluğu. Müasir dinamik əmək bazarı sənaye çevrilişindən sonra yaranmışdır. Sənaye çevrilişindən sonra işçi qüvvəsinə tələbat sürətlə artdığı kimi, işçilərin işdən azad edilməsi və işsizlər ordusunun artması da müşahidə olunur. Müasir dinamik əmək bazarı ilə klassik statik əmək bazarı arasında əsas fərqlər: 1)say baxımından fərqlər; 2)dinamik əmək bazarında əmək təklifi ilə əmək tələbinin nisbəti müəyyənləşir; 3)statik əmək bazarında 2 işçi tipi: kəndli və fəhlə tipləri aparıcıdır; 4)dinamik əmək bazarında işçilərin ixtisas, sənət-peşə fərqləri genişlənir; 5)səfərbərlik faktoru; sinifləşmə amilləri.

## AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI DÖVLƏT MÜSTƏQİLLİYİMİZİN ƏBƏDİLİYİNİN ƏSAS PRİNSİPİDİR

***Baxşəliyev A.B.***
*Sumqayıt Dövlət Universiteti*

Siyasi ideologiya xalqın və dövlətin maraqlarına xidmət edən ideyalar sistemidir. Azərbaycan Respublikasında ideologiyanın əsas prinsiplərinin hazırlanması Ulu öndər Heydər Əliyevin tarixi xidmətidir. Milli ideologiyanın təməlində dövlətçilik, azərbaycançılıq dayanır. Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasından danışarkən göstərirdi ki, "Azərbaycan dövlətinin milli ideologiyasının özəyini təşkil edən dövlətçilik, milli mənəvi və ümumbəşəri dəyərlər –azərbaycançılıq anlayışının tərkib hissələridir".

Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra, əsrlər boyu arzuladığı azadlığa qovuşdu. XIX əsrin sonu, XX əsr boyu çətin və mürəkkəb şəraitdə təşəkkül tapan milli-ideyalar inkişaf edərək ümummilli lider, Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi və siyasi fəaliyyəti nəticəsində azərbaycançılıq ideologiyasına çevrildi.

Milli-mənəvi dəyərlər üzərində qurulan azərbaycançılıq ideologiyası ilk növbədə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, xalqımızın sosial vəziyyətinin yaxşılaşması, Azərbaycanı dünyanın inkişaf etmiş, güclü demokratik dövlətlər səviyyəsinə qaldırmaq məqsədi daşıyır.

Azərbaycançılıq ideologiyası ölkəmizin gələcək inkişaf strategiyasını müəyyənləşdirdi.

Cəmiyyətdə sosial-siyasi fəallığın artması, həmrəyliyin formalaşması, millətin təhlükəsizliyi və ölkənin davamlı inkişaf konsepsiyası azərbaycançılığın başlıca prinsiplərindəndir.

Heydər Əliyev tərəfindən əsası qoyulan azərbaycançılıq ideologiyasının təməl prinsiplərinin müddəaları (tezisləri) konseptual baxımdan aşağıdakıları özündə ehtiva edir:

1. Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, dönməzliyinin və əbədiliyinin təmin edilməsi;
2. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanması;
3. Azərbaycanın Respublikasının iqtisadi müstəqilliyinin təmin edilməsi;
4. Ölkədə milli həmrəyliyin, vətəndaş cəmiyyətinin bərqərar olması;
5. Azərbaycan Respublikasının inkişaf etmiş demokratik dövlətlər tərəfindən tanınması;
6. Azərbaycanın dünya birliyinə inteqrasiyası;
7. Dünyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlıların azərbaycançılıq ideologiyası ətrafında birləşməsi, onların tarixi vətəni ilə sıx bağlılığı;
8. Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamının dünya azərbaycanlılarının əməli fəaliyyətinə çevrilməsi üçün təbliğat istiqaməti kimi seçilməsi;
9. Ölkəmizin dünyada tolerant ölkə kimi qəbul edilməsi;
10. Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsinə nail olmaq; Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq və s.

Heydər Əliyev tərəfindən yaradılan azərbaycançılıq ideologiyasının prinsipləri onun siyasi varisi, siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

**AZƏRBAYCAN RESPUBLİKASININ SİYASİ – MƏDƏNİ HƏYATINDA RUS İCMASININ İŞTİRAKI**

***Baxşəliyev F.E.***
*Bakı Dövlət Universiteti*

Azərbaycan Respublikası prezidenti İlham Əliyevin 2016-cı ilin multikulturalizm ili elan etməsində illərlə formalaşmış dövlət siyasəti, tarixi ənənələrimiz və xalqımızın yüksək əxlaqi-mənəvi dəyərləri xüsusi rol oynamışdır. Azərbaycanda müxtəlif xalq və millətlərin nümayəndələri yerli əhali ilə bərabər yaşamışdır. Belələrindən biri də ruslardır. Ruslar hal-hazırda Azərbaycanda azərbaycanlı və ləzgilərdən sonra sayca çox olan ikinci etnik qrupdur. Rusiya Federasiysından kənarda yaşayan rusların sayına görə Azərbaycan rus diasporasının uğurlu fəaliyyət göstərdiyi öndə gedən ölkələrdən biridir.

1991-ci il dekabrda SSRİ-nin dağılması və iki Cənubi Qafqaz respublikası arasında yaranmış Dağlıq Qarabağ ərazisi ətrafında müharibənin başlanması Azərbaycandan rusdilli əhalinin miqrasiyasının yeni dalğasına səbəb oldu. Azərbaycandakı ruslar 1992-ci ildə Xalq Cəbhəsinin hakimiyyətə gəlməsini o qədər də yaxşı qarşılamadılar. Lakin Dağlıq Qarabağ hadisələri başlayanda ruslar bu məsələdə Azərbaycanın mövqeyini müdafiə etdilər. Qarabağ uğrunda döyüşlərdə azərbaycanlılarla yanaşı rusların da döyüşməsi faktları da çox idi. Onlardan bir çoxu: İ.Makeyev, Y.Kovalyov və başqaları Azərbaycanın Milli Qəhrəmanı kimi yüksək adlara layiq görülmüşdülər.

Müxtəlif illərin siyahıyalmalarının nəticələrindən də aydın olur ki, Azərbaycanda rusların sayının və əhalinin ümumi nisbətində xüsusi çəkisinin azalması meyilləri yarım əsrdən də bir az əvvəl müşahidə edilir. Bütün bu köçmələrə baxmayaraq, rusların indi də Azərbaycanın ictimai-siyasi həyatında iştirak dərəcəsi elə ciddi şəkildə azalmamış, onların kütləvi şəkildə olmasa belə, dövlət strukturlarının pillələrində, o cümlədən respublika Milli Məclisində təmsil olunmasını bütün yerli əhali normal qarşılayır.

Azərbaycan SSR-də 1926-cı ildən başlayaraq rus dilinin qeyri-rus məktəblərində geniş tədrisinə başlanır. İndi Azərbaycanda 300-dən çox ümumtəhsil məktəblərində, 18 ali və 38 orta ixtisas məktəbində tədris prosesi rus dilində aparılır. Nəhayət, 2000-ci il 13 iyunda Bakı Slavyan Universitenin təşkili mədəni həyatda mühüm hadisə oldu. Bakıda indi rusdilli təhsil müəssisələrinin müəllimlərinin cəmiyyəti də fəaliyyətdədir.

İndi Rusiyaya və rus mədəniyyətinə maraq daha da artmışdır. 2006-cı ildə Azərbaycanda Rusiya ilinin keçirilməsi nəinki respublikanın rus millətindən olan insanlarının, həmçinin bütövlükdə dövlətin mədəni-siyasi həyatında əlamətdar hadisə kimi yadda qalmışdır. Teatr və digər mədəni-maarif kollektivləri nümayəndələrinin, yazıçı, incəsənət və digər mədəniyyət sahələri xadimlərinin qarşılıqlı səfərləri, mədəni hadisələrin və tanınmış mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi əsl mədəniyyət bayramlarına çevrilir. 2009-cu ildə Rusiya informasiya-mədəniyyət mərkəzinin açılması da əlamətdar mədəni hadisələrdən biri idi. Müstəqillik dövründə "Зеркало", "Эхо", "Бакинский рабочий", "Вышка", "Азербайджанские известия", qəzetləri, "Баку" jurnalı çap edilmiş və kifayət qədər oxucu auditoriyası qazanmışdır.

Azərbaycan ərazisində rusların sərbəst etiqadları üçün də hər cür şərait yaradılmışdır. Azərbaycanda rusdilli əhalinin böyük əksəriyyəti tam sərbəst olaraq pravoslavlıq məzhəbinə etiqad edir. Bakı və Xəzər yeparxiyasının tabeçiliyində olan 5 pravoslav kilsəsi sərbəst fəaliyyət göstərir. Bunların 3-ü Bakıda, 1-i Gəncədə, 1-i Xaçmazda yerləşir. Bakı, Sumqayıt və Şamaxıda malakan cəmiyyətləri də rəsmən fəaliyyətdədir.

Bütün bunlarla yanaşı Azərbaycanda yaşayan rusların cəmiyyətdəki sosial vəziyyətinə təsir göstərən mənfi hallar da var. Ermənistana rus silahlarının verilməsi, dövlət səviyyəsində olmasa da, federal hökumətin bəzi nümayəndələrinin və yüksək rütbəli hərbçilərin, habelə bəzi siyasi siyasətçilərin Qarabağ ermənilərinin seperatçılığını müdafiə etmələri buna misaldır. Daha sonra Moskvada və digər iri federasiya şəhərlərində yerli və hüquq mühafizə orqanlarının nümayəndələrinin orada yaşayan azərbaycanlılarla yerli-yersiz, qanundankənar, zorakı rəftarı da Rusiya – Azərbaycan münasibətlərinin gedişinə heç də işıq salmır.

Hazırda Azərbaycanın siyasi həyatında rusların iştirakı dərəcəsi kifayət qədər hiss olunur. 1993-cü ilin mayında Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mixail Zabelinin sədrliyilə Azərbaycan Rus icması dövlət qeydiyyatından keçərək bu günlərimizədək hərtərəfli fəaliyyət göstərir. 2014-cü ildə təkcə Bakı şəhərində yaşayan ruslar şəhər əhalisinin 6,4 faizini təşkil edirdi.

## AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ SOSİAL TƏMİNAT HÜQUQLARININ HƏYATA KEÇİRİLMƏSİ HAQQINDA

***Baxşəliyev E.F.***

*AMEA, İnsan Hüquqları İnstitutu*

Vətəndaşların sosial təminat hüquqlarının həyata keçirilməsinin təminatları dedikdə, sosial sığorta hadisələrinin maneəsiz və vaxtında qanunla müəyyən olunmuş həcmdə və şərtlərlə kompensasiya edilməsinə yönəlmiş vəsaitlər, sosial təminat növlərinin ödənilməsi üçün ayrılan xüsusi maddi vəsaitlər, təşkilati vasitələr və vətəndaşların sosial təminat sahəsində hüquqlarının reallaşdırılması və müdafiəsi münasibətlərini nizama salan hüquq normalarının məcmusu başa düşülür.

Vətəndaşların sosial təminat hüquqlarının həyata keçirilməsi təminatları hüquq ədəbiyyatlarında həmişə müxtəlif cür göstərilsə də, vahid və ənənəvi fikir artıq formalaşmışdır. Bəzən sosial təminat hüququ çərçivəsində pensiya hüququnun həyata keçirilmə təminatlarını maddi və hüquqi təminatlara bölürlər. Bəzən isə təminatları iqtisadi, siyasi və hüquqi təminatlar kimi təsnifləşdirilir. Sosial hüquqların həyata keçirilməsi təminatlarının ənənəvi olaraq maddi-hüquqi, təşkilati və prosessual-hüquqi təminatlara bölünməsi ilə də razılaşmaq olar.

Siyasi təminatlar ictimai münasibətlərin hüquqi tənzimlənməsi əsaslarının iş- lənib hazırlanmasını və müəyyən edilməsini, sosial təminat sahəsində sosial əməkdaşlığın inkişaf etdirilməsini və s. əhatə edir. İqtisadi və siyasi təminatlar konstitusion, inzibati, büdcə və vergi qanunvericiliyində öz hüquqi təsbitini tapır.

Təşkilati-hüquqi təminatlar dedikdə, sosial təminat hüquqlarının realizəsi imkanının həyata keçirilməsini təmin edən, əsas funksiyası əmək pensiyalarının və sosial müavinətlərin təyin edilməsi və ödənilməsi olan dövlət sosial təminat orqanlarının sistemi başa düşülür. Fikrimizcə, bütün hüquqi təminatları iki qrupa bölmək olar: - hüquqların istifadəsi təminatları (hüquq və azadlıqların hüquqauyğun realizəsini təmin edən hüquqi vasitələr); - hüquqların müdafiəsi təminatları.

Sosial təminat hüququnun həyata keçirilməsini təmin edən hüquqi təminatları aşağıdakı kimi də təsnif etmək olar: a) sosial təminat növünün təyin və təqdim edilməsi zamanı sosial təminat hüququnun təminatı; b) sosial təminat hüquq münasibətlərinin həyata keçirilməsi prosesində sosial təminat hüququnun təminatı; c) sosial təminat növünün təqdim edilməsindən əsassız və qanunsuz imtina edilməsinin qarşısının alınması üzrə təminat. Göstərmək lazımdır ki, müasir dövrdə prosessual təminatlar daha geniş yayılmışdır.

Eyni zamanda, nəzərə alınmalıdır ki, sosial təminat hüquq münasibətlərinin xitam edilməsi qaydaları ilə yanaşı, ayrı-ayrı kateqoriya vətəndaşlar üçün ödəmə şərtlərini və qaydalarını nəzərdə tutan bir sıra xüsusi hüquq normaları mövcuddur. Məhkəmə praktikasının təhlili sosial təminat məsələləri üzrə ayrı-ayrı kateqoriya işlərə baxılması ilə bağlı məhkəmə orqanlarının hüquqtətbiqetmə fəaliyyətinin qanunauyğunluqlarını aşkara çıxarmağa imkan verir.

Beləliklə, sosial təminat məsələləri üzrə mübahisələrin məhkəmə qaydasında həll edilməsinin zəruriliyi aşağıdakılarla şərtlənir: 1. Dövlət hakimiyyəti sistemində məhkəmə hakimiyyətinin xüsusi yerinin olması; 2. Məhkəmə hakimiyyətinin müstəqilliyi; 3. Mübahisənin həlli prosesinin dəqiq şəkildə reqlamentləşdirilməsi. Sosial təminat hüquqlarının məhkəmə müdafiəsi qanunla nəzərdə tutulmuş prosessual formalar çərçivəsində həyata keçirilir.

Sosial təminat hüququnun subyekti kimi vətəndaşların hüquqlarının müdafiəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi mühüm rol oynayır. Buna ən bariz nümunə kimi «Vətəndaşların pensiya təminatı haqqında» qanunun Konstitusiyasının maddələrinə uyğunluğunun yoxlanılmasına dair» Konstitusiya Məhkəməsinin 29 dekabr 1999-cu il tarixli Qərarını göstərmək olar.

Almaniyada «Sosial məhkəmələr haqqında» qanuna əsasən xüsusi məhkəmələr fəaliyyət göstərir. Onlar ümumi hüquq sahəsində mübahisələrə: sosial sığorta haqqında işlərə, zorakı hərəkətlərdən zərər çəkmiş şəxslərin işlərinə, pensiya təminatı sahəsində mübahisələrlə bağlı işlərə və digər bu kimi mübahisələrə baxıb həll edirlər.

Böyük Britaniyada sosial sığorta işləri, sosial sığorta haqqında mübahisələr və s. üzrə inzibati tribunallar fəaliyyət göstərir. Onlar məhkəmə orqanları olmamaqla, peşəkar fəaliyyətin kifayət qədər məhdud sferalarında yaranan işlərə baxırlar.

Nəzərdən keçirilən təcrübə perspektivdə müəyyən maraq doğurur. Lakin bu gün ölkəmizdə həmin təcrübənin tətbiqi hələ tezdir. Bu baxımdan mübahisələrə baxılması üzrə mövcud mexanizmlərin təkmilləşdirilməsini daha perspektivli hesab edirik.

**HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ SİYASƏTİ**

***Bayramova Ü.M.***

*Sumqayıt Dövlət Universiteti*

1991-ci il oktyabr ayının 18-də Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkənin siyasi həyatında hakimiyyət böhranı baş verdi.
Tarixin bu məsuliyyətli və çətin dövründə Azərbaycan Xalq Cəbhəsi artıq xalqa rəhbərlik edə bilmirdi. İctimai həyatın bütün sahələrində hərc-mərclik baş alıb gedirdi. Hakimiyyət böhranından istifadə edən ayrı-ayrı qruplar hakimiyyətdə üstünlük əldə etmək üçün bir-biri ilə mübarizə aparırdılar.

Yaranmış vəziyyət Azərbaycan xalqını vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Belə bir vəziyyətdə xalq bütün ümüdini Heydər Əliyevə bağlamışdı. 1993-cü il oktyabr ayının 9-da Heydər Əliyev xalqın təkidi ilə Bakıya gəldi və iyun ayının 15-də Ali Sovetə sədr seçildi və həmin gün Azərbaycan xalqının tarixinə "Qurtuluş Günü" kimi daxil oldu.

İyunun 24-də Milli Məclis Respublika Prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi və 1993-cü il oktyabrın 3-də səs coxluğu ilə Azərbaycan xalqı Heydər Əliyevi Azərbaycan Respublikasının prezidenti seçdi.

Hakimiyyətə gəldiyi ilk vaxtlardan başlayaraq Heydər Əliyev ölkənin hərbi gücünü təşkil edən nizami ordu yaratmaq məsələsini ön plana çəkdi və həmin ilin noyabr ayının 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Elə ilk iclasda ordu quruculuğu və müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Dövlətin daimi qayğısı nəticəsində Azərbycan ordusu getdikcə inkişaf etdi, müasir hərbi texnika və bacarıqlı kadrlarla təchiz olundu, silahlı qüvvələrin şəxsi heyətinin döyüş qabiliyyəti artdı, hərbi hissələrdə nizam-intizam möhkəmləndi.

1995-ci il iyun ayının 2-də Milli Məclisin qərarına əsasən Azərbaycan Respublikası Konstitusiyasının layihəsini hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə komissiya təşkil edildi və 158 maddədən ibarət yeni konstitusiya ilə Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi əsasları qoyuldu. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq və vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaqdan ibarətdir.

1995-ci il iyun noyabrın 12-də Azərbaycan Respublikasının konstitusiyası qəbul edildi və ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikası Parlamentinə seçkilər keçirildi.

1992-ci ilin noyabr ayının 21-də Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası yaradıldı və qısa bir zaman ərzində sürətlə inkişaf edib ümummilli iqtidar partiyasına çevrildi. Yarandığı ilk çağlardan etibarən YAP öz sıralarına çoxlu sayda siyasət, dövlət və mədəniyyət xadimlərini cəlb edə bilmişdir. Prezident Heydər Əliyev əhalinin sosial müdafiəsi tədbirləri sahəsində bir sıra mühüm sənədlərə imza atmışdır. 1996-cı ilin may ayında aztəminatlı ailələrə verilən müavinətləri, aspirant, tələbə və şagird təqaüdlərini

artırmaq haqqında yeni sərəncam verildi. Elm, mədəniyyət, xüsusən də, maarif sahəsində prezident Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur.

1998-ci ilin fevral ayında Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman verdi. Bu sahədə həyata keçirilən tədbirlərin səmərəliyini artırmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları institutu yaradıldı, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssis kadrların hazırlanması üçün əməli addımlar atıldı.

2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman verildi. Ali və orta məktəblər üçün orijinal dərsliklər, dərs vəsaitləri və fənn proqramları hazırlandı. Müstəqil Azərbaycan respublikasının hərtərəfli inkişafında prezident Heydər Əliyevin böyük xidmətləri olmuş və bu gün də bu missiyanı prezident İlham Əliyev layiqincə davam etdirməkdədir.

Azərbaycanın dövlət müstəqilliyini qorumaq hər birimizin vətəndaşlıq borcudur.

## "BÖYÜK İPƏK YOLU" LAYİHƏSİNDƏ AZƏRBAYCANIN ROLU

***Bədəlov S.B.***
*Sumqayıt Dövlət Universiteti*

Dövlət müstəqilliyimizin məhsulu və ümummilli lider Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin nəticəsi olan "Böyük İpək yolu" layihəsi müstəqilliyin ilk illərində yaranmış ağır sosial-iqtisadi vəziyyət, nəqliyyat-iqtisadi blokadanın davam etdiyi, keçmiş təsərrüfat əlaqələrinin qırıldığı dövrdə irəli sürülmüş ən mühüm iqtisadi proqramlardan biri olmuşdur. Avropa Komissiyasının hazırladığı «TASİS» və «TRASEKA» layihəsi və ölkə rəhbərliyinin bu layihəni qətiyyətlə dəstəkləməsi, müstəqil dövlətimizin qlobal layihələrdə fəal iştirakı, dövlətçiliyimizin qorunması və onun iqtisadi və siyasi cəhətdən möhkəmləndirilməsi üçün geniş imkanlar açdı. Azərbaycan Respublikası «İNOGEYT», «TASİS», «TRASEKA», «Bakı-Tiflis-Kars-Axalkalaki», «Şimal-Cənub» kimi nəqliyyat layihələrinin reallaşdırılmasında fəal iştirak etməyə başladı.

«TRASEKA» layihəsi ölkəmizin Avropa ilə nəqliyyat-iqtisadi əlaqələrinin genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün böyük imkan yaradırdı. Digər tərəfdən isə «TRASEKA» layihəsinin reallaşması ölkəmizin milli nəqliyyat sisteminin inkişafında mühüm amilə çevrildi.

«Yeni ipək yolu»nun yaradılması ideyası hələ XX əsrin 80-cı illərində meydana çıxsa da, o dövrdə bu problemi tam həyata keçirmək mümkün olmadı, bu məsələ elmi-nəzəri tədqiqat obyekti olaraq qaldı. Yalnız Sovetlər İttifaqı süqut etdikdən sonra keçən əsrin 90-cı illərinin sonunda Avropa Birliyinin köməyi və respublika rəhbərliyinin məqsədyönlü səyi nəticəsində problemin praktik cəhətdən reallaşdırılması mümkün oldu. Hələ 1990-cı ilin sentyabrında Vladivostokda keçirilən "Asiya Sakit okean regionu: dialoq, təhlükəsizlik, əməkdaşlıq" adlı beynəlxalq konfransda Transavrasiya magistralının yenidən yaradılması ideyası ortalığa atıldı.

1991-ci ilin iyunun 15-də Avropa İttifaqının "Tasis" proqramının təsis olunması haqqında qərar qəbul etmişdi. SSRİ-nin süqutundan sonra 1992-ci ildə «Tasis» proqramına düzəlişlər edildi və Bakıda Avropa Birliyinin texniki yardım üzrə Koordinasiya bürosu yaradıldı.

«Tarixi ipək yolu»nun bərpasında mühüm mərhələ 1993-cü ildə Avropa Birliyinin rəhbərliyi altında Brüsseldə Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları üçün «TRASEKA» proqramı və «Brüssel bəyənnaməsinin» qəbul edilməsi oldu. Konfransda Azərbaycan tərəfindən çıxış edən milli əlaqələndirici akademik Ziyad Səmədzadə 1993-1995-ci illər üçün TRASEKA dəhlizinin fəaliyyətində mühüm rol oynayan Bakı dəniz limanının yenidən qurulması üçün 7,5 mlrd. manat (denominasiyaya qədərki kursla), avtomagistralların yenidən qurulması üçün 85,6 mlrd. manat, yeni yol texnikasının alınması üçün 36 mlrd. manat, hava nəqliyyatı ilə tranzit yüklərin daşınmasının təşkili üçün 25 mlrd. manatın lazım olduğunu qeyd etdi. "Yeni İpək yolu"nun yaradılması istiqamətində atılan addımlardan ən mühümü H.Əliyevin rəhbərliyi altında 1998-ci ilin sentyabrın 7-də Bakıda «Tarixi İpək yolu»nun bərpasına dair beynəlxalq konfransın keçirilməsi oldu. 9 ölkənin - Azərbaycan, Gürcüstan, Özbəkistan, Ukrayna, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Bolqarıstan dövlət başçılarının, 13 beynəlxalq təşkilat və 32 dövlət nümayəndəsinin iştirak etdiyi konfransın mühüm nəticələrindən biri Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında "Çoxtərəfli əsas saziş və onun beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işlənməsi üzrə texniki əlavələr haqqında" sənədin imzalanması, həmçinin "Bakı Bəyənnaməsi"nin qəbul edilməsi oldu. Azərbaycanın konfransda əldə etdiyi çox mühüm nəticələrdən biri də ondan ibarət idi ki, qəbul olunmuş sazişə ölkə prezidenti Heydər Əliyevin təkidi ilə düzəliş edilmiş və göstərilmişdir ki, əgər Ermənistan başlanğıc, tranzit və ya qurtarıcı ərazi olsa, nəqliyyatla bağlı saziş və ona edilmiş texniki əlavələrin bütün müddəaları Azərbaycana tətbiq oluna bilməz. Ermənistan de-fakto "TRASEKA" proqramından çıxarıldı. Heydər Əliyev "Tarixi İpək yolu"nun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında" 26 oktyabr 1998-ci il tarixli sərəncamında bu konfransın mühüm əhəmiyyətini xüsusi qeyd edərək demişdir: "İpək yolu"nun bərpası üzrə keçirilmiş beynəlxalq konfrans və burada imzalanmış sənədlər böyük siyasi, iqtisadi əhəmiyyət kəsb edərək "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizində yerləşən ölkələrin inkişafı, onların təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialından daha səmərəli istifadə olunması, ticarətin və iqtisadi əməkdaşlığın genişlənməsi üçün etibarlı zəmin yaradır. "Tarixi İpək yolu"nun bərpası üzrə aparılan işlər Azərbaycan Respublikasının dünya birliyi ölkələri ilə inteqrasiyasının daha da gücləndirilməsinə xidmət edir".

**EKOLOJİ VƏZİYYƏTİN SAĞLAMLAŞDIRILMASINDA EKOLOJİ SİYASƏTİN ROLU**

***Cəlalova X.K.***
*Sumqayıt Dövlət Universiteti*

Müasir dövrdə insanın qarşılaşdığı elə problemlər vardır ki, onlar dinindən, milli və sosial mənsubiyyətindən, hansı cəmiyyətdə yaşamasından asılı olmayaraq ümumbəşəri xarakter daşıyır. Bu problemlər sırasında ekoloji problemlər xüsusi məna kəsb edir,çünki planetimizdə antropogen mənşəli hadisələr artaraq, bəşəriyyətin gələcək mövcudluğu üzərində Demokl qılıncını xatırladır.Bugünkü və gələcək nəsillərin sağlam həyat şəraitini təmin etmək tələbatı hazırda özünü kəskinliklə büruzə verməkdədir.

Özünütənzimləyən qapalı dövretmə qabiliyyətinə malik və bir biri ilə fasiləsiz olaraq maddi, energetik və informasiya cəhətdən six qarşılıqlı əlaqədə fəaliyyət göstərən canlı aləm vahid sistem şəklindədir. Bu sistemdə fərqli inkişaf xüsusiyyəti kəsb edən və sürətlə genişlənən texnosfera təbii qapalı dövretmə zəncirinin pozulmasına səbəb olmuş, ətraf mühitə göstərilən antropogen təsir nəticəsində təbiətin özünübərpa qabiliyyətinin son dərəcə zəifləməsinə gətirib çıxarmışdır. Təbiətə yönəlmiş bu təsir, eyni zamanda insanın özünə qarşı yönəlmiş təzyiq kimi qiymətləndirilməlidir, çünki insan biososial varlıq olmaq etibarilə sağlam təbii mühitə həmişə kəskin ehtiyac hiss edir.

Dünyanın bugünkü ekoloji mənzərəsində özünü kəskinliklə büruzə verən ekoloji problemlər qlobal xarakterli olduğundan onların həlli istiqamətində beynəlxalq əməkdaşlıq tələb olunur.

Təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi 2008-ci il20 dekabr tarixli qətnaməsi ilə 2010-cu ili "Beynəlxalq Bioloji Müxtəliflik İli"elan etmişdir. BMT bununla dünya ictimaiyyətinin diqqətini planetin təbiətini qorumaq , ondan səmərəli istifadə etmək, yer kürəsinin ekoloji sistemlərinin qorunub saxlanılması və təbiətin xüsusilə qiymətli obyektlərini müdafiə etmək üçün səyləri birləşdirmək zərurətinə cəlb etmişdir. Yeri gəlmişkən qeyd edək ki, prezident İ.Əliyevin təşəbbüsü ilə 2010-cu il respublikamızda " Ekologiya ili" elan edilmişdir. Bu gun Azərbaycanın qarşısında həllini gözləyən əsas məsələlərdən biri ekoloji vəziyyətin yaxşılaşdırılmasıdır. Ekoloji təhlükəsizliyin təmin edilməsi mürəkkəb proses olub, təhlükəli ekoloji vəziyyətlərin yaranması və inkişafının qarşısının alınması , habelə onların nəticələrinin, o cümlədən gələcəkdə təsir göstərə biləcək nəticələrin aradan qaldırılması üzrə tədbirlər sistemini əhatə edir. Bu halda aşağıdakı məqamlara diqqət yetirilməlidir:

-insan birliklərinin təbiəti mühafizə fəaliyyətini idarəetmə mexanizminin təkmilləşdirilməsi;

-Təbii mühitin müntəzəm surətdə bərpa olunması,onun keyfiyyət tərkibinin yaxşılaşdırılması;

- Cəmiyyətin bütün əsas həyat fəaliyyəti sferasının, əhalinin müxtəlif qruplarının ətraf təbii və sosial mühitə qayğıkeş münasibətinin formalaşması;

-ümumdövlət miqyasında təbiəti mühafizə fəaliyyətinin elmi surətdə planlaşdırılması;

-bir sıra qlobal ekoloji problemlərin həlli üçün bu və ya digər regionun bütün ölkələrinin, zərurət yarandıqda bütün bəşəriyyətin səylərinin birləşdirilməsi;

-çevik və elmi cəhətdən elmi ekoloji siyasətin işlənib hazirlanması və onun reallaşdırılması üzərində səmərəli nəzarətin təşkili;

-ən mütərəqqi texnologiyaların istehsalda tətbiqinin sürətləndirilməsi;

-təbiətin mühafizəsi və onun ehtiyatalarından istifadə olunması sahəsində ən yaxşı göstəriciləri olan ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiqi;

-tullantıların utilləşdirilməsində ən müasir və rasional texnologiyalara üstünlük verilməsi.

Respublikamız ekoloji vəziyyətin sağlamlaşdırılması sahəsindəki işlərə xüsusi əhəmiyyət verir. Respublika Prezidenti tərəfindən cari ilin "Ekologiya ili" elan edilməsi ilə əlaqədar hazırlanmış proqramın icrasına başlanmış , Abşeron yarımadasında neftlə çirklənmiş ərazilərin təmizlənməsi və abadlaşdırılması, Bakının kanalizasiya sisteminin yeniləşdirilməsi işləri davam etdirilmişdir. Dünya Bankının xətti ilə bərk tullantıların vahid idarəetmə sisteminin yaradılmasına start verilmişdir. Müxəlif beynəlxalq maliyyə -kredit təşkilatları ilə 61 şəhər və rayon mərkəzində su təchizatı və kanalizasiya xidmətləri ilə bağlı işlərin radikal şəkildə həll edilməsi məqsədi ilə müxtəlif müqavilələr imzalanmış , layihələrin icrasına başlanmışdır.

## AZƏRBAYCAN DÖVLƏTİNİN YÜRÜTDÜYÜ UĞURLU ENERJİ SİYASƏTİ

***Cəlalzadə B.M.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikasının 1994-cü ildən bəri yeritdiyi yeni neft və enerji siyasəti ölkənin xarici əlaqələrini və beynəlxalq nüfuzunu xeyli gücləndirmişdir. Azərbaycan üçün böyük tarixi əhəmiyyətə malik olan "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi ötən on ildə dünyanın ən inkişaf etmiş şirkətləri ilə əlavə olaraq 26 yeni neft müqavilələrinin imzalanmasına imkan vermişdir. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısı gedişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl tərəfindən "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş" imzaladılar. Eyni vaxtda, Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri bu layihəni dəstəkləyən İstanbul bəyannaməsini qəbul etdilər. Bəyannamədə vurğulanırdı ki, bu kəmər Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan və Türkiyəni daha sıx birləşdirəcək, onların dostluğunu və əməkdaşlığını daimi edəcək, dünya enerji bazarlarına sərbəst çıxışı təmin edəcəkdir. Azərbaycan Respublikası ilə bərabər Xəzər regionunda dünya dövlətlərinin həyata keçirdiyi bu cür qlobal enerji layihələri Prezident Heydər Əliyevin uzaqgörən yeni neft strategiyasını həyata keçirməsi və bir çox Qərb dövlətləri, xüsusən də, ABŞ-ın bu strategiyanı yaxından dəstəkləməsi nəticəsində mümkün olmuşdur. Bu neft müqavilələrinin imzalanması və uğurla həyata keçirilməsi ilk növbədə Azərbaycan vətəndaşlarında ölkənin

gələcəyi, onun iqtisadi, siyasi, sosial perspektivləri haqqında nikbin əhval - ruhiyyə yaratmış, hazırkı bir çox iqtisadi, siyasi, sosial və mənəvi problemlərin həllinə dəstək olmuşdur. Xüsusilə, sosial vəziyyəti ağır olan və bazar iqtisadiyyatına çətin uyğunlaşan qaçqın və məcburi köçkünlərin, təqaüdçülərin, elm, təhsil, mədəniyyət və səhiyyə işçilərinin problemlərinin həlli üçün dövlət etibarlı maliyyə təminatı almışdır. "Əsrin müqaviləsi"nin 5 illiyi tədbirlərində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "1 sentyabr 1999-cu ilədək təkcə bonuslar, vergi və digər ödənişlər şəklində neft müqavilələrindən Azərbaycana 3 trilyon 400 milyard manat vəsait daxil olmuşdur. Müqayisə üçün deyək ki, ölkənin illik büdcəsi 3 trilyon 900 milyard manata bərabərdir". Neft müqavilələri bağlandıqdan sonra dünya siyasətçilərinin, transmilli korporasiyaların, iş adamlarının, beynəlxalq təşkilatların, politoloqlarının nəzər-diqqəti daha çox Bakıya yönəlmişdi. Dünya enerji siyasətində və beynəlxalq münasibətlər sistemində Azərbaycanla bağlı yeni prioritetlər, dövlətlərarası və beynəlxalq əlaqələrdə yeni istiqamətlər yaradılmışdır. Bu müqavilələrin bağlanması və ötən müddətdə aparılan uğurlu enerji siyasəti nəticəsində Azərbaycan Respublikasının dövlət müstəqilliyi daha da möhkəmlənmiş, respublikanın təhlükəsizliyinin və gələcək tərəqqisinin əlavə təminatları yaradılmış, Qərb dünyasının Azərbaycana olan etimadı artmış, onlarla mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq və əlaqələr dərinləşmişdir. Yeni neft strategiyası, ilk öncə, Azərbaycan-ABŞ münasibətlərinə ciddi müsbət təsir göstərdi. ABŞ hökuməti birmənalı şəkildə Azərbaycanın enerji siyasətini, eləcə də Şərq-Qərb enerji-nəqliyyat dəhlizi layihələrini dəstəklədi və bu işlərin Azərbaycana və bütün regiona inkişaf və sabit həyat gətirəcəyinə inam nümayiş etdirdi. ABŞ administrasiyası bu gün də Azərbaycanın, Xəzəryanı bölgənin və Cənubi Qafqazın iqtisadi cəhətdən güclənməsində, region dövlətlərinin sabit inkişafının və suverenliyinin möhkəmləndirilməsində Xəzər dənizində aparılan işləri, Bakı-Tbilisi-Ceyhan layihəsini mühüm vasitə kimi qiymətləndirir və onun həyata keçirilməsinə hər cür dəstək verir. Prezident C. Buş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə ünvanladığı 14 iyun 2001-ci il tarixli məktubunda yazırdı: "Həyata keçirilən neft-qaz layihələrinin Azərbaycanı tezliklə güclü, sabit və dinamik inkişaf edən iqtisadiyyata malik dövlət edəcəyinə qəti əminəm". ABŞ hökumətinin, Konqres və Senatının, o cümlədən Avropa İttifaqının, Cənub - Şərqi Asiyanın inkişaf etmiş ölkələrinin, transmilli korporasiyaların və dünya siyasətinə mühüm təsiri olan başqa qurumların Azərbaycanın enerji siyasətinə münasibətdə dəyişməz müsbət mövqe nümayiş etdirməsi bu siyasətin gələcək uğurlarına tam inam yaradır. Hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər nüfuzlu dövlətlər Azərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər. Onlar son dövrlər ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində yürüdülən iqtisadi, o cümlədən enerji siyasətini yüksək qiymətləndirir, həyata keçirilən transmilli layihələrin təşəkkül tapmasına və ölkəmizin beynəlxalq inteqrasiyasına hərtərəfli dəstək verirlər. Bu yaxınlarda beynəlxalq enerji sammitinin məhz Bakıda keçirilməsi faktının özü də Azərbaycanın bu strateji əhəmiyyətli məsələdə aparıcı rola və sanballı çəkiyə malik olduğunu bir daha təsdiqlədi. Bəşəri əhəmiyyətli bu beynəlxalq tədbirə dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçılarının, o cümlədən Avropa İttifaqını təmsil edən

dövlətlərin yüksək səviyyəli nümayəndələrinin qatılması enerji təhlükəsizliyi məsələlərinin bəşəriyyət üçün nə qədər vacib olduğunu əyani şəkildə açıqladı. Təqdirəlayiq haldır ki, Azərbaycanın bu sahədə qısa zaman kəsiyində əldə etdiyi nailiyyətlər digər hasilatçılara, o cümlədən bir çox ölkələrə nümunə göstərildi. Qeyd olundu ki, Azərbaycan dünyada quruda və dənizdə sənaye üsulu ilə ilk dəfə neft hasil edən ölkədir. Təsadüfi deyil ki, Azərbaycanı dünya miqyasında "Neft Akademiyası" adlandırırlar. Ölkəmizin çox zəngin karbohidrogen ehtiyatları və bunların istismarı üçün zəngin təcrübəsi var. Ən müasir texnologiyaların Azərbaycana gətirilməsi, bir çox mədən-sənaye avadanlıqlarının ölkəmizdə istehsalı ölkəmizin imkanlarını daha da artırıb, xərclərin aşağı düşməsinə, mənfəətin artmasına gətirib çıxarıb.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ XÜSUSİYYƏTLƏRİ

**_Əhmədova N.M._**
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikasının coğrafi mövqeyi həm təbii şərait, həm də geosiyasi baxımdan olduqca əlverişlidir. Cənubi Qafqaz regionunun şərqində yerləşməsi və şərqdə Xəzər dənizi ilə əhatələnməsi onun təbii şəraitinə böyük təsir göstərir. Azərbaycanın əlverişli təbii coğrafi mövqeyi, hər şeydən əvvəl, onun suptropik və mülayim iqlim qurşaqlarında yerləşməsi ilə, məhsuldar torpaqlara malik düzənliklərə, zəngin təbii şəraiti və təbii ehtiyatları ilə fərqlənən dağ sistemlərinə malik olması ilə seçilir. Ölkəmizin zəngin tarixi, mədəni və təbii irsi dünyanın hər yerindən insanları özünə cəlb edir. Landşaft-iqlim xüsusiyyətləri, mineral su qaynaqları, dünyada yeganə olan Naftalan müalicəvi nefti, nadir qədim memarlıq abidələri, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər Azərbaycanda turizmin bütün növlərinin inkişafına şərait yarada bilər.

Bütün bu təbii zənginliklərə baxmayaraq, 1990-cı illərə qədər turizm sahəsində irəliləyiş əldə edilməmişdir. Lakin müstəqillik qazandıqdan sonra iqtisadiyyatın bu sahəsi üzrə əvəzsiz işlər görüldü. Turizm sahəsi üçün ümummilli lider Heydər Əliyev tərəfindən təstiq edilmiş "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafı üzrə Dövlət Proqramı", habelə "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" böyük əhəmiyyət kəsb etmişdir. Bu dövlət proqramlarının həyata keçirilməsi zəngin infrastrukturun qurulması və ölkəmizin beynəlxalq turizm bazarına inteqrasiyasının təməlinin qoyulması üçün şərait yaratdı. O dövrdə əldə edilmiş sosial-iqtisadi təcrübə turizm sahəsinin hərtərəfli inkişafı üçün yeni qapılar açdı. Bakının daxili şəhəri olan İçərişəhər, Şirvanşahlar sarayı, Qız Qalası habelə qayaüstü rəsmlər muzeyi Qobustan YUNESKO-nun dünya mədəni irsi siyahısına salındı.

O dövr üçün ölkəmizin turizm sənayesinin üzləşdiyi əsas problemlərdən biri də turizm xidmətləri səviyyəsinin yetərincə yüksək olmaması idi. Bu sahədə də ölkə prezidenti İlham Əliyev lazimi tədbirlər gördü. Bu məsələ dövlət proqramında öz əksini tapmaqla yanaşı, 2006-cı ildə Azərbaycanda turizm təhsili verən yeganə ali məktəb-Azərbaycan Turizm

İnstitutu Azərbaycan Respublikası prezidenti İlham Əliyevin 2006-cı il 25 avqust tarixli 925 saylı fərmanı və Azərbaycan Respublikası Nazirlər Kobinetinin 2006-cı il 13 fevral tarixli 45 saylı qərarı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi nəzdində yaradıldı.

Bütün bu görülən tədbirlər ölkəyə gələn turist sayının artımına səbəb oldu. Belə ki, 2001-ci ildə Azərbaycana gələn xarici vətəndaşların sayı 767 min nəfər olduğu halda, 2010-cu ildə bu rəqəm 1 milyon 963 min nəfərə çatmışdır. 2002-ci ildə ölkə iqtisadiyyatı ölkəyə gələn turistlərdən 432 milyon manat gəlir götürdüyü halda, 2009-cu ildə bu rəqəm 1milyard 122 milyon manata çatmışdır.

Prezident İlham Əliyev tərəfindən 2011-ci ilin turizim ili elan etməsi, həmçinin "Eurovision-2012" nüfuzlu mahnı müsabiqəsinin, "Bakı-2015 1-ci Avropa oyunları", "Bakı-2016 Formula 1" kimi yarışlara ev sahibliyi etməsi dünya ölkələrindən turistərin ölkəmizə axışması üçün şərait yaratdı və ölkənin turizm sənayesinin inkişafına güclü təkan verdi. Turizm ili çərçivəsində turist rayonlarında bir çox yeni mehmanxanalar açıldı, tarixi və mədəni qoruqlar, xüsusi təyinatlı abidələrə gedən yollar təmir edildi, turist yol nişanları qoyuldu, "Şahdağ" turizm mərkəzinin tikintisi sürətləndirildi, Şabran və Lahıc mədəni qoruqlarda turist infrastrukturunun yaradılması isləri aparıldı. Bunlarla yanaşı, özündə turist zonaları, abidə və ölkənin digər istiqamətlərini ehtiva edən GoMap naviqasiya sistemi həyata keçirildi.

Prezident İlham Əliyevin 6 aprel 2010-cu il sərəncamı ilə təstiq edilmiş "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda bu imkanların realizə edilməsi, qarşıdakı illərdə turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi üçün əhatəli tədbirlər planı əks olunmuşdur.

Dövlətin gördüyü tədbirlər nəticəsində ölkədə müasir mehmanxana servis infrastrukturu yaradıldı, belə ki, paytaxtda və digər turist zonalarında çoxlu miqdarda yüksək xidmət səviyyəsinə malik mehmanxanalar tikildi, turist sənayesi üçün kadrlar hazırlandı, çoxşaxəli turist firmaları formalaşdırıldı, informasiya-reklam strukturları uğurla işləməyə başladı, Azərbaycan üçün ən mənzərəli və firavan regionlardan keçən çoxsaylı turist marşrutları yaradıldı və sınaqdan keçirildi..

Beləliklə, müvəfəqiyyətlə həyata keçirilən lahiyələr, dövlət proqramları və islahatlar Azərbaycanın son illərdə qazandığı uğurların davamlılığını şərtləndirir və ölkənin dünyada dinamik iqtisadiyyata malik bir dövlət kimi qiymətləndirilməsinə imkan verir.

**AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ XƏZƏRİN HÜQUQİ STATUSU**

***Əhmədov R.V.***
*Sumqayıt Dövlət Universiteti*

Hazırda Xəzər nefti uğrunda dünya geoiqtisadi məkanında böyük hadisələr yaşanır. Bunun başlıca səbəbi Xəzərin statusunun və zəngin neftinin, ixrac kəməri marşrutunun regionda qüvvələr nisbətinin xeyli dəyişməsi hesab olunur. Bu istiqamətdə Azərbaycan dövləti öz müstəqilliyini qorumaq və möhkəmləndirmək, ərazi bütövlüyünü bərpa etmək, əhalisinin firavan həyatına nail olmaq məqsədlərini reallaşdırmağa, Rusiya və İran regionda ənənəvi mövqelərini saxlamağa. ABŞ, Türkiyə və digər Qərb dövlətləri yeni-yeni mövqelər əldə etməyə çalışırlar. Təbii ki, müxtəlif qüvvələrin fərqli mövqelərinin uzlaşdırılması kifayət qədər çətin məsələdir. Belə çətinlikləri dəf etmək üçün Azərbaycan hökuməti ardıcıl və düşünülmüş xarici siyasət yürüdərək, Xəzər nefti uğrunda mübarizəni, Bakı-Ceyhan ixrac kəməri və Xəzərin statusu məsələsini öz maraqları çərçivəsində həll etməyə çalışır. Bu məsələlərə münasibətdə Moskva-Tehran-Yerevan üçlüyünün fərqli mövqeyi kontekstində gələcəkdə də müəyyən problemlərin yaşanacağı istisna olunmur. Çünki indiki halda Xəzərin statusunun və əsas neftin ixracı marşrutunun müəyyənləşdirilməsi dənizdə neft hasiatıyla məşğul olan dövlətlərin içərisində ən çox Azərbaycanın mənafeyinə uyğundur.

Nəzərə alinsa ki, Xəzər neftinin istismarı üçün bağlanmış neft müqvilələrində iştirak edən şirkətlərin böyük əksəriyyəti Avropa İttifaqı və NATO-ya üzv olan dövlətlərə məxsusdur və Avropa İttifaqının, NATO-nun Şərqə doğru genişlənmə proqramı ilə eyni vaxtda həyata keçirilir, onda belə bir nəticəyə gəlmək olar ki, Xəzər regionunda baş verən hadisələr, regionda hərbi-siyasi sabitlik həm də NATO-nun və ona daxil olan dövlətlərin marağı çərçivəsindədir. Deməli, bu bölgənin təhlükəsizliyi və sabit inkişafı da məhz Qərbin nəzarəti və yaxından iştirakı ilə təmin olunacaqdır. Bu, əslində, təkcə Azərbaycanın və Qərb ölkələrinin deyil, həm də bütün region dövlətlərinin-Rusiyanın, İranın, Ukraynanın, Gürcüstanın və başqalarının da marağına tam uyğun gəlir.

Xəzər hövzəsinin geosiyasi və geoiqtisadi maraqları çərçivəsində əhəmiyyətli halqalarından biri Gürcüstan Respublikasıdır. Gürcüstanın əlverişli coğrafi mövqeyi və qərbpərəst siyasəti son illərin geopolitik proseslərində onu ön mövqelərə çıxarıb. Azərbaycanın bu ölkə ilə münasibətləri strateji tərəfdaş mahiyyəti daşıyır. Hazırda Avrasiya enerji və kommunikasiya dəhlizi layihəsi, o cümlədən TRASEKA proqramı, Bakı-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərlərinin çəkilişi Gürcüstan ərazisi vasitəsilə gerçəkləşdirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin güzəştli mövqeyi sayəsində bu ölkə kəmərlərlə bağlı müqavilələrin kifayət qədər yüksək tranzit haqqı şərtiylə imzalanmasına nail olub. Gürcüstanın Qara dəniz sahilindəki iki əsas limanı- Batumi və Poti- son illərdə Avropa Birliyinin maliyyə yardımı ilə modernləşməkdə, texniki imkanları artırılmaqdadır.

Enerji təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissəsinə daxildir. Enerji təhlükəsizliyinin təmin edilməsi strateji vəzifədir. Strateji ehtiyatların istifadə edilməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin tərkib hissəsidir. ”Milli təhlükəsizlik

haqqında Azərbaycan Respublikasının Qanunu"nda (29 iyun 2004) deyilir: "Azərbaycan Respublikasının strateji ehtiyatlarının istifadəsi üzrə müqavilələrin bağlanmasında və yerinə yetirilməsində milli təhlükəsizliyin təmin olunması tələbləri mütləq nəzərə alınır"

Məhz buna görə də təhlükəsizliyin təmin edilməsi dövlətin qarşısında duran başlıca vəzifədir. ABŞ dövləti bildirmişdi ki, Cənubi Qafqaz, Xəzər dənizi və Mərkəzi Asiyada milli maraqları vardır. Xüsusilə, Cənubi Qafqazda ərazisinə, əhalisinin çoxluğuna və enerji resurslarının zənginliyinə görə fərqlənən Azərbaycan Respublikası ilə ABŞ arasında əməkdaşlıq yaranmışdır. Son illərdə ABŞ-ın neft strategiyasında Xəzər regionu, xüsusilə, Azərbaycan və Qazaxıstan əsas yer tutur. ABŞ Cənubi Qafqazın və Mərkəzi Asiyanın müstəqil dövlətlərilə əməkdaşlığı genişləndirir. Onların əvvəlki imperiya qüvvələrinin təsiri altın düşmək imkanı vermir. Neft strategiyası ABŞ-ın milli təhlükəsizlik konsepsiyasına daxildir. Dövlət departamentinin, Energetika Nazirliyinin, Müdafiə Nazirliyinin xüsusi xidmət orqanlarının fəaliyyətində enerji təhlükəsizliyi əsas yer tutur.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ

***Əsədova R.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə Dağlıq Qarabağda başlayan erməni separatizmi və hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi. Dünyada baş verən qloballaşma, demokratikləşmə və beynəlxalq inteqrasiya fonunda gənc bir dövlətin birmənalı müstəqil xarici siyasət kursunun müəyyən edilməsi o zaman çox çətin idi. Belə ki, Rusiya və İran qərbyönümlü xarici siyasətə xüsusi qısqanclıq və həssaslıq nümayiş etdirirdilər. Qonşu Ermənistan ərazi iddiası ilə ölkəyə işğalçı ordu yeritmişdi və Azərbaycan beynəlxalq təcridə məruz qalmışdı. İlk növbədə Azərbaycanın bir dövlət kimi gələcək dünya nizamında yeri, daxili və xarici siyasətinin xarakteri və prioritetləri müəyyən edilməli, Qərbə, Şərqə, yoxsa Rusiyaya və keçmiş SSRİ məkanında mövcud olan dövlətlərin birliyinə inteqrasiya xətti seçilməli, ölkənin təhlükəsizliyi hansısa mövcud beynəlxalq təhlükəsizlik sistemləri ilə əlaqədə, yoxsa müstəqil, bitərəf şəkildə təmin olunması kimi məsələlər həllini tapmalı idi.

Beləliklə, müstəqillik dövründə mürəkkəb formalaşma mərhələlərindən keçmiş Azərbaycanın xarici siyasəti 1993-cü ilin ikinci yarısından etibarən ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, özünün konkret vəzifə və istiqamətləri, prioritetləri ilə seçilən, bitkin, ardıcıl və prinsipial xarakter kəsb etməyə başlamışdır. Fəal xarici siyasətin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünə layiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin

həllində əhəmiyyətli mövqe qazanmışdır. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Azərbaycanın uğurla davam edən xarici siyasətinin əsas istiqamətləri kimi aşağıdakılar göstərilə bilər:

- Bazar iqtisadiyyatı və qanunun aliliyinə əsaslanan plüralist demokratiyanı inkişaf etdirmək;
- Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tezliklə bərpa edilməsi, təhlükəsizliyinin, siyasi müstəqilliyinin təmin olunması, suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması;
- Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması;
- Qonşu ölkələrlə mehriban qonşuluq və qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi;
- Regionda təhlükəsizliyin və sabitliyin gücləndirilməsi;
- NATO, Avropa Birliyi, Qərbi Avropa İttifaqı və Avropa Şurası da daxil olmaqla Avropa və Transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya;
- Azərbaycanın Qərb və Şərqin qovşağında yerləşməklə mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını sürətləndirmək;

Əldə edilmiş nəticələr qarşıya növbəti yeni vəzifələr qoyur və Azərbaycanın uzunmüddətli maraqlarının reallaşması baxımından yeni imkanlar açır. Ona görə də "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq əldə edilmiş mövqelərdən və qazanılmış diplomatik potensialdan səmərəli şəkildə istifadə etməklə ölkəmizin nüfuzunun və təsir imkanlarının daha da artırılması qarşıda duran başlıca vəzifələrdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ƏSAS PRİORİTETİ OLAN DAĞLIQ QARABAĞ MƏSƏLƏSİ

***Əsədova A.V.***
*Sumqayıt Dövlət Universiteti*

*Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq*
*və nəyin bahasına olursa olsun öz torpaqlarını azad edəcək.*
*İ.H.Əliyev*

Azərbaycan bu gün həm daxili, həm xarici siyasətində əsas olaraq milli maraqların önə çəkilməsi prinsipini götürüb. Burada əhalinin yaşayış səviyyəsi, məcburi köçkünlər, milli azlıqlar siyasəti, tolerantlıq, iqtisadi inkişaf, qonşuluq siyasəti, region ölkələri ilə olan münasibətlər və öz əksini tapır. Şərqlə Qərbin qovuşağında yerləşən Azərbaycan xarici siyasətdə balanslaşdırılma siyasətini əsas götürür. Ölkənin xarici iqtisadi-siyasi münasibətləri də xalqın mənafeyinə uyğun aparılır. Bu gün ölkənin xarici siyasətinin əsas məsələlərinin mövzusu Dağlıq Qarabağın azad olunmasıdır. Əsas məsələ problemin həllində

beynəlxalq qurumlarla əməkdaşlıq edib, məsələni sülh yolu ilə həllinə nail olmaqdır. Bu gün Azərbaycanın xaricdə 64 diplomatik nümayəndəliyi fəaliyyət göstərir.

Qarabağ Azərbaycanın tarixən ayrılmaz hissəsidir. Hal-hazırda ətraf ərazilərlə yanaşı (cəmi 11 min $km^2$) Ermənistan tərəfindən işğal edilmişdir. Bu isə Azərbaycanın 20% torpağı deməkdir. Ümummilli lider Heydər Əliyev bu məsələnin həllinə nail olmaq üçün 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olmuşdur. 1994-cü il 4 mayda Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuşdur. H.Əliyevin bu uzaqgörən siyasəti nəticəsində ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ-la dünya təhlükəsizlik sistemi ilə əməkdaşlıq imkanı qazanmışdır. İ.Əliyevin xarici siyasətində də bu əlaqələr uğurla davam etdirilir. Çünki NATO ilə əməkdaşlıq müharibə şəraitində olan ölkə üçün çox vacibdir. Avropa Şurası Nazirlər Komitəsi 2001-ci il 17 yanvarda Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsinə dair məsələsi qəbul etmişdir. Aparılan xarici əməkdaşlıq nəticəsində AŞ-nın sənədlərində Ermənistan təcavüzkar dövlət kimi tanınmış və dərhal Azərbaycan torpaqlarından çıxarılması tələb edilmişdir. Dağlıq Qarabağ məsələsinin dünyaya çatdırılması işində ən uğurlu addım isə 1996-cı il 2-3 dekabrda ATƏT-in Lissabonda keçirilən zirvə toplantısında atıldı. H.Əliyevin uzaqgörən siyasəti nəticəsində Qarabağ məsələsinin hüquqi-siyasi çərçivədə müəyyənləşdirilməsi üçün bir sənəd qəbul edildi. Sənəd dünyanın 53 dövləti tərəfindən qəbul edildi. Ümumilikdə, məsələnin həlli istiqamətində ATƏT-in Minsk qrupu ilə 1993-2003-cü illər ərzində 150-yə qədər görüş keçirilmişdir. Qarabağ məsələsi ATƏT-in, AŞ-ın NATO-nun, İ.K.T.-nin, MDB-nin, GUAM-ın, İƏT-in və digər təşkilatların görüşlərində əsas məsələ olmuşdur. Bu gün Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə inkişaf edərək regionun ən aparıcı dövlətlərindən birinə çevrilibdir. 2003-cü ilin yanvarında keçirilən sessiyasında İ.Əliyev AŞPA-nın vitse prezidenti və qurumun Bürosuna üzv seçilmişdir. İ.Əliyev AŞPA-nın sessiyalarında dəfələrlə Ermənistanın işğalçı və terrorçu dövlət olduğunu bəyat etmiş və Azərbaycan ərazilərində narkotik maddələr qaçaqmalçılığı üçün istifadə olunduğunu sübuta yetirmişdir. Aparılan uğurlu siyasət nəticəsində ABŞ prezidenti 907-ci düzəlişi dayandırır və 2002-ci ilin martında ABŞ-ın Azərbaycana silah satışı üzərinə qoyduğu qadağa ləğv edilir. Azərbaycanın NATO ilə tərəfdaşlığı nəticəsində NATO-nun 2002-ci ildə Praqada keçirilən sammitində ölkəmiz bu qurumun Parlament Assambleyasının assosiativ üzvülüyünə qəbul olundu. Amerikanın Ki-Uest şəhərində keçirilmiş danışıqlarda H.Əliyevin qətiyyətli mövqeyi sayəsində ABŞ Dövlət Departamenti Ermənistanı təcavüzkar dövlət kimi tanıdı. 2004-cü ildə BMT-nin Baş Məclisinin sessiyasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məsələ gündəliyə salındı. 2006-2007-ci illərdə MBT-də bu adda qətnamələr qəbul edilmişdir. İ.Əliyevin Qarabağ məsələsinin həlli istiqamətində apardığı xarici siyasətin əsasını Qarabağı Azərbaycandan ayırıb müstəqillik verilməməsi təşkil edir.

Azərbaycan hökuməti bu gün azərbaycanlıların soyqırımını da dünyaya çatdırmaq məsələsində xeyli işlər görərək haqq səsimizi, Qarabağın qədim tarixini dünyaya çatdırır. Qeyd edək ki, 1918-ci il 31 mart soyqırımına ən böyük qiymət H.Əliyev tərəfindən verilmişdir. 1998-ci ildən bəri Azərbaycan Respublikasında 31mart hər il azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Hətta 19 dekabr 1997-ci ildə H.Əliyevin təşəbbüsü ilə dövlət komitəsi yaradılmışdır. Bu komitənin işi 1948-1952-ci illərdə həyata keçirilən

azərbaycanlıların departasiyasına hüquqi-siyasi qiymət vermək və beynəlxalq ictimaiyyətə çatdırılmasından ibarət idi.

Bu gün xarici siyasətdə məsələnin həlli ilə yanaşı, Azərbaycana dəyən ziyanın, itkinin də dünya ictimaiyyətinə çatdırılmasında diplomatik nümayəndəliklər və Heydər Əliyev Fondu böyük işlər görür. Qeyd etmək lazımdır ki, Azərbaycanın işğal olunmuş 20% ərazisi ilə yanaşı, 20 min vətəndaşı həlak olmuş, 50 min nəfər yaralanmış və ya əlil olmuş, 1 milyondan artıq qaçqını var. İşğal edilmiş ərazilərdə yüzlərlə tarixi, mədəni abidə, 17 muzey, 100-dən çox arxeoloji abidə, çoxlu dəyərli əlyazmalar məhv edilmiş və bu gün də ermənilər həmin ərazilərdə Azərbaycan izini itirmək üçün torpağın gizlətmiş olduğunu da məhv etməkdədirlər. Bu həqiqətlərin dünyaya çatdırılmasında Heydər Əliyev Fondu bir çox layihələr həyata keçirir, Qarabağ həqiqətlərini dünyaya çatdırır. Fond soyqırım ilə bağlı 100-ə dək materialın xaricdə sərgisini təşkil edib, "Qarabağ həqiqətləri" silsiləsi və işğal olunmuş ərazilərdə tarixi mədəniyyət abidələrinin dağıdılması ilə bağlı ingilis dilində kitablar, bukletlər nəşr etdirərək yayılmışdır. Eyni zamanda 2009-cu ildən fəaliyyətə başlayan "Xocalıya ədalət" kompaniyası başladılmış və bu aksiyaya dünyanın bir çox ölkələrindən könüllülər qoşulmuşdur. Aparılan xarici siyasətlə yanaşı, bu gün hər Azərbaycan vətəndaşı döyüşüb torpağını işğaldan azad etməyə hazırdır. İ.Əliyevin rəhbərlik etdiyi Azərbaycan ordusu bir qarış torpağını da heç kimə güzəştə getməz.

## SSRİ-nin SÜQUTU ƏRƏFƏSİNDƏ AZƏRBAYCANDA MİLLİ AZADLIQ HƏRƏKATI (1988 - 1991)

***Əzizova R.Y.***
*Sumqayıt Dövlət Universiteti*

SSRİ-nin süqutu ərəfəsi tarixşünaslıqda mürəkkəb və ziddiyyətli bir dövr kimi səciyyəndirilir. Məhz bu baxımdan dövrün tədqiqi və təhlili məsələsi mühüm əhəmiyyət və aktuallıq kəsb edir .

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində Azərbaycan SSR-də milli azadlıq hərəkatının yeni mərhələsi başlandı. Milli azadlıq mübarizəsinin əsas ideya istiqamətini və ideya mənbəyini antisovet və antiermənі hərəkatı təşkil edirdi. Xalqımız azadlığın əzablı, lakin şərəfli yolu ilə irəliləyir, hər cür çətinlik və məhrumiyyətlərə baxmayaraq, Azərbaycan istiqlalına doğru gedirdi.

SSRİ-nin süqutu ərəfəsində SSRİ-nin çökməsi prosesini XX əsrin ən böyük geosiyasi hadisəsi kimi qiymətləndirmək olar.

XX əsrin II yarısında SSRİ rəhbərliyinin uğursuz ,yarıtmaz "Yenidənqurma" siyasəti konseptual baxımdan düşünülməmiş səhv addım olduğuna görə iflasa uğradı.

Milli Sovet respublikaları ölkədə yaranmış sosial – iqtisadi və ictimai – siyasi böhrandan istifadə edərək milli – azadlıq hərəkatına qalxdılar. Ayrı – ayrı respublikalarda , o cümlədən Azərbaycan SSR – də mərkəzdənqaçma meyilləri daha da gücləndi. Artıq mərkəzin diktəsi və qərarlarının təsir gücü getdikcə zəifləyirdi. Şübhəsiz, bütün bunlar SSRİ-nin parçalanması, dağılması təhlükəsindən xəbər verirdi. Özgə torpaqlarını işğala və

xalqları istismara məruz qoyan bir imperiya dağılmağa məhkum idi. SSRİ-də gedən ictimai – siyasi proseslər Azərbaycanının ictimai – siyasi həyatına təsirsiz ötüşmədi. 70 illik Sovet imperiyasının əsarətindən xilas olmaq üçün Azərbaycan xalqı siyasi iradə nümayiş etdirərək 1988 – ci ilin noyabr ayının 17-də mütəşkəkil surətdə "Azadlıq" (keçmiş Lenin meydanı) meydanına toplaşdı. "Meydan hərəkatı" kimi tariximizə daxil olan bu möhtəşəm dirçəliş hərəkatı imperiyaya vurulan ilk ciddi zərbə idi.

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin məkrli ikiüzlü siyasəti xalqımızın səbrini tükəndirmişdi. 17 noyabr hərəkatı SSRİ – də möhtəşəm, ən böyük hərəkat kimi qiymətləndirilir. 1988-ci ildən başlanan milli – azadlıq hərəkatının ikinci dalğası 1990-cı il yanvar hadisələrindən sonra sonra başladı. Qanlı 20 Yanvar hadisələri Azərbaycanda müstəqillik uğrunda gedən mübarizəni daha da sürətləndirdi. Yanvar hadisələri Sovet imperiyasına vurulan ikinci sarsıdıcı zərbə idi.

SSRİ – nin tarixində görünməmiş hadisə baş vermişdi. Sovet silahlı qüvvələri Sovet Bakısına hərbi təcavüz etmişdi. Dinc sakinlərin güllə - boran edilməsi SSRİ – rəhbərliyinə qarşı nifrəti daha da artırırdı. İmperiya Azərbaycanda milli hərəkatı boğmaq üçün hərbi təcavüzə başlamaqla demokratik qüvvələrin müqaviməti qarşısında aciz qaldığını göstərdi. İmperiya "Qanlı Yanvar" hadisələrini törətsə də, milli – azadlıq hərəkatını boğa bilmədi. 1991-ci ilin avqust ayının 30-da Azərbaycanın müstəqilliyini bərpa etmək haqqında bəyannamə, həmin ilin 18 oktyabrında isə dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı qəbul edildi.

Beləliklə, 1988-1991-ci illərdə Azərbaycanda baş vermiş milli – azadlıq hərəkatı SSRİ- nin süqut etməsində əhəmiyyətli dərəcədə tarixi rol oynadı.

## TARİXİ İPƏK YOLU VƏ MÜSTƏQİL AZƏRBAYCAN (DÜNƏNİ, BU GÜNÜ VƏ SABAHI)

***Əzimli D.M.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutunun*

Azərbaycan qədim zamanlardan Şərq-Qərb istiqamətində təşəkkül tapmış, inkişaf edən ticarət sisteminin tərkib hissəsi sayılırdı. Qədim dövrdə və orta əsrlərdə Şərq ölkələri ilə Avropa arasında ticarət əlaqələri başlıca olaraq Qara dəniz və Aralıq dənizi sahillərindəki ticarət mərkəzləri vasitəsilə həyata keçirilirdi. Dünyanın ən məşhur ticarət yolları, Çindən Aralıq dənizi sahillərinə yönəlmiş "Böyük ipək yolu" Azərbaycan ərazisindən keçirdi. Bizim e.ə. təxminən ikinci əsrdə yaranmış İpək Yolu ticarəti bizim eranın birinci minilliyindən başlayaraq ikinci minilliyin ortalarına qədər Avropa və Asiyadan çarpaz şəkildə keçən marşrutlar şəbəkəsini əks etdirir. İpək Yolunun əsas hissəsi öz başlanğıcını Çinin paytaxtı Çanqandan (Xian) götürür və sonra Orta Asiyada Təkləməkan səhrasından keçən şimal və cənub marşrutlarına ayrılır, sonra isə yenidən birləşərək indiki İranın yaylalarını kəsib keçir və Antiox və Tire şəhərlərində qurtarır. Eramızdan əvvəl dördüncü əsrdə Makedoniyalı İskəndər Mərkəzi Asiya istiqamətində Hind çayını keçəndə artıq Çin ipəyinin Aralıq dənizinə çıxışı var idi. İpək Yolu üçün əsas tarixi fəaliyyət dövrləri Çində Xan sülaləsinin (b.e.ə. 206-cı il-b.e. 220-ci il), Çində Tanq sülaləsinin (b.e. 613-907-ci illər)

və monqol imperatoru Xanatanın (b.e. XIII-XIV əsrlər) hakimiyyət dövrləri idi. Nəhəng imperiyanı idarə edən monqollar İpək Yolunun Avropa-Asiya çöllərindən keçən şimal marşrutunu qorumağı öz öhdələrinə götürdülər. Birinci minillikdən başlayaraq ikinci minilliyin ortalarına qədər İpək Yolu kimi tanınan nəhəng ticarət marşrutları şəbəkəsi Avropa və Asiya xalqlarını və ənənələrini bir-biri ilə əlaqələndirirdi. Bu tarixi marşrutlar qiymətli əşyaların, informasiya və biliklərin Şərq və Qərb arasında nəqli üçün əsas ötürücü dəhliz idi və dünyada ilk dəfə olaraq İpək Yolu ölkələrinin elmi və mədəni ənənələrinin mübadiləsinə səbəb oldu. İpək Yolunun ticarət marşrutları Çin, Yaponiya, Monqolustan, İran, Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələrdən keçməklə genişlənirdi.

Təsadüfi deyildir ki, müasir dövrdə "Böyük ipək yolu" yeni əsaslarda bərpa edilir. Enerji ehtiyatları ilə zəngin olan, Şərq və Qərb aləminin diqqət mərkəzində qalan bu yola qərb dövlətləri həm də Şərq dövlətləri ilə hərtərəfli əlaqələrin davam etdirilməsinin mühüm bir vasitəsi kimi yanaşırlar. Qlobal siyasətin həyata keçməsində xüsusi əhəmiyyətə malik olan, əsrlərin sınağından çıxmış bu yol həmin ərazilərdə yerləşən şərq dövlətlərinin də bir-biri ilə yaxınlaşmasında həlledici rol oynaya bilər. Bu dövlətlərin qovuşma nöqtəsi isə Xəzər dənizidir. Azərbaycan Avropa və Asiya arasında daim qovuşma məntəqəsi olmuş və bu mövqeyini hal-hazırda da qorumaqdadır.

Bu mənada «Tarixi İpək yolu»nun bərpası prosesinin həyata keçirilməsində mühüm mərhələ 1993-cü il may ayının 3-7-də Avropa Birliyinin təşəbbüsü ilə Brüsseldə çağırılmış konfransla başlandı. Konfransda 5 Mərkəzi Asiya: - Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və 3 Qafqaz respublikası: Azərbaycan, Gürcüstan və Ermənistanın nəqliyyat və ticarət nazirləri iştirak etdilər. Adları çəkilən ölkələr üçün TRASEKA proqramı və «Brüssel bəyannaməsi» qəbul olundu. TRASEKA proqramının əsas məqsədi aşağıdakılar elan edildi:

- Müstəqillik əldə etmiş ölkələrin Avropa və Dünya bazarına alternativ nəqliyyat marşrutu ilə çıxışını təmin etməklə onlara iqtisadi və siyasi yardım göstərmək;
- TRASEKA proqramı iştirakçısı olan ölkələr arasında regional əməkdaşlığın genişlənməsinə kömək göstərmək;
- TRASEKA layihələrinin reallaşdırılması işinə maksimum dərəcədə beynəlxaq maliyyə qurumlarının - Avropa Yenidənqurma və İnkişaf Bankının, Dünya Bankının cəlb edilməsinə nail olmaq;
- «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizinin Transavropa şəbəkəsi ilə inteqrasiysına kömək etmək. Avropa-Qafqaz-Asiya “TRASEKA” beynəlxalq nəqliyyat dəhlizi Şərqlə Qərb arasında digər iki marşruta, Transokean daşımaları və Transsibir magistralına alternativ olan bir layihədir. “TRASEKA” dəhlizi vasitəsilə yalnız Mərkəzi Asiyadan deyil, Çindən də yüklərin daşınacağını, sonradan buraya Cənub-Şərqi Asiyanın digər ölkələrinin də (xüsusilə konteynerlərin) qoşulacağı gözlənilir. Bu dəhlizin strateji bəndi olan Transxəzər beynəlxalq nəqliyyat marşrutu ildə 15 milyon tondan artıq yük daşımaları potensialina malikdir. O, Çin, Qazaxstan, Türkmənistan, İran, Fars körfəzi ölkələri, Cənubi Qafqaz, Türkiyə və Avropa ölkələrinin yük göndərənləri ilə qəbul edənlərini əlaqələndirmək iqtidarındadır. Dəhlizin digər alternativ dəhlizlərə nisbətən cəlbediciliyinin artırılmasında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikalarının birgə layihəsi olan və

hal-hazırda inşası davam etdirilən Bakı-Tiflis-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi də mühüm rol oynayacaqdır. Mərkəzi Asiya ölkələrinin də bu marşruta marağı böyükdür. Belə ki, Bakı-Tiflis-Qars dəmir yolu və 2013-cü ildə istifadəyə verilmiş Bosfor boğazının altından keçən "Marmaray" sürətli dəmir yolu tuneli vasitəsilə Avroya birbaşa çıxış imkanı yaradacaqdır. Bu da Mərkəzi Asiya ölkələrinin məhsullarının Avropaya və əks istiqamətdə böyük həcmdə sənaye məhsullarının, istehlak mallarının daşınması baxımından son dərəcə cəlbedici olacaqdır.

Bu gün Türkiyə və Azərbaycanın dünya enerji sistemində gücünü daha da artıra biləcək bir layihə də rellaşmaqdadır. Bu lahiyə Trans Anadolu Doğal Gaz Boru Hattı Projesi (TANAP)dır. Bu böyük bir layihə olmaqla iki qardaş ölkəni daha da sıx birləşdirir. Göründüyü kimi, ölkəmiz indi də dünya ticarət marşrutlarının kəsişdiyi ərazi olmaqla bərabər, dünya ernerji sistemində də basilica ölkələrdən biri sayılır. Bu da ölkəmizin dünya ölkələri arasında nüfuzunu gündən-günə artırır.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ TURİZM SİYASƏTİ

***Fərhadova J.F.***
*Sumqayıt Dövlət Universiteti*

Tarixi mənbələrdən məlum olur ki, "turizm" sözü fransız dilində "turizme" adlanır. Onun leksik mənası isə səyyahların, tacirlərin, elmi axtarışda olan adamların bir ölkədən digər ölkəyə getməsini idarə edir. Elə "turist" adı da buradan götürülmüşdür. Zaman keçdikcə millətlərarası əlaqələr genişləndikcə bu terminin mənası da dəyişmişdir. Müasir dövrdə turizm termininin çox geniş iqtisadi, siysai, sosial, mədəni, mənəvi, dini sferaları vardır.

Tədqiqatçıların fikrincə və statistik məlumatlara görə, müasir dünya ölkələrində cərəyan edən qloballaşma və xalqların inteqrasiyası bir çox qlobal problemlər yaratmışdır. Həmin qlobal problemlər cərgəsində yanacaq problemi, neft-qaz problemləri də vardır. Dünya ölkələrində tədricən neft-qaz istehsalı azalır, digər təbii sərvətlər isə tükənməyə meyil edir. Yaranmış mövcud problemdən xilas olmağın bir yolu da turizmdir, ölkələrdən ölkələrə turistlərin axınının sürətlənməsidir. Başqa sözlə desək, tükənməkdə olan təbii sərvətlərin iqtisadi mənafeyni, maliyyə imkanlarını əvəz etmək üçün alternativ yollar axtarırlar. Bunlardan biri də turizmdir.

Müasir dövrdə turizmin inkişafı həm də müxtəlif xalqlararası və millətlərarası münasibətlərin inkişafına müsbət təsir göstərən vasitədir. Bir ölkəyə gələn turistlər həm də orada yaşayan xalqların mədəniyyəti, ədəbiyyatı, incəsənəti, adət-ənənələri, tarixi abidələri ilə tanış olmağa və öyrənməyə meyil edirlər. Bu proses isə müasir dövrdə müxtəlif xalqların bir-birini yaxşı başa düşməsinə, mehriban və dost olmasına, sülh və əminamanlıq şəraitində yaşamasına müsbət təsir göstərir.

Müxtəlif ölkələrdə özlərinə daha çox turist axını təşkil etmək üçün, böyük miqdarda iqtisadi mənfəət əldə etmək üçün turizm infrastrukturunu genişləndirirlər: müasir zövqlü,

çoxulduzlu mehmanxanalar tikilir, dəbdəbəli bədii tərtibatlı turist bazaları təşkil olunur, dəniz və çay sahillərində səliqə-sahmanlı çimərliklər inşa edilir və s.

Azərbaycan xalqının ta qədim dövrdən məskun olduğu coğrafi ərazinin yerüstü və yeraltı sərvətlərlə zəngin olmasına, başı qarlı dağları, qalın meşələri, bəhrəli bağları olmasına, müalicəvi əhəmiyyətli çayları, bulaqları olmasına baxmayaraq, son vaxtlara qədər turizm ölkəsinə çevrilməmişdi. Məlumdur ki, əvvəllər xarici ölkələrdən Azərbaycana tək-tük tacirlər, səyyahlar, şairlər, yazıçılar, tədqiqatçılar gəlmişlər. Məsələn: keçmişdə qonşu Rusiyadan rus şairləri Mixail Lermantov və Sergey Yesenin Azərbaycana gəlmişlər, onlar burada olan tolerant xalqla onun diliylə, mədəniyyətiylə, adət-ənənənsi ilə yaxından tanış olmuşlar və son nəticədə də bədii əsərlər yazmışlar.

Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda turizmin təşkilinin və inkişafının yeni mərhələsi başlanmışdır.

Məlum olduğu kimi, 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildi, 27 iyul 1999-cu ildə isə Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında fərman imzaladı. Bu qanun Respublikamızda turizmin hüquqi əsasını yaratdı və turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Respublikamızda turizmi inkişaf etdirmək və mövcud ehtiyatlardan səmərəli istifadə etmək məqsədi ilə ölkə prezidenti Heydər Əliyevin 2002-ci il 27 avqust tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu.

XXI əsrin başlanğıcında respublikamızın Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Qəbələ və digər şəhərlərində xarici ölkələrdən gələn turistləri qəbul etmək üçün mehmanxanalar, hotellər tikilib istifadəyə verildi. Hazırda respublikamızın rayonlarında 100-dən artıq turizm firması, 149 mehmanxana rəsmi qeydiyyatdan keçmişdir. Həmin mehmanxanalarda olan yerlərin ümumi miqdarı 5000-dən artıqdır. Hər il ölkəmizə gələn qonaqların sayı 1 milyon nəfəri ötüb keçir. Təkcə 2008-ci ildə Azərbaycana gələn turistlərin sayı 1milyon 300 min nəfər olmuşdur. 2009-cu ilin aprel ayında Bakıda Heydər Əliyev adına İdman və Konsert Kompleksində keçirilmiş Beynəlxalq Turizm Sərgisində 20 ölkədən 78 turizm müəsissəsi iştirak etmişdir.

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda cənab prezident İlham Əliyev çıxış edərək turizmin inkişafını sürətləndirməyin vacibliyini bir daha vurğulamışdır.

"2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dovlət Proqramı" ölkəmizdə turizm kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli istifadəsinə zəmin yaradır.

Qeyri-neft sektorunda vacib yer tutan turizmin qarşıdakı illərdə iqrisadiyyatımızın aparıcı sahələrindən biri olması gözlənilən reallıqdır.

**MÜASİR AZƏRBAYCANIN GÖMRÜK SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ**

***Fərzəliyev M.M., Əhmədov M.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

XX əsrin sonuncu on illiyində ikinci dəfə müstəqillik əldə edən Azərbaycan Respublikası dünya iqtisadi birliyinin müstəqil subyektinə çevrilməklə milli iqtisadi maraqlardan irəli gələrək xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və öz milli iqtisadi mənafeyini qorumaq zəruriyyəti ilə qarşılaşdı. Müstəqillik illərində Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin inkişaf mərhələlərinin təhlilinə və onun prioritet sahələrinin inkişaf xüsusiyyətlərinə əsaslanaraq qeyd etmək lazımdır ki, bu dövrdə milli iqtisadi artımın təmin edilməsinin və onun səmərəliliyinin yüksəldilməsinin əsas amillərindən biri həyata keçirilən gömrük siyasəti olmuşdur.

Dövlətin gömrük siyasəti onun iqtisadi siyasətinin mahiyyəti, bu siyasətin taktika və strategiyası ilə müəyyənləşir. İqtisadi siyasət mövcud iqtisadi probemlərin həll edilməsinə, iqtisadi yüksəlişin və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmiş dövlət tədbirləri sistemidir. İqtisadi siyasətin xarakteri isə ilk növbədə ölkənin sosial-iqtisadi inkişaf potensialı ilə müəyyən olunur. Ölkənin sosial-iqtisadi potensialı onun təbii ehtiyatlarla zənginlik səviyyəsinindən, əmək resursları və əhalinin məşğulluq səviyyəsindən, elmi-texniki potensialından, beynəlxalq əmək bölgüsündə tutduğu mövqedən, milli istehsal sahələrinin ixtisaslaşma səviyyəsindən, milli adət və ənənələrdən və s. bu kimi amillərdən asılı olaraq formalaşır.

Azərbaycan Respublikasının iqtisadi potensialı, əsasən, keçmiş SSRİ-nin tərkibində formalaşmışdır. Lakin bununla belə, Azərbaycan təbii resurslarla, o cümlədən enerji resursları ilə zəngin olan bir ölkədir. Müstəqil Azərbaycanın iqtisadi siyasətinin məzmununu məhz elə bu amillər müəyyən etmişdir. Azərbaycanın neft və qaz ehtiyatarının öyrənilməsi və bu sahəyə xarici investorların cəlb edilməsi əsasında neft və qaz hasilatının artırılması ölkənin iqtisadi siyasətinin ana xəttini təşkil edir.

Göstərilən iqtisadi siyasətin əsasında formalaşan və bu iqtisadi siyasətin həyata keçirilməsini təmin edən əsas vasitələrdən biri isə gömrük siyasətidir. Gömrük siyasəti xarici iqtisadi fəaliyyətdə maneələr-kvotalar, qadağalar və s. bu kimi məhdudiyyətlər tətbiq etməklə beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmağa yönəldilmiş dövlət tədirləri sistemidir.

Azərbaycan Respublikasının bazar iqtisadiyyatına keçid dövrünün başlanğıc mərhələsi, demək olar ki, iqtisadiyyatın qloballaşması ilə eyni dövrə təsadüf etmisdir. 90-cı illərin əvvəllərində hakimiyyətə gələn AXC-Musavat çütlüyü tərəfindən iqtisadiyyatda xarici ticarətin liberallaşmasına üstünlük verildi və nəticədə Azərbaycan dərin iqtisadi böhranla üzləşdi. Tezliklə məlum oldu ki, dünya iqtisadiyyatının qloballaşması şəraitində belə iqtisadi proseslər, o cümlədən xarici iqtisadi fəaliyyət dövlət tərəfindən tənzimlənməli və dövlətin nəzarəti altında olmalıdır. Xalqın iradəsi ilə 1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ictimai həyatın digər sahələrində olduğu kimi iqtisadiyyatda da əsaslı dəyişikliklərə start verdi. H. Əliyev Azərbaycan iqtisadiyyatında liberalizmdən imtina etməklə, mövcud şəraitin tələblərinə uyğun olaraq iqtisadiyyatın fəal dövlət

tənzimlənməsi siyasətinə, o cümlədən fəal gömrük siasətinə üstünlük verdi. Yaranmış yeni tarixi-iqtisadi şəraitdə ümummilli liderimiz H.Əliyev dünya iqtisadiyyatında xarici iqtisadi fəaliyyətin rolunu uzaqgörənliklə hiss etmiş və respublikanın gömrük orqanlarının fəaliyyətinə xüsusi qayğıkeşliklə yanaşmışdır. O, gömrük orqanlarının fəaliyyətinə dövlətçiliyin bir atributu kimi baxırdı.

Müstəqillik illərində Azərbaycan Respublikasında gömrük işinin təşkili və inkişafı prosesini isə aşağıdakı üç əsas mərhələyə ayırmaq olar: I mərhələ 1991-1994-cü illər, II mərhələ 1995-2000-ci illər, III mərhələ 2001-ci ildən sonrakı dövr.

Hər bir dövlətin gömrük siyasətinin əsas məqsədi milli iqtisadi maraqların təmin edilməsidir. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 2-ci maddəsində göstərildiyi kimi gömrük siyasətinin məqsədi gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, Azərbaycan dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin təmin edilməsidir.

Hər bir dövlətin gömrük siyasəti xarici iqtisadi fəaliyyətdə ya proteksionist, ya da azad ticarət siyasətinə üstünlük verilməsindən asılı olaraq formalaşır. Proteksionist istiqamət yüksək gömrük rüsumlarının tətbiqini və idxalın məhdudlaşdırılmasını tələb edirsə, azad ticarət siyasəti xarici iqtisadi fəaliyyətdə hər cür məhduduyyətlərin aradan qaldırılmasını nəzərdə tutur.

Xarici iqtisadi fəaliyyətin mahiyyətindən və xarici iqtisadi fəaliyyətə qoyulan tələblərdən irəli gələrək müasir Azərbaycanın gömrük siyasətini aşağıdakı yeddi əsas istiqamətə ayırmaq olar:

- xarici iqtisadi fəaliyyətin qanunvericilik bazasının möhkəmləndirilməsi;
- gömrük sərhəddindən keçirilən əmtəə və nəqliyyat vasitələrinin gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi əməliyyatlarının sadələşdirilməsi;
- ixracyönümlü milli istehsal sahələrinin inkişaf etdirilməsinin stimullaşdırılması;
- milli əmtəələr üçün xarici əmtəələrlə müqayisədə əlverişli rəqabət şəraitinin yaradılması;
- xarici investisiyaların cəlb edilməsi üçün əlverişli iqtisadi mühitin təmin edilməsi;
- beynəlxalq strukturlar, iqtisadi birliklər və xarici ölkələrlə faydalı əməkdaşlıq əlaqələrinin qurulması;
- ölkə istehlakçılarının xarici əmtəələrə olan tələbatının daha dolğun ödənilməsinin təmin edilməsi.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA SİYASİ SİSTEMİN ROLU

***Fətullayeva S.A.***
*Sumqayıt Dövlət Universiteti*

Bəşəriyyət yarandığı zamandan başlayaraq, şəxsiyyət problemi cəmiyyətdə həmişə diqqət mərkəzində olmuşdur. Cəmiyyətdə şəxsiyyət probleminin işlənməsi istiqamətində gedən elmi axtarışlar, hər bir cəmiyyətdə fəaliyyət və düşüncə tərzinə uyğun olaraq formalaşmışdır. O cümlədən bu istiqamətdə dissertasiya işi səviyyəsində aparılan tədqiqatlar üstünlük təşkil etsə də, problemin xüsusi aktuallığı və nəzəri-praktiki əhəmiyyəti onu deməyə imkan verir ki , problem tam öyrənilməmişdir. Bu səbəbdən də şəxsiyyət-cəmiyyət əlaqələri hələ də tədqiqatçıların diqqət mərkəzində qalmaqdadır.

Cəmiyyət sadəcə insanların mexaniki olaraq cəmi deyil, eyni coğrafi məkanı paylaşan və mövcud siyasi hakimiyyətin subyektləri olan ortaq mədəniyyətin keyfiyyətlərini özündə əks etdirən toplumdur. Bununla yanaşı, cəmiyyət durğun vəziyyətdə deyil, daim inkişafdadır. Paralel olaraq şəxsiyyətin formalaşması kimi mürəkkəb bir proses də tarixi, siyasi dəyişikliklərin təsirindən kənarda qala bilməzdi. Odur ki, müxtəlif zamanlarda yetişən şəxsiyyətlər də, öz növbəsində, o zaman intervalının, tarixi dönəmin cəmiyyətinin bazisini təşkil edir. Dövrümüzdə kəskin sosial-siyasi hadisələr baş verdiyi üçün müvafiq şəxsiyyət stereotipləri də dəyişikliyə məruz qalmışdır. Yəni ictimai quruluşların bir-birini əvəz etməsi ilə yanaşı, hər bir dövrün mükəmməl şəxsiyyət tipinin formalaşması prossesi paralel olaraq davam etmişdir.

Yeni cəmiyyətin formalaşma prosesi uzunmüddətli və çətin bir prossesdir. Bu elə bir zaman intervalıdır ki, köhnəsi öz mənasını itirmiş, yenisi isə hələ formalaşmamışdır. Əvvəlki siyasi strukturun istər sosial , istər iqtisadi sferadakı qurumların fəaliyyətindəki kəskin fərq eyni zamanda, yeni cəmiyyətin fərdinin sosiallaşma prosesinə öz təsirini göstərir. Sosial proseslərdən öncə rejimin sütunu sayıla bilən iqtisadi struktur kəskin şəkildə dəyişir.

Kecmiş Sovet dönəminin inzibati amirlik sisteminə əsaslanan planlı iqtisadiyyatından Müstəqil Azərbaycanın bazar iqtisadiyyatı rejiminə kecid dövründə cəmiyyətin iqtisadi münasibətlərinin subyekti olan şəxsiyyətin formalaşması üçün mühüm şərait yarandı. Burada ən vacib, danılmaz faktorlardan biri siyasi idarəetmə strukturudur. Azərbaycan Respublikasının siyasi idarəetmə sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Onun meydana gəlməsində və fəaliyyətində bir çox müxtəlif amillər rol oynamış və oynamaqdadır. Siyasi sistemin fəaliyyətinin formalaşmasına əhalinin siyasi mədəniyyətinin xüsusiyyətləri mühüm təsir göstərir.

Şəxsiyyətin formalaşması haqqında konsepsiyalar, ideyalar və müddəalar bütövlükdə fəaliyyət formaları, davranış formaları, zaman-zaman meydana cıxmış, cəmiyyətin inkişafında müvafiq olaraq zənginləşmə yolu kecmiş və Azərbaycan ictimai-siyasi fikrinin mühüm probleminə cevrilmişdir.

Ümumiyyətlə, Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması, əsasən, 1995-ci il noyabrın 12-də ölkənin yeni Konstitusiyasının qəbul edilməsi ilə başa çatmış oldu. Konstitusiyaya uyğun olaraq Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi,

unitar respublika kimi müəyyənləşmişdir. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

Azərbaycanda mövcud olan dünyəvi dövlət, din sahəsinə qayğı və dəstək göstərir və bu siyasət tolerantlıq və multikulturalizmin tərkib hissəsi kimi həyata keçirilir. Dünya təcrübəsi göstərir ki, istər dövlətlərin qurulmasında və tənəzzülündə, millətlərin yüksəlməsində, sistemlərin və mədəniyyətlərin inkişafında, istərsə də müharibələrin qazanılmasında və yaxud uduzulmasında olsun, bunların hamısında şəxsiyyətlərin rolu təkzibolunmaz faktordur. Hər bir xalqın tərəqqisində şəxsiyyətlərin-liderlərin rolu əvəzsizdir. Zaman-zaman tarix və şəxsiyyət məsələsilə bağlı müxtəlif fikirlər deyilmişdir. Hər halda burada qarşılıqlı əlaqə mövcuddur. Güclü şəxsiyyət zamandan üstün olduğu üçün hadisələrə təsir edə bilmişdir. Hər bir lider , hər şeydən əvvəl, öz milli reallıqlarının ideal məhsuludur. Əgər sosial-siyasi kontekstdən yanaşsaq, öz ölkəsinin siyasi qurluşunun və siyasi mədəniyyətinin bilavasitə təsiri altında formalaşan şəxsiyyətdir. Mürəkkəb və vacib sosial fenomen olan lider faktoru bir çox hallarda, bu və ya digər xalqın gələcək taleyinin, geçəcəyi inkişaf yolunun müəyyən edilməsində əsas amilə çevrilir. Şəxsiyyət faktoru ilə üzvi surətdə bağlılığı olan lider amili həm də hər hansı tarixi dövrdə zamanın tələbinə uyğun inkişaf yolunun müəyyən edilməsinə təkan verən ideya , idealogiya daşıyıcısı kimi çıxış edir, konkret məqsədlərin müəyyən olunmasında əsas rol oynayır.

## AZƏRBAYCAN RESPUBLİKASINDA ORTA SİNFİN FORMALAŞMASI VƏ İNKİŞAFININ ƏSASLARI

***Hacıyev O.Y.***
*Sumqayıt Dövlət Universiteti*

Məlumdur ki, istənilən cəmiyyətin sosial-siyasi sabitliyinin vəziyyəti onun orta sinfinin durumu ilə ölçülür. Orta sinfin yaranması və inkişafı dövlətin möhkəmlənməsinin mühüm şərtlərindən hesab olunur. Məhz bu sinif sosial harmoniya yaradaraq cəmiyyətdə gərginliyə, yuxarı və aşağı təbəqələr arasındakı münasibətlərin kəskinləşməsinə imkan vermir. Cəmiyyətimizdə sosial, iqtisadi sahədə həyata keçirilən bütün islahatların əsas məqsədi də elə orta sinfin, azad sahibkarlığın mövqelərinin möhkəmləndirilməsindən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sahədə dövlətin qarşısında duran əsas məqsədi belə müəyyənləşdirir: “Biz çalışmalıyıq ki, maksimum dərəcədə bütün imkanlardan istifadə edək ki, Azərbaycanda yaranan sahibkarlar sinfi daha da möhkəmlənsin, orta təbəqə inkişaf etsin, yoxsulluğun səviyyəsi aşağı düşsün”. Orta sinfin formalaşması da ilk növbədə, kiçik və orta sahibkarlıq sektorunun inkişafı ilə bağlıdır. Bu baxımdan müxtəlif illərdə qəbul edilən qanunlar, həyata keçirilən iqtisadi islahatlar təqdirəlayiqdir. Respublikamızda sahibkarlığın inkişafına yönəldilmiş tədbirlərin sistemliliyinin təmin olunması bu sahədə qəbul edilmiş dövlət proqramları ilə bağlıdır. 1997-ci ildə “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997—2000-ci illər) Dövlət Proqramı” qəbul olunmuşdur. Bu proqramda milli müstəqillik dövründə ilk

dəfə olaraq dövlət tərəfindən sahibkarlığa dəstək, istehsalın stimullaşdırılması, qeyri-neft sektorunun inkişafı məsələləri proqram şəklinə salınaraq həyata keçirilməsi üçün əməli tədbirlərə istiqamət verilmişdir. Qeyd etmək lazımdır ki, bu tədbirlər artıq öz nəticələrini verməkdədir. Belə ki, 2012-ci ilin rəsmi statistikasına əsasən 48.2 milyard manat həcmində olan ÜDM istehsalı qeyri-neft sektorunda 9.7 % artmış, neft sektorunda isə 6.5 % azalmışdır. Bu proses getdikcə iqtisadiyyatın neft amilindən asılılığını aradan qaldıracaqdır.

2002-ci ildə təsdiq olunmuş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (2002-2005-ci illər) Dövlət Proqramı” əvvəlki illərdə başlanmış sahibkarlığın inkişafı ilə bağlı tədbirlərin daha da sürətləndirilməsi üçün mühüm addım olmuşdur. Adı çəkilən proqram Azərbaycanda sahibkarlıq subyektlərinin sayının artmasına, sosial problemlərin həlli istiqamətində yeni imkanların açılmasına mühüm təsir göstərmişdir. Məsələn: əgər 2005-ci ildə kiçik sahibkarlıq subyektlərinin sayı 177722 idisə, 2011-ci ildə onların sayı 224830-a çatmışdır.

Bir sıra obyektiv və subyektiv çətinliklərə baxmayaraq, ölkəmizdə sabit iqtisadi inkişaf perspektivi baxımından həyati əhəmiyyətə malik olan orta sinfin formalaşması prosesi davam edir. Cəmiyyət üçün xarakterik olan bir sıra problemlərin, o cümlədən orta sinfin formalaşması və inkişafına mənfi təsir göstərən halların aradan qaldırılması məqsədilə 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" qəbul olunmuş, qarşıdakı dövr üçün əsas fəaliyyət prioritetləri müəyyənləşdirilmişdir. Qeyd etməliyik ki, bütün cəmiyyətlər, xüsusilə, bazar iqtisadiyyatına yenicə qədəm qoyan cəmiyyətlərdə müşahidə olunan hal bundan ibarətdir ki, şəhərlərə nisbətən regionlarda orta sinfin xüsusi çəkisi azdır. Azərbaycanlı tədqiqatçı R.Əzimova orta sinfin formalaşması prosesinin şəhər və region səviyyəsində fərqli xüsusiyyətlərə malik olduğunu bildirir. O, bunun səbəbini belə göstərir: “Şəhərdə orta sinif öz məqsəd və vəzifələrinə görə fərqli olan bir çox sahələri – idarəetmə, istehsal və təhsil sferalarını əhatə edir. Şəhərdə orta sinfin peşəkar müxtəlifliyi onun sosial, mədəni və siyasi həyatdakı roluna da öz müsbət təsirini göstərir. Rayonda isə bazar iqtisadiyyatı şəraitində münasibətlərin demokratikləşdirilməsinin zəruriliyinin dərki prosesi istər ayrı-ayrı fəaliyyət subyektlərində, istərsə də yerli idarəetmə orqanlarında zəifdir. Bu isə şəhər və kənd şəraitində orta sinfin formalaşmasına yönəlmiş islahatların zəif getməsinə səbəb olur. Bundan başqa kənddə fərdi sahibkarlıq üçün maddi-texniki bazanın zəif olması da orta sinfin, onun sahibkarlar təbəqəsinin inkişafını ləngidən amillərdəndir”. Bu baxımdan keçən dövr ərzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının ölkəmizin regionlarında göstərilən çatışmazlıqların aradan qaldırılması və orta sinfin mövqelərinin güclənməsi prosesində mühüm rolu olmuşdur. Belə ki, adı çəkilən proqramda diqqət regionların əsas sosial-iqtisadi göstəricilərinin qalxmasının əsasında duran fermer təsərrüfatı və sahibkarlıq fəaliyyətinin inkişafı, bununla da yeni iş yerlərinin açılması, məşğulluğun artırılması, həyat səviyyəsinin qaldırılması kimi məsələlərə yönəldilmişdir. Dövlət Proqramında orta sahibkar təbəqəsinin daha da güclənməsi və bir növ cəmiyyətin aparıcı sosial qüvvəsinə çevrilməsi sahəsində əməli tədbirlər nəzərdə tutulmuşdur. Sahibkarlığın inkişafı üçün nəzərdə tutulmuş güzəştli kreditlərin verilməsi prosedurunun təkmilləşdirilməsi, regionlarda orta sinfin mühüm dayağı sayılan fermer

təsərrüfatlarının inkişafı, onlara texniki yardım məqsədilə "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması və s. sahəsində görülən işlər də bu qəbildəndir. Dövlət proqramı xüsusilə, regionların qeyri-proporsional inkişafının qarşısının alınması baxımından təqdirəlayiq olmuşdur. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", eləcə də "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" isə bütün respublikanı əhatə etməklə bu sahədəki tədbirlərin uğurla davam etdirilməsini təmin edir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi isə ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusiilə, kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olacaqdır.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, biz istənilən cəmiyyətin özəyini təşkil edə biləcək orta sinfin formalaşması imkanlarını nəzərdən keçirdik. Aydınlaşdırdıq ki, orta sinfin formalaşması və inkişafı yeni reallıqlarla, ilk növbədə sosial – iqtisadi münasibətlər sferasının inkişafı, iqtisadiyyatda struktur dəyişiklikləri və effektli sosial siyasətlə birbaşa bağlıdır.

## AZƏRBAYCAN-BELÇİKA KRALLIĞI MÜNASİBƏTLƏRİ MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ

***Hacıyev N.M.***

*Gəncə Dövlət Universiteti*

Bir sıra mühüm beynəlxalq və regional təşkilatların mənzil qərargahının Avropanın aparıcı dövlətlərindən olan Belçikada yerləşməsi müstəqil dövlətçilik yolu tutmuş gənc ölkələr üçün geniş qarşılıqlı əlagələr qurulmasının əhəmiyyətini daha da artırır. Xüsusən, NATO və Avropa birliyi kimi nüfuzlu beynəlxalq təşkilatların mənzil gərargahlarının Brüsseldə yerləşməsi bu ölkəyə planetin qlobal məsələlərinin və dünya siyasətinin müəyyənləşdirildiyi, istiqamətləndirildiyi mərkəzlərdən biri rolunu oynamaq imkanı yaradır.

Azərbaycan respublikası ilə Belçika krallığı arasında bir başa diplomatik əlaqələr yaradılması üçün ilk təşəbbüs 1992-ci ilin fevralında göstərilmişdir. 1992-ci il fevralın 19-da Azərbaycan Respublikasının Baş Naziri Belçikaya səfəri gedişində bu ölkənin hökümət başçısı ilə görüşmüş və iki ölkə arasında birbaşa əməkdaşlığın inkişafına dair məsələləri müzakirə etmişdir. Səfər zamanı Belçika ilə Azərbaycan arasında diplomatik və konsul münasibətləri yaratmaq haqqında saziş imzalanmışdır. Tərəflər bir – birinə diplomatik nümayəndələr göndərməyi gərara almışlar.

Azərbaycan MDB-yə daxil olan respublikalar arasında Belçika ilə diplomatik

münasibətlər yradan ilk dövlət idi. Imzalanmış sənəddə hər iki tərəf SSRI ilə Belçika krallığı arasında hələ də qüvvədə olan ikitərəfli sənədləri tanıdıqlarını və iki ölkə arasında qarşılıqlı münasibətləri tənzimləyən yeni hüquqi – normativ sənədlər imzalanana qədər onları tanıyacaqlarını qeyd edirdilər. Imzalanmış sənədlər iki ölkə arasında yeni münasibətlər yaradılması yolunda atılmış ilk addım idi. Azərbaycan Resrublikası ilə Belçika arasındakı siyasi əlaqələrin yüksək səviyyəyə qaldırılmasına, Azərbaycanın Avropa ölkələrinə inteqrasiyasının sürətləndirilməsinə təkan verən yeni sənədlərin imzalanması zamanı tələbi idi.

Iki dövlət arasında münasibətlərin yaranması və inkişafının ən mühüm mərhələsində 1994-cü il may ayının 3–5–ində Azərbaycan Respublikanın Prezidenti Belçikaya hesab oluna bilər. Brusseldə ümumavropa reqionun mərkəzi Belçika Krallığı ilə ümumqafqaz regionunun və Avropa- Asiya qitələrinin kəsişmə mərkəzinin əsas ölkəsi rolunu oynayan Azərbaycan dövləti arasında ikitərəfli və çoxtərəfli münasibətlərin siyasi və beynəlxalq aspektləri qeniş müzakirə olunmuş, gələcək əlaqələrin prinsipləri aşkarlanmış və mühüm qərarlar qəbul edilmişdir.

Belçikaya səfər çərçivəsində Avropa ölkələrindəyaşayan soydaşlarımızla da görüşdü.görüşdə Azərbaycanda gedən ictimai, siyasi dəyişikliklərdən, müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətindən, xaricdə yaşayan soydaşlarımıza münasibətdən, onların dövlətçiliyimizə və dövlətimizin onlara göstərə biləcəyi kömək və yardımdan geniş bəhs olundu. Soydaşlarımızın müstəqil Azərbaycan dövlətinin Avropaya inteqrasiya olunmasına göstərə biləcəyi xidmət və verə biləcəkləri töhfə xüsusi qeyd edildi.

Göründüyü kimi, Belçika ilə münasibətlərin yaradılması və inkişaf etdirilməsi sahəsində konkret praktik tədbirlərin həyata keçrilməsi yalnız 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident H. Əliyevin çoxsahəli fəal xarici siyasət xətt yeritməsi sayəsində mümkün olmuşdur. Azərbaycan diplomatiyasının çevik və daha məqsədyönlü fəalliyyəti nəticəsində bu gün Avropa Birliyinin, NATO- nun, ATƏT-in və başqa beynəlxalq və regional təşkilatların fəal üzvü olan Belçika Krallığı Azərbaycanın bütün sahələrdə, xüsusən, Ermənistan-Azərbaycan münaqişəsi və dağlıq Qarabağ probleminin aradan qaldırılması, Qafqaz regionunda geosiyasi maraqlarının beynəlxalq prinsiplərə uyğun həlli, Azərbaycana Avropa Birliyinin və ayrı-ayrı dövlət və beynəlxalq təşkilatların hərtərəfli yardım göstərməsi, onun Avropa təhlükəsizlik sisteminə inteqrasiya olunmasında dəstəkləyir. Bu dövlətlərindən biri olan Norveçlə respublikamız arasında qarşılıqlı əlaqələrin yaradılıb inkişaf etdirilməsi ölkəmizin dünya birliyinə siyasi inteqrasiyasını sürətləndirən amil kimi diqqəti cəlb edir.

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜSTƏQİLLİK TARİXİNDƏN

***Hacıyev Q.Ə.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Azərbaycan Respublikasının tarixində 18 oktyabr əlamətdar günlərdən biridir. Belə ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini bərpa etmişdir.

Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi təklif edildi və bu barədə Azərbaycan parlamenti qarşısında məsələ qaldırılmasına dair tarixi bir qərar qəbul olundu.

Heydər Əliyev sovet imperiyasının qorunub saxlamasını istəyən qüvvələrin əleyhinə olaraq, Kommunist Partiyası sıralarını tərk etdi Azərbaycan xalqını və rəhbərliyini Kommunist Partiyasının totalitar idarəçiliyindən xilas etməyə çağırdı.

1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Məcburiyyət qarşısında qalan Azərbaycan iqtidarının razılığı ilə Ali Sovetin 1991-ci il 30 avqust tarixli növbədənkənar sessiyası Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi.

Təəssüf ki, respublika rəhbərliyinin tərəddüdləri nəticəsində bu məsələnin icrası iki aya qədər gecikdi.

1991-ci il sentyabrın 1-də Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Soveti qondarma "Dağlıq Qarabağ Respublikası" yaradılması barədə saxta qərar qəbul etdi.

1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə əsaslandığı qeyd edilməklə tarixi sənəd - Konstitusiya Aktı qəbul edildi.

Dekabrın 3-də Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması xahişi ilə BMT-yə və dünya dövlətlərinə müraciət etdi.

Dövlət Müstəqilliyi Haqqında konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də Azərbaycan Respublikası özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra əldə etdi.

1993-ci ildən etibarən Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xətti tutdu və hərtərəfli inkişaf başlandığı şəkildə uğurla davam etdirir.

Bütün bu inkişafın təməlində Heydər Əliyev amili, tarixin təltif etdiyi şəxsiyyət, XX-XXI əsrin böyük azərbaycanlısı, dünya siyasətinin azərbaycanlı dahisi Heydər Əliyevin siyasəti dayanır.

Dövlətimiz və xalqımız bu siyasətə sadiq olaraq Azərbaycan xalqının taleyini yaşayan Heydər Əliyevin yolu ilə gedir. Bu inkişaf yolu Ulu öndər Heydər Əliyevin xalqımıza bəxş etdiyi Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət ilə davam edir.

**MÜSTƏQİLLİK, SUVERENLİK VƏ ƏMƏKDAŞLIĞIN QARANTI – "ƏSRİN MÜQAVİLƏSİ"**

***Hacıyeva M.C.***
*Sumqayıt Dövlət Universiteti*

Xalqın mübarizəsi ilə SSRİ-nin əsarətindən qurtulmuş Azərbaycan dərin iqtisadi, siyasi, sosial və mənəvi böhran keçirirdi. Bunun səbəbləri Ermənistan – Azərbaycan münaqişəsi, aparılan uğursuz siyasət, yeni iqtisadi sistemə keçid, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə düzgün çatdırılmaması, daxildə vətəndaş müharibəsi və s. ibarət idi.

1993-cü ildə xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev Azərbaycanın maraqlarını qoruyan siyasət yürütməyə başladı. Ən əsas addımlardan biri 1994 cü il 12 may tarixində Ermənistan Respublikası ilə atəşkəsin imzalanması oldu ki, bu amil Azərbaycan Respublikasının beynəlxalq aləmdə fəaliyyət imkanlarını genişləndirdi. Daxildəki münaqişələrə son qoymaqla çökmüş iqtisadiyyatı dirçəltməyə çalışan prezident Heydər Əliyev lider dövlətlərin diqqətini Azərbaycana yönəldən siyasət yürütdü. O, ölkənin milli maraqlarını və xarici dövlətlərin mənafelərini qarşılıqlı nəzərə almaqla, Azərbaycanın neft ehtiyatlarına maraq göstərən hər bir ölkə ilə faydalı əməkdaşlığa hazır olduğunu bəyan etdi. Azərbaycanın neft siyasətinə ilk maraq göstərən ABŞ və Qərbi Avropa dövlətləri oldu. Azərbaycan Respublikası Qərb ölkələri, Türkiyə, İran, Rusiya kimi dövlətlərin maraqlarını cəlb etməklə, çətin geocoğrafi məkanda manevrlər etməyə çalışırdı.

Beləliklə, 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsi" imzalandı. Xəzərin Azərbaycan sektorunda "Azəri" "Çıraq" "Günəşli" yataqlarının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsi barədə sazişə əsasən layihənin umumi investisiya qoyuluşu 10 milyard ABŞ dolları həcmində idi. Əslində, Azərbaycan bu müqavilə ilə ilk dəfə Xəzər dənizini milli sektorlara böldü. Bu isə bəzi qüvvələri narahat edirdi və "Xəzər dənizi bütün Xəzəryanı ölkələr üçün ümumidir, onu milli sektorlara bölmək olmaz" kimi iddialar irəli sürülməyə başladı.

Bəs "Əsrin müqavilə"sinin imzalanması Azərbaycana nə vəd edirdi? Bu müqavilənin imzalanması zərurətini doğuran amillər hansılar idi? Fikrimizcə, bu amilləri aşağıdakılar kimi müəyyənləşdirə bilərik:

- yeni müstəqillik qazanmış və iqtisadiyyatı çökmüş Azərbaycan üçün xarici investisiya qoyuluşu çox vacib idi. Bu yeni iqtisadi sistemə keçid, islahatların davam etdirilməsi baxımından Azərbaycana geniş perspektivlər vəd edirdi;
- Azərbaycan Qərbin maraqlarını özünə cəlb etməklə onların dəstəyini qazanıb Rusiya və İranın təzyiqlərini dəf etməyə çalışırdı;
- Ermənistan – Azərbaycan münaqişəsində özünün haqq səsini yüksəltmək üçün beynəlxalq tərəfdaşlar axtarırdı;
- Dünyanın lider dövlətləri ilə böyük həcmli müqavilə bağlanması yenicə müstəqillik qazanmış Azərbaycan üçün suverenliyin və müstəqilliyin təminatı demək idi.

Müqavilənin bağlanmasından ötən 22 il ərzində Azərbaycan nəinki təkcə iqtisadi, o cümlədən, siyasi, sosial, mədəni cəhətdən də özünəməsus yüksəliş dövrü keçmiş və inkişafın Azərbaycan modelinə nail olmuşdur. Özündə cəmiyyətin bütün sahələrində milli

modernləşmə xəttini birləşdirən bu model Azərbaycanı regionun lider dövlətinə, beynəlxalq aləmdə isə nüfuz sahibinə çevirmişdir.

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ GUAM-a ÜZV OLAN ÖLKƏLƏRLƏ İKİTƏRƏFLİ QARŞILIQLI MÜNASİBƏTİ

**_Həsənov U.D._**
*Gəncə Dövlət Universiteti*

GUAM ölkələrinin dövlət başçılarının 2000-ci il sentyabrın 6-da Vaşinqtonda BMT-nin Minilliyin Sammiti çərçivəsində keçirilmiş görüşündə təşkilatın fəaliyyəti yüksək qiymətləndirilmiş və regional əməkdaşlığın əlverişli mexanizmi kimi GUAM-ın fəaliyyətinin daha da gücləndirilməsi zərurəti vurğulanmışdır. Qeyd etmək lazımdır ki, təşkilatın gərgin və uğurlu fəaliyyətinin nəticəsi kimi Strasburq rəsmi məlumatı, «Vaşinqton bəyənnaməsi» və «Nyu-York memorandumu»nun imzalanması GUAM çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə, regionda sülhün və təhlükəsizliyin qorunub-saxlanılmasına və BTM-nin norma və prinsiplərinin həyata keçirilməsinə təminat yaradır.

Vaşinqton görüşündən sonra keçirilmiş bir sıra yüksək səviyyəli görüşlərdə də GUAM təşkilatının fəaliyyəti dövrün tələblərinə cavab verən, ikitərəfli və çoxtərəfli əməkdaşlığın yeni istiqaməti kimi qiymətləndirilmişdir. Bu baxımdan Azərbaycan prezidenti Heydər Əliyevin 2001-ci il mayın 4-də GUAM-ın üzvü olan ölkələrin ticarət-sənaye palatalarının rəhbərlərini qəbul edərkən tərəflərin münasibətlərini qeyd etmək yerinə düşərdi. Ukrayna Ticarət-Sənaye Palatasının birinci vitse-prezidenti Viktor Yanovski bildirmişdir ki, "buraya Azərbaycan Ticarət və Sənaye Palatasının dəvəti ilə bizim üçün çox maraqlı və mühüm olan - GUAM ölkələri arasında əməkdaşlığa həsr olunmuş və belə bir əməkdaşlığa maraq göstərən digər ölkələrin də cəlb edildiyi simpoziumun işində iştirak etmək üçün gəlmişik. Müstəqilliyimizin 10 ili ərzində bir çox əlaqələr itirildiyindən onları bərpa etmək və eyni zamanda yeni iqtisadi əlaqələr yaratmaq lazımdır. Bizim simpoziumun iştirakçıları ticarət-sənaye palatalarının əlaqələndirici orqanının - ölkələrimizin işgüzar dairələrinə yardım göstərilməsi sahəsində təşkilatlarımızın razılaşdırılmış fəaliyyətinə kömək edə biləcək orqan yaradılmasının zəruriliyini də bildirdilər. Ümidvarıq ki, belə bir orqanın yaradıldıqdan sonra o, GUAM-da bu əməkdaşlıq çərçivəsində yaradılacaq digər əlaqələndirmə orqanı ilə sıx əməkdaşlıq şəraitində işləyəcəkdir".

Prezident Heydər Əliyev isə GUAM çərçivəsində keçirilən simpoziumu yüksək qiymətləndirdiyini bildirdi və qeyd etdi ki, "burada təmsil olunan ölkələrin ticarət-sənaye palataları arasında daha sıx əlaqələr yaranmasının çox böyük əhəmiyyəti var. Mən belə başa düşdüm ki, simpoziumun təşəbbüsçüsü GUAM ölkələrinin-Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanın ticarət-sənaye palatalarıdır. Mən bunu tamamilə qanunauyğun, təbii hal sayıram, çünki regionlarımız bir-biri ilə çox sıx bağlıdırlar".

GUAM təşkilatı çərçivəsində regional əməkdaşlığın inkişaf etdirilməsi məsələsi Azərbaycan parlament nümayəndə heyətinin 2002-ci il dekabrın 1-indən 4-ünədək Ukrayna Respublikasına rəsmi səfəri zamanı da aparıcı yer tutmuşdur. Belə ki, Milli Məclisin sədri Murtuz Ələsgərov və Ukrayna Ali Radasının sədri Vladimir Litvin keçirdikləri görüşlərin nəticələrinə dair rəsmi kommunike imzalmışlar. Sənəddə regional münaqişələrin, tərəflərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həlli GUAM ölkələri qarşısında duran ən vacib məsələ kimi qeyd olunmuş və tərəflər təşkilatın Parlament Assambleyasının yaradılması məqsədilə 2003-cü ilin birinci yarısında Kiyevdə GUAM-a üzv olan ölkələrin parlament sədrlərinin görüşünün keçirilməsi barədə razılığa gəlmişlər.

Məhz təşkilatın bu tarixi inkişaf yolu artıq tamamilə təsdiq etmişdir ki, Qafqazda sülh və inteqrasiya prosesində-1999-cu ildə Özbəkistanın da qoşulduğu və bu gün dünya siyasətində GUAM kimi tanınan regional iqtisadi təşkilatın ciddi rolu vardır.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN GƏNCLİYİNDƏ FORMALAŞAN YENİ PRİNSİP VƏ MƏNƏVİ DƏYƏRLƏR

***Həsənov U.D.***

*Gəncə Dövlət Universiteti*

Ümummilli lider Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə 1994-cü il iyulun 26-da yeni dövlət qurumunun - Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. 1996-cı il fevralın 2- də keçirilmiş Gənclərin I Forumunım xüsusi əhəmiyyəti oldu. Növbəti forum 1999-cu ilin martın 2-3-də keçirildi.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə dövlət gənclər siyasətinin tənzimlənməsi ilə bağlı normativ-hüquqi baza yaradıldı. Belə ki, ümummilli liderimiz Heydər Əliyev 1993-2003-cü illərdə gənclərlə bağlı fərmanlar vermişdi. 1999-cu il iyulun 29-da «Dövlət gənclər siyasəti»nə aid geniş tədbirlər planı ilə əlaqədar xüsusi Fərman imzaladı. Uşaq və gənclərin hərətərəfli inkişafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək məqsədilə qəbul edilmiş «Dövlət Gənclər Siyasəti haqqında» Azərbaycan Respublikası Qanunu ümummilli lider Heydər Əliyevin 6 may 2002-cı il tarixli fərmanı ilə qüvvəyə minmişdir. Bu qanun Respublikamızda gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Qanunda «gənclər» anlayışı 16-35 yaşlarında olan bütün vətəndaşlara şamil edilmişdir.

Ümummilli lider Heydər Əliyevin gənclərlə bağlı həyata keçirdiyi strategiya bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm prezidentimiz İlham Əliyevin «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)» üzrə həyata keçirilən tədbirbr haqqında 30 avqust 2005-ci il tarixində imzaladığı sərəncam bir daha Azərbaycan gəncliyinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

XX əsrin sonlarında Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsində gənclərin böyük xidmətləri olmuşdur. «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanında göstərildiyi kimi, «sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olmuşdur».

Müasir mərhələdə Azərbaycan dövlətinin gənclər siyasəti ümummilli liderimiz Heydər Əliyevin gənclərlə bağlı qəbul etdiyi sərəncam və fərmanlar, etdiyi çoxsaylı çıxışlar və məruzələr, eləcə də Konstitusiyanın müvafiq müddəaları, "Dövlət Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikası Qanunu, digər qanunvericilik aktları və qərarları, Azərbaycan Respublikası Prezidentinin imzaladığı gənclərlə bağlı Dövlət Proqramları ilə tənzimləndyini və həyata keçirildiyini görmək mümkündür.

1997-2000-ci illərdə gənclər siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm işlər görüldü. Bu müddətdə uşaq və gənclərin fiziki, mənəvi-əxlaqi, vətənpərvərlik tərbiyəsi işi, onların sosial-iqtisadi problemlərinin həllini sürətləndirmək üçün bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul olunmuşdur: «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının qanunu (19 may 1998-ci il), «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının qanunu (22 iyun 1999-cu il), «Dövlət Gənclər Siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı (29 iyul 1999-cu il), «Gənc ailə proqramı» (16 fevral 1999-cu il), «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi» Proqramı (17 fevral 1999-cu il), Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1999-cu il tarixli 169 nömrəli Fərmanı ilə «Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı» təsdiq edildi. Planda nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təqdim olunmuş bir sıra yeni proqramlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə təsdiq edildi: «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» Dövlət Proqramı (22 iyun 2000-ci il), «İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial-iqtisadi və s. problemlərin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən» Dövlət Proqramı (4 avqust 2000-ci il), «Ordudan tərxis olunmuş gənclərin məşğulluq» Proqramı (23 avqust 2000-ciil). Bu proqramların bir çoxunun icra müddəti başa çatmışdır və yeni proqramlar hazırlanaraq həyata keçirilməkdədir.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA APARILAN SOSİAL İSLAHATLAR

***Həsənova Ə.A.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqil dövlətçiliyimizin qurucusu və memarı, siyasi xadim və ən böyük şəxsiyyətlərdən biridir. Ulu öndər ölkəyə rəhbərlik etdiyi illərdə ictimai həyatın bütün sahələrində inkişafın dönüş nöqtələrini dəqiq müəyyən etmiş, xalqın gücünü bu məqsədlərə yönəltmişdir. Sosial-iqtisadi inkişaf tempinə görə dünyanın aparıcı dövlətləri ilə bir sırada dayanan, daha da qüdrətlənən müstəqil Azərbaycan Respublikası Heydər Əliyev dühasının, dərin idarəçilik fəlsəfəsinin şah əsəridir. Dünyanın siyası xəritəsinə adı ötən əsrin 90-cı illərində yazılan Azərbaycan Respublikasının müstəqil inkişaf yolu ağır sınaqlardan keçmişdir. Xarici təzyiq, hərbi təcavüz, daxili çəkişmələr nəticəsində, ölkəmiz torpaqlarının 20 faizini itirmiş, bir miliyona yaxın soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdü. Bu çətin anda xalqımız vəziyyətdən çıxış yolunu dövrümüzün görkəmli siyasi xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışında gördü.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsinin" imzalanması Azərbaycanın bu günə və gələcəyə inamını artırdı. Bu müqavilədən sonra xeyli sayda neft- qaz sazişlərinin imzalanması müşahidə olundu. Heydər Əliyev 1999-cu ilin dekabrnda Dövlət Neft Fondunu

yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Fondun vəsaitlərinin yönəldiyi sahələrdən biri də gənclərin xarici ölkələrdə təhsilinə dair dövlət proqramının icrasıdır. Ulu öndər Azərbaycanda daim sosialyönümlü baza iqtisadiyatının tərəfdarı olmuş, özəl sektorun dinamik inkişafı şəraitində sosial problemlərin həllində, o cümlədən işəgötürənlərlə işçilər arasında əmək münasibətlərinin qanunauyğun qaydada tənzimlənməsində dəfələrlə qanunvericilik təşəbbüsündən istifadə etmişdir. Məhz ulu öndərin göstərişləri və tövsiyələri sayəsində Azərbaycan Həmkarlar İttifaqlarının vəzifələri dəyişdi, onların sosial təyinatı, funksiyaları, fəaliyyətlərinin forma və metodları əsaslı şəkildə yenidən quruldu. “

Həmkərlar ittifaqları haqqında” qanun qəbul edilməklə həmkərlar ittifaqlarının cəmiyyətdəki yeri və statusu müəyyən edildi; həmkərlar ittifaqlarının qeyri- siyasi təşkilat kimi dövlət və təsərrüfat orqanlarından və siyasi sistemin digər vəsilələrindən asılılığı aradan qaldırıldı; həmkərlar ittifaqlarının bütün strukturlarında, o cümlədən aşağı vəsiləli həmkarlar ittifaqlarında inzibati-amirlik sisteminə son qoyularaq sahə məsələlərinin həllində həmkərlar ittifaqlarının və orqanlarının müstəqilliyi təmin edildi, həmkərlar ittifaqlarının hüquqları tanındı, Azərbaycan Həmkərlar İttifaqları beynəlxalq həmkərlar ittifaqları hərəkatının tərkib hissəsinə çevrildi. Bütün bunlar respublikada həmkərlar ittifaqı hərəkatının inkişafına stimul yaradaraq işçilərin sosial- iqtisadi hüquqlarının müdafiəsinin daha səmərəli formada həyata keçirməyə imkan yaratdı. Bu gün Azərbaycan Həmkərlar ittifaqları vətəndaş cəmiyyətinin əsas institutlarından biri olmaqla, cəmiyyətdə öz yerinin və rolunun möhkəmləndirilməsi üçün real yollar axtarıb tapır.

Sosial ədalət prinsipinə əməl edilməsi, bazar iqtisadiyyatı şəraitində işçilərin əmək hüquqlarının qorunması, işəgötürənlə işçilər arasında münasibətlərinin tənzimlənməsi istiqamətində tədbirlər həyata keçirilir. Respublikada söz, mətbuat, vicdan, əqidə azadlığının təməlini qoyan, Yeni Azərbaycan Partiyasını yaratmaqla demokratiyanın başlıca tələblərindən olan çoxpartiyalıq sisteminə keçidi demokratiyanın əsas şərtləri kimi dəyərləndirən ulu öndər müstəqil mətbuatın inkişafına sivil cəmiyyətin əsas atributlarından biri kimi diqqət yetirirdi. Ölkədə apardığı demokratik islahatlara görə dəfələrlə “ jurnalistlərin dostu” adına layiq görülən Heydər Əliyev daim insanları birliyə, saflığa çağırır, şəxsiyyəti nüfuzdan salan ələbaxımlılıq hallarına qarşı mübarizəni ümümxalq işi hesab edirdi. Ölkədə keçirilən prezident, bələdiyyə seçkilərinin obyektivliyini, şəffaflığını təmin edən ümummilli liderin səyi sayəsində Azərbaycanda tam demokratik tələblərə uyğun parlament formalaşdı, təkmilləşdi. Azərbaycan Şərq aləmində ilk dəfə olaraq ölüm hökmünü ləğv edən ölkə kimi tanındı. Ulu öndərin inamını döğruldan, onun siyasi məktəbinin layiqli davamçısı, yeritdiyi düzğün siyasətini, rəhbərlik təcrübəsini, iradəsi də qətiyyəti ilə davam etdirən Prezident İlham Əliyev xalqın sevimlisidir. Bəşər tarixi çox böyük insalar yetişdirmişdir. Onların arasında inqilab edənlər, dövlət yaradıb millətləri uçun böyük işlər görənlər də var. Ancaq onların çoxunun tarixdə izi qalmamışdır. Heydər Əliyev isə müəllifi olduğu Azərbaycanın müstəqilliyini qoruyub əbədiləşdirməklə bu missiyanı layiqincə yerinə yetirdi.

# GƏNC AZƏRBAYCAN RESPUBLİKASININ ÇAĞDAŞ TARİXİNƏ QISA BİR NƏZƏR

***Həsənov H.N.***

*AMEA, AA.Bakıxanov adına Tarix İnstitutu*

Ötən əsrin 80-ci illərində keçmiş Sovetlər İttifaqını bürümüş geniş xalq hərəkatı nəticə etibarı ilə “şər imperiyası”nın dağılmasına gətirib çıxardı. Bu xalq hərəkatının ən güclü mərkəzlərindən biri də Quzey Azərbaycan idi. 1920-ci ildə XI qırmızı ordunun süngüləri ilə məhv edilmiş dövlətçiliyimizin bərpası uğrunda heç vaxt mübarizədən əl çəkməmiş xalqımız, nəhayət ki, 70 illik fasilədən sonra 1991-ci ildə Şimali Azərbaycanda milli dövlətçiliyimizin bərpasına nail ola bildi.

Bu il 25 illiyini qeyd etdiyimiz Azərbaycan Respublikası çox mürəkkəb daxili və xarici siyasi vəziyyətdə meydana çıxmışdı. Ağanbekyanlarla əhatə olunmuş qorbaçovçu İttifaq rəhbərliyinin cinayətkar siyasəti nəticəsində yenidən baş qaldırmış erməni separatizmi Vətənimizin ərazi bütövlüyünü böyük təhlükə altına qoymuşdu. Yeni Rusiya rəhbərliyinin Azərbaycana qarşı münasibətdə çox sərt mövqeyi, mütəllibovçu rəhbərliyin fərasətsizliyi, 1992-ci ildə hakimiyyətə gəlmiş AXC-Musavat hökumətinin təcrübəsizliyi gənc respublikamızın siyasi və iqtisadi maraqlarının ciddi sınaqlarla üz-üzə qoymuşdu.

Ərazimizin 20 faizinədək işğal olunması, bir milyonadək qaçqın və köçkünün varlığı, qonşu ölkələrlə münasibətlərdəki problemlər gənc Respublikamızın varlığı üçün ciddi təhlükələr yaratmışdı.

Nəhayət, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndərin hakimiyyətə qayıtması Vətənimiz, Xalqımız və Dövlətimiz üçün əsl xilas və nicatın başlanğıcı oldu. Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar olundu, Beyləqan-Horadiz əməliyyatlarında tərs şapalaq alan ermənilər və onların havadarları atəşkəsə getməyə razı olmaq məcburiyyətində qaldılar. Balanslaşdırılmış xarici siyasət hesabına əksər qonşu ölkələrlə münasibətlər normallaşdırıldı, qərbyönümlü və şərqyönümlü hərbi-siyasi təşkilatlarla qarşılıqlı şəkildə səmərəli olan əməkdaşlıq nizama salındı, ölkənin başlıca sərvətlərinin xalqın və dövlətin mənafelərinin xidmətinə qoyulması istiqamətində ciddi, çoxmilyardlıq layihələr işlənilib hazırlanaraq reallaşdırılmağa başlanıldı. Ulu Öndərin rəhbərliyi altında XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanın quzey torpaqlarında sivil, çağdaş dünya demokratiyasının ən ciddi tələb və qaydalarına müvafiq olan dövlətimizin qurulması üzrə sistemli bir iş aparılaraq böyük uğurlar əldə olundu.

2003-cü ildən bəri Dahi Atanın işini böyük ləyaqətlə davam etdirən İlham Əliyev cənablarının rəhbərliyi altında Azərbaycan Respublikası daxili və xarici siyasətdə yeni-yeni böyük uğurlara imza atmışdır.

Bu gün Azərbaycan Respublikası regionun şəksiz və şəriksiz lideridir. Azərbaycan Şərq və Qərb, Quzey və Güney arasında böyük nüfuza və strateji əhəmiyyətə malik olan mühüm bir ölkədir. Respublikamız Qərbin və Şərqin strateji tərəfdarıdır, Vətənimiz Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçılarından birinə, tarixi İpək yolu üzərində böyük iqtisadi əhəmiyyətə malik tranzit nəqliyyat koridoruna çevrilmişdir. Xəzər regionunun, Mərkəzi Asiyanın enerji daşıyıcılarının xeyli hissəsi bizim ərazimizdən

keçməklə dünya bazarlarına çıxarılır, London-Pekin dəmiryol xəttinin tam bütövləşdirəcək Bakı-Tbilisi-Qars xəttinin işə düşməsinə az bir vaxt qalıb.

İqtisadi qüdrəti gündən-günə artmaqda olan Azərbaycanımızın haqq səsi beynəlxalq tribunalardan getdikcə daha aydın və ucadan eşidilməkdədir. Məqsədyönlü xarici siyasət erməni təcavüzkarlığının əsl mahiyyətini açaraq Qarabağ həqiqətlərini bütün dünyaya çatdıra bilmişdir. Güclü Azərbaycanın qüdrətli ordusu bu ilin aprel döyüşlərində bir daha sübut etdi ki, Azərbaycanın ərazi bütövlüyünün tamamilə bərpa edilməsinə çox az vaxt qalmışdır.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ XƏZƏR AMİLİ

***Huseynova L.Ə.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Heydər Əliyevin beynəlxalq aləmdə realist, uzaqgörən və təmkinli fəaliyyəti sayəsində Rusiya ilə, Qazaxıstanla və hətta Xəzərin bölgüsü ilə bağlı Azərbaycana qarşı iddiaları olan Türkmənistan və İranla da qarşılıqlı münasibətlər normallaşdırıldı. Digər tərəfdən Azərbaycan neftinin işlənməsi və nəqli işinə Qərbin iri neft şirkətləri də cəlb edildi ki, bu da 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə nəticələndi. Heydər Əliyev deyirdi: "Xəzər dənizi hövzəsi dünyanın bir çox ölkələri və şirkətlərinin əməkdaşlığı səhnəsinə çevrilir. Bu isə dünyada baş verən inteqrasiya proseslərinə kömək etməklə, ölkə və xalqların sülh və stabillik şəraitində qarşılıqlı əməkdaşlığının çox gözəl bir nümunəsidir".

Heydər Əliyevin digər bir böyük diplomatik uğuru Xəzərdən Aralıq dənizinə Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə "Əsas İxrac Boru Kəməri" layihəsinə beynəlxalq dəstəyi təmin etməsi ilə bağlı olmuşdur. Bu, Ankarada 29 oktyabr 1998-ci ildə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkiyə, Özbəkistan prezidentləri və ABŞ-ın yüksək səviyyəli nümayəndəsi tərəfindən xüsusi bəyannamənin imzalanmasında öz ifadəsini tapdı. ATƏT-in 18 noyabr 1999-cu il İstanbul sammitində isə Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə Əsas İxrac Boru Kəmərinin tikintisinin başlanması və Xəzər neftinin beynəlxalq bazarlara çıxarılması müddətini müəyyən edən sazişlər paketi imzalandı.

Qərbin və Şərqin aparıcı dövlətləri neft-qaz ehtiyatlarının, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının işlənməsində, habelə Xəzər neftinin dünya bazarlarına nəqlində iştirak etməkdə geoiqtisadi nöqteyi-nəzərdən həmişə maraqlı olmuşlar və bu, indi də belə davam edir. Təkcə sahilyanı ölkələr deyil, dünyanın və bölgənin də böyük dövlətləri arasında bu enerji ehtiyatlarına çıxış uğrunda həm gizli, həm də açıq şəkildə rəqabət mübarizəsi gedir. İqtisadiyyat neft olmadan inkişaf edə bilməz. Buna görə də o, dünya siyasətində ən mühüm geostrateji amil olaraq qalmaqdadır. Özü də müasir qloballaşma proseslərinin vüsət aldığı və yeni dünya nizamının formalaşdığı bir şəraitdə "neft diplomatiyası" beynəlxalq münasibətlər sistemində güclü təsir mexanizmi, dünyanın müxtəlif regionlarında münaqişəli situasiyaların yaranmasının səbəblərindən biri olmuş və bu gün də belə qalmaqdadır. Təsadüfi deyildir ki, Qərbin neft siyasəti üzrə görkəmli ekspertlərindən biri olan D.Yergin qeyd etmişdir ki, "zorakılıq, müharibələr, texnogen

təhlükələr, siyasi kolliziyalar, iqtisadi imperativlər, etnik, dini, ideoloji və ya sosial münaqişələr – bir sözlə, neftə çıxışa təsir edə biləcək hər şey birdən baş verə bilər".

## ŞİMALİ AZƏRBAYCANDA MİLLİ OYANIŞ HƏRƏKATININ SON MƏRHƏLƏSİ - MİLLİ DÖVLƏTÇİLİYİN YENİDƏN BƏRPASINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Xasayev N.N.***
*Sumqayıt Dövlət Universiteti*

Şimali Azərbaycanda milli oyanış hərəkatı öz başlanğıcını XIX əsrin son rübü-XX əsrin əvvələrindən götürür. Çünki bu dövrdə Şimali Azərəbaycanda yeni bir ictimai-iqtisadi formasiyaya-kapitalizmə keçidlə bağlı bütün bölgələri əhatə edən ümumiqtisadi əlaqələr sistemi təşəkkül tapır. Şimali Azərbaycanda vahid və mərkəzi iqtisadi birlik yaranır. Vahid iqtisadi birliyin yaranması isə öz növbəsində hələ VII əsrin II yarısı-VIII əsrin I yarısında təşəkkül tapmış Azərbaycan xalqının millətə çevrilməsinə gətirib çıxarır. Azərbaycan milləti milli düşüncə daşıyıcıları və milli burjuaziya nümayəndələri öndə olmaqla milli kimliyinin tanınması və yarım əsr ərzində əlindən alınmış milli dövlətçiliyinin bərpası uğrunda dönmədən milli mücadilə hərəkatına başlayır. Milli ideoloq M.Ə.Rəsulzadənin təşkilatçılığı və liderliyi ilə Şimali Azərbaycanın bütün türk-müsəlman əhalisini bir araya gətirmiş "Türk Ədəmi Mərkəziyyət Partiyası Müsavat" avanqard rolda çıxış edib milli dövlətçiliyin bərpasına nail olur. Şərqin ilk respublikası-demokratrik quruluşlu dövləti kimi tarixə düşmüş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycanın beş minnillik dövlətçilik tarixinə, qurduğu dövlətin beynəlxalq tələblərə cavab verəcək daxili və xarici siyasət kursunu müyyən etməklə və gələcək milli dövlətçiliyə nümunə olacaq quruculuq işlərini həyata keçirməklə silinməz imza atmağı bacarmışdır. Şimali Azərbaycanın beş minillik dövlətçilik tarixini əlindən almış çarizmin xələfi Sovet Rusiyası 1920-ci il aprel ayının 28-də AXC-nin də varlığına son qoymuşdu. Bununla da Şimali Azəbaycanda milli oyanış hərəkatının birinci mərhəlsi başa çatmışdı.

I. Şimali Azərbaycan siyasi müstəqilliyinin əlindən alınıb Sovetlər birliyinin tərkibinə "könüllü" şəkildə qatılmasından sonra bir sıra dissident hadisələrini çıxmaq şərgti ilə XX əsrin 80-ci illərinin ikinci yarısına qədər SSRİ-nin neomüstəmləkəçilik boyunduruğunu gəzdirməyə məcbur olmuşdu. Ötən əsrin 80-ci illərinin II yarısında dünya sosializm sisteminin siyasi-ideloji cəhətdən aşınması ona hokmranlıq edən Sovet İttifaqından da yan keçmədi. Kreml özünü xilas etmək məqsədi ilə tarixən imperiyalara xas olan "parçala, hökm sür" taktikasına üstünlük verib keçim ittifaqın əksər ərazilərində milli münaqişə ocaqları yartmışdı. Bu zaman postsovet məkanı üzrə ən böyük milli konflikt Azərbaycanın tarixi ərazisi olan-1923-cü ildə Şimali Azərbaycanı daim siyasi təzyiq altında saxlamaq üçün bir ricaq kimi Moskva tərəfindən qəsdən yaradılan Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərlə - azərbaycanlılar arasında törədilmişdi. Tarixən erməni katolikosluğunun fitvası və xeyir-duası ilə davamlı olmuş 1918-ci il mart soyqırımı ilə özünün kulminasiya nöqtəsinə yüksəlmiş erməni-türk-müsəlman davası Qərbi Azərbaycan torpaqlarını da bürümüşdü. Nəticədə, ermənilər 1988-ci ilin yanvarından başlayaraq əsrlər boyu Qərbi Azərbaycanda aborogen əhali kimi yaşamış türk-müsəlman əhalisinin son deportasiyasına rəvac vermiş və

bununla da 1948-1952-ci illərdə yarımçıq qalmış etnik təmizləmə işinin qlobal həllinə nail olmuşdular.

II. Qərbi Azərbaycanlıların ilk köçünün 1988-ci ilin yanvar ayında Şimali Azərbaycana gəlməsi ölkədə milli oyanış hərəkatının yeni mərhələsinin alovlanması ilə müşayiət olunmuşdu. Artıq Şimali Azərbaycanın türk-müsəlman əhalisi öz soydaşlarının əzəli yurd yerlərindən didərgin salınması, Dağlıq Qarabağda ermənilərin yerli müsəlman əhalisinə qarşı amansız rəftar etməklə onları qaçqın halına salıb öz ev-eşiklərindən məhrum etməsi, ermənilərin bütün nasist əməllərini Moskvanın havadarlığı ilə həyata keçirmələri kimi dözülməz aşağılayıcı hallara göz yummaq istəmirdi. Yenicə formalaşmış milli demokratrik qüvvələr xalqı bir araya gətirib kütləvi mitinq və nümayişlər keçirir və bu yolla Şimali Azərbaycan Kommunist rəhbərliyindən Kremilə rəsmən etiraz bildirməyi israrla tələb edirdilər.

III. 1969-1982-ci illərdə Şimali Azərbaycana rəhbərlik etmiş H.Əliyevin həmin dövrdə ölkənin sosial-iqtisadi, milli-ideloji, ticari-mədəni sferalarında dirçəlişə gətirib çıxarmış əməli işləri həm Moskvanı həm də erməniləri narahat etməkdə idi. H.Əliyevin I hakimiyyəti dövründə yeritdiyi milli dirçəliş qayəli siyasəti həm Kremli həm də erməniləri qısqanclıqla qarşılayır, bu uzaqgörən siyasətin qarşısını almaq üçün məxfi plan hazırlayırdılar . N.Nərimanov kimi H.Əliyevi də Kremldə yüksək vəzifəyə təyin edən velikorus şovnizmi əslində onu Şimali Azərbaycanının milli dirçəlişinə gətirib çıxaracaq siyasi kursunu başa çatdırmaqdan ayırmaq məqsədi güdmüşdü. Yəni fürsət düşən kimi bu dünya şöhrətli dövlət xadiminin siyasi karyerasına son qoymaq kimi məkrli bir plan cızılmışdı. 1987-ci ildə reallaşmağa başlayan bu hiyləgər siyasətin baş tutmasında, H.Əliyevin hakimiyyətdən kənarlaşdırılmasında erməni məkri az rol oynamamışdı. H.Əliyevin nüfuzu və karyerasını özü üçün real təhlükə hesab edən Kreml hakim-mütləqi M.Qarbaçovun onu hakimiyyətdən uzaqlaşdırmasını Azərbaycan milli oyanış hərəkatına təkan verən bir hadisə kimi qiymətləndirmək olar. Qeyd edək ki, 1988-ci ilin noyabrında bir milyona yaxın insanı “Azadlıq” meydanına toplayan ən mühüm səbələrdən biri H.Əliyevə qarşı Kremilin yeritdiyi haqsız siyəsət idi. Meydandakı çıxışlar zamanı H.Əliyevin daim Azərbaycan xalqının yanında olduğunu və bu haqq işi uğurunda apardığı mübarizədə ona dəstək olduğunun vurğulanması da fikrimizə dayaq dura bilər

IV. Şimala Azərbaycanda başlanmış milli oyanış hərəkatı Kremlin Bakıda 1990-cı il 20 Yanvar milli qırğınını törətməsi ilə özünün ən yüksək mərhələsinə qədəm qoydu. Moskava 20 Yanvar qətliamını törətməklə, bütün postsovet məkanı üzrə Şimali Azərbaycanda daha geniş vüsət almış və gündən-günə alovlanaraq imperiyanın dayaqlarını sarsıtmış milli oyanış hərəkatına son qoymağı düşünmüşdü. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, velikorus şovnizmi mart soyqırımında olduğu kimi 20 yanvar faciəsini törətməklə istəmədən xalqı yenidən bir araya gətirib milli dövlətçiliyini bərpa etməyə vadar etmişdir. Qeyd edək ki, H.Əliyev “Qanl yanvar” faciəsinin səhəri öz həyatını risk altında qoyaraq Moskvadakı Azərbaycan nümayədələyinin binasından Azərbaycan xalqına SSRİ silahlı qüvvələri tərəfindən divan tutulması barədə beynəlxalq ictimayyətə bəyanat ünvanlamışdı. Bu bəyanatdan sonra Azərbaycan xalqının uzun illər boyu şərəflə gəzdirdiyi kommunist partiyasına məxsus biletlər lazımsız bir sənəd kimi nümayişkaranə şəkildə kütləvi olaraq atılmışdı.

V. Şimali-Azərbaycanın türk-müsəlman əhalisi 1918-ci ilin mart soyqırımından sonra atdığı cəsarətli addımı yenidən atmaqla 1991-ci il 18 oktyabr tarixində siyasi müstəqillik bərpası haqqında konstitusiya aktını qəbul etdi. Bununla da Azərbaycan xalqı öz siyasi müstəqilliyinə bir daha qovuşmuş oldu.

**DÖVLƏT MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR**

***Xəlilov E.Ş.***

*Sumqayıt Dövlət Universiteti*

Tarixi təcrübə subut edir ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Hər bir dövlətin müstəqilliyini şərtləndirən, onu əbədiləşdirən amillər, ilk növbədə, konkret şəxsiyyətlərin əməllərində praktik olaraq təcəssümünü tapır.

Bu mənada Azərbaycan xalqı 1991-ci ilin oktyabrın 18-də qanı, canı bahasına əldə etdiyi dövlət müstəqilliyini məhz ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında möhkəmləndirmiş, dövlət suverenliyinə əbədi təminat yaratmışdır. Son 24 ildə respublikamız demokratik, dünyəvi və sivil yolla inkişaf etmiş, insan hüquq və azadlıqlarının təminatı sahəsində böyük uğurlar qazanmışdır.

1991-ci ilin bir payız günü uzun-uzadı qızğın müzakirələrdən sonra "Azərbaycan dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bununla da Azərbaycan tarixində yeni dövrün başlanğıcı qoyuldu. Bir tərəfdən imperiyanın dağılmağa başlaması, digər tərəfdən xalqın artmaqda olan təzyiqi respublikanın hakim dairələrini manevr etmək məcburiyyətində qoymuşdu. Yuxarılarda belə hesab edirlər ki, bu sənədin qəbul edilməsi xalqı sakitləşdirəcək, hakimiyyətin ömrünü uzatmağa imkan verəcəkdir.

Ona görə də təsadüfü deyil ki, "Konstitusiya Aktı" ilkin mərhələdə yalnız quru kağız olaraq qalır. Azərbaycan yenə də Moskvadan idarə edilir, rejim Kremlin dediyi ilə oturub dururdu. Lakin indi bunlar arxada qalmışdır. Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir söz yazılmışdı: "Siz Azərbaycanın dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikasının Ali Sovetinin qəbul etdiyi "Konstitusiya Aktı"na tərəfdarsızmı?" Səsvermə hüquq olanların 95%-dən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı. Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkıb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdı.

Onun müstəqilliyini dünya dövlətləri tanıdı. Azərbaycan Respublikasını ilk olaraq 1991-ci ilin noyabrın 9-da Türkiyə Cümhuriyyəti, sonra Ruminiya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və b. dövlətlər tanıdı. Azərbaycan BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlandı. Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səbatsızlıq, səriştəsiz adamların yeritdiklər səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqiliyyini beşiyindəcə boğması təhlükəsini reallaşdırdı.

Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qaydışı ilə bu təhlükə sovuşdu. Milli ordu quruculuğunda əsaslı islahatlar aparıldı. Orduya çağırış, fərarilik halları ilə bağlı bütün problemlər həll edildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəlməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Hərbi təhsildən danışanda yada düşən məktəblərdən biri də əsası ulu öndər

Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə qoyulmuş Cəmşid Naxçivanski adına hərbi liseydir. Heydər Əliyevin səyi nəticəsində bu məktəbin yaradılması Azərbaycan hərbi təhsil tarixində yeni bir səhifə açmışdır. İndi hərbi lisey kimi fəaliyyət göstərən bu məktəbin o zaman təsis edilməsi respublikamızda milli zabit kadrları hazırlığının yüksəlməsinə, azərbaycanlıların hərbi sənətə marağının artmasına təkan vermişdir.

Ümummilli lider Heydər Əliyev xalqımızın milli varlığını dünyaya tanıtmaq, onun müstəqil dövlətini yaradaraq zəfərlərə doğru aparmaq kimi çətin və şərəfli bir missiyanı dahiyanəliklə həyata keçirmişdir. Respublikada iqtisadi və sosial durğunluğun qarşısın almaq məqsədilə 1969-cu ilin iyul ayında Azərbaycan Respublikası rəhbəliyində mühüm dəyişiklik aparılmışdı. O zaman dərin biliyi, idarəetmə sahəsində bacarıq və səriştəsi, işgüzarlığı, mənəvi-əxlaqi yetkinliyi, yüksək səviyyədə təşkilatçılığı ilə tanınıb seçilən Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə maddi istehsalın bütün sahələrində ardıcıl artım dinamikasına nail olmuşdu, əhalinin sosial müdafiəsi xeyil güclənmişdir.

Məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti, qayğısı nəticəsində müxtəlif sahələr üzrə neçə-neçə gənc yüksək səviyyəli mütəxəssis kimi hazırlanmış, Azərbaycanda sosial-iqtisadi və siyasi idarəetmə sahələrində milli kadr potensialı formalaşmışdı. Bu potensial Azərabaycan müstəqillik əldə etdikdən sonra ölkə üçün son dərəcə böyük əhəmiyyət kəsb etmişdir. Çünki hər bir ölkənin inkişafı üçün onun hazırlıqlı kadr potensialının olması vacib şərtlərdən biridir. Heydər Əliyev hələ o zaman gələcəkdə Azərbaycanın müstəqil bir dövlət olacağını düşünürdü və sonralar bunu açıq şəkildə ifadə etmişdi: "Bəli, mən bu işləri görərkən həm də gələcək müstəqil Azərbaycan üçün fəaliyyət göstərirdim və gələcək müstəqil Azərbaycan dövlətinin əsaslarını yaradırdım". 1969-1982-ci illərdə yaradılan əsaslar müstəqil Azərbaycanın dövlət quruculuğu prosesində öz rolunu oynamışdı. Azərbaycan 1991-ci ildə müstəqillik əldə etsə də, suverenlik daxili və xarici təzyiqlər, ölkədə baş verən təhlükəli proseslər nəticəsində tükdən aslı idi. Müstəqilliyin itirilməsi, ölkənin parçalanması təhlükəsi mövcud idi. Ayrı-ayrı silahlı qurplaşmalar xalqı qorxu içərisində saxlayır, xaos və anarxiya baş alıb gedirdi. Orduda nizam-intizam aşağı səviyyədə olduğu üçün bu vəziyyətdən istifadə edən erməni işğalçıları respublikanın ərazilərini bir-birinin ardınca istila edirdi. Belə çətin durumda Azərbaycan xalqının bir nicat yolu qalmışdı. Bu, ulu öndərimiz Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qaydışı idi. Bu yol ölkəmizi, dövlətimizi tarixin daha bir çətin sınağından üzüağ çıxardı. Ölməz rəhbəri hakimiyyətə qaytaran, onun ətrafında sıx birləşən, addımlarını dəstəkləyən xalqımız bununla firavan gələcəyin təməlini qoymuş oldu. Qədim və zəngin tarixə, yüksək mədəni irsə və milli dəyərlərə malik olan Azərbaycan xalqı 1969-1982-ci illərdə olduğu kimi 1993-cü ildən sonrakı dövrdə də taleyini ümummilli lider Heydər Əliyevin siyasi kursu ilə bağlı adı Milli ideologiyaya xidmət edən təhsilimizin inkişafı üçün əlverişli şərait yaradıldı. Heydər Əliyev milli dövlət quruculuğu prosesində "Elmə, təhsilə göstərilən yüksək qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir" meyarıilə çıxış edirdi. Ümummilli lider Heydər Əliyev prioritet sahə olan təhsilə, elmə diqqət və qayğını getdikcə artırdı. Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də təhsil sisteminin əsaslı surətdə

təkmilləşdirilməsinə, beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaradan “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” fərman imzalamışdı. Azxərbaycan suverenliyinin qorunub saxlanması, beynəlxalq aləmdə tanınması və nüfuzunun artması üçün ümummilli lider Heydər Əliyev alternativ olmayan siyasət aparmış, həyatını xalqın rifahına, Azərbaycanın inkişafına və tərəqqisinə həsr etmişdir.

Böyük rəhbər Heydər Əliyevin apardığı siyasət çoxşaxəli və mürəkkəb olmaqla yanaşı, həyatın bütün sahələrini əhatə edirdi. Ümummilli lider Heydər Əliyevin siyasi məktəbi onun irsi sosioloq, politoloq, çeşidli tədqiqatçılar üçün zəngin mənbədir. Onun irsini tədqiq etməyə uzun illər, cild-cild nəşrlər gərəkdir. Azərbaycanda vətəndaş müharibəsinin qarşısının alınması, atəşkəsə nail olunması, informasiya blokadasının yarılması, siyasi plüralizm, insan hüquqlarının qorunması, mətbuat azadlığl, xarici investorların ölkə iqtisadadiyyatına cəlb olunması, Şərqdə ilk dəfə olaraq ölüm hökmünün ləğv olunması, Azərbaycana xidmət edəcək iqdisadiyatın, təhsil sisteminin, ordu quruculuğunun, səhiyyə sisteminin dünya standartlarına uyğun inkişafı, hərtərəfli yüksəliş ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər qısa zaman ərzində ölkədə sabitlik və əminamanlığı bərqərar edərək respublikamızı inkişaf yoluna səfərbər etmişdir. Bu böyük insan xalqımızın iqtisadi, sosial-mədəni tərəqqisini stimullaşdıran, ümumən Azərbaycan cəmiyyətinin hərtərəfli inkişafını təmin edən müdrik siyasi strategiyanın müəllifi olmuşdur. Dahi şəxsiyyət respubliknı dünya birliyində layiqli mövqeyə sahib etmək kimi misilsiz tarixi missiyanı da yüksək səviyyədə yerinə yetirmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrdə, o cümlədən müstəqil Azərbaycanın Prezidenti kimi fəaliyyət göstərdiyi 10 ildə həmişə xalqımızın milli maraqlarını dəqiq müəyyən etmiş, ictimai, siyasi, iqtisadi, mədəni və digər sahələrdə qazanılan böyük uğurların memarı olmuşdur. Dahi şəzsiyyət bütün bu illər ərzində xalqın maddi rifahını yaxşılaşdırılması və aztəminatlı əhali qruplarının sosial ehtiyaclarının ödənilməsindən ötrü mühüm tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Müstəqil Azərbaycan dövlətinin sosial siyasəti ulu öndər Heydər Əliyevin xalqa, əhalinin aztəminatlı təbəqələrinə olan qayğısından qaynaqlanıb. Bu böyük xidmətləri Azərbaycan xalqı daim sonsuz minnətdarlıq hissi ilə xatırlayır.

Ümummilli liderimizin müdrik siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu isə müstəqil ölkəmizə yeni-yeni tarixi nailiyyətlər qazandırır. Dövlət müstəqilliyimiz daima güclənir və Azərbaycan Cənubi Qafqazın lider ölkəsi olmaqla, dünya birliyində fəal mövqe qazanır.

# MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ FRANSA İLƏ MÜNASİBƏTLƏR

***İlyasova X.İ.***

*Gəncə Dövlət Universiteti*

Azərbaycanın Avropaya, o cümlədən dünya birliyinə inteqrasiyası prosesinə təkan verən əsas amillərdən biri də Azərbaycan –Fransa əlaqələridir. 1992-ci il yanvar ayının 3-də Azərbaycanın müstəqilliyini rəsmən tanıdığını elan edən bu Qərbi Avropa dövləti, tezliklə diplomatik əlaqələrin qurulması üçün konkret addımlar atdı. İki ölkə arasında səfirliklər səviyyəsində diplomatik münasibətlər yaradılması məqsədilə Fransa hökuməti fevral ayının 20-də humanitar məsələlər üzrə dövlət katibi Bernar Kuşnerin rəhbərlik etdiyi nümayəndə heyətini Bakıya rəsmi səfərə qöndərdi. Qısa müddət ərzində Bakıda öz səfərliyini açmış Fransa hökümətinin Azərbaycandakı səfiri Lak Perren artıq 1992-ci il martın 26-da etimadnaməsini respublika rəhpərliyinə təqdim etdi. Ilk zamanlar Azərbaycan haqqında məhdud məlumatlara malik olan Fransa tərəfi qənc respublikaya böyük maraq qöstərir, və Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılmasında vasitəçi rolunu yerinə yetirməyə hazır olduğunu bildirirdi. Beynəlxalq hüquq normalarına söykənən Fransa hökuməti Qarabağ probleminin həllində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini əsas qötürürdü.

1993-cü ilin mayında Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi bir dövrdə Fransa Respublikasının prezidenti F.Mitteran Azərbaycan respublikasının prezidenti Ə.Elçibəyə göndərdiyi məktubda "Dağlıq Qarabağ ətrafında hərbi əmələyyatların genişləndirilməsindən Fransanın çox narahat olduğunu" bildirir və qeyd edirdi ki, "Fransa höküməti erməni qüvvələrinin Kəlbəcərdən çıxması tələbi ilə müxtəlif səviyyələrdə çıxış etmişdir". F.Mitteran öz məktubunda Azərbaycan rəhpərliyini münaqişəni ATƏT-Minsk qrupu çərçivəsində nizamlamaq yollarının axtırışını davam etdirməyə çağırırdı. Məktubu təqdim edən Fransa səfiri Yan Perren "Fransada Azərbaycana marağın artmaqda olduğunu və öz ölkəsinin Azərbaycanla sıx iqtisadi əlaqələr yaratmaq istədiyini" bildirmişdir.

Prezident Heydər Əliyevin respublika rəhpərliyinə yenidən qayıtmasından sonra Azərbaycanın xarici siyasitində o cümlədən Fransa ilə münasibətlərdə dönüş baş verdi. 1993-cü il avqustun 13-də Fransanın Bakıdan səfiri Yan Perrini qəbul edərkən Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev "iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daim möhkəmlənəcayini söyləmişdir". Artıq bu istiqamətdə atılan addımlardan biri kimi Fransa nümayəndəsinin Avropa bankının sədri seçilməsində Azərbaycanda xüsusi təşəbbüs qöstərməsinə görə səfir Fransanın baş nazirinin təşəkkür məktubunu Heydər Əliyevə təqdim etmişdir.

Azərbaycanın dövlət mənafeyinə zidd olan iqtisadi və informasiya blokadasının, diplomatiq teçridolmanın aradan qaldırılması istiqamətində qətiyyətli addımlar atan Prezident Heydər Əliyevin ilk rəsmi səfəri və müstəqil Azərbaycan dövlətinin Avropaya çıxışı 1993-cü ilin dekabrında məhz Fransadan başladı. Bu səfər təkcə Fransa ilə

qarşılıqlı əlaqələrin və münasibətlərin yeni mərhələsi deyil, bütövlükdə gənc dövlətin xarici siyasətinin Avropa istiqaməti adlanan, özünün mühüm prinsipi və xüsusiyyətləri ilə seçilən yeni xarici siyasət strateqiyasının başlanğıcı idi. 1993-cü ilin dekabrında Azərbaycan dövləti öz xarici siyasətinin ana xəttini bütün dünyaya bəyan etdi: beynəlxalq hüqüq normaları və sivilizasiyalı birgə yaşayış qaydaları ilə tənzimlənən böyük dünya birliyinə inteqrasiya olunmaq; dövlətlərdə cüquq bərabərliyinə, qarşılıqlı faydalı əməkdaşlığa, qarşılıqlı təhlükəsizliyə və bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə əsaslanan iki tərəfli və çoxtərəfli əlaqələr yaratmaq; demokratiyaya, bazar iqtisadiyyatına və sülhsevər siyasətə yönəlmək və s.

## MÜSTƏQİL DÖVLƏTİMİZİN XARİCİ SİYASƏTİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

***İsayev Ə.İ.***
*Sumqayıt Dövlət Universiteti*

1993-cü ilin ikinci yarısından, yəni Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Özünün zəngin təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Ulu öndər Heydər Əliyev bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə bir sıra ən mühüm təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya qoyulmuşdu.

Xarici siyasət sahəsində neft amilindən bacarıqla istifadə edən Ulu öndərimiz Heydər Əliyev neft müqavilələri bağlanması məsələsini nəzarətə aldı, danışıqlara şəxsən nəzarət etdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"adlanan müqavilə imzalandı.

Hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər nüfuzlu dövlətlər Azərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər. Onlar son dövrlər ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində yürüdülən iqtisadi, o cümlədən enerji siyasətini yüksək qiymətləndirir, həyata keçirilən transmilli layihələrin təşəkkül tapmasına və ölkəmizin beynəlxalq inteqrasiyasına hərtərəfli dəstək verirlər.

Cənubi Qafqaz regionu üzərindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişafının vacib elementidir. Bu mənada, Azərbaycan-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi" (TRASECA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur.

Bununla yanaşı, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tibilisi-Qars dəmir yolu xəttinin çəkilməsi istiqamətində əməkdaşlıq edir.

1998-ci il sentyabr 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfrans və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərdən biridir.

Xüsusən də BMT, Avropa ittifaqı, Avropa Şurası, ATƏT, MDB, islam dünyası ölkələrinin birləşdirən İKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, hərtərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirilmiş və həyata keçirilmişdir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü siyasət ölkəmizin regionda və dünyada müttəfiqlərinin sayını xeyli artırmışdır.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına davam etdirən cənab Prezident İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirir.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANLILARA QARŞI DEPORTASİYA VƏ SOYQIRIMI SİYASƏTİ TARİXİNİN TƏDQİQİNƏ DAİR

***İsa Arslan İbrahim***

*Bakı Dövlət Universiteti*

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası xalqımıza öz milli mənsubiyyətini ifadə etmək, milli mənafelərini maksimum dərəcədə reallaşdırmaq imkanı vermişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş, dəfələrlə təhrif edilərək sovet ideologiyasının qurbanına çevrilən tariximiz yenidən obyektiv şəkildə yazılmağa başlanmışdır. Azərbaycan tarixinin gizli saxlanılan, uzun illər boyu təhrif edilən səhifələrindən biri də azərbaycan türklərinə qarşı dəfələrlə törədilmiş, lakin indiyə qədər özünün hüquqi və siyasi qiymətini almamış soyqırımı və deportasiya siyasətidir. Müstəqillik dövründə tariximizin bu hissəsi daha obyektiv və fundamental şəkildə araşdırılmağa başlanmış və bu sahədə ciddi nəticələr əldə edilmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 27 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı ilə həmin hadisələrə doğru tarixi-siyasi qiymət verilmiş, erməni və havadarlarının azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər öz siyasi və hüquqi təsdiqini tapmış, bu cinayətkar əməllər beynəlxalq ictimaiyyətə çatdırılmışdır.

Azərbaycan tarixçilərinin XX əsrdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım və deportasiya siyasəti ilə bağlı tədqiqat əsərləri, XX əsrdə azərbaycanlıların deportasiya və soyqırım tarixinin tədqiqi üçün olduqca əhəmiyyətlidir.

Azərbaycanlıların soyqırımı və deportasiya tarixinin öyrənilməsində görkəmli alim İsrafil Məmmədovun böyük xidmətləri vardır. Onun "Трилогия Панарменизма" əsərində panarmenizmin yaranması, siyasi və strateji mahiyyəti, ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi, "Erməni məsələsi"nin gündəmə gəlməsi, xüsusilə də, XX əsrdə Azərbaycanlıların soyqırımı və deportasiyaya məruz qalması tarixi faktlar və rəsmi sənədlər əsasında geniş şərh olunmuşdur. Onun "Tariximiz, torpağımız, taleyimiz" əsərində də

erməni separatizminin oyanışı, türklərin tarixi torpaqlarında "Erməni dövləti" qurmaq planı, I Dünya müharibəsi illərində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi məkrli siyasət və bu siyasətin qanlı nəticələri elmi faktlarla sübuta yetirilmişdir.

İsrafil Məmmədovun "Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu" və «Об истории, исконной земле и горькой судьбе Азербайджанцев, изгнанных из нынешней Республики Армения» əsərlərində də tarixi Azərbaycan torpağı olan İrəvan quberniyasında yaşayan azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi etnik təmizləmə siyasəti geniş şəkildə əks olunmuşdur.

Eyni zamanda İsrafil Məmmədovun Sabir Əsədovla birlikdə nəşr etdirdiyi "Ermənistan Azərbaycanlıları və onların acı taleyi" və "Терроризм: Причина и следствие» əsərləri də Göyçə gölü hövzəsində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini əks etdirən fundamental monoqrafiyalardan biridir.

Azərbaycanlıların soyqırımı tarixinin öyrənilməsində Vaqif Arzumanlı və Nazim Mustafanın "Tarixin qara səhifələri: Deportasiya, Soyqırımı, Qaçqınlıq" əsərinin də əhəmiyyəti böyükdür. Bu əsərdə 1905-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı siyasəti, 1948-53-cü illərdə azərbaycanlıların deportasiyası, 1980-ci illərdə erməni şovinizminin dirçəlməsi və azərbaycanlıların diskriminasiyası hadisələri elmi dəlillər əsasında işıqlandırılmışdır.

Azərbaycanlıların soyqırımı və deportasiyasının tədqiqatçılarından biri də tarixçi Bəxtiyar Nəcəfovdur. Onun iki hissədən ibarət olan "Düşmənin iç üzü. XIX əsrin sonları XX əsrin əvvəllərində Zaqafqaziyada erməni millətçiliyinin tarixi" və üç cildlik "Deportasiya" əsərlərində sərsəm "Böyük Ermənistan" ideyasının siyasi tərəfləri, erməni millətçiliyinin Cənubi Qafqazda kök salması, zaman-zaman azərbaycanlıların deportasiya olunması arxiv sənədləri əsasında təhlil olunmuş və işıqlandırılmışdır.

1947-1953-cü illərdə azərbaycan türklərinin deportasiyası Əsəd Qurbanlının "Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953)" əsərində geniş şəkildə işıqlandırılmışdır. Kitabda 1947-1953- cü illərdə Ermənistandan azərbaycan türklərinin deportasiyasını doğurmuş səbəblər üzə çıxarılmış, baş verən proseslər tarixi hadisələr konteksində nəzərdən keçirilmişdir.

XX əsrin axırlarında azərbaycanlıların soyqırımını əks etdirən elmi monoqrafiyadalardan biri də İnqilab Vəlizadə və Bilal Muradovun "Ermənistan azərbaycanlılarının soyqırımı" əsəridir. Bu əsərdə 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların öz torpaqlarından vəhşicəsinə qovulması, törədilmiş qanlı faciələr faktlar əsasında ardıcıllıqla təsvir olunmuşdur.

Azərbaycanlıların soyqırımı haqqında fundamental tədqiqatlardan biri də Vaqif Abışovun "Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər)" əsəridir. Monoqrafiyada Birinci Dünya müharibəsi dövründə Qərb dövlətləri və Rusiyanın köməyi ilə Türkiyə və Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq xulyası ilə azərbaycanlılara qarşı cinayətlər törədən ermənilərin cinayətkar əməlləri tutarlı arxiv sənədləri əsasında araşdırılmışdır.

Azərbaycanlıların soyqırımı tarixi ilə bağlı ümumiləşmiş-toplu əsərlərin də əhəmiyyəti böyükdür. Bu səpkili əsərlərdən biri də "Deportasiya" toplusudur. Bu topluda XX əsrdə

azərbaycanlılara qarşı planlı şəkildə həyata keçirilən deportasiya, soyqırımı faktlarını əks etdirən çoxlu tarixi sənədlər, matereallar toplanmışdır.

Tarix elmləri doktoru Ataxan Paşayevin "XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar ( arxiv sənəd və materialları əsasında)" əsəri müxtəlif ilkin mənbələr və arxiv materialları əsasında yazılmış ən sanballı əsələrdən biridir. Əsərdə müəllif əvvəllər Çar Rusiyası və bir sıra Avropa dövlətlərinin, sonralar isə bolşevik-kommunust rəhbərlərinin bilavasitə iştirakı və köməyi ilə şovinist erməni millətçilərinin xalqımıza qarşı törətdikləri soyqırım və vəhşilik faktları əks olunmuşdur.

Tarixçi-alim M.C.Qasımlının "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920)" əsərində də ermənilərin Cənubi qafqazda məskunlaşması, siyasi və terrorçu fəaliyyətləri, əsrin əvvəllərində azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlar ətraflı şəkildə təsvir olunmuşdur.

## AZƏRBAYCAN - ALMANİYA MÜNASİBƏTLƏRİ MÜASİR MƏRHƏLƏDƏ

***Kazımov B.Q.***

*Gəncə Dövlət Universiteti*

Müstəqil Azərbaycan dövlətinin xarici inteqrasiyasında hüsusi təsir gücünə malik, nüfuzlu dövlətlərdən biri olan Almaniya Federativ Respublikası ilə münasibətlər geniş yer tutur. Azərbaycan 1991-ci ildə öz müstəqilliyini yenidən əldə edəndən sonra dekabırın 12-də Almaniya ilk Qərb ölkəsi olaraq gənc dövlətin müstəqilliyini tanıdığını və onunla hər cür əməkdaşlığa hazır olduğunu bəyan etdi.

1992-ci ilin fevralın 20-də Azərbaycan və Almaniya arasında rəsmi diplomatik münasibətlər yaradıldı və qısa müddət ərzində hər iki dövlət qarşılıqlı sürətdə səfirliklərin açılışını həyata keçirdi. 1992-ci ilin iyun ayında Bonn şəhərində Azərbaycan respublikasının səfirliyi fəaliyyətə başladı.

İki tərəfli müntəzər xarakter olmasında və qarşılıqlı əlaqələrin genişlənməsində 1993-cü ilin oktyabırın 3-də Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyevin Azərbaycanda prezident seçkilərində myşahidəçi kimi iştirak etməyə gəlmiş AFR Bundestaqının deputatı Ditrix Şperlinqlə görüşə mühüm yer tutur. Azərbaycan prezident seckilərinin nəinki respublikada eləcə də bütün Cənubi Qafqazda həmrəyliyin, stabilliyin bərgərar olmasına təsir göstərəcəyinə ümüd bəslədiyini qeyd edən D. Şperlinq Azərbaycan- Almaniya əlaqələrinin gələcək inkişafına böyük əhəmiyyət verdiyini vurğulayaraq, Buedestaqın Azərbaycan Parlamentinin 3 üzvünü Almaniyaya dəvət etdiyini bildirmişdir.

Azərbacan sabitliyin möhkəmlənməsi və respublika Prezidenti Heydər Əliyevin fəal xarici siyasəti Almaniyanın siyasi dairələrinin Azərbaycan respublikasına olan marağını daha da artmasını səbəb olurdu. 1993-cü ilin dekabırında Heydər Əliyev AFR Bundestaqının Qafqaz üzrə komissiyasının sədri Villi Vimmeri qəbul etmiş və qarşıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etmişdir.1995-ci ilin yanvarın 11-də

Almaniyanın Bakıdaki müvəqqəti işlər vəkili Mixall Şmunki qəbul edən Prezident Heydər Əliyev Azərbaycan Almaniya ilə əməkdaşlığa böyük əhəmiyyət verməsini bir daha vurğulamışdır. Alman diplomat, öz ölkəsinin mövqeyini ifadə edərək bildirmişdir ki, "Almaniya Azərbaycana tərəfdaşləq təklif edir" və səfir qarşısında iki ölkə qarşısında əlaqələrin yeni mərhələsini başlamaq vəzifəsi qoyulmur.

Təsədüfü deyil ki, Azərbaycan Prezidenti Heydər Əliyevin Almaniyanın konsleri Helmut Kol ilə 1995-ci il mayın 9-da Moskvada keçən görüşündə də tərəfləri qarşılıqlı əlaqələrin daha da dərinləşməsinin zəruriliyini bəyan etdilər. ATƏT – in Mins qrupunda Almaniyanın prensipiyal mövqeyindən razı qalmağını bildirən Heydər Əliyev qeyd etdi ki, Azərbaycan Almaniyaya "Böyük tərəfdaş kimi baxır" və daha geniş siyasi – iqtisadi əməkdaşlığa maraq gösiərir.

Ermənistan–Azərbaycan münaqişəsi Almaniya hökümət nümayəndələri ilə keçirilən görüşlərdə həmişə diqqət mərkəzində durmuş və onun həlli yolları üzrə tərəflər əsasən prinsipial mövqe birliyi nümaiş etdirmişlər 1995-ci il avqust ayının 21-də Azərbaycan prezidenti ATƏT-in Mins qrupundakı AFR nümayəndəsi səfir F.Zambaxı, avqustun 22 – də isə AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT – in parlament Məclisinin vitse – prezidenti V.Vimmerin başçılıq etdiyi nümayəndə həyatını qəbul etmişdir. Bu görüşlər zamanı Almaniya nümayəndələri ərazi bütövlüyünün bərpa olunmasının zəruriliyinin xüsusi qeyd etmişlər. Villi Vimmer Ermənistanın təcavüzünü "Beynəlxalq normaların və ATƏT prisiplərinin pozulması" kimi qiymətləndirilmişdir.

Azərbaycanda daxili sabitliyin və demokratik qurluşun tam bərqarar olması yolunda atılan inamlı addımlar onun beynəlxalq nüfuzunu yüksəlməsinə, dünya dövlətlərinin, o cümlədən Almaniya tərəfində Azərbaycan Resrublikasının mövqeyini qetdiecə daha çox qətiyyətlə dəstəklənməsini kömək etmişdir. Digər tərəfdən, Azərbaycan Almaniya ilə qarşılıqlı əlaqələrin möhkəmlənməsinə, çalışaraq beynəlxalq səviyyədə AFR - lə bağlı bütün problemlərdə onun mövqeyini ardıcıl sürətdə müdafiə etmiş BMT TŞİ genişlənməsi ilə Almaniyanın bu orqana daimi üzv seçilməsi məsələsində onun namizətliyini dəstəkləmiş və bu mövqeyində kənara çəkilməmişdir.

## HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCANDA RABİTƏ SİSTEMİ

***Kərimli S.S.***

*Sumqayıt Dövlət Universiteti*

Sovet İttifaqının dağılması ərəfəsində, yəni ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq, əlaqələrin qırılması və kəskin azalması nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, Azərbaycan poçt rabitəsində də ağır tənəzzül dövrü başlandı. Əlbəttə, sovet dövründə istifadəyə verilən maddi-texniki bazanın yenilənməməsi də öz sözünü deyirdi.

Müstəqil Azərbaycanda poçt rabitəsinin yenidən qurulması, inkişafı və dünya standartları səviyyəsinə çatdırılması məhz Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti ilə sıx bağlıdır. Heydər Əliyevin "Müstəqil dövlətin müstəqil rabitəsi olmalıdır"

fikiri rabitəçilərə hər addımda güc verirdi. 1997-ci ildə 1998-2003-cü illəri əhatə edən "Poçt rabitəsinin inkişaf konsepsiyası" tərtib olunmuşdur. Konsepsiyaya uyğun olaraq aparılan texniki-iqtisadi siyasət poçt rabitəsinin inkişafına şərait yaratmışdır. Proqram və konsepsiya çərçivəsində 1997-2001-ci illərdə poçt rabitəsi müəssisələri 167 ədəd surətçıxaran, 379 ədəd faks aparatları ilə təchiz edilmişdir. Bakı şəhərinin poçt şöbələrində 72 ədəd kompüter, 53 ədəd terminal, respublikanın 18 şəhər və rayon filiallarında isə kompüterlər quraşdırılaraq Məlumat Hesablama Mərkəzinin şəbəkəsinə qoşulmuşdur.

Poçt müəssisələrində quraşdırılmış terminallar vasitəsilə şəhərlərarası, beynəlxalq telefon danışıqlarının, elektrik enerjisi və qaz pullarının qəbulu əməliyyatları həyata keçirilmişdir. Respublikanın kənd yerlərində 360 ədəd radiotelefon vasitəsilə əhaliyə şəhərlərarası danışıq xidmətlərinin göstərilməsi təşkil edilmişdir. Bir sıra yaşayış məntəqələrində şəhərlərarası danışıq xidmətləri mobil telefonlar vasitəsi ilə təşkil edilmişdir.

1997-ci ildən poçtamt və poçt şöbələri binalarının tikintisi, təmiri, estetik tərtibatı, müasir avadanlıqlar və mebel ilə təchizatı sahəsində geniş miqyaslı işlər görülmüşdür. 1997-2001-ci illərdə investisiya fondu hesabına 15 poçtamt və poçt binası inşa edilmiş, 21-i isə əsaslı təmir olunaraq müasir mebellə təmin edilmişdir. 2001-ci ildə 10 obyekt investisiya fondu hesabına, 74 obyekt isə daxili imkanlar hesabına təmir edilmişdir.

2000-ci ildə Poçt Daşıma Mərkəzində işin yenidən sürətləndirilməsi, günün tələblərinə uyğun qurulması, çeşidləmə sexində işçilərin iş şəraitinin yaxşılaşdırılması və poçt göndərişlərinin keçid müddətlərinin sürətləndirilməsi məqsədilə müasir texnoloji avadanlıqlar istifadəyə verilmişdir. Uzun müddət bərbad vəziyyətdə olduğu üçün xeyli müştərisini itirməli olmuş Mərkəzi Poçtamt 2000-ci ildə əsaslı təmir edilərək əhalinin və xarici ölkə vətəndaşlarının istismarına verilmişdir. Poçt rabitəsində yeni texnologiya tətbiq etməklə xidmət mədəniyyəti yaxşılaşdırılmış və operativlik təmin edilmişdir. 2001-ci ilin 1 aprelindən etibarən Bakı, Abşeron, Gəncə, Quba, Masallı, Şəki, Naxçıvan və Lənkəran poçt filiallarında kompüter ilə sürətli pul göndərişlərinin vətəndaşlardan və müəssisələrdən qəbuluna başlanılmışdır. Yeni xidmət - sürətli pul göndərişi və qəbulu məsafədən asılı olmayaraq 1 saat ərzində vətəndaşa və ya müəssisəyə çatdırılırdı.

Müstəqilliyin ilk illərində Azərbaycan Respublikası rabitənin teleqraf sahəsində də tez-tez problemlərlə rastlaşırdı. Texniki avadanlıqların köhnəlməsi sənədli elektrik rabitəsinin beynəlxalq standartlara uyğun qurulmasında əngəllər yaradırdı. Ölkədə istismar müddətini başa vurmuş və ümumi istifadə üçün artıq yararsız sayılan teleqraf şəbəkəsində kanalların kommutasiyası sistemindən daha müasir məlumatın kommutasiyası sisteminə keçirilməsini təmin etmək üçün 1994-cü ilin 25 iyunundan Bakı Teleqrafının Avtomatlaşdırılmış Məlumat Kommutasiya Qovşağında 2 ETK-KS stansiyasının tətbiqi üzrə xətti sınaq işlərinə başlanılmışdır.

1994-cü ildə Bakı-Ankara istiqamətində peyk telefon kanalı vasitəsilə 24 kanallı teleqraf sistemi təşkil edilmişdir. Bu, Azərbaycanda peyk kanalı vasitəsilə yaradılan ilk teleqraf sistemi idi. 1997-ci ildə Azərbaycan, İngiltərə və Rusiya arasında birbaşa teleks, Qazaxıstanla isə birbaşa teleqraf rabitəsi yaradılmışdır.

Dövlət müstəqilliyinin bərpasından sonra rabitə sahəsinin maddi-texniki bazasının yenilənməsində əsaslı dəyişikliklər həyata keçirilmişdir. Sovet dövründən qalan və ömrünü başa vurmuş avadanlıqlar, müasir dünya standartlarına tam cavab verən texnologiya ilə əvəz

edilmişdir. Müstəqilliyin ilk illərində nəinki məhv olmaq təhlükəsi ilə üz-üzə qalmış poçt rabitəsi dirçəldilmiş, o cümlədən telefon rabitəsi inkişaf etdirilmiş, mobil telefon rabitəsi təşkil olunmuş, televiziya-radio proqramlarının keyfiyyətli yayımı təmin edilmişdir.

## MÜSTƏQİL AZƏRBAYCANIN SİYASİ İNKİŞAFI

*Qasımova N.N.*
*Sumqayıt Dövlət Universiteti*

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərlə boğulurdu. Bunun isə kökləri olduqca dərindir. İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi.

Ölkəni bu ağır vəziyyətdən 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev çıxardı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyillərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu".

Tarixdən yaxşı məlumdur ki, əgər dövlətin, xalqın strateji perspektiv mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edə bilən, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürə bilən qurucu, yaradıcı rəhbəri yoxdursa, həmin ölkənin gələcəyindən nikbin ruhda danışmaq çətin olar.

Azərbaycan müstəqilliyinin ilk illərində gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi ağır vəziyyətə gətirmişdi. Sosial-iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlamışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Heydər Əliyevin gördüyü tədbirlər nəticəsində daxili çəkişmələrə son qoyulması, siyasi sabitliyin təmin olunması, atəşkəs haqqında razılaşma əsasında erməni təcavüzünün dayandırılması, "Əsrin müqaviləsi"nin bağlanması, balanslaşdırılmış xarici siyasət və qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması bütün diqqəti ölkədə çoxdan yığılıb qalmış daxili sosial-iqtisadi problemlərin həll olunmasına yönəltməyə imkan verdi. Ölkənin tarixində strateji əhəmiyyətli vəzifələr eyni zamanda yerinə yetirilməsi qarşıya məqsəd qoyuldu

1. Müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi;
2. İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması;

3. qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi.

Bu tarixi vəzifələrin hər biri istənilən bir dövlət üçün kifayət qədər ciddi və əhəmiyyətli idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi.

1993-cü ilin ortalarında, Heydər Əliyev ölkəyə rəhbərliyə qayıtdıqdan sonra milli transformasiyanın dördüncü mərhələsi başlandı - modernləşdirmə mərhələsinə başlamağın əsası qoyuldu. Onun mahiyyəti Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsində və demokratik islahatların həyata keçirilməsində idi ki, bu da beynəlxalq aləmdə ölkənin dünya siyasətinin subyekti kimi tanınması ilə nəticələndi.

İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Bununla da bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar həyata keçirildi. Sərt və çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində tezliklə ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu.

Ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafını sürətləndirdi. 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşdi və demək olar ki, kiçik özəlləşdirmə başa çatdırıldı. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətlərə çevrildi.

Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur. Deyilənləri yekunlaşdıraraq göstərmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

**MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANIN YENİ XARİCİ SİYASƏT XƏTTİ MÜƏYYƏN EDİLDİ**

***Qasımova A.V.***
*Azərbaycan Texniki Universiteti*

1992-ci il martın 2-də Azərbaycan Respublikası BMT-yə qəbul olundu. 1992-ci ilin noyabr ayından etibarən BMT-nin Azərbaycanda daimi nümayəndəliyi fəaliyyət göstərir. Lakin yaranan münasibətlərə məhəl qoymayan və himayədarlarına arxalanan Ermənistan mart ayının sonlarından başlayaraq Kəlbəcərə hücum etdi və aprel ayının 3-də bu hücuma işğalla yekunlaşdırdı. Azərbaycan tərəfi bu işğalla bağlı BMT baş katibi və Təhlükəsizlik şurasına məlumat verdi. İşğalın nəticəsi olaraq aprel ayının 30-da BMT Təhlükəsizlik şurasının iclasında Ermənistan işğalını pisləyən 822 saylı qətnamə qəbul edildi. Lakin bu qətnaməyə məhəl qoymayan Ermənistan iyulun 23-də Ağdam rayonunu işğal etdi. Ermənistan silahlı qüvvələri həmin tələbləri nəinki yerinə yetirmədi, bunun əksinə olaraq Füzuli rayonunu işğal etdi. Oktyabrın 14-də BMT Təhlükəsizlik şurasının növbəti iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 874 saylı qətnamə qəbul olundu. Bu qətnamədə də dövlətlərin suverenliyi, Ermənistanın münaqişə iştirakçısı olması, sərhədlərin toxunulmazlığı və işğal məqsədilə güc tətbiq edilməsi qətiyyətlə pisləniildi. Əvvəlki işğallardan cəzasız qalan Ermənistan silahlı qüvvələri Zəngilan rayonunu işğal etdi. BMT Təhlükəsizlik şurası noyabrın 11-də növbəti 884 saylı qətnaməni qəbul etdi. Bu qətnamədə də Ermənistanın işğalı pislənilir, dövlətlərin suverenliyi və ərazi bütövlüyü, eyni zamanda beynəlxalq sərhədlərin pozulmazlığı qeyd olunurdu. Lakin bütün bunlara baxmayaraq, Ermənistan beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə cəzalandırılmadı. Nəticədə, Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən ərazisinin 20% ermənilər tərəfindən işğala məruz qaldı.

Azərbaycanda xarici təcavüz və daxili çəkişmələrin yüksək həddə çatdığı, hadisələrə nəzarət etməyin qeyri-mümkün olduğu bir zamanda respublika rəhbər-liyinə böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev dəvət olundu. Daxili sabitliyi bərpa etmək, beynəlxalq aləmdə Azərbaycanın müsbət imicini formalaşdırmaq üçün kompleks tədbirlərin həyata keçirilməsinə başlandı. Qeyd etdiyimiz kimi, Azərbaycan dövlətinin yeni xarici siyasət xətti müəyyən edildi. Bu siyasət xalqımızın milli mənafeyinə, müstəqilliyimizin möhkəmləndirilməsinə, tökülüb qalmış problemlərin həllinə istiqamətləndirildi. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə, dünya birliyində layiqli yer tuta bilməsinə yönəlmiş siyasi kurs götürüldü.

Azərbaycan Respublikasında 1993-cü ilin iyunundan Heydər Əliyevin götürdüyü hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial siyasi xətt sayəsində respublikanın müstəqillik və təhlükəsizlik problemləri beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi fonuna çıxarıldı. Xüsusilə Azərbaycanın cəlb olunduğu Qarabağ münaqişənin həlli məsələsində dövlət başçısı özünün əsas diqqət və səylərini münaqişə haqqında əsl həqiqətləri dünyanın siyasi dairələrinə çatdırmağa, Ermənistanın təcavüzkar kimi tanınmasına və Azərbaycanı dəstəkləyən ölkələrin sayının artmasına nail olmağa yönəltmişdi.

1995-ci ilin oktyabr ayında BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında Azərbaycan Prezidenti Heydər Əliyev burada ABŞ Prezidenti Bill Klintonla görüşmüş və iki ölkə arasında əməkdaşlığın geniş-ləndirilməsi məsələlərini müzakirə etmişlər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli Heydər Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində mühüm mövzula-rdan birincisi olmuşdur. Təsadüfi deyildir ki, Heydər Əliyev 1993-2000-ci illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi məsələsini ABŞ rəhbərliyi ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə əsaslı müzakirə etmiş, problemin həll edilməsi üçün mümkün variantlar araşdır-mışdır. Heydər Əliyev BMT-dəki çıxışında, Türkdilli dövlət başçılarının, İslam Konfransı Təşkilatının, NATO-nun Sammitlərində, MDB dövlət başçılarının bütün görüşlərində Qarabağ məsələsinə toxunmuş və məsələnin obyektiv həllinə çalışmışdır. Bütün bunlar göstərir ki, müstəqillik illərində Azərbaycan yeni xarici siyasət xətti götürmüşdür ki, bu gün o öz bəhrəsini verməkdədir.

## AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ MÜNASİBƏTLƏRİ

***Qasımova T.M.***
*AMEA, Fəlsəfə İnstitutu*

Vətəndaş cəmiyyəti – cəmiyyətin inkişafının müəyyən pilləsində formalaşan insanların birliyi olub, özündə bu cəmiyyətin siyasi, sosial, iqtisadi, mədəni sferalarında könüllü yaranan qeyri-dövlət strukturlarını birləşdirir.

Vətəndaş cəmiyyəti açıq, demokratik, antitotalitar, müstəqil inkişaf edən cəmiyyətdir ki, burada mənəvi yeri insan, vətəndaş, şəxsiyyət tutur. Eyni zamanda, vətəndaş cəmiyyəti dövlətdən asılı olmayan elə ictimai institutlar və münasibətlər (sosial, mənəvi, mədəni sahələr) sistemidir ki, bunun vasitəsilə insanların həyat fəaliyyəti, onların yaradıcılığı və bunların nəsildən-nəsilə ötürülməsi üçün fərdlərin və kollektivlərin xüsusi maraq və tələbatlarının reallaşmasında lazım olan şərait təmin edilir.

Dövlət vətəndaş cəmiyyətinə onun strukturlarının hüquqi çərçivəsini müəyyən etməklə təsir edir və bununla bərabər o, vətəndaş cəmiyyəti tərəfindən əks təsirə məruz qalır. Vətəndaş cəmiyyəti elə bir sosial mühitdir ki, burada vətəndaş və onların birliklərinin əsas hüquq və azadlıqları həyata keçir.

Vətəndaş cəmiyyəti və hüquqi dövlət demokratiyanın əsasında duran və onun dinamik səviyyəsini göstərən əsas ilkin amildir. Vətəndaş cəmiyyəti və dövlətin bir-birilə əlaqəsini nəzərdən keçirən zaman müasir Azərbaycana nəzər yetirək. Vətəndaş cəmiyyətinin inkişafı dövlətin inkişafı deməkdir. Müasir Azərbaycanı təhlil etsək hüquqi dövlət və vətəndaş cəmiyyəti üçün lazımi şərait var. Vətəndaş cəmiyyəti dövlətlə dialektik vəhdətdə mövcuddur və dialektik vəhdətdə fəaliyyət göstərir. Demokratik rejimlərdə o, dövlətə çox yaxındır və onunla qarşılıqlı fəaliyyətdədir, avtoritar və totalitar rejimlərdə isə həmin rejimə qarşı passiv və ya aktiv müxalifətdə durur. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu

prosesi dinamik və daimi amil kimi yalnız 90-cı illərin axırlarına təsadüf edir. 1993-cü ildə ümummilli lider yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan dövlətçiliyinin bütün sferalarında, eyni zamanda vətəndaş cəmiyyətinin formalaşması sahəsində də uğurlu dəyişikliklər baş verdi. Vətəndaş cəmiyyətinin formalaşması, inkişafı H.Əliyev hakimiyyətinin, siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması, inkişafı qısa zaman kəsiyində reallaşa bilməzdi. Ulu öndər tərəfindən vətəndaş cəmiyyəti qurumları üçün yaradılan müsbət şərait çoxlu sayda QHT-lərin təsis olunmasını stimullaşdırır.

1997-ci ildə dövlət başçısı Heydər Əliyevin təşəbbüsü ilə BMT və Azərbaycan hökuməti arasında "Azərbaycan qeyri-hökumət təşkilatlarının institutsional inkişafı və vətəndaş cəmiyyəti quruculuğuna kömək" adlı birgə layihənin həyata keçirilməsi haqqında saziş imzalandı və nəticədə vətəndaş cəmiyyəti institutları yaranmağa, fəaliyyət göstərməyə başladılar.

Azərbaycanın sürətli, sosial-iqtisadi inkişafı və milli maraqlarının təmin olunması demokratiyanın daha da inkişafına, dövlət-vətəndaş cəmiyyəti institutları arasındakı münasibətlərin müasirləşməsinə, QHT-in fəaliyyətinin stimullaşmasına zəmin yaradır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyət illərində və hazırda da Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı QHT-in yaranması, fəaliyyəti dövlət tərəfindən dəstəklənir. 1993-1995-ci illərə Azərbaycanda vətəndaş cəmiyyətinin çiçəklənmə, inkişaf dövrü demək olar. Ümummilli liderin fəaliyyətinin nəticəsi olaraq qeyd etmək istərdim ki, Azərbaycan Respublikası Konstitusiyasının Preambulasında məhz Heydər Əliyevin siyasi iradəsinin nəticəsi olaraq vətəndaş cəmiyyəti quruculuğu əsas milli hədəflərdən biri kimi qeyd olundu. Bu fikirlər bir daha onu təsdiq edir ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin Azərbaycan modelinin banisi və qurucusudur.

## "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCANIN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞA CƏLB EDİLMƏSİ PROSESİNİ DAHA DA SÜRƏTLƏNDİRDİ

***Qasımov Ş.M., Aslanova L.H***

*Azərbaycan Texniki Universiteti*

Azərbaycan Respublikası 1991ci ildə Sovet İttifaqının dağılması ilə dövlət müstəqilliyini bərpa etdi. Lakin respublika bazar iqtisadiyyatına keçid mərhələ-sində böyük iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. Müstəqilliyimizin bərpasın-dan sonrakı ilk illərdə dövlət idarəçiliyində buraxılan səhvlərin məntiqi nəticəsi kimi sosial-iqtisadi gərginlik yüksək səviyyəyə çatmışdı, Belə bir çətin dövrdə xalqın iradəsi və tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti, qətiyyəti və dövlət idarəçiliyindəki səriştəsi ilə fəlakətin qarşısı alindı. Ölkə iqtisadiyyatı möhkəmləndi və Azərbaycan gələcəyə inamla baxan bir dövlətə çevrildi.

Zəngin təbii ehtiyatlara malik olan Azərbaycan həm də tranzit ölkə kimi regional və beynəlxalq miqyasda mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən ölkəmizin dayanıqlı iqtisadi inkişafını təmin etmək üçün coğrafi üstünlüklərindən də maksimum şəkildə istifadə

etmək məqsədi qarşıda dururdu. Ölkəmizin təbii resurs potensialı və tranzit potensialının bir-birini tamamlamasının ən yaxşı nümunəsi ümummilli lider Heydər Əliyevin memarı olduğu və ölkə iqtisadiyyatının bütün əsas sahələrində inkişafın əsasını qoyan, 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" oldu. Onun imzalanması ilə respublikanın iqtisadi və tranzit-kommunikasiya əhəmiyyəti xeyli dərəcədə artmışdır. "Əsrin müqaviləsi"ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət – "Amoko", "BP", "MakDermott", "Yunokal", "ARDNŞ", "LUKoyl", "Statoyl", "Ekson", "TPAO", " Penzoyl", "İtoçu", "Remko", "Delta" iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı. Məlum olduğu kimi, "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunacaq xam neftin dünya bazarına çıxışını təmin etmək üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri inşa edilmişdir. Ümumi uzunluğu 1767 km. olan kəmərin 443 km-i Azərbaycanın, 248 km-i Gürcüstanın, 1076 km-i isə Türkiyənin ərazisindən keçir. BTC layihəsinin realizə edilməsi ölkəmizin həm iqtisadi, həm də siyasi maraqlarının təmin edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir. Respublikamız üçün bu irimiqyaslı boru kəməri layihəsinin həyata keçirilməsinin gətirdiyi üstünlükləri belə qruplaşdırmaq mümkündür: 1. Azərbaycan və Xəzər hövzəsinin karbohidro-gen ehtiyatlarının dünya bazarlarına çıxarılması. 2. Müstəqilliyimizin qorunub möh-kəmləndirilməsi. 3.İqtisadi stabilliyin və artımın təmin edilməsi. 4. Dünya ölkələri ilə ikitərəfli və çoxşaxəli münasibətlərin qurulması.

Ülu öndər Heydər Əliyevin qətiyyəti, apardığı uğurlu neft diplomatiyasının nəticəsi olan "Əsrin müqaviləsi" dünyanın bir sıra aparıcı dövlətlərini, transmilli enerji şirkətlərini respublikamıza cəlb edilməsində və investisiyalar yatırmasında katalizator rolunu oynamışdı. Dünya əhəmiyyətli saziş Azərbaycanın neft sənaye-sində əsaslı infrasturuktur dəyişikliklərinin həyata keçirilməsinə, o cümlədən onun keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına rəvac vermişdir.

Məsələyə daha geniş prizmadan baxsaq, aydın görünür ki, "Əsrin müqavi-ləsi" ölkəmizin tranzit potensialının realizasiyası və bilavasitə ölkə iqtisadiyyatının dayanıqlı inkişaf tenpinin əldə olunması istiqamətində həyata keçirilmiş silsilə layihələrin ən əhəmiyyətlisidir. Bu müqavilənin imzalanması ilə respublikamızın beynəxalq əməkdaşlığa cəb edilməsi prosesi daha da sürətləndi və ölkəmiz artıq dünyada etibarlı enerji təminatçısı kimi tanınmağa başladı. Bunun nəticəsi olaraq, ölkəmiz Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi olan TRACECA, NABUCCO, Şimal-Cənub nəqliyyat dəhlizi və bunun kimi bir neçə qlobal əhəmiyyətli regional layihələrin əsas iştirakçısına çevrilmişdi.

Beləliklə, yuxarıda qeyd edilənlərdən görünür ki, "Əsrin müqaviləsi" sadəcə bir neft sazişi deyil. Bu müqavilə yaxın və uzaq gələcəyə hesablanmış siyasətin əsası, beynəlxalq əməkdaşlığın və müstəqilliyimizin qarantıdır.

## AZƏRBAYCANIN REGİONDA VƏ DÜNYADA GEOSİYASİ MÖVQEYİ

*Quliyeva Z.Q.*
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Azərbaycan yer üzünün ən qədim mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı iqtisadi və geosiyasi əhəmiyyətinə görə istər regionda, istərsə də dünyada güclü dövlətlərin diqqətini həmişə cəlb etmişdir. Azərbaycanın qərbdən şərqə, cənubdan şimala gedən, Avropanı və Asiyanı əlaqələndirən ticarət yolları üzərində hakim olmaq uğrunda mübarizə getmişdir. Azərbaycanın geosiyasi mövqeyi, mixi yazılarında, “Avesta” da, Yunan-Roma, İran, Alban, Ərəb, Türk, Rus, Qərb və Azərbaycan müəlliflərinin əsərlərində əksini tapmışdır.

Azərbaycanın tarixi ərazisi şimalda Dağıstandan başlayaraq Şərqi Zaqafqaziya və İranın şimali-qərb hissəsində yerləşir. Sahəsi 221,6 min kvadrat km. olan Azərbaycan ərazisinin 86,6 min $km^2$-i Azərbaycan Respublikasının, 135 min $km^2$-i Cənubi Azərbaycana aiddir.

E.ə. IX əsrdə meydana gələn Manna ən qədim zamanlarda Mesopotamiya vilayətləri ilə mədəni-siyasi münasibətlərə girmişdilər. Mannanın təbii sərvətləri, geosiyasi mövqeyi aşşurlarla yanaşı Urartu dövlətinin də diqqətini cəlb etdiyindən onlarla daim mübarizə aparmalı olmuşdur.

E.ə. IV əsrin sonu III əsrin əvvəllərində Cənubi Azərbaycanda Atropatena Şimali Azərbaycanda Albaniya dövlətlərinin yaranması böyük dövlətlərin diqqətini daha da artırdı. Siyasi oyanış, dövlətçilik ənənələrinin barpası Şirvanşahlar dövlətinin yaranmasında özünü aydın göstərdi. 1862-ci ildə Şirvan Heysəm və Layzan hakimi Yəzid Xilafətdə təcrid olunduqlarını, qədim “şirvanşah” və «layzanşah» titullarını qəbul etdiklərini bildirdilər. Beləliklə, hələ IV əsrin əvvəllərində alban Arşakilər sülaləsinin Sasanilər tərəfindən ləğvindən ( 510 il ) sonra təşəkkül tapmış, laikn ərəb işğalı nəticəsində siyasi qüdrətini əldən vermiş Şirvanşahlar dövləti yenidən bərpa olundu. Şirvanşahlar dövlətinin yaranmasından az sonra Azərbaycanın cənubunda Sacilər sülaləsinin yaratdığı yeni dövlət təşəkkül tapdı. Sacilər dövləti (879-941) mənşəcə usruşanlı olan (Mərkəzi Asiya) türk xəlifə-sərkərdəsi Əbu- Sac Div-dadın oğlu Məhəmmədin adı ilə bağlıdır. Sacilər dövlətinin ən görkəmli nümayəndəsi, bütün Azərbaycan torpaqlarını ilk dəfə vahid dövlət çərçivəsində birləşdirə bilmən Yusif ibn Əbu - Sac olmuşdur. Bütün Azərbaycan torpaqlarının vahid türk –Sacilər dövlətinin tərkibində olması bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxmasına, vahid Azərbaycan türk formalaşması prosesinin sürətlənməsinə müsbət təsir göstərdi. Sacilər şimali sərhədlərinin, xüsusilədə, Dərbənd keçidinin möhkəmləndirməsinə daha çox əhəmiyyət verirdilər.

Saciləri devirən Salarilər dövləti şimalda Dərbənd keçidindən başlayaraq, cənubda Dəclə və Fərat çaylarının yuxarılarına qədər, şərqdə Gilan da daxil olmaqla Xəzər sahillərini, qərbdə Şərqi Gürcüstan da daxil olmaqla daha geniş əraziləri əhatə edən bir dövlətə çevrildi. Sacilər dövlətinin paytaxtı kimi Marağa və Ərdəbildən, həmçinin Salarilər dövlətinin də Ərdəbildən idarə edilməsi Azərbaycanın geosiyasi rolunun aydın

göstəricisidir. Şirvanşahlar, Sacilər, Salarilərlə yanaşı, paytaxtı Cəncə olan Şəddadilər və paytaxtı Təbriz olan Rəvvadilər dövlətləri yarandı.

Azərbaycana yiyələnmək uğurunda XI-XII əsrdə səlcuqlar, XIII-XIV əsrdə monqollar, XIV əsrin sonu XV əsrin əvvəllərində teymurilər mübarizə aparmışdır. Nəhayət, XV əsrdə yerli Qaraqoyunlu və Ağqoyunlu dövlətləri yarandı.

Hökmdarlardan Uzun həsən, Şah Ismayıl və Şah Abbasın dövründə Azərbaycan-Avropa diplomatik əlaqələrinin inkişafı Azərbaycanın dünyada geosiyasi əhamiyyətini bir daha təsdiq edir.

XVI əsrdə mərkəzləşmiş Azərbaycan Səfəvi imperatorluğunun yaranması Azərbaycanın dünyəvi mövqeyini daha parlaq uzə çıxartdı. Səfəvilərin zəifləməsi şəraitində XVII əsrdən başlayaraq Azərbaycan uğrunda gedən Osmanlı-Iran dövlətlərarasındakı mübarizəyə Rusiya imperiyasının da qoşulması Azərbaycanın Şərq-Qərb strateji mövqeyini bir daha təsdiq edir. I Pyotr Xəzər dənizini Rusiyanın daxili dənizinə çevirməyi və Şərq ölkələri ilə Volqa boyu yolu ilə ticarət etməyi, Şərqlə Qərb ticarətində Rusiyanın vasitəçiliyinə nail olmağı planlaşdırmışdı. I Pyotrun bu arzusunu II Yekaterina davam etdirmiş, I Nikolay və I Aleksandr həyata keçirə bilmişdi. Nəticədə, Azərbaycan iki işğalçı dövlət - Rusiya və Irna arasında bölündü.

XX əsrin əvvəllərində - I Dünya müharibəsi illərində hərbi bloklara daxil olan dövrlərin işğalçılıq planlarında əlverişli coğrafi mövqedə yerləşmiş Azərbaycan və onun nefti mühüm yer tuturdu.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini elan etməsi xarici dövlətlər içərisində birinci olaraq Sovet Rusiyasını və Iranı narahat edirdi. Iran rəsmiləri güman edirdi ki, AXC Türkiyənin köməyi ilə Cüney Azərbaycanını da özünə birləşdirə bilər. Rusiya isə Almaniya ilə sazişə gələrək Bakı neftindən müəyyən pay alması qarşılığında türk hərbiçilərini Azərbaycana buraxmamağa razı saldı. Əhməd bəy Ağaoğlu bu münasibətlə almanlar barəsində yazırdı: «Onlar Azərbaycanı bir bidon kerosinə satdılar» Buna baxmayaraq, Azərbaycan və türk qoşunları, əsasən, eser və daşnaklardan ibarət olan « Sentrokaspi diktaturası»na son qoydu. Cənubi Qafqaz regionu Ingiltərənın nüfuz dairəsi elan olundu və 1918-ci il noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. 1920-ci il yanvarın 11-də Paris Sülh Komfransının Ali Şurası AXC-nin müstəqilliyinin defakto tananması haqqında qərar qəbul etdi. AXC-nin beynəlxalq aləmdə təcrid edilməsi aradan qaldırıldı və müstəqil Azərbaycanın beynəlxalq əlaqələr sisteminə daxil olması prosesi başlandı. Sovet Rusiyası Azərbaycanın geosiyasi mövqeyindən və, xüsusən, neftindən yararlanmaq üçün 1920-ci il aprelin 28-də Azərbaycanı işğal etdi. V.I.Lenin Azərbaycanda sovet hakimiyyətinin qurunmmasının ertəsi günü, aprelin 29-da bəyan etmişdi: «Dünən Bakıdan aldığımız xəbər göstərir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılaşdırılmaqdadır…. Indi bizim elə bir iqtisadi bazamız var ki, bu bizim bütün sənayemizi canlandıra bilər. Sovet Rusiyasının Bakı nefti ilə təmin edilməsi hələ Azərbaycanda sovet hakimiyyətinin qurulmasından əvvəl planlaşdırılmışdır. Azərbaycanı işğal etməsinə baxmayaraq, Sovet Rusiyası onun formal müstəqilliyindən, müsəlman Şərqində və türk dünyasındakı geosiyasi nüfuzundan istifadə edərək 1920-ci ilin sentyabrında Hərq xalqları nümayəndələrinin böirinci və 1926 ildə I Ümumittifaq Türkoloji qurultayı Bakıda keçirildi.

Ikinci Dünya müharibəsi illərində Azərbaycan faşist Almaniyasının işğalçılıq planında xüsusi yer tuturdu. Onun sərvətləri,strateжi və geosiyasi mövqeyi faşistlərin diqqətini cəlb edirdi. Almaniya Bakı neftindən istifadə etməklə bütün Şərqi edəcəyinə böyük ümidlər bəsləyirdi.

XX əsrin ikinci yarısında M.Qorbaçyovun «yenidənqurma» və «aşkarlıq» siyasəti Sovet imperiyasının süqutunu sürətləndirməklə yanaşı, milli və türk xalqlarına nifrət hissi oyatmaq, xristian-müsəlman qarşıdurması yaratmaq idi. Ümumilli lider H.Əliyev deyirdi ki, Qorbaçyovun ən bariz xüsusiyyəti müsəlman, türk dünyasına qarşı olan düşmənçiliyi idi. Qorbaçov Azərbaycanın tarixi düşməni olan erməni separatçılarının və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına rəvac verdi. Azərbaycan rus-erməni təcavüzü nəticəsində 20 mindən çox övladını və 20 faiz ərazisini itirdi. Bir milyondan artıq vətəndaşımız öz vətənində qaçqın həyatı yaşamalı oldu. Ali Sovetin 1991 il oktyabr ayının 18-də toplanmış sessiyası xalqın təzyiqi altında "Azərbaycan Respublikasının müstəqilliyi haqqında Aktı"nı qəbul etdi. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması ilə onun geostrateji mövqeyi yenidən böyük dövlətlərin maraq dairəsinə çevrildi. Respublikada parçalanma və vətəndaş müharibəsi zəminində hakimiyyətxalqın tələbi ilə H.Əliyevin gəlməsi ilə müstəqil milli quruculuq və xarici siyasətdə yeni mərhələ başladı. H.Əliyev tərəfindən sabitlik yaratmaq, qardaş qırğınının və böyük çevrilişlərinin qarşısını almaq, Rusiya təhlükəsizliyindən yan keçmək, qlobal tarazlıq siyasəti və Azgrbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək xətti məharətlə yürüdüldü. Prezident H.Əliyev 1994-cü il 4 mayda Brüsseldə «Sülh naminə tərəfdaşlıq" çərçivə sənədinin imzalanması mərasimində verdiyi bəyanatdə deyirdi: "Azərbaycan öz xarici siyasətini bizim hamımızın qarşısında duran ümumi qlobal məqsədləri rəhbər tutaraq dünyanın qarşılıqlı sürətdə bağlı qalmasını dərindən dərk etmək əsasında qurur. Biz möhkəm əminik ki, dövlətlərin suverenliyini və sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət indiki həyacanlı və hədə-qorxulu dövrdə təhlükəsizliyin əsasıdır».

Prezident Ilham Əliyev dünyanın Azərbaycana marağını, təkçə geosiyasi mövqeyi və sərvəti deyil, eyni zamanda zəngin mədəniyyətindən bəhrələnmək arzusunu diqqətə alaraq 2016-cı il 11 yanvar Sərəncamında bu ili "Multikulturalizm" ili elan etmişdir. Sərəncamda deyilir ki, : "Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni, rəngarəng mühütin formalaşdığı, ayrı-ayrı millətlərin və konsepsiyaların nümayəndələrinin sülh, qarşılıqlı anlaşma diyarı kimi tanınmışdır".

**XX ƏSRİN 90-cı İLLƏRİNDƏ AZƏRBAYCAN-ABŞ ƏLAQƏLƏRİNDƏ ENERJİ FAKTORU**

***Mehdizadə G.Z.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Öz strateji yerləşməsinə görə, Azərbaycan Xəzər regionunun coğrafi açarı hesab edilir. Ərazisində yerləşən böyük neft və qaz ehtiyatları isə Vaşinqtonun Azərbaycana olan geosiyasi marağını izah edən faktordur. ABŞ Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci ilin dekabrında tanıdı. 1992-ci ildən isə onlar arasında səfirlik səviyyəsində diplomatik münasibətlər quruldu. Ilk əvvəl Xəzər regionu ölkələri, o cümlədən Azərbacan Vaşinqtonda iqtisadi vəziyyətin nestabilliyi və regional konfliktlərə görə xüsusi maraq oyatmırdı. Bu dövrdə bu ölkələr kapital qoyuluşu üçün əlverişli hesab edilmirdi. Lakin bütün bunlara baxmayaraq, Vaşinqtonun Qafqaz siyasəti konteksi çərçivəsində Azərbaycan-ABŞ münasibətləri daha dinamik inkişaf edirdi və bu, bir tərəfdən Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) və digər tərəfdən ABŞ neft koorporasiyaları arasında əldə olunan razılıqlarla izah edilirdi. Sonrakı əməkdaşlıq üçün açar rolunu 1994-cü ildə beynəlxalq xarici şirkətlər konsorsiumu (AMOK) və Azərbaycan höküməti arasında respublikada olan 3 nəhəng yatağın işlənməsi ("Azəri", "Çıraq", "Günəşli") haqqında müqavilənin bağlanması oynadı.

2 il sonra daha bir sənəd - 2,5mlrd dollar investisiya qoyulmuş qaz kondensat yatağı olan Şah-Dəniz yatağının bölünməsi haqqında müqavilə imzalandı. Əsas iştirakçı qismində "BP-Amoko" (25,5% hissə pay); "Statoil (25,5%); "LukAgip" (10%); ARDNŞ (10%) iştirak etdilər. Azərbaycanın xarici neft şirkətləri ilə imzaladığı 19 müqavilənin 14-də ABŞ korporasiyaları iştirak edirdi. Bununla da, iqtisadi əməkdaşlıq daha dinamik xarakter almağa başladı.

Azərbaycanın və ABŞ-ın yaxınlaşmasında 1995-ci ildə məşhur amerikalı siyasətçi və eksperti Z.Bjezinskinin Bakıya gəlişinin də böyük rolu oldu. Onun Prezidenti Heydər Əliyev ilə görüşündən sonra Amerika mətbuatında Azərbaycanın əlverişli coğrafi möqeyi və zəngin neft ehtiyatları haqqında məlumatlar işıqlanmağa başladı. 1997-ci ildə B.Klinton qeyd etmişdir ki, Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan ABŞ üçün siyasi və iqtisadi əhəmiyyət daşıyır.

1997-ilin martında ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi S.Berqer bəyanat verdi ki, B.Klintonun prezident postunda olduğu 2-ci müddət ərzində Vaşinqtonun Qafqaz və Mərkəzi Asiyada öz təsir və maraqlarını və iştirakını artırmaq niyyətindədir, Xəzər hövzəsini prioritet maraq zonası hesab edir. Həmin ildə Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-a səfər etdi. Bu səfər Azərbaycan-Amerika əlaqələrinin hüquqi-normativ əsasının yaradılması üçün böyük əhəmiyyət daşıyırdı. Onun səfəri gedişində 8 mlrd dollar həcmində "Mobil", "Chevron", "Exxon", "AMOKO" şirkətləri ilə müqavilə imzalandı. Geniş potensial imkanlara, zəngin təbii ehtiyatlar malik olan Azərbaycan bütün sahələrdə xarici iş adamları ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa böyük maraq göstərirdi.

ABŞ-ın bölgə siyasəti 1997-ci ildə Ağ evin qəbul etdiyi "Yeni minillikdə yeni təhlükəsizlik strategiyası" adlı sənəddə öz əksini tapmışdır və ABŞ-ın Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazdakı geosiyasi fəaliyyət strategiyasına daxil edildi.

ABŞ rəsmi olaraq Xəzər neftinin dünya bazarlarına çıxarılması siyasətində çoxvariantlı boru kəmər siyasətinin tərəfdarı olduğunu bəyan etdi. Bu siyasətin bir tərəfi də ABŞ-ın Rusiyanı Xəzər regionunda ixrac monopoliyası siyasətindən çıxartmaqdır. Buna görə də əsas diqqət Bakı-Tbilisi-Ceyhan marşurutuna yönəldi. Xəzər dənizinin zəngin neft-qaz ehtiyatlarının Rusiya və İrandan asılı olmayan yollarla Avropaya nəqli həm bölgənin enerji istehsal edən və tranzit ölkələrinin, həm də ABŞ-ın regional geosiyasi maraqlarına uyğun idi. Çünki ABŞ hesab edirdi ki, Bakı-Tbilisi-Ceyhan kəməri Rusiyanın və İranın regionda enerji sektoruna nəzarət etməsinin qarşısını alacaqdır. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri layihələrinin reallaşması ilə bağlı Azərbaycanın ortaya qoyduğu milli iradənin reallaşmasına ABŞ və Türkiyənin verdiyi real dəstək, bu sahədə onların beynəlxalq aləmdə yürütdükləri fəal siyasət həlledici rol oynayır.

1998-ci ilin oktyabrında Xəzər hövzəsi resursları ilə əməkdaşlıq haqqında Ankara deklarasiyası imzalandı. Bu sənədin altından Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Özbəkistan prezidentləri və Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərini Amerika üçün strateji əhəmiyyət daşıdığını qeyd edən ABŞ energetika naziri imzaladı.

1999-cı ilin yanvarında ABŞ Prezidentinin milli strateji təhlükəsizliyə dair Konqresə ünvanladığı məruzədə ABŞ-ın Avrasiya regionundakı maraqları bir daha önə çəkilir, Xəzər regionunun, xüsusən "Əsrin kontraktı" çərçivəsində Azərbaycandan tədarük edilmiş enerji resurslarının dünya bazarlarına nəqli ilə bağlı "Bakı-Tbilisi-Ceyhan" neft, "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərləri layihələrinə sərmayə qoyuluşuna dəstək verilməsi xahiş olunurdu. Məruzədə həmçinin bildirilirdi ki, Qafqaz və Orta Asiya bölgələrində sabitlik və inkişaf Xəzər regionundakı enerji daşıyıcılarının gələcəkdə dünya bazarlarına çıxarılması üçün əsas şərtdir.

1999-cu il 19 noyabrda İstanbul Sammitində ATƏT çərçivəsində "Xam neftin Əsas İxrac Boru Kəməri Bakı-Tbilisi-Ceyhan vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə Respublikaları əraziləri ilə daşınması haqqında razılıq" imzalandı. Beləliklə, Azərbaycan neftinin nəqlinin qərb marşurutu dəstəkləndiyi kimi, onun reallaşması üçün mühüm addımlar atıldı.

Beləliklə, yeni müstəqillik əldə etməsinə baxmayaraq, 1990-cı illərdə həm yerləşdiyi əlverişli təbii-coğrafi mövqeyi, zəngin enerji mənbəyinə malik olması, həm də regionda apardığı balanslı siyasət Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdi. Bu reallıqdan çıxış edərək davam etdirilən intensiv siyasət Qafqaz bölgəsində Azərbaycanı ABŞ-ın iqtisadi tərəfdaşına çevirdi.

**AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA İTTİFAQI İLƏ ƏLAQƏLƏRİNƏ DAİR**

***Məmmədov Ə.F.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış və 1 iyul 1999-cu il tarixində qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı münasibətlərdə xüsusi əhəmiyyəti olan hüquqi sənəddir. Bu saziş siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur.

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsasən Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında ikitərəfli mütəmadi dialoqun aparılması məqsədilə Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi, Parlamentlərarası Əməkdaşlıq Komitəsi, Ticarət, iqtisadiyyat ilə əlaqədar hüquqi məsələlər üzrə Altkomitə və Enerji, nəqliyyat və ətraf mühit məsələləri üzrə Altkomitə kimi strukturlar yaradılmışdır.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı əlaqələr respublikamızın bu birliyin Avropa Qonşuluq Siyasətinə daxil edilməsi ilə yeni mərhələyə qədəm qoyur. Avropa İttifaqı ilə əlaqələrdə daha yüksək səviyyəli siyasi və iqtisadi inteqrasiya vəd edən Avropa Qonşuluq Siyasəti ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ olmuşdur.

Avropa Qonşuluq Siyasəti ölkəmiz üçün aşağıdakı imkanlar yaratmışdır:

- Avropa İttifaqının daxili bazarında müəyyən paya sahib olma imkanı;
- vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya proseslərində iştirak;
- Avropa İttifaqının üzv ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi və s.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıqda Azərbaycan Respublikası Prezidentinin noyabr 2006-cı il tarixli Brüssel səfəri zamanı imzalanmış "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"nun mühüm rolu olmuşdur. Bu Memorandumun əsas məqsədləri Avropa İttifaqının enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrinin istifadəsidir.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlər "MDB ölkələrinə texniki yardım" (TACIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (INOGATE), "humanitar yardım" (ECHO) və digər proqramlar çərçivəsində də həyata keçirilir.

Şərq Tərəfdaşlığı (ŞT) təşəbbüsü Avropa İttifaqı Xarici İşlər Nazirlərinin 26 may 2008-ci il tarixində Brüsseldə keçirilmiş görüşü zamanı Polşa və İsveç tərəfindən irəli sürülmüşdür. Şərqi Avropa ölkələri üçün vahid formatın təsis edilməsini nəzərdə tutan

sözügedən təşəbbüs Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarusu (Şərq tərəfdaş ölkələri) əhatə edir.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DEMOQRAFİK VƏZİYYƏT

***Məmiyev C.M.***
*Sumqayıt Dövlət Universiteti*

Hər bir dövlət ölkə həyatının müxtəlif sahələrində olduğu kimi, demoqrafik sahədə də özünün siyasi xəttini qurur, onun formalaşması və həyata keçirilməsinə xüsusi diqqətlə yanaşır. Azərbaycan Respublikasında demoqrafik siyasətin müəyyənləşdirilməsi zamanı aşağıdakı amillər nəzərə alınmalıdır: ölkənin ərazisi; mövcud demoqrafik vəziyyət; əhalinin iqtisadi regionlar üzrə sıxlığı; iqtisadi rayonlar üzrə əhalinin artım tempi; əhali artımına münasibətlə bağlı yerli adət-ənənələr; sosial-iqtisadi şərait; əmək ehtiyatları və məşğulluq; coğrafi-iqlim şəraiti. Göründüyü kimi, demoqrafik siyasətin formalaşması zamanı nəzərə alınan amillərin ümumi spektri genişdir. Bu amillərin bir-birilə uyğunlaşdırılması, onların qarşılıqlı əlaqəsinin tapılması vacib məsələdir. Keçmiş SSRİ-də müttəfiq respublikaların yerli və milli xüsusiyyətləri nəzərə alınmırdı. Məhz bu siyasətin nəticəsində hazırda Azərbaycanda bir sıra demoqrafik problemlər yaranmışdır. Azərbaycan Respublikasının əhalisinin sayı 1897-1999-cu illəri əhatə edən 102 il ərzində dünya əhalisinə nisbətən daha sürətlə artmış (4,3 dəfə), 1 milyon 807 min nəfərdən 7 milyon 949 min nəfərə çatmışdır. Azərbaycanın demoqrafik vəziyyətində baş vermiş kəskin dəyişikliklər demoqrafik dəyişmələrin 4 növünü göstərməyə əsas verir: 1) 1913-1920-ci illərdə I dünya müharibəsi, xarici müdaxilə, vətəndaş müharibəsi, ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və s. hadisələr nəticəsində Azərbaycan əhalisinin sayı 387 min nəfər və ya 16,6% azalaraq, 2 milyon 339 min nəfərdən 1 milyon 952 min nəfərə düşmüşdür; 2) 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi zamanı Azərbaycan əhalisinin sayı 568 min nəfər və ya 17,4% azalaraq 1940-cı ilin əvvəlindəki 3 milyon 274 min nəfərdən 1945-ci ilin əvvəlində 2 milyon 705 min nəfərə düşmüş və beləliklə, Azərbaycan əhalisinin sayı özünün müharibədən əvvəlki səviyyəsinə yalnız 10 il sonra 1955-ci ildə çatmışdır; 3) 1948-1953-cü illərdə Ermənistan ərazisindən 150 min nəfərdən çox azərbaycanlı öz əzəli torpaqlarından deportasiya olunmuşdur; 4) 1988-ci ildən başlayaraq erməni təcavüzü nəticəsində torpaqlarımızın 20%-i işğal edilmiş, 1 milyon nəfərədək soydaşımız qaçqın və məcburi köçkün olmuş, o cümlədən 250 min nəfərdən artıq azərbaycanlı soydaşımız Ermənistandan qovulmuş və son 2 əsr ərzində 1,5 milyon nəfərdən çox azərbaycanlı öz tarixi torpaqlarından deprotasiya edilmişdir.

Azərbaycan əhalisi öz milli xüsusiyyətlərinə görə miqrasiyaya az meyillidir. Azərbaycandakı miqrasiya probleminin əsas cəhəti insanların öz doğma vətənlərini tərk etməyə az meyilli olmasıdır. Azərbaycanda demoqrafik vəziyyətin yaxşılaşdırılması və ölkənin demoqrafiya siyasətinin formalaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyasının hazırlanması ilə bağlı Prezident 24 dekabr 1998-ci il

tarixində 51 saylı sərəncam imzalamışdır. Bu konsepsiyada milli maraqlar əsas götürülməklə, 1994-cü ildə Qahirədə keçirilmiş əhali sakinliyi və inkişafı üzrə beynəlxalq konfransın fəaliyyət proqramı, 1995-ci ildə Kopenhagendə sosial inkişaf naminə ümumdünya sammitində, Pekində qadınların vəziyyətinə həsr edilmiş ümumdünya konfransında qəbul edilmiş sazişlər nəzərə alınmaqla hazırlanmışdır. Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası 1999-cu ildə təsdiq edilmişdir. Konsepsiyada qeyd olunur ki, Azərbaycanda demoqrafik inkişafın ümumi vəziyyəti sağlamlığın pisləşməsi, doğum səviyyəsinin aşağı düşməsi, əhalinin ölüm səviyyəsinin yüksək olaraq qalması, gözlənilən ömür müddətinin aşağı olması ana və uşaq ölümünün yüksəkliyi və əhalinin artım sürətinin azalması və s. problemlərlə səciyyələnir. 2003-cü ildə Azərbaycan əhalisinin 51,7%-i şəhər yerlərində, 18,3%-i kənd yerlərində yaşayanlardır. Həmin dövrdə əhalinin 50,8%-i qadınlar, 49,1%-ni kişilər təşkil edirdi. Əhalinin əsas keyfiyyət göstəriciləri aşağıdakılardır: əhalinin sağlamlıq vəziyyəti; əhalinin təhsil səviyyəsi və onun strukturu; ümumi, uşaq və qadın ölümünün səviyyəsi; əhalinin sosial tərkibi və sosial səfərbərliyi; əhalinin məşğulluq vəziyyəti və məşğulluğun sahə quruluşu; əhalinin urbanizasiya səviyyəsi; milli dəyərlər, ailə-məişət, adətlər və ənənələr; ümumbəşəri dəyərlərə bağlılıq; əhalinin ərazidaxili intensivliyi və xarakteri; əhalinin peşə-texniki hazırlığının səviyyəsi və strukturu. Azərbaycanın əhali məskunlaşması sahəsindəki milli siyasəti bir sıra müstəqil, lakin sıx əlaqəli hissələrdən ibarətdir: demoqrafik siyasət; əhalinin miqrasiyası siyasəti; əhalinin urbanizasiya siyasəti; əhalinin məşğulluq siyasəti.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ DİNAMİK İNKİŞAFIN MÜHÜM MƏRHƏLƏLƏRİ

***Mədətzadə K.M.***
*Sumqayıt Dövlət Universiteti*

1991-ci il oktyabrın 18-də müstəqilliyə nail olduqdan sonra ölkəmizin əsas problemlərindən biri onun inkişafı üçün lazımı mühitin yaradılması idi. Həmin dövrdə mühüm məsələlərdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında mənfi rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yaratmaqdan ibarət idi. Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial iqtisadi və siyasi problemlərinin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrimin dərinləşməsi və beynəlxalq mövqeyinin möhkəmlənməsinə güclü təkan verdi. Həmin illərdə çox ciddi islahatlar aparılmış, bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil etmiş, Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması geniş vüsət almışdır. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistemi möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır.

Son illər ərzində Azərbaycanda 300-ə yaxın beynəlxalq səviyyəli idman tədbirləri yüksək səviyyədə keçirilmişdir.

Birinci Avropa oyunlarının Bakıda keçirilməsi ilə, bağlı qərar ölkəmizin uğurlu olmaqla, Azərbaycanın dünyada artan nüfuzunun, geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir.

Ölkəmizin Dünya Kuboku 2015 və Şahmat Olimpiadasının və Formula-I idman oyunlarının 2016-cı ildə Bakıda keçirilməsi hüququnu əldə etməsi dünya idman və olimpiya aləminin Azərbaycana olan marağını daha da artırmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanda keçirilməsinə dair rəsmi qərar qəbul edilmişdir.

Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan "Avropa Qonşuluq Siyasətinə" qoşulmuşdur. 2006-cı ildə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memarandiumu imzalanmışdır. 2008-ci ildə isə İttifaqın "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla, siyasi və iqtisadi əməkdaşlıq daha da genişlənmişdir.

Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri- daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin səsini alaraq inamlı qələbə qazanmış, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi qəbul olunmuşdur. Bu, ölkəmizin son illər dünya miqyasında artan nüfuzunun göstəricisidir.

Ümumiyyətlə, qlobal miqyaslı tədbirlər bu gün Azərbaycanın Cənubi Qafqaz regionunda ən aparıcı dövlətə çevrilməsini bir daha sübut edir.

Artıq Azərbaycan yalnız regionda gedən proseslərdə deyil, eyni vaxtda beynəlxalq səviyyədə gedən proseslərdə də iştirak edir.

Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır. 2017-ci ildən sonra Azərbaycan Türkiyə dövləti ilə birgə reallaşdırdığı TANAP layihəsi həyata keçirildikdən sonra Avropanın təbii qaz bazarında ölkəmizin rolu daha da yüksələcəkdir.

Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi Azərbaycan artıq çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir.

Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, sabitliyinin təmin edilməsi, Avroatlantik strukturlarla inteqrasiya məsələləri diqqət çəkir. Azərbaycan regionda sülh və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.

**ÖLKƏDƏ TARAZLAŞDIRILMIŞ BEYNƏLXALQ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ**

***Məmmədova Ş.S.***
*Sumqayıt Dövlət Universiteti*

Tarix boyu hər bir dövlət yarandığı gündən öz fəaliyyətində və həyata keçirdiyi siyasətində xarici əlaqələrə, beynəlxalq münasibətlərə, xarici iqtisadi siyasətə daim xüsusi diqqət ayırmış, özünün dünya dövlətləri sırasında, beynəlxalq münasibətlər sistemində fəal iştirakına böyük əhəmiyyət vermişdir. Bütöv bir sistem kimi dünya birliyi ölkələrinin əlaqələrinin gücləndiyi müasir dövrdə bu zərurət öz aktuallığını daha da artırmaqdadır.

Ölkədə tarazlaşdırılmış beynəlxalq siyasət dedikdə, fikrimizcə, ilk növbədə Azərbaycanın milli-iqtisadi maraqlarının, milli və beynəlxalq təhlükəsizliyinin qorunması və inkişafı, dövlət qanunçuluğunun, respublikanın beynəlxalq səviyyədə mövqeyinin möhkəmləndirilməsi, nəticədə, insanların real həyat səviyyəsinin yüksəldilməsi və rifah halının yaxşılaşdırılması naminə ölkə başçısının ölkə daxili və xarici siyasi-iqtisadi sosial siyasətinin dünyada baş verən siyasi-ictimai-iqtisadi proseslərlə uzlaşdırılması istiqamətində qətiyyət və uğurla həyata keçirdiyi fəaliyyət, siyasət başa düşülməlidir. Göründüyü kimi, bu problemin tədqiqi çox geniş əhatə dairəsinə malikdir. Buna baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun həyata keçirdiyi tarazlaşdırılmış beynəlxalq siyasətinin ən mühüm aspektlərinin araşdırılması müstəqil dövlət quruculuğu işinin öyrənilməsində məqsədli hesab edilə bilər. İ. Əliyevin həyata keçirdiyi tarazlaşdırılmış beynəlxalq siyasətin ən əsas vəzifələrini və başlıca istiqamətlərini ümumi şəkildə aşağıdakı kimi qeyd etmək olar:

- dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi;
- beynəlxalq aləmdə tanınma və dünya birliyində ölkəmizin mövqeyinin gücləndirilməsi;
- ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması;
- qlobal enerji təhlükəsizliyinin təmin olunması, uğurlu neft-qaz diplomatiyasının həyata keçirilməsi və s.

Tarazlaşdırılmış beynəlxalq siyasətin başlıca istiqamətləri kimi Azərbaycanın:

- beynəlxalq və regional təhlükəsizlik sistemlərinin yaradılmasında iştirakı;
- beynəlxalq regional inteqrasiya proseslərinə qoşulması;
- dünya dövlətlərilə normal münasibətlərin yaradılması və onlarla sıx əməkdaşlığa qoşulması;
- dünyanın qlobal problemlərinin həllində iştirakı çox vacibdir.

Məlum olduğu kimi, müasir beynəlxalq münasibətlər sistemində keçən əsrin 1990-cı illərindən sonra çox ciddi və mühüm dəyişikliklər müşahidə olunmağa başlandı. O vaxta qədər bu münasibətlər sisteminin həm daxili, həm də xarici struktur və xarakterində mühüm təsir gücünə malik ABŞ və onun Qərb müttəfiqlərinin məqsədli fəaliyyəti və güclənməsi danılmaz bir fakt kimi özünü biruzə verirdi. Onların fəaliyyətinin və təsir dairəsinin güclənməsi fonunda keçmiş SSRİ və onun sosialist bloku 1990-cı illərdə dərin böhranla

üzləşərək, dağılmağa başladı. SSRİ dağılandan və nəticədə bütün dünyada sosialist düşərgəsi iflasa uğrayandan sonra, beynəlxalq münasibətlər sisteminin, o cümlədən beynəlxalq siyasi və iqtisadi əlaqələrin inkişafında yeni dövr başlandı. Nəticədə müasir beynəlxalq münasibətlərin və dünya siyasətinin aparıcı ənənələri – dünya siyasətinin və iqtisadiyyatının transmilliləşməsi, demokratikləşmə və onun dünya siyasətinin əsas tələbinə çevrilməsi, qloballaşma və beynəlmiləlləşmə prosesləri və onların müasir beynəlxalq münasibətlərə təsiri, regional inteqrasiya və dövlətlərarası əlaqələrin intensivləşməsi, yeni dünya rejimi və yeni dünya iqtisadi qaydaları meydana gələrək ölkələrin xarici və daxili siyasi və iqtisadi fəaliyyətinin istiqamətlərinin müəyyən edilməsinə güclü təsir göstərməyə başladı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra keçən dövrdə olduqca mürəkkəb geosiyasi regionda yerləşən ölkədə dinamik sosial-iqtisadi inkişafı təmin edən siyasi stabilliyin, ölkənin beynəlxalq səviyyədə nüfuz və mövqelərinin möhkəmləndirilməsi, ictimai-siyasi-iqtisadi həyatın bütün sahələrində müasir dövrün tələblərinə uyğun islahatların aparılması naminə inamlı addımlar atılmışdır.

Ölkədə tarazlaşdırılmış beynəlxalq siyasət, iqtisadi sahədə keçid dövrünü artıq başa vurmuş respublikamızın qarşısında inkişaf etmiş ölkələr sırasına çıxmaq üçün geniş imkanlar açır. Böyük inamla demək olar ki, dövlət başçısının siyasi iradə və gücü, eyni zamanda, ölkəmizin böyük iqtisadi potensialı bu məqsədlərin reallaşdırılmasını təmin edəcəkdir.

## MİLLİ MÜSTƏQİLLİYƏ GEDƏN YOL

***Məmmədli B.İ.***

*Sumqayıt Dövlət Universiteti*

1988-ci ildən başlanan Azərbaycan xalqının milli-azadlıq mübarizəsinin məqsədi 1918-ci ildə mövcud olmuş müstəqil Azərbaycan dövlətinin yenidən bərpa edilməsi idi.

Dünya tarixinin təcrübəsi göstərir ki, milli-azadlıq hərəkatları ən qüdrətli imperiyaları belə dağıtmağa qadirdir.

Azərbaycanı müstəqilliyə aparan yolların başlanğıcı hələ sovet dönəmində qoyulmuşdu. Hər hansı maneə və çətinliklərə baxmayaraq, Azərbaycan bu yolla irəliləyirdi. Milli-azadlıq hərəkatına təkcə Azərbaycan xalqı qalxmamışdı.

1988-ci il SSRİ xalqlarının mili-azadlıq hərəkatına qalxması dövrü kimi xarakterizə edilə bilər. 1988-ci ilin noyabr ayında Estoniya bu prosesin bünövrəsini qoydu. Sovet respublikaları içərisində ilk dəfə olaraq Estoniya "suverenlik haqqında" bəyannamə qəbul edərək respublika ərazisində Estoniya qanunlarının SSRİ qanunları üzərində aliliyini elan etdi. Bunun ardınca Litva, Moldova, Belarusiya və b. müttəfiq respublikalar öz müstəqilliyini elan etdilər (1990). Belə bir tarixi şəraitdə Azərbaycanda demokratik qüvvələr digər respublikalardan fərqli olaraq, əsasən, üç cəbhədə mübarizə aparırdılar.

Sovet imperiyasına və erməni separatçılara qarşı mübarizəyə qalxan Azərbaycan xalqı 2 məkrli düşmənlə qarşılaşmışdı. Qarabağın dağlıq hissəsində yaşayan ermənilər, eyni zamanda Ermənistan, Azərbaycanda siyasi sabitliyi pozmağa çalışır, gərginliyi artırırdılar.

Azərbaycan xalqı daxilindəki imperiyapərəst qüvvələrə qarşı da mübarizə aparmalı olmuşdu. Bu qüvvələr Azərbaycan SSR-nin saxlanmasına çalışır, mili-azadlıq hərəkatını boğmaq, hərəkatı parçalamaq üçün əngəllər törədirdilər.

1990-cı ildə imperiyapərəst qüvvələr Bakıda qan tökülməsinə nail oldular. İmperiyanın hərbi qüvvələrinin Bakıya soxulması və misli görünməmiş vəhşiliyi, sovet dövlətinin öz vətəndaşalarına qarşı silah işlətməsi (Sovet vətəndaşına) hərəkatı məhv etməyə doğru yönəlmişdi. 1990-cı il qanlı 20 yanvar hadisələri ölkədə vəziyyəti daha da ağırlaşdırsa da, imperiyaya qarşı nifrəti daha da artırdı. Sovet ittifaqı dərin böhran keçirirdi. O dağılmaq təhlükəsi qarşısında idi. Kommunist partiyası da son dövrünü yaşayır, tarix səhnəsindən (siyasi səhnədən) getmək üzrə idi. SSRİ dövləti cinayətləri bu prosesi daha da sürətləndirirdi.

Görkəmli siyasət və dövlət xadimi H.Əliyev 20 Yanvar hadisələrindən sonra Vətənə-Azərbaycana dönməsi və 1990-1993-cü illərdə doğma Naxçıvanda fəaliyyət göstərməsi (məclisin deputatı, sonra sədri seçildi), güclü şəxsiyyət və siyasi xadim kimi Azərbaycanda gedən ictimai-siyasi proseslərə təsir göstərməsi Azərbaycanın müstəqiliyə gedən yollarını maneələrdən təmizləməklə tarixi addım atdı.

Naxçıvan MSSR-in adını dəyişərək MR adı ilə əvəz olundu;

Azərbaycanın üçrəngli bayrağı rəsmi şəkildə qəbul edildi;

Ali Sovet, Ali Məclis adlandırıldı;

H.Əliyev 1991-ci ilin martın 17-də "İttifaqın saxlanması" haqqında keçirilən referendumu boykot etməyə çağırdı;

Nəhayət, 1991-ci ilin avqust ayının 30-da Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında "Bəyannamə" qəbul etdi.

"Bəyannamə"də qeyd edilirdi ki, Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir. Bu Azərbaycan dövlət müstəqilliyinin bərpa olunmasının birinci mərhələsi idi. Eyni zamanda bu sənəd müstəqillik yolunda atılan ilk rəsmi sənəd idi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası yolunda atılan növbəti ən mühüm addım, ən böyük tarixi hadisə Azərbaycan Respublikası Ali Sovetinin (sonradan Milli Məclis) "Azərbaycanın dövlət müstəqiliyinin bərpası haqqında" konstitusiya aktının (sənədinin) qəbul edilməsi oldu. Bu tarixi hadisə 18 oktyabr 1991-ci ildə baş verdi.

**AZƏRBAYCAN-İSRAİL CƏMİYYƏTİ MÜSTƏQİLLİK İLLƏRİNDƏ**

***Məmmədova S.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Tarixən Azərbaycanda formalaşmış yəhudi icması və yəhudi milli – mədəni birlikləri, həmçinin İsrailə köçmüş azərbaycanlılar ölkələrimiz arasında ikitərəfli siyasi, iqtisadi – mədəni əlaqələrin inkişafında böyük rol oynamışlar. Odur ki, ikitərəfli əlaqələri şərtləndirən amillərdən birinci olaraq Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra İsrail Dövləti ilə münasibətlərinin qurulması və inkişafına dəstək vermiş yəhudi icmalarının, xüsusilə Azərbaycan-İsrail Cəmiyyəti»nin bu istiqamətdəki fəaliyyətini ətraflı nəzərdən keçirmək vacibdir.

«Azərbaycan-İsrail Cəmiyyəti» 20 dekabr 1991-ci ildə yaranmışdır. Bu cəmiyyəti yaradanlar hüquqşünaslar, alimlər, jurnalistlər, iqtisadçılar, həkimlər və politoloqlar idi. Bunlar: Azərbaycan Milli Elmər Akademiyasının eks vitse-prezidenti Ziya Bünyadov və Mark Dalim, bəstəkar Tofiq Quliyev və Leonid Vaynşteyn; Rusiya Rəssamlar İttifaqının üzvü, rəssam Anar Eldarov, memar Rasim Əliyev; tibb elmləri doktoru, professor Eldar Qorin və b. idi. Qurucuların yüksək səviyyəsi Azərbaycan-İsrail Cəmiyyətinin məqsədlərinin geniş şəkildə həyata keçirilməsinə zəmin yaratdı. Cəmiyyətin məqsədlərindən biri Azərbaycanda yaşayan yəhudilərlə əlaqə yaratmaq idi.

Məqsədlərini həyata keçirmək üçün cəmiyyətin proqramı hazırlandı və Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi. Cəmiyyət bir neçə sahədən ibarətdir: 1.siyasi, iqtisadi, mədəniyyət sahələri; 2.informasiya mərkəzi; 3.xarici əlaqələr sahəsi; 4.sağlamlıq sahəsi; 5.hüquq sahəsi; 6.qadınlar sahəsi; 7.İkinci Dünya müharibəsində iştirak etmiş yəhudilər sahəsi.

Azərbaycan-İsrail Cəmiyyətinin rəhbəri hüquqşünas Aron Nesisdir. Hal-hazırda Aron Nesis Bakı Şəhər Məhkəməsində işləyir. Azərbaycan-İsrail Cəmiyyəti «Əziz» adlı qəzetini nəşr etdirir. Bu qəzet İsrail və yəhudilər, Azərbaycanda yaşayan yəhudilər onların problemləri haqqında məlumat verməkdədir. İsrail səfirliyindən məlumat əldə edərək İsrail və Azərbaycanda baş verən və bu dövlətləri maraqlandıran məsələlər barədə, yəhudi millətinin mədəniyyəti və tarixi barədə məlumatlar nəşr edir. Bir sözlə yəhudilərin informasiya sistemini gücləndirir.

Azərbaycan-İsrail Cəmiyyətinin rəhbərliyi 20 nəfərdən ibarətdir. Ayrıca 6 nəfərdən ibarət Şura fəaliyyət göstərməkdədir. Azərbaycan-İsrail Cəmiyyətinin 450 nəfər üzvü vardır.

Arif Məlikov xarici ticarət üzrə hüquqşünas, Vladimir Şukerman sığorta və bank, iqtisadçı Camal Bağırov bu cəmiyyətə sponsorluq və iqtisadi münasibətlər üzrə rəhbər təyin olunmuşdular. Azərbaycan-İsrail Cəmiyyəti Azərbaycanda rəsmi olaraq qurulmuş bütün yəhudi cəmiyyətləri ilə əlaqədədir. Azərbaycanda rəsmi olaraq qurulan 12 yəhudi cəmiyyəti vardır. Bu cəmiyyətlər Azərbaycan-İsrail Cəmiyyətinin mənafeyinə uyğun olaraq fəaliyyət göstərməkdədirlər.

Azərbaycan-İsrail Cəmiyyətinin şəxsi fəaliyyət dövründə ən vacib işlərdən biri cəmiyyəti yaradanların 1991-ci ildə İsrail xarici işlər naziri ilə görüşməsi sayılır. Bu görüşdən sonra Azərbaycanla İsrail arasında diplomatik əlaqələr quruldu. 1991-ci ilin

dekabr ayında Azərbaycan-İsrail Cəmiyyətinin istəyi ilə 27 nazirliyin qatılması ilə yığıncaq təşkil olundu. İclasın mövzusu ortaq qurumlar yaratmaq, Azərbaycanın sənaye və ticarətində İsrail texnologiyasını sınaqdan keçirmək idi. İsrail dövlətinin səfiri, BMT-nin nümayəndəsi Arye Levin cəmiyyət tərəfindən 1992-ci ildə Bakıya dəvət edildi. Arye Levinlə cəmiyyət arasında Azərbaycanda İsrail dövlətinin səfirliyinin açılması məsələsi müzakirəyə qoyuldu. 1992-ci ilin ortalarında İsrail dövlətinin Azərbaycanda səfirliyi açıldı.

İsrail dövlətinin səfirliyi ilə Azərbaycan-İsrail Cəmiyyəti arasında qarşılıqlı iş birliyi mövcuddur. İsrailin Bakıdakı müvəqqəti işlər vəkili E.Yotvat tərəfindən siyasi iş birliyinin qurulması qərara alınmışdır. İsrail diplomatı ilə «Azərbaycan-İsrail Cəmiyyəti»nin rəhbərliyi arasında qurulmuş iş birliyi görüşünə Azərbaycan dövlətinin siyasi kadrları da qatılmışdır.

1992-ci il oktyabrın 5-də Azərbaycan-İsrail Cəmiyyətinin üzvləri ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Riçard Maylsı və onun arvadını dəvət etmişlər. Bu görüş Amerikanın kəşf edilməsinin 500 illiyinə və yəhudi təqvimi ilə yeni 5753-cü illə əlaqədar payız yəhudi şənliklərinə həsr olunmuşdur. Cəmiyyətin sədri Aron Nesis, idarə heyətinin üzvləri bəstəkar Tofiq Quliyev, akademik Ziya Bünyadov, professor Eldar Qorin Azərbaycanın ABŞ və İsraillə olan siyasi, iqtisadi və mədəni əlaqələrindən danışmışlar.

1993-cü ilin ən önəmli hadisəsi Azərbaycan-İsrail Cəmiyyətinin «Əziz» adlı qəzetinin yayımına başlamasıdır. «Əziz» qəzetinin yayıma başlaması münasibəti ilə Bakı Rus Dram Teatrında müzakirə keçirilmişdir. Açılış mərasiminə prezidentin icra orqanı, Milli Məclis, Xarici İşlər Nazirliyi, mədəniyyət Nazirliyi, təhsil Nazirliyinn əməkdaşları dəvət edilmişdir. Mərasimdə həmçinin akademiklər, Yəhudi cəmiyyətləri, İsrail dövlətinin ölkəmizdəki səfiri Eliezer Yotvat iştirak etmişdir. İsrailin Bakıdakı fövqəladə və səlahiyyətli səfiri Eliezer Yotvat mərasimdə çıxışında Azərbaycan-İsrail Cəmiyyətinin fəaliyyətini yüksək qiymətləndirərək, bu cəmiyyətin Azərbaycan və İsrail dövlətləri arasında münasibətlərdə oynadığı müsbət rola görə cəmiyyətə öz təşəkkürünü bildirmişdir.

Beləliklə, Azərbaycan və İsrail dövlətləri arasında yaranan siyasi və mədəniyyət sahəsində əlaqələrdə irəliləyişlər, əsasən, 1991-cü ildə İsrail Dostluq Cəmiyyətinin yaradılmasından sonra olmuşdur.

**ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN SÜLH YOLU İLƏ HƏLLİ UĞRUNDA HEYDƏR ƏLİYEVİN MÜBARİZƏSİ (1993-2003)**

***Məmmədov N.R.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları bütün XX yüzillik ərzində davam etmişdir. Bunlardan ən dəhşətlisi keçən əsrin 80-ci illərinin sonlarında baş vermiş və xalqımızı böyük faciələrə düçar etmişdir. Qarabağ müharibəsi maraqlı dövlətlərin Azərbaycanda mənafelərinin toqquşması, həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi səbəbindən baş verdi. Müəyyən obyektiv və subyektiv səbəblər ucbatından Azərbaycan bu müharibədə məğlub oldu. Respublika ərazisinin 20 faizi düşmən əlinə keçdi. İşğal olunmuş ərazilərdə evlər, müəssisələr, kommunikasiya vasitələri, təbii sərvətlər erməni vandalları tərəfindən talan edilmiş, dağıdılmış və yandırılmışdır. Azərbaycan müharibədə 20 mindən çox övladını itirmişdi. Dağıdıcı müharibədə həmvətənlərimizdən 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmiş, 1 milyondan artıq insan qaçqın və köçkün həyatını yaşamağa məcbur olmuşdur. Erməni işğalçıları tərəfindən 4861 nəfər azərbaycanlı əsir və girov götürülmüş və onların əksəriyyəti haqqında bu gün də məlumat yoxdur.

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş və seperatçı «Dağlıq Qarabağ Respublikası»nın nəzarətində olan torpaqları dünya terrorizmin təlim meydanlarına və müxtəlif növ kimyəvi silahların sınaq düşərgəsinə, eyni zamanda nüvə tullantılarının basdırıldığı əraziyə çevrilmişdir. Tədqiqatlardan məlum olur ki, Yuxarı Qarabağda nüvə, bioloji, kimyəvi, kompyüter terrorizmi üzrə qrupları fəaliyyət göstərir və bütün bunlar bəşəriyyət üçün təhlükəyə çevrilmişdir. İşğal olunmuş Azərbaycan ərazilərində işğalçı ordunun dərhal, tamamilə və qeyri-şərtsiz çıxarılması tələbi BMT TŞ-nın 1993-cü il 30 aprel 822, 29 iyul 853, 14 oktyabr 874, 11 noyabr 884 saylı qətnamələrində öz əksini tapsa da Ermənistan müxtəlif bəhanələrlə həmin qətnamələrin qərarlarını yerinə yetirməkdən imtina etmişdir.

Dövlətimizin «olum və ölüm» şəraitində xalqın tələbi ilə ümummilli liderimiz H.Ə.Əliyev Azərbaycanda hakimiyyətə gəldi. H.Əliyevin yenidən Azərbaycanda hakimiyyətə gəlməsi Respublikamızda baş verə biləcək daha böyük faciələrin qarşısını aldı. Azərbaycanda baş verən dövlət çevrilişlərinə cəhdlər xalqımızın Prezidentinin ətrafında sıx birləşməsi nəticəsində baş tutmadı. Heydər Əliyev Azərbaycanın haqq işini, onun günahsız faciələrə düçar edilməsinin səbəblərini dünyaya çatdırdı, dövlətçiliyimizi qorudu və inkişaf etdirdi. Azərbaycan dünya birliyində layiqli yerini tapdı.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev uğurlu diplomatiyası, milli ordunun yaradılması və güclənməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişəni zorakı vasitələrlə həll etmək cəhdlərinin perspektivsizliyini dərk etdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu. Müharibənin dayandırılması, daxili vəziyyətin nizamlanması, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və regionda Azərbaycanla qonşu dövlətlər arasında yaranmış gərginliyin normal məcraya salınması Azərbaycanın müstəqil dövlət kimi yaşamasını şərtləndirdi. Bundan sonra Dağlıq Qarabağ probleminə dair

həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində H.Əliyev gərgin və səmərəli iş apardı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli Heydər Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində mühüm mövzulardan birincisi olmuşdur. Təsadüfi deyildir ki, Heydər Əliyev 1993-2000-ci illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi məsələsini ABŞ rəhbərliyi ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə əsaslı müzakirə etmiş, problemin həll edilməsi üçün mümkün variantlar araşdırmışdır. Heydər Əliyev BMT-dəki çıxışında, Türkdilli dövlət başçılarının, İslam Konfransı Təşkilatının, NATO-nun Sammitlərində, MDB dövlət başçılarının bütün görüşlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinə toxunmuş və məsələnin obyektiv həlli üçün geniş imkanlar açılacağını vurğulamışdır. Aparılan qətiyyətli və səmərəli işin nəticəsi olaraq bütün dünya dərk edə bildi ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Bu baxımdan «Yeni Müsavat» qəzetinin 17 oktyabr 2001-ci il tarixli sayında AŞPA-nın sədri Lord Rossel Constondan alınan müsahibə çox böyük maraq doğurur. Belə ki, L.R.Conston həmin müsahibəsində açıq etiraf etmişdir ki, «bu gün beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ ərazisini işğal etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT-nin 49-cu sessiyasının tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırdı.

2002-ci il noyabrın 22-də Praqada Avropa Atlantika Tərəfdaşlıq Şurasına (AATŞ) üzv olan ölkələrin Zirvə görüşü keçirildi. Görüşdə Azərbaycan Prezidenti H.Əliyev geniş məzmunlu çıxış etdi. H.Əliyev çıxışında göstərdi ki, «Nə qədər ki, gec deyil, dünya birliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir». Ümumiyyətlə, ümummilli liderimiz Heydər Əliyevin müdrik və uğurla həyata keçirilən daxili və xarici siyasəti nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi mövqeyi dəyişməz olaraq qalmışdır. 1993-2003-cü illərdə Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycanın haqq işi, onun günahsız faciələrə düçar edilməsi səbəbləri dünyaya çatdırıldı, Azərbaycanın suveren hüquqları, ərazi bütövlüyü beynəlxalq təşkilatlar tərəfindən təsdiqləndi, dövlətçiliyimiz qorunaraq inkişaf etdi və Azərbaycan dünyada layiqli yerini tapdı.

Bu gün Azərbaycan dövləti etibarlı əllərdədir. Heydər Əliyevin zəngin idarəçilik və siyasi məktəbini keçmiş layiqli davamçı, xalqın və dünyanın razılıqla qarşıladığı istedadlı dövlət xadimi, dərin biliyə, geniş dünyagörüşünə, yüksək idarəetmə qabiliyyətinə malik gənc və istedadlı lider İlham Heydər oğlu Əliyev atasının siyasi xəttini inamla davam etdirir. İ.H.Əliyev prezident seçildiyi vaxtdan keçən dövr ərzində Azərbaycan həm siyasi, həm sosial-iqtisadi, həm də beynəlxalq münasibətlər sahəsində yeni-yeni nailiyyətlər qazanmışdır. Həmçinin prezidentimiz İlham Əliyevin xarici siyasəti sahəsində fəaliyyətinin əsas istiqamətlərindən biri «Dağlıq Qarabağ problemi»nin sülh yolu ilə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə təşkil edir. İ.H.Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, «Azərbaycan dövləti və xalqı Dağlıq Qarabağ

məsələsini ədalətlə, sülh yolu ilə həll edilməsinin tərəfdarıdır. Lakin sülh imkanlarının tükənməsi Azərbaycanı işğal altında olan torpaqlarını silahlı yolla azad etmək hüquqlarından istifadə etmək məcburiyyətində qoya bilər. Güclü orduya malik Azərbaycan dövləti buna qadirdir. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan ərazisində ikinci bir Ermənistan dövləti yaransın». Nicatımız birlikdədir, Azərbaycan xalqı prezidentin ətrafında sıx birləşərək ərazi bütövlüyünü bərpa edə bilər və edəcəkdir!!!

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XARİCİ SİYASƏT KURSUNUN ƏSAS İSTİQAMƏTLƏRİ

***Məhərrəmova S.S.***
*Sumqayıt Dövlət Universiteti*

İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra bütün sahələrdə varislik prinsiplərini davam etdirərək Heydər Əliyev siyasi kursuna sadiq qalmışdır. Bunu andiçmə mərasimində "Milli, dini, siyasi mənsubiyyətindən asılı olmayaraq - Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" sözləri ilə ifadə etmişdir.

Prezident İlham Əliyev Azərbaycan diplomatiyasının əsas istiqamətlərini belə müəyyənləşdirib: Azərbaycanın inkişafı, nailiyyətləri barədə dünya birliyini ətraflı məlumatlandırmaq və xaricdəki diasporumuzu, lobbimizi fəallaşdırmaq; Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin maraqlarına uyğun nizamlanması üçün müasir təbliğat metodları ilə çevik diplomatik iş aparmaq; Avropanın şərq sərhədi olan ölkəmizin sivil dünyaya, Qərb ailəsinə inteqrasiyasını daha sıx surətdə reallaşdırmaq; bölgədə təhlükəsizliyin və regionun inkişafı naminə əməkdaşlıqda maraqlı olan bütün dövlətlərlə daha geniş münasibətlər qurmaq; Azərbaycana bəzən tətbiq edilən ikili standartları aradan qaldırmaq üçün qətiyyətli siyasəti davam etdirmək; beynəlxalq terrorizmə və digər bu kimi elementlərə qarşı mübarizədə həmişə ön cərgədə olmaq.

Ölkənin xarici siyasətindəki məqsədlər yeni çağırış və tələblərə uyğun olaraq dəyişir. Lakin xarici siyasətdə dəyişməz məqsədlər var. Milli maraqlar və milli təhlükəsizlik, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqəşisinin həlli başlıca məqsədlərdən biridir. Bundan başqa Azərbaycanda siyasi sabitliyin möhkəmlənməsi və ölkənin iqtisadi inkişafının gücləndirilməsi növbəti onilliyin əsas proritetlərindəndir.

Qarşıya qoyulan vəzifələri yerinə yetirmək məqsədilə 2004 və 2008-ci ilin iyul ayında Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları Bakıda toplaşmışdılar. Ölkə rəhbəri Azərbaycan xarici siyasətinin qarşısında duran vəzifələr barədə geniş konseptual xarakterli nitq söyləyərək demişdir: "Azərbaycan diplomatiyası informasiya hücumu taktikasına keçməlidir.

Bu gün dövlətlər öz maraqlarını təmin etmək üçün sərəncamında olan bütün hərbi, siyasi, ideoloji, iqtisadi və diplomatik vasitələrdən istifadə edir. Dövlətin beynəlxalq aləmdə prioritet məqsədlərinin önündə ölkənin təhlükəsizliyi və ya milli təhlükəsizliyinin təmin olunması məsələsi durur. Məhz buna görə Azərbaycan Prezidenti İlham Əliyev 23

may 2007-ci ildə "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında" Sərəncamı imzalamışdır.

İlham Əliyev siyasətinin məqsədi Azərbaycanı rəqabət, qarşıdurma yox, əməkdaşlıq meydanına çevirməkdir. Bu barədə Prezident İlham Əliyev demişdir: "Azərbaycan qarşıdurma məkanına, rəqabət meydanına çevrilməyəcəkdir. Bu gün Azərbaycan dünyada əməkdaşlıq, işbirliyi, iqtisadi layihələr, sosial məsələlərin həlli və dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsi üçün əvəzolunmaz rol oynayır. Azərbaycan bəlkə də nadir ölkələrdən biridir ki, bizim xarici siyasətimiz tam şəkildə müstəqildir".

Ulu öndər Heydər Əliyev strategiyasının layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev Respublikanın xarici siyasət kursunu qətiyyətlə həyata keçirir. Bu kursun başlıca mahiyyəti milli maraqların nəzərə alınması yolu ilə sabitliyin və təhlükəsizliyin hərtərəfli təmin edilməsi ölkə həyatının bütün sahələrində, xüsusilə, iqtisadiyyatda dinamik inkişafa nail olunmasına əlverişli şəraitin yaradılmasıdır.

## ULU ÖNDƏRİN ŞAH ƏSƏRİ - MÜSTƏQİL AZƏRBAYCAN

***Məhərrəmov S.Q.***
*Sumqayıt Dövlət Universiteti*

1993–cü il oktyabrın 3–də Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. İlk iş ordunun möhkəmləndirilməsindən başlandı.1993–cü il noyabrın 1–də Dövlət Müdafiə Şurası yaradıldı.Azərbaycan Ordusunun döyüş hazırlığının yüksədilməsi rəhbərliyin - Heydər Əliyevin bilavasitə nəzarəti altında idi. 1994–cü ilin əvvəllərində Milli Ordunun əməliyyatları nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi, 22 kənd, bir çox yaşayış məntəqəsi ermənilərdən azad edildi.Heydər Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində 1994 – cü il may ayının 12 də atəşkəs elan edildi.

1994–cü il sentyabrın 20–də prezident Heydər Əliyevin təşəbbüsü ilə iqtisadi və siyasi təfəkkürün bəhrəsi olan , Azərbaycan xalqının həyatında qlobal əhəmiyyətə malik "Əsrin müqaviləsi" imzalandı. Ulu Öndərin rəhbərliyi altında hazırlanan Müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995 ci il noyabrın 12 də xalqın keçirdiyi referendum nəticəsində qəbul edildi. Müstəqil dövlətimiz öz demokratik mahiyyəti ilə ümumavropa dəyərlərindən faydalandı və Azərbaycan xalqı öz həqiqətlərini dünyaya bəyan etmək imkanı qazandı.

Müstəqil Azərbaycanın hüquqi dövlət addımlarından biri olaraq 1995–ci il noyabrın 12–də demokratik parlament seçkiləri keçirildi. 125 nəfərdən ibarət ilk parlament yaradıldı. Bu böyük insanın bu illər ərzində dövlət müstəqilliyini qorumaq və iqtisadi – siyasi həyatı inkişaf etdirmək üçün gördüyü işlər saysız – hesabsızdır.

Xalqın sevgisinin nəticəsi olaraq H.Əliyev 1998 -ci il oktyabrın 11-də ikinci dəfə Azərbaycan Respublikasının prezidenti seçildi. Artıq Azərbaycan tərəqqi və inkişaf yolunda idi. Bu illər ərzində təhsilə səhiyyəyə , incəsənətin bütün sahələrinə diqqət yetirildi.

Bu gün Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, Ümummilli lider Heydər Əliyevin yolunu onun layiqli davamçısı İlham Əliyev cənabları davam etdirir. Bu siyasi kursun davamı olaraq 2003-cü il avqustun 4 də Azərbaycanın müasir tarixində yeni

mərhələnin başlanğıcı qoyuldu. 2003–cü il oktyabr ayının 15–də İlham Əliyev səs çoxluğu ilə Azərbaycan Respublikasının prezidenti seçildi. Başqa dövlətlərin 80 illik tərəqqisi Azərbaycanda 8 ilə (2003-2011) sığdı. Bu 8 il ərzində Azərbaycan mədəniyyəti, elmi, təhsili, səhiyyəsi, daxili – xarici siyasəti, beynəlxalq əlaqələri görünməmiş tərəqqiyə qədəm qoydu. İlham Əliyev 2003–cü ildən Azərbaycanın təhsil sisteminin dünya standartları səviyyəsinə qaldırılması üçün 16 Dövlət proqramı imzalamışdır.

Bunların sırasında 2005-ci ilin 30 avqust tarixində imzalanmış və artıq böyük uğurla yüzdən çox bəndi həyata keçən "Azərbaycan gəncliyi 2005–2009-cu illərdə" və "Azərbaycan gəncliyi 2011–2016-cı illərdə" adlı Dövlət Proqramları xüsusilə vurğulanmışdır.

Ecazkar, zəngin Azərbaycan musiqisinin dünyaya tanıdılması , təbliği işində Azərbaycan Mədəniyyəti Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva "Azərbaycan Muğamları" layihəsi çərçivəsində həyata keçirdiyi islahatlar birmənalı olaraq böyük hadisədir.

Azərbaycan Ulu Öndər Heydər Əliyevin Şah əsəridir. Azərbaycanı bütöv, müstəqil, qalib görmək – bu idi Heydər Əliyevin arzusu.O,bu arzunun reallaşması üçün bir insan ömrünə sığmayacaq işlər gördü. Hal – hazırda bu ideyalar Heydər Əliyev məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən həyata keçirilməkdədir.

## MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ AZƏRBAYCANIN QONŞU DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİ İRAN TARİXŞÜNASLIĞINDA

***Mədətli E.Y.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

1991-ci ildə SSRİ-nin dağılmasından sonra birbaşa qonşuluqda bir neçə yeni müstəqil dövlətin meydana çıxması İranı yeni şəraitlə üz-üzə qoydu. Şahlıq rejimindən sonra İran İslam Cumhuriyyətinin daxili və xarici siyasətində əsaslı dəyişikliklər edilmiş olsa da, tarix və siyasət araşdırıcılarının çıxış və məqalələrində, tədqiqat əsərlərində, kütləvi informasiya vasitələrində, rəsmi və qeyri-rəsmi qurumların tədbirlərində ayrı-ayrı şəxslər tərəfindən "tarixi ərazilər" haqqında müəyyən iddialar səslənməyə başladı. Bu kimi hallar İran dövlətinin rəsmi siyasətini təmsil etməsə də, hər halda formalaşmış yeni geosiyasi vəziyyətə İranın biganə qalmaması təlqin edilirdi.

Azərbaycanın Qarabağ bölgəsinin erməni əhalisinin separatçı fəaliyyətləri və Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddialarının tədricən hərbi təcavüzə keçməsi , Azərbaycan rayonlarının bir-birinin ardınca işğal edilməsi, İranın Azərbaycanla sərhədinin yüz kilometrindən də çoxunun ermənilərin nəzarətinə keçməsi, bölgənin əsas siyasi gücü olan Rusiya Federasiyasının bu işğala qarşı heç bir mahiyyətli addım atmaması, hətta bir sıra hallarda təcavüzkar dövlətə hərbi təchizatla dəstək verməsi halları İranın da mövqeyinə təsirsiz qalmırdı. Tarixi tədqiqatlarda ya ermənilərlə həmrəylik nümayiş etdirilir, ya da təcavüzkar dövlətlə işğala məruz qalan dövlət münaqişənin tərəfləri kimi eyni şəkildə dəyərləndirilirdi.

Tanınmış İran tarixçisi Turac Atabəyi 1990-cı illərin ortalarında Londonda, Nyu-Yorkda, sonra isə Tehranda nəşr etdirdiyi "Azərbaycan müasir İran tarixində" kitabında haqlı olaraq qeyd edir ki, Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ muxtar

regionu ilə əlaqədar yaranan və tədricən açıq hərbi qarşıdurmaya çevrilən ərazi mübahisəsi, Ermənistanın sərhəd bölgələrindəki Azərbaycan şəhərlərinə arasıkəsilməz hücumları nəticəsində zəif silahlanmışAzərbaycan ordusu bir-birinin ardınca gələn ağır məğlubiyyətlərlə üzləşməli oldu. Moskva bu münaqişədə öz tarixi müttəfiqi Ermənistanı müdafiə etdiyindən Azərbaycan öz yaxın qonşuluğunda yerləşən ölkələrdə kömək axtarmağa başladı. Lakin nə Türkiyə, nə də İran Moskva ilə münasibətlərini təhlükə altına atmaq niyyətində deyildi.

T. Atabəyi qeyd edir ki, Türkiyə ilə yaxın əlaqələrin yaradılmasına böyük əhəmiyyət verən Əbülfəz Elçibəy prezident olduğu müddət ərzində İrana qarşı biganəlik nümayiş etdirirdi. Onun bu siyasəti regionda mövcud hakimiyyətə qarşı inamsizlığın yaranmasına səbəb oldu. Belə ki, iranlıların əksəriyyəti Ə.Elçibəyin ifrat türkçü və millətçi mövqedən çıxış etməsini, daha böyük Azərbaycan yaratmaq istəyində olmasını, tez-tez öz nitqlərində də bəyan etdiyi kimi, Azərbaycan Respublikasını İran Azərbaycanını İrandan ayırmaq və şimala birləşdirmək uçün mübarizə meydanı hesab etməsini köhnə Sovet ssenarisinin bir növ təkrarı kimi qiymətləndirirdilər.

T. Atabəyi yazır ki, Ə.Elçibəyin qısamüddətli prezidentliyinin faciəli şəkildə sona yetməsindən sonra Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə gəldi. Ə.Elçibəyin prezident olduğu müddət ərzində ifrat Türkiyəyönlü siyasət aparmasının xalqda xəyal qırıqlığı yaratmasını Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsinə səbəb olan ən mühüm amil hesab etmək olar. Çünki Türkiyə tərəfindən Azərbaycana göstərilən kömək, gözlənildiyinin əksinə olaraq, məhəbbət hissinin ifadəsindən başqa bir şey deyildi.Təəssüf ki, müəllif ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirən əsas amilləri burada qeyd etməmişdir.

T. Atabəyi yazır ki, öz sələfindən fərqli olaraq, Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən etibarən "Böyük Azərbaycan" ssenarilərinin mövcudluğundan böyük narazılıq duyduğunu birmənalı şəkildə bəyan edərək Azərbaycan Respublikasının belə bir niyyətinin olmadığını dəfələrlə açıqlamışdır. Heydər Əliyev Azərbaycanın xarici siyasətində ilk olaraq qonşu ölkələrə yer verərək öz sələfinin səhvlərini düzəltməyə çalışsa da, Ə.Elçibəyin qisamüddətli hakimiyyəti dövründə yaranmış inamsızlıq o qədər möhkəm və dərin idi ki, bu inamsızlığı tez bir zamanda aradan qaldırmaq mümkün olmadı.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN REGİONAL VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞININ YENİ İSTİQAMƏTLƏRİNİN BANİSİDİR

***Musayev E.A.***
*Gəncə Dövlət Universiteti*

Azərbaycan bu gün dünyanın elə bir qitəsi, elə bir regionu yoxdur ki, orada tanınmasın. Demək olar ki, dünyanın iki yüzə yaxın dövlətlərinin yüzə yaxını ilə əməkdaşlıq edir. Qarşılıqlı əməkdaşlığa əsaslanan bu tərəfdaşlıq ulu öndər Heydər Əliyev tərəfindən 21 il öncə qoyulmuşdur. Regional və beynəlxalq əməkdaşlıq prinsiplərinin əsas nəzəri metodları da məhz Heydər Əliyev tərəfindən hazırlanmış və bu gün də uğurla davam etdirilir.

Azərbaycanın dünyanın bir çox ölkələri ilə iqtisadi əməkdaşlığının inkişaf etməsi həmin ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsinin yeni istiqamətlərini tələb edirdi. Bu həmçinin onunla şərtlənirdi ki, həmin dövrdə dövlətimizin daxili və beynəlxalq problemlərinin həll edilməsi zamanın vacib məsələlərindən idi.

Qeyd etmək lazımdır ki, dünya dövlətləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri yalnız regiolnal və beynəlxalq əməkdaşlıq formalarında inkişaf etdirilməklə yeni keyfiyyət halı ala bilərdi. Bu istiqamətdə ilk ciddi addım prezident Heyər Əliyevin 1993-cü ildə Fransaya, Türkiyəyə, 1994-cü ildə İngiltərəyə, ABŞ-a, 1996-cı ildə Avropanın bir çox ölkələrinə, 1997-ci il martın 24-25-də Ukrayna Respublikasına rəsmi səfəri zamanı atıldı.

Səfər zamanı prezident Heydər Əliyev həmin ölkələrdə görüşlər keçirmiş, parlamentlərarası münasibətlərin inkişaf etdirilməsinin əhəmiyyətindən danışmış və qeyd etmişdir ki, belə münasibətlər ikitərəfli və çoxtərəfli münasibətlərin yeni istiqaməti kimi qiymətləndirilməlidir.

Ümumiyyətlə, prezident Heydər Əlievin 1997-ci ilin mart ayında Ukrayna Respublikasına rəsmi dövlət səfəri ikitərəfi münasibətlərə yeni keyfiyyət halı verdi. Həmçinin bu səfər tərəflər arasında regional və beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə əlvrişli şərait yaratdı. Ölkələrimiz arasında regional əməkdaşlığın yeni istiqamətlərindən biri kimi əsası 1997-ci il oktyabrın 11-də prezident Heydər Əlievin təşəbbüsü ilə qoyulmuş GUAM təşkilatını xüsusi qeyd edə bilərik. Ümumiyyətlə, GUAM coğrafi prinsiplərə əsaslanmaqla, ona daxil olan ölkələrin iqtisadi əməkdaşlıq məqsədlərinə xidmət edən təşkilat kimi yaradılmışdır. Təşkilat bir çox layihələrin, o cümlədən humanitar sahədə-təhsil və mədəniyyət sahəsində beynəlxalq təşkilatlarla birgə iştiraka dair layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərməkdədir. GUAM həmçinin Transqafqaz magistralı və Qərb-Şərq, Şərq-Qərb marşrutu üzrə səmərəli və uzunmüddətli iqtsadi fəaliyyət üçün əlverişli şərait yaradır.

Qeyd etmək lazımdır ki, yeni regional təşkilat kimi, GUAM-ın aktiv fəaliyyətinə bir çox yerli və beynəlxalq amillər təsir göstərmişdir. Belə ki, GUAM-ın üzvü olan ölkələr təşkilatın yaranmasından sonra ikitərəfli  və çoxtərəfli müqavilələrə və sazişlərə əsaslanaraq ticarət-iqtisadi münasibətlərin həmçinin, kooperasiya əlaqələrinin inkişaf etdirilməsi və dərinləşdirilməsi zərurətini nəzərə alaraq, nəqliyyat, rabitə, energetika, maşınqayırma, kənd təsərrüfatı kimi sahələrdə əməkdaşlığa kömək göstərmək, iqtisadiyyat, humanitar əməkdaşlıq, turizm və mədəniyyət sahəsində qarşılıqlı fəaliyyət göstərmək kimi nəticələrə gəlmişlər. Tərəflər həmçinin əmin olduqlarını bildirmişlər ki, GUAM təşkilatı ölkələr arasında dostluq münasibətlərinin inkişafı və dərinləşdirilməsi, mehriban qonşuluq, qarşılıqlı-faydalı əməkdaşlıq və bir-birinin suverenliyinə hörmət prinsipləri əsasında daha yüksək səviyyədə əməkdaşlığa nail olmaq üçün yeni mərhələlər yarada bilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA ŞURASI İLƏ ƏMƏKDAŞLIĞINDA SOSİAL YÖNÜM

***Muradova K.V.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanla Avropa Şurası arasında əlaqələrin qurulması istiqamətində ilk addım 1992-ci ildə atılmışdır. Həmin ilin yanvarında respublikamızın bu qurumda xüsusi dəvət olunmuş statusunu alması üçün Avropa Şurasına müraciət edilmişdir. 1992-1993-cü illərdə Avropa Şurası ilə əlaqələr, əsasən, Dağlıq Qarabağ münaqişəsini, onun səbəblərini aradan qaldırmaq məqsədinə köklənmiş və bu sahəyə mötəbər qurumun diqqəti qismən cəlb edilmişdi. Ermənistanla münaqişədə respublikamızın hərbi əməliyyatların dayandırılması və atəşkəsin əldə edilməsinə yönəlmiş fəaliyyəti Azərbaycanın Avropa Şurası ilə

yaxınlaşmasına müsbət təsir göstərdi, Avropa Şurası ilə əməkdaşlıq üçün yeni üfüqlər açdı. 1994-cü ildən başlayaraq Avropa Şurası ilə əlaqələr genişlənməyə başlandı. 2001-ci il yanvarın 25-də isə Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv olmuşdu.

Avropa Şurası tərəfindən qəbul edilmiş Avropa Sosial Xartiyası Şurasının insan hüquqları sosial problemləri sahəsində qəbul etdiyi mühüm konvensiyalardan biridir. Bu Xartiya İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasını sosial və iqtisadi hüquq sahəsində tamamlayır. Xartiya iki məqsəd daşıyır: 19 əsas sosial hüququn müdafiəsi və Avropada əsl sosial siyasətin həyata keçirilməsinə kömək etmək. Avropada sosial sahədə əməkdaşlıq üçün əsas hüquqi sənəd olan Avropa Sosial Xartiyası 18 oktyabr 1961-ci ildə Turində qəbul edilmiş və 26 fevral 1965-ci ildə qüvvəyə minmişdir. Xartiya Avropa ölkələri üçün sosial əməkdaşlığın vahid normativ aktıdır. Praktiki olaraq Xartiya Avropanı vahid sosial məkan yaradılması səviyyəsinə çıxartmışdır.

Avropa Şurası üzvü olan və xatiyanı ratifikasiya edən bütün dövlətlər özlərinin daxili qanunvericiliyini Avropa Sosial Xartiyasına uyğunlaşdırmalıdırlar. Xartiyanın preambulasında göstərilir ki, sosial hüquqların təminatı irqi, dərinin rəngi, cinsi, dini, siyasi baxışları, milli mənsubiyyət və ya sosial mənşə əlamətlərindən asılı olmayaraq həyata keçirilməlidir. Burada həmçinin qeyd olunur ki, həm şəhər, həm kənd əhalisinin sosial rifahının təmin edilməsi üçün birgə səylər artırılmalıdır. Avropa Sosial Xartiyası prinsipləri ilə tanışlıq belə deməyə əsas verir ki, xartiya ökəmizin Avropa sosial əməkdaşlıq sisteminə daxil olması üçün ən yaxşı variant olacaqdır.

Xartiyada əmək, sosial, təhsil və digər insan hüquqlarını müəyyən edən xeyli başqa maddələr nəzədə tutulmuşdur. Avropa Sosial Xartiyasına əlavə protokolda işə qəbul zamanı kişi və qadınların bərabər hüquqa malik olması, zəhmətkeşlərin zəruri informasiya və məsləhət almaq hüququ, yaşlı sosial müdafiə hüququ da daxil olmaqla daha dörd hüququ müəyyən edilmişdir. Xartiyanın səciyyəvi xüsusiyyəti budur ki, onun insana, onun mənafeyi və hüquqlarına münasibəti, insanın mövqeyi, dini, siyasi baxışları ilə bağlı deyildir. Bütün bunlar xariyanın bizim dövrün demokratik hüquqi sənədi kimi qiymətləndirilməsinə əsas verir.

Avropa Sosial Xartiyasını ratifikasiya edən hər bir ölkə xartiyanı yerinə yetirmək haqqında hər iki ildən bir məruzəni Avropa Şurası baş katibinə təqdim etməlidir. Bu məruzələrə ekspertlər komitəsində baxılır. Həmin ekspertlər Nazirlər Komitəsi tərəfindən təyin olunur və beynəlxalq sosial məsələlər üzrə tanınmış olurlar. Avropa Sosial Xartiyası bütün Avropa ölkələrini əhatə etməlidir. Yeni konvensiyaya qoşulmaq üçün dövlətin Avropa Şurasının üzvü olması tələb olunur. Azərbaycanın yaxın vaxtlarda Avropa Şurasına qəbul olunmasına, gələcəkdə Avropa Sosial Xartiyasına qoşulmağa zəmin yaradır.

Avropa Sosial Xartiyasına qoşulmaqla Azərbaycan Avropa məkanında hazırlanan və həyata keçirilən konkret sosial proqram və layihələrdə iştirak etmək imkanına malik olacaqdır. Hazırkı dövrdə Azərbaycanın mövcud sosial problemlərinin aradan qaldırılması üçün bu cür əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Çünki konkret proqram və layihə üzrə əməkdaşlıq sosial problemlərin aradan qaldırılmasında daha effektiv vasitədir.

Azərbaycan Respublikasının Avropa Sosial Xartiyasına qoşulması respublikamızda imkansızlar, əlil və qocaların, gənclərin taleyinə müsbət təsir göstərəcək, bütövlükdə isə

Azərbaycanın sosial siyasətinin müəyyənləşdirilməsində irəliyə doğru uğurlu bir addım olacaqdır.

## MÜASİR DOVRDƏ AZƏRBAYCANDA EKOLOJİ PROBLEMLƏRİN HƏLLİ YOLLARI

**_Musayeva M.A_**
*Sumqayıt Dövlət Universiteti*

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli məsələlərini də diqqət mərkəzində saxlamış, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə daim xüsusi qayğı ilə yanaşımışdır. Onun hakimiyyəti illərində ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər geniş vüsət almağa başlayıb. Respublikamızda həyata keçirilən təbiəti mühafizə tədbirlərinin təşəbbüskarı da Ulu Öndər Heydər Əliyev olub. Məhz Ulu öndərin təşəbbüsü ilə həyata keçirilən yaşıllaşdırma tədbirləri nəticəsində Abşeron yarımadası yaşıl libasa bürünməyə başlayıb. Ulu Öndərin "Bakını yaşıllıqlar diyarına çevirək" çağırışı və təşəbbüsü şəhərdə bağların, xiyabanların və yaşıllıq zonalarının salınmasına böyük təkan verib. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərliyə gəldiyi dövrdə "Azərbaycan təbiətinin mühafizəsi haqqında" Qanunun qəbul edilməsi ölkəmizdə qoruqların sayının artmasına səbəb olub.

1993-cü ildə Ulu Öndər müstəqil Azərbaycan Respublikasının ekoloji məsələlərini bir daha ön plana çəkmiş, bu sahədəki mövcud problemlərə xüsusi diqqət ayırmışdır. Bu dövrdə bir sıra yeni qanunvericilik sənədləri - meşə, torpaq, su haqqında və s. qanunlar qəbul edilmişdir. Məhz Ulu öndərin qayğısı və təşəbbüsü ilə uzun illər ərzində yaranmış və müstəqil Azərbaycana miras qalmış ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən və davamlı inkişaf prinsiplərinə əsaslanan 5 Milli və Dövlət Proqramı təsdiq edilərək icrasına başlanılıb, respublikamızda mövcud olan qoruq və yasaqlıqların əraziləri genişlənib və Milli Parkların yaradılması istiqamətində işlər görülüb.

"Meşələrin bərpası və artırılmasına dair" Milli Proqram çərçivəsində meşəsalma və meşəbərpa tədbirlərinin ilbəil intensivləşdirilməsi hesabına son on ildə meşə ilə örtülü ərazilərin sahəsi 1 milyon 21 min hektarı keçərək ümumi ölkə ərazisinin 11,4 faizindən 11,8 faizinə çatdırılıb. Proqramın icrası istiqamətində meşələrin mühafizəsi, bərpası, yeni meşəliklərin salınması məqsədilə bir sıra ciddi tədbirlər görülüb. Belə ki, toxum tədarükü, əkin materiallarının yetişdirilməsi, meşələrin bərpası, yeni meşə massivlərinin yaradılması sahəsində göstəricilər bir neçə dəfə artmış, meşə fonduna daxil olmayan ərazilərdə - Kür-Araz çayları vadilərində, avtomobil, dəmir yolları və sututarların kənarlarında, eləcə də, Xəzər dənizi sahillərindəki qumluqların bərkidilməsi istiqamətində müvafiq tədbirlər görülüb.

Hazırda Azərbaycan Respublikası üçün aktual olan ekoloji problemlərin aradan qaldırılması davamlı inkişaf prinsiplərinə əsaslanan müvafiq dövlət proqramları olan "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" və "Meşələrin bərpası və artırılmasına dair" Milli Proqramlar çərçivəsində ardıcıl olaraq davam etdirilir. Bütövlükdə

ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaranmış, təbii ehtiyatların, o cümlədən faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir.

İqlim dəyişmələrinin təsirindən yaranan təhlükəli hidrometeoroloji hadisələrə nəzarətin gücləndirilməsi, proqnoz və erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi üçün hidrometeorologiya sahəsində yeni texnologiyaların tətbiqi, modernləşdirmə işləri aparılır. Bu məqsədlə son dövrlərdə quraşdırılmış avadanlıqlar vasitəsilə Kür çayının mənsəbində səviyyə tərəddüdünü və Kiş çayında sel axınlarını, o cümlədən Şahdağın Kabaş zirvəsində və Ləzə məntəqəsində yüksək dağlıq ərazilərin hava şəraitini real vaxt rejimində izləməyə imkan verən videogörüntülər alınır.

Milli proqramların icrası istiqamətində ölkəmizdə mövcud olan qoruq və yasaqlıqların əraziləri genişləndirilib, milli parklar yaradılıb, ölkənin gərgin ekoloji vəziyyətdə olan bölgələrinin, əsasən də, Bakı şəhəri və Abşeron yarımadasının ətraf mühitinin sağlamlaşdırılması üzrə mühüm tədbirlər həyata keçirilib. Belə ki, ətraf mühitin qorunması və mövcud vəziyyətin bərpasına yönəldilən Bakı buxtasının, Bibiheybət zonasının, Heydər Əliyev Beynəlxalq Hava Limanının ətrafının, Abşeron yarımadasındakı göllərin, neftlə çirklənmiş torpaqların, lay suları altında qalmış sahələrin və digər istehsal tullantıları ilə çirklənmiş ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, tullantı sularının və bərk məişət tullantılarının idarə olunması kimi ekoloji məsələlərə diqqət ayrılması nəticəsində bu problemlər vaxtında öz həllini tapıb.

Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev də öz fəaliyyətində ölkəmizin ekoloji durumuna, ətraf mühitin mühafizəsi məsələlərinə xüsusi diqqət və qayğı göstərir. Son zamanlar ölkə rəhbərinin bilavasitə sədrliyi ilə ekoloji problemlərin müzakirəsinə həsr olunmuş müşavirələrin keçirilməsi, ətraf mühitlə bağlı dövlət proqramlarının qəbul olunması, bu istiqamətdə mövcud problemlərin daha səmərəli həll edilməsi məqsədilə sərəncamların imzalanması bu sahənin ölkəmizdə prioritet məsələlər sırasına qaldırılmasına parlaq nümunədir. Dövlət başçısı tərəfindən 2010-cu ilin "Ekologiya ili" elan edilməsi də Ulu Öndərin keçən əsrin 70-ci illərindən həyata keçirməyə başladığı ekoloji siyasətin məntiqi davamıdır.

**QARABAĞ PROBLEMİ AZƏRBAYCAN-BÖYÜK BRİTANİYA MÜNASİBƏTLƏRİNDƏ**

***Mustafayeva G.Q.***
*Gəncə Dövlət Universiteti*

İkinci Dünya müharibəsinin başa çatmasının 50 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün 1995-ci ilin mayında Londona səfər etmiş Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev bu ölkənin rəhbərliyi ilə çox mühüm görüşlər keçirmiş və intensiv danışıqlar aparmışdır. Mayın 6-da Böyük Britaniyanın baş naziri Con Meycor və xarici işlər naziri Duqlas Herdlə, mayın 7-də Böyük Britaniya Kraliçası II Yelizaveta, onun ailə üzvləri və başqaları ilə keçirilən görüşlərdə iki ölkə arasındakı münasibətlərə dair geniş fikir mübadiləsi aparılmışdır.

Böyük Britaniyanın rəsmi dairələri Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərini və bundan sonra da dəstəkləyəcəklərini, Xəzərin statusunun müəyyənləşdirilməsinə, Azərbaycanın beynalxalq aləmdə himayə olunmasına və s. məsələlərdə fəal yardım göstərəcəklərini bir daha qətiyyətlə bildirmişlər. Ingiltərənin baş naziri Con Meycor təsdiqləmişdir ki, Ingiltərə Qafqazda sülhün təmin edilməsində, Azərbaycanın müstəqil və qüclü dövlət kimi inkişafında, bu ölkənin Avropaya hərtərəfli intiqrasiya olunmasında maraqlıdır və bu işdə ona hər cür kömək göstərməyə hazırdır.

1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə də Ermənistan-Azərbaycan münaşiqəsi və Dağlıq Qarabağ problemi ilə bağlı Böyük Britaniya dövləti dəyişməz və prinsipial mövqedə durduğunu, bu problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyini bir daha təstiq etdi. İngiltərə hökümətı eyni zamanda 1995-1996-cı illərdə üzvü olduğu BMT Təhlükəsizlik Şurası və b. beynalxalq və məhəlli təşkilatlarda Azərbaycan müstəqil dövlətçilik mənafelərinin və təhlükəsizlik problemlərinin əsas himayədarı və müdafiəçilərindən biri kimi çıxış etmişdir. Xüsusən, Azərbaycanın bu qurumlara inteqrasiya olunması və onlarla əməkdaşlıq münasibətləri yaratmasına Böyük Britaniyanın nümayəndələri fəal kömək göstərirlər.

# HEYDƏR ƏLİYEVİN MİLLİ DÖVƏLƏTÇİLİK STRATEGİYASINDA GƏNCLƏR SİYASƏTİ

***Musayev E.A.***
*Gəncə Dövlət Universiteti*

Azərbaycanda gənclər hərəkatına münasibət birmənalı olmayıb. Bu hərəkat müxtəlif vaxtlarda müəyyən qruplar tərəfindən birqütblü qiymətləndirilib.

Çar Rusiyasının vaxtında gənclərdən yalnız öz maraqları naminə istifadə olunub. Belə münasibət elə sovet totalitar rejimi dövründə də olub. Lakin gənclər hərəkatına münasibət respublikamız müstəqillik əldə etdikdən sonra tamamilə kökündən dəyişdi. Belə ki, gənclər təşkilatının hər birinin öz dövrü üçün hansı dərəcədə əhəmiyyətli olduğunu həmin dövrün siyasi hakimiyyəti müəyyən edirdi.

Bu gün dünyada gedən ictimai – siyasi proseslər Azərbaycanda da gənclər hərəkatının ümumi strategiyası və idealogiyasının formalaşmasına çox böyük təsir göstərir.

XX əsrin əvvəllərində olduğu kimi, həmin əsrin sonlarında da gənclər müxtəlif təşkilatlarda təmsil olunurdular. Onlarda milli şüurun təşəkkül tapması və inkişaf etməsində həmin dərnəklərin rolu böyük oldu. Gənclər müxtəlif dövrlərdə mövcud dövrün problemləri ilə maraqlanır, həmin problemlərin aradan qaldırılması yollarını birgə müzakirə edirdilər. Bu da xalqın maariflənməsində və mətbuatın inkişafında müstəsna rola malik olub, tərəqqisinə təkan verdi. Bütün bunlar Azərbaycanın gənc ziyalılarında azadlıq uğrunda mübarizəni sistemləşdirdi.

XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hüquqi-demokratik, vətəndaş cəmiyyəti qurmaq uğrunda böyük uğurlar əldə etdi. Bu uğurlar tarixi nöqteyi nəzərdən qısa vaxt ərzində qeyri – adi dövlət idarəçilik bacarığına, zəngin həyat təcrübəsinə malik, xalqımızın və dövlətimizin müstəqilliyini itirmək təhlükəsindən xilas edən, fenomenal şəxsiyyət, ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlıdır.

1993 – cü ildə xalqın iradəsi və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin fəaliyytinin əsas istiqamətlərindən biri dövlət quruculuğu ilə yanaşı gənc nəslə diqqət və qayğının artırılması idi. Yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyən edən ümummilli lider Heydər Əliyev onların ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması üçün münbit şərait yaratdı. Gənclərin layiqli vətəndaş kimi yetişməsi üçün şəraitin yardılması, onların sosial-psixoloji vəziyyətlərinin, fəaliyyətlərinin yaxşılaşdırılması dahi şəxsiyyətin uzaqgörən və müdrik siyasətinin təzahürü idi.

Keçən əsrin 80-ci illərində erməni millətçilərinin quldur dəstələrinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzün qarşısını almaq üçün özünümüdafiə dəstələrinin yaradılmasında gənclərin böyük xidmətləri olmuşdur.

Müstəqillik dövründə Azərbaycan gəncliyində formalaşan yeni prinsip və mənəvi dəyərləri, həyata yeni baxışlar sistemi ilə yanaşı, məqsəd və vəzifələrinə, fəaliyyət istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən fərqli, yeni, müstəqil təşkilatlar yaranmağa başladı. Gənclərin ilk təşkilatları əsasən kortəbii surətdə, respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda xalq hərəkatının təsiri altında təşəkkül tapırdı. Lakin «1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının

çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlifyönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri, gənclərin ayrı-ayrı partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı».

Çox təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda tüğyan edən xaos və özbaşınalıqlar, hakimiyyət uğrunda mübarizə və Qarabağ uğrunda gedən mübarizədə acınacaqlı məğlubiyyət və torpaqlarımızın işğalı gənclər arasında bədbinliyi artırmışdı. Gənclər arasında narkomaniya, cinayətkarlıq kimi neqativ hallar çoxalmışdı. Dövlət həmin dövrdə cəmiyyətin aparıcı qüvvəsi olan gənclərlə bağlı heç bir strategiya hazırlamamışdı.

Gənclərlə iş sahəsində yaranmış boşluğun aradan qaldırılmasına yalnız ümimmilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda Müstəqil Azərbaycan Respublikasında siyasi hakimiyyətə qayıdışından sonra başlandı. Məhz bundan sonra gənc nəslə diqqət və qayğı dövlətin fəaliyyətində mühüm yer tutdu. Beləliklə, ümimmilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Respublikada dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

## MÜSTƏQİLLİK XALQIMIZIN ƏN BÖYÜK SƏRVƏTİDİR

***Nəbiyeva Y.İ.***

*Sumqayıt Dövlət Universiteti*

Ölkəmizdə milli-müstəqillik ideyasının reallaşdırılması ümumilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Onun 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlişi ilə dövlət müstəqilliyimizin əsası qoyulmuşdur. O, 1969-1982-ci illərdə ölkəmizdə həyata keçirilən tədbirləri taleyüklü tədbirlər adlandıraraq demişdir: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl iqtisadi cəhətdən, çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat dayanır. Məsələn: mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara bunu nə üçün etdiyimi demirdim. Amma istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin". Həmin illərdə görülən tədbirlər ona görə taleyüklü idi ki, onlar zamanı xeyli qabaqlayaraq ölkənin gələcəyini, müstəqil inkişaf dövrünü nəzərdə tuturdu. Bu mənada dövlət müstəqilliyinin əsası əslində ötən əsrin 70-80-ci illərində qoyulmuşdur.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda ictimai-siyasi vəziyyət kritik həddə çatmışdı. Yanlış kadr siyasəti, daxili çəkişmələr, idarəetmə təcrübəsinin olmaması, iqtisadiyyatın aparıcı sahələrinə kadrların peşəkarlıq, bacarıq və təcrübə prizmasından deyil, şəxsi sədaqət prinsipi müstəvisindən təyin edilməsi, ictimai-siyasi ab-havanın getdikcə daha da çirklənməsi Ermənistanla müharibədə torpaqlarımızın təcavüzkarlar tərəfindən işğal edilməsinə səbəb olmuşdur. Hakimiyyətə zor və silah yolu ilə gəlmiş bu komanda özünün yarıtmaz və cinayətkar fəaliyyəti ilə 1993-cü ildə ölkəni parçalanıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdur. Azərbaycan əldə etdiyi deklarativ müstəqilliyi həqiqi müstəqilliyə çevirə, bu müstəqilliyi qoruyub inkişaf etdirə biləcək və, nəhayət ki, bu müstəqillik idealları

üzərində bütöv bir azərbaycançılıq ideologiyasını ucalda biləcək bir liderə, xilaskara möhtac idi. Həmin dövrdə ulu öndər Heydər Əliyevi milli dövlətçiliyimizin taleyi çox ciddi narahat edirdi. O artıq Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətli mübarizəyə başlamışdı. 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyası fəaliyyət göstərən xalqımızın böyük oğlu həqiqi dövlət müstəqilliyinin bünövrəsini bu torpaqda qoymuş, onun rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası xalqımızın suveren hüquqlarının və dövlət müstəqilliyinin bərpa edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilmişdi. Görkəmli dövlət xadimi H. Əliyevin rəhbərliyi ilə Naxçıvanda tarixi qərarlar qəbul edilmiş, Azərbaycanın bu qədim diyarında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları bərpa olunmuş, muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılmış, 20 Yanvar hadisələrinə siyasi qiymət verilmişdir.

## AZƏRBAYCANIN DÜZGÜN SEÇİLMİŞ XARİCİ İQTİSADİ SİYASƏTİNİN NƏTİCƏLƏRİ

***Rəhimli E.Ş.***
*Sumqayıt Dövlət Universiteti*

Первоначально предполагалось, что за последние 20-30 лет под влиянием процесса глобализации культура европейских стран должна была полностью освободится от таких негативных черт, как консерватизм, национализм и т.д., а для только что прибывших иммигрантов из южных стран, для их адаптации в высокоразвитый западный мир нужно было культивировать толерантную среду, чтобы они забыли о прежних разногласиях и конфликтах. Но со временем стало понятно, что в действительности произошло совсем не то, что ожидали. В итоге грезивших "о прекрасной жизни" переселенцев, прибывших сюда в массовом порядке, культура коренного европейского населения ни чем не смогла привлечь к себе, и эмигранты, сохранив свою самобытность, стали отстраняться и обособленно жить. Особую остроту этой проблеме, наряду с проблемой эмиграции придают и все усиливающиеся на этом фоне обострение христиано-исламских отношений, экстремизм, ксенофобия.

В последнее время на фоне перечисленных и других проблем некоторые теоретики мультикультурализма также утверждают, что в развитых странах запада эмигрантская жизнь приводит к тому, что веками устоявшиеся национально - культурные ценности, традиции забываются эмигрантами, стираются с их памяти и смешавшись с местной европейской культурой с течением времени приводят к формированию маргинальных групп.

Еще одной чертой европейского мультикультурализма является то, что развитые страны Европы сегодня свысока, с иронией смотрят на культуру других народов и хотят беспрекословно навязать им свое превосходство.

На фоне Европы совсем другое положение дел мы наблюдаем в Азербайджане. Сегодня Азербайджан является одним из признанных центров мультикультурализма во всем мире. Народы, живущие в Азербайджане вместе на протяжении долгого исторического пути, нашли в себе силы сплотиться и победить как межнациональную, так и межконфессиональную рознь. Азербайджан находится на стыке разных цивилизаций, культур и религий и во всем мире славится как многонациональная и многокультурная, многоконфессиональная и толерантная страна. Мультикультурализм - это образ жизни в Азербайджане. Опыт мультикультурализма в Азербайджане показал всему миру, что к исламо-христианским отношениям в стране подходят не с позиций превосходства ислама (в отличии от Запада где все эти вопросы решаются с позиции превосходства христианства), а с позиции равенства всех религий и толерантности.

Следующей положительной чертой азербайджанской модели мультикультурализма является отношение к эмигрантам, к которым относятся не как к людям "низшего сорта", временно выполняющим тяжелую и неквалифицированную работу, а с уважением к их культуре и национальной самобытности, что в конечном счете устраняет возникновение противостояния и других негативных явлений между местным населением и эмигрантами.

# II BÖLMƏ

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFI

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFI

***Abdullayev L.İ., Quluzadə Ç.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

1991-ci ildə müstəqilliyini bərpa edərək bazar iqtisadiyyatı istiqamətində ilk addımlarını atan Azərbaycan Respublikası böyük iqtisadi və siyasi çətinliklərlə rastlaşmışdır. İqtisadiyyatda artıq 1989-cu ildən başlamış geriləmə prosesi müstəqilliyin ilk 3 ilində daha da dərinləşərək 1996-cı ilədək davam etmişdir. 1997- ci ildən etibarən iqtisadiyyatın inkişafı istiqamətində dönüş yaranaraq iqtisadi dirçəlişin əsası qoyulmuşdur. Bu iqtisadi inkişafın əsasını aşağıdakılar təşkil etmişdir:

- 1994-cü ildə imzalanmış "Əsrin müqavilə"sinin praktiki cəhətdən reallaşması;
- İqtisadiyyatın bir çox sahələrinə investisiyaların yönəldilməsi;
- Kiçik və orta müəssisələrin özəlləşdirilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsi;
- Yeni sənaye müəssisələrinin istifadəyə verilməsi.

Bütün bunların nəticəsi olaraq Azərbaycan Respublikasının iqtisadiyyatı 2005-2007-ci illərdə sürətlə inkişaf etmiş və bu dövrdə ÜDM-in həcmi 2.1 dəfə artmışdır. 2015-ci ilin yekunlarına əsasən ÜDM-in hər nəfərinə düşən həcmi 5558,7 dollara çatmış, 1996-cı ilə nisbətən ÜDM istehsalı 5,9 dəfə artmışdır. Ölkəmiz 2008-ci ildən başlamış qlobal maliyyə böhranından minmum itkilərlə çıxaraq, MDB üzvü olan bir çox ölkələrdə 2009-cu ildə iqtisadi tənəzzül 6%-dən yüksək olduğu halda, iqtisadiyyatda 9,3%-lik artıma nail olmuşdur. Ölkənin müqəddəratı ilə bağlı qarşıda duran təxirəsalınmaz problemlər içərisində Azərbaycanın mükəmməl iqtisadi inkişafı əsasında regionların sosial-iqtisadi yüksəlişinin təmin olunması əsas hədəflərdən birinə çevrilmiş və bu istiqamətdə görülən işlər ölkənin regionlarında qeyri-neft sahələrinin, xüsusilə, emal sənayesinin sabit inkişafına zəmin yaratmışdır.

Müstəqillik dövründə ölkəmizin malik olduğu neft sərvətləri hesabına ölkədə formalaşan güclü neft sektoru ilə bərabər tarazlı iqtisadiyyatın qurulması və qeyri-neft sektorunun dinamik inkişafı kimi məsələlər prioritet vəzifəyə çevrilmişdir. 1993-cü ilin ikinci yarısından başlayaraq ölkədə siyasi sabitliyin bərqərar olması daxili və xarici investorlar üçün öz investisiyalarından məqsədyönlü istifadə etməyə əlverişli şərait yaratmış, ölkə iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələrindən 83,4 milyard manat həcmində investisiya yönəldilmişdir ki, bu investisiyaların da 54,4 milyard dollarını xarici investisiyalar təşkil etmişdir.

Ötən əsrdə həyata keçirilmiş ən iri transmilli layihələrdən hesab edilən "İpək yolu" nəqliyyat dəhlizi müstəqilliyin bərpası dövründə reallaşaraq regional nəqliyyat dəhlizləri ilə rəqabət aparan dəhlizə çevrilmiş və ölkə iqtisadiyyatının inkişafında əhəmiyyətli rola malik olmuşdur. Eyni zamanda Azərbaycanda hasil olunan neft və təbii qazın dünya bazarlarına nəql olunması üçün Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri istismara verilmiş və Avropada enerji təhlükəsizliyinin təmin olunmasına bu kəmərlər layiqli töhfələr vermişdir.

Bazar iqtisadiyyatına keçid dövründə ölkə iqtisadiyyatında aparılan islahatlar ölkə iqtisadiyyatının gəlirlərinin ildən-ilə artmasını və 90-cı illərin əvvəllərində yüksək olan büdcə kəsirinin azalmasını təmin etmişdir. 2010-cu ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1995-ci ilə nisbətən 36 dəfə artaraq 11,4 milyard manat, xərcləri isə 27,5 dəfə artaraq 11,8 milyard manata çatmışdır. Əhalinin həyat səviyyəsini səciyyələndirən göstəricilərdən biri olan əhalinin real gəlirləri 8,2 dəfə artaraq 2866 manat, orta aylıq əmək haqqı isə 26,5 dəfə artaraq 331,5 manat təşkil etmişdir.

Son illərdə ölkə iqtisadiyyatının sürətli inkişafının davam etməsi əhalinin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşmasına şərait yaratmışdır. Ölkə əhalisinin sosial vəziyyətinin getdikcə yaxşılaşması yoxsulluğun azaldılmasına öz təsirini göstərmiş və yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7%-dən 2015-ci ildə 4,9%-ə enmişdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF STRATEGİYASINDA İNVESTİSİYA SİYASƏTİ

***Adıgözəlova G.R.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın ictimai və siyasi həyatında əldə olunan sabitlik genişmiqyaslı sosial-iqtisadi dəyişikliklərin dinamik və uğurla həyata keçirilməsinə və bununla da investisiya qoyuluşu istiqamətində müsbət nəticələrin əldə edilməsinə zəmin yaratdı. 1992-1993-cü illərin böhranlı durumu düzgün qiymətləndirilərək müasir və bazar prinsiplərinin tələblərinə uyğun texnologiya əsasında iqtisadiyyatı yüksəltməyin yeganə yolunun investisiya fəallığının və yatırımının artırılması olduğu fikrini təsdiq etmişdir. Təbii ki, burada söhbət təkcə maliyyə investisiyasından getmir. Bunun üçün əhalinin geniş təbəqələrinin sahibkarlıq qabiliyyəti və təşəbbüskalığının, yaradıcı ruhunun, əməksevərliyinin iqtisadiyyata yönləndirilməsi çox vacib idi.

İqtisadi inkişafı təmin edən əsas şərait əlverişli investisiya mühitinin yaradılması idi. Bu dövlətin birbaşa qayğısı altında olmalı idi. Dövlət investisiya fəaliyyətinin canlandırılması və səmərəli investisiya siyasətinin həyata keçirilməsində əsas qurum olmalıdır. Azərbaycan hökümətinin bu sahədə fəaliyyətinin prioritet istiqamətlərindən biri sabit investisiya qanunvericiliyi bazasının formalaşdırılması olmuşdur. Bu qanunvericilik həm ölkə vətəndaşlarının, həm də yerli və əcnəbi investorların etibarlı müdafiəsinə xidmət edəcək. Dünya təcrübəsindən də məlumdur ki, investisiya qanunvericiliyini hazırlayarkən yol verilən hər hansı bir səhvlər potensial investorların dövlətə qarşı inamının itməsinə

səbəb olur. Bu nöqteyi-nəzərdən bu məsələyə diqqətli yanaşmaq lazımdır ki, ölkədə investisiya münasibətlərinin inkişafı və tənzimlənməsinin daha mükəmməl rejimini formalaşdırmağa imkan verən qanunvericilik bazası və onların çevik, işlək mexanizmini yaratmaq mümkün olsun.

1992-1999-cu illər ərzində parlament tərəfindən investisiya sahəsində "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Birgə müəssisələrin və onların filiallarının qeydiyyata alınması haqqında", "Xarici müəssisə və təşkilatalrın, onların filiallarının və nümayəndəliklərinin Azərbaycan Respublikasının ərazisində fəaliyyəti haqqında əsasnamə" və.s kimi beynəlxalq normalara uyğun qanunlar qəbul edilmişdir. İnvestisiya mühitinin formalaşdırılması məqsədilə infrastrukturun yenidən qurulması, sosial mühitin sağlamlaşdırılması, vergi və gömrük sisteminin optimallaşdırılması, milli valyutanın stabilliyinə nail olunması da əsas prioritet istiqamət kimi seçilmişdir. Hökümətin bu sahədəki siyasəti həm kapitalın dəyərinə və daxilolma mənbələrinə, həm də onun yerləşdirilməsi həyata keçirilən bazara əhəmiyyətli təsir göstərmişdir. Kapitalın miqyasına şəxsi əmanətin artım tempi, dövlət büdcəsinin müsbət saldosunun kəmiyyəti, habelə xarici kapitalın hərəkəti böyük təsir göstərir. Ölkədə aparılan ardıcıl və məqsədyönlü siyasətin nəticəsidir ki, 1995-ci ildən etibarən Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunda xeyli müsbət meyllər müşahidə olunmağa başlanmışdır. Bu sosial-iqtisadi islahatların faktiki başlanğıcı hesab olunur.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKSININ REGİONAL İQTİSADİYYATININ TƏNZİMLƏNMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

***Ağayev T.D.***

*Sumqayıt Dövlət Universiteti*

Regional iqtisadiyyatın dövlət tənzimlənməsi və idarə olunması bütövlükdə ölkə iqtisadiyyatının dövlət tənzim və idarə olunmasının mühüm daxili tərkib hissəsidir. Regional iqtisadiyyatın dövlət tənzimlənməsini zəruri edən səbəblər çoxdur. Bunlara bazar münasibətlərinə keçid, ölkənin öz konkret coğrafi şəraiti, ölkə daxilində iqtisadiyyatın inkişafı və yerləşdirilməsi vəziyyəti və s. aid ola bilər.

Müasir dövrdə dövlətimizin qarşısında duran ən vacib vəzifələrdən biri aktiv regional siyasət yeritməkdir. Bu da regionlar arasında olan kəskin inkişaf fərqlərinin artması ilə bağlıdır. Bu, özünü daha çox Abşeron iqtisadi rayonunda göstərmişdir. Müstəqillik illərində bu rayonun iqtisadiyyatında bütün iqtisadi rayonlara xas olan həyata keçirilmiş iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı istiqamətində aparılan tədbirlər, sahibkarlığın inkişafı sahəsində görülən işlər öz müsbət nəticələrini verməyə başlamışdır. Belə ki, 2003-2011-ci illərdə Abşeron iqtisadi rayonunun ümumi məhsul buraxılışının həcmi 4,5 dəfə, adambaşına düşən ümumi məhsul buraxılışının həcmi isə 3,1 dəfə artmışdır. Lakin bu artım dövlət üzrə orta göstəricidən azdır. Belə ki, baxılan dövrdə ölkədə ümumi məhsul buraxılışında artım 5,5 dəfə, adambaşına düşən ümumi məhsulunun həcmində artım isə 5 dəfə olmuşdur. 2003-2011-ci illərdə Abşeron iqtisadi rayonun ölkə

əhalisinin 5,7 faizini təşkil etdiyi halda, məhsul və xidmətlərin ümumi buraxılışında xüsusi çəkisi 1,6 faizə, sənaye məhsulunda 1,4 faizə, kənd təsərrüfatı məhsulunda 1,4 faizə, pərakəndə əmtəə dövriyyəsində isə 4,2 faizə bərabər olmuşdur. 2011-ci ildə adambaşına düşən ümumi məhsulun həcmi ölkə üzrə 6502,7 manat olduğu halda, iqtisadi rayonda bu göstərici 1727,4 manata bərabər olmuşdur. 2003-2011-ci illər ərzində Abşeron rayonunda ümumi məhsul buraxılışının həcmi 6,8 dəfə, Xızı rayonunda 4,9 dəfə, Sumqayıt şəhərində 3,8 dəfə artmışdır.

Azərbaycan müstəqillik qazandığı illərdə, xüsusilə son dövrdə iqtisadi artım çox yüksək olmuşdur. Bu, əsasən, xam neft, təbii qaz hasilatı və bunlarla əlaqədar sahələrin inkişafı hesabına təmin edilmişdir. Belə ki, ölkənin ümumi daxili məhsulunda bu sahələrin payı artmış, lakin həmin sahələrin əsasən Bakı şəhərində yerləşməsi iqtisadiyyatda digər rayonların, o cümlədən Abşeron iqtisadi rayonunun payının aşağı olmasına səbəb olmuşdur. İqtisadi rayonun ümumi məhsul buraxılışında Abşeron rayonunun payı 2003-cü ildə 22,6 faiz, 2011-ci ildə 34,1 faiz, Xızı rayonunun payı müvafiq olaraq 3,8 faiz və 4,1 faiz, Sumqayıt şəhərinin payı isə müvafiq olaraq 73,6 faiz və 61,8 faiz olmuşdur.

Bu iqtisadi rayonunun ümumi məhsul buraxılışında sənayenin payı 2003-cü ildə 58,9 faizə, 2011-ci ildə 49 faizə, kənd təsərrüfatının payı isə müvafiq olaraq 10,9 faizə və 6,8 faizə bərabər olmuşdur. Buradan aydın olur ki, sənayenin payı, azalmasına baxmayaraq, hələ də Abşeron iqtisadi rayonun iqtisadiyyatında üstünlük təşkil edir.

Azərbaycan üzrə hüquqi şəxslərin sayında artım 1,2 dəfə olduğu halda, ən yüksək artım Abşeron rayonunda 1,8 dəfə, sahibkarlıqla məşğul olan fiziki şəxslərin sayında ən yüksək artım isə 4,6 dəfə olmaqla Sumqayıt şəhərində qeydə alınmışdır.

Müstəqillik illərində Azərbaycanda iqtisadi fəallığın artması orta aylıq əmək haqqının da artmasına səbəb olmuşdur. Belə ki, 2010-cu ildə regionda orta aylıq nominal əmək haqqı 2003-cü ilə nisbətən 6,3 dəfə artmışdır. Bununla yanaşı, ölkədə orta aylıq nominal əmək haqqı ölkə üzrə orta səviyyədən 2003-cü ildə 1,8 dəfə, 2011-ci ildə isə 1,3 dəfə az olmuşdur.

Beləliklə, aktiv regional siyasətin yeridilməsi, regional inkişafın dövlət tənzim və idarə olunması Azərbaycan üçün bir neçə onillik dövrdə, xüsusilə aktual olacaqdır.

## REGİONLARIN İNKİŞAFI DÖVLƏTİN İQTİSADİ İNKİŞAFININ ÖZƏYİDİR

*Alıyev H.A.*

*Sumqayıt Dövlət Universiteti*

Şərqin hikmətini və müdrikliyini Qərbin müasirliyi və sürətli inkşaf tempini ozündə birləşdirən Azərbaycan hər kəsi nəinki öz tarixi, gözəlliyi və memarlığı, eyni zamanda iqtisadi inkşaf modeli ilə heyrətləndirməyi bacarır. Azərbaycan uğurlu neft strategiyasının əsasını qoyan "Əsrin müqaviləsi"nin icrasına başlanılması ilə ölkəyə xarici investisiyaların cəlb olunmasına nail oldu. Artan enerji gəlirlərini qeyri-neft sektoruna yönəltməklə iqtisadiyyatın hərtərəfli inkişafına nail olmaq sonraki dövrdə Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən birinə çevrildi. Ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, xarici investisiyaların qeyri-neft sektoruna, xüsusən də,

regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması məsələləri Prezident İlham Əliyevin son on ildə yeritdiyi iqtisadi siyasətin prioritet istiqamətləri oldu. Regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək və əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya şəraiti, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi məqsədilə bir neçə dövlət proqramı qəbul edildi ki, bu proqramların icra olunduğu 10 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artdı. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 min daimi olmaqla, 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradıldı, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə endi. Bununla da Azərbaycanın maliyyə imkanları artdı, ölkəmiz transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməyə başladı, paytaxtda və regionlarda müasir infrastukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması, sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması Azərbaycanın dünyada nüfuzunun daha da artmasına, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsinə, əhalinin həyat səviyyəsinin davamlı olaraq yaxşılaşdırılmasına səbəb oldu. Beləliklə, ötən 10 il ərzində regionların inkşafına ümumilikdə 27 milyard manata yaxın vəsait ayrıldı və bu dövlət investisiyaları bölgələrin sosial-iqtisadi inkişafı üçün əsas təkan rolunu oynadı. Dövlət dəstəyinin uğurla həyata keçirilməsində əsas nüanslardan biri hədəflərin düzgün müəyyənləşdirilməsi oldu.

Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi 2,7 dəfə artmışdır. Bu gün, Sumqayıt, Gəncə, Mingəçevir və digər şəhərlər sənayeləşmənin mərkəzi regionları kimi sürətlə inkişaf edir.

Məlum olduğu kimi, qeyri-neft sektorunun inkişafı üçün bölgələrin sənaye potensialı çoxdur. Həmin potensial qara və əlvan metallurgiyanın, tibb sənayesinin, maşınqayırmanın, xüsusən, kənd təsərrüfatı texnikası və avadanlığı, cihazqayırma, alətqayırma, vaqonqayırma və s. sənaye sahələrini inkişaf etdirməyə imkan verir. Hal-hazırda Azərbaycanda avtomobil, traktor və motorla hərəkət edən müxtəlif hərbi texnika və s. istehsal edilir. Sənaye sektorunun yeni ünvanları olan Daşkəsən, Gədəbəy, Naxçıvan, Neftçala, Mingəçevir postsənayeləşmənin vahid kompleksə çevrilməsində strateji rola malikdir. Belə ki, bu il yaradılacaq ilk sənaye məhəlləsi məhz Neftçalada həyata keçiriləcək. Sənaye məhəllələrinin Gəncəətrafı rayonlarda, eləcə də Şirvan şəhərində və Siyəzən rayonunda yaradılması planlaşdırılır. Bu ərazilərdə həm yerli, həm də xarici investorlara güzəştlərin müəyyənləşdirilməsində məqsəd orada cəlbedici investisiya mühiti yaratmaqdır.

**SUMQAYITDA KİMYA SƏNAYESİNİN VƏZİYYƏTİ**

***Alıyev R.A.***
*Sumqayıt Dövlət Universiteti*

1974- cü il də Sumqayıtda kimya müəssisələrində bir sıra mühüm texniki tədbirlərin həyata kəcirilməsi sayəsində divinil, stirol və digər məhsulların istehsalı artmışdır. O zaman divinil, stirol istesalatlarında yenidənqurma işlərinin aparılması əmək şəraitini yaxşılaşdirmaqla bərabər, müəssisələrin normal işləməsinə şərait yaratmışdır. 1974-cü ilin əvvəlində etil spirti sexində, sulfat turşusunun vakkuum buxarlanması üzrə qurgunun işə salınması, mütləq izoproplen alınması prosesinin mənimsənilməsi başa catdırılmışdır.Butil kaucuk istesalatında yeni konstruksiyalı polmerizatorlar quraşdırılmşdır.

Kimya sahəsində texnoloji proseslərin daim təkmilləşdirilməsi, daxili imkanlar hesabına məhsul buraxılışının artırılması üçün səmərələşdiricilər durmadan texniki axtarışlar aparmışlar. 1974-cü ilin birinci kvartalında 253 səmərələşdirici təklifin həyata kecirilməsi sayəsində 300 min manatlıqdan cox iqtsadi səmərə götürülmüşdür.

Üzvü məhsullar zavodunun 3 saylı istehsalatında bir necə qurgu birləşdirilmişdir. Nəticədə bu kollektiv mühüm tədbirlər həyata kecirmiş, təsərrüfat hesabı ilə işləməyin möhkəm bünövrəsini qoymuşdur.

Ona görə də dövlət tapşırıqlarına 103,1 faiz əməl edilmiş, məhsulun maya dəyəri təqribən 15 faiz ucuzlaşdırılmış, əmək məhsuldarlıgı 23,1 faiz yüksəldilmişdir. Bütün bunlar 1974-cü ilin yanvar-fevral aylarında 560 min manatdan cox əlavə gəlir götürməyə imkan yaratmışdır.

Superfosfat sexinin əməkciləri 1974- cü ilin üc ayı ərzində 185 min ton əvəzinə 199 min ton torpaq "vitamini" hazırlamışdır. Qəbul edilmiş öhdəliyə əsasən bir il ərzində plandan əlavə 12 min ton məhsul istehsalı nəzərdə tutulmuşdur. Lakin, illik 12 min ton əvəzinə 14 min ton əlavə gübrə istehsal edilmişdir. İllik öhdəlik üc aylıq işlə müqayisə edilsə həmin müddət ərzində 3.750 hekakalori əvəzinə 10.650 hekakalori istilik enerjisinə ,12.500 kilovat-saat əvəzinə, 21.881 kilovat-saat elektrik enerjisinə qənaət edilərdi. Kimyacılar üç ayda 26 səmərələşdirici təklif vermişdir ki, bunun da 14-ü istehsalata vəsiqə almışdır.

Kimya sənayesi istehsalat birliyinin müəssisələrində 1974- cü ilin altı ayı ərzində məhsul satışı üzrə plan 101 faiz yerinə yetirilmişdir. Plandan əlavə 1 milyon manatlıq məhsul satılmışdır. Ümumi məhsul istehsalı üzrə tapşırığa 101.3 faiz əməl olunmuşdur. Kecən ilin müvafiq dövrünə nisbətən məhsul istehsalının həcmi 8.3 faiz yüksəlmişdir. 1973-cü ilin müvafiq dövrünə nisbətən sintetik yuyucu vasitələr zavodunda məhsul istehsalının həcmi 41,3 faiz coxalmışdır.

SK zavodu izobutulen istehsalatı sexinin əməkciləri daim yüksək istehsalat göstəriciləri qazanmışlar. Onlar hələ 1974-cü il iyulun 13-də 7 aylıq dövlət planını və sosialist öhdəliklərini təmin edərək avqust ayının hesabını vaxtından 17 gün əvvəl acmağa nail olmuşlar. İyul ayının tapşırığını isə 9 gün tez ödəmişlər.

1974-cü ildə xlorlu üzvi məhsullar zavodunun 9 saylı sexində karbooksimetilsellyloz istehsalı şöbəsində səkkiz aylıq plan iyulun 14-də yerinə yetirilmişdir. Superfosfat

zavodunun kollektivi 1974-cü ilin əvvəlindən oktyabra qədər 591.300 ton yüksək keyyfiyyətli gübrə hazılmışlar. Bu həmin müddət ücün müəyyən edilən plandan 36 min 470 ton coxdur. Bununla yanaşı, kollektiv 1975-ci il üçün doqquzuncu beşilliyin kontrol rəqəmlərdə nəzərdə tutulduğundan 6 min ton cox gübrə istehsal etməyi və məhsulun ümumi həcmini 810 min tona catdırmağı nəzərdə tutulmuşdur.

Üç saylı istehsalat ücüncü kvartalın yekununa görə kimya sənayesi istehsalat birliyinin kollektivləri arasında birinci yeri tutmuşdur. Kimyacılar birinciliyə ücüncü kvartalın dövlət planını 114,8 faiz yerinə yetirdiklırinə görə nail olmuşlar. Maye qaz qurğusunda dövlət tapşırığına 128,7 faiz, propilenin alınması qurğusunda 124,1 faiz, benzinayırma qurğusunda 119,7 faiz, benzol sexində isə 113,8 faiz əməl olunmuşdur. Aparılan araşdırmaların nəticəsi olaraq hesab edirəm ki, kimya sənayesi sahəsində yuxarıda qeyd edilən nailiyyətlərin əldə edilməsində nizam-intizam və səmərələşdirici təkliflər mühüm rol oynamışdır.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFI

***Alməmmədli M.G.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra inkişaf edən sahələrdən biri də turizm sahəsi olmuşdur. Bu sahənin inkişafı üçün Azərbaycan Respublikası böyük potensiala sahibdir. Ölkəmizin ərazisi tarixi abidələrin, təbiətinin, mətbəxinin zənginliyi ilə turistləri özünə cəlb edir. Xarici və daxili turistlərin tələbatını ödəmək üçün bir sıra kompleks tədbirlər planı həyata keçıirilmiş və hal-hazırda da həyata keçirilməkdədir. Bir neçə illəri özündə əks etdirən Dövlət Proqramları tərtib olunmuşdur. 2006-cı ildə Azərbaycanda turizm təhsili verən yeganə ali məktəb – Azərbaycan Turizm İnstitutu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 25 avqust tarixli 925 saylı fərmanı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 fevral tarixli 45 saylı qərarı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəzdində yaradıldı. Bu tədbirlər nəticəsində də ölkədə turizim durmadan inkişaf etməyə başlamışdır..

Son 5 il ərzində Azərbaycan Respublikası Moldova, Belarusiya, Qətər, Yunanıstan, Qazaxıstan, İordaniya, Fransa, Tacikistan, Misir, Litva hökümətləri ilə "Hökümətlərarası Sazişlər" çərçivəsində əmədaşlıq üçün sazişlər imzalamışdır. Hal-hazırda Azərbaycan Respublikası 26 ölkə ilə turizm sahəsində əməkdaşlıq sazişləri bağlanmışdır. Bu ölkələrə Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı, Avstriya Respublikası, Böyük Britaniya, İsrail, İran, Bəhreyn, Oman Sultanlığı, Macarıstan, Koreya, İsveçrə, Yaponiya, İndoneziya, Bruney Krallığı, Malayziya, San Marino, Mərakeş, Argentina, Meksika, Makedoniay, İsveç, Filippin, Kuba və Xorvatiya daxildir.

Beynəlxalq sahədə əməkdaşlığı artırmaq üçün Azərbaycan Respublikası Turizm və Mədəniyyət Nazirliyi Ümumdünya Turizm Təşkilatı (ÜTT), Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi Turizm Şurası, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və.s. kimi beynəlxaq təşkilatlarla

turizm sahəsində əməkdaşlığa nail olunması, turizm sahəsinə şamil olunan proqramlara qoşulma, beynəlxalq tədbirlərdə iştirak şansı qazanmaq, təklif və layihələrin hazırlanmasında iştirak, əməkdaşlığa dair razılıqlar əldə edilməsi istiqamətində işlər aparır.

Müstəqilliyə qədərki dövrdə turizminən yadda qalan il 1983-cu ilhesab olunur. Çünki bu il ərzində Azərbaycan SSR-ə xarici ölkələrdən 50, SSRİ-in müxtəlif bölgələrindənisə 250 minə yaxın turist səfər etmişdir. Bununla bərabər ölkə ərazisində mehmanxana komplekslərinin sayı artırıldı və mövcud mehmanxalarda isə təmir işləri görüldü. Ölkə turizmində əsas çiçəkləmə 2000-ci illərin əvvəllərinə təsadüf edir. Statistikaya əsasən 2011-ci ildə ölkəyə rekord həddə – 2.2 milyon nəfərdən çox xarici turist gəlmişdir. Turizm Nazirliyinin məlumatlarına əsasən 2014 – cü il ölkəyə gələn turist sayı 2.3 milyona çatmışdır. Hesablamalara əsasən 2014-cü ildə ölkənin turizmdən gəliri təxminən 950, 650 milyon dollar olmuşdur. Viza prosedurlarındakı sadələşdirmələr, turistlərin tələbinə uyğun yeni yerlərin açılması bu saylarda ən önəmli faktorlar olmuşdur. Son illərdə Respublikamızda keçirilən müxtəlif beynəlxalq tədbirlər (Avroviziya, Avropa Oyunları, Formula -1 və s.) turist axımına böyük təkan vermişdir. Azərbaycanın 530 otelində 35.000 turistin qalması üçün yer var. Bu illər ərzində ölkəyə 5 milyona yaxın turist gəlməsi gözlənilir. Ölkəyə gələn bir turistin minimum xərclədiyi pul 1000 dollar təşkil edir.

2014 – cüildə 2013 – cü illə müqayisədə otellərin gəlirləri 5.7% artmışdır. Statistika Komitəsinin məlumatına əsasən bu 181 milyon manat edir. Bu məbləğin 64.7%-i otaq nömrələrinin tutulmasından, 23.8%-i isə yemək və içki xidmətlərindən daxil olmuşdur. Otel otaqlarının sayı ötən illə nisbətdə 4.9% artmış və 17,363 - ə çatmışdır. Otellərin 5%-idövlət, 95%-i isə özəl sektorun payına düşür. 2014 – cü ildə turistlərin əksəriyyəti Bolqarıstan, Estoniya, Finlandiya, Çexiya, Yaponiya, Belçika, Polşa, Türkiyə, Moldova, Çin, Almaniya və Rumiyadan gəlmişdir. Turizmininin kişafı ölkəyə həm iqtisadi cəhətdən, həm də sosial cəhətdən müsbət təsir gstərir. İqtisadi cəhətdən müsbət təsiri onun gəlirli sahə olması və ölkəyə əlavə gəlirin cəlb olunmasında böyük rol oynamasıdır. Sosial cəhətdən isə yeni iş yerlərinin açılmasına təkan verərək işsizliyi azaldır, yeni təşkilatların yaranmasına gətirib çıxarır, sahibkarlığın inkişafına imkan yaradır, turizm regionlarındakı şəxsi təsərrüfatların və əhalinin ehtiyaclarına uyğun xidmət sferasının yaranmasını təmin edir.

**HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN İQTİSADİ ƏSASLARININ YARADICISIDIR**

***Baxşəliyev A.B.***
*Sumqayıt Dövət Universiteti*

XX yüzilliyin 60-cı illərinin sonuna yaxın Azərbaycanın sosial – iqtisadi həyatını dərin böhran bürüdüyü, olduqca mürəkkəb bir şəraitdə, respublikamızın iqtisadi göstəricilərinin aşağı olduğu bir zamanda – 1969-cu ilin iyulunda Azərbaycan SSR-də hakimiyyətə Heydər Əliyev gəldi. Onun təşəbbüsü ilə 1969-cu il avqustun 5-də keçirilən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda respublikanın sosial, iqtisadi, siyasi və mədəni həyatı dərindən və ətraflı təhlil olundu, uzun illərdən bəri yığılıb qalmış problemlər müzakirə edildi, çıxış yolları müəyyənləşdirildi. Bununla da Azərbaycan cəmiyyətində tərəqqiyə doğru dönüş, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünə qayıdışı başladı. XX əsrin son otuz ilində Azərbaycana başçılıq etmiş Heydər Əliyev Azərbaycan Sovetlər Birliyinin tərkibində olduğu müddətdə elə addımlar atdı ki, bu ölkəmizin müstəqillik illəri üçün təməl rolunu oynadı. Belə ki, ümummilli liderin 1969-1982, 1982-1987-ci illər Sovet hakim elitasında çalışdığı illərdə tutduğu mövqe müstəqil Azərbaycan Respublikasına başçılıq etdiyi 1993-2003-cü illərdə daha da tamamlandı və öz bəhrələrini verdi.

Heydər Əliyevin Az. KP MK - nin birinci katibi olduğu 1969 - 1982-ci illərdə Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən mühüm məsələlər müvəffəqiyyətlə həyata keçirildi. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan keçmiş SSRİ-də inkişaf etmiş respublikalardan birinə çevrildi. Bu illərdə 250-dən çox zavod, fabrik, istehsal müəssisələri, 630 min yeni iş yeri açıldı. 1970-ci ildə sənaye məhsulu istehsalı 8.6% artdı. Respublikada 1969-cu ildə 233 iri sənaye müəssisəsi var idisə, 1982-ci ildə 350-yə yaxın iri və orta sənaye müəssisəsi fəaliyyət göstərirdi. 1969-1970-ci illərdə, yəni cəmi 1 il ərzində Azərbayca nda 1965-ci ilə nisbətdə ümumi məhsul istehsalı 34%, milli gəlir 33 %, sənaye istehsalı 37%, kənd təsərrüfatı 27%, təsərrüfata əsaslı vəsait qoyuluşu 43%, əsas istehsal fondları 34% artmışdı.

Qısa müddətdə mövcud neft maşınqayırması və neft emalı, həmçinin kimya müəssisələrinin yenidən qurulması prosesi başladı. 70-80-ci illərdə Sovetlər Birliyinin neft maşınqayırması avadanlıqlarına olan tələbatının 70%-dən çoxunu L. Şmidt (Səttarxan), P.Montin (Bakı Neft – Mədən), Kirov (Bakı), Dzerjinski (Suraxanı), Keşlə, Y.Qasımov adına zavodlar ödəyirdi. Bu sahədə artım 1970-ci ildəki 29.1%-dən 1980-ci ildə 51.2%-ə qalxdı.

Neft sənayesində tənəzzülü aradan qaldırmaq üçün kəşfiyyat işləri genişləndirildi. Xəzərdə zəngin neft və qaz yataqları aşkar edildi. Geoloji kəşfiyyat işlərinin genişləndirilməsi nəticəsində Siyəzəndə Zəyli – Zeyvə, Cənubi Kür vadisində Kürsəngi, Muradxanlı yataqları kəşf olundu. 70-ci illərdə neftçıxarma texnikası və texnologiyası xeyli təkmilləşdirildi. Azərbaycana yeni "Şelf-2", "Şelf-3", "Şelf-4", "Şelf-5" üzən qazma qurğuları gətirildi. Bu qurğuların sayəsində dənizdə 2800-6500 metr dərinlikdə neft quyuları

qazılmağa başlandı. "İstiqlal" və "Dədə Qorqud" qurğuları işə salındı. Xəzərdə "28 aprel", "Bahar", "Azəri", "Günəşli" kimi zəngin neft və qaz kondensatı yataqları aşkar edildi.

Bu illərdə sualtı neft kəməri çəkildi. 1976-cı ildə Yeni Bakı Neftayırma zavodu işə salındı, 1982-ci ildə isə Bakı neftayırma zavodunda neftin ilkin emalı üçün ELOU-AVT qurğusundan istifadəyə başlanıldı.

SSRİ-də 80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər müttəfiq Respublikaların, o cümlədən Azərbaycanın da iqtisadiyyatına və sosial - mədəni həyatına ağır zərbələr vurdu. Sovet imperiyasının dağılması ilə Respublikanın köhnə iqtisadi əlaqələri kəsildi. Müəssisələrin istehsal gücü azaldı.

Heydər Əliyevin Azərbaycan Respublikasının idarəçiliyini öz əlinə götürməsi ilə böhrandan çıxış yolları tapıldı. 1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti (ADNŞ) ilə Amerikanın "AMOKO", "Yunokal", "Pennzoyl", "Makdermot", Böyük Britaniyanın "Britiş Petroleum" və "Remko", Norveçin "Statoyl", Rusiyanın "LUKoyl", Türkiyənin "Türk petrolları", Səudiyyə Ərəbistanının "Delta" şirkətlərinin yaratdığı konsorsium arasında Azərbaycanın Xəzər dənizi bölgəsində yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi, istismarı və pay bölgüsü haqqında "1+10" və sonralar tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş neft müqaviləsi imzalandı. Sonradan bu müqaviləyə Yaponiyanın "İtoçu" və Amerikanın "Eksson" və "Amerada Hess" şirkətləri də qoşuldu. 2007-ci ilin avqustundan isə Cənubi Koreyanın neft şirkəti də bu müqavilədə iştirak etməyə başlamışdır.

1994-cü ildə "Əsrin müqaviləsi" ilə əsası qoyulan Azərbaycanın neft strategiyası çərçivəsində bu günə kimi xarici neft şirkətləri ilə ümumilikdə 27 neft sazişi imzalanıb. Həmin sazişlər üzrə birgə işlənilməsi nəzərdə tutulan perspektiv strukturların sayı 30-dur. Bu sazişlərdən 15-i Xəzərin Azərbaycan sektorunu, 12-si isə quru sahələri əhatə edir. Bu sazişlərdə Azərbaycan hökumətinin tərəfdaşları dünyanın 21 ölkəsini təmsil edən 43 şirkətdir.

"Əsrin müqaviləsi"nin imzalanması mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev təbrik nitqində demişdir: "Biz ötən dövrlərdə nə qədər neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çatdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrlərədək xalqımız heç vaxt öz təbii sərvətinin sahibi olmamışdır. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir".

Azərbaycan neft strategiyasının banisi Heydər Əliyev sonralar verdiyi müsahibələrin birində "Əsrin müqaviləsi" haqqında danışarkən onun "dar və təhlükəli cığırla" keçərək ərsəyə gəldiyini bildirib. Bu dünya siyasətində, böyük dövlətlərin və Azərbaycanın milli maraqlarının uzlaşdırılmasında ümummilli liderin necə məharətli siyasətə və mühüm mövqeyə malik olmasını sübut edir.

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFI

***Babaşova Ə.A.***
*Sumqayıt Dövlət Universiteti*

1994-cü ilin sentyabrında dünyanın nəhəng şirkətlərinin iştirakı ilə imzalanan "Əsrin müqaviləsi"" Azərbaycan iqtisadiyyatının sürətli inkişafının əsasını qoydu, həm də onun cari problemlərinin həllinə ciddi təkan verdi. Bu layihə əsasında bir sıra müəssisələrin bərpa edilməsi, müstəqil ölkənin inkişafı üçün zəruri olan yeni istehsal sahələrinin yaradılması və neft hasilatının artırılması tezliklə respublika iqtisadiyyatının canlanmasını təmin etdi. Yeni şəraitə uyğun olaraq normativ - hüquqi baza yaradıldı və iqtisadiyyatda genişmiqyaslı islahatlar və özəlləşdirmə proqramları həyata keçirildi. Torpaq islahatları nəticəsində fermer təsərrüfatları sistemi formalaşdırıldı, əkin sahələrinin qismən bərpası təmin edildi, nəticədə bir sıra sahələrdə (taxılçılıq, meyvəçilik, tərəvəzçilik, bostan məhsulları və s.) əvvəlki yüksək yığım səviyyələrindən də artıq məhsul istehsal edildi. Nəqliyyatda, tikintidə, xidmət sahələrində özəlləşdirmənin nəticələri istehsalın həcmini xeyli artırmaqla yanaşı, əhalinin məşğulluq səviyyəsini də yüksəltdi. Maliyyə, pul - kredit siyasəti, vergi və gömrük əməliyyatlarının bazar iqtisadi sisteminə uyğunlaşdırılması iqtisadiyyatın təkmilləşdirilməsinə səbəb oldu, ölkədə sahibkarlıq fəaliyyəti daha da genişləndi. Beynəlxalq iqtisadi əməkdaşlıq Azərbaycanda məhsuldar qüvvələrin ən vacib inkişaf amillərindən birinə çevrildi. Nəticədə 1993-2002-ci illərdə bütün maliyyə mənbələri hesabına Azərbaycanın sosial-iqtisadi inkişafına 8,2 milyard manat (yəni 36,3 dəfə çox) əsas vəsait qoyuldu ki, bunun da 62 faizə qədəri qeyri-dövlət mülkiyyətində olan qurumların payına düşürdü. Son dərəcə mürəkkəb ictimai-siyasi daxili və xarici şəraitdə Azərbaycan iqtisadiyyatının inkişafına böyük həcmdə investisyaların cəlb edilməsi ölkə rəhbərliyinin düşünülmüş fəaliyyətinin parlaq qələbəsi idi.

Beləliklə, qısa zaman kəsiyində, yəni 90-cı illərin ikinci yarısından respublika iqtisadiyyatında geriləmə prosesi dayandırıldı və onun müntəzəm artım meyli başladı. Nəticədə 1996-2002-ci illərdə ölkədə ümumi daxili məhsul 1,7 dəfə, o cümlədən sənaye istehsalı 1,2 dəfədən çox, təxminən bir o qədər də kənd təsərrüfatı məhsulu istehsal edildi. Azərbaycanın ümumi gəlirləri 1993-cü ilə nisbətən 2002-ci ildə 85 dəfə çoxaldı, onun xərclərində sosial müdafiə və sosial təminat 1993-cü ildəki 8,5 faizdən 2002-ci ildə 20,4 faizə qaldırıldı. Qısa müddətdə (1995-2002-ci illər) orta aylıq əməkhaqqı 5 dəfədən çox artırıldı.

Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə salınması Azərbaycanın iqtisadi inkişaf imkanlarını xeyli artırdı. Yanacaq resurslarının çıxarılmasının dəfələrlə artması (neft hasilatının 2010-cu ildə 1990-cı ilə nisbətən 4 dəfədən çox artırılaraq 50,8 milyon tona, qaz hasilatının isə 2,7 dəfə artırılaraq 26,3 milyard kubmetrə çatdırılması) Azərbaycanın maliyyə imkanlarını xeyli genişləndirdi. Ölkə Prezidenti cənab İlham Əliyevin respublika rəhbərliyinə başladığı ilk günlərdə məhsuldar qüvvələrin sürətli artımını nəzərdə tutan 2004-2008-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı haqqında sərəncam imzaladı. 2009-cu ilin aprelində isə regionların sosial-iqtisadi inkişafı haqqında ikinci Dövlət Proqramı qəbul olundu.Regionlarda həyata keçirilən

tədbirlərin əsas məqsədi yerlərdə iqtisadiyyatın mühüm sahələrinin inkişafı üçün zəruri infrastrukturun yaradılması və əhalinin rahat yaşaması üçün əlverişli sosial şəraitin təmin edilməsi idi. Turizmin, xüsusilə, beynəlxalq turizmin inkişafı üçün Bakı, Gəncə və Naxçıvan hava limanları müasirləşdirilməklə yanaşı, Lənkəranda, Zaqatalada, Qəbələ və Yevlaxda dünya standartlarına tam cavab verən yeni hava limanları tikilib istifadəyə verilmişdir.Bu dövrdə Azərbaycanın iqtisadi inkişafının ən böyük nailiyyətlərindən biri də müasir iri müəssisələri olan mühüm hərbi sənaye kompleksinin yaradılmasıdır.

Məhz yanacaq sənayesi ilə yanaşı qeyri-neft sektorunun da güclü inkişafının nəticəsidir ki, son on ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün əsas kapitala 84 milyard manat, o cümlədən qeyri-neft sektorunun inkişafına 52,1 milyard manat (11,1 dəfə çox) vəsait qoyulmuş, Azərbaycan iqtisadiyyatı 3,4 dəfə, ölkə büdcəsi və onun xərcləri 20 dəfə artmışdır. Təqribən 3 dəfəyə yaxın artan valyuta ehtiyatları indi artıq 50 milyard dollara yaxındır. Ölkədə 14 elektrik stansiyası, 7 aeroport, 726 kilometr uzunluğunda yeni avtomobil yolları tikilmişdir. Çox əlamətdardır ki, zəruri infrastruktur sahələrinin regionlarda güclü inkişafı hesabına qeyri-neft sektorunun sənaye istehsalı istiqamətləri onların böyük əksəriyyətinin yüksək səviyyədə sənayeləşməsinə güclü təkan vermişdir. Keçən 10 ildə respublikanın regionlarında qara və əlvan metallurgiyanın, maşınqayırmanın, tikinti, yüngül və yeyinti sənayesi sahələrinin fəaliyyətdə olan 120-dən artıq mühüm müəssisəsi yaradılmışdır. Onlardan Gəncə alüminium kompleksini, Gədəbəy qızıl-misçıxarma və emalı zavodunu, Qəbələ lift və piano zavodlarını, Naxçıvan və Ağstafa sement zavodlarını, Naxçıvan avtomobil zavodunu, yerli elektrik enerjisi istehsalında əhəmiyyətli rol oynayan Astara, Şəki, Şamaxı, Quba, "Şahdağ", Naxçıvan, Şirvan elektrik stansiyalarını, Füzuli, Biləv, Arpaçay, Taxtakörpü su elektrik stansiyalarını və s. göstərmək olar.

Müstəqilliyin ilk illərindən həmişə öz dinamikliyi ilə seçilən kənd təsərrüfatı hazırda inkişafının yüksək zirvəsinə qalxmışdır. Onun maddi-texniki bazasının möhkəmləndirilməsi, suvarma sisteminin genişləndirilməsi, heyvandarlığın yem təchizatının və mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, ümumiyyətlə, əkinçilik mədəniyyətinin yüksəldilməsi istiqamətində aparılan tədbirlər nəticəsində Azərbaycanda əsas kənd təsərrüfatı məhsulları üzrə (taxıl, şəkər çuğunduru, kartof, tərəvəz, bostan məhsulları, meyvə, ət, süd, yumurta, un) istehsal həcmi rekord səviyyəyə qaldırılmış və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm nailiyyətlər əldə edilmişdir.

Mütəxəssislərin qənaətinə görə, Azərbaycanda turizmin imkanlarının dolğun və səmərəli istifadəsi nəticəsində əhalinin məğqulluğunun 10 faizə qədəri bu sahənin hesabına təmin edilə bilər. Yeni, 2014-2018-ci illəri əhatə edəcək regionların üçüncü sosial-iqtisadi inkişafı dövlət Proqramı onların tarazlı inkişafında böyük dönüş mərhələsi ola bilər. Xüsusən, regionların sənayeləşməsinin səviyyəsi xeyli yüksələcək, əhalinin rifahı daha da yaxşılaşacaq, məşğulluq səviyyəsi xeyli artacaq, yoxsulluq, demək olar ki, tam aradan qaldırılacaqdır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikilməsinin başa çatması ilə Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlığı daha da genişlənəcək.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCAN İQTİSADİYYATININ VƏ MALİYYƏ SİSTEMİNİN QURUCUSUDUR

**_Babayeva T.P._**
_Sumqayıt Dövlət Universiteti_

Ölkəmizə 30 ildən çox rəhbərlik etmiş Azərbaycan xalqının ümummilli lideri, Ulu Öndər Heydər Əliyev nəinki ictimai, siyasi, həm də iqtisadi sahədə kifayət qədər həlledici addımlar atmışdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir.

Müstəqilliyin ilk illərində ölkəmiz ciddi iqtisadi problemlərlə üz-üzə qalmışdı. Belə ki, sosializm sistemindən bazar iqtisadiyyatına keçid qeyri-peşəkar aparılır, ciddi sosial-iqtisadi, maliyyə problemlərinə yol açırdı. Bazar iqtisadiyyatına keçmək üçün bir sıra vəzifələri yerinə yetirmək lazım idi. Bunun üçün dağılmaqda olan iqtisadi sistemin əsası kimi ona xas olan mülkiyyət tipi dəyişdirilməli, mülkiyyət çoxnövlüyü əsasında yeni təsərrüfat formaları yaradılmalı, idarəetmə mexanizmi və strukturları yenidən qurulmalı, bölgü münasibətləri, maliyyə, bank sistemləri yeni əsaslar üzərində formalaşdırılmalı, yeni tip xarici iqtisadi əlaqələr qurulmalı və ən başlıcası isə yaradılmaqda olan sistemdə fəaliyyət göstərəcək yeni təfəkkürlü insanlar formalaşdırmaq lazım idi.

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərlə boğulurdu. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü. Bunun isə kökləri olduqca dərindir. İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları boşalmış, ilkin tələbat mallarının istehsalı fəlakət dərəcəsində azalmışdı. Elə gün olurdu ki, Qazaxıstandan yola salınmış un gecə Bakıya çatmasaydı, səhəri gün şəhərdə aclıq baş verə bilərdi.

Ölkəni bu ağır vəziyyətdən 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev çıxardı. 1993-cü ilin iyununda vətəndaş qarşıdurması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar etdi. Xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai – siyasi pərakəndəlikdən qurtardı. Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini, Azərbaycanın iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etdi.

1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını təmin edən “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan xalqının öz maddi sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrilmişdir. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açmış, dinamik inkişafın təməlini təşkil edərək müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın bu gün dünyada analoqu olmayan templə davamlı inkişafı üçün zəmin yaratmışdır.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də, ixrac marşrutlarının diversifikasiyasına nail olundu.

Ulu öndər "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", "iqtisadiyyat hər şeydir, çünki o, cəmiyyətin bünövrəsidir" kimi fikirləri ifadə etməklə iqtisadiyyatın cəmiyyətin inkişafında rolunu olduqca yüksək qiymətləndirirdi. Eyni zamanda ulu öndər iqtisadiyyatı inqilabi yolla inkişaf etdirmək deyil, əksinə, təkamül yolu ilə, ardıcıl islahatlar aparmaqla inkişafa nail olmağa üstünlük verirdi. Ümumilli liderimiz Heydər Əliyev bildirirdi ki, "Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi, regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir. Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz".

Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır ilkin şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyəti isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaranmışdır.

Beləliklə, iqtisadi inkişafın tarixdə analoqu olmayan Azərbaycan modelinin formalaşması və inkişafı nəticəsində uzunmüddətli perspektivdə Azərbaycanın sosial-iqtisadi inkişaf trayektoriyası yüksək dərəcədə perspektivlidir. Belə ki, ölkəmizdə:

1. İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsipləri bərqərar olmuşdur;
2. müstəqil, demokratik, hüquqi dövlətin əsasları qoyulmuş və ölkə yüksək inkişaf mərhələsinə daxil olmuşdur;
3. transformasiya prosesi uğurla aparılmış və özünün son mərhələsinə qədəm qoymuşdur;
4. qapalı sosial-iqtisadi sistem xaricə açılmış və "açıq qapı" siyasətinin tətbiq edilməsi nəticəsində bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya prosesi sürətlənmişdir;
5. xarici kapital geniş miqyasda cəlb edilərək, resurs amillərindən intensiv istifadə edilməsinə başlanmışdır;
6. ölkədə yaradılmış yeni imkanlar daxili mənbələrin hərəkətə gətirilməsi, iqtisadiyyatın strukturunun yenidən qurulması, informasiya texnologiyalarının sürətli inkişafı və bütün sahələrdə modernləşdirmə xəttinin həyata keçirilməsi məqsədlərinə xidmət edir və bu sahədə ciddi irəliləyişlər mövcuddur;
7. həyata keçirilən qlobal əhəmiyyətli infrastruktur layihələri Azərbaycanın Avrasiya məkanında mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi üçün geniş imkanlar yaratmışdır;
8. siyasi müstəqillik iqtisadi müstəqilliklə möhkəmləndirilmişdir. Tam müstəqil və balanslaşdırılmış iqtisadi siyasət yeritməklə ölkənin milli təhlükəsizliyini və onun mühüm tərkib hissələri olan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini və ərzaq təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bilmişdir;

9. ölkə qısa tarixi dövr ərzində kapital idxal edən ölkədən ixrac edən ölkəyə, təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir və bir çox həyati əhəmiyyətli məhsullarla öz ehtiyaclarını təmin edir;

10. ölkənin əlverişli geosiyasi vəziyyətindən məharətlə istifadə edilməsi Azərbaycanın regionda lider dövlətə çevrilməsinə və qabaqcıl dünya dövlətləri arasında mövqeyinin möhkəmləndirilməsinə səbəb olmuşdur.

## AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ SOSİAL NORMATİVLƏRİN ROLU

***Bünyadov Z.V.***

*Sumqayıt Dövlət Universiteti*

Sosial sahədə tətbiq edilən normativlər və standartlar dövlətin ali məqsədi olan insanların daha layiqli həyat səviyyəsinin təmin olunmasına xidmət edir. Bu normativlər və standartlar ilk növbədə ölkə konstitusiyasından, dövlətin tərəfdar çıxdığı ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdən irəli gəlir və dövlətin sosial sahədə siyasətinin normallaşdırılmasına, meyarı və ölçüsünə çevrilir. Ratifikasiya edilmiş elə beynəlxalq konvensiyalar vardır ki, həmin konvensiyalara qoşulmaq üzv ölkələrin konvensiyaya uyğun olaraq hesabat vermə öhdəliyini yaradır. Avropa Şurasının hüquqi aktları da Avropa məkanına inteqrasiyanı və Avropa standartlarına uyğunlaşmanı tələb edir. Avropa Sosial Xartiyası Avropa məkanı üçün bir standartdır. Xartiyanın 13-cü maddəsinə (tibbi və sosial yardım almaq hüququ) əsasən tərəflər (yəni xartiyanı təsdiq edən dövlətlər) yaşayış üçün kifayət qədər vəsaitləri olmayan və onları nə öz səyləri ilə əldə edə bilməyən, nə də digər mənbələrdən, xüsusilə, sosial təminat sistemi çərçivəsində ödənişlər hesabına ala bilməyən hər bir şəxsə müvafiq yardımın, xəstəlik halında isə onun vəziyyətində zəruri qulluğun təqdim edilməsini təmin etməyə borcludur. Bu cür humanist beynəlxalq normalar milli qanunvericilikdə də sosial standartlar və normativlər məsələsinin həllini təsbit edir. Azərbaycanın sosial hüququnun təhlili aşağıdakı sosial normativlərin olmasını şərtləndirir: minimum istehlak səbəti, yaşayış minimumu; ehtiyac meyarı; minimum əmək haqqı; əmək pensiyasının baza hissəsi; ailədə adambaşına düşən orta gəlir; əmək pensiyasının orta aylıq məbləğinin orta aylıq əmək haqqı ilə nisbəti və s.

"İstehlak səbəti" termini iqtisadi-sosial kateqoriyadır. "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 5 Oktyabr tarixli 768-IIQ nömrəli Qanunu ilə minimum istehlak səbəti - insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusudur. İstehlak səbətinə insanın sağlamlığını və həyat fəaliyyətini təmin etmək üçün tələb olunan zəruri ərzaq, qeyri-ərzaq məhsulları və xidmətlər daxildir. "Yaşayış minimumu haqqında" qanunun 3-cü maddəsinə əsasən minimum istehlak səbəti əhalinin əsas sosial-demoqrafik qrupları üzrə aşağıdakı tərkibdə formalaşdırılır: ərzaq məhsullarının minimum toplusu; fərdi və ailəvi istifadə olunan qeyri-ərzaq mallarının minimum toplusu; xidmətlərin minimum toplusu.

Minimum istehlak səbətinin tərkibi dövlət elmi idarə və müəssisələrinin, qeyri-hökumət təşkilatlarının iştirakı ilə hökumət tərəfindən üç ildə bir dəfədən az olmayaraq müəyyənlədirilir. Minimum istehlak səbətinin tərkibi Nazirlər Kabineti tərəfindən iki dəfə - 2005-ci il iyunun 23-də və 2009-cu il aprelin 30-da təsdiq edilmişdir. Elmi araşdırmalar, insanın fiziki və mənəvi tələbatlarının dinamikası, inkişaf etmiş dünya dövlətlərinin təcrübəsi istehlak səbətinin tərkibinin daimi dəyişməsini labüd edir. İstehlak səbəti təbii iqlim şəraiti, milli ənənələr, qeyri-ərzaq malları və xidmətləri yerli istifadə ənənələri nəzərə alınmaqla müəyyənləşdirilir. İstehlak səbəti əhalinin üç əsas sosial-demoqrafik təbəqəni: əmək qabiliyyətli əhalini, pensiyaçıları və uşaqları əhatə edir. 2009-cu il aprelin 30-da təsdiq edilmiş minimum istehlak səbətinin tərkibi ilə 2005-ci il 23 iyun tarixli qərarla təsdiq edilmiş minimum istehlak səbətinin tərkibində xeyli fərqlər özünü göstərir. Belə ki, istehlakda kartofun, tərəvəz və bostan bitkilərinin, süd və süd məhsullarının miqdarı artırılmış, heyvan və bitki mənşəli yağların miqdarı isə azaldılmışdır. İnternet xidmətləri yeni istehlak səbətinin tərkibində ayrıca qeyd olunmuşdur. Minimum istehlak səbətinin tərkibinin pulla ifadə olunmuş dəyərini Dövlət Statistika Komitəsi ildə bir dəfə rəsmi dövlət nəşrlərində dərc edir. İstehlak səbətinə görə yaşayış üçün zəruri olan aşağı həddin pulla ifadəsi təyin olunur. Bu zaman mal və xidmətlərin real qiymətləri əsas götürülür. İstehlak səbətinin pulla ifadəsi hökumət tərəfindən müəyyənləşdirilir. Bu zaman bazarda qiymətlərin dəyişməsi nəzərə alınır. Ərzaq mallarına, məcburi ödənişlər üzrə qeyri-ərzaq mallarına və xidmətlərə dair qiymətlər əsas götürülür. İstehlak səbəti haqqında Azərbaycan hökumətinində bir sıra qərarları olmuşdur.

## MÜSTƏQİL AZƏRBAYCANIN DAVAMLI İNKİŞAFININ ƏSASI HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN 1970-1980-ci İLLƏRDƏ QOYULMUŞDUR

***Cəfərov H.F.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Müstəqil Azərbaycanın son 22 ildə sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar məhz ümummilli lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev respublikanın keçmiş Sovet İttifaqı miqyasında geridə qalmış respublikalardan biri kimi tanınması ilə barışmayaraq mövcud vəziyyətin kökündən dəyişdirilməsi üçün qətiyyətli addımlar atmış, mövcud resursları səfərbər etməklə, tərəqqi və inkişaf prosesindəki maneələrin aradan qaldırılmasına nail olmuşdur.

Böyük strateq yaxşı başa düşürdü ki, respublikanın iqtisadi cəhətdən möhkəmlənməsi, iqtisadi azadlığını təmin etməsi üçün SSRİ-nin strateji əhəmiyyət kəsb edən istehsal və sənaye müəssisələri məhz Azərbaycanda inşa olunmalıdır. O illərdə Heydər Əliyevin təkidi və qətiyyəti qarşısında keçmiş ittifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, tekstil, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq vermiş, paralel olaraq energetika və

nəqliyyat kompleksi inkişaf etmişdir. 70-80-cı illərdə Bakıda, Sumqayıtda, Gəncədə, Lənkəranda, Naxçıvanda və digər bölgələrdə inşa olunan iri müəssisələr bu günün özündə də iqtisadiyyatın güclü emal və sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir. Bu baxımdan, ulu öndərin Bakı Məişət Kondisionerləri Zavodunun inşası ilə bağlı göstərdiyi əzmkarlığı xüsusi qeyd etmək lazımdır. 1970-ci illərin əvvəllərində mərkəzi rəhbərlik bu zavodun Zaporojye şəhərində inşa olunmasına qərar versə də, şəxsi nüfuzundan istifadə edən Heydər Əliyev Brejnevlə görüşərək həmin müəssisənin məhz Bakıda tikilməsinin vacibliyini konkret dəlillərlə əsaslandıraraq son nəticədə istəyinə nail oldu. 1975-ci ilin dekabrında Bakı Məişət Kondisionerləri Zavodunun işə düşməsi məhz dahi öndərin böyük vətənpərvərliklə həyata keçirdiyi əzmkar fəaliyyətinin məntiqi nəticəsi idi. Eyni zamanda, bu gün neft sənayemizin inkişafında mühüm rolu olan Bakı Dərin Özüllər Zavodunun inşası üçün 70-ci illərdə SSRİ büdcəsindən 400 milyon manat vəsaitin ayrılması da məhz ulu öndərin tarixi xidmətlərindən biri kimi xatırlanır.

Ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən neft sənayesinin inkişafında yeni mərhələ başlanmış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. O zaman respublikanın neft maşınqayırması keçmiş ittifaqın neft-mədən avadanlığının üçdə birindən çoxunu, neftçıxarma texnikasının isə 70%-ni verirdi. Həmin illərdə ittifaq miqyasında yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər də məhz Azərbaycanın payına düşürdü. Heydər Əliyevin təşəbbüsü və inadkarlığı sayəsində ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi-tədqiqat institutları, istehsalat birlikləri və digər müəssisələr yaradıldı.

Ulu öndərin respublikaya birinci rəhbərliyi dövründə Azərbaycanda istehsalın ümumi həcmi 2,7 dəfə artmış, respublikamız milli gəlirin səviyyəsinə görə ittifaq miqyasında ön mövqelərə çıxmış, əmək məhsuldarlığı 1,8 dəfə çoxalmışdı. Böyük öndər Heydər Əliyevin 1982-ci ildən sonra siyasi fəaliyyəti Kremllə bağlı olsa da, müdrik rəhbər xalqına və dövlətinə mümkün dərəcədə yüksək diqqət və qayğı ilə yanaşmışdır. Lakin 1980-ci illərin ortaları - 90-cı illərin əvvəllərində keçmiş SSRİ-də yaşanan iqtisadi böhran respublikamızdan da yan keçməmiş, milli iqtisadiyyatda durğunluq və geriləmə meyilləri müşahidə olunmuşdu. Xüsusən də, 1990-1993-cü illərdə Azərbaycan iqtisadiyyatında tənəzzül, böhranlar və əks-proseslərin genişlənməsi idarəetmədə səriştəsiz və bacarıqsız adamlara geniş meydan verilməsi ilə xarakterizə olunur. Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda respublika rəhbərliyinə qayıdışı xalqı və dövləti böyük faciələrdən hifz etməklə yanaşı, iqtisadiyyatdakı dərin böhran və tənəzzül prosesinin də qarşısını almışdır. Bu mənada, ümummilli lider Heydər Əliyev bu gün həm də müstəqil Azərbaycanın özünəməxsus sosial-iqtisadi inkişaf modelinin banisi kimi böyük ehtiramla xatırlanır.

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA NEFT-QAZ SƏNAYESİNİN İNKİŞAFI

***Əhmədova T.M.***
*Sumqayıt Dövlət Universiteti*

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası durmadan dünya iqtisadiyyatına inteqrasiya edir. Ölkədə aparılan məqsədyönlü iqtisadi islahatlar, yeni iqtisadi institutların yaranması, sənaye müəssisələrində, o cümlədən neft sənayesində yaradılan şərait və s. - bütün bunlar respublikada bazaryönümlü iqtisadiyyatın formalaşması və inkişafını şərtləndirmişdir.

Neft-qazçıxarma sənayesi həm keçmiş ittifaq, həm də müstəqillik vaxtında ölkə iqtisadiyyatının "lokomotivi" rolunu oynayır. Keçmiş ittifaqın fəaliyyət göstərdiyi keçən əsrin səksəninci illərinin sonunda Azərbaycan neft sənayesinə göstərilən ögey münasibət, bu sahənin inkişafında bir durğunluq yaratmışdır. Bu durğunluq müstəqilliyimizin ilk illərində özünü daha qabarıq şəkildə göstərməyə başladı. Belə ki, keçmiş ittifaq respublikaları ilə ənənəvi əlaqələrin kəsilməsi, mövcud bazarların itirilməsi, ölkədə mövcud olan qeyri-sabitlik və s. başqa sahələr kimi bu sahənin də işini mürəkkəbləşdirdi.

Ulu öndər, Ümummilli Lider H.Əliyevin yenidən qayıdışı bu mürəkkəbliklərin həllində müsbət rol oynadı. Belə ki, uzunmüddətli idarəçilik təcrübəsinə malik bir insan üçün "haradan başlamalı" sualına birmənalı cavab kimi "neft sənayesi" seçildi. Bunun (şərtlər eyni olduqda) həm də aşağıdakı səbəbləri vardır: neft sənayesindəki mövcud infrastruktur, güclü kadr potensialının olması, ölkənin böyük miqdarda karbohidrogen ehtiyatlarına malik olması. Bütün bunlar ölkə iqtisadiyyatının dirçəldilməsi üçün neft sənayesinin prioritet istiqamət kimi seçilməsini şərtləndirdi. Tarixin sonrakı gedişi bu qərarın nə qədər doğru olduğunu bir daha sübut etdi.

Ölkədə yaradılan sabitlik, münbit investisiya mühiti, 1994-cü ildə "Əsrin müqaviləsi" ilə başlayaraq onlarla neft müqavilələrinin bağlanmasını şərtləndirdi. Bu müqavilələrin bağlanması həm də ölkədə qəbul edilmiş normativ-hüquqi aktlarla da: "İnvestisiya fəaliyyəti haqqında", "Energetika haqqında", "Antiinhisar fəaliyyəti haqqında" qanunları, "Yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" və s. təsbit edilmişdir.

Azərbaycan Respublikasında bazar münasibətləri inkişaf etdikcə əldə edilən iqtisadi artım və respublika əhalisinin maddi rifah halı yaxşılaşdıqca Azərbaycan Respublikasının xarici investorlar üçün cəlbediciliyi artır, Azərbaycan investorları isə xarici ölkələrin aktivlərinə daha çox vəsaitlər yönəltmiş olacaqdır. Bunun üçün, hər şeydən əvvəl, yüksək ixtisaslı mütəxəssislər tələb olunur. Bu mütəxəssislər qiymətli kağızlar üzrə müxtəlif milli bazarların xüsusiyyətlərini bilməli, dövri mətbuatda, internet saytlarında verilən məlumatları öyrənməli, təhlil etməli, onlardan faydalanmağı bacarmalı, müvafiq hesablamalar aparmağı, valyuta risklərinin azaldılması üzrə metodlar da daxil olmaqla xarici investisiya portfelinin idarə edilməsi metodlarını öyrənməli, həmçinin daxili investisiyaların idarə edilməsini də təkmilləşdirməlidirlər. Bütün bunlar isə investisiyanın idarə edilməsi, onun təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb etməklə, ölkənin investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətlərini müəyyən etməyə imkan verir.

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ ŞƏMKİR RAYONUNUN İQTİSADİ İNKİŞAFI

***Əhmədova Ş.M.***
*Sumqayıt Dövlət Universiteti*

*Şəmkirlilər ən çətin dövrlərdə Azərbaycan dövlətçiliyinə arxa-dayaq olmuşlar.*
*İlham Əliyev*

1991-ci il 18 oktyabrda qəbul olunmuş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" respublikamızın tarixində yeni mərhələnin əsasını qoydu. Ölkəmiz özünün üçüncü Respublika dövrünə qədəm qoydu.

1993 cü il 15 iyunda Ümummilli lider Heydər Əliyev cənabları hakimiyyətə gəldikdən sonra bu yönümdə ölkənin inkişaf strategiyası başlandı.

1994 cü ilin sentyabırında imzalanmış "Əsrin müqaviləsi" xarici investisiyaların ölkəyə cəlb olunmasına güclü təkan verdi. Bu gəlirlər qeyri neft sektoruna yönəldi ki,burada da məqsəd ölkə iqtisadiyyatının tarazlı inkişafına nail olmaq idi.

Respublikanın regionlarında da sosial-iqtisadi inkişaf xüsusi proqramlar üzrə həyata keçirilməyə başladı.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Regionlarının sosial–iqtisadi inkişafı Dövlət Proqramı" nda Şəmkir rayonu üzrə nəzərdə tutulmuş tədbirlər plana uyğun aparılmışdır.

2004-2008-ci illərdə Şəmkir rayonunda Dövlət Proqramı çərçivəsində görüləcək işlərin miqyası geniş olmuşdur. Kənd təsərüfatı məhsullarının istehsalı və emalı sahələri inkişaf etdirilməsi, toxuculuq sənayesinin və balıqçılıq sahəsinin yüksək səviyyədə qurulması nəzərdə tutulmuşdur. Eyni zamanda I Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək işlərdən tikinti materialları istehsalının inkişaf etdirilməsi, Şəmkir şəhərinə və Şiştəpə kəndinə su çəkilişi, şəhərin mərkəzləşdirilmiş konalizasiya kollektorunun çəkilişi, 240 çarpayılıq xəstəxananın inşası, Dəllər-Cırdaxan kəndində orta məktəb binasının tikilməsi, əlillər və şəhid ailələri üçün yaşayış evlərinin inşası nəzərdə tutulmuşdur. I Dovlət Proqramı çərçivəsində rayonda müasir tələblərə cavab verən İdman Sağlamlıq Mərkəzi, Qasım İsmayılov qəsəbəsində yeni tipli xəstəxana, Heydər Əliyev fondunun hesabı ilə dörd orta məktəb tikilib istifadəyə verilmişdir. Onlarla məktəb binası o cümlədən Zəyəm qəsəbəsində Əhməd Cavad adına 1 nomrəli orta məktəbin binası əsaslı təmir edilmişdir. Hələ sovet dövründən mövcud olmuş "Zəyəmkəndmaş" zavodu yenidən işə salınmaqla aqrotexservis xidməti yaradılmışdır. Zəyəm qəsəbəsində yeni tipli ticarət mərkəzi – bazar istifadəyə verilmişdir.

2004-2005-ci illərdə sex sahələri, ticarət-məişət obyektlərinin istifadəyə verilməsi nəticəsində Şəmkir rayonunda 2005 ci ildə 2000-ə qədər o cümlədən, 360 daimi, 640 mövsümi, 330 isə müvəqqəti iş yerləri açılmışdır.

I Dövlət Proqramı çərçivəsində həyata keçirilən ən böyük layihə isə təməli 1975 və 1979-cu illərdə qoyulmuş 380 meqavatt gücü olan Şəmkir SES və Yenikənd SES-in gücünün artırılması və bəndlərin möhkəmləndirilməsi olmuşdur. Hazırda respublikamızın elektrik enerjisinə olan tələbatının böyük bir hissəsini bu su elektrik stansiyaları ödəyir.

Rayonun iqtisadiyyatında ənənəvi olaraq taxılçılıq, kartofçuluq, tərəvəzçilik, üzümçülük və heyvandarlıq sahələri aparıcı rol oynayır. Eyni zamanda təsərrüfatlardan bostan və günəbaxan məhsulları da istehsal edilir. Rayonda quşçuluq sahəsi də inkişaf etmişdir. Yeni həyat kəndi ərazisində yerləşən Şəmkir Quşçuluq fabriki 300 min baş quş tutumuna malikdir. Burada ildə 50 milyon yumurta və min ton ət istehsal edilir. Rayonun iqtisadi inkişafında, iri dövlət və şəxsi müəssisələrin xüsusi rolu vardır. Hal-hazırda rayonda 23 sənaye müəssisəsi fəaliyyət göstərir. 87 fərdi sahibkar hüquqi şəxs yaratmadan sənaye fəaliyyəti ilə məşğul olur. 2007-2008 ci illərdə rayon sənayesinin ümumi məhsul buraxılışında qeyri-dövlət bölməsinin xüsusi çəkisi 12,5 faiz təşkil etmişdir.

## AZƏRBAYCANIN SOSİAL İQTİSADİ İNKİŞAFININ REALLIQLARI

***Əliyeva A.M.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Müstəqillik dövründə Azərbaycan Respublikası öz milli iqtisadiyyatını dünya iqtisadi sisteminin bir hissəsinə çevirməklə ümumbəşəri iqtisadi qanunauyğunluqlar əsasında fəaliyyət göstərərək qlobal və regional inteqrasiya proseslərə qoşulmuşdur. Bu məqsədlə regionların tarazlı sosial iqtisadi inkişafına nail olmaq üçün mövcud təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı təmin edilmiş, istehsal müəssisələrinin fəaliyyəti daha da genişləndirilmiş ixracyönümlü məhsul istehsalının stimulaşdırıması: yerli sahibkarlığın inkişafı yolu ilə məşğulluğun artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətlərində böyük uğurlar əldə edilmişdir.

Son dövrlərdə dünya iqtisadiyyatında qeyri-sabitlik Azərbaycanın da inkişafına müəyyən təsirinin olmasına baxmayaraq, müstəqillik illərində ümumi daxili məhsulun orta illik artımı dünya ölkələrinin göstəricilərindən 3,5 dəfə çox olmuşdur. Bu illərdə ölkə əhalisinin məcmu gəlirləri 8 mln. manatdan 42 mld. manata qədər artmışdır. Təbii ki, bu da insanların təkrar istehsalı ilə bağlı olan əhalinin sosial rifahının yaxşılaşdırılması və həyat keyfiyyətinin yüksəldilməsinə istiqamətlənmişdir. 2005 – 2014 – cü illərdə ÜDM 4,7 dəfə artdığı halda, sosial transferlər onunla müqayisədə 4,3 % sürətlə artmışdır.

Qloballaşma şəraitində əsas məqsəd ölkə iqtisadiyyatının modernləşdirilməsi, sənaye, struktur, innovasiya, xarici ticarət və s. sahələrdə sistemli tədbirlərin həyata keçirilməsi ilə ölkədə rəqabətqabiliyyətli milli iqtisadiyyatın yaradılması strukturunun dünya bazarının tələblərinə uyğun qurulmasıdır.

Bu illərdə ölkə başçısı ümummilli lider H.Ə.Əliyevin düzgün iqtisadi siyasəti nəticəsində neft sektorunun inkişafına üstünlük verilməklə toplanan maliyyə vəsaitlərinin qeyri-neft sektoruna yönəldilməsi əsas strateji xətt kimi qəbul olunmuş və müvəffəqiyyətlə həyata keçirilmişdir. 1995 – 2014-cü illərdə ölkə iqtisadiyyatına yönəldilmiş 199,7 mld.dollar investisiyanın 47,7%- yəni 95,5 mld. dollar xarici investisiya, 52,2%, yəni 104,2 mld. dolar isə daxili investisiyalar olmuşdur. Bunlardan xarıcı investisiyaların 70,6 mld. dolları ( 35,4 %) neft sektorunun, 129,1 mld dolları (64 .6 %)-i isə qeyri-neft sektorunun

inkişafına yönəldilmişdir. Ümumilikdə isə son onilliklərdə neft və qeyri-neft sahələrinin inkişafına 150mld.-dan artıq investisiya qoyulmuşdur.

Hazırda ölkədə nəinki neft hasilatı, yanacaq və energetika, o cümlədən qeyri- neft sektoru, yüngül və yeyinti sənayesi, pambıqçılıq, üzümçülük, şərabçılıq, tütünçülük, kənd təsərrüfatı və s. sahələr üzrə ixtisaslaşma prosesləri həyata keçirilir ki, bu da ölkənin ixrac potensialının artırılmasına xidmət edir.

Qeyri-neft sektorunun inkişafı Respublika iqtisadiyyatının prioritet inkişaf istiqamətlərindən olan aqrar sektorun dinamik inkişafından çox asılıdır. Bu təkcə iqtisadi deyil, həm də milli və sosial problemlərlə bağlı strateji məsələdir. Qlobal xarakter daşıyan ərzaq təhlükəsizliyi baxımından ölkə daxilində əhalinin ərzaq məhsularına olan tələbinin daxili istehlak məhsulları ilə ödənilməsi çox zəruridir. Bunun üçün kənd təsərrüfatının müasir tələblərə uyğun modernləşdirilməsi, aqrar sənaye sahələrinin yaradılması işinin genişləndirilməsi, onlarda elmi təcrübi yeniliklərin tətbiqi, yəni innovasiyalı inkişaf, kənd təsərrüfatı məhsullarının emalı sahələrinin inkişafı təmin edilməlidir. “Azərbaycan 2020: gələcəyə baxış “ İnkişaf konsepsiyasında da qeyri-neft sektorunun alt sahələrinin ixracyönümlü və rəqabətqabiliyyətli inkişafına nail olunması əsas məqsədlərdən hesab edilmişdir.

Bu yaxınlarda Aərbaycan Prezidenti İ.Əliyev pambıqçılığın inkişafına dair Respublika müşavirəsində bu sahəyə dövlət dəstəyi kimi emal müəssisələrində pambıq istehsalçılarına subsidiyaların verilməsini onun inkişafının stimullaşdırılmasına səbəb olacağını göstərmişdir. Onun fikrincə 24 rayonda 70000 insanın işləməsi məşğulluğun artması deməkdir ki, bu da iqtisadi məsələlərin həlli ilə eyni zamanda sosial məsələlərində həlli deməkdir.

## “ƏSRİN MÜQAVİLƏSİ” AZƏRBAYCANDA NEFT MƏHSULLARININ DAŞINMASI İSTİQAMƏTİNDƏ ƏLDƏ OLUNAN UĞURLAR (1994-2008-ci illər)

***Ələsgərov B.İ., Səmədov Y.A.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

“Əsrin müqaviləsi” çərçivəsində Azərbaycan neft məhsullarının daşınması sahəsinin inkişaf etdirilməsi yolları mühüm təsərrüfat vəzifəsi kimi irəli sürüldü. 1996-cı ilin yanvar ayında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökümətlərarası saziş imzalandı və 1997-ci ilin oktyabr ayında həmin boru xətti istifadəyə verildi. 1997-ci ildə Azərbaycan və Gürcüstan hökümətlər arasında neftin Qara dənizə çıxarılması üçün Bakı-Tbilisi-Supsa marşrutu ilə nəqlini nəzərdə tutan saziş imzalandı. 1999-cu il aprelin 17-də müstəqil respublikamızın tarixində daha bir əlamətdar hadisə yaşandı. Azərbaycan,Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km-ə çatan illik buraxılış qabiliyyəti isə 5 milyon ton olan Bakı-Supsa neft kəməri ilə bərabər Gürcüstanın Qara Dəniz sahilində inşa olunan Supsa ixrac terminalı da istismara verildi.

1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri BTC-nin tikintisi ilə bağlı "Ankara bəyannaməsi"ni imzaladılar. 1999-cu ilin noyabr ayının 18-də ATƏT-in İstanbul Zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti ərazilərindən Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Neft Kəməri vasitəsilə nəql edilməsinə dair" (1) razılaşma əldə olundu. BTC-nin reallaşması "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan üçün ikinci mühüm tarixi əhəmiyyət kəsb edən hadisə oldu.

2002-ci il sentyabr ayının 18-də Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas İxrac Boru Kəmərinin təməlqoyma mərasimi keçirildi. Respublikamızın dinamik iqtisadi inkişafına təkan verən yeni neft strategiyası 2003-cü ilin oktyabrından başlayaraq Prezident İlham Əliyev tərəfindən inamla davam etdirildi.

2004-cü il fevral ayının 4-də Bakının "Gülüstan" sarayında Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimi keçirildi. Müqaviləyə əsasən ümumi dəyəri 3,6 milyard ABŞ dolları olan layihənin xərclərinin təxminən 30%-i səhmdarların vəsaitləri hesabına, qalan 70%-isə üçüncü tərəfdən maliyyələşmə formasında həyata keçirilməli idi. (2) Prezident İlham Əliyev "Xəzər neft, qaz, neftayırma və neft kimyası-2004" XI beynəlxalq sərgi konfransının açılışında BTC neft kəmərinə Heydər Əliyevin adının verilməsindən və burada gedən inşaat işlərinin uğurlarından söz açdı. (3) Təsadüfi deyildir ki, BTC neft kəmərinin reallaşmasında və digər qlobal enerji layihələrinin gerçəkləşdirilməsində mühüm xidmətlərinə görə Türkiyənin tanınmış, nüfuzlu nəşrlərindən olan, "Siyasət" jurnalının idarə heyəti Prezident İlham Əliyevi "2004-cü ilin "dövlət adamı" elan etdi (4). Bir cəhətə xüsusi diqqət yetirmək lazımdır ki, artıq gərgin zəhmət hesabına BTC neft kəməri tam istifadəyə verildi və kəmərin açılış günü əldə olunan nailiyyətlərə aşağıdakı şəkildə yüksək qiymət verildi. "İyulun 13-ü (2006-cı il iyulda BTC neft kəmərinin açılışı oldu) Bakı-Tbilisi-Ceyhan Boru kəmərinin rəsmi açılışı H.Əliyevin neft strategiyasının təntənəsi, üç dəniz əfsanəsinin reallığa çevrildiyi gündür"(5). Bundan əlavə, 2007-ci ildə magistral qaz kəmərlərinin inşaasında da rekord nəticələr əldə edildi və hətta 2008-ci ildə bu sahə üzrə rekord miqyasda - 262 km uzunluğunda yeni xətlərin çəkilməsi nəzərdə tutuldu. (6) Göründüyü kimi, "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən bu uğurlu siyasət Azərbaycan neft məhsullarının daşınması sahəsində böyük dəyişikliklərə gətirib çıxardı. Bunu aşağıdakı rəqəmlərdən də aydın görmək mümkündür. Belə ki, 1994-cü ildə Azərbaycanda 9,6 milyon ton neft, 6 milyard kub metr qaz hasil olunmuşdursa və onun az bir hissəsinin xaricə ixracı nəzərdə tutulmuşdursa, artıq gələcəkdə bu rəqəm xeyli artırılaraq 60 milyon tona, qaz hasilatının isə 30 milyard kub metrə çatdırılması (7) və onun da xeyli hissəsinin xaricə ixrac olunması nəzərdə tutulmuşdur.

Beləliklə, bəhs olunan dövrdə əldə olunan bütün bu nailiyyətlər, həyata keçirilən layihələr neft strategiyasının mühüm tərkib hissəsini təşkil etmiş, bütövlükdə hal-hazırkı dövrdə neft sənayesinin bütün sahələrinin dinamik inkişafını yenə də təmin edir və gələcəkdə bu istiqamətdə həyata keçiriləcək digər mühüm layihələrin reallaşdırılmasında,

respublikamızın iqtisadi baxımdan daha qüdrətli dövlətə çevrilməsində öz əhəmiyyətli təsirini yenə də göstərəcəkdir.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ NEFT-KİMYA MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYA PROSESLƏRİNİN TƏŞKİLİ

***Əmiraslanova D.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

Bazar iqtisadiyyatı yolunu seçmiş müstəqil Azərbaycan Respublikası öz məqsədinə doğru inamla irəliləməkdədir. Artıq iyirmi ildir ki, Azərbaycan öz müstəqil həyatını yaşayır və dünya iqtisadi inteqrasiya proseslərində öz layiqli yerini tutmağa cəhd göstərir. Hal-hazırda dünyanın 150-dən çox ölkəsi ilə iqtisadi əlaqələr qurulmuşdur ki, bu da müntəzəm olaraq möhkəmləndirilir. Azərbaycannın xarici-iqtisadi siyasətində ən mühüm yer tutan amillərdən biri də dünya standartlarına cavab verə bilən yeniliklərin və yeni texnologiyaların Azərbaycan iqtisadiyyatına cəlb edilməsi və onlardan tam sərbəst istifadə olunmasının təmin edilməsidir. Məhz bu baxımdan qlobal iqtisadi problemlərin həllində müstəsna yeri və rolu olan kiçik və orta biznesin təşkili, yeniliklərin yaradılması və tətbiqi, özəl sektorun gücləndirilməsi və bu proseslərin aparıcı qüvvəsi olan sahibkarlığın genişləndirilməsi diqqət mərkəzindədir.

Məlumdur ki, müasir innovasiya prosesləri kifayət qədər mürəkkəb və çoxcəhətlidir. İnnovasiya prosesi dövrü xarakterli olduğu üçün onun hər bir mərhələsi, hər bir diffuziyası ayrılıqda təhlil edilməli və qiymətləndirilməlidir.

Bazar iqtisadiyyatına xas olan əsas xüsusiyyətlərdən biri, sözsüz ki, müəssisələrin və firmaların sərbəst fəaliyyət göstərmələri və zəruri rəqabət aparmalarıdır. Hər bir müəssisə öz fəaliyyətini davam etdirmək üçün məcburi olaraq rəqabətə dözümlü məhsullar istehsal etməli və bazarı öz əlində saxlamağı bacarmalıdır. Məhz bu səbəbdən də əmtəələri təzələmək, yeni-yeni məhsul növləri yaratmaq, mövsümə və dəbə uyğun mallarla bazara çıxmaq kimi tələbatlar hər bir müəssisəyə müstəqil innovasiya siyasəti hazırlamaq və həyata keçirməyi zəruri edir.

İqtisadi ədəbiyyatda innovasiya anlayışı elmi-texniki tərəqqi potensialının real məhsula və ya texnologiyaya çevrilməsi kimi başa düşülür. Lakin bu anlayış birtərəflidir. İnnovasiya anlayışının iqtisadiyyatla bağlı xüsusiyyətləri qeyd olunmaqla, bir sıra fəaliyyət sahələrini əhatə edir. İnnovasiya elə bir prosesdir ki, burada hər-hansı bir ideya və ya ixtira iqtisadi məzmun kəsb edir. Bəzi alimələrin fikrincə, innovasiya texniki istehsalat və kommersiya tədbirlərinin məcmusudur. Bu isə o deməkdir ki, texniki istehsalat və kommersiya fəaliyyəti nəticəsində bazarda yeni məhsul və ya daha səmərəli avadanlıq və texnologiya peyda olur. Digər alimlərin fikrincə, innovasiya ictimai, texniki, iqtisadi prosesdir. Bu halda isə innovasiya əlavə gəlir götürmək məqsədilə ictimaiyyətə yeni məhsulların, avadanlığın və texnologiyanın cəmiyyətə təqdim olunması kimi başa düşülür. İnnovasiyanın digər xüsusiyyətlərini nəzərə almaqla demək olar ki, innovasiya yeniliyə doğru dəyişilmə funksiyasıdır.

Beynəlxalq standartlara görə innovasiya, innovasiya prosesinin son nəticəsi hesab olunur. Bu isə o deməkdir ki, innovasiya prosesi nəticəsində yeni və ya təkmilləşmiş məhsul, yeni texnologiya əldə edilmiş və praktiki tətbiq üçün təklif olunmuşdur (yaxud bazara çıxarılır). İnnovasiya prosesi dedikdə, yeni məhsulun yaranması, mənimsənilməsi və paylanması (realizə olunması) başa düşülür.

İnnovasiyanın ən vacib amili hər-hansı bir məhsulun, yaxud texnikanın elmi-texniki yenilik adı alması və istehsal üçün layiqli olmasıdır. İnnovasiya üçün ən zəruri amillər aşağıdakılardır:

1. Elmi texniki yenilik olması;
2. İstehsal üçün qəbul olunma imkanlarının olması;
3. Satıla bilməsi.

İnnovasiya proseslərinin və innovasiya fəaliyyətinin idarə olunması üçün innovasiya prinsiplərinin, metodlarının və formalarının tətbiq olunması labüddür.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi islahatları başa çatdırmaq və bazar münasibətlərinin sərbəst formalaşmasına şərait yaratmaq indki zamanda dövlətin ən vacib vəzifələrindən biridir. Müasir dünyamızda iqtisadi inteqrasiya proseslərinin günbəgün genişlənməsi və böyük vüsətlə yayılması Azərbaycan iqtisadiyyatının nəinki gücləndirilməsini, hətta dünya standartları səviyyəsinə çatdırılmasını zəruri edir.

Hal-hazırda yüksək inkişaf mərhələsində olan qabaqcıl dövlətlərdə və onların təmsilçiləri olan iri korporasiyalarda, transmilli şirkətlərdə ən müasir texnika və texnologiyalar yaradılır və istehsalata tətbiq edilir. Bu yenilikləri və yeni texnologiyaları almaq, onları mənimsəmək dünya standartlarına cavab verə biləcək məhsullar hazırlanması deməkdir və bu baxımdan da dövlət səviyyəsində innovasiya proqramlarının hazırlanması və həyata keçirilməsi zəruri hal kimi ortaya çıxır. Neft-kimya müəssisələrində innovasiya prosesinin təşkili üçün aşağıdakıların həyata keçirilməsi vacibdir:

1. Qabaqcıl ölkələrin və transmilli korporasiyaların innovasiya siyasətləri hərtərəfli öyrənilməli, onların təcrübləri mənimsənilməli və yerli şəraitə uyğunlaşdırılaraq müəssisə və təsərrüfatlarda tətbiq edilməlidir.

2. Neft-kimya müəssisələrində innovasiya tədbirlərinə hər cür imkan və şərait yaradılmalı, onların hüquqi təminatları təsbit olunmalıdır.

3. Müəssisələrin innovasiya strategiyaları formalaşdırılarkən ümumdövlət mənafeyi nəzərə alınmalı və onların hər biri ümumi strategiyanın tərkib hissəsinə çevrilməlidir.

4. İnnovasiya proseslərinin gücləndirilməsi üçün müştərək müəssisələrin təşkilindən istifadə olunması məqsədəuyğundur. Belə olduqda, xarici avadanlıqların və texnologiyaların cəlb edilməsilə yanaşı, xarici idarəetmə təcrübəsi də yenilik kimi mənimsənilməlidir.

## HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINDA NEFT STRATEGİYASININ BANİSİDİR

***Fərzəliyev Y.B.***

*Azərbaycan Dövlət İqtisad Universiteti*

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasda səs çoxluğu ilə Respublikanın prezidenti seçdi. Heydər Əliyev prezident kimi Azərbaycan Respublikasının müstəqilliyini qorumağa, demokratiyanı inkişaf etdirməyə, ölkəni bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməyə, respublikanın ərazi bütövlüyünü bərpa etməyə and içdi. Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafında neft sənayesinin dirçəldilməsi, onun müasir qərb texnologiyaları əsasında yenidən qurulması olduqca vacib idi. Məhz bu sahəyə Heydər Əliyev xüsusi diqqət və həssaslıqla yanaşırdı. Bu dövrdə Rusiya Federasiyası Azərbaycan Respublikasnın Xəzər dənizində xarici şirkətlərlə neft hasilatına dair müqavilə imzalamasına yol vermək istəmirdi. Xəzərin Azərbaycan

sektorunda neft yataqlarının xarici neft şirkətləri ilə birlikdə işlədilməsinə dair müqavilə imzalanması ərəfəsində Moskva Azərbaycanın iqtisadi maraqlarının dənizin yalnız 12 millik zonası ilə məhdudlaşacağını bildirdi. Bu isə Azərbaycan Resbublikasının öz sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" neft yataqları üzərində öz nəzarətini itirməsi demək idi.

Ancaq İngiltərənin energetika naziri Tim Eqqar Bakıya gəlib prezident Heydər Əliyevlə, XİN-nin və ARDNŞ-nin rəhbərliyi ilə apardığı danışıqlardan sonra "RF XİN-nin notasına əhəmiyyət verməmək" və əməkdaşlığın davam etdirilməsi haqqında qərar qəbul etdilər.

Heydər Əliyevin uğurlu və uzaqgörən siyasəti öz bəhrəsini verdi və Azərbaycan neft sənayesində yeni eranın başlanğıcı qoyuldu.

İngiltərə, ABŞ, Türkiyə, Rusiya Federasiyası və başqa ölkələrin neft şirkətləri ilə aparılan intensiv danışıqlar öz nəticəsini verdi.

1994-cü il sentyabrın 20-də Bakının Gülüstan sarayında "Əsrin müqaviləsi" – Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ilə ABŞ, İngiltərə, Rusiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanının iri neft şirkətləri ("Amoko", "Penzoyl", "Yunokal", "Eksn", "Remko", "MakDemott", "Lukoyl", Petroleum", "Stat-Oyl", "Türkiyə Petrolleri AO", "Delta" arasında 30 il müddətinə müqavilə imzalandı.

Müqavilənin şərtlərinə görə 30 il ərzində Xəzər dənizinin "Günəşli", "Şıraq", "Azəri" nft yataqlarından 511 milyon ton neft çıxarılması, bunun həyata keçirilməsi üçün 7,4 milyard dollar sərmayə qoyulması nəzərdə tuttulurdu.

Razılığa görə investisiyanın 80%-ni konsorsium qoyur. Azərbaycanın ümumi gəliri çıxarılacaq neft qiymətinin 80% miqdarında müəyyən olunurdu.

Bundan əlavə çıxarılacaq səmt qazı da Azərbaycanın ixtiyarına verilirdi.

1994-cü ilin dekabrın 12-də "Əsrin müqaviləsi" Milli Məclis tərəfindən radifikasiya olunduqdan sonra prezident Heydər Əliyevin fərmanı ilə qüvvəyə mindi. 1995-ci il noyabrın 10-da Xəzərin yeni aşkar olunmuş "Qarabağ" strukturunda kəşfiyyat işləri aparılması, yatağın işlədilməsi və çıxarılan neftin bölüşdürülməsi haqqında Rusiya, İtaliya, ABŞ şirkətləri ilə yeni saziş imzalandı. Müqavilədən əldə edilən gəlirin 65-80 faizinin Azərbaycana çatacağı müəyyən edildi. 1996-cı il iyunun 4-də ARDNŞ ilə İngiltərə, Norveç, Türkiyə, Fransa, Rusiya və İranın neft şirkətləri arasında "Şahdəniz" yatağının birgə işlədilməsi haqqında 30 il müddətinə, dekabrın 14-də Xəzərin Azərbaycan hissəsindəki "Dan Ulduzu" və "Əşrəfi" neft strukturlarının birgə işlədilməsi haqqında ABŞ-ın "Amoko", "Yunokal", Yaponiyanın "İtoçu" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri ilə müqavilələr imzalandı.

Avqustun 1-də isə Vaşinqtonda, Ağ evdə ABŞ-ın "Şevron", "Ekson", "Mobil" və "Amoko" şirkətləri ilə ARDNŞ arasında Xəzər dənizinin Azərbaycan hissəsindəki "Abşeron", "Naxçıvan", "Oğuz" və "İnam" neft yataqlarında birgə iş haqqında 8 milyard dollar dəyərində 3 müqavilə imzalandı.

Ümumiyyətlə 1994-2000-ci illərdə dünyanın 14 ölkəsinin 32 neft şirkəti ilə 21 müqavilə bağlandı. Bu şirkətlərə xidmət göstərən 400-ə qədər xarici şirkətlə işbirliyi

yaradıldı. Bu müqavilələrdə Azərbaycana 60 milyard dollar sərmayə yatırılması nəzərdə tutulurdu. 2000-ci ilədək artıq 6 milyard dollar xarıcı investisiya qoyulmuşdu.

Dənizin çox dərin yerlərində neft quyuları qazmağa imkanverən "Qurtuluş" adlı ən müasir çoxfunksiyalı qazma qurğusu yaradıldı. Dənizdə "Çıraq-1" platforması beynəlxalq standartlara uyğun, Qərb texnologiyası əsasında yenidən quruldu. Bu platformadan sahilədək 120 metr dərinliyində 176 km uzunluğunda neft, Neft Daşlarına 48km qaz kəməri çəkildi, Səngəçal terminalı tikildi.

1996-cı ildən dənizdə ABƏŞ–in qazdığı neft quyusu fontan vurdu və yataqların böyük ehtiyatları bir daha təsdiq olundu.

1997-ci il noyabrın 12-də çox mühüm hadisə baş verdi. Belə ki, "Əsrin müqaviləsi" üzrə ilkin neftin hasilatına başlandı.

Bununla əlaqədar təşkil olunmuş mərasimdə çıxış edən prezident H.Əliyev xalqımızı təbrik edərək demişdir: "1994-cü ilin sentyabrında biz ilk böyük neft müqaviləsini imzalayararkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir . Bizim bu gün gördüyümuz işlər XXI əsr, gələcək üçün görülən işlərdir."

1999-cu il noyabrın 18-də İstanbulda "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları əraziləri ilə "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzalandı. İldə 50 milyon ton neft nəql edə biləcək 1730 km-lik Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi üçün 2002-ci il avqustun 1-də şirkət təsis edildi. Sentyabrın 18-də kəmərin təməli qoyuldu.

3 milyard dollara qədər dəyəri olan bu kəmərin sahibi Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) (25%), Böyük Britaniyanın BP (30, 1%), ABŞ-ın "Yunokal" (8,9), "Konoko-Filips" (2,5), Norveçin "Statoyl" (8,72%), Türkiyənin TPAO (6,53%), Yaponiyanın "İtoçu" (3,%) və "İnpeks" (2,5%), Səudiyyə Ərəbistanının "Delta" (2,36%), İtaliyanın EPİ (5%) vəFransanın "Total Elna Elf" (5%) şirkətləri idi.

Bütün bunlar Heydər Əliyev tərəfindən işlənib hazırlanan və həyata keçirilən neft strategiyasının təntənəsi idi.

## MÜASİR DÖVRDƏ XƏRCLƏRİN İQTİSADİ MAHİYYƏTİNƏ YANAŞMALAR

***Hacıbəyova S.C.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Azərbaycan siyasi mustəqillik əldə etdikdən sonra qarşıda duran başlıca vəzifələr ölkə iqtisadiyyatına xarici investisiyaları cəlb etmək, iqtisadi islahatları həyata keçirmək, idarəetmə mexanizmini kökündən dəyişdirərək onu müasir biznesin tələblərinə uyğunlaşdırmaq olmuşdur. Ümummilli lider H.Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi ilə həmin məsələlər ardıcıl və sistemli şəkildə öz həllini tapmağa başladı.

Biznesin dili hesab olunan uçot sisteminin yenidən qurulması, onun beynəlxalq praktikaya və standartlara uyğunlaşdırılması sahəsində də mükəmməl normativ hüquqi baza yarandı. Uçot və hesabatın, o cümlədən xərclərin uçotu və hesabatının nəzəri-metodoloji baxımdan dünya standartları səviyyəsində qurulmasının sübutu kimi kommersiya təşkilatları

üçün 37 Milli Mühasibat Uçotu Standartlarının işlənib hazırlanmasını və tətbiqini misal göstərmək olar.

Məhsul və malların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi müəyyən resursların istifadəsi əsasında baş verir. Resursların istifadəsi əslində xərclərin baş verdiyini göstərir, xərclərin nəticəsi kimi isə gəlirlər formalaşır, yaxud iqtisadi fayda əldə edilir. Xərclərlə gəlirlərin müqayisəsi nəticəsində yeni iqtisadi kateqoriyalar – "mənfəət" yaxud "zərər" yaranır. Beləliklə, fəaliyyət prosesində iqtisadi resursların (aktivlərin) iqtifadəsi bir-biri ilə üzvi şəkildə əlaqəli olan aşağıdakı iqtisadi kateqoriyaların formalaşmasına səbəb olur: xərclər, gəlirlər, mənfəət və zərər. Mənfəət və zərərlər maliyyə nəticələrini xarakterizə edən kəmiyyətlərdir.

Araşdırmalar göstərir ki, iqtisadi nəzəriyyədə, uçot, xüsusilə də, maliyyə uçotu sistemində həmin kateqoriyaların, (anlayışların) vahid traktovkası, demək olar ki, yoxdur, nəticədə, makro və mikro səviyyələrdə bir çox eyni adlı göstəricilərin real kəmiyyəti müxtəlif metodoloji yanaşmalar əsasında hesablanır və təhlil olunur.

İqtisadi nəzəriyyədə xərclərin mahiyyəti və məzmunu, əsasən, istehsal faktorlarının (iqtisadi resursların) kəmiyyətinə və quruluşuna müncər edilir, halbuki, öz-özlüyündə iqtisadi resurslar, yaxud istehsal faktorları hələ xərc demək deyildir. Yalnız istifadə prosesində onlar xərcə çevrilir.

İqtisadi nəzəriyyə araşdırma və təhlil obyekti olan xərclər kommersiya şirkətlərinin (subyektlərinin) maliyyə uçotu və hesabatı çərçivəsində informasiya formalaşdırmaq obyekti deyildir. Bəzən eyni anlayışlar iqtisadi nəzəriyyədə bir cür, mühasibat uçotu və hesabatında isə başqa cür traktovka olunur.

Qeyri-uçot ədəbiyyatlarında xərclərin bir çox növü mücərrəd iqtisadi kateqoriya kimi təhlil və interpretasiya edilir, halbuki biznes sferasında və, deməli, uçot sistemində onun real kəmiyyətinin müəyyən edilməsi zəruridir və qaçılmazdır. Çünki gəlirlər və xərclər uyğunlaşdırılmalı və müqayisə olunmalıdır. Əks halda heç bir taktiki və strateji qərar qəbul etmək mümkün deyildir.

Hər bir iqtisadi kateqoriyanın tərifi, onun kəmiyyətini dəqiq müəyyən etməyə, tərkib elementlərini təhlil etməyə, onun barəsində relevant informasiya formalaşdırmaq üçün müvafiq uçot-hesabat sistemi yaratmağa imkan verməlidir. Bu baxımdan xərclər və digər iqtisadi kateqoriyalar (gəlirlər, maliyyə nəticələri və s.) mahiyyətinin açıqlanmasında iqtisadi nəzəriyyə ilə mühasbat (maliyyə) uçotu arasında qarşılıqlı "yaxınlaşmaya", yaxud unifikasiyaya ehtiyac vardır.

Uçot və hesabat üzrə normativ-hüquqi sənədlərdə, elmi ədəbiyyatlarda, dərsliklərdə xərclər kifayət qədər araşdırılsa da, onların mahiyyəti ya ümumiyyətlə açıqlanmır, ya da tam açıqlanmır.

Maliyyə uçotu və hesabatına dair normativ sənədlərdə xərclər aktivlərin səhmdarlar arasında kapitalın bölüşdürülməsi ilə əlaqədar olmayan, azalmasına gətirib çıxaran kənara axını və ya azalması, yaxud öhdəliklərin artması şəklində iqtisadi faydaların kənara axını kimi qəbul və təsbit edilmişdir.

Xərclərin mahiyyətinə bu cür yanaşma nəzəri-metodoloji və praktiki nöqteyi-nəzərdən məqbul sayıla bilməz.

Birincisi, xərclər yalnız aktivlərin azalmasına, kənara axınına, yaxud öhdəliklərin artmasına səbəb olan kəmiyyət deyildir. Aktivin, yaxud iqtisadi resursun sərf edilməsinin nəticəsi kimi meydana çıxan xərclər özlüyündə yeni aktivin, yaxud iqtisadi resursun yaranmasına səbəb olur. Məsələn: əgər müəssisə 1000 manat pul vəsaitinə 1000 manatlıq material əldə etmişsə, onda pul vəsaiti olan aktivin sərf olunması xərc kimi qəbul edilməli və eyni zamanda həmin xərcin yaratmış olduğu material resursları yeni aktivin əldə olunduğuna dəlalət edir. Beləliklə, biz bir növ aktivin xərcə çevrilərək digər aktiv yaratdığını görürük.

İkincisi, materialın əldə olunması xərclərin son məqsədi deyildir, xərclərin çəkilməsində son məqsəd – gəlir əldə etməkdir. Məhz bu cəhət tərifdə nəzərə alınmamışdır. Bir çox hallarda maliyyə uçotu ilə idarəetmə uçotu çərçivəsində xərclərə fərqli təriflər verilir. Bu da onunla izah olunur ki, maliyyə uçotunun xərclər barədə formalaşdırdığı informasiya operativ, taktiki və strateji qərarların qəbul edilməsi üçün kifayət etmir.

Zənnimizcə, xərclərin idarəetmə uçotunda bir mahiyyət və kəmiyyət, maliyyə uçotunda isə fərqli mahiyyət və kəmiyyət olduğunu demək düzgün olmazdı. Burada söhbət yalnız xərclər barədə informasiyanın hansı məqsədlər üçün formalaşdırılmasından gedə bilər. Belə ki, maliyyə uçotu sistemində xərclər əsas və əlavə xərclərə bölgüsü əsasında təsnifləndirilirsə, idarəetmə uçotu sistemində xərclərin daha geniş spektrdə və müxtəlif əlamətlər üzrə təsnifləndirilməsi aparılır. Məzmunu, tərkibi və kəmiyyəti etibarilə eyni olan xərclər idarəetmə uçotu və maliyyə uçotu çərçivəsində müxtəlif əlamətlər, metodlar üzrə uçota alınsa da, onların başlıca məqsədi gəlir, yaxud iqtisadi fayda əldə etməkdir.

Bəzi müəlliflər xərcləri məhsulun, iş və xidmətlərin maya dəyərini yaradan məsrəflər kimi qəbul edilir. Əlbəttə, məhsulun, iş və xidmətin maya dəyəri xərclərin əsasında formalaşır. Ancaq mövcud beynəlxalq və və milli standartlar, habelə vergi qanunvericiliyi bütün xərclərin hamısını maya dəyərinə daxil etməyə icazə vermir. Bu baxımdan aydındır ki, "xərclər" kateqoriyası, "maya dəyəri" kateqoriyasından daha geniş anlayışdır.

Deyilənləri nəzərə almaqla biz uçot sistemində xərclərə aşağıdakı kimi tərif verməyi məqsədəuyğun hesab edirik. Xərclər müəyyən gəlir, yaxud iqtisadi fayda götürmək məqsədilə müəssisə tərəfindən məhsulun, malların istehsalı, xidmətlərin göstərilməsi və satışı prosesində istifadə olunmuş maddi, qeyri-maddi, əmək və maliyyə resurslarının dəyəridir.

**KOMMERSİYA TƏŞKİLATLARINDA TORPAQ, TİKİLİ VƏ AVADANLIQLARIN UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ**

***Hacıyev F.Ş.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Hazırda region ölkələrində müşahidə edilən iqtisadi problemlər, yaxın şərqdə gərginliyin artması, dünya iqtisadiyyatında böyük çəkisi olan Çin iqtisadiyyatının artım tempinin enməsi, Avropada borc problemi əksər ölkələrin iqtisadiyyatına bu və ya digər dərəcədə mənfi təsir göstərmişdir. Lakin buna baxmayaraq, ölkəmizdə aparılan sosial-iqtisadi islahatların nəticəsində 2015-ci ildə ümumi daxili məhsul 54,4 milyard manat olmuşdur. Iqtisadiyyat 1,1%, sənaye istehsalı 2,4%, qeyri neft sənayesi isə 8,4% artmışdır. Buna baxmayaraq, milli iqtisadiyyat üzrə hələ də istifadə olunmamış imkanlar mövcuddur. Bunlar Mühasibat uçotunun qarşısında bu imkanların standartlara uyğun uçota alınması üçün təxirəsalınmaz vəzifələr qoyur.

Bu baxımdan kommersiya təşkilatlarında dövriyyədən kənar maddi aktivlər olaraq torpaq, tikili və avadanlıqların vaxtlı-vaxtında uçotunun aparılması və onların beynəlxalq standartlara uyğunlaşdırılması günün vacib məsələlərindən biridir.

Məlumdur ki, Maliyyə Nazirliyinin 2009-cu il 13 yanvar tarixli İ-08 nömrəli əmri ilə təsdiq edilmiş kommersiya təşkilatları üçün "Torpaq, tikili və avadanlıqlar üzrə" 7№-li Milli Mühasibat Uçotu Standartlarının (MMUS) əsas məqsədi təşkilatda torpaq, tikili və avadanlıqlara qoyulan invistisiyalar maliyyə hesabatları istifadəçiləri tərəfindən başa düşülən olması üçün torpaq, tikili və avadanlıqlar üzrə uçot qaydalarını müəyyən edilməsindən ibarətdir. Bu standartlara uyğun olaraq kommersiya təşkilatlarında torpaq, tikili və avadanlıqların təsnifləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Umumiyətlə kommersiya təşkilatlarında Mühasibat Uçotu Standartlarının tətbiq edilməsi təşkilatın aktiv və passivlərinin yeni qaydalarla təsnifləşdirilməsi vacib amillərdən biridir. Bu təsnifatda torpaq, tikili və avadanlıqlar aşağıdakı mühasibat hesabatlarında uçota alınır.

111. Torpaq, tikili və avadanlıqlar – Dəyər
112. Topraq, tikili və avadanlıqlar – Amortizasiya
113. Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması

Milli ölkə iqtisadiyyatının rəqabətin güclənməsinə, texnoloji dəyişikliklərə, iqtisadi informasiyanın avtomatlaşdırılmasına, vergi qanunvericiliyində edilən yeniliklərə, gündən günə formalaşan qiymətli kağızlar bazarına, dəyişən faiz dərəcələrinə və üzən məzənnəyə uyğun inkişaf etməsi hər şeydən öncə torpaq, tikili və avadanlıqların düzgün qiymətləndirilməsindən asılıdır.

Kommersiya təşkilatlarında 7№-li Milli Mühasibat Uçotu Standartlarının 18-ci maddəsinə müvafiq olaraq torpaq, tikili və avadanlıqların ilkin dəyərinin qiymətləndirilməsində nəzərə alınır:

- alış qiymətləri;
- aktivlərin lazımi istismar yerindən gətirilməsinə çəkilən birbaşa məsrəflər;
- ərazinin hazırlanması üzrə məsrəflər;

- obyektlərin alınması zamanı çəkilən məsrəflərin ilkin smeta həcmi;
- çatdırılma və boşaldılma məsrəfləri;
- quraşdırma və montaj məsrəfləri;
- torpaq, tikili və avadanlıqların yoxlanılması məqsədilə sınaq məsrəfləri;
- mühəndislərə və digər peşə xidmətlərinə görə verilən mükafatlar;
- aktivlərin alışı ilə əlaqədar olaraq vasitəçilərə ödənilmiş mükafatlar;

Hazırda mühasibat balansının 11-ci maddəsi "Torpaq, tikili və avadanlıqlar" adlanır. Bu maddəyə təşkilatın maddi və fiziki formaya malik olan aktivləri daxildir. Bu aktivlərdən bazar iqtisadiyyatının tələblərinə uyğun səmərəli istifadə edilməsi gələcəkdə iqtisadiyyatın yüksəlməsinə tamamilə şərait yaradır. Buna görə də kommersiya təşkilatlarında torpaq, tikili və avadanlıqların tərkibinin və quruluşunun öyrənilməsi çox əhəmiyyətlidir.

Kommersiya təşkilatlarında torpaq, tikili və avadanlıqlaraın tərkibinə daxildir :

- qurgular;
- ötürücü qurğular ;
- maşın və avadanlıqlar;
- nəqliyyat vəsaitləri ;
- alətlər;
- istehsal inventarları və ləvazimatları;
- təsərrüfat inventaları;
- sair vəsaitlər;

Bütün bunlar kommersiya təşkilatlarında topaq, tikili və avadanlıqların uçotunun mövcud standartlara uyğun həyata keçirilməsini təmin etməkdən ibarətdir.

## AQRAR İXRAC MƏHSULLARININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Hacıyeva Z.E.***
*Sumqayıt Dövlət Universiteti*

Müasir şəraitdə Azərbaycan Respublikasında aqrar ixrac potensialının inkişafının əsas istiqamətlərindən biri xarici bazarlara çıxarılan kənd təsərrüfatı məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsidir. Bu istiqamət üzrə zəruri tədbirlərin həyata keçirilməsi ölkənin təbii - iqlim şəraiti və digər amillərlə bağlı ərzaq və kənd təsərrüfatı xammalı istehsalında malik olduğu rəqabət üstünlüklərinin dolğun reallaşdırılmasına və tamamlanmasına yönəldilmiş olur. Beynəlxalq bazarlarda nəzərə çarpan güclü rəqabət şəraitində aqrar ixracın həcminin artırılması məhsul istehsalına xərclərin nisbətən aşağı səviyyəsinin, yüksək keyfiyyət göstəricilərinin və ekoloji cəhətdən təhlükəsizliyin təmin edilməsi əsasında mümkün olur. Ölkəmizdə aqrar-sənaye kompleksi sisteminin emal olunmamış halda ixrac olunan məhsullarının müvafiq xarici bazarlarda qiymət rəqabətinə davamlılığını təmin edən əsas amil həmin məhsulların ucuz işçi qüvvəsi ilə istehsalıdır. İşçi qüvvəsinin ucuzluğuna əsaslanmaqla ixrac olunan kənd təsərrüfatı məhsullarının xarici

bazarlarda rəqabət qabiliyyətinin təmin edilməsi üçün məhsuldarlığın yüksəldilməsi amilinin rolu artacaqdır.

Son on il ərzində Azərbaycan Respublikasında neft-qaz sektoru məhsullarının hasilatının genişmiqyaslı artımı və bu sahədən daxil olan valyuta gəlirlərinin çoxaldılması ilə əlaqədar dövlət maliyyə imkanlarının genişlənməsi öz növbəsində kənd təsərrüfatı istehsalçılarının xərclərinə kömək siyasətinin həyata keçirilməsinə şərait yaradılmışdır. Bu imkanlardan səmərəli istifadə edilməsi kənd təsərrüfatında istehsalın ümumi iqtisadi şəraitini yaxşılaşdırmış, ixrac məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsinə də səbəb olmuşdur.

Kənd təsərrüfatı istehsalçılarının xərclərinə kömək tədbirlərinin mərhələlərlə, dövlətin maliyyə imkanlarının genişlənməsi miqyaslarına müvafiq qaydada, həmçinin prioritet istiqamətlərin düzgün müəyyən edilməsi əsasında həyata keçirilməsi məqsədəuyğundur. Aqrar ixrac məhsullarının rəqabətqabiliyyətliliyinin təmin edilməsində keyfiyyət amili yüksək aktuallığa malikdir. Çünki ölkəmizdə istehsal olunub, emal edilməmiş halda ixrac olunan məhsullar bir qayda olaraq özlərinin dad və qidalılıq, ekoloji təmizlik göstəricilərinə görə digər ölkələrin müvafiq məhsullarından geri qalmırlar, əksinə, daha üstün parametrlərə malikdirlər.

Emal edilməmiş halda ixrac olunan kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyinin təmin edilməsi sahəsində göstərilən istiqamətdə həll edilməli olan əsas problem həmin məhsulların qablaşdırılması və saxlanılmasının beynəlxalq bazarların çağdaş tələblərinə uyğun həyata keçirilməsidir.

Müasir şəraitdə Azərbaycan Respublikasından emal edilmiş halda ixrac edilən aqrar - sənaye məhsullarının əhəmiyyətli hissəsinin keyfiyyət göstəricilərinə görə xarici bazarlarda rəqabət mübarizəsinə davam gətirə bilməsi əsas şərtdir. Keyfiyyət parametrləri baxımından rəqabətqabiliyyətliliyinin təmin edilməsinin əsas amili isə emal sferasında mütərəqqi texnologiyaların tətbiq edilməsidir.

Əsaslı islahatlardan sonrakı dövrdə ölkəmizdə, kənd təsərrüfat məhsullarının emalı sferasında, o cümlədən ixracyönümlü məhsullar istehsal edən sahələrdə müasir texnologiyaların tətbiqinə əsaslanan yeni istehsal gücləri istifadəyə verilmişdir. Müasir texnologiyaların tətbiq edilməsi, müvafiq sahələrdə məhsulların beynəlxalq bazarların tələblərinə uyğun hazırlanması və onların ixracının genişləndirilməsinə imkan yaratmışdır. Aqrar-ixrac məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə əlverişli iqtisadi və təşkilati şərait yaratmaq məqsədilə həmin məhsulların emal sferasına səmərəli investorların cəlb edilməsi məqsədəuyğundur. Dünya təcrübəsini nəzərə alaraq, emal vəsiləsində fəaliyyət göstərən təsərrüfat subyektləri müvafiq istehsalçıların təsirli şəkildə stimullaşdırılması, sahəyə zəruri investisiya qoyuluşunun həyata keçirilməsi, qabaqcıl texnologiyaların tətbiq edilməsi kimi problemlərin həllini təmin etməlidirlər. Odur ki, aqrar-sənaye sektoru məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsinə zəruri təminatların yaradılmasının əsas şərtlərindən biri kimi kənd təsərrüfatı xammalının emalı sənayesində investisiya siyasəti təkmilləşdirilməlidir. Bütövlükdə yuxarıda qeyd edilən bu və ya digər tədbirlərin görülməsi aqrar ixrac məhsullarının beynəlxalq bazarlarda rəqabətqabiliyyətliliyinin təmin edilməsində mühüm rol oynaya bilər.

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN RESPUBLİKASININ TURİZM ƏLAQƏLƏRİ

***Həsənov Y.L.***
*Sumqayıt Dövlət Universiteti*

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası öz inkişafının yeni dövrünə qədəm qoydu. Respublikanın iqtisadi, siyasi, hərbi, elmi, mədəni və s. sahələrdə əlaqələri ilə yanaşı, turizm sahəsində də əlaqələri genişləndi.

Turizm sahəsində iri layihələrin həyata keçirilməsi, Azərbaycan Respublikasının turizm potensialını dünyaya tanıtdırmağa başlaması ölkənin bu sahədə aktiv siyasətinin nəticəsi idi. Bununla belə, turizm təsərrüfatında həlli vacib olan problemlər çoxdur. Sosial infrastrukturun zəif inkişafı, əhalinin sosial-iqtisadi durumunun aşağı olması, turizm müəssisələrinin zəif reklamı (bu sektorla bağlı reklamların 90%-i xarici, yəni passiv turizmə aiddir), passiv turizmin üstünlüyü, xidmətlə qiymətlərin uyğunsuzluğu, turist obyektlərində ekoloji tarazılığın qorunmaması (ağacların qırılması, çirkab suların dənizə axıdılması və s.) bu qəbildən olan problemlərdəndir.

Xidmətlə qiymətlərin uyğunsuzluğu ölkəyə turist axınının qarşısını alan əsas maneələrdən biridir. Hazırda qiymətlərin xidmətə uyğunlaşdırılması və dünya standartları ilə eyniləşdirilmək yönümündə dövlət səviyyəsində iş aparılır.

Turizm təsərrüfatından maksimum istifadə prezidentlər H.Ə.Əliyev və İ.H.Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. İkitərəfli və çoxtərəfli müxtəlif yığıncaqlar, keçirdiyi görüşlər zamanı Azərbaycanın turizm potensialından çox böyük inamla danışan ölkə başçısı xarici investisiyanı bu sahəyə cəlb etməkdədir.

Qısa müddət ərzində turizmin mövcud bazasının bərpası, təkmilləşdirilməsi, habelə həmin bazanın çağdaş beynəlxalq standartlar səviyyəsində yenidən qurulması istiqamətində xeyli iş görülmüşdür.

Dünyanın, demək olar ki, əksər bölgələri, o cümlədən Avropa, Asiya və Amerika ölkələri ilə qısa müddət ərzində geniş turizm əlaqələri qurulmuş, müxtəlif regional, qitə və dünya forumlarında ciddi uğurlar qazanmış, beynəlxalq turizmin zəngin gəlir mənbəyinə çevrilməsi yönündə mühüm tədbirlər görülmüşdü.

Azərbaycan Respublikası ilə dünya dövlətləri, o cümlədən beynəlxalq və regional turizm təşkilatları arasında turizm əlaqələri gündən-günə genişlənir, yeni miqyas alır, xarakter və formaları meydana gəlir. Aparılan işlərin sürət tempi göstərir ki, yaxın gələcəkdə Azərbaycan dünyanın ən inkişaf etmiş turizm-kurort ölkələrindən biri olacaqdır.

Bu gün inamla bildirməliyik ki, turizm sahəsində beynəlxalq əlaqələr lazımi səviyyədədir və bu əlaqələr yüksələn xətt üzrə inkişaf etdirilməkdədir.

Bütün deyilənlər, şübhəsiz ki, ölkəmizin rəhbərliyi tərəfindən H.Ə.Əliyevin siyasi xəttinin dönmədən və məqsədyönlü şəkildə həyata keçirilməsinin uğurlu nəticəsidir.

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ XƏZƏRSAHİLİ TƏSƏRRÜFATIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ (XIZI, ŞABRAN, SİYƏZƏN RAYONLARI TİMSALINDA)

***Hüseynova L.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Dünyanın müxtəlif ölkələrində olduğu kimi, Azərbaycanda da müstəqillik illərində təbiətdən səmərəli istifadə, təbii mühitin vəziyyətinə nəzarətin yaxşılaşdırılması, təbiətin mühafizənin təkmilləşdirilməsi üzrə geniş layihələr hazırlanmış və hal-hazırda bu istiqamətdə işlər aparılır. Ölkəmizdə ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair "Milli proqram" hazırlanmışdır. Proqramda ölkənin bazar iqtisadiyyatı şəraitində təbiətdən istifadənin nəzəri və praktiki məsələləri geniş şəkildə izah olunur və onun iqtisadi effektivliliyinin yüksəldilməsinin əsas yolları göstərilir. Bu baxımdan Xəzər dənizi sahillərində torpaqların transformasiyası və onların mənimsənilməsi perspektivlərinin tədqiqi (Şabran,Siyəzən, Xızı rayonları timsalında) də həmin proqramın tərkib hissəsidir. Xəzərsahili zolaqda torpağın təbii keyfiyyətinin bərpa edilməsi, çirkab sularının təmizlənməsi, çirkləndirilmiş torpaqların rekultivasiya edilməsi zəruri tədbirlərdəndir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram" ları qəbul edilmişdir. Dövlət Proqramlarının strateji məqsədi, ayrı-ayrı regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən mövcud potensialdan səmərəli istifadə etməklə bağlı dövlət siyasətinin əsas istiqamətlərinin yerinə yetirilməsini müəyyən etməkdir. Bu məqsədlə Taxtakörpü su anbarının istifadəsi ilə əlaqədar ətraf torpaqların tədqiq olunması və onlardan səmərəli istifadəsi məsələlərinə xüsusi önəm verilir.

Şabran, Siyəzən və Xızı rayonları Xəzərsahili düzən torpaqlarını əhatə edir. Bu torpaqlar Xəzər dənizinin terraslarında formalaşmış boz-qonur, boz-çəmən, çəmən-boz, allüvial-çəmən, qismən açıq şabalıdı (boz-qəhvəyi) torpaqlardan ibarət olub, intrazonal şəraitdə bataqlaşmaya, şoran və şorakətləşməyə, hətta takırlaşmaya məruz qalmışlar.

Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ildə "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində mühüm əhəmiyyət kəsb edən su elektrik stansiyası ilə birlikdə ümumi su tutumu 268 milyon kubmetr olan Taxtakörpü su anbarının, Taxtakörpü-Ceyranbatan və Vəlvələçay-Taxtakörpü kanallarının tikintisi müvəffəqiyyətlə başa çatdırılıb. "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sifarişi ilə Türkiyənin "Təməlsu" məsləhətçi şirkətinin hazırladığı, "Evrascon" ASC və "Körpü-Bina-Tikinti" MMC tərəfindən icra olunan layihələrə əsasən "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi zonasında yerləşən Şabran rayonunda 14 min 38 hektar, Siyəzən rayonunda 6 min 972 hektar, Xızı rayonunda isə 9 min 609 hektar olmaqla, cəmi 30 min 619 hektar yeni suvarılan torpaq sahələri müəyyən edilib.

"Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsinə daxil olan Xızı rayonu üzrə hazırlanan layihədə cəmi 12 min 579 hektar sahənin 9 min 609 hektarında meliorativ tədbirlər aparılmaqla, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 2 min 970 hektarında mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur.

Xızı rayonu üzrə yeni suvarılacaq torpaq sahələrinə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar daxildir. Su yeni inşa olunan Taxtakörpü-Ceyranbatan və Samur-Abşeron kanallarından götürüləcək. Layihədə ümumi uzunluğu 269,7 kilometr, o cümlədən 200,3 kilometr qapalı və 69,4 kilometr açıq suvarma şəbəkələrinin tikintisi nəzərdə tutulur. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə 1150 hektar sahədə kollektor-drenaj şəbəkəsi layihələndirilib.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ BANK SİSTEMİNİN BAZAR SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNDƏ ROLU

***Hüseynov Q.S., Mürsəlov T.V.***
*Sumqayıt Dövlət Universiteti*

Cəmiyyətin inkişafının müasir mərhələsində bankların və bank olmayan kredit təşkilatlarının rolu çox böyükdür. Banklar xüsusi bir qurumdur və iqtisadiyyatın inkişafında özünəməxsus yeri vardır. Bankların yaranması və inkişafı dünya cəmiyyətinin və dünya mədəniyyətinin inkişafı ilə bərabər getmişdir. Cəmiyyətin inkişafı tarixində belə bir fikir mövcuddur ki, bankların inkişaf səviyyəsi ilə cəmiyyətin sosial-iqtisadi inkişafı düz mütənasibdir. Hansı ölkədə bankların yüksək səviyyəsi müşahidə olunursa, orada sürətli iqtisadi inkişaf, yüksək mədəniyyət var. Məhz bankların tarixində də bu qanunauyğunluq özünü göstərir.

Banklar pul vəsaitlərinin toplanılması, kreditlərin verilməsi, pulla hesablaşmaların həyata keçirlməsi, dövriyyə üçün kredit vəsaitlərinin emissiyası, muxtəlif qiymətli kağızların buraxılması və.s funksiyaları yerinə yetirən xüsusi iqtisadi institutlardır. Banklar pul-kredit münasibətlərinin tənzimlənməsi yolu ilə məşğul olurlar.

Bank sistemi bazar iqtisadiyyatının ən vacib və ayrımaz tərkib hissəsidir. Bazar iqtisadiyyatı şəraitində banklar insandakı qan-damar sistemi qədər əhəmiyyətə malikdirlər. Bununla əlaqədar pul dövriyyəsində və onun hərəkətində hər hansı zəiflik və dayanma cəmiyyətin iflic vəziyyətinə gətirib çıxara bilər. Buna görə də bu sistem elə qurulmalıdir ki, iqtisadiyyatın bütün sahələrində maliyyə və natural məhsul axınını təmin etsin, onların tarazlığına şərait yaratsın.

Pul vəsaitlərinin mərkəzləşməsini və onların borc kapitalına çevrilməsini bank sistemi tənzimləyir. Bank sistemi 3 əsas qrupdan ibarətdir:

- Mərkəzi Bank;
- Kommersiya bankları;
- İxtisaslaşmış maliyyə-kredit inistitutları.

Azərbaycanda bank sisteminin əsasını Mərkəzi Bank təşkil edir. Bir qayda olaraq, mərkəzi bank dövlətə məxsus olmaqla, iqtisadiyyatın makroiqtisadi tənzimlənməsinin əsas alətidir. Mərkəzi bank dövriyyəyə nağd pul buraxmaqla, digər kredit idarələrinin kassa ehtiyatlarının, dövlətin valyuta-qızıl ehtiyatlarının toplanması və saxlanılması ilə kommersiya banklarının kreditləşməsi ilə, hökumətin kredit hesablaşma əməliyyatlarının həyata keçrilməsi və digər kredit inistitutlarının fəaliyyətinə nəzarətlə məşğul olur.

Azərbaycan Respublikasının bank sisteminin qurulması ilk əvvəl son dərəcə çətin bir şəraitə təsadüf edirdi – iqtisadi durğunluq, inflyasiya, resursların məhdudluğu və inhisarlaşmış qiymətlər şəraitində həyata keçirilirdi. Lakin bütün bunlara baxmayaraq, aparılmış düzgün idarəetmə siyasəti nəticəsində qarşıya çıxan bütün problemlər asanlıqla dəf edilərək bank sisteminin inkişafı davam edir və artıq bu sahədə respublikada müəyyən nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikasının müasir bank sisteminin strukturu dörd amilin təsiri altında formalaşmışdır:

Birinci amil kredit idarələrinin iki funksiyasının olmasıdır. Bildiyimiz kimi, banklar emissiya və kredit funksiyalarını həyata keçirirlər. Bankların ixtisaslaşması ona gətirib çıxarmışdır ki, emissiya funksiyası Mərkəzi Bankda, xalq təsərrüfatının və əhalinin kreditləşməsi isə işgüzar kommersiya banklarında cəmləşmişdir. Nəzəri cəhətdən bankların ixtisaslaşmasında belə bölgü özünü doğruldur. Buna görə də respublikada pul nisbətlərini təhlil və pul dövriyyəsini idarə edən xüsusi aparatın olması zərurəti yaranır. Belə halqa əsas funksiyası pul dövriyyəsinin tənzimlənməsi olan respublikanın Milli Bankıdır. Bu vəziyyət kreditləşmə üzrə əməliyyatlar və respublikanın ssuda fondunun idarə olunmasını həyata keçirən kommersiya banklarına aiddir.

İkinci amil, bank sisteminin strukturuna təsir göstərən mülkiyyətin xarakteridir. Məlumdur ki, uzun illər iqtisadiyyatda dövlət mülkiyyəti üstünlük təşkil edirdi, buna görə ölkədə yalnız dövlət mənşəli banklar fəaliyyət göstərirdi.

Son illərdə mümkün olan mülkiyyyət çoxluğu müxtəlif tipli bankların yaranmasına gətirib çıxarmışdır.

Üçüncü amil, ümumi iqtisadi siyasətlə-iqtisadiyyatın idarə edilməsinin mərkəzləşdirilməsi kursu ilə əlaqədardır. Təsərrüfat təşkilatları müstəqilliyinin artması, təsərrüfatların mənafeyinə uyğun gələn, təsərrüfat dəyişiklərinə operativ uyğunlaşan, təsərrüfat orqanlarının iqtisadi təşəbbüslərinə müvafiq pul resursları ilə vaxtında yardım edən bankların təsis edilməsi iqtisadi zərurətə çevrilir.

Dördüncü amil isə xərclərin ictimai zəruri səviyyəsidir. Məlumdur ki, bankların formalaşması prosesi bank işçilərinin əməyinin ödənilməsi və hesablama texnikasının alınması ilə əlaqədar xərclərlə bağlıdır. Bu kimi xərclər yeni bankın öz fəaliyyəti nəticəsində əldə edəcəyi mənfəətlə tutuşdurulmalıdır. Yeni qurulan bank zərərlə işləməməlidir. İdarəetmə sistemindəki bütün yenidənqurmalar süni surətdə idarəetməyə çəkilən xərclərin artmasına gətirib çıxarmamalı, əksinə, gəlir gətirməlidir.

# MİLLİ İQTİSADİ SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ

***İbrahimova Ç.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişafı iki əsas mərhələyə ayırmaq olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü. Birinci dövrdə Azərbaycan Respublikasının qarşılaşdığı misli görünməmiş siyasi, hərbi və iqtisadi problemlər vəziyyəti ağırlaşdırmışdı. Bu dövrdə Azərbaycan Respublikasında iqtisadi islahatlara qiymətlərin və xarici iqtisadi fəaliyyətin liberallaşdırılmasından başlanılmışdır. Liberallaşdırma prosesi 1995-ci ilə kimi ölkədə qiymətlərin kəskin surətdə qalxması ilə müşayiət olunmuşdur. Belə ki, 1991-ci ildə istehlak mallarının qiyməti 1990-cı ilə nisbətən 2,07 dəfə artdığı halda, növbəti illərdə bu artım bir neçə dəfə sürətlənmişdir. 1992-ci ildə istehlak qiymətləri 1991-ci ilə nisbətən 10,12 dəfə, 1993-cü ildə 1992-ci ilə nisbətən 12,3 dəfə, 1994-cü ildə 1993-cü ilə nisbətən 17,63 dəfə artmışdır.

Təqdirəlayiq haldır ki, iqtisadi inkişafın ikinci mərhələsində Azərbaycan Respublikasında qeyd edilən modelin gerçəkləşməsinin rəsmi bazası kimi bir çox irimiqyaslı siyasət sənədləri (konsepsiya, strategiya və proqramlar) qəbul olunmuş "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)", "Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası", "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Programı (2004-2008-ci illər)") və digərləri uğurla həyata keçirilmişdir. Eyni zamanda hal-hazırda "Azərbaycan Respublikasının məşğulluq strategiyası" (2006-2015-ci illər), "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər vacib sənədlər uğurla icra olunur.

Son illərdə ölkə iqtisadiyyatına investisiya qoyuluşu da xeyli artmışdır. 2003-2011-ci illər ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafına qoyulan ümumi investisiyaların həcmi 100 milyard ABŞ dollarını keçmişdir. Həmçinin son illər Azərbaycanda yoxsulluğun azaldılması, sosial-iqtisadi rifahın yüksəldilməsi, regional və sahəvi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilmiş və keçirilən iqtisadi islahatların, tədbirlərin (bu islahat və tədbirlərin hansı siyasi sənədlərlə həyata keçirilməsi yuxarıda qeyd edilmişdir) davamlı nəticəsi olaraq ölkədə əhalinin həyat səviyyəsi ilbəil yüksəlir, iqtisadiyyatın regional və

sahəvi kəsimdə inkişafı reallaşır. Bütün bunlar göstərir ki, artıq ölkəmizin iqtisadi inkişafı yeni keyfiyyət mərhələsinə daxil olmuşdur.

Yeni mərhələnin əsas hədəfi, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması), hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması və onların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar.

## MÜASİR ŞƏRAİTDƏ İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFININ VƏ İQTİSADİ MARAQLARIN QARŞILIQLI ƏLAQƏSİ

***İsayev K.H.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Dünyada gedən inteqrasiya, qloballaşma prosesləri, ayrı-ayrı regional-ərazi birliklərini əhatə edən və nəticə etibarı ilə, dünyanın bütün əmtəə və maliyyə bazarlarına təsir edən maliyyə-iqtisadi amilləri lokal, regional və qlobal iqtisadiyyatların dayanıqlı inkişafı və bu zaman iqtisadi maraqların təmin edilməsi problemlərinə baxış prizmasının dəyişməsinə səbəb kimi çıxış edir. Məlum haldır ki, dayanıqlı inkişafın ilkin şərtləri və prinsipləri bir qədər əvvəl göstərilmiş iqtisadiyyatlarda müasir dövrün tələblərinə müvafiq olaraq sosial-iqtisadi inkişaf, ətraf mühitin əlverişli vəziyyəti və təbii-resurs potensialı istiqamətlərində vəzifələrin balanslaşdırılmış şəkildə həllinin təmin edilməsindən ibarətdir.

Əgər son 8 – 10 il müddətini əhatə edən dövrdə dünyadakı sosial-iqtisadi, maliyyə-resurs, təbii-resurs problemlərini nəzərdən keçirsək, görərik ki, dayanıqlılıqda zaman-müddət amili özünü qabarıq göstərir. Başqa sözlə desək, iqtisadiyyatın dayanıqlılığı, onun zaman-müddət kəsiyində "uzunluğu" hər bir dövlətin həyata keçirdiyi iqtisadi siyasətdən, bu siyasətin prioritetlərinin müəyyən edilməsi mexanizminin səmərəliliyindən birbaşa asılıdır. Bunun əsasında dayanıqlılığın əsas keyfiyyəti dayanır, yəni dayanıqlılıq bu və ya digər sosial-iqtisadi sistemin elə bir xassəsidir ki, o, həmin sistemin çərçivəsində və onun hüdudlarından kənarda baş verə biləcək xarktercə mənfi meyillərin, hadisə və proseslərin qarşısını almağa kömək edir. İdarəetmə yanaşmasından irəli gələrək isə dayanıqlılığın təmin edilməsi sistemdən daimi təhlil və qiymətləndirmənin həyata keçirilməsini, daxili və xarici mühitin tələblərinin, şəraitinin dəyişkənlik səciyyələrinə adekvat formada həll yollarının müəyyən edilməsini, metodlarının seçilməsini, mexanizmlərinin işlənməsini tələb edir.

Sosial-iqtisadi sistemdə və onun ətrafındakı dəyişkənlik haqqında fikirləri davam etdirərək qeyd etmək olar ki, müasir kommunikasiyalar, istehsalçıların rəqabət mübarizəsi, insan şəxiyyətinin daima təkmilləşməsi prosesi tələbatların fasiləsiz inkişafını və onların müxtəlifliyinin artmasını stimullaşdırır. Lakin, artan tələbatları ödəmək, təmin etmək istəyi bu və ya digər cəmiyyəti və yaxud sosial-iqtisadi sistemi ehtiyatların nisbi məhdudluğu problemi ilə üz-üzə qoyur. Tələbatların sonsuzluğu və ehtiyatların məhdudluğu ziddiyyəti seçim dilemmasını yaradır, iqtisadi sistemin fəaliyyətinin məqsədini müəyyən edir.

Məlumdur ki, cəmiyyətin həyat fəaliyyətində tələbatlar iqtisadi maraqlar vasitəsi ilə reallaşdırılır. Mövcud nəzəriyyə və təcrübəyə görə, maraqlar şəxsi, kollektiv və ictimai növlərə bölünürlər. Bundan irəli gələrək şəxsi maraqlar cəmiyyətin hər bir üzvünün maddi, mənəvi və sosial tələbatlarının, kollektiv maraqlar kollektivlərin, müxtəlif sosial qrupların maraqlarının, ictimai maraqlar isə cəmiyyətin tələbatlarının təmin edilməsi zərurəti ilə əlaqədardır. Deməli, dayanıqlı inkişaf tələbatlar - iqtisadi maraqlar asılılığının qanunauyğunluqlarının saxlanılmasını, onların ahəngdar gedişatını da təmin etməli, bununla bağlı olan cəmiyyətin indikatorları müsbət göstəriciləri ifadə etməlidirlər.

Elə məhz bu əsnada, yəni göstərilən indikatorlar və digər meyralara görə, dayanıqlı inkişaf stategiyasının işlənib hazırlanması və ardıcıl olaraq həyata keçirilməsi reallaşdırılır. Ənənəvi olaraq dayanıqlılıq meyarları (ÜDM, inflasiya səviyyəsi və s.) iqtisadiyyatın vəziyyətini qiymətləndirməyə imkan verir. Belə qiymətləndirmə yolu ilə (kompleks şəkildə) iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafının dayanıqlı və qeyri-dayanıqlı olmasını müəyyən etmək mümkündür.

Dayanıqlılıq hədlərini ifadə edən indikatorların ümumi göstəriciləri sistemin və ya onun altsistemlərindən hər hansı birinin iqtisadi dayanıqlılıq kriteriyasına cavab verib-verməməsini ifadə edir. Ümumi şəkildə sosial-iqtisadi sistemin dayanıqlılığı və onun zaman-müddət kəsiyində davamlı surətdə inkişafı həmin sistemdəki və onunla əlaqədə olan bütün tərəflərin iqtisadi maraqlarının uzlaşdırılmasını, əlaqələndirilməsini və nəhayət, onların reallaşdırılmasını təmin edir.

## SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA ONUN ROLU

***İsmayılova L.F.***
*Sumqayıt Dövlət Uiversiteti*

Sahibkarlıq fəaliyyəti iqtisadi sistemin tərkib hissəsi olmaqla, onun səmərəli olması bazar iqtisadi münasibətləri şəraitində geniş təkrar istehsalın davamlı inkişaf trayektoriyası və əhalinin rifahı halına təsir etmək qabiliyyəti ilə seçilir. Milli iqtisadiyyatın bazar münasibətləri əsasında formalaşması və inkişafı məqsədi ilə ölkədə aparılan islahatlar artıq öz nəticələrini verir. Belə mühüm iqtisadi islahatlardan biri dövlət mülkiyyətinin özəlləşdirilməsi ilə özəl sektorun inkişafına imkan yaradılması, müxtəlif mülkiyyət formalarının təşəkkülü və inkişaf etdirilməsidir. Müstəqillik əldə etmiş Azərbaycan Respublikasında iqtisadi müstəqilliyə nail olmaq, dünya iqtisadiyyatına inteqrasiya

olunmaq, sahibkarlığın inkişafı və s. kimi məsələlərin həlli olduqca vacibdir. Bütün bunlar azad sahibkarlıq, tələblə təklifin tarazlığı şəraitində sərbəst qiymətəmələgəlmə, mülkiyyətin dövlət inhisarından çıxarılması, bazar rəqabətinin meydana gəlməsi və s. məsələlərin həlli ilə bilavasitə bağlıdır.

Sahibkarlıq fəaliyyətinə başlamış fiziki və hüquqi şəxslərin ən mühüm və ilkin problemləri maliyyə çatışmamazlığı, əhalinin pul ehtiyatlarının tükənməsi, bank strukturlarının sahibkarlara real kredit vermək imkanlarının az olması və s. ilk vaxtlar sahibkarlıq fəaliyyətinin yaranmasında müəyyən çətinliklər yaratmışdır. Bütün bunlar sahibkarlığın inkişafında dövlətin investisiya (daxili və xarici) siyasətinin aktivləşdirilməsini ön plana çəkir. Respublikamızda sahibkarlığın təşəkkülü ən əvvəl işgüzar fəaliyyət üçün şəraitin, iqtisadiyyatın bazar modelinə uyğun hüquqi mexanizminin yaradılmasıdır və bu sahədə yuxarıda qeyd edildiyi kimi çoxlu işlər görülmüşdür. Lakin qəbul olunmuş qanunların icra mexanizmləri hələ də axıradək formalaşmamışdır. Nəticədə, qanunların icrası ilə bağlı obyektiv və subyektiv səbəblərdən respublikada sahibkarlıq fəaliyyəti müəyyən dərəcədə qanunların tələblərinə etinasızlıq, onlardan sui- istifadə halları kimi səciyyələnmişdir. Qeyd etmək lazımdır ki, dövlətin köməkliyi olmadan sahibkarlığın inkişafı qeyri- mümkündür. Bütün bunlar rəqabət qabiliyyətli məhsul istehsalında; investisiya və innovasiya siyasətinin həyata keçirilməsində; çevik və böyük risk tələb edən müəssisələrin yaranması və fəaliyyətində; ümumiyyətlə, sahibkarlığın başqa formalarının yaranması və inkişafında dövlət tərəfindən müəyyən güzəşt və imtiyazların edilməsini vacib edir. Bura vergi- maliyyə təminatları, maliyyə- kredit mexanizmi və s. aid edilir ki, bu haqda tədqiqat işinin sonrakı fəslində söhbət açılacaqdır.

Onu da qeyd etmək lazımdır ki, respublikamızda sahibkarlığın inkişafına bilavasitə təsir edən problemlərdən biri də informasiya təminatıdır. Belə ki, dünya iqtisadiyyatında və ölkə iqtisadiyyatında gedən proseslərin izlənməsi, sahibkarlıqda düzgün və çevik idarəetmə qərarlarının qəbul edilməsi bilavasitə lazımi informasiyanın mövcudluğundan çox asılıdır. Təbiidir ki, burada informasiyanın əldə edilməsi ilə əlaqədar transaksion xərclərin də nəzərə alınması çox vacibdir. Respublikada sahibkarlığın inkişafı ilə bağlı bir məqama da toxunmaq lazımdır ki, bu da iqtisadi təhsillə bağlıdır. Bu işin yerinə yetirilməsi üçün dövlət məmurları və milli sahibkarları iqtisadi təhsilə cəlb edilməlidir. Bu sahədə dünya təcrübəsindən bəhrələnmək respublikamızda sahibkarlığın inkişafına təkan verərdi.

Qeyd etmək lazımdır ki, bütün ölkələrdə kiçik və orta sahibkarlığın inkişafı hökumətin sosial-iqtisadi siyasətində mühüm yer tutur. Sahibkarlığın öz miqyasına görə kiçik, orta və iri sahibkarlığa bölünməsi hər bir ölkənin qanunvericiliyi ilə müəyyən edilir. Kiçik və orta sahibkarlıq sektoru müxtəlif istehsal fəaliyyəti və iş növünü əhatə edir, bazarın vacib geniş spektrinə cavabdehdir və, odur ki, müəssisə, sahə və ya ölkələr arasında onların fəaliyyətinin müqayisəsinin sistemləşdirilməsi çətinlik törədir. Bu iş həm də onunla çətinləşir ki, kiçik və orta sahibkarlığa verilən təriflər və terminologiyalar bir-birindən çox fərqlənir.

# REGİONAL İNKİŞAFIN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ (ARAN İQTİSADİ RAYONU TİMSALINDA)

***Kazımov M.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

Müasir şəraitdə ölkənin müstəqilliyinin təmin olunması, milli iqtisadiyyatın bazar prinsipləri əsasında formalaşdırılması digər şərtlərlə yanaşı ölkə iqtisadiyyatının əsas tərkib hissəsi olan regionların sosial-iqtisadi inkişaf səviyyəsindən birbaşa asılıdır. Regionlarda davamlı sosial-iqtisadi inkişafa nail olmaq üçün ilk növbədə regionların malik olduğu iqtisadi potensialı tam şəkildə hərəkətə gətirmək və onu düzgün reallaşdırmaq lazımdır.

Böyük iqtisadi potensiala malik Aran iqtisadi rayonu olduqca əlverişli coğrafi mövqeyə malikdir. İqtisadi rayonun ümumi sahəsi 21,43 min $km^2$ olmaqla ölkə ərazisinin 24,7%-ni əhatə edir. Aran bölgəsi ölkənin milli iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olub, zəngin resurslara malikdir. Region əlverişli təbii iqlim şəraiti, torpaq, su ehtiyatlarının və temperatur rejiminin olması aqrar-sənaye müəssisələrinin inkişafına təkan verir və onun bazası sayılan kənd təsərrüfatının yüksək səviyyədə inkişafına təsir göstərir. Suvarma şəbəkəli torpaq sahələrinin geniş yayılması kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin ildən-ilə genişlənməsinə əlverişli şərait yaradır. Resurslardan istifadə nəticəsində bir çox inzibati rayonlarda aqrar-sənaye müəssisələri yaradılmış, bu isə əhalinin zəruri istehlak məhsulları ilə təminatına təsir göstərmişdir.

Azərbaycan Respublikasında kütləvi aqrar islahatlar sabiq Prezident, ümummilli liderimiz mərhum H.Əliyev cənablarının rəhbərliyi ilə 1995-ci ildən həyata keçirməyə başlamışdır. 1995-1996-cı illərdə «Aqrar islahatların əsasları haqqında», «Sovxoz və kolxozların təkmilləşdirilməsi haqqında», «Torpaq islahatları haqqında» qəbul edilmiş qanunların və digər hüquqi aktların, həmçinin «Kiçik və orta sahibkarlığa kömək üzrə Dövlət Proqramı (1997-2000-ci il)» «Kiçik və orta sahibkarlığı inkişaf etdirmək üzrə Dövlət Proqramı (2002-2005-ci il)», «Azərbaycanda aqrar sektorun inkişafı üzrə Dövlət Proqramının (2002-2006-ci il)» qəbulu aqrar-sənaye kompleksində köklü dəyişikliklərin həyata keçirilməsinə imkan verdi. Belə ki, MDB məkanında ilk dəfə olaraq «Torpaq islahatları haqqında» qanunda torpaqların şəxsi mülkiyyətə verilməsi və onun alqı-satqısı öz əksini tapmışdır.

Aran iqtisadi rayonu Azərbaycan Respublikasının ən böyük və çox mühüm kənd təsərrüfatı rayonudur. Pambıqçılıq, taxılçılıq, şəkər çuğunduru, üzümçülük, quru subtropik meyvəçilik, bostançılıq kənd təsərrüfatının ixtisaslaşmış sahələridir. Regionun fərqli xüsusiyyətlərindən biri də müxtəlif bitkiçilik sahələrinin, meyvəçilik və üzümçülük, heyvandarlıq və quşçuluğun inkişafı və onların məhsullarının emalının inzibati rayonlar üzrə təmərküzləşməsidir. İqtisadi rayon respublika üzrə 2015-cu ildə istehsal olunan taxılın 32,6%-ni, pambığın 89,8%-ni, kartofun 8%-ni, tərəvəzin 27%-ni, bostan məhsullarının 69,2%-ni, meyvənin 27%-ni, üzümün 19%-ni, şəkər çuğundurunun 74,4%-ni, ətin 28,6%-ni, südün 37%-ni və yumurtanın 30,1%-ni vermişdir. Bununla belə, qeyd olunmalıdır ki, iqtisadi rayon mövcud istehsal potensialından, xüsusilə də, məhsul istehsalı üçün zəruri olan münbit, suvarma suyu ilə təmin olunmuş torpaqlardan səmərəli istifadə etməmiş və kənd

təsərrüfatı məhsulları istehsalında müşahidə olunan artım əkin sahələrinin və heyvanların baş sayının artırılması hesabına təmin olunmuşdur.

Araşdırmalar göstərir ki, son illərdə inzibati rayonlar üzrə əkin sahələrinin strukturunda əhəmiyyətli dəyişikliklər baş vermişdir. Müsbət dəyişikliklərin əsasında ilk növbədə əkin yerlərinin daha çox dövriyyəyə qəbul olunması durur. Bunun əksi olaraq pambıq əkini sahələri son illərdə azalmaqda davam edir, halbuki yüksək əmək və material tutumuna malik olan pambığın əkin sahəsinin artması kənd əhalisinin məşğulluq və gəlirlərinin səviyyəsinin yüksəlməsinə birbaşa təsir göstərə bilərdi. Keçən əsrin 70-80-ci illərində pambıqçılıq ilkin emal sahəsi ilə birlikdə inkişaf etdirilmişdir. Yeni qəbul məntəqələri, pambıqtəmizləmə müəssisələri qurularaq böyük sənaye potensialı yaradılmışdır. Bu tədbirlərin nəticəsi böyük iqtisadi səmərə vermiş və sahənin rentabelliyi 40%-ə çatdırılmışdır. Aran iqtisadi regionunun münbit torpaqları pambıqçılıq üçün daha əlverişlidir. Qeyd edək ki, pambıq region üçün əsas strateji məhsul hesab olunur və bu məhsulun istehsalının artırılması kənd əhalisinin məşğulluq səviyyəsinin və pul gəlirlərinin artırılması deməkdir. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın (2009-2013-cü illər) tələblərinə uyğun olaraq ölkəmizdə yeni yerli və xarici pambıq sortlarının sınaqları aparılmış, Türkiyənin «Ağ qızıl» və İsrailin bir neçə pambıq sortları yerli şəraitdə öyrənilmişdir.

Heyvandarlıq və heyvandarlıq məhsulları istehsalında da Aran iqtisadi rayonu xüsusi yer tutur, heyvandarlıqda sahibkarlıq fəaliyyətinin müsbət meylləri genişlənməkdədir. Hazırda həm heyvanların sayının artımı, həm də heyvandarlıq məhsulları istehsalının dinamikası bu sahədə sahibkarlığı müsbət nəticələri ilə səciyyələndirir. Belə ki, 2015-cu ildə iqtisadi rayon üzrə yunun xüsusi çəkisi 30,6%, iri-buynuzlu malın respublikada xüsusi çəkisi 39,3%, o cümlədən inək və camışların xüsusi çəkisi 39%, qoyun və keçilərin xüsusi çəkisi 29,4% olmuşdur. 2014-cı illə müqayisədə 2015-cu ildə istər mal-qaranın baş sayı, istərsə də heyvandarlıq məhsullarının istehsalı nəzərə çarpacaq dərəcədə artmışdır. Son 5 ildə iqtisadi rayonda ət istehsalı (kəsilmiş çəkidə) 18,6 min ton (25,6%) artırılaraq 72,6 min ton, süd istehsalı 98,9 min ton (17,5%) artırılaraq 565 min ton, yun istehsalı isə 620 ton (13%) artırılaraq 4777 tona çatdırılmışdır. Kür-Araz düzənliyi Azərbaycanın ənənəvi baramaçılıq regionudur. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) "Dövlət Proqramı" qəbul edildikdən sonra bu sahənin dirçəldilməsi istiqamətində Bərdə, Göyçay və Zərdab rayonlarında işlərin aparılmasına başlanılmışdır.

Araşdırmalar göstərir ki, bitkiçiliyi və heyvandarlığı inkişaf etdirmək, məhsul istehsalını daha da artırmaq üçün mövcud istehsal potensialından tam istifadə etmək mümkün olmamışdır. Tədqiqatlardan məlum olur ki, kənd təsərrüfatının inkişaf etdirilməsində bir çox problemlər var. Buna kənd təsərrüfatı texnikasının və nəqliyyat vasitələrinin çatışmamasını, toxum materiallarının, gübrə və dərmanların tələbatdan az olmasını, məhsulun saxlanması, satılması ilə əlaqədar problemləri, mal-qaranın yolxucu xəstəliklərə qarşı vaksinlər və preparatlar, dezinfeksiya qurğuları, heyvandarlıqda mal-qaranın cins tərkibini yaxşılaşdırmaq üçün süni mayalanma məntəqələrini göstərmək olar.

# RESPUBLİKAMIZIN SOSİAL-İQTİSADİ İNKİŞAFI MÜSTƏQİLLİYİMİZİN QARANTIDIR

***Qarayeva Ş.N., Kərimova İ.C.***
*Azərbaycan Texnologiya Universiteti*

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suverən hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud olan iqtisadi inkişafı iki əsas mərhələyə ayırmaq olar.

I 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və tənəzzül dövrü, II 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və prezidentimiz İlham Əliyevin fəaliyyəti nəticəsində ağır ilkin şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə edilmiş, iqtisadi inkişafın mahiyyətcə yeni Azərbaycan modeli yaradılmış, əsrin müqaviləsi ilə əlaqədar məsələlər həyata keçirilmişdir.

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları işlənib hazırlanmış, onlardan ikisi reallaşdırımış, biri isə hal-hazırda reallaşdırılır.

Sosial sahədə və əhalinin ərzaq təhlükəsizliyi ilə bağlı bir sıra proqramlar da müvəffəqiyyətlə reallaşdırılmışdır.

Mövcud statistik məlumatlar deyilənləri bir daha təsdiqləyir. Qeyd olunanlarla yanaşı, idxa-ixracla bağlı bir sıra problemlər mövcuddur. Tədqiqat işində Prezidentimizin idxaldan asılılığını minimuma endirilməsi ilə bağlı göstərişləri əsas tutularaq, dünya iqtisadi sistemində baş verən silkələnmələrə qarşı iqtisadiyyatımızın reaksiyasını gücləndirmək, manatın devalivasiyası zamanı qiymətlərin əhəmiyyətli yüksəlişinin qarşısını almaq məqsədi ilə xarici ölkələrin təcrübəsi öyrənilərək ümumiləşdirilmiş, bu məqsədlə müasir dövrdə qeyri neft sektoru sahələrində, xüsusilə sənaye və kənd təsərrüfatının bir sıra bölmələrində yeni strukturunun formalaşdırılması, turizmin inkişafının qabaqcıl ölkələrin təcrübəsinə müvafiq qurulması üzrə təkliflər verilmişdir.

Fikrimizcə təkliflərin reallaşdırılması iqtisadiyyatımızın rəqabət qabiliyyətini daha da yüksəldə bilər.

# AZƏRBAYCAN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYA PROSESİNDƏ

***Qazıyeva S.T.***
*Sumqayıt Dövlət Universiteti*

Hər bir ölkə öz iqtisadiyyatını inkişaf etdirmək üçün dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunmalıdır. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra sərbəst milli iqtisadiyyatını formalaşdırmaqla, dünya iqtisadiyyatına inteqrasiya prosesini qarşısına məqsəd qoymuşdur. Bu məqsədlə iqtisadi islahatların aparılmasını sürətləndirmək üçün respublikamız beynəlxalq maliyyə institutlarının imkanlarından istifadə etmək yolunu seçmişdir. Bütövlükdə xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxşahəli inkişafının təmin etmək üçün böyük üstünlüklər verir. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr və bu əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Azərbaycan bir çox həyati əhəmiyyətə malik siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional təşkilatların diqqətini özünə cəlb edən bir qütbdür. Azərbaycan Respublikası öz sosial-iqtisadi inkişafında xarici ölkələrlə əməkdaşlığın daha da genişləndirilməsinə can atır və beynəlxalq əmək bölgüsünün dərinləşməsindən irəli gələn üstünlüklərdən maksimum yararlanmağa çalışmalıdır.

Müstəqilliyinin ilk illərində Azərbaycanın xarici ticarət əlaqələri çox acınacaqlı halda idi. Belə ki, Azərbaycan Respublikası öz tələbatını ödəmək məqsədilə əmtəələri dəyər-dəyməzinə mübadilə edirdi. Bu da başqa ölkələrə Azərbaycandan ucuz xammal ölkəsi kimi istifadə etməsinə imkan verirdi. Belə bir hal isə dünya praktikasında görünməmişdir.

Hal-hazırda Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiya siyasətinin əsas prinsiplərinə söykənərək ölkəmiz dünyanın aparıcı beynəlxalq təşkilatları ilə əlaqələr qurmağa başlamış, onların bir çoxuna üzv qəbul edilmişdir. Ən əsası isə bu təşkilatlara üzvlük Azərbaycanın iqtisadi müstəqilliyini məhdudlaşdırmamış, əksinə üzv dövlətlərlə bərabərsəviyyəli, ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasına səbəb olmuşdur. Məhz bunun nəticəsidir ki, Avropa Birliyinə daxil olan ölkələrdən fərqli olaraq ölkəmizin müstəqil iqtisadi siyasət yürütmək imkanı vardır. Bu siyasətin nəticəsidir ki, Azərbaycan hazırda dünyanın 160-dan çox ölkəsi ilə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malikdir. Ölkənin iqtisadi potensialı, xammal və mineral ehtiyatlarla zənginliyi, təbii şəraiti və əlverişli iqtisadi-coğrafi mövqeyi əməkdaşlıq imkanlarını artırır. Ümumiyyətlə, ticarət əlaqələri ölkənin potensial imkanları və iqtisadiyyatın daxili tələbatı ilə dünya təsərrüfat əlaqələr sisteminin, beynəlxalq əmək bölgüsünün tələbləri və dünya bazarının vəziyyəti ilə formalaşmalıdır. Eyni zamanda dünya iqtisadiyyatında aparıcı mövqe tutmaqdan ötrü aktiv xarici fəaliyyət aparılmalıdır. Bununla əlaqədar Ulu Öndər H.Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması haqqında" 10 yanvar 1994-cü il tarixli və "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi qaydaları haqqında" və s. fərmanların rolunu xüsusilə qeyd etmək lazımdır. Xarici ticarət fəaliyyətinin genişlənməsində ikinci fərmanın rolu daha böyükdür. Belə ki, stratejli əhəmiyyətli məhsulların bütün hüquqi şəxslər

tərəfindən ixrac olunmasına icazə verilirdi. Bütün bu göstərilənlərdən aydın olur ki, xarici ticarətin vəzifələri hər bir ölkənin iqtisadiyyatı üçün əvəzolunmazdır.

Son illərdə prezidentimiz İlham Əliyev ölkə iqtisadiyyatını inkişaf etdirmək, daxili bazarı beynəlxalq rəqabətdən qorumaq və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması təmin etmək xatirinə ticarətin genişlənməsinə böyük əhəmiyyət verir, bununla əlaqədar müvafiq fərman və sərəncamlar imzalayır. Bütün bunlar isə beynəlxalq kapitalın respublikamıza yönəlməsinə səbəb olmuşdur. İndi respublikamızda yüzlərlə xarici və müştərək müəssisə fəaliyyət göstərir, xarici ticarət dövriyyəsinin həcmi ildən-ilə artır. Bu iqtisadi münasibətlər nəticəsində ölkəmizə yeni texnika və texnologiya gətirilir, istehsal və xidmət sahələri yenidən qurulur. Göstərilən faktlar son illər xarici iqtisadi fəaliyyət sahəsində baş verən struktur və keyfiyyət dəyişikliklərinə əyani sübutdur.

Hal-hazırda Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının daha da sürətləndirilməsi və möhkəmləndirilməsi istiqamətində başladığı iqtisadi siyasəti möhtərəm prezidentimiz İlham Əliyev uğurla davam etdirir.

## AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İNNOVASİYA FƏALİYYƏTİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Qəmbərova X.N.***

*Sumqayıt Texniki Kolleci*

Azərbaycan Respublikasının aqrar sahəsinin (ARAS) inkişaf etdirilməsi üçün onun da iqtisadi inkişafını innovasiya yönümlü iqtisadi istiqamətə yönəltmək lazımdır. Aqrar sahənin mühüm tərkib hissəsini təşkil edən kənd təsərrüfatı əhalinin ərzaq məhsullarına, sənayenin xammala olan ehtiyaclarının ödənilməsində əhəmiyyətli rol oynayır. Kənd təsərrüfatı ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm maddi istehsal sahəsi kimi çıxış edir.

Məlum həqiqətdir ki, elmi cəhətdən əsaslandırılmış və tarazlaşdırılmış innovasiya siyasəti, onun elmi, resurs, təşkilati və informasiya təminatının reallaşdırılmasından ibarət sistemli prinsipə riayət edilməsə, kənd təsərrüfatı istehsalının rentabelliyinin artırılması problemini həli etmək mümkün deyil. İnnovasiya prosesinin optimallaşdırılması və innovasiyanın istehlakçılara çatdırılması, vasitələrinin yaradılrnası milli əhəmiyyət kəsb edən dövlət probleminə çevrilməlidir.

Təhlil nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda kənd təsərrüfatında innovasiyaların prioritet istiqamətləri aşağıdakılar hesab edilməlidir :

- istehsal prosesində təşkilati iqtisadi münasibətlərin təkmilləşdiriiməsi;
- istehsalın və idarəetmənin təşkilinin perspektivli formalarının tətbiq edilməsi;
- kadrların hazırlanması, onların ixtisasın artırılması və əməyin motivləşdirilməsi sistemlərinin təkmilləşdirilməsi;
- məhsulun satışı sisteminin təkmilləşdirilməsi;
- maliyyə-kredit mexanizminin, vergi sisteminin və kənd təsərrüfatı məhsullarının qiymətyaranma prinsiplərinin təkmilləşdirilməsi;

- yeni informasiya texnologiyalarından və kompüter texnikasından istifadə edilməsi əsasında istehsalın planlaşdırılması, idarə edilməsi, uçot və nəzarət sisteminin təkmilləşdirilməsi;
- torpağın münbitliyinin artırılması;
- məhsuldarlığın artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılması;
- ekoloji təmiz kənd təsərrüfatı məhsulu istehsalının qurulması;
- istehsal güclərinin istehsal-texniki potensialının bərpa edilməsi və təkmilləşdirilməsi;
- təmir-bərpa bazasının və texniki servisin intensiv inkişafı.

ARAS-ın müasir reallıqları şəraitində innovasiyayönümlü iqtisadiyyatın inkişaf etdirilməsi bir sıra tədbirlərin həyata keçirilməsini tələb edir.

Bunlardan ən əsasları aşağıdakılardır:

- Aqrar sahədə innovasiya siyasətinin yürüdülməsi;
- Milli Innovasiya sisteminin alt sistemi olan, Aqrar sahənin «Innovasiya Mərkəzinin» yaradılması;
- AS-üzrə innovasiya qrumlarının yaradılması;
- AS-də istehsalın sənayeləşdirilməsi və intensivləşdirilməsinə nail olunması;
- ən vacib problemlərin həlli üzrə «Dövlət proqramlarının» hazırlanması;
- AS-də innovasiya yönümlü inkişafın təmin edilməsinin əsas istiqamətlərinin yerinə yetirilməsinə şərait yaradılması;
- əhalinin innovasiya fəallığının yüksəldilməsi və s.

## GƏNCƏ-QAZAX TƏBİİ İQTİSADİ RAYONUNDA TORPAQ İSLAHATLARININ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA VƏ TORPAQLARIN MÜNBİTLİYİNİN BƏRPASINDA ROLU

***Quliyev İ.Ə., Məmmədov M.Ə.***

*AMEA, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev 1995-ci ildən başlayaraq ölkədə torpaq islahatların aparılması üçün mühüm hüquqi sənədlərin hazırlanması haqqında göstəriş verdi. Yeni torpaq-mülkiyyət münasibətlərinin hüquqi tənzimlənməsi üçün çoxsaylı fərmanlar və normativ-hüquqi aktlar qəbul edildi. Torpaq islahatları regionlarda kənd təsərrüfatının inkişafı üçün əlverişli zəmin yaratdı.

Respublikamızda kənd təsərrüfatının inkişafı üçün böyük iqtisadi potensiala malik regionlardan biri də Gəncə-Qazax təbii iqtisadi rayonudur. Bu region respublikanın qərb hissəsində yerləşir, cənub-qərbdən Ermənistan, şimal-qərb və qərbdən Gürcüstan dövlətləri ilə sərhədlənir. Şərqdən Aran, cənubdan isə Kəlbəcər-Laçın və Qarabağ təbii iqtisadi rayonlarla həmsərhəddir. Son 20-25 ildə vilayətdə insanların plansız təsərrüfat fəaliyyəti ilə əlaqədar təbii ekosistemlərə, o cümlədən torpaq-bitki örtüyünə antropogen təsir getdikcə güclənmişdir. Ərazidə yayılan meşələrin və onların altında formalaşan meşə torpaqlarının, qış, yay otlaqlarının sahəsinin nəzərəçarpacaq dərəcədə azalması müşahidə olunur. Gəncə-Qazax düzənliyində və Kür çayı sahilində intensiv suvarmanın aparılması nəticəsində qrunt

sularının torpaq səthinə yaxınlaşması torpağın su-fiziki xassələrin pisləşməsinə səbəb olmuşdur. Vilayətin dağətəyi və düzən ərazilərində kənd təsərrüfatın inkişafı üçün əsas bazası sayılan şabalıdı, çəmən şabalıdı, boz, boz-çəmən və subasar allüvial torpaqlar 593,0 min ha (48,3%-i) yayılmışdır. Dağlıq ərazidə yayılan torpaqların sahəsi 494,3 min ha yəni 51,7% təşkil edir. Onun 100,2 min hektarı meşə torpaqlarıdır. Regionun 776,5 min ha-ı (63,2%) kənd təsərrüfatı üçün yararlıdır.

Bölgədə dövlət mülkiyyətinə məxsus torpaqların sahəsi 276,5 min hektardır və onun 42% kənd təsərrüfatı üçün yararlıdır. Dövlət torpaqların 119 min ha-ı (18,2%) meşə torpaqlarının payına düşür. Suvarılan torpaqların 13,3 min hektarı (7,3%) dövlət mülkiyyətindədir və həmin torpaqlar fiziki və hüquqi şəxslərə icarəyə və istifadəyə verilmişdir.

Bələdiyyə mülkiyyətində olan torpaqların sahəsi 330,6 min hektardır, onun 257,8 min ha-ı (78%) kənd təsərrüfatına yararlıdır və hal-hazırda fiziki və hüquqi şəxslərə müxtəlif müddətdə istifadə və icarəyə verilib. Eyni zamanda bələdiyyələrin fəaliyyət göstərdiyi dövrdə yaşayış mənəqələrinin perspektiv inkişafı üçün ayrılmış və xeyli torpaq sahəsi fiziki və hüquqi şəxslərə satılmışdır.

Kəndətrafı örüş sahələri də bələdiyyə mülkiyyətində olan torpaqlara aiddir və həmin sahələr bələdiyyə mülkiyyətinin ümumi istifadəsinə aid olduğu üçün əhaliyə mal-qaranın otarılması üçün haqqı ödənilmədən müddətsiz verilmişdir. Bələdiyyə mülkiyyətində olan torpaqların fiziki və hüquqi şəxslərə icarəyə və istifadəyə 5 ildən 15 ilə qədər müddətə verilir və ondan istifadə olunmasına nəzarəti özündə saxlayır. Icarədarlar və istifadəçilər isə yüksək məhsul əldə etmək üçün bütün imkanlardan istifadə edir və torpağın münbitliyinin qorunması və bərpa edilməsi üçün lazım olan aqrotexniki tədbirləri vaxtlı-vaxtında görür. Icarəyə götürülmüş və istifadəsində olan torpaqlardan fiziki və hüquqi şəxslərin bu torpaqlardan səmərəli istifadə etməsi gələcəkdə həmin torpaq sahələrinin özəlləşdirilməsi üçün zəmin yaradır. Ona görə də icarəyə və istifadəyə verilmiş torpaqlarda məhsuldarlığın artması müşahidə olunur. Belə ki, həmin şəxslər icarəyə götürdükləri torpaq sahələrində növbəli əkin sistemi tətbiq edir və suvarma normasına riayət edir və nəticədə yüksək məhsul alır.

Xüsusi mülkiyyətdə olan torpaqların sahəsi 245,5 hektardır. Özəlləşdirilmiş torpaqlara əkin və dincə qoyulmuş torpaqlar aiddir və onların sahəsi 167,9 min hektardır. Kənd təsərrüfatına yararlı torpaqların 16,9%-ni (40,9 min ha) həyətyanı torpaqlar təşkil edir. Biçənək sahələrin isə 12,6%-i özəlləşdirilmişdir. Meyvə bağları altında olan torpaqların isə 3%-i və ya 3000 ha xüsusi mülkiyyətə verilmişdir. Özəlləşən torpaqların 161 min hektarı suvarılır. Bu isə xüsusi mülkiyyətə verilmiş torpaqların 87,7%-inin suvarılan torpaq sahələrindən ibarət olduğunu göstərir. Həyətyanı torpaqlardan yalnız 26,6 min ha-ı və ya 16% suvarılan torpaqlardır. Suvarılan torpaqlar əsasən tərəvəz, bostan, yem bitkiləri və meyvə bağları altında istifadə olunur və məhsuldarlıq yüksəkdir. Belə ki, xüsusi mülkiyyətdə olan həyətyanı torpaqlarda növbəli əkin, üzvi və mineral kübrələrdən, suvarmadan istifadə edildiyinə görə onlarda məhsuldarlıq 30-35 s/ha-dır. Dəmyə sahələrdə isə bu göstərici 5-15 s/ha-a çatır. Beləliklə, torpaq islahatının aparılması Respublikamızın iqtisadiyyatının inkişaf etməsinə təsiri yaxşı nəticə vermişdir.

# AKTİVLƏRİN UÇOT VƏ HESABATDA TƏSNİFATININ NƏZƏRİ-PRAKTİKİ MƏSƏLƏLƏRİ

***Quliyev V.M.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Azərbaycanda uçot və hesabat sisteminin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən qurulması və inkişaf etdirilməsinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1995-ci ildə "Mühasibat uçotu haqqında" qanun, 1yanvar 1996-ci ildən isə yeni Hesablar Planı qüvvəyə minmiş və tətbiq olunmağa başlamışdır. İlham Əliyevin prezidentliyi dövründə ölkənin beynəlxalq inteqrasiyaya və qloballaşma proseslərinə yaxından qoşulması uçot-hesabat sisteminin dünya praktikasına və beynəlxalq standartlara tam uyğunlaşdırılması zəruriliyini yaratdı. Bu məqsədlə AR prezidentinin fərmanı ilə 29 iyun 2004-cü ildə "Mühasibat uçotu haqqında" yeni qanun qüvvəyə mindi, həmin qanunun icrası kimi AR Nazirlər Kabineti 18 iyun 2005-ci ildə "2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqram" qəbul etdi. Proqrama uyğun olaraq ölkənin kommersiya təşkilatlarında tətbiq olunmaq üçün 37 Milli Mühasibat Uçotu Standartı (MMUS) işlənib hazırlandı və artıq onlar praktikada tətbiq olunur.

MMUS-lar kommersiya təşkilatlarında baş verən biznes əməliyyatlarının uçotunun aparılması, maliyyə informasiyasının formalaşdırılması üçün zəruri olan nəzəri, metodoloji və praktiki müddəaları və təsbitləri özündə əks etdirir. Ancaq araşdırmalar göstərir ki, iqtisadiyatda baş berən dinamik dəyişikliklər fonunda uçot və hesabatın bir sıra nəzəri-metodloji aspektlərinə yenidən baxmaq, onları real parktikaya uyğunlaşdırmaq vacibdir. Belə aspektlərdən biri- aktivlərin uçot və hesabatda təsnifatıdır.

Məsələnin öyrənilməsi deməyə əsas verir ki, maliyyə uçotu və hesabatı üzrə ədəbiyyatlarda, həmçinin normativ sənədlərdə aktivlərin və maliyyə hesabatının digər elementlərinin təsnifatının nəzəri, praktiki aspektləri kifayət qədər tədqiqat predmeti deyildir. Bir çox müəlliflər təsnifatın nəzəri məsələ olduğunu qəbul etmir, onun sırf praktiki xarakterli məsələ olduğunu vurğulayırlar. Bundan başqa, təsnifatın hansı kriteriyalar əsasında aparıldığı yaxud aparılmalı olduğu da, demək olar ki, diqqətdən kənarda qalmışdır. Ümumiyyətlə, uçot üzrə ədəbiyyatlarda, eləcə də beynəlxalq və milli standartlarda təsnifatın nə olduğu, hansı məqsədlər üçün tətbiq edildiyi, funksiyaları, onun prisipləri və s. xüsusi olaraq araşdırılmamışdır.Təsnifatın nəzəri yaxud metodoloji xarakterə malik olduğu barədə yazılara rast gəlinmir. Halbuki təsnifatın mahiyyətini və məqsədlərini düzgün müəyyən etmədən aktivlər və digər elementlər barədə münasib informasiya formalaşdırmaq mümkün deyil.

Zənnimizcə, təsnifat nəzəri-metodoloji deyil nəzəri-praktiki xarakter daşıyır. Təsnifatın nəzəri xarakteri ondan irəli gəlir ki, o, elementlərin tərifinə əsaslanır, başqa sözlə, elementlərə verilmiş təriflər, həmin elementlərin təsnifatının substansiyasını təşkil edir. Aydındır ki, aktivlərə və digər elementlərə verilən təriflər öz-özlüyündə onlar haqqında heç bir kəmiyyət yaxud informasiya formalaşdırmır. Nəzəri cəhətdən formulə edilmiş tərif elementin mahiyyətini açıqlayır, onun məqsədini və funksiyalarını müəyyən edir. Bununla belə,uçot- hesabat obyektləri haqqında informasiya almaq üçün onlar Maliyyə hesbatının

hazırlanması və tərtib edilməsi Prinsiplərində, həmçinin Milli Mühasibat Uçotu Standartlarınln Konseptual Əsaslarında beş element (Aktivlər, Kapital, Öhdəliklər, Gəlirlər və Xərclər) üzrə təsnifləndirilmişdir. Elementlərin beş qrup üzrə bölgüsü yaxud təsnifatı onlara təriflər veilməmişdən əvvəl aparılmışdır. Ancaq buna baxmayaraq, tərif mahiyyət və məzmun kontekstində təsnifata rəğmən, ilkindir, müəyyənedicidir.

Deyilənləri daha aydın başa düşmək üçün Prinsiplərdə aktivlərə verilmiş tərifə nəzər salaq. Aktivlər- keçmiş dövrlərin hadisələri nəticəsində sirkət tərəfindən nəsarət olunan resurslsardır, hansılardan ki, şirkət gələcəkdə onlarda iqtisadi fayda gözləyir. Göründüyü kimi, tərif aktivlərin nəzəri və mücərrəd şəkildə mahiyyətini və funksiyasını açıqlayır. Tərifə əsasən nə aktivlərin (resursların) nə də iqtisadi faydanın kəmiyyətini müəyyən etmək mümkün olmur. Tərif aktivləri (resursları) və iqtisadi faydanı tərkib-struktur baxımından da xarakterizə etmir. Aktivləri (resursları) və iqtisadi faydanı kəmiyyət, həmçinin tərkib-struktur baxımından müəyyən etmək üçün onları sistemləşdirmək lasımdır. Bu sistemləsdirmə məhz təsnifatın funksiyasıdır yaxud vəzifəsidir. Məsələ bundadır ki,tərifdə istifadə olunan "aktivlər (resurslar)" və "iqtisadi fayda" anlayışları ümumidir. Onların kəmiyyətinin, tərkib və strukturunun müəyyən edilməsi, ümumidən xüsusiyə keçməyi tələb edir. Bu, "keçid" təsnifatın köməyilə aparıla bilər. Digər tərəfdən, təsnifat aparılmadan aktivlərin (resursların) nə də iqtisadi faydanın kəmiyyətinin müəyyən edilməsi üçün müvafiq metodologiyanı, informasiya formalaşdırma metodlarını işləyib hazırlamaq və tətbiq etmək mümkün deyil. Məsələn, əgər aktivlər müxtəlif əlamətlərə görə təsnifləndirilməzsə, onda onları qiymətləndirmək və yenidən qiymətləndirmək mümkün olmaz, çünki müxtəlif növ aktivlərin qiymətləndirilməsi və yenidən qiymətləndirilməsi üçün fərqli medodlardan və modellərdən istifadə etmək zəruriliyi yaranır. Həm də təsnifat ilkin və sonrakı qiymətləndirmədən əvvəl aparılmalıdır.

Təsnifatın aparılması və onun praktiki tətbiqi yalnız aktivlərə verilən nəzəri tərifə əsaslanmır, onun nəzər və praktiki cəhətdən reallaşması həm də uçotun məqsədlərindən irəli gəlir. Məqsəd isə fəaliyyətdən, mövcud aktivlərdən (resuslardan) əldə olunacaq mənfəəti, iqtisadi faydanı hesablamaqdır. Aktivlər üzrə idarəetmə və maliyyə qərarlarının qəbul edilməsi üçün zəruri olan Hesablar Planının formalaşması da təsnifat əsasında həyata keçirilir. Müxtəlif məqsədlər üçün ilkin məlumatları müxtəlif təsnifat kriteriyaları əsasında informasiyaya çevirmək lazım gəlir. Aktivlər barədə sintetik informasiyanın formalaşmasının əsasında duran Hesablar Planı aktivlərin və maliyyə hesabatının digər elementlərinin sistemləşdirilmiş təsnifatından başqa bir şey deyildir. Hesablar Planının mövcud məzmunu və quruluşunu təsnifatın praktiki realizasiyası kimi qəbul etmək olar. Əgər aktivlərin hər hansı qrupu, növü haqqında Hesablar Planı lazımi informasiya formalaşdıra bilmirsə, onda bunun başlıca səbəbini Hesablar Planının düzgün tərtib edilməsində deyil, təsnifatın düzgün aparılmamasında axtarmaq lazımdır. Aparılmış tədqiqat aşagıdakı nəticələr çıxarmaga imkan vermişdir:

1.Aktivlərin uçot və hesabatına rəğmən, təsnifat, onlar barədə informasiyanın müxtəlif məqsədlər üçün qruplaşdırılması və sistemləşdirilməsi mexanizmidir yaxud üsuludur;

2.Təsnifat metodoloji deyil, nəzəri-praktiki xarakter daşıyır. Təsnifləndirmə özlüyündə obyektin kəmiyyəti barədə informasiya formalaşdırmır, həmin obyekt barədə informasiyanı müəyyən məqsədlər üzrə sistemləşdirir;

3. İnformasiya formalaşdırmağın metodları aktivlərin tərifinə və təsnifatına uyğun seçilməlidir;

4. Hesablar Planının strukturu aktivlərin və digər elementlərin təsnifatına uyğun qurulmalıdır, əks halda münasib informasiya formalaşdırmaq və obyektiv iqtisadi qərarlar qəbul etmək mümkün deyildir.

## İQTİSADİ TƏHLÜKƏSİZLİK VƏ QEYRİ-NEFT SEKTORUNUN DAVAMLILIĞI

***Quluyev R.M.***

*Azəbaycan Dövlət İqtisad Universiteti*

İqtisadi və beynəlxalq münasibətlər çox mürəkkəb və dəyişkən olduğundan iqtisadi təhlükəsizlik strategiyasında məqsədin həyata keçirilməsinə təsir göstərən amillərin hamısını əks etdirmək mümkün deyil. Təbii amillər də buna mühüm təsir göstərir. Çünki bir neçə il sonra təbiətdə nə kimi hadisələr baş verəcəyini demək çətindir. Bununla əlaqədar olaraq, hər bir dövlət özünün iqtisadi təhlükəsizlik konsepsiyasını işləyib hazırlayır. Başqa sözlə, problemin həllinə öz baxışlarını müəyyənləşdirirlər. Burada iqtisadi strategiyanın qarşıya qoyulmuş məqsədlərinin reallaşdırılması imkanı və vasitələri dəqiqləşdirilir, müasir dövrə uyğun gəlməyən hədəflər çıxarılır, reallıqlar nəzərə alınır.

Hər bir ölkənin iqtisadi təhlükəsizliyi onun milli iqtisadiyyatının inkişaf səviyyəsindən, iqtisadi təhlükəsizliyin təmin edilməsində mili mənafeyin əsas götürülməsindən, millətin mənəviyyatının sağlam və ya qeyri sağlamlığının səviyyəsindən, habelə ölkənin sosial inkişaf istiqamətindən, müdafiə potensialından necə istifadə etməsindən və.s asılıdır.

İqtisadi təhlükəsizliyin daxili maddi əsası olmalıdır. Bu, məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə əlaqədardır. Hər bir dövlət çalışmalıdır ki, geniş təkrar istehsalı elə təşkil etsin ki, mili məhsul ölkənin tələbatının çox hissəsini ödəməyə imkan versin. Əgər bu təmin edilərsə, ölkə xarici dövlətlərin asılılığından azad ola bilər. İqtisadi təhlükəsizliyin daxili sosial əsası isə əhalinin birliyidir. Bu isə dövlətin və onun rəhbərlərinin apardığı ağıllı siyasət ilə bağlıdır. Əgər dövlət ağıllı, ədalətli siyasət aparırsa, milli mənafeni əsas götürürsə, əhali onun ətrafında sıx birləşir, əks halda isə xalq öz dövlətinə inamını itirir.

Azərbaycan yeni müstəqil dövlət olduğuna görə onun həm təcrübəsi, həm də imkanları məhduddur. Lakin müstəqil inkişaf etmiş ölkələrin təcrübələrini öyrənməklə, Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunmasının zəruriliyini, onun mahiyyətini və məqsədini müəyyən etmək olar. Məsələn, ABŞ-da iqtisadi təhlükəsizliyin təmin olunmasının məqsədi onun dünyada hegemonluğunu saxlamaqdır. Sovet imperiyasında iqtisadi təhlükəsizliyin məqsədi isə inzibati - amirlik sistemini, sosialist müstəmləkəçillik sistemini qoruyub saxlamaq, eyni zamanda sosialist inqilabını ixrac etmək yolu ilə dünyaya ağalığı təmin etmək olmuşdur. Bununla belə, nəticə çıxarmaq olar ki, iri dövlətlərin iddialarının heç biri Azərbaycanda yoxdur. Onun iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas məqsədi

ölkəmizin suverenliyini qoruyub saxlamaq, ərazi bütövlüyünü bərpa etmək və bazar iqtisadiyyatı sisteminin əsaslarını yaratmaqdır. Başqa sözlə, bu Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının əsas cəhətlərindən biridir və bu problemin həllinin əsas ağırlıq mərkəzi iqtisadi təhlükəsizlik sisteminin üzərinə düşür.

Ölkənin iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında coğrafi və tarixi amillər bir çox dövlətlərə nisbətən daha böyük rol oynayır. Ona görə də bu amillərin nəzərə alınması zəruridir.

Azərbaycanın mühüm coğrafi məkanda yerləşməsi və gözəl təbii iqlim şəraitinin olması səbəbindən tarix boyu dünyaya ağalıq etmək iddiasında olan dövlətlərin təhlükəsinə məruz qalmışdır. Elmi- texniki inqilabın baş verdiyi indiki dövrdə təbii xammala və enerji-yanacağa tələbatın artması ilə əlaqədar olaraq, Azərbaycana sənayecə inkişaf etmiş iri dövlətlərin marağı daha da artmışdır. Onlar Azərbaycanı iqtisadi cəhətdən özlərindən asılı vəziyyətə salmaq üçün bütün vasitələrdən istifadə etməyə çalışırlar. Bu dövlətlər, əsasən, ABŞ və Qərbi Avropa ölkələridir. Onlar BVF və Dünya Bankı vasitəsilə kömək pərdəsi altında Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunmasında mühüm rol oynayan baza sənaye sahələrinin inkişafına mane olurlar.

- Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində istehsal strukturunun necə formalaşması mühüm amillərdən biridir. Bu anlayış daha çox yeni müstəqillik əldə etmiş dövlətlərə aiddir. Bu dövlətlər istehsalın strukturunu təkmilləşdirmək, deformasiyaya uğrama meyillərinin qarşısını almaq, xalq təsərrüfatı proporsiyalarını optimallaşdırmaq yolu ilə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında nailiyyət qazana bilərlər. Məsələn, ABŞ avtomobil sənayesini, Yaponiya elektronika sənayesini, Almaniya ağır maşınqayırma sənayesini, Skandinaviya ölkələri kənd təsərrüfatını seçmiş və bu sahənin rəqabət qabiliyyətini artırmış, həmin sahələrdən əldə edilən gəlirin hesabına digər sahələrdə istehsalın strukturunu milli mənafeyə uyğun qurmuşlar. Azərbaycan üçün belə sənaye sahəsi kimi neft- maşınqayırma sənayesi seçilmişdir və bu strategiya çox böyük uğurla reallaşdırılır.
- Azərbaycan üçün iqtisadi təhlükə törədən problemlərdən biri elmi- texniki potensialın dağılmasıdır. Bu investisiya və innovasiya fəallığının aşağı düşməsi ilə əlaqədardır. Xalq təsərrüfatının strateji sahələrinə böyük həcmdə kapital qoymadan bu problemi həll etmək imkan xaricindədir. Lakin Azərbaycanın dünyada analoqu olmayan təbii resurslara malik olması buna imkan verə bilər. Bu isə ölkədə siyasi və iqtisadi sabitliyin təmin edilməsi və həmin şəraitdə təbii amildən necə istifadə edilməsindən asılıdır.

Nəzərə almaq lazımdır ki, təbii resurslar sonsuz deyil, ondan intensiv istifadə edərək vəziyyətdən çıxmağa çalışmağın mənfi tərəfinin olması da şəksizdir. Buna görə də təbii ehtiyatlardan səmərəli istifadə edilməsinə nəzarətin güclənməsi və tənzimlənməsi zəruridir.

- Azərbaycanın milli iqtisadiyyatına təhlükə yaradan göstəricilərdən biri Azərbaycan kapitalının xarici ölkələrə axması, ölkənin valyuta ehtiyatlarının kənara daşınmasıdır. Bunun qarşısını almaq üçün hər şeydən əvvəl onun səbəblərini öyrənilməli və buna uyğun olaraq onun qarşısının alınması üçün lazımi tədbirlər görülməlidir.

Azərbaycandan xarici kapital axınının səbəbləri müxtəlifdir. Bazar iqtisadiyyatına keçid dövründə iqtisadi və siyasi sabitliyin kövrək olması risk amilini gücləndirir. Eyni zamanda gizli iqtisadiyyatın xüsusi çəkisinin normadan yuxarı olması, kapital ixracı haqqında qanunda olan boşluq, bu sahədə nəzarətin qənaətbəxş olmamasına səbəb olur. Dünya təcrübəsi sübut edir ki, ÜDM –də vergilərin payı 55 %-i keçdikdə iqtisadi təhlükə yaranır. Hazırda Azərbaycanda bu sahədə də problemlər vardır və bunun olması təbiidir. Azərbaycan gənc dövlətdir və bu islahatlar həyata keçirildikcə bu problem öz həllini tapacaqdır.

Dünya iqtisadiyyatının inkişafı istehsal sahələrinin genişlənməsi planetimizdə ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur. Bunun nəticəsində atmosfer , biosfer, hidrosferin çirklənməsi, ozon qatının deşilməsi, havanın temperaturunun amplitudunun artması bir sıra ekoloji ptoblemlər yaratmışdır, hətta qarşısı alınmazsa, gələcəkdə böyük fəlakətlərin, ekoloji böhranların baş verməsinə gətirib çıxara bilər. Buna görə də hal-hazırda ekoloji proseslərin idarə edilməsi dünya ölkələrinin əsas prioritet məsələrindən biridir.Bunun üçün bir sira iqtisadi mexanizmlər yaradılmışdır və təbiətin, ekologiyanın mühafizəsi üçün qəti addımlar atılmaqdadır.

Müasir dövrdə iqtisadiyyatın inkişaf tempi təbii ehtiyatların məhdud olması probleminin kəskinləşməsi ilə əlaqədar olaraq, ekoloji tələbatın yüksəlməsini irəli sürür. Qeyd etmək lazımdır ki, iqtisadi inkişaf daxilində bir tərəfdən ekoloji problemin yaranması, digər tərəfdən həmin problemlərin aradan qaldırılması zərurəti yaranır. Bu iki ziddiyyətin yaranma səbəbini bilmək üçün ətraf mühit və ictimai istehsal arasında olan əlaqəni müəyyən etmək lazım gəlir. Lakin bu zaman “İqtisadiyyat-mühit” sisteminin heç birinə ayrılıqda üstünlük vermək olmaz. Bu sistem arasında elə bir əlaqə yaratmaq lazımdır ki, istehsalın artması, iqtisadi inkişaf, xalqın rifahının yüksəlməsi ətraf mühitin bütünlükdə və ya onun ayrı-ayrı komponentlərinin inkişafına və yaxşılaşdırılmasına uyğun gəlsin. Müasir ekoloji vəziyyət təsərrüfat problemlərinin həllinə ətraf mühitin mühafizəsi ilə yanaşı, ictimaiyyətin iqtisadi inkişafını da nəzərə almağı tələb edir.

Ətraf mühitin mühafizəsi siyasət, ideologiya, sosial mühit və ən əsası iqtisadi inkişaf ilə sıx əlaqədardır.

Ətraf mühitin mühafizəsinin iqtisadiyyatı ekoloji təhlükəsizliyin təmini, təbii resurslardan səmərəli istifadə, onların bərpa edilməsi və artırılması tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi üzrə görülən işləri əhatə edir. Bu məqsədlə, ilk növbədə, ətraf mühitin mühafizəsi üzrə tədbirlər proqnozlaşdırılır, onlar üçün maliyyələşdirilmə mənbələri, təbiətdən istifadə, ətraf mühitin çirkləndirilməsi, iqtisadi maraqlandırma və s. işlər üzrə ödəmələr müəyyən edilir. Ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin proqnozlaşdırılması və maliyyələşdirilməsi təbiətdən istifadənin müxtəlif istiqamətlər üzrə dövlət proqramlarına və konsepsiyalarına daxil edilir. Ətraf mühitin mühafizəsi sahəsində ekoloji proqramların və tədbirlərin maliyyələşdirilməsi dövlət və yerli büdcələr, ekoloji sığorta, təbiətdən istifadəyə görə ödəmələr, hüquqi və fiziki şəxslərin könüllü ianələri, qrantlar, beynəlxalq qurumların ayırmaları hesabına həyata keçirilir. Ətraf mühitin çirkləndirilməsinə və təbii resurslardan istifadəyə görə ödəmələr müəssisələrdən,

təşkilatlardan və vətəndaşlardan qanunvericilikdə nəzərdə tutulmuş qaydada və məbləğdə alınır.

Ətraf mühitin mühafizəsinin stimullaşdırılması ekoloji yönümlü subsidiyalar və digər stimullaşdırıcı tədbirlər vasitəsilə həyata keçirilir. Ekoloji təhlükəli fəaliyyət növləri ilə məşğul olan hüquqi və fiziki şəxslər qanunla nəzərdə tutulmuş qaydada məcburi sığortalanırlar. Ekoloji sığorta ətraf mühitə və ya hər hansı bir şəxsə vurulan ziyanın ödənilməsində istifadə olunur.

Ətraf mühitin təxirəsalınmaz tədbirlərinin, ona vurulan zərərin aradan qaldırılmasının maliyyələşdirilməsi üçün dövlət və ictimaiyyət tərəfindən xüsusi fond yaradılır. Dövlət fondu təbiətdən istifadə ödəmələri, ətraf mühitin çirkləndirilməsi üzrə cərimələr, qeyri-qanuni əldə edilən məhsulların satışından daxil olan vəsaitlər, qrantlar, könüllü ianələr və s. hesabına təşkil olunur. Bu fondlar əsasən elmi-tədqiqat işlərinə, ekoloji təmiz texnologiyanın tətbiqinə, təbiətin mühafizəsi obyektlərinin tikintisi və yenidən qurma işlərinə, çirkləndiricilərin ətrafa və insanlara vurduğu ziyanın bərpa olunmasına, pozulmuş ekoloji tarazlığın bərpasına, ekologiya üzrə təlim-tərbiyə işlərinə, nadir fauna və floranın qorunmasına, ətraf mühitin manitorinqinin təşkili və keçirilməsinə, mütəxəssislərin həvəsləndirilməsi və stimullaşdırılmasına sərf olunur.

Ətraf mühitin mühafizəsinin ictimai fondları ictimai vəsait, qrantlar, fiziki və hüquqi şəxslərin könüllü ianələri və s. hesabına təşkil olunur. Bu fondlar ictimai birliklər tərəfindən ətraf mühitin mühafizəsi tədbirlərində istifadə olunur.

Müasir dövrlərdə praktiki olaraq dünyanın bütün inkişaf etmiş ölkələrində ekoloji təhlükəsizlik sahəsində milli proqramlar hazırlanıb,qəbul olunub,həyata keçirilməkdədir.İlk vaxtlar bu proqramın reallaşdırılması yığılıb qalmış tullantıların məhv edilməsinə yönəldilmişdir.Bu sahədə görülən tədbirlər əvvəlcələr istehsalat fəaliyyətinin neqativ nəticələrini aradan qaldırmağa yönəldilmişdi və, demək olar ki, ətraf mühitin pisləşməsi nəzərə alınmırdı. Belə yanaşmanın məhdudluğu aydındır, lakin ilk vaxtlar ona bəraət qazandırılırdı. Belə ki, hadisələr silsiləsi zamanı keçmiş fəaliyyətdə pozulmuş ekosistemi xilas etmək lazım gəlirdisə,indiki vəziyyətdə digər problemlər daha çox nəzərə çarpır. Bir çox ölkələrdə bütün təbii ərzaq zənciri üzrə və müvafiq qanunvericilikdə bərkidilmiş bütün sahələr üzrə təbiətdən istifadənin kompleks proqramları qəbul olunmuşdur. Onların içərisində dövlətin təbiəti mühafizə fəaliyyətinin tənzimlənməsindəki rolu təbiət istifadəçilərinin hüquq və öhdəlikləri müəyyən edilmişdir. İnkişaf etmiş ölkələrdə təbiətdən istifadə sisteminə dövlət müdaxiləsi nəzərəçarpacaq dərəcədədir. İyerarxik idarəetmə sistemi yaradılır ki, burada təbiətdən istifadə siyasətinin məqsədləri,onun obyektləri və eləcə də onun həyata keçirilmə dərəcələri (ümumidövlət, yerli) ayrılır.

**MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFI**

***Qurbanzadə B.S.***
*Bakı Dövlət Universiteti*

Qədim tarixə, zəngin mədəniyyətə,tükənməz yeraltı və yerüstü təbii sərvətlərə malik olan Azərbaycan keçmiş dövrlərdən müxtəlif xalqların hücumuna məruz qalmışdır. Tarix boyu yunanları və romalıları, ərəbləri və monqolları, rusları və ya ingilisləri Azərbaycanın digər maddi və mənəvi sərvətləri ilə yanaşı, zəngin neft yataqları da cəlb etmişdir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edildikdən sonra Azərbaycana, onun zəngin sərvətlərinə Amerika, Avropa və Asiyanın aparıcı dövlətlərinin marağı bir qədər də artdı.İstər ABŞ-ın, Avropa və Asiyanın böyük dövlətlərinin, istərsə də Rusiyanın nəzərində Xəzər dənizinin sahillərində yerləşən Azərbaycan Respublikası regionda əsas dövlət hesab olunurdu .Bu ilk növbədə,onun əhəmiyyətli geosiyasi vəziyyəti, zəngin neft və qaz ehtiyatlarına malik olması ilə bağlı idi.1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Qərbin neft şirkətləri ilə bağlanan neft sazişi müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişafında olduqca mühüm rol oynamışdır. "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında", sonradan "Əsrin müqaviləsi" adını almış bu sazişin imzalanması ilə Azərbaycanın neft sənayesi tarixində tamamilə yeni bir era başlandı. Bu tarixi sənədin imzalanma mərasimində 7 ölkənin 11 neft şirkəti iştirak edirdi.Müqaviləyə əsasən ABŞ, Rusiya,Türkiyə, Böyük Britaniya, Norveç və Səudiyyə Ərəbistanı dövlətlərinə məxsus olan aparıcı neft şirkətləri yataqlardan 30 il müddətinə 511 milyon ton neft çıxarmalı idilər. Layihənin ümumi investisiya qoyuluşu 10 mld ABŞ dollarına bərabər idi ki, onun da 7,4 mld dollarını Qərb şirkətləri qoymalı idilər. Sonradan müqaviləyə Yaponiyanın "İtoçu" və ABŞ-ın "Eksson" şirkətləri də qoşuldular.Əsrin müqaviləsində ən mühüm pay ABŞ şirkətlərinin payına düşürdü.Bu müqavilənin imzalanması və gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü idi.Hazırda Azərbaycanın karbohidrogen ehtiyatları 5 milyard tona yaxındır ki, bu da Azərbaycanı dünyanın ən iri neft regionları sırasına çıxarmışdı. 1999-cu il aprelin 17-də müstəqil Azərbaycanın tarixində fövqəladə əhəmiyyətli daha bir hadisə baş verdi. Bu hadisə Bakı-Suspa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Suspa ixrac terminalının istismara verilməsidir. Bununla da ilk dəfə olaraq, Azərbaycan nefti şimala yox, qərbə istiqamət götürmüşdür. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə görüşünün gedişində Xəzərin Azərbaycan bölməsindəki neft və qaz yataqlarının Bakı-Tiblisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalanmışdır.Bununla da Azərbaycanın uzunmüddətli siyasi, iqtisadi mənafelərinin təmin edilməsi,eyni zamanda regionda sülhün sabitliyin və təhlükəsizliyin qorunması baxımından növbəti addım atılmışdır. Azərbaycanın Bakı-Ceyhan neft, Bakı-Ərzurum qaz kəmərləri və 2019-cu ildə yekunlaşdırılması nəzərdə tutulan TAP-TANAP layihəsində əsas fiqurlardan biri kimi iştirak etməsi ölkənin geosiyasi gücünü artıraraq onu dünya enerji bazarının əhəmiyyətli iştirakçısına çevirmişdir. Qaz nəqlinə gəldikdə isə Azərbaycan qaz-

ixracatçıları bazarında yeni iştirakçıdır.Belə ki, ötən onillikdə Azərbaycan qaza olan tələbatını ödəmək üçün Rusiyadan və digər qonşu ölkələrdən qaz idxal etməyə məcbur idi.Lakin Xəzər dənizi şelfində yeni qaz yataqlarının kəşfi,xüsusən də, ən azı 1,2 trilyon kub metr ehtiyata malik olan "Şahdəniz" yatağının 1999-cu ilin iyununda kəşfi ölkəmizi bu strateji məhsulun ixracatçısı olan ölkələr sırasına çıxarmışdır. Bu yatağın işlənməsi üzrə müqavilə 04 iyun 1996-cı ildə (müvafiq pay bölgüsü BP (25,5%), Statoil (25,5%), SOCAR (10%), Lukoil (10%), NİCO(10%), Total (10%) və TPAO (9%) kimi) dünyanın iri enerji şirkətləri arasında bağlanılmışdır. Həmçinin regionların sosial iqtisadi inkişafına dair dövlət proqramalrının həyata keçirilməsi yeni iş yerlərinin açılmasına,yoxsulluğun və işsizliyin aradan qaldırılmasına səbəb olmuşdur.

## SƏNAYE MÜƏSSİSƏLƏRİNİN RƏQABƏT ÜSTÜNLÜKLƏRİNİN TƏMİN EDİLMƏSİNDƏ İNNOVATİV FƏALLIĞIN ARTIRILMASININ ROLU

***Mahmudova L.F.***
*Sumqayıt Dövlət Universiteti*

Davamlı iqtisadi inkişafda sənaye müəssisələri mühüm rol oynayır. Sənaye müəssisələrinin inkişaf etdirilməsi və rəqabət üstünlüklərinin artırılması məqsədilə bu müəssisələrdə innovativ fəallığın artırılması ön plana çıxmaqdadır.

Xarici bazarda sərt rəqabətə davam gətirmək üçün innovativ fəallığın artırılması ölkənin beynəlxalq münasibətlər subyekti kimi fəaliyyətinin əsas şərtlərindən biridir. İnnovasiyaların sayının artırılması əsas deyil, onu bütün iqtisadi proseslərin tərkib hissəsinə çevirmək və innovasiya, maliyyə, sosial və s. məqsədlərlə istifadə etmək olar. İnnovativ fəallıq təkcə texnoloji proseslərdə deyil, həmçinin təşkilati, idarəetmə, maliyyə, təhsil, ekoloji və digər sahələrdə də tətbiq edilməlidir. İnnovativ fəallıq elmi tədqiqatların sürətləndirilməsinə təkan verir. Azərbaycanda təkcə elmi tədqiqatların intensivləşdirilməsi deyil, həmçinin bu tədqiqatların mexanizmlərinin işlənib hazırlanması və müxtəlif layihələrə tətbiq edilməsi vacibdir. İnnovasiyanın işlənib hazırlanması və tətbiqinin əsas məqsədi rəqabət strategiyasında üstünlük təşkil etməkdir. İnnovasiya fəaliyyəti nəticəsində innovasiya potensialı yaradılır. İnnovasiya potensialı aşağıdakılardan ibarətdir:

Yeni məhsulun yaradılması, onun istehsalı və ya təkmilləşdirilməsi. Bunun üçün maliyyə və texnoloji imkanlar, elmi-texniki yeniliklər, texnoloji proseslərin yeniləşməsi və bu texnologiya ilə işləyə bilən mütəxəssislər olmalıdır; yeni rəqiblərin məhsulundan keyfiyyətcə üstün, istehlakçıların dəyişən tələblərinə cavab verən məhsulların hazırlanması, istehsalı və satışını təşkil etmək imkanı olmalıdır.

Zəif innovativ inkişaf sənaye müəssisələrinin rəqabət üstünlüklərini təmin edə bilmir. Zəif innovativ inkişafın səbəblərindən biri elm və istehsal arasında əlaqənin qənaətbəxş olmamasındadır. Özəl sahənin aktivliyi ilə dövlətin maliyyə imkanlarının birləşdirilməsi ölkə iqtisadiyyatının innovasiya inkişafını sürətləndirmək iqtidarındadır. Milli iqtisadiyyatın zəif innovasiya inkişafından çıxmasının vacib şərti kimi dövlətin innovasiya siyasətinin perspektivlərinin elmi cəhətdən əsaslandırılması, sosial yönümlü innovasiya fəaliyyətinin

strateji istiqamətlərinin müəyyən edilməsi və əlverişli investisiya mühitinin formalaşdırılması çıxış edir. Ölkənin innovasiya potensialının effektiv istifadəsi əsasında sahibkarlıq strukturlarının sənaye kompleksi sahələrinin elmi cəhətdən əsaslandırılmış inkişaf proqramlarının işlənib hazırlanmasının vacibliyi məntiqi cəhətdən məqsədəuyğundur. Bunun üçün dövlət tərəfindən xərcləri xeyli dərəcədə artırmaq zəruridir. Həmin xərclərin səmərəli istifadəsi innovasiya yönümlü iqtisadi inkişafda, ümumilikdə innovativ fəallığın artırılmasında mühüm rol oynaya bilər.

İnnovasiyayönümlü iqtisadi inkişaf yeni elmi-texnoloji ideyaların istehsala tətbiq edilməsi və istifadə edilməsinin kompleks prosesini əhatə edir. Bu isə yeni məhsulların və bazarların yaradılmasını tələb edir. Çünki innovasiyalı məhsullar keyfiyyətli və bazarda kifayət qədər rəqabətə davamlı olması ilə səciyyələnir. Bu isə bir növ iqtisadi artımın mühüm amili kimi çıxış edir. Dünya iqtisadiyyatının tərkib hissəsi olan ölkələrin iqtisadi artımı məhz dövlətin iqtisadi siyasətinin vacib istiqamətlərindən biri olan innovasiya siyasətindən çox asılıdır. Ölkəmizdə iqtisadiyyatın davamlı və dinamik inkişafının təmin olunmasının əsas prioritetlərindən biri də qeyri-neft sənayesində ən müasir texnologiyaların tətbiqi əsasında inkişaf etdirilməsidir. Qeyri-neft sektorunun daha sürətlə inkişafına nail olmaq, istehsalın rəqabət qabiliyyətliliyini və səmərəliliyini artırmaq və innovasiya əsaslı inkişafını təmin etmək iqtisadi siyasət kursunda əsas yer tutur. Məhz regionların sosial-iqtisadi infrastrukturunun yeniləşməsi dünya standartlarına cavab verən məhsulların yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artması, ixrac potensialının reallaşdırılması nəticəsində mümkündür. Hazırda qeyri-neft sektorunda kifayət qədər intensiv texnologiyalar tətbiq edilir ki, bu da son nəticədə innovasiyaların kifayət qədər geniş şəkildə reallaşdırılması ilə bağlıdır. Belə ki, müasir texnologiyalara əsaslanan yeni sənaye müəssisələri tikilir, xalq istehlakı mallarının və digər məhsulların istehsalını genişləndirmək üçün əlavə tədbirlər görülür. Qeyri-neft sektoruna aid sənaye müəssisələrinin strukturunda mütərəqqi sənaye sahələrinə aid yeni müəssisələrin xüsusi çəkisi sürətlə artır. Buna misal olaraq Şamaxı, Naxçıvan və Gəncə avtomobil zavodlarını, Mingəçevirdə generator zavodunu, Naxçıvan əlvan metal emalı zavodunu, Gədəbəydə qızıl-mis emal zavodunu, Bakıda kabel zavodunun, cihaz istehsalat birliyinin yenidən qurulması və istifadəyə verilməsini, habelə çoxsaylı energetika müəssisələrini və s. göstərmək olar.

Dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsi olan innovasiya siyasəti isə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasından asılıdır. Məlumdur ki, ölkə iqtisadıyyatının inkişafı, yəni istər neft sənayesi, istərsə də qeyri-neft və digər sahələrin fəaliyyəti maliyyə vəsaiti, investisiyalar olmadan mümkün deyil. Qeyri-neft sektorunun inkişafında innovativ fəaliyyət rəqabət qabiliyyətli məhsulların və ixracat bazarlarının genişləndirilməsini əhatə edir. Bu istiqamətdə fəaliyyət bu sahəyə investisiyaların artırılmasını tələb edir. Artıq 2010-cu ildən başlayaraq respublika iqtisadiyyatının inkişafının ağırlıq mərkəzi həm artım sürətinə, həm də investisiya qoyuluşunun miqdarına görə neft sektorundan qeyri-neft sektorunun, o cümlədən neft sənayesindən qeyri-neft sənayesinin üzərinə keçmişdir. 2008-ci ildən iqtisadiyyatda çoxşaxələnmənin artırılması üçün qeyri-neft sektoruna daha çox vəsait yönəldilmiş və 2015-ci ilə qədər Azərbaycan iqtisadiyyatına 200 mlrd dollar daxili və xarici investisiya qoyulmuşdur. 2016-cı ildə ölkə

iqtisadiyyatına 19,9 mlrd. manat investisiya yönəldilməsi nəzərdə tutulmuşdur ki, bunun da 40,3 faizini qeyri-neft sektorunun inkişafına xidmət etmək üçün yönəldilməsi proqnozlaşdırılır. Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün bu sahələrə investisiyaların daha çox yönəldilməsi nəticəsində rəqabətə davamlı məhsulların istehsalına xüsusi diqqət yetirilir. Qeyd etmək vacibdir ki, qeyri-neft sektorunun üstün sürətlə inkişafı və innovasiya qoyuluşunun getdikcə daha çox hissəsini özünə cəlb etməsi iqtisadiyyatın bütün əsas sahələrində, o cümlədən bütün şəhər və rayonlarda özünü göstərir. İqtisadiyyatın inkişafının ağırlıq mərkəzini bütün istiqamətlərdə qeyri-neft sənayesi müəssisələrinin üzərinə keçməsi Azərbaycanda həmin müəssisələrin gələcək çoxşaxəli və səmərəli innovativ inkişafına real zəmin yaratmış, digər tərəfdən bütövlükdə iqtisadiyyatın səmərəliliyi, rəqabət qabiliyyətliliyi artmağa başlamışdır.

## SUMQAYIT İQTİSADİ İNKİŞAF YOLLARINDA

***Mehdiyeva G.F.***
*Sumqayıt Dövlət Universiteti*

Məlum olduğu kimi, XX əsrin 2-ci yarısında Azərbaycan Respublikasının ərazisində salınmış yeni sənaye mərkəzləri və cavan şəhərlərdən biri də Sumqayıtdır.

Sumqayıt yarandığı ilk dövrdən polifunksional (çoxistiqamətli) şəhər olmuşdur. Xəzər dənizinin qumlu sahilində nəhəng qara və əlvan metallurgiya, kimya sənayesi müəssisələri tikilmiş və sənaye məhsullarının istehsalına başlanmışdır. Bu ərazidə həm də bir çox müxtəlif təyinatlı fabriklər, tikinti trestləri və digər obyektlər inşa olunmuşdur.

Sumqayıt özü gənc olduğu kimi əhalisinin də əksəriyyəti gənclərdən ibarət idi. Ona görə də bu şəhərə həm də "Gənclər şəhəri" qeyri-müfəssəl ad verilmişdir.

Sumqayıtı qurub yaradan insanlar müxtəlif millətlərdən olmuşdur. Bu şəhərə, demək olar ki, dünyanın bütün ölkələrindən qonaqlar gəlmiş və şəhərdə yaranmış xalqlar dostluğu münasibətlərini görmüşlər. Ona görə də Sumqayıtı həm də "Xalqlar dostluğu" şəhəri adlandırmışlar.

Keçən əsrin 60-70-ci illərində Azərbaycana rəhbərlik edən dahi siyasətçi Heydər Əliyev Sumqayıtın inkişafına da xüsusi diqqət və qayğı göstərmişdir. Dəqiq məlumata əsasən Heydər Əliyev 16 dəfə Sumqayıtda olmuşdur. O, hər dəfə bu şəhərə gələndə sənaye istehsalının inkişafına xüsusi diqqət yetirmiş və bu şəhəri "böyük kimya mərkəzi"nə çevirmişdir. Ümummilli lider həm də gənclər şəhərinin əhalisinin sağlam, mehriban, xoşbəxt yaşamaları üçün ciddi tədbirlər görmüşdür.

Məlum olduğu kimi, Sovet dövləti dağıldıqdan sonra respublikanın digər şəhər və rayonlarında olduğu kimi, Sumqayıtı da naşı, savadsız, təcrübəsiz adamlar idarə etməyə başlamışlar. Şəhərimizin sosial- iqtisadi, mədəni, mənəvi həyat tərzi pozulmuş, şəhərdə hərc-mərclik hökm sürməyə başlamışdır.

Yalnız ulu öndər Heydər Əliyev 2-ci dəfə respublikaya rəhbərliyinə seçildikdən sonra respublikamızın bütün regionlarında olduğu kimi, Sumqayıt şəhərində də ictimai sabitlik yaradılmış, köhnəlmiş və dağıdılmış sənaye obyektləri qismən əvvəlki vəziyyətlərinə

gətirilmiş və bununla da müstəqillik illərində Sumqayıtın sosial-iqtisadi, mədəni, mənəvi inkişafının intibah dövrü başlamışdır.

Cənab Prezidentimiz İlham Əliyev regionların sosial-iqtisadi inkişaf proqramında Sumqayıt şəhərində də yaranmış problemləri həll etmək üçün dəfələrlə bu şəhərə böyük məbləğdə vəsait ayırmış və inkişafın dinamikasını da daim nəzarətdə saxlamışdır.

Sumqayıt şəhərində mövcud olan sosial-iqtisadi problemləri çevik həll etmək üçün cənab prezidentimiz İlham Əliyev Sumqayıt şəhərinə rəhbərliyə şəhəri və onun müxtəlif sahələrində işləyən kadrları yaxşı tanıyan, böyük təcrübəsi olan, şəhərin əsl təəsübkeşi Fərəcov Zakir Fərəc oğlunu başçı təyin etmişdir.

Respublikamızın prezidenti cənab İlham Əliyev Sumqayıtın sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin surətləndirilməsi istiqamətində çox mühüm tədbirlər həyata keçirir.

Dövlət başçısı hələ 2013-cü il 4 oktyabrda Sumqayıta səfəri zamanı şəhərimizin yaxın illərdə nəinki Cənubi Qafqazın, ümumilikdə Avropanın mühüm sənaye mərkəzlərindən birinə çevrilməsini vurğulayaraq demişdir: "Sumqayıtı mən bax belə görürəm: gələcəkdə Cənubi Qafqazın ən böyük sənaye mərkəzlərindən biri, dünya miqyasında ən böyük sənaye mərkəzlərindən biri olmalıdır, eyni zamanda ekoloji cəhətdən tam təmiz, insanlar üçün rahat, yaşamaq, işləmək üçün rahat, gözəl, abad bir şəhər olmalıdır."

Bu gün Sumqayıt gündən-günə abadlaşır və gözəlləşir, şəhərin siması dəyişir. Sumqayıtın əsas prospektləri olan Heydər Əliyev və Azərbaycan prospektlərində görülən genişmiqyaslı quruculuq işləri sakinlər tərəfindən minnətdarlıqla qarşılanır. Şəhərdə binalar yüksək keyfiyyətli aqlay üzlüklərlə üzlənir və ümumi memarlıq üslubu gözlənilməklə çox böyük estetik zövq verən mənzərə yaradılır. Şəhərdə 9 mərtəbəli binaların üz-fasadlarının yenidən rənglənməsi, dam örtüklərinin yenidən qurulması işləri davam etdirilir. Ümumilikdə şəhərdə 200 binanın dam örtüyü dəyişdirilmişdir. Şəhərdə yeniliklərin biri də budur ki, Nəsimi adına dəniz kənarı mədəniyyət və istirahət parkının siması dəyişdirilmişdir. Şəhərimizin dəniz kənarı parkının 186 hektar olan ərazisi yenidənqurmadan sonra daha da gözəl olacaqdır. Yeni bulvar Sumqayıtı daha modern və yaraşıqlı şəhərə çevirəcəkdir.

Gənclik və dostluq şəhəri olan Sumqayıtın inkişafının intibah dövrü başlanmışdır.

**AZƏRBAYCANDA MALİYYƏ BAZARLARINA NƏZARƏT SİSTEMİNDƏ STRUKTUR DƏYİŞİKLİKLƏR**

***Məmmədov Z.F.***

*Azərbaycan Dövlət İqtisad Universiteti*

Maliyyə sektorunun tənzimlənməsi və ona nəzarət makroprudensial təhlilin, mikroprudensial təhlilin, yəni prudensial nəzarət və təftiş fəaliyyəti daxil olmaqla, fərdi maliyyə təşkilatlarının fəaliyyətinə nəzarətin həyata keçirilməsini, həmçinin maliyyə xidmətlərinin istehlakçılarının, xüsusilə də, investorlar və əmanətçilərin müdafiəsini və rəqabət siyasətini nəzərdə tutur. Müxtəlif ölkələrdə istifadə edilən isntitusional yanaşmalardan asılı olaraq, qeyd edilən funksiyalar ölkənin maliyyə sektorunun fəaliyyətinə nəzarətin həyata keçirilməsi üçün dövlət tərəfindən səlahiyyətləndirilmiş müxtəlif orqanlar arasında bu və ya digər şəkildə bölüşdürülür.

Maliyyə sektorunda nəzarət səlahiyyətləri hər bir ölkədə qanunvericiliklə müəyyən olunmuş institusional qaydada həyata keçirilir. Bu sistemlərin müxtəlif ölkələr üzrə fərqlərinə baxmayaraq, onların hamısı aşağıdakı əsas məqsədlərin həyata keçirilməsinə istiqamətlənib:

1. Pul və maliyyə sabitliyinin saxlanması. Bu da maliyyə sektorunda iflasına yol verilməməsi və aktiv - passivlərin səmərəli idarə edilməsinə yönəldilmiş tədbirləri əhatə edir.
2. Maliyyə sisteminin səmərəliliyinin təmin olunması. Bu isə aktivlərin keyfiyyətinin artırılması və potensial risklərin azaldılması hesabına əldə olunur.
3. Əmanətçilərin maraqlarının müdafiəsi: əmanətçilər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməyən bankların fəaliyyətinə nəzarətin gücləndirilməsi mexanizmi.

Ənənəvi olaraq, əksər ölkələr maliyyə təşkilatlarının fəaliyyətinə nəzarəti mərkəzi bankların, maliyyə nazirliklərinin, həmçinin digər təşkilatların, məsələn, banklara, sığorta şirkətlərinə və qiymətli kağızlar bazarlarına nəzarət komissiyasının köməyi ilə həyata keçirirdi. Bu halda həmin nəzarət orqanlarının hər birinin səlahiyyətinə, bir qayda olaraq, ölkənin maliyyə sektorunun əsas seqmentlərindən biri: bank sektoru, sığorta sektoru, qiymətli kağızlar bazarı aid edilirdi. İqtisadi ədəbiyyatda bu cür yanaşma funksional və ya sahə (sektoral) yanaşma adlandırılır.

Fevralın 3-ü 2016-cı ildə Prezident İlham Əliyev "Publik hüquqi şəxslər haqqında" qanunun tətbiqi barədə fərman imzalayıb. Elə həmin gün dövlət başçısı ölkədə ilk publik hüquqi şəxsin — Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılmasına da fərman verib. Fərmana görə, yeni palata qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədi ilə yaradılır.

Maliyyə Bazarlarına Nəzarət Palatasının nizamnaməsi qüvvəyə mindiyi gündən Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti və Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti ləğv ediləcək və onların istifadəsində olan dövlət əmlakı Maliyyə Bazarlarına Nəzarət Palatasına veriləcək. Qeyd

olunan sahələr üzrə lisenziyalaşdırılma, iqtisadi və hüquqi davranış normalarının müəyyən edilməsi və tətbiqinə nəzarətlə yanaşı, palata həmçinin, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində fəaliyyəti də əlaqələndirəcək.

Nəzarətin təşkilinin istənilən formasında onun həyata keçirilmə təcrübəsi mərkəzi banklarla sıx əməkdaşlığa ehtiyacı və bunun zəruriliyini diktə edir. Belə ki, ölkədə meqatənzimləyicinin olub-olmamasından asılı olmayaraq, bank sisteminin sabitliyinə görə məsuliyyətinə mərkəzi bankın üzərinə düşür. Nəzarətin təşkilin dünya təcrübəsinin yuxarıda verilən təhlili göstərir ki, nəzarətin bütün təşkilati-hüquqi formaları bankın bu və ya digər formada iştirakı zamanı mövcud olur. Eyni zamanda, bank nəzarətinin təşkili formalarından hansının daha uyğun olması barədə vahid sübutedici əsas yoxdur.

Düşünürük ki, azərbaycanda Maliyyə Bazarlarına Nəzarət Palatası öz fəaliyyətində dünya iqtisadi inkişafında baş vermiş və ilk növbədə, beynəlxalq iqtisadi inteqrasiyanın genişlənməsi və İnternet-texnologiyalar şəbəkəsinin istifadəsi, həmçinin milli maliyyə bazarlarının liberallaşması və maliyyə axınlarının qloballaşması ilə bağlı əhəmiyyətli dəyişiklikləri və nəticə etibarilə bankların və digər maliyyə orqanlarının fəaliyyətində risklərin artmasını nəzərə almalı olacaq.

Fikrimizcə, gələcəkdə Maliyyə Bazarlarına Nəzarət Palatası risklərin idarə edilməsinin keyfiyyətinin yüksəldilməsinə, bu riskləri vaxtında aşkar etmək və aradan qaldırmaq (azaltmaq) qabiliyyətinin qiymətləndirilməsinə yönəldilməlidir.

Ümid edirik ki, Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycan Mərkəzi Bankı ilə müvafiq istiqamətlərdə səmərəli əməkdaşlıq edərək, bu mürəkkəb məsələlərin öhdəsindən gəlməyi və işdə ardıcıllığı təmin etməyi bacaracaq.

## BEYNƏLXALQ ƏMƏK MİQRASİYASI, ONUN ÜSTÜN VƏ ÇATIŞMAYAN CƏHƏTLƏRİ

***Məmmədova E.M.***

*Sumqayıt Dövlət Universiteti*

Müasir dövrün ən xarakterik xüsusiyyətlərindən biri beynəlxalq iqtisadi əlaqələrin milli iqtisadiyyatın inkişaf etdirilməsinin, onun səmərəliliyinin yüksəldilməsinin ən mühüm amillərindən birinə çevrilməsidir. Dünya ölkələri arasında iqtisadi əlaqələr çoxəsrli tarixə malikdir. Uzun illər boyu iqtisadi əlaqələr xarici ticarət əlaqələri formasında mövcud olmuşdur. Bu zaman əsas məqsəd ölkə daxilində istehsal olunmayan və ya istehsal edilməsi səmərəsiz sayılan əmtəələrə olan tələbatın ödənilməsi idi. Lakin xarici iqtisadi əlaqələr inkişaf etdikcə bu əlaqələr xarici ticarət əlaqələrindən kənara çıxaraq bütün dünya ölkələrinin mənafeyinə toxunan mürəkkəb və çoxtərəfli beynəlxalq iqtisadi münasibətlər sisteminə çevrilmişdir. Beynəlxalq iqtisadi münasibətlərin formalarından biri iş qüvvəsinin beynəlxalq miqrasiyasıdır.

Müasir dövrdə kapitalın beynəlxalq hərəkəti ilə yanaşı, əmək ehtiyatlarının bir ölkədən digər ölkələrə miqrasiyası daha geniş miqyas almışdır. İş qüvvələrinin müasir miqrasiyası təsərrüfat həyatının beynəlmilləşməsi prosesinin inkişafının nəticəsidir.

Bəşəriyyətin sosial-mədəni həyatının və təsərrüfatçılığın demokratikləşməsi və beynəlmiləlləşməsinin təzahürlərindən biri, həmçinin ölkələr və xalqlar arasında millətlərarası ziddiyyət və toqquşmaların, fövqəladə halların və təbii fəlakətlərin birbaşa nəticəsi – ölkədaxili, ölkələrarası əhalinin və əmək ehtiyatlarının müxtəlif formalarda hərəkətidir. Bunlar dünya sivilizasiyasının və beynəlxalq əmək birjalarının təqdim etdiyi imkan və hüquqlardan istifadə edərək öz yaşayış və iş yerini seçən könüllü miqrantlar, öz ata-baba yurdlarını məcburi tərk etməyə vadar olan məcburi miqrantlar və qaçqınlardır. Müəyyən tarixi dövrlərdə belə axınların miqyası və miqrantların vəziyyətinin dramatizmi qlobal problemlərə çevrilir. Bu problemlərin həlli beynəlxalq əməkdaşlığın olmasını tələb edir.

Son dövrlərə kimi bu problemin həcmi, xüsusiyyətləri və nəticələrini beynəlxalq miqyasda lazımınca qiymətləndirməyən beynəlxalq ictimaiyyət miqrasiya axınlarının kollektiv tənzimlənməsi və kəskin problemlərin həlli üçün çoxlu ölkələrin səylərinin əlaqələndirilməsinin zəruriliyi ilə rastlaşdı.

Beynəlxalq iqtisadi inteqrasiyada beynəlxalq işçi qüvvəsinin miqrasiyasının tutduğu yer və oynadığı rol çox böyük əhəmiyyət kəsb edir. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası ölkələrdə çatışmayan işçi qüvvəsini təmin edir, istehsal sahələrindəki işçi qüvvəsi çatışmazlığını aradan götürür, bununla da dünya iqtisadiyyatının güclənməsinə öz təsirini göstərir. Əmək ehtiyatlarının beynəlxalq miqrasiyası həm onları qəbul edən ölkələrdə, həm də işçi qüvvəsini verən donor ölkələrdə əsaslı dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər çoxtərəfli xüsusiyyətə malik olduqlarından, bunlar yalnız iqtisadçıların deyil, həm də sosioloqların, demoqrafların və s. diqqətini cəlb edərək onların tədqiqat obyektinə çevrilmişdir. Beynəlxalq miqrasiya bütün ölkələr, xalqlar və qitələr üçün aktual problemə çevrilmişdir.

Beynəlxalq əmək miqrasiyasının özünəməxsus üstün və çatışmayan cəhətləri vardır. Əmək miqrasiyasının üstünlüyü dedikdə əsasən onun vasitəsi ilə işsizlik problemi müəyyən qədər iş qüvvəsini ixrac edən ölkələrdə yumşalmış olur. Xaricdə işləyənlər öz ölkələrinə müəyyən miqdarda pul vəsaitləri göndərirlər ki, bu da ölkəyə müvafiq həcmdə xarici valyuta gəlməsi deməkdir. Bundan başqa xaricdə işləyənlər nisbətən daha müasir biliklər, təcrübə və əmək vərdişləri qazanaraq qayıdırlar ki, onları sonra öz ölkələrində tətbiq etmək imkanı qazanırlar.

Əmək miqrasiyasının mənfi cəhətlərinə, xaricdə qazanılmış vəsaitlərlə yaşamağa vərdiş etmək meyillərinin güclənməsi, əldə olunmuş gəlirləri gizlətmək meylləri, ”ağıllıların xaricə axması” bəzən də işləyən imiqrantların ixtisaslarının aşağı düşməsi və s aid edilir. Əmək miqrasiyasının mənfi cəhətlərini azaltmaq və ölkə üçün onun üstün cəhətlərini daha da artırmaq məqsədilə dövlət siyasətinin vasitələrindən istifadə olunur. Miqrasiya siyasətinin istiqamətlərinin seşilməsində olan səhvlər qeyri-leqal miqrasiyanın artmasına və yaxud da ölkəyə qayıdan miqrantların sosial aktivliyinə səbəb olur. Ona görə də bu sahədə dövlət və hökümətin düşünülmüş tədbirləri, əlaqələndirici təsirləri olmalıdır.

**MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ**

***Məmmədov İ.S.***
*Sumqayıt Dövlət Universiteti*

Tarixin bütün dövrlərində hər bir cəmiyyət iqtisadi problemlərinin əsasını təşkil edən aşağıdakı amillərlə üzləşir: məhdud resursların mövcudluğu şəraitində nə və kim üçün istehsal etməli? İyirminci əsrdə bir-biri ilə mübarizə aparan iki sistem: inzibati-amirlik və bazar münasibətləri bu suala müxtəlif cavablar verdilər. Tələb və təklifə əsaslanan bazar münasibətləri tarixin uzun bir dövründə özünü təsdiq etdi və insan cəmiyyəti inkişafının yeganə düzgün yolu olduğunu müəyyənləşdirdi.

Bəs onda keçid dövrünün əsas problemləri hansılardır və onların həlli yolları nədir? Bu hər şeydən əvvəl özəlləşdirmə, makroiqtisadi sabitlik, sahibkarlığın qiymətləndirilməsi, xarici iqtisadi əlaqələrin liberallaşdırılmasıdır.

Bəllidir ki, bazar təsərrüfatı əmtəə, əmək, kapital və bazar sistemlərinin qarşılıqlı əlaqəsini nəzərdə tutur və bu mənada keçid dövrünün əsas məqsədi aşağıdakılardan ibarətdir:

1. Əmtəə və xidmət bazarının inkişafı. Bu zaman həm istehsal, həm də qeyri-istehsal təyinatlı əmtəə və xidmətlərdən söhbət gedir. Tarixin bütün dövrlərində bu bazar olmuşdur və indi də mövcuddur. Lakin burada söhbət təkcə satış və alış yerindən deyil, sərbəst qiymətin əmələ gəlməsindən gedir və bu zaman məhsulun əsas hissəsinin xüsusi sektorlarda istehsal olunması başa düşülür.

2. Maliyə bazarının formalaşması. Qeyd etmək lazımdır ki, maliyə bazarı və onun inkişafının rolunu bu sistemlə işləyən, inkişaf etmiş qərb ölkələrinin təcrübəsini öyrənmədən qiymətləndirmək çox çətindir. Bazar münasibətləri şəraitində bu bazar sistemin ən böyük zirvəsidir və bazar münasibətlərinin tənzimlənməsində böyük rol oynayır.

Məhz keçid dövrünün əsas xüsusiyyətlərindən biri də belə bir bazarın təşəkkül tapmasına kömək etmək, müxtəlif aksiya, istiqraz və digər qiymətli kağızlar vasitəsi ilə bu bazarı sınaqdan çıxarmaqdan ibarətdir.

3. Əmək bazarının yaradılması və tənzim edilməsi. Keçid dövrü iqtisadiyyatında bu bazarın da xüsusi əhəmiyyəti vardır və bu bazar münasibətləri şəraitində sahibkar və işçi arasındakı bütün əlaqələr hər iki tərəfin məsuliyyətinə və səmərəli işinə əsaslanır.

Qeyd etmək lazımdır ki, yeni iqtisadi sistemə keçid mərhələsində olan Azərbaycan Respublikasının qarşısında duran ən başlıca vəzifələrdən biri milli iqtisadiyyatın formalaşmasını makroiqtisadi milli mənafelər baxımından səmərəli və optimal müddətdə həll etməkdən ibarətdir. Bu baxımdan həmin problemin həlli keçid mərhələsində işlənib hazırlanan inkişaf konsepsiyasından struktur siyasəti, milli iqtisadi müstəqillik, iqtisadi təhlükəsizlik, makroiqtisadi məqsədlər, səmərəlilik, təkrar istehsal problemlərinin və s.öz ündə qarşılıqlı əlaqə və asılılıqda əks etdirilməsini tələb edir. Başqa sözlə, keçid dövrünün ümumbəşəri qanunauyğunluqları, prinsipləri, ziddiyyətləri məhz respublikamıza xas olan

sosial, iqtisadi, siyasi reallıqlar prizmasından dərk edilərək keçid inkişaf modeli işlənib hazırlanmalıdır.

Respublikada bazar iqtisadiyyatının təşəkkülü və inkişafı strategiyası, makroiqtisadi inkişaf siyasətinin əsas istiqamətləri, templəri müəyyən edilərkən iqtisadiyyatımızın mövcud vəziyyətinin təhlilinə, iqtisadi və sosial potensialın iqtisadi artımında rolunun nəzərə alınmasına əsaslanmalıdır. Bu baxımdan yeni strukturun təşəkkülündə istehsalın ümumi səviyyəsinin sürətləndirilməsi ilə bərabər təbii resurslar və s. əsasında emal sahələrinin, son məhsul istehsalının sürətinin artırılması, onların geniş infrasturkturunun yaradılması zəruridir. Yeni iqtisadi sistemə keçid şəraitində struktur dəyişikliyi ilk növbədə çoxukladlı iqtisadi strukturun, mülkiyyət münasibətlərinin həll edilməsinə istiqamətləndirilməli, dövlət sektorunun yeni keyfiyyətdə inkişafı ilə yanaşı, digər mülkiyyət formalarının, xüsusilə, özəl sektorun formalaşmasına üstünlük verilməlidir.

Özəlləşdirilmənin aparılması prosesində bir-biri ilə qarşılıqlı əlaqədə olan iki məsələ nəzərə alınmalıdır: a) özəlləşdirmədə respublikanın bütün vətəndaşlarının iştirakının təmin edilməsi və azad sahibkarlığa dövlət yardımı; b) özəlləşdirilən obyektlərin dəyərinin düzgün qiymətləndirilməsi.

Respublika iqtisadiyyatının formalaşdırılmasının müasir mərhələsində ən vacib şərtlərdən biri də xarici investisiyaların Azərbaycan iqtisadiyyatına geniş surətdə cəlb edilməsidir. Müəssisə, təşkilat, şirkətlər arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsinin əsası investisiya, bank münasibətlərinin, maliyyə institutlarının qurulmasıdır və bu məqsədlə bank sistemində islahatların təkmilləşməsinə kömək edən aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə uyğundur: pul-kredit münasibətlərinin liberallaşdırılması; səmərəsiz fəaliyyət göstərən bankların yenidən qurulması; bank fəaliyyəti üzərində dövlət nəzarətinin gücləndirilməsi, çünki bir bankın iflası bankda hesabı olan bütün şirkətlərin müflisləşməsinə yol aça bilər.

Məlumdur ki, Azərbaycanda bazar münasibətlərinin qurulması strategiyasının əsasında Beynəlxalq Valyuta Fondu və Dünya Bankının hazırlanmış olduqları proqramlar mühüm yer tutur. Respublikada həyata keçirilən islahatlar nəticəsində mərkəzləşdirilmiş planlaşdırma ideyasından imtina edilmiş, iqtisadi subyektlərin müstəqilliyi artmış, qiymətlər liberallaşmış, iqtisadi fəaliyyətin tənzimlənməsinə dövlət müdaxiləsi azalmış, makromaliyyə sabitliyi təmin edilmişdir. Bu proqramların həyata keçirilməsində yerli sosial- iqtisadi şəraitin nəzərə alınması respublikanın mühüm iqtisadi problemlərinin həlli üçün əlverişli şərait yarada bilər. Bütün bunları nəzərə alaraq, inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da azad bazar münasibətlərini yaratmaq modeli işlənməlidir və bu model respublikanın səciyyəvi xüsusiyyətlərini nəzərə almalıdır.

**MÜASİR ŞƏRAİTDƏ KOMPLEKS İNKİŞAFIN PROQNOZLAŞDIRILMASI**

***Məmmədova Ş.R.***
*Sumqayıt Dövlət Universiteti*

Planlaşdırmaya kompleks yanaşmanın obyektiv zəruriliyi sənaye sahələrinin vəhdətliyi ilə əlaqədardır. Müasir dövrdə onun əhəmiyyəti daha da artmışdır ki, bu da elmi-texniki inqilabın ictimai həyatının bütün tərəflərinə dərin təsiri ilə, iqtisadiyyatdakı irəliləyişləri ölkənin eyni vaxtda bir çox probiemləri qarşılıqlı əlaqədə həll etməyə imkan verən yüksək istehsal və elmi-texniki potensialın yaradılması ilə əlaqədardır.

Buna görə də kompleks yanaşma vahid təkan kimi bütün iqtisadiyyatın və onun tərkib hissələrinin proporsional və tarazlaşdırılmış inkişafının təmin edilməsindən ibarətdir. O, mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş planlaşdırmanın - proqnozlaşdırmanın müxtəlif cəhətlərinin: sahə region, xarici iqtisadi cəhətlərinin daxili qarşılıqlı əlaqələrinin və vəhdətinin təmin olunmasını əks etdirir. Öikə iqtisadiyyatının müxtəlif alt sistemlərinin - elmi-istehsal, texniki sahələrdən, iqtisadi rayonlardan ibarət olan, özünün bütün hissəiəri ilə üzvi, daxili qarşılıqlı əlaqəli sosial-iqtisadi sistem kimi nəzərdən keçirilir.

Alt sistemlərdən hər biri vahid iqtisadi kompleks çərçivəsində digəri ilə üzvü əlaqədədir və fəal qarşılıqlı təsir göstərir. Müxtəlif sənaye sahələri arasında qarşılıqlı əlaqələrin güclənməsi iri sahələrarası və ərazi-istehsal sistemlərinin əmələ gəlməsinə gətirib çıxarır. Proqnoziaşdırmada və planlaşdırmada belə alt sistemlər bir sıra sahələrin fəaliyyəti ilə bağlı olan tədbirləri əhatə edir və məqsədli kompleks proqramlar şəklində hissələrə ayrılır. Planlaşdırma və idarəetmənin sahə və ərazi cəhətlərinin uzlaşdırılması, sosial və iqtisadi vəzifələrə sistemli baxılması bununla təmin olunur. İqtisadi sosial inkişaf planı sahələrarası istehsal və ərazi istehsal alt sistemləri (komplekslər, proqramlar və proqnozlar), sosial inkişaf, ətraf mühitin qorunması, ölkənin müdafiəsi və s. proqramlar da daxil olmaqla, ictimai istehsalda mövcud olan müxtəlif əlaqələri əks etdirir. Daha mühüm və iri istehsal komplekslərinə yanacaq-enerji, maşınqayırma, metallurgiya, kimya, xalq istehlakı malları mədəni-məişət xidmətləri istehsalı, aqrar-sənaye və nəqliyyat daxildir.

Kompleks planlaşdırmanın və proqnozlaşdırmanın əsasını elm və texnikanın əsas istiqamətlərinin inkişafı və onların nailiyyətlərinin əməli olaraq həyata keçirilməsi üzrə tədbirlər sistemini nəzərdə tutan elmi-texniki tərəqqi proqramı təşkil edir. Onun həyata keçirüməsi sosial-iqtisadi inkişaf proqramının realizə edilməsi üçün lazımı şərait yaratmağa imkan verir.

Şəxsiyyətin hərtərəfli inkişafının təmin edilməsi, xalqın rifahının yüksəldilməsi, ictimai münasibətlərin təkmilləşdirilməsi, əmlakın özəlləşdirilməsi, mülkiyyətin formalaşmasına yönəldilən sosial planlaşdırmanın rolunu daha da artırır. İstehsalın plana uyğun, bilavasitə dövlət tənzimlənməsinə sosial-iqtisadi inkişaf planlarının hazırlanması və yerinə yetirilməsinin təhlilinin müvafiq metodlarının köməyi ilə nail olunur.

Ölkənin sosial-iqtisadi inkişaf planının müxtəlif tərkib hissələrinin qarşılıqlı uzlaşdırılması, balanslılığı üçün bütün istehsal sahələrinin və resursların uyğunlaşdırılması məqsədilə balans metod tətbiq olunur. Plan tələbatının maddi, əmək və maliyyə resursları ilə müqayisə edilməsi iqtisadiyyatda mümkün disproporsiyaları aşkar etməyə, onların

qarşısının alınması üzrə tədbirlər nəzərdə tutmağa imkan verir. Planların balanslı uyğunlaşması və əlaqələndirilməsi prosesində resursların artırılması mənbələri aşkara çıxarılır. Ölkə iqtisadiyyatının balanslaşdırılmış inkişafında əmək, maliyyə, material resurslarından istifadə olunmasında baş verə biləcək disproporsiyaları aradan qaldırmaq mumkün olur.

## TƏBİİ-DAĞIDICI PROSESLƏRƏ QARŞI MÜBARİZƏNİN İQTİSADİ ASPEKTLƏRİ

***Mərdanov İ.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Mürəkkəb təbii şəraitə malik Azərbaycan ərazisi dünya miqyasında bir sıra təbii-dağıdıcı proseslərin – sellərin, daşqınların, sürüşmələrin, torpaq eroziyasının və s. fəal təzahür etdiyi regionlardan hesab edilir.

Ekzogen mənşəli bir sıra proseslərin inkişafına təsir göstərən təbii və antropogen amillərin qiymətləndirilməsi, bunun əsasında təbiətdən istifadənin optimallaşdırılması ölkənin davamlı iqtisadi inkişafının təmini üçün çox əhəmiyyətlidir. Mövcud tədqiqat üsulları və vasitələrinin təkmilləşdirilməsi, beynəlxalq təcrübədən istifadə olunması qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi baxımından həlledici rol oynaya bilər.

Son illər ölkəmizin daha fəal surətdə beynəlxalq əmək bölgüsünə cəlb olunması, yanacaq sənayesi ilə yanaşı, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, turizm təsərrüfatı kimi sahələrin inkişaf etdirilməsi sosial sahədə də uğura nail olmanın əsası ola bilər.

Bu məqsədə nail olmanın ən səmərəli yollarından biri mövcud torpaq ehtiyatlarından düzgün istifadə etməklə, təbii potensialı sosial inkişafın təminatçısına çevirməkdir.

Hal-hazırda Azərbaycanın dağlıq bölgələri fəal surətdə turizm biznesinin inkişafı ərazilərinə çevrilir. Lakin bu sahənin inkişafı müasir infrastrukturun yaradılması, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi yerinə yetirilmədən mümkün deyil. Turizm təsərrüfatını iqtisadiyyatın aparıcı sahəsinə çevirmək, əhalinin məşğulluq probleminin aradan qaldırılmasında, ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafında effektiv alət kimi təsbit etmək üçün bu kimi məsələlərin həllində kompleks yanaşmanın mövcudluğu böyük əhəmiyyət kəsb edir.

Bu baxımdan, səciyyəvi ərazi olan Azərbaycan hüdudlarında Böyük Qafqazın yüksək dağlıq əraziləri davamlı inkişafın təminatında turizmin inkişafının müxtəlif aspektlərinin nəzərə alınmasının vacibliyinin nümunəsi ola bilər.

# AZƏRBAYCANIN İQTİSADİYYATI VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Mikayılova S.M.***
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev cənablarının "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır" fikirləri ilə xalqına, Vətəninə necə bağlı olduğunu, necə sevdiyini bir daha sübut etmişdir. 1991-ci ildə müstəqillik əldə etmiş, zəngin mədəniyyətə və tarixə malik olan Azərbaycan xalqı zamanın ağır və sərt sınaqlarından çıxmışdır. Müstəqillik əldə edildikdən sonra ölkədə iqtisadi islahatların aparılması, bazar iqtisadiyyatına keçidin bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycannın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə və aqrar islahatların həyata keçirilməsi ardıcıl istiqamətlərdən olmuşdur.

Son illər ərzində Azərbaycan istər siyasi, istər iqtisadi sahədə böyük uğurlara nail olmuşdur. Bütün bunlar Azərbaycan reallıqlarını əks etdirir. Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən rəqabət qabiliyyətli ölkələr sırasındadır, onun kredit reytinqləri artmaqdadır.

Azərbaycan iqtisadiyyatı şaxələnmiş iqtisadiyyatdır və qeyri –neft sektorunun sürətli inkişafı təmin edilir. Bu illər ərzində dövlət büdcəsi dəfələrlə artmış, valyuta ehtiyatları 50 milyard dollara çatmışdır, yoxsulluq səviyyəsi, infilyasiya birrəqəmli olmuşdur. Bu gün Azərbaycan ümumdaxili məhsula nisbətdə ən az xarici borcu olan ölkələrdən biridir. Bütün bunlar ölkədə aparılan məqsədyönlü siyasətin təzahürüdür. İqtisadi inkişaf səviyyəsinə görə Cənubi Qafqazda, MDB məkanında birinci yerdədir.

Azərbaycanın yeni neft strategiyasının işə düşməsi, xüsusilə, 2006-cı ildə Bakı – Tblisi-Ceyhan əsas neft ixrac boru kəmərinin istifadəyə verilməsi, Xəzərin karbohidrogen ehtiyatlarının ixrac infrastrukturunun yenilənməsi Azərbaycan neftinin və qazının birbaşa Avropa və dünya bazarına çıxışını təmin etdi. Bu da Azərbaycanın həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan bir ölkə olduğunu təsdiq etdi. Avropanın bir sıra ölkələrində Azərbaycan qazının payı 40 faizdən çoxdur.

Bu illər ərzində ölkəmizin təhlükəsizlik strategiyası uğurla həyata keçirilmiş, ilk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunmuş, xarici enerji mənbələrindən asılılıq aradan qaldırılmışdır. İqtisadi potensial baxımından Azərbaycan regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında Azərbaycanın payı 80 faizdən çoxdur. "Üç dəniz əfsanəsi", "Avroasiyanın aorta qan damarı", "Əsrin müqaviləsi" adlanan neft müqaviləsi Azərbaycanın təchizatçısı olduğu Bakı-Tblisi-Ceyhan layihəsi ilə ölkəmiz qlobal enerji bazarında mühüm iştirakçıya çevrilmişdir. Azərbaycanın müəllifi olduğu və Türkiyə ilə birlikdə reallaşdırılan TANAP layihəsi ilə təbii qaz bazarında ölkənin rolu daha da yüksələcəkdir. Bu layihə bizim uzunmüddətli inkişafımızı, onilliklər ərzində Azərbaycanın iqtisadi maraqlarının təmin edilməsi üçün əsas vasitə olacaqdır.

Azərbaycan xarici ölkələrin iqtisadiyyatına sərmayə yatıran, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə, sivilizasiyalararası dialoqun qlobal siyasi, iqtisadi problemlərin müzakirə olunduğu məkana çevrilmişdir.

Ölkənin qeyri-neft sektorunda müşahidə olunan dinamizm də iqtisadiyyatın diversifikasiyası ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Azərbaycan zəngin neft resurslarından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olmuşdur.

İqtisadi münasibətlər sistemində Azərbaycanın layiqli yer tutması və dünya siyasətində aparıcı rol oynayan dövlətlərlə, beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi, inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

1993-2003-cü illər ölkəmiz üçün həlledici illər olmuş, məhz həmin illərdə Azərbaycan dövlətinin möhkəm təməli qoyulmuşdur. Azərbaycanın istər daxili, istərsə də xarici siyasəti ilə əlaqədar strateji xətti müəyyən edilmiş, o dünya birliyinə inteqrasiya etmişdir. Beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, Azərbaycan mötəbər kürsülərdən öz sözünü deməyə nail olmuşdur.

Müstəqilliyini qeyd edəcəyimiz 25 il ərzində ölkəmiz 2006-cı ildə dünyada analoqu olmayan iqtisadi artıma nail olmuş, regionların sosial –iqtisadi inkişafı Dövlət Proqramları müvəffəqiyyətlə həyata keçirilmiş, bu illər ərzində görülmüş işlər hazırda iqtisadiyyatın inkişafını şərtləndirmişdir. O dövrdə nəzərdə tutulan layihələr bu gün uğurla davam etdirilir.

Çox hörmətli cənab Prezidentimiz İlham Əliyev cənablarının qeyd etdiyi kimi, "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

## ELEKTRON TİCARƏTİN AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

***Nəcəfova Ç.M.***
*Sumqayıt Dövlət Universiteti*

Dünya ölkələri arasında iqtisadi, siyasi, sosial-mədəni əlaqələrin inkişafı ilə elektron ticarət yeni iqtisadiyyatın formalaşması amillərindən biri kimi böyük əhəmiyyət kəsb edir. Onun dünya iqtisadiyyatının inkişafının əvvəlki mərhələsindən başlıca fərqi subyektlərarası informasiya emalı və ötürülməsinin yeni elektron imkanları və informasiyalaşdırılması hesab olunur.

Azərbaycanda elektron ticarətin zəif inkişaf etməsinin əsas səbəbi elektron ticarət ilə bağlı təhlükəsizlik qaydalarının, sisteminin tam olaraq formalaşmamasıdır: «Elektron ticarətdə vətəndaş öz kreditindən istifadə edən zaman təhlükəsizlik ondan ibarətdir ki, kredit haqqında məlumatları digər üçüncü şəxs ilə paylaşılmasın. Bu baxımdan, təbii ki, elektron ticarət ilə bağlı təhlükəsizlik sisteminin formalaşmaması şirkətlərin, vətəndaşların elektron ticarət ilə alış-verişə meylini azaldır. Digər səbəb vətəndaşların elektron ticarət ilə bağlı təcrübəsinin hələ də formalaşmamasıdır. Hazırda vətəndaşlar internet deyil, daha çox mağazalardan alqı-satqı etməyə üstünlük verirlər. Bu da ölkədə bütövlükdə elektron ticarət dövriyyəsinin azalmasına gətirib çıxaran amillərdəndir. Hazırda plastik kartı olan vətəndaşlarımızn sayı artıq 3 milyona yaxındır. Amma bütün bunlara baxmayaq, elektron

ticarətin inkişafını tam olaraq stimullaşmayıb. Elektron ticarətin zəif inkişaf etməsi eyni zamanda onun bahalı olması ilə də bağlıdır. Elektron ticarət adi ticarətdən daha bahalı hesab olunur. Onlayn ödəmə sistemlərinin, digər avadanlıqların alınması müəyyən xərc yaratdığı üçün sahibkarlar elektron ticarətdən uzaq dururlar. Həmçinin əhalidə belə ticarət zamanı aldadılmayacağı inamının aşağı olması elektron ticarəti əngəlləyən faktorlardan hesab olunur. Çünki inam elektron ticarətdə aparıcı faktorlardan biri sayılır".

Elektron ticarətin inkişaf etdirilməsi baxımından Azərbaycan hökumətinə iki əsas vəzifə düşür. Bunlardan birincisi dövlətin əsas funksiyalarının icrası zamanı elektron ticarətin gətirdiyi imkanlardan istifadə edilməsidir. Bu çərçivədə; icra orqanları inzibati və xidməti funksiyalarını yerinə yetirərkən elektron hökumətin verdiyi imkanlardan istifadə etməli və onları inkişaf etdirməlidirlər. Əhalinin qeydiyyatı və şəxsi məlumatlarla əlaqəli xidmətlər, vergiqoyma və ödəmə, dövlətin mal və xidmət alması zamanı e-ticarətdən istifadə edilməsi buna nümunə göstərilə bilər.

Dövlətin bu mövzudakı ikinci, amma birincidən daha önəmli vəzifəsi isə elektron ticarət üçün lazımi fiziki və hüquqi infrastrukturu yaratmaqdır. Elektron ticarətin fiziki infrastrukturunun qurulması müəyyən texniki təchizatdan asılı olduğuna görə böyük miqyasda texnoloji yeniliklərdən təsirlənir. Müasir dövrdə olan texnoloji inkişaf səviyyəsi, elektron ticarətin fiziki infrastrukturunun hazırlanmasına çox müsbət təsir edəcək keyfiyyətdədir. Elektron ticarət üçün lazımi infrastrukturun yaradılması isə fiziki infrastrukturdan daha çətin kimi görünür. Bunun ən önəmli səbəblərindən biri ənənəvi ticarətdə istifadə edilən metod və vasiətələrin bir qisminin elektron ticarətə yaramaması, beləliklə də, mövcud qanunvericilikdə dəyişiklik məcburiyyəti, hazırlanmalı olan yeni hüquqi tənzimləmələrin digər ölkə qanunlarına da uyğun olması zərurətinə baxmayaraq, bu mövzuda hər hansı bir beynəlxalq fikir birliyinə gəlinməməsi, texniki infrastrukturda olan bəzi problemlərin hüquqi problemlərə də səbəb olması kimi çətinliklər sayıla bilər. Son olaraq, e-ticarətin inkişafı istiqamətində həyata keçiriləcək dövlət siyasəti haqqında danışmaq olar. Çünki özü də bir istifadəçi olan dövlətin bu mövzuda həyata keçirəcəyi hazırlıqların keyfiyyəti və sürəti ilə, texniki, inzibati və hüquqi tənzimləmələrdə həyata keçirəcəyi funksiyaların icra tərzi e-ticarətin ölkədəki inkişafına təsir edəcəkdir.

Elektron ticarət sahəsində həyata keçiriləcək dövlət siyasətinin tərkib hissələrini, müvafiq fiziki infrastrukturun hazırlanması və davamlı inkişaf etdirilməsi, dövlət və özəl sektorun tələblərinin müəyyən edilməsi və uğunlaşdırılması, hüquqi bazanın yaradılması kimi göstərmək olar.

# ÇOXŞAXƏLİ İNKİŞAF PROQRAMINDA AQRAR SAHƏNİN SƏMƏRƏLİ İNKİŞAFI

***Orucova H.Ə.***
*Gəncə Dövlət Universiteti*

Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək çox aktual bir məsələyə çevrilmişdir. Bu istiqamətdə dövlət tərəfindən qəbul edilən normativ sənədlər bu problemin həyata keçirilməsinə hüquqi baza yaratmışdır. Əsas normativ sənəd kimi ölkə prezidentinin 20 yanvar 2015-ci il tarixdə imzaladığı sərəncam 2015-ci ilin Azərbaycanda "kənd təsərrüfatı ili" elan edilməsi olmuşdur. Əsas məsələ odur ki, aqrar sahənin inkişafına nail olaq. Bu da dünyada baş verən sürətli dəyişiklikləri nəzərə almağı vacib edir. İstehlakçının tələblərinin hansı istiqamətdə dəyişdiyini təhlil edərkən gəldiyimiz qənaət odur ki, aqrar sahənin səmərəli inkişafına nail ola bilməyimiz üçün təşəbbüskarlığı ciddi şəkildə dəstəkləməliyik.

Ölkə prezitentinin yuxarıda qeyd edilən sərəncamında deyildiyi kimi: "İdarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sisteminin tətbiq edilməsi" öz həllini taparsa aqrar sahənin inkişafına əngəl olan bütün maneələr, demək olar ki, aradan qalxar. Bu sahədə inkişaf etmiş ölkələrin (İsrail, Hollandiya, Türkiyə və.s) təcrübəsindən faydalanarkən, bazarı formalaşdıran başlıca istiqamətlər diqqətlə təhlil edilməlidir. Xarici təcrübənin tətbiqi zamanı, yerli biznes göstəriciləri (istehsalçı və istehlakçının tələbləri, bazarın biznes etikası və.s ) nəzərə alınmazsa, risklərin artımı ciddi şəkildə labüd ola bilər. Nəzərə almalıyıq ki, mövcud bazar şərtləri istehlakçının həyata baxışına paralel olaraq durmadan dəyişir. Bazarın 15 il əvvəlki aktiv istehlakçıları ilə bugünki istehlakçılarını müqayisə etsək, ciddi fərqlərin olduğunu müşahidə edərik.

İstənilən sahə üzrə istehsal olunan məhsulun, xüsusilə, kənd təsərrüfatı məhsullarının, qısa müddətdə satışı həmin sahənin daha da inkişafına səbəb olan amillərdəndir. Əks halda rentabellikdən söhbət gedə bilməz. Səmərəli strategiya formalaşdıra bilmiş şirkətlər, təsərrüfatlar (bunlar, adətən, inkişaf etmiş ölkələrdə müşahidə olunur) məhsul istehsalını istehlakçının tələbləri əsasında yerinə yetirərək, risk amilinin azaldılmasına ciddi şəkildə nail olmaqla yanaşı, həm də onun maya dəyərinin aşağı salınmasını təmin edə bilirlər.

Ölkənin kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması məqsədilə həyata keçirilən layihələr əsasında qeyri neft-qaz sektorunun inkişafı güclü ölkələrlə müqayisədə bizdə hələlik aşağıdır. Əlbəttə, ixracın yüksək olması ölkəyə daxil olan valyuta miqdarının çox olması deməkdir. Bu həm də istehsalçı təsərrüfatların və müəssisələrin bazar payının genişləndirilməsi deməkdir. Ancaq nəzərə almalıyıq ki, kiçik fermer təsərrüfatları sahibkarlığın inkişafını ləngidir. Orta və iri fermer təsərrüfatlarının inkişafı ölkənin ümumi inkişafında daha dayanıqlı hal kimi dəyərləndirilə bilər. Kiçik və orta fermer təsərrüfatlarının əsas müştəriləri daxili bazar hesabına formalaşır. Daxili bazarın təmin olunması idxalın azalmasına, eyni zamanda ölkədən çıxan valyutanın azalmasına səbəb olur. Bu da ölkə iqtisadiyyatının güclənməsində, eyni zamanda xarici bazardan asılılığın azalmasında əsas rol oynayır. Kiçik və orta fermer təsərrüfatlarının gücləndirilməsi dövlət siyasəti olaraq onlara subsidiyalar və çox aşağı faizlə kreditlər verilir. Ümumiyyətlə, daxili istehlakın güclü olması istər idxal, istərsə də ixrac baxımından ölkənin xarici bazardan asılılığını azaldan potensialdır.

Aqrar sahənin səmərəli inkişafında başqa bir məqam isə ölkənin xarici investorlar üçün cazibə mərkəzinə çevrilə bilməsindən keçir. Bu zaman yüksək texnologiyaların inkişafına yönləndirilən investisiya müsbət mənada fərqlilik formalaşdıracaqdır. Xarici investisiyanı aqrar emal sənayesinin inkişafına yönləndirə bilmək yüksək inkişaf etmiş ölkələrə xas olan yanaşmadır. Bu fərqliliyi Azərbaycanda kənd təsərrüfatının səmərəli inkişafı strategiyasında başlıca məqam kimi formalaşdıra bilmək çox önəmlidir. Bu göstərilən amillər ölkə prezidenti möhtərəm İlham Əliyevin 2015-ci ilin "kənd təsərrüfatı ili" elan olunması haqqında verdiyi sərəncam ilə bağlı tədbirlər planında verilmişdir. Bütün bunlar isə elm tutumlu sahələrin beynəlxalq rəqabətə davamlı inkişaf etdirilməsi ilə mümkün olacağı qənaətindəyik.

Nəzərə alınmalıdır ki, xarici investisiyanı cəlb edən önəmli məqamlardan biri də həmin ölkəni təmsil edən insan gücünün beynəlxalq aləmdə təkcə intelektual davranışları ilə deyil, həm də mentorluq(Mentor- rasional səmərəliliyi ilə ölkəyə böyük qazanc verən beyin gücünə malik şəxsdir) gücü ilə də ölçülür.

Güclü ölkələr dünya bazarında daha çox investor kimi rol oynayırlar. Bu da həmin ölkənin daha da güclənməyinə zəmin yaradır. İnkişaf etmiş ölkə ilə inkişaf etməmiş ölkənin əsas fərqlərindən biri də elə investor yanaşmasıdır. İnkişaf etmiş ölkələr investor kimi özlərini əyani formada nümayiş etdirirlər. Dünyanın məşhur mentorları qeyd edirlər ki, yaxın gələcəkdə bütün dünyada investor ölkələr daha çox əhəmiyyət kəsb edəcəkdir. Məncə bu çox önəmli məqamdır. Kənd təsərrüfatımızın səmərəli inkişafı naminə gecikməməliyik. Dünya elə bir inkişaf dövrünü yaşayır ki, önə çıxan tərəflər "elektrovozu"dayandırmağı və ya sürətini azaltmağı heç ağlına belə gətirmirlər. Deməli "elektrovoza" minmək üçün daha çox həm də daha səmərəli işləməliyik.

## DAVAMLI İNKİŞAF VƏ ONUN ƏSAS GÖSTƏRİCİLƏRİ

***Osmanov İ.O.***

*Sumqayıt Dövlət Universiteti*

Davamlı inkişaf cəmiyyətin davamlı, dayanıqlı, fasiləsiz, sabit, uzunmüddətli inkişafının təmin olunması kimi başa düşülür. Davamlı inkişaf bəşəriyyətin ən müasir, mütərəqqi, gələcək nəsillərin tələblərini ödəyən, onların imkanlarını məhdudlaşdırmayan, insan potensialı və kapitalını, yeni biliklərin səfərbər olunmasını əsas şərt kimi qəbul edən, ətraf mühitin mühafizəsini və yaxşılaşdırılmasını nəzərdə tutan inkişaf yoludur. Milli iqtisadiyyatın davamlı inkişafı təsərrüfat işlərini aparan subyektlərin iqtisadi maraqlarının məcmusu, makroiqtisadi göstəricilərin dinamikası və onların dəyişikliklərinin istiqaməti, iqtisadiyyatla idarəetmə institutlarının vəziyyəti kimi strateji vacib xarakteristikaların müvafiqliyindən asılıdır. Konseptual baxımdan iqtisadi davamlılıq müstəqil tənzimləmə sisteminin elə bir səviyyəsidir ki, bu zaman onun məqsədyönlü fəaliyyəti davamlı inkişafı təmin etməyə qabil olur.

Hər bir ölkə olduqca dəyişkən və çox vaxt subyektiv təyin olunan iqtisadi davamlılıq potensialına malik olur. Bu potensial milli təsərrüfatın vasitələrini və ehtiyatlarını, təsərrüfat

fəaliyyətinin effektivliyinin səviyyəsini, aparılan iqtisadi siyasəti, institusional idarəetmə təşkilini, beynəlxalq maliyyə, siyasi və ictimai təşkilatlarda iştirakının səviyyəsini özünə daxil edir. XX əsrdə dünya alimlərinin diqqətini cəlb edən əsas məsələlərdən biri davamlı inkişaf problemini araşdırmaq və bu sahədə tədqiqatları genişləndirmək məsələsi olmuşdur. Davamlı inkişaf XXI əsrin mühüm sosial-ekoloji-fəlsəfi konsepsiyası olmaqla, XX əsrin ikinci yarısından başlayaraq təbiət-cəmiyyət münasibətlərində yaranmış olduqca geniş əhatəli gərginliyin və qeyri-tarazlığın sosial-ekoloji nəticələrinin araşdırılması və müvafiq beynəlxalq səviyyəli məcburi tədbirlər kompleksinin həyata keçirilməsi zərurəti nəticəsində meydana gəlmişdir. Bu konsepsiya bəşəriyyətin tarixində ən mütərəqqi, yeni inkişaf konsepsiyalarından biri hesab edilir.

Dayanıqlı inkişaf konsepsiyası – sosial iqtisadi problem və ətraf mühitin qorunub saxlanması problemlərinin həlli arasında dünya balansının təmin olunması zərurətindən irəli gələn sivilizasiyanın inkişafı modelidir.

Dayanıqlı inkişaf konsepsiyasının ayrılmaz hissəsi dayanıqlı inkişaf üzrə BMT Komissiyası tərəfindən işlənib hazırlanmış göstəricilər sistemidir. Göstəricilərin işlənib hazırlanması və tətbiqi üzrə bir çox milli və beynəlxalq təkliflər əsasında 1995-ci ildə Dayanıqlı inkişaf üzrə Komissiya dayanıqlı inkişaf üçün göstəricilərin daxil edilməsi üzrə iş proqramını qəbul etmişdir. Proqram 130 göstəricidən ibarət ən birinci dəsti özünə daxil edir. Bu göstəricilərin tətbiqini sadələşdirmək və eyni zamanda onların qəbul oluna bilmə səviyyəsini yoxlamaq üçün onların hər biri üzrə metodoloji göstərişlər işlənib hazırlanmışdır. Göstəricilər onların hərəkətverici qüvvəyə münasibətdə, həmçinin, vəziyyət və reaksiyavermə xarakteristikasına, eləcə də müvafiq strukturun cavab reaksiyasının xarakterinə görə fərqlənir. Hərəkətverici qüvvənin göstəricilərinə dayanıqlı inkişafa təsir göstərən insan fəaliyyəti, proses və modellər daxildir. Vəziyyət göstəriciləri dayanıqlı inkişafın "vəziyyətini" göstərir, lakin reaksiya indikatorları isə dayanıqlı inkişafın vəziyyətinin dəyişilməsi üçün siyasət və digər reaksiyanın seçim hüququnun olmasını nümayiş etdirir. Göstəricilər ölkələr tərəfindən milli səviyyədə onlar tərəfindən qərar qəbulu prosesində istifadə üçün nəzərdə tutulmuşdur. Bütün göstəricilər istənilən situasiyalarda tətbiq oluna bilməz. Onu da qeyd etmək lazımdır ki, ölkələr o göstəricini seçir ki, onlar ölkənin prioritetlərinə, məqsəd və vəzifələrinə cavab versin.

Davamlı inkişafın ideyası əsla təhlil üçün qəbul edilmiş göstəricilərin müəyyən səviyyədən daha yüksək və ya aşağı saxlanılmasından ibarət deyil. Söhbət fəal həyat fəaliyyəti vektorlarına müvafiq olaraq onların dəyişmə meyillərini təmin edən zaman tələbat və imkanlar arasında olan balansa nail olunmasından gedir. Bu xarakteristika göstəricilərin kəmiyyət həcminin dəyişmə vektoruna yönəldilən iqtisadiyyatın mümkün olan vəziyyətini əks etdirən indikator vəzifəsini icra edir. Davamlı inkişaf əsas makroiqtisadi göstəricilərin inkişafda olan pozitiv dəyişikliklərini nəzərdə tutur. Məsələn, büdcənin mədaxil və məxaric hissələrinin qarşılıqlı əlaqələri və asılılıqlarının xarakteristikaları inkişafın meyillərini göstərir və onlar təklikdə göstərici kimi istifadə oluna bilər. Təsərrüfat fəaliyyətində inkişafın dinamiklilik göstəricisi kimi sosial-iqtisadi, eləcə də texnoloji xarakteristikaların dəyərləndirilməsi zamanı istifadə oluna bilər. İstehsal olunan ümumdaxili məhsul iqtisadiyyatın bütün sahələrində fəaliyyətinin nəticəsindən asılıdır və iqtisadi fəallığın

vəziyyətini əks etdirir. İqtisadi tədqiqatların hər sahəsində göstəricilərin siyahısının seçimi və yenidən baxılması idarəetmə orqanlarının qəbulu üsullarından tənzimetmənin praktik məsələlərinin tərtibinə istiqamətlənməlidir.

BMT dünyanın bütün ölkələri üçün Davamlı İnsan İnkişafının ayrı-ayrı göstəricilərinin müqayisəli tərzdə öyrənilməsi üçün hər il onları təhlil edərkən həmin qiymətləndirməyə əsasən müvafiq hesabatlar dərc edir. Bu, hər şeydən əvvəl, ölkədə inkişafın uğur dərəcəsini, onun insanların sosial-iqtisadi vəziyyəti və rifahının yaxşılaşdırılması istiqamətinə yönəldilməsini göstərir. Qiymətləndirmə İnsan İnkişafının əsas göstəricilərinin xüsusi düsturlarla hesablanmış müvafiq əmsallarına əsasən aparılır. Həmin əmsallar hesablandıqda əsasən ölkə əhalisinin sağlamlıq, təhsil və iqtisadi göstəriciləri nəzərə alınır. Davamlı İnsan İnkişafının sağlamlıq göstəricisi kimi uzunömürlülük, bir yaşına qədər olan körpə uşaqlar arasında ölüm və 5 yaşına qədər olan uşaqların çəki, boy və inkişafdan qalma faizi öyrənilir. Yoxsulluq səviyyəsini öyrənmək üçün – təmiz içməli sudan istifadə etməkdən məhrum olan, tibbi xidmətlərdən istifadə etmək imkanı olmayan adamların sayı, orta ömür müddəti hesablanır. Təhsil göstəricisi kimi əhalinin orta hesabla neçə illik təhsilə malik olması və 6-23 yaşlı gənclərin neçə faizinin təhsil alması və savadsızlıq dərəcəsi müəyyən olunur. Bu zaman savadsızlığın müasir təsnifata görə qəbul edilmiş hər iki növü – ümumi savadsızlıq və funksional savadsızlıq hesablanır. Davamlı İnsan İnkişafı qiymətləndirilərkən ölkənin iqtisadi göstəricilərindən əsasən adambaşına düşən ümumdaxili məhsul hesablanır. Bu zaman ölkə üçün əhalinin alıcılıq qabiliyyətini xarakterizə edən xüsusi əmsal Alıcılıq Qabiliyyəti Pariteti (AQP) nəzərə alınır və ümumdaxili məhsul hesablanarkən həmin göstəriciyə görə ölkələrin müqayisə edilməsinə fikir verilir.

Azərbaycan Respublikasında son illər ölkə iqtisadiyyatının bütün sferalarında aparılan səmərəli, məqsədyönlü islahatlar və regionların sosial-iqtisadi inkişafına göstərilən geniş diapozonlu dövlət qayğıları ölkəmizin Davamlı İnsan İnkişafı göstəricilərinə görə sürətlə tərəqqi etməsi və yüksək pillədə dayanması üçün böyük zəmin yaratmışdır.

## AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA QEYRİ-NEFT SEKTORUNUN ROLU

**_Pənahəliyeva M.Ö._**
*Sumqayıt Dövlət Universiteti*

Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində ölkəmizin sosial - iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ölkədə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modelinin - "Azərbaycan modeli"nin yaranmasıdır.

Bu modelin əsasını Heydər Əliyevin uğurlu strategiyası, neft gəlirləri əsasında yaradılmış möhkəm maliyyə - iqtisadi baza hesabına qeyri - neft sektorunun inkişafı və ölkə iqtisadiyyatının diversifikasiyası, özəl sektorun formalaşması, səmərəli beynəlxalq iqtisadi

əməkdaşlıq, dünya iqtisadiyyatına inteqrasiya və son nəticədə ölkəmizin hər bir vətəndaşının rifahının yüksəldilməsi təşkil edir.

Heydər Əliyevin neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədi ilə Dövlət Neft Fondunun yaradılması kimi xidmətləri yüksək qiymətləndirilir.

1999 - cu il dekabrın 29-u Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında fərman imzalanmışdır. Onu da qeyd etmək istəyirəm ki, bu fondun ilk vəsaiti Azərbaycan xalqının ən ağır şəraitdə yaşayan və ən həssas təbəqəsi olan qaçqın və məcburi köçkünlərin sosial - məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə istiqamətləndirilmişdir.

Ölkədə aparılan məqsədyönlü siyasət sayəsində formalaşmış uğurlu inkişafın 10 ili "Heydər Əliyevin modeli" kimi səciyyələnir. Ölkə rəhbəri İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, Azərbaycan qısa müddət ərzində dünya ölkələrinin keçə bilmədiyi bir inkişaf yolu keçmiş, bu gun Cənubi Qafqazda güc mərkəzinə çevrilmişdir. Artıq bu dövr islahatlar modeli Azərbaycanın iqtisadi sahəsində keçid dövrünün başa çatması ilə sonuclandı. Ölkə artıq yeni inkişaf mərhələsindədir. Bu inkişaf modelini "modernləşmə modeli" kimi xarakterizə etmək olar. Dünya maliyyə böhranından sonra bu özünü daha qabarıq şəkildə göstərməyə başlıyıb.

Dünya maliyyə - iqtisadi böhranı Azərbaycan iqtisdiyyatının sadəcə neft amili üzərində qurulmadığını, əldə olunmuş uğurlu nəticələrdə qeyri - neft sektorunun müəyyən paya malik olduğunu təsdiqləmişdir. Ötən ilin nəticələri ölkə iqtisadiyyatının inkişaf dinamikasında qeyri - neft sektorunun əsas paya malik olduğunu bir daha təsdiqləmiş, şaxələndirmə tədbirlərinin sahibkarlığının inkişafının, investisiya mühitinin daha da yaxşılaşdırılmasının nəticəsi olaraq qeyri - neft sektorunun dinamik inkişafı davam etmişdir. 1996-cı ildən başlayan iqtisadi artım dinamik olaraq davam edir və son 10 ildə ümumi daxili məhsul 59 milyard, onun adambaşına düşən həcmi 6264,1 olmuşdur. Qeyri - neft sektoru 7% artmışdır. Əldə olunmuş dinamik iqtisadi artımın nəticəsidir ki, Azərbaycanın "yuxarı orta gəlirli" ölkələr sırasında mövqeyi daha da möhkəmlənmişdir. Əhalinin gəlirləri 6 dəfə, orta əmək haqqı 4,5 % artmış, işsizlik səviyyəsi 4,9% təşkil etmişdir. Əgər 2001 - ci ildə əhalinin hər 2 nəfərindən biri yoxsulluq həddində yaşayirdısa, ötən müddət ərzində yoxsulluq meyarının 5 dəfədən çox artmasına baxmayaraq, hazırda hər 20 nəfərdən 1 vətəndaş yoxsul hesab olunur.

Son illərdə ölkəmizin iqtisadi inkişafının səciyyəvi cəhətlərindən biri də ÜDM - in artımında qeyri - neft sektorunun payının da artması oimuşdur. Təkcə 2015 - ci ildə qeyri - neft sektorunun 7% artması ölkə iqtisadiyyatının neft sektorundan asıllığının minimuma endirilməsi, iqtisadiyyatın diversifikasiyası məqsədilə qeyri - neft sektorunun inkişaf siyasətinin nəticəsidir.

2014 - cü ildə ölkə iqtisadiyyatına və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 17615,8 milyon manat investisiya yönəldilmişdir. Əsas kapitala qoyulmuş vəsait 72,3% daxili investisiyalar 27,7% - i isə xarici investiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş ümumi investisiyaların 11651,6 milyon manat (66,1%), qeyri - neft bölməsinin 5964,2 milyon manat (33,9%) neft bölməsinin inkişafında istifadə

edilmişdir. Belə ki, təkcə 2014 - cü ildə xarici ticarət dövriyyəsi 28,8 milyard dollar, o cümlədən ixrac 20,7 milyard dollar, idxal isə 8,1 milyard olmuşdur.

Son illərdə Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmiş, hesabatlarda ölkəmizin reytinqləri davamlı olaraq yaxşılaşması göstərilmişdir. Belə ki, əsas agentliklər "Fitch Ratinqs", " Standart Poor's" və "Moody's" hətta böhran illərində Azərbaycanın suveren reytinqini yüksəldərək investisiya reytinqi verib. "Dünya rəqabət qabiliyyətli 2014 - 2015" hesabatında Azərbaycan 144 ölkə arasında 38 - ci olmuşdur və artıq bir çox illərdir ki, MDB ölkələri arasında birincidir.

Təkcə 2014-cü ildə Respublikada 20-dən çox orta və iri sənaye müəssisələri açılmış, mövcud müəssisələrin istehsal gücləri artırılmşdır. "Norm" sement zavodu, Sumqayıt mis emal zavodu, Sumqayıt yağ fabriki, Azərbaycan kağız və karton kombinatı, Suraxanı günəş elektrik stansiyası, Qəbələdə "Gilan" qida şəhərciyi və s. müəssisələr istifadəyə verilmişdir.

40 min iş yeri bağlanmış, 84 min yeni daimi iş yerləri açılmışdır.

Sumqayıtda minlərlə insanı işlə təmin edə biləcək Sumqayıt Kimya Parkının inşasına başlanmışdır. Sənaye parklarının bir əhəmiyyəti də ondan ibarətdir ki, burada istehsal olunan məhsular kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradacaq, onlarla yeni istehsal sahələrinin yaradılmasına və inkişafına təkan verəcəkdir.

Xarici iqtisadi əməkdaşlıq və dünyaya inteqrasiya baxımından da ciddi uğurlar əldə edilmişdir. Beynəlxalq səviyyədə çoxtərəfli və regional əməkdaşlıq dərinləşmiş, Azərbaycanın regionda liderlik mövqeyi daha da güclənmişdir. Xarici ticarətin coğrafiyası genişlənmiş, onun əmtəə strukturu təkmilləşdirilmişdir. Müsbət xarici ticarət saldosu 12,6 mlyd. dollar təşkil etmiş ixrac idxalı 2,5 dəfə üstələnmişdir.Müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, istehsal proseslərinin beynəlxalq standartlara uyğun qurulması nəticəsində mexanizm və avadanlıqların idxalı 1,6 dəfə artmışdır.

Hələ ötən illərin göstəricilərinə görə, "Qlobal innovasiya indeksi – 2011" hesabatına əsasən idxalda yüksək texnologiyalı məhsulların xüsusi çəkisinə görə Azərbaycan dünya ölkələri arasında 30-cu, MDB - də birinci yerə layiq görülmüşdür.

Bütün göstərilənlər bir daha təsdiqləyir ki, Azərbaycanın milli dayanıqlı inkişaf modeli bütün çətinliklərə müqavimət göstərmək imkanındadır. Bu haqda ölkə Prezident İlham Əliyev demişdir:"Uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri - neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan - neft - qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsinin bizim ümumi inkişafımıza təsir etməsinə baxmayaraq, biz bütün sosial layihələri davam etdiririk. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir".

**AZƏRBAYCANDA TURİZMİN REGİONAL ASPEKTLƏRİ**

***Piriyeva N.R.***
*Sumqayıt Texniki Kolleci*

Turizmin regional xüsusiyyətləri dedikdə onun yerləşməsi və planlaşması istiqamətlərində hər bir regionun iqtisadi potensialını iqtisadi dövriyyəyə cəlb etmək intensivliyi başa düşülür. Turizmin coğrafi iqtisadi mahiyyəti onun ərazi xüsusiyyətlərini formalaşdırır. Belə ki, regional iqtisadiyyat təbii coğrafi və tranzit şəraitindən asılıdır. Hər bir regionda müəyyən resurslar, onlardan istifadənin texnologiyaları, əhalisi və məskunlaşma problemləri mövcuddur. Buna görə də regionların hərtərəfli və kompleks inkişafı üçün onların resurs potensialını qiymətləndirmək, yeni iş yerlərinin açılmasını təmin etmək və fəaliyyət sahələri kimi səmərəli iqtisadi təsərrüfat sahələri qurmaq kritetial meyar baxımından əsaslandırılır.

Regionların iqtisadiyatı ölkə iqtisadiyyatının tərkibidir. Ölkə iqtisadiyyatında baş verən dinamizm, inkişaf proporsiyaları, qanunauyğunluqlar regionların iqtisadi imkanlarına təsir edir. Regionlar bir-biri ilə və mərkəzlə əlaqədar vahid təsərrüfat sistemlərini yaradır. Təbii ki, bu təsərrüfat inzibatçılıq əsasında deyil, qarşılıqlı əlaqələr prinsipləri üzərində qurulur. Regionların iqtisadiyyatı məhəlli maraqlar üzərində qurulduğu halda, ölkə iqtisadiyyatı ümumi mənafelər üzərində qurulur. Ölkənin iqtisadi təhlükəsizliyində hər bir vətəndaşın, hər bir şəxsin iqtisadi maraqlarını, sosial inkişafını mərkəzləşdirilmiş fondlar vasitəsilə, resurslar vasitəsilə təmin etmək strategiyası əsas götürülür. İnteqral, yəni makroiqtisadi maraqlar, resurslar, lokal, məhəlli və birgə imkanlar hesabına uyğunlaşdırılır. Bu baxımdan regionlarda təsərrüfat subyektləri, sosial əhali qrupları öz maraqlarını, tələbatlarını mərkəzləşdirilmiş ölkə səviyyəsində həll etməklə vahid sistemin region daşıyıcılarına, subyektinə çevrilir. Bu əlaqələr, uyğunlaşma iqtisadi mexanizmlər olan ÜDM-un istehsalında, bölgüsündə, dövlət büdcəsinin formalaşmasında, istifadəsində, həmçinin hər hansı qərar qəbulunun ayrı-ayrı sahələrə təsirində öz səmərəsini tapır.

Turizmin sahəsi region iqtisadiyyatında sahə və sosial rol oynayır. Həm məhəlli region, həm də ölkə mərkəzləşmiş səviyyədə özünəməxsus mexanizmlərlə icra olunur. Belə ki, ÜDM-un yaranmasında, bölgüsündə dövlət büdcəsi gəlirlərinin formalaşmasında, regionlarda yerli büdcələrin formalaşmasının mənbələri rol oynayır. Buna görə də region iqtisadi potensialı dedikdə, geniş mənada hər bir regionda olan potensial turist imkanlarını qiymətləndirmək və onlardan istifadə yollarını müəyyən etməklə, ümumi iqtisadi inkişafa təsiri qiymətləndirmək, proqnozlar vermək mümkündür. Turizmin regional maraqları və dövlət maraqları arasında sərhədlər, miqyaslar, bölgü resursların istifadəsilə bağlıdır, amma müasir şəraitdə regionların özünü idarəetmə prinsipləri bu resursların istifadəsindənə əldə olunan ülçüsü ilə seçilir, əsaslandırılır.

Turizm baxımından bəzi regionlar daha əlverişli, daha sosial tutumlu və regionun kompleks inkişafı üçün əhəmiyyətli olur. Buna görə də turizm 2 əsas istiqamətdə öyrənilir:

1) Makroiqtisadi meyarlara uyğun
2) Regionun sosial inkişafına uyğun

Turizm təbii sərvətlərlə bağlı olduğuna görə onun təkrar istehsalı yerli əhaliyə ayrılmaq üçün vəsaitlərlə təmin olunur. Ona görə də mərkəzləşmiş büdcə hesabına sahibkarlığa kömək, yaxud subsidiyalar vasitəsilə ayrı-ayrı regionlarda turizmin inkişafı stimullaşdırılır.

## TRANSFORMASİYA EDİLMİŞ CƏMİYYƏTLƏRDƏ "TƏMİNATLAR HALQASININ" SOSİAL-İQTİSADİ ASPEKTLƏRİNİN TƏHLİLİ

***Rüstəmov İ.S.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
***İlahə Məmməd***
*Gəncə Dövlət Universiteti*

Yeni formasiyaların yaranma zərurəti, onların formalaşması, inkişafı və süqutu periodu kifayət qədər uzun müddət tələb edir. Formasiyaların dəyişməsi iqtisadi münasibət və təfəkkürün dəyişməsini tələb edir. Süquta ugramış sosial –iqtisadi sistemlərdə cəmiyyət üzvlərinin xarakteri, düşüncə tərzi, davranışı, etik kodeksi yeni yaranacaq iqtisadi sosial sistemə transformasiya mərhələsinə keçməyə başlayır. Dövlətin tam effektli müdaxiləsini bu dövrdə hiss etmək mümkün olmur transformasiyanın ilk illərində keçid prosesi sürətlə başalayır. Nəticədə köhnə sosial-iqtisadi sistem sürətlə və kortəbii olaraq dağılır. 1991-ci ildə ümumi daxili məhsul (ÜDM) 2,7 milyard manat olmuş, 1991-1995-ci illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il 13-20% azalmışdır.

Bu dövr üçün xas olan göstəricilərdən biri də odur ki, cəmiyyətdə yeni mədəniyyət formaları, yeni yanaşmalar qonşu ölkələrin təsiri ilə daha çevik formalaşır. Xüsusilə, qapalı iqtisadi mühitdən açıq iqtisadi mühitə keçid edən ölkələr üçün bu kimi təsirlənmə daha cox xarakterikdir. Bu məqalədə transformasiya olunmuş cəmiyyətdə yeni təminatlar pilləkənin formalaşması inkişafı və əvəzedilməsi şərtləri təhlil olunmuşdur. Dəyişən cəmiyyət ücün təminatları: iqtisadi, sosial, hüquqi, ekoloji olmaqla dörd hissəyə bölmək olar.

**İqtisadi-sosial transformasiyaya ugramış cəmiyyətlərdə təminatlar pilləkəni**




Transformasiyaya məruz qalmış cəmiyyətlərdə fərdlər ilkin olaraq iqtisadi təminatın əldə olunması üçün cəhdlər edirlər. İqtisadi təminatın əldə olunması ehtiyaclar halqasının birincisidir. Bu dövrdə əhalinin daha çox hissəsi ən zəruri istehlak mallarına olan tələbatın ödənilməsinə çalışır. Eyni zamanda iqtisadi ədəbiyyatlarda qeyd olunan Engel qanunu

özünü bu mərhələdə tam ifadə edir. İqtisadi təminat mərtəbəsinə keçmədən təminatın digər pillələrini əldə etmək mümkün deyil. İqtisadi təminatın olmadıgı vəziyyətdə fərdlərin sosial fəaliyyətindən, turist səfərlərindən, ətraf mühiti çirkləndirənlərə vətəndaş etirazından danışmaq mümkün olmur. Cünkü cəmiyyət təmamilə iqtisadi təminat mərtəbəsindən ətrafa baxa bilmək üçün imkanlar axtarır. Cəmiyyət üzvləri yeni sosial-iqtisadi sistemin formalaşmasının ilkin mərhələsində iqtisadi təminatın əldə etmək üçün maksimal güc sərf edir. Bu mərhələdə demək olar ki, orta statistik ölkə vətəndaşının gəlirlərinin əksər hissəsi zəruri istehlak mallarına sərf olunur. Azərbaycan respublikası üçün bu dövr (1991-1999) kiçik və orta ölçülü ərzaq magazalarının sayının cox olması ilə xarakterikdir. Azərbaycan respublikası üçün hesab etmək olar ki, iqtisadi təminatın əldə edilməsi 1995-1999 cu illəri əhatə etmişdir. Cədvəl 1- dən görmək olar ki, Azərbaycan cəmiyyəti 2000-2009-cu illər arasında təminatlar halqasının ikinci pilləsinə keçmişdir. Təbii ki, ümumi gəlirlərdə son istehlak xərclərinin payı illər üzrə azaldıqca cəmiyyət sosial təminat pilləsinə keçmək üçün fürsət əldə etmişdir.

Cədvəl 1.

2000-2009-cu illər arasında Azərbaycan Respublikasının ÜDM və Son İstehlak Xərclərinin göstəriciləri

| İllər | ÜDM Milyon $ | Son İstehlak Xərcləri Milyon $ | Nisbət |
|---|---|---|---|
| 2000 | 5272.8 | 4191.876 | 0.795 |
| 2003 | 7276 | 5260.548 | 0.723 |
| 2004 | 8680.4 | 5963.435 | 0.687 |
| 2005 | 13238.7 | 6963.556 | 0.526 |
| 2006 | 20983 | 9568.248 | 0.456 |
| 2007 | 33050.3 | 14244.68 | 0.431 |
| 2008 | 46258.2 | 19382.19 | 0.419 |
| 2009 | 43056.2 | 17265.54 | 0.401 |

Tezisdə təhlil nəticəsində aşkar olunmuşdur ki, cəmiyyətin transformasiyası zamanı təminatlar pilləsi mövcuddur və pillər bir-birini əvəz edir. Bu əvəzetmə prosesində ardıcıllıq pozulmur. Əldə olunmuş təminat pilləsi növbəti təminat üçün baza rolunu oynayır. Daha aşagı təminat halqasında olan cəmiyyət üzvlərinin kütləvi formada üst təminat mərtəbəsini əldə etməsi aktuallıq təşkil etmir. Cəmiyyət bu hala məcburi sürüklənmir. Təminatlar halqasının bir-birinə keçidi təbii baş verir. Dövlətin mövqeyi kompleks sosial iqtisadi islahatlar vasitəsilə mövcud təminat pilləsində möhkəmlənməkdən və yeni təminat halqasına yüksəlmə prosesi üçün tələb olunan vaxt göstəricisini azaltmaqdan ibarətdir.

Neft ixrac edən, suveren iqtisadi siyasət həyata keçirən, neft gəlirlərindən asılı olan ölkələrdə yaşayan cəmiyyət üzvləri təminatlar halqasını daha tez kecmək imkanı əldə etsə də bu halın dayanıqlı olma şansı azdır. Neft gəlilərindən asılı olmayan ölkələr kompleks iqtisadi tədbirlər həyata kecirməklə, həm daha güclü iqtisadiyyat, həm də üst səviyyədə dayanıqlı iqtisadi təminatlar əldə edə bilərlər. Azərbaycan xam neft və təbii qaz ixracından asılı olan ökədir. 2014-cü ilə qədər dünya bazarında xam neftin və təbii qazın qiymətinin

yüksək olması ölkədə aparılan intensiv iqtisadi islahatlar nəticəsində cəmiyyət təminatlar pilləkənində müəyyən məsafə qət etmişdir. 2014 –cü ildən etibarən xam neftin və təbii qazın qiymətinin aşagı düşməsi, region ölkələrində və respublikada baş verən devalvasiya faktı təminatlar həlqəsinin qorunub saxlanması üçün çətinliklər yaradır.

## AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASINDA VƏ BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAFINDA TURİZMİN ƏHƏMİYYƏTİ

***Rüstəmova G.R., Əhmədova G.S.***
*Sumqayit Dövlət Universiteti*

Turizm–müasir iqtisadiyyatın insanların tələbatlarının ödənilməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə yönəlmiş mühüm fəaliyyət sahələrindən biridir. Eyni zamanda iqtisadiyyatın digər sahələrindən fərqli olaraq, turizm təbii ehtiyatların tükənməsinə səbəb olmur. İxracyönümlü sahə olmaqla, turizm dünya bazarındakı qeyri-sabit vəziyyətlərdə digər sahələrdən fərqli olaraq, daha çox stabillik nümayiş etdirir. Ölkəmiz Şərq və Qərb mədəniyyətlərini özündə birləşdirən zəngin mədəni irsə malikdir. Azərbaycan əsrlərlə qoruyub saxladığı mədəni irsini bəşəri dəyərlərlə birləşdirən dinamik inkişafa malikdir. Azərbaycanın inkişafını nəzərdə tutduğu və gələcəyə hesablanan böyük planlar qurduğu sahələrdən biri turizmdir. Neft sektorundan qeyri-neft sektoruna keçid prosesinin sonunda ölkəyə ən böyük gəlir gətirən sahələrdən birinin məhz turizm olacağını nəzərə alsaq, bu inkişafın nəticəsini təsəvvür etmək çətin deyildir. Ölkənin əcnəbi qonaqlarına təqdim edəcəyi çox böyük mədəni irs və turizm üçün əlverişli bölgələri vardır. Odur ki, bütün ölkə ərazisində tətbiq edilən regionların inkişafı proqramının nəticələrinin uğuru ucqar əyalətlərdə də artıq görünməkdədir. Ölkəmizin mövcud turizm potensialının səmərəli istifadə olunması məqsədilə turizm sahəsində planlaşdırılmış işlərə 2001-ci ildən başlanmışdır. Bununla belə qeyd etmək lazımdır ki, ölkəmizin malik olduğu nadir təbiət və iqlim ehtiyatları, həmçinin mədəni irs Azərbaycan turizminin uğurlu inkişafını təmin edən yeganə və kifayət edəcək şərt kimi nəzərdən keçirilə bilməz, çünki bunlar yalnız turizm təklifinin elementlərindən biridir. Dünyada təbii və mədəni ehtiyatlara görə Azərbaycan Respublikası ilə müqayisə oluna bilən, lakin inkişaf etmiş keyfiyyətli turizm infrastrukturuna malik olan ölkələri misal göstərmək olar. Belə ölkələrdən ərazisi və əhalisi ölkəmizlə eyni olan Avstriyanı, həmçinin Fransa və İspaniyanı qeyd etmək olar. Bu ölkələr hər il yalnız beynəlxalq turizmdən on milyardlarla dollar gəlir əldə edirlər. Azərbaycan Respublikasında turizmin inkişafının məqsədi Azərbaycanın və xarici vətəndaşların turizm xidmətlərinə olan tələbatlarının təmini, əhalinin məşğulluğu və gəlirlərinin artırılması üçün geniş imkanlar açan müasir rəqabətə davamlı turizm bazarının formalaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün inkişafın elementlərindən biri, ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi vasitəsi kimi Azərbaycan Respublikasında gəlmə və daxili turizmin uğurlu inkişafı üçün stimullar həyata keçirmək lazımdır. Rəqabətə davamlı turizm bazarı formalaşdırmaq üçün yalnız infrastrukturun inkişafı üçün səylər yetərli deyil. Milli turizm məhsulunun satışı üçün turist göndərən əsas

bazalara istiqamətlənmiş və təcavüzkar xarakterə malik effektli strategiyaya ehtiyac vardır ki, nəticədə gəlmə və daxili turizmi Azərbaycan Respublikasının iqtisadiyyatında əsas gəlir vasitəsinə çevirmək olar.

Turizm haqqında Azərbaycan Respublikası Qanunu (1999-cu il) Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir. Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadəsinin gücləndirilməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir. Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizm və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir. Son illər Azərbaycanda turizm sahəsində beynəlxalq əlaqələrin təşkili və inkişaf etdirilməsi, turizm imkanlarının təbliği, milli turizmin inkişafı və turizm infrastrukturlarının yeniləşməsi sahəsində konkret istiqamətlər müəyyənləşdirilib. Dövlət proqramı bütün sərvətlərdən səmərəli istifadə etməklə, turizmi inkişaf etdirməyi qarşıya məqsəd qoymuşdur. Eyni zamanda Azərbaycanda turizmi inkişaf etdirmək məqsədilə aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur: turizm sahəsində sahibkarlığı, ilk növbədə kiçik və orta sahibkarlığı inkişaf etdirməklə rəqabətə davamlı turizm bazarını yaratmaq, turistlərə xidmətin keyfiyyətinin yüksəldilməsini, onun beynəlxalq standartlara uyğunluğunu təmin etmək, turizm fəaliyyətinin dövlət tənzimlənməsini həyata keçirmək, turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitin həcmini artırmaq, turizmin infrastrukturunu, onun maddi-texniki bazasını möhkəmlətmək, turizm müəssisələrinin beynəlxalq turizm proqramlarında iştirakı üçün əlverişli şərait yaratmaq, xarici investorları turizm sferasına cəlb etmək. Bu vəzifələrin hər birinin yerinə yetirilməsi gərgin və məsuliyyətli əmək tələb edir. Azərbaycanda turizm sahəsi üzrə dövlət siyasətini həyata keçirən Mədəniyyət və Turizm Nazirliyi turizm sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirir. Azərbaycan bir sıra beynəlxalq və regional təşkilatlarda, o cümlədən Ümumdünya Turizm Təşkilatı, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, MDB üzv dövlətlərinin Turizm Şurası və digər regional təşkilatlar ilə turizm sahəsində əməkdaşlıq edir. Son illər beynəlxalq turizmin inkişafı, respublikamızda turizm şirkətlərinin və mehmanxanaların sayının artması, ölkəmizdə turizm sektorunun dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində aparılan ardıcıl işlərdəndir.

**MÜASİR DÖVRDƏ AZƏRBAYCAN EMAL – SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ RƏQABƏT QABİLİYYƏTİNİN İNKİŞAF ETMƏSİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI**

***Səmədova T.P.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən, yəni 1991-ci ildən sonra bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də öz müstəqil siyasətini yeritməyə başlamışdır. Bu siyasətin ən başlıca istiqamətini bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. Müstəqilliyimizin bərpasından sonra ölkəmizin sosial-iqtisadi inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Aparılmış iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitlik əldə olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. Bildiyimiz kimi, ölkəmizin iqtisadi inkişafının əsasını neft – qaz sektoru təşkil edir. Buna görə də qloballaşan müasir dövrdə ölkəmizin iqtisadi inkişafının strateji məqsədlərindən ən başlıcası onun neftdən asılılığını aradan qaldıraraq, ölkəmizin emal sənayesi müəssisələrinin davamlı və dayanıqlı iqtisadi inkişafına nail olmaqdır.

Bu zərurətdən irəli gələrək ölkəmizdə sənayenin inkişafı ilə bağlı dövlət proqramları qəbul edilmişdir. Məhz bunun nəticəsi olaraq "2014- cü il Azərbaycan Respublikasında "Sənaye ili" elan edilmişdir". Lakin sənayemizin inkişafı ilə əlaqədar görülmüş bütün tədbirlərə baxmayaraq, Azərbaycanın emal sənayesi müəssisələrində, o cümlədən Sumqayıt şəhərində yerləşən emal sənayesi müəssisələrində hələ də bir sıra problemlər vardır. Bu problemlərdən ən başlıcası emal sənayesi müəssisələrinin hələ də rəqabətqabiliyyətli inkişafının bütövlükdə lazımı səviyyədə olmamasıdır. Yəni emal sənayesi müəssisələrinin mövcud durumu və onların istehsal təsərrüfat fəaliyyətinin texnoloji səviyyəsi bazarın tələbatına uyğun məhsul istehsal etmək imkanına tam cavab vermir. Buna görə də Azərbaycan emal sənayesi müəssisələrinin, o cümlədən Sumqayıt şəhərində yerləşən emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətli inkişafını təmin etmək ölkəmizin ən aktual problemlərindəndir.

Azərbaycanın emal sənaye sektorunun rəqabətqabiliyyətlilik səviyyəsinin öyrənilməsi üzrə həm ölkəmizdə, həm dünyada bir sıra tədqiqat işləri aparılmışdır. Bu tədqiqat işləri, əsasən, Bakı şəhərində yerləşən emal sənaye müəssisələri üzərində aparılmışdır. Lakin Sumqayıt şəhərində yerləşən emal sənaye müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsini araşdıran tədqiqat işləri kifayət qədər deyildir. Buna görə də bu problemin həlli aktual hesab olunur. Dünya üzrə rəqabətqabiliyyətlilik problemləri ilə məşğul olan bir sıra alimlər vardır ki, bunlardan M.E.Porter, Y.Şumpeter, Z.Xunuta, İ.Kirçiner, L.Kaçalin, A.Smit, D.Rikardo və başqaları dəyərli tədqiqat işləri aparmışdır. MDB məkanında isə Q.Azov, A.Viktorova, A.Sokolov, Q.İvan və s., Azərbaycanda Z.Ə.Səmədzadə, İ.Alıyev, A.K.Ələsgərov, Ə.N.Nuriyev, T.N.Əliyev, M.C.Atakişiyev və s. kimi tanınmış iqtisadçı alimlər problemin müxtəlif istiqamətləri üzrə tədqiqat işləri aparmışlar. Bu sahədə aparılan tədqiqat işlərinin əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, qloballaşan müasir dünyada

respublikamızın və eləcə də Sumqayıt emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşması mexanizmlərinin kompleks şəkildə tədqiq olunması kifayət qədər öyrənilməmişdir.

Buna görə Sumqayıt şəhərində yerləşən emal sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi, ölkəmizin emal sənayesi müəssisələrinin dünyanın aparıcı ölkələrinin emal sənayesi müəssisələrinə inteqrasiya etməsi üçün yeni modellər hazırlanmalı və Azərbaycanın, o cümlədən Sumqayıt şəhərinin emal sənayesi müəssisələrinə tətbiq olunmalıdır. Bunun nəticəsində, ölkəmizdə ümumdaxili məhsulun həcminin artmasına, yeni iş yerlərinin yaradılmasına, əhalinin gəlirlik səviyyəsinin artmasına, bütövlükdə isə büdcə gəlirinin səviyyəsinin artmasına nail olmaq olar. Və, bununla da, Azərbaycanın emal sənaye müəssisələri inkişaf etmiş ölkələrin sənaye müəssisələri ilə rəqabət aparmaq imkanlarına malik olar.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ AQRAR SEKTORUNUN İNKİŞAFI

***Süleymanlı D.Q., Kazımov M.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

SSRİ-nin süqutundan sonra mövcud olan təsərrüfat əlaqələrinin yenidən nəzərdən keçirilməsinə gətirib çıxaran dəyişikliklər başladı. Kənd təsərrüfatı məhsulları istehsalının kəskin şəkildə aşağı düşməsinin əsas səbəbi aqrar sektorda maddi-texniki bazanın sıradan çıxması idi. Həmin dövrdə aqrar sektorda fəaliyyət göstərən texnikanın sayı xeyli azalmış, yaranmış yeni təsərrüfat qurumlarını texnika ilə təmin etmək üçün alıcılıq imkanları aşağı düşmüşdür.

Hər bir ölkənin təbii şəraiti, yeraltı və yerüstü sərvətləri çox müxtəlif olduğundan insanlar üçün lazım olan bütün məhsulları bir ölkədə istehsal etmək qeyri-mümkündür. Respublikamız müstəqillik əldə etdikdən sonra dünya təsərrüfat sisteminə inteqrasiya olunmaq imkanları daha da genişlənmişdir. Belə ki, Azərbaycan Respublikasının iqtisadi həyatında xarici ticarət, istehsal, elmi-texniki əməkdaşlıq, tikinti, nəqliyyat sahəsində iqtisadi əlaqələr, həmçinin digər müxtəlif xidmətlərin həyata keçirilməsi də daxil olmaqla, xarici iqtisadi fəaliyyət mərkəzi yer tutur. Son illər dünyada kənd təsərrüfatı məhsullarına olan tələbatın artması digər kənd təsərrüfatı məhsulları ilə yanaşı, taxıla, üzümə, faraş tərəvəz, kartof və digər məhsullara da tələbatı artırmışdır. Belə bir şəraitdə bu məhsula olan tələbatın ödənilməsi üçün Azərbaycan Respublikası müstəsna rol oynaya bilər. Sovetlər birliyinin süqutu və bunun nəticəsində keçmiş müttəfiq respublikalar arasındakı əlaqələrin zəifləməsi, sovxoz və kolxozların dağılması kənd təsərrüfatının digər sahələrinin də tənəzzülə uğramasına səbəb oldu. Bununla belə, qeyd etməliyik ki, son illər Azərbaycanda kənd təsərrüfatı məhsulu istehsalçıları istər daxili, istərsə də xarici bazarlarda öz mövqelərini getdikcə möhkəmləndirirlər.

Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanları qəbul edilmişdir ki, bunlara “Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin

artırılması tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu (10 yanvar 1994-cü il); 5 aprel 1994-cü il tarixdə "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında"; 17 dekabr 1996-cı il tarixdə "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında"; 24 iyun 1997-ci il tarixdə "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşması haqqında" və s.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda ayrı-ayrı rayonlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətləri müəyyən edilmişdir. Bu da təsadüfi deyil, çünki aqrar sektor həcminə görə işlə təmin edən ikinci bölmədir və ümumi daxili məhsulun 16%-ni təmin edir. 2015-ci ildə istehsal olunan kənd təsərrüfatı məhsulları 2000-cü ilə nisbətən 2-8 dəfə artmışdır. Aqrar sektorda həyata keçirilən iqtisadi siyasətin mühüm strategiyası qanunlarda və proqramlarda, o cümlədən "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" qanunvericilik sənədlərində 100-dən artıq qanun, fərman, sərəncam, qərar və digər hüquqi sənədlər qəbul edilmişdir. Azərbaycanda müasir aqrar dəyişikliklərinin əsasında aqrar sektorda bazar münasibətlərinin formalaşdırılmasının başlıca faktoru hesab edilən, kəndin sosial sferasının fəaliyyət və inkişafının təmin edilməsi durur. Kəndin sosial sferasının vəziyyətini təhlil etməklə aqrar sahədə prioritet istiqamətlərin müəyyənləşdirilməsi üzrə kompleks tədbirlər 11 fevral 2004-cü ildə Azərbaycan Respublikasının Prezidentinin fərmanında müəyyən edilmişdir. Təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında" (2014-2018-ci illər) regionlarda aqrorservislər yaratmaq, aqrolizinq xidmətlərini genişləndirmək və sair məqsədlərlə dövlət büdcəsindən böyük həcm və məbləğdə əlavə vəsaitlərin ayrılması nəzərdə tutulmuşdur.

Dövlət regional inkişafa yönəlmiş siyasətə böyük önəm verir. Ölkə Prezidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» mühüm əhəmiyyətli sənəd olub, 2004-2008-ci illərdə həyata keçirilmiş dövlət siyasətinin məntiqi davamıdır. Yeni Dövlət Proqramı üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər planında aqrar sahənin inkişafına da xeyli yer ayrılmışdır. Azərbaycan Respublikası əhalisinin 48%-i kənd yerlərində yaşayır, məşğul əhalinin 39%-ə qədəri onun payına düşür. Ölkədə mövcud olan 8 milyon 641,5 min hektar ümumi torpaq fondunun 4 milyon 528,3 min hektarı və ya 52%-dən çoxu kənd təsərrüfatına yararlıdır. 1,45 milyon hektar suvarılan torpaqların 1,3 milyon hektarı və ya 90%-i ərzaq məhsullarının əkinləri altındadır. Həmçinin uzun və qısamüddətli saxlama kameraları olan taxıl qəbulu terminallarının yaradılması, mövsümü xarakter daşıyan ərzaq məhsullarının saxlanılması üçün soyuducu anbarların quraşdırılması və həmin anbarlar tərəfindən taxıl və meyvə-tərəvəz məhsullarının optimal qiymətlərlə alınması bu sahədə yarana biləcək sıxıntıların aradan qaldırılmasına şərait yaradacaqdır.

Kənd təsərrüfatı məhsullarının istehsalının müxtəlif təsərrüfat formaları üzrə, o cümlədən kollektiv təsərrüfat forması üzrə inkişafı, regionlarda birgə əmək kooperasiyasının genişlənməsinə səbəb olacaqdır. Azərbaycanın kənd təsərrüfatında ənənəvi sahələr olan taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, pambıqçılığın, tütünçülüyün, çayçılığın, ipəkçiliyin

və digər sahələrin inkişafı prioritet vəzifə olaraq qalır. Aqrar sahədə dövlətin tənzimləmə mexanizmi olmadan və istehsalçıların maddi marağı təmin edilmədən, kənd təsərrüfatında artım tempinə nail olmaq qeyri-mümkündür. Qeyd edək ki, indi ölkədə aqrar istehsalçılar torpaq vergisi istisna olmaqla, bütün vergilərdən, o cümlədən istehsal vasitələri, cins mal-qara və toxumlar isə idxal gömrük rüsumlarından azad edilmiş, texnika və avadanlıqlar lizinq yolu ilə onlara verilmiş və kreditləşmədə də xeyli irəliləyişlərə nail olunmuşdur. Bunun nəticəsidir ki, kənd təsərrüfatı dərin böhran məngənəsindən çıxaraq inkişaf yoluna qədəm qoymuşdur. Belə ki, bu sahədə sahibkarlığın təməli qoyulmuş, sərbəst və sağlam rəqabət mühiti yaradılmış, ən başlıcası isə makroiqtisadi sabitliyə nail olunmuşdur. Lakin aqrar sahədə az məhsul götürülməsinin əsas səbəbləri – istehsal vasitələrinin, xüsusən, kənd təsərrüfatı texnikasının, mineral gübrələrin, bitkilərin və heyvanların kimyəvi və bioloji müdafiə vasitələrinin yetərincə olmaması, meliorasiya və irriqasiya komplekslərinin qeyri-qənaətbəxş vəziyyəti, torpaqların münbitliyinin azalması, toxumçuluq və damazlıq-seleksiya işlərinin zəifliyi, emal müəssisələrinin bir çoxunun mənəvi-fiziki geriliyi, aqrar istehsalçıların yeni texnologiyalar haqqında məlumatlarının azlığı, aqrar elmin maddi-texniki bazasının zəifliyi, zəif maliyyə-kredit təminatı və s.-dir.

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ NEFT STRATEGİYASI VƏ ONUN İQTİSADİ ƏHƏMİYYƏTİ

***Süleymanlı D.Q.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın neft sənayesi böyük tarixə malikdir. Respublikamızda ilk neft quyusu 1847-ci ildə Bibiheybətdə fantan vurmuş və bununla da neft sənayesi ilkin inkişaf yolunu tapmışdır. Azərbaycanın neft sənayesi SSRİ dövründə sürətlə inkişaf etdirilmiş, lakin istehsal edilən neft uzun illər bütün Sovet İttifaqının ehtiyaclarını təmin etmək üçün istifadə edilmişdir. XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin böyük nailiyyətləri ilə yadda qalaraq onun inkişafı, maddi-texniki bazasının möhkəmlənməsi illəri olmuşdur. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı Dərin Dəniz Özülləri zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir. 70-ci illərin əvvəllərindən etibarən Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də Heydər Əliyevin misilsiz tarixi xidmətlərindəndir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonralarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən də Heydər Əliyev dühasıdır. Respublikamız dövlət müstəqilliyi əldə etdikdən sonra öz tarixinin yeni mərhələsinə qədəm qoymuşdur. Bununla da ölkədə dərin sosial dəyişikliklər baş vermiş, dünya təcrübəsində sınaqdan keçmiş bazar iqtisadiyyatına keçid yolunda mühüm addımlar atılmışdır. Müasir dövrdə də Azərbaycanın bütün iqtisadi

potensialının hərəkətə gətirilməsində iqtisadiyyatında aparıcı yer tutan neft sənayesinin rolu mühümdür.

Neft sənayesinin inkişafının sürətləndirilməsi üçün inkişaf etmiş ölkələrin təcrübəsindən və neft sənayesinə kapital qoyuluşunun bir sıra siyasi və iqtisadi cəhətlərinin aydınlaşdırılması baxımından tarixi təcrübənin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu istiqamətdə çox addımlar atılmışdır. 1994-cü il sentyabrın 20-də "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlənməsi haqqında 8 ölkənin 13 ən iri neft şirkəti ilə imzalanan bu müqavilə neft sənaysinin inkişafında mühüm və əlamətdat hadisə olmuşdur. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Müqavilə imzalanandan sonra Azərbaycana diqqət artmağa başladı. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində, Azərbaycan beynəlxalq neft sənayesində ən böyük "oyunculardan" birinə çevrildi. . Neft müqaviləsi Azərbaycan üçün böyük siyasi əhəmiyyət də kəsb edir. Qərbin neft şirkətləri ilə saziş Azərbaycanın bir sıra dövlətlər tərəfindən dəstəklənməsinə, onun həm iqtisadi, həm də siyasi mənafelərinə hörmətlə yanaşılmasına təminat verən güclü amil kimi qiymətləndirilməyə layiqdir. Neft strategiyasının həyata keçirilməsi əhalinin iş yeri ilə təmin edilməsində də mühüm rol oynayırdı. Yüksək iqtisadi göstəricilər gələcəkdə Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsinə, əldə olunan gəlir isə xalqın rifah halının daha da yüksəldilməsinə gətirib çıxaracaqdır.

Azərbaycan neftini dünya bazarına çatdırmaq üçün iki istiqamətdə, birinci şimal istiqamətində – Rusiyanın Qara dənizdəki Novorossiysk limanına, ikinci Qərb istiqamətində - Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına neft kəmərlərinin çəkilməsinə Heydər Əliyev böyük əhəmiyyət verirdi. . Ölkəmizin neft strategiyasının ən əsas istiqamətlərdən biri Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsindən ibarətdir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafının, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli buraxılış imkanı ildə 50 milyon ton neft, uzunluğu 1730 kilometr olan yeni – Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdi. Real həyat növbəti dəfə ümummilli lider Heydər Əliyevin uzaqgörənliyini, Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurduğu çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu göstərdi.

Hüquqi, dünyəvi dövlət yaratmaq, iqtisadi islahatlar aparmaq, xalqın maddi və mənəvi cəhətdən təmin olunmasını fəaliyyətinin əsas istiqaməti seçən möhtərəm Heydər Əliyev iqtisadiyyatımızın dirçəldilməsi sahəsində böyük işlər gördü. Qısa bir zamanda neft emalı sahəsində də böyük müsbət dəyişikliklər əldə olundu. 1994-1995-ci illərdə "Azərneftyağ" İstehsalat Birliyində xarici şirkətlərin köməyi ilə ən müasir texnologiya və yüksək məhsuldarlığa malik iki yeni neft emal qurğusu inşa olunub istismara verilmişdir ki, bu da yüksək keyfiyyətli açıq rəngli neft məhsulları və yağlar üçün lazım olan qısa fraksiyalar

alınmasına şərait yaratmışdır. Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabr ayında bu neft kəməri istismara verildi. Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsindən respublikamızın əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli idarə və istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanına uyğun olaraq Dövlət Neft Fondu yaradılmışdır. Ən vacib, ən mühüm amil isə Neft Fondunu Azərbaycanın gələcək nəsilləri üçün saxlamaqdır. Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə çevrilmişdir.

Xəzərin Azərbaycan sektorundaki zəngin neft və qaz ehtiyatlarından səmərəli və düzgün istifadə olunması neft sənayesi ilə yanaşı, digər sənaye sahələrinin də inkişafına gətirib çıxara bilər. Ulu öndər H. Əliyevin dediyi kimi: ”Neft bizim üçün məqsəd deyildir, məqsədə çatmaq üçün istifadə etdiyimiz vasitədir. Neft imkan verəcəkdir ki, ölkəmizin iqtisadi inkişafı daha da sürətləndirilsin, müstəqilliyimiz daha da möhkəmlənsin.”

## AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASƏTİ

***Şabanova Z.Q.***
*Sumqayıt Dövlət Universiteti*

Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi” adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olub.

Ümummilli liderimiz Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərib. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılıb və onların həyata keçirilməsinə başlanıb. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan

aparıcı rol oynayıb. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olub.

Son illər dövlət başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında bu hədəflərin reallaşdırılması üçün yerinə yetirilməsi zəruri vəzifələr müəyyənləşdirilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiqlənməsində məqsəd də respublika iqtisadiyyatındakı pozitiv meyilləri daha da sürətləndirmək və mövcud potensialı davamlı inkişaf naminə tam səfərbər etməkdir. Hazırda icrasına start verilmiş İnkişaf Konsepsiyası rəqabət qabiliyyətli, ixracyönümlü, çoxşaxəli, innovativ iqtisadiyyatın formalaşdırılmasını, sənayeləşmə siyasətinin sürətləndirilməsini, mütərəqqi təcrübəyə əsaslanan sənaye zonalarının yaradılmasını, müəssisələrin texnoloji cəhətdən yeniləşdirilməsini, intensiv metodların tətbiqinin daha da genişləndirilməsini və digər tədbirləri nəzərdə tutur. Elə dövlət başçısı İlham Əliyevin YAP-ın qurultayındakı proqram xarakterli çıxışı inkişafımızın növbəti hədəflərini müəyyən etməklə ölkəmizi qarşıda gözləyən yeni, daha əzəmətli uğurlara hamımızın inamını artırır. Prezidentin qarşıya qoyulan vəzifələr və onların yerinə yetirilməsilə əlaqədar fikirləri onun bariz ifadəsidir ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən Heydər Əliyev siyasəti təkcə artıq tarixə çevrilmiş nailiyyətlərimizin deyil, həm də gələcək uğurların həlledici əsasıdır.

## AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI

***Tağıyeva A.V.***

*Sumqayıt Dövlət Universiteti*

Azadlıq hərəkatının təsiri altında 1991-ci il oktyabrın 9-da Azərbaycanın özünümüdafiə qüvvələrinin yaradılması haqqında qanun qəbul edildi. 1991-ci il oktyabrın 18-də isə Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Müstəqillik həm hər bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq da qat-qat mürəkkəbdir. Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti tanıdı. Daha sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) ölkəmizi müstəqil dövlət kimi qəbul etdilər. XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və müstəqil bir dövlət kimi formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında Əsrin müqaviləsi adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsi üçün əlverişli şərait yaratdı. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi

prioritet sahələr oldu. Ümummilli liderimiz Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə səmərəli fəaliyyət göstərdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1993-cü ildən sonrakı on il ərzində böyük və şərəfli yol keçdi. 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qaldı. Beynəlxalq əlaqələr inkişaf etdi. Nəhəng sosial və iqtisadi islahatlar uğurla aparıldı. Azərbaycan bir neçə beynəlxalq təşkilata üzv oldu. Ölkəmizə böyük həcmdə investisiyalar cəlb edildi. Azərbaycan belə bir möhkəm zəmin əsasında bu gün də inkişaf edir. Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın iqtisadi potensialı güclənmiş və əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Həyata keçirilən dövlət proqramları bütün bölgələrin tarazlı inkişafına nail olmaqla əhalinin məşğulluğunun təmin edilməsinə, abadlıq və quruculuq işlərinin aparılmasına, infrastrukturun yenidən qurulmasına yol açdı. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının təsdiqlənməsində məqsəd də respublika iqtisadiyyatındakı pozitiv meyilləri daha da sürətləndirmək və mövcud potensialı davamlı inkişaf naminə tam səfərbər etməkdir. Məlum oldugu kimi, son illərdə ölkə ərazisində sənaye parklarının yaradılması prosesi gedir. Sumqayıtda Kimya Sənayesi Parkının, Yüksək Texnologiyalar Parkının və Balaxanı Sənaye Parkının yaradılması bu istiqamətdə atılmış ilk addımlardandır. Tikilməkdə olan bu iri sənaye kompleksləri Azərbaycanın ixracyönümlü sənaye potensialının artırılmasına öz töhvəsini verəcəkdir. Eyni zamanda “Cənub Qaz dəhlizi” layihəsi və onun əsasını təşkil edən “Şahdəniz” layihəsi Azərbaycan iqtisadiyyatına öz müsbət təsirini göstərəcəkdir. Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrinin həyata keçirilməsi ən mühüm məsələlərdəndir. Bu layihələr Avropa üçün enerji təhlükəsizliyi layihəsidir. Bizim üçün isə bu layihələr siyasi, maliyyə imkanları yaratmaqla mənfəət gətirəcək, valyuta axınını təmin edəcək, bununla da dayanıqlı inkişafımız daha da möhkəm olacaqdır. Bütün bu nailiyyətlər müstəqillik dövrümüzdə əldə edilmiş uğurların, demək olar ki, bir qismidir.

Artıq dövlət müstəqilliyinin 25-ci ilini yaşayan Azərbaycan xalqı bu dövrdə əldə etdiyi dövlət müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması, respublika iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq yüksəlməsi və digər tarixi nailiyyətləri ilə fəxr edə bilər.

Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir.

# AZƏRBAYCAN İQTİSADİYYATI SON 25 İLDƏ

***Vəliyev A.C.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Müstəqillik əldə edildikdən sonrakı dövrü ölkədə mövcud iqtisadi inkişafı iki əsas mərhələyə ayırmaq olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Prezident Heydər Əliyevin 1999-cu ildə imzaladığı fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) yaradıldı.

İqtisadi islahatları tənzimləmək məqsədilə 34 qanun, o sıradan dövlət əmlakının özəlləşdirilməsi haqqında, banklar və bank fəaliyyəti haqqında (ümumiyyətlə, bazar iqtisadiyyatına uyğun bank sisteminin yaradılması üçün bütün lazımlı qanunlar qəbul edilmişdi), mülkiyyət haqqında, xarici investisiyaların qorunması haqqında, icarə haqqında, torpaq vergisi haqqında, aksizlər haqqında qanunlar qəbul edildi. Ticarətin liberallaşdırılması, dövlət ticarət müəssisələrinin kommersiyalaşdırılması, yarımçıq qalmış tikililərin icarəyə verilməsi haqqında, xırda sahibkarlığa kömək və onun inkişaf etdirilməsi haqqında prezident fərmanları qəbul edildi. Bundan başqa, özəlləşdirmə, sahibkarlığa yardım, fermer təsərrüfatının, emal sənayesinin inkişafı haqqında dövlət proqramları hazırlandı. Beləliklə, respublikada iqtisadi islahatların həyata keçirilməsi üçün hüquqi baza yaradıldı və bu yöndə ilkin addımlar atılmağa başlandı. Qısa müddətdə respublikada minlərlə xüsusi müəssisə, onlarca müstəqil bank (o sıradan xarici ortaqların iştirakı ilə) fəaliyyətə başladı, kənddə 17 mindən artıq sərbəst icarə kollektivi yaradıldı.

Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Özəlləşdirməyə başlayan zaman özəl sektorun ÜDM-də payı faktiki olaraq 10%-dən az olmasına baxmayaraq, hazırda onun xüsusi çəkisi 85%-i ötmüşdür.

1995-ci ildən Azərbaycanda keçid dövrünün yeni mərhələsi – bərpa dövrü başlandı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2%, kənd təsərrüfatı istehsalının həcmi 53,9%, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların

orta aylıq real əmək haqqı 5,6 dəfə artdı, inflyasiya səviyyəsi 2-3%-ə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra onun xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır.

Azərbaycanın uğurları nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. 2009-2010-cu illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 18 pillə irəliləyərək 133 ölkə arasında 51-ci yerə, MDB ölkələri arasında isə 1-ci yerə yüksəlmişdir. Eləcə də "Standard and Poor's" Beynəlxalq Reytinq Agentliyi tərəfindən ölkə iqtisadiyyatının vəziyyəti "Stabil"dən "Pozitiv"ə yüksəldilmişdir.

Növbəti mərhələnin əsas məqsədlərini makroiqtisadi sabitliyin qorunub saxlanılması və iqtisadi inkişafın dayanıqlılığının təmin edilməsi təşkil edəcəkdir. Eyni zamanda iqtisadi artımın keyfiyyətinin prioritetliyinin təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə iqtisadiyyatın diversifikasiyası genişləndirilməklə neft sektorundan asılılıq minimuma endiriləcək, innovativ iqtisadiyyata keçid təmin ediləcək, aqrar sektorun inkişafında intensiv üsullara üstünlük veriləcək və iqtisadiyyatın klasterlər üzrə inkişafına nail olunacaqdır.

Həmçinin ölkənin enerji, ərzaq və ekoloji təhlükəsizliyinin gücləndirilməsi üçün sistemli tədbirlər davam etdiriləcəkdir. Biznes mühitinin daha da təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin, biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi yolu ilə sahibkarlığın və regionların inkişafı daha da sürətləndiriləcəkdir. Növbəti illərdə də sosial-iqtisadi siyasətin başlıca istiqamətini ölkə əhalisinin həyat səviyyəsinin daha da yüksəldilməsi təşkil edəcəkdir.

# MÜƏSİSSƏNİN ÖDƏMƏ QABİLİYYƏTİNİN YAXŞILAŞDIRILMASINDA PUL VƏSAİTİ AXININ ÖYRƏNİLMƏSİNİN ROLU

***Vəliyeva L.M.***
*Sumqayıt Dövlət Universiteti*

Mövcud bazar iqtisadiyyatı şəraitində müəssisənin maliyyə vəziyyətini keyfiyyətcə xarakterizə edən göstəricilərdən biri də onun ödəmə qabiliyyətidir. Ödəmə qabiliyyəti dedikdə, müəssisənin möhlətli öhdəlikləri üzrə tədiyyələrin vaxtında ödənilməsi qabiliyyəti başa düşülür. Ödəmə qabiliyyəti müəssisələrdə istehsal planlarının yerinə yetirilməsinə müsbət təsir göstərir və istehsalı lazımi resurslarla təmin edir. Buna görə də ödəmə qabiliyyəti təsərrüfat fəaliyyətinin maliyyə resursları ilə təmin edilməsində onun mühüm tərkib hissəsi kimi çıxış edir. Bundan başqa, ödəmə qabiliyyəti hesablama intizamı yaratmaqla, xüsusi və borc kapitalı arasında səmərəli mühitin formalaşmasına və onun effektli istifadəsinə şərait yaradır.

Ödəmə qabiliyyətinin operativ idarə edilməsi üçün ödəmə təqvimini (dəqiq tarixli ödəmə planı) tərtib etmək məqsədəuyğundur, onda, bir tərəfdən proqnoz (5, 10, 15, 30 gün) müddəti ərzində bütün fəaliyyət növlərindən pul vəsaitlərinin daxil olması qrafiki, digər tərəfdən isə qarşıdakı ödəmələr (vergilər, əmək haqqı, ehtiyatların əmələ gəlməsi, kreditlərin və onların faizlərinin ödənməsi və s.) qrafiki əks olunur. Ödəmə təqvimi müəssisənin maliyyə xidmətlərinə pul vəsaitlərinin daxil olması və xərclənməsi üzərində operativ nəzarəti həyata keçirmək, maliyyə vəziyyətinin dəyişməsini vaxtında qeydə almaq, pul axınlarının müsbət və mənfi sinxronlaşdırılması və müəssisənin sabit ödəmə qabiliyyətinin təmin edilməsi üzrə təshihedici tədbirləri vaxtında qəbul etmək imkanını verir.

Təqvim məhsulun göndərilməsi və satışı haqqında, istehsal vasitələri haqqında məlumatlar, əməyin ödənilməsi, işçilərə avansların verilməsi üzrə hesablaşma sənədləri, bank hesablarından çıxarışlar əsasında tərtib edilir (cədvəl).

**Cədvəl**

**10.01-ə nəzərən operativ ödəmə təqvimi**

| Ödəmə vasitələri | Məbləğ, min manat | Ödəmə öhdəlikləri | Məbləğ, min manat |
|---|---|---|---|
| Pul vəsaitlərinin qalığı: | | Əmək haqqı ödənişi | 1050 |
| Kassada | - | Sosial müdafiə fonduna ayırmalar | 320 |
| Bank hesablarında | 2500 | | |
| 10.01-ə qədər ödəmə müddətli qiymətli kağızlar | 50 | Büdcə və büdcədənkənar fondlara ödəmələr | 1130 |
| 10.01-ə qədər pul vəsaitlərinin daxil olması: | | Tədarükçü və podradçıların hesablarının ödənməsi | 4100 |
| məhsulların satışından | 5080 | Bank kreditinə görə faizlərin ödənilməsi | 180 |

| | | | |
|---|---|---|---|
| sair satışlardan | 185 | Kreditin qaytarılması | 850 |
| maliyyə fəaliyyətindən | 170 | Sair kreditor borclarının ödənilməsi | 170 |
| Alıcılardan alınan avanslar | 500 | Sair ödəmələr | 50 |
| Kreditlər, borclar | - | | |
| Vaxtı keçmiş debitor borclarının ödənməsi | 120 | Yekun | 7850 |
| Sairlər | 30 | Ödəmə vəsaitlərinin öhdəlikləri ötüb keçməsi | 785 |
| **Balans** | **8635** | **Balans** | **8635** |

Cari ödəmə qabiliyyətini müəyyən etmək üçün müvafiq tarixə ödəmə vəsaitlərini həminki tarixə ödəmə öhdəlikləri ilə müqayisə etmək lazımdır. Əgər əmsal vahidə bərabər və yaxud ondan yuxarı olarsa, ideal variantdır.

Ödəmə qabiliyyətinin aşağı səviyyəsi, yəni pul vəsaitlərinin çatışmaması və vaxtı keçmiş ödəmələrin mövcudluğu təsadüfi (dəyişən) və xroniki (uzun müddətli) ola bilər. Buna görə də müəssisənin ödəmə qabiliyyətini təhlil edərək maliyyə çətinliklərinin səbəblərinə, onların yaranması tezliyinə və vaxtı keçmiş borcların müddətinə baxmaq lazımdır.

Ödəmə qabiliyyətsizliyinin səbəbləri aşağıdakılar ola bilər:

- istehsalın və məhsul satışının həcminin azalması, onun maya dəyərinin artması, mənfəətin məbləğinin və nəticə olaraq – müəssisənin özünümaliyyələşdirməsinin xüsusi mənbələrinin çatışmaması;
- dövriyyə kapitalından yanlış istifadə: debitor borcuna vəsaitlərin ayrılması, plandan artıq və müvəqqəti maliyyələşdimə mənbələrinə malik olmayan sair məqsədlərə ayırmalar;
- müəssisənin sifarişçilərinin yoxsulluğu;
- vergilərin vaxtında və yaxud tam ödənilməməsinə görə cərimə tədbirlərinin yüksək həddi.

Sənaye müəssisələrində ödəmə qabiliyyəti göstəricilərinin dəyişikliyi səbəblərinin aydınlaşdırılması üçün pul vəsaitlərinin daxil və xaric olması üzrə planın yerinə yetirilməsinin təhlili böyük əhəmiyyət kəsb edir. Bunun üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabat məlumatlarını biznes-planın maliyyə hissəsinin məlumatları ilə müqayisə edirlər.

İlk növbədə əməliyyat, investisiya və maliyyə fəaliyyətindən pul vəsaitlərinin daxil olması üzrə planın yerinə yetirilməsini müəyyən etmək və plandan kənarlaşma səbəblərini aydınlaşdırmaq lazımdır. Pul vəsaitlərindən istifadəyə xüsusi diqqət yetirmək lazımdır, belə ki, müəssisə büdcəsinin gəlir hissəsini yerinə yetirərkən pul vəsaitlərinin artıq xərclənməsi və səmərəsiz istifadəsi maliyyə çətinliklərinə gətirib çıxara bilər.

Müəssisənin maliyyə büdcəsinin xərc hissəsi artıq xərcləmələrin səbəbləri aydınlaşdırmaqla hər bir maddə üzrə təhlil edilir ki, onlar da əsaslandırılmış və əsaslandırılmamış ola bilər. Təhlilin nəticələri üzrə perspektivdə müəssisənin sabit ödəmə

qabiliyyətinin təmin edilməsi üçün pul vəsaitlərinin planauyğun daxil olmasının artırılması mənbələri aşkara çıxarılmalıdır.

Müsbət, mənfi və xalis pul axınlarının əmələ gəlməsi amillərinin öyrənilməsi üçün birbaşa və dolayı metodlardan istifadə etmək tövsiyə edilir.

## SOSİAL-İQTİSADİ İNKİŞAFIN MALİYYƏ BAZASI VƏ ONUN MÖHKƏMLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Yəhyayeva A.Y.***
*Sumqayıt Dövlət Universiteti*

Qlobal maliyyə böhranının hökm sürdüyü bir şəraitdə neft və qaz gəlirlərini qeyri-neft sektoruna yönəltməklə iqtisadiyyatın tarazlı inkişafına nail olmaq son illər Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri olmuşdur. Bu baxımdan sosial-iqtisadi inkişafın sürətləndirilməsi dövlətin iqtisadi siyasətinin başlıca hədəflərindən biri kimi müəyyənləşdirilmişdir.

İqtisadiyyatın davamlı inkişafı və diversifikasiyası, əhalinin rifahının yaxşılaşdırılması və bütövlükdə yoxsulluq səviyyəsinin aşağı salınmasında maliyyə-bank sektoru müstəsna rola malikdir. Respublikamızda qlobal maliyyə böhranının ən çox təsir etdiyi sektorlardan biri məhz bank sektorudur. Lakin respublikada aparılan uğurlu islahatlar nəticəsində son illər ərzində ölkədə işgüzar fəallıq iqtisadiyyatda kreditə olan tələbatı artırmış, artan tələbata uyğun şəkildə bank sistemi kredit resurslarının təklifini xeyli genişləndirmişdir. Kreditlər üzrə orta faiz dərəcələri nisbətən sabit qaldığına görə 2015-cı il ərzində iqtisadiyyata kredit qoyuluşlarının həcmi 2014-cü illə müqayisədə 17,9 % artmışdır. Qeyd etmək lazımdır ki, bankların kredit aktivliyinin artması məcmu tələbin maliyyələşməsində bank sisteminin iştirakının daha da artmasının nəticəsi olmaqla, bank sisteminə inamın tədricən bərpa olunmasının əyani nümunəsidir.

**Cədvəl 1.**

**İqtisadiyyata kredit qoyuluşları (ilin axırına, mln. manat)**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **İqtisadiyyata kredit qoyuluşları, onlardan:** | **9850,3** | **12243,7** | **15422,9** | **18542,6** | **21730,4** |
| qısa müddətli | 2951,2 | 3508,3 | 3335,5 | 3931,3 | 5297,3 |
| Yekuna görə, faizlə | 30,0 | 28,7 | 21,6 | 21,2 | 24,4 |
| Uzun müddətli | 6899,1 | 8735,4 | 12087,5 | 14611,3 | 16433,1 |
| Yekuna görə, faizlə | 70,0 | 71,3 | 78,4 | 78,8 | 75,6 |

Son illər ölkə əhalisinin real gəlirlərinin artması, bank sektorunun davamlığının möhkəmlənməsi, kreditorların və əmanətçilərin hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi nəticə etibarilə əhalinin əmanətlərinin sürətli artımına səbəb olmuşdur.

Qeyd edək ki, 2015-ci il ərzində əhalidən cəlb olunmuş əmanətlərin həcmi 2014-cü illə müqayisədə 31,8 % artmışdır. Bunlar, əsasən, xarici valyuta ilə olan əmanətlərdir.

**Cədvəl 2.**

**Əhalidən cəlb olunmuş əmanətlər (mln. manat)**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Əhalidən cəlb olunmuş əmanətlər | 4119,8 | 5113,4 | 6395,8 | 7188,4 | 9 473,9 |
| ondan: | | | | | |
| Milli valyuta ilə | 2281,7 | 2963,8 | 3888,3 | 4422,4 | 1 420,2 |
| xarici valyuta ilə | 1838,1 | 2149,6 | 2507,5 | 2766,0 | 8053,7 |
| Əmanətlərin artımı, faizlə | 136,0 | 124,1 | 125,1 | 112,4 | 131,8 |

Ümumilikdə, 2015-ci ildə Mərkəzi Bankın xalis valyuta satışları 8,4 mlrd. ABŞ dolları təşkil etmişdir. 2015-ci ilin sonuna Mərkəzi Bankın xarici valyuta ehtiyatlarının həcmi 5 mlrd. ABŞ dolları təşkil etmişdir. 2015-ci ilin sonunda Mərkəzi Bankın məzənnə siyasətinin əməliyyat çərçivəsi yeni rejimə uyğunlaşdırılmışdır. Hazırda Mərkəzi Bankın valyuta satışları hərraclar vasitəsilə həyata keçirilir. Mərkəzi Bankın məzənnə ilə bağlı hər hansı kəmiyyət hədəfi yoxdur. Mərkəzi Bankın əməliyyatları yalnız məzənnədəki kəskin tərəddüdlərin qarşısını almağa yönəldilmişdir. Banklararası əməliyyatlar üzrə orta çəkili məzənnə rəsmi məzənnə kimi götürülür. "Üzən məzənnə" rejiminin ən böyük üstünlüyü odur ki, o, qlobal şokların ölkə iqtisadiyyatına mənfi təsirlərinin məzənnə vasitəsilə neytrallaşmağına imkan verir. Eyni zamanda yeni rejim daxili maliyyə bazarının inkişafını təşviq edir, bir sıra yeni maliyyə alətlərindən istifadəni dəstəkləyir. Üzən rejimə keçid məzənnənin tarazlı səviyyəsinə nail olmağa imkan verir. Ümumiyyətlə, son dövrlərdə Azərbaycan Respublikasında bank sistemində uğurlu islahatlar ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynamışdır. Belə ki, bank texnologiya və məhsullarının genişlənməsi, bank sisteminin innovasiya təşəbbüsləri xeyli çoxalmışdır.

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir. Bu siyasət, iqtisadiyyatın bütün sahələrində, xüsusilə, prioritet inkişaf sahələrində işgüzar fəaliyyət üçün normativ-hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir. Sahibkarların maarifləndirilməsi istiqamətində müvafiq təşviqat işlərinin aparılması, xüsusi ilə respublikanın regionlarında və Bakı şəhərinin qəsəbələrində "Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələləri"nə dair işgüzar forumlar çərçivəsində iqtisadiyyatın müxtəlif sahələri üzrə hazırlanmış nümunəvi investisiya layihələrinin təqdimatının keçirilməsi və həmin nümunəvi layihələrin sahibkarlara təqdim olunması kreditlərin daha da səmərəli istifadəsinə stimul yaratmış, habelə xarici investisiyaların cəlb edilməsi prosesinin dəstəklənməsinə müsbət təsir göstərmişdir. Qeyd edək ki, güzəştli kreditlər hesabına maliyyələşdirilən investisiya layihələrinin həyata keçirilməsi nəticəsində 12587 yeni iş yerlərinin yaradılması nəzərdə tutulur. Güzəştli kreditləri hesabına maliyyələşdirilən investisiya layihələrinin həyata keçirilməsi nəticəsində yaradılacaq yeni iş yerlərinin 83.5%- i aqrar sektorun, 16.5%-i müxtəlif sənaye və digər sahələrin payına

düşmüşdür. 2015-ci ildə güzəştli şərtlərlə maliyyələşdirilmiş investisiya layihələrinin 5157-si (98.4%) kiçik həcmli (kredit məbləği 55 464.5 min manat), 29- u (0.6%) orta həcmli (kredit məbləği 6 083 min manat) və 57-si (1%) böyük həcmli (kredit məbləği 186 938 min manat) layihələr olmuşdur. 2015-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə 5243 sahibkarlıq subyektinə 248.5 milyon manat dövlətin güzəştli kreditləri verilmiş və bu kreditlər hesabına 12600-dək yeni iş yerinin yaradılması imkanı yaranmışdır.

Hazırkı mərhələdə qarşıda duran sosial-iqtisadi problemlərin həlli sahibkarlığın inkişafının sürətləndirilməsini, onun fəaliyyətinin ölkə iqtisadiyyatının inkişafı tələblərinə daha da uyğunlaşdırılmasını, bu istiqamətdə dövlət köməyi tədbirlərinin çərçivəsinin genişlənməsini, regionlarda sahibkarlığın inkişafı sahəsində mövcud potensialın reallaşdırılmasını tələb edir. Dövlətin qarşısında duran başlıca vəzifə sosial-iqtisadi inkişafı təmin edəcək institutsional şərait formalaşdırmaq, maliyyə, kredit, gömrük və vergi kimi mexanizmlərin stimullaşdırıcı rolunu gücləndirməklə, məhdud resursların səmərəli istifadəsinə əlverişli imkanlar yaratmaqdır.

## MİLLİ İQTİSADİYYATIN SOSİAL-İQTİSADİ İNKİŞAFINA STRUKTUR SİYASƏTİNİN TƏSİRİ

***Zalov Z.M.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın müstəqil dövlətə çevrilməsi, bazar sisteminə keçməsi struktur problemlərinin qoyuluşunu, onun meyar və göstəricilərini əsaslı dəyişikliyə uğratmışdır. Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatının inkişaf dinamikası, makroiqtisadi sabitlik, islahatların miqyası, dünya iqtisadiyyatına inteqrasiya məqsədilə aparılan siyasət real iqtisadi durumu qiymətləndirmək, bir sıra zəruri problemlərin həlli yollarında konstruktiv qərar qəbulunu əsaslandırmaq zərurətini yaratmışdır. Məhz Azərbaycanın iqtisadi və sosial inkişafının perspektiv istiqamətlərinin əsasını bu gün respublikada aparılan bazar iqtisadiyyatının təşəkkülünü təmin edən və idarəetmə fəaliyyətini təkmilləşdirən idarəetmə strukturunun təkmilləşdirilməsi təşkil edir.

Struktur islahatlarının həyata keçirilməsi bir sıra obyektiv zəruriyyət üzündən meydana çıxır. Ölkənin iqtisadi müstəqilliyi, iqtisadi artım, əhalinin rifahı və sosial tələbatın təmin edilməsi və s. perspektiv struktur siyasətinin aparılması ilə bağlıdır. Struktur siyasət iqtisadi potensialın səmərəli istifadə olunması, istehsal sahələrinin dünya elmi texniki tərəqqi və standartlarına uyğun məhsul istehsalına yönəldilməsi kimi nəticələri əldə etmək üçün vacibdir. Struktur islahatlar dünya iqtisadiyyatında Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, onun mütərəqqi texnologiya siyasətində rolunun artması və ixracatın strukturunun təkmilləşdirilməsi üçün mühüm strateji istiqamətdir. Ölkədə həyata keçirilən struktur islahatlar respublikanın daxili təsərrüfat əlaqələrinin təkmilləşdirilməsində, onun idarə edilməsində və istehsal xərclərinin aşağı salınması istiqamətində mühüm rol oynayır. Struktur islahatlar Azərbaycan iqtisadiyyatının strateji məhsulları, onun iqtisadi potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi üçün, sahələrarası nisbətlərin, neft sektoru ilə

yanaşı kənd təsərrüfatının, sosial infrastrukturun və emal sənayesinin səmərəli əlaqələndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Son illərdə iqtisadi artımın dinamikası artımı, investisiya axının stimullaşdırılmasına şərait yaradılması, inflyasiyanın sabitləşməsi, ixracatyönümlü istehsal potensialının formalaşdırılması və ardıcıl sosial siyasətin aparılması şəraiti struktur dəyişmələrinin əlverişli mühitini yaradır. Ali məqsədin seçilməsi ölkə iqtisadiyyatının sahə, ərazi, təsərrüfat quruluşunun məhz həmin məqsədə çatma yolunu qiymətləndirməklə və həmin tədbirlərin imkanlarını nəzərə almaqla əsaslandırılması struktur dəyişikliklərinin metodoloji əsasını təşkil edir və struktur dəyişiklikləri dinamizmi ixtisaslaşma və kompleksləşmə, əməyə qənaət və məsrəflər, effekt modeli baxımından qiymətləndirilir. Müstəqillik əldə edən respublikamız üçün yeni iqtisadi sistemə keçid mərhələsində struktur siyasətinin, islahatların özünəməxsus modeli mövcuddur. Bu sahədə ilk növbədə daxili resurslara əsaslanan və sosialyönümlü islahatlar, məqsədə çatmaq üçün aparılan islahatlar daha realdır.

Məlumdur ki, struktur dəyişikliklərinə liberal yanaşmada əsas güc xüsusi sahibkarlığın, xüsusi investisiyanın və onların inkişafı üçün münasib şəraitin yaradılmasının üzərinə düşür. Bu, o demək deyildir ki, bazar iqtisadiyyatına keçid dövründə dövlət sənaye siyasətindən, iqtisadiyyatın üstün sahə və istehsalatlarının inkişafına yardım göstərməkdən imtina edilmə və ya yeni iqtisadi sistemə keçid və müstəqillik şəraitində struktur probleminin həlli bütövlükdə bazarın ümidinə buraxılmalıdır. Dövlət burada daxili bazarın və xarici dünya bazarının tələblərini, ölkənin qarşısında duran problemləri həll etmək, milli iqtisadiyyatın resurslarını səfərbər edib hərəkətə gətirmək üçün müvafiq siyasətin formalaşdırılmasını tələb edir. İqtisadiyyatı sabitləşdirmək və bazar iqtisadiyyatına keçid üçün zəruri olan struktur dəyişiklikləri iki mərhələdə həyata keçirilməlidir. Birinci mərhələdə struktur dəyişiklikləri istehsalın həcminin aşağı düşməsinin qarşısının alınması və maddi-maliyyə sabitliyinin təmin olunması üçün zəruri ilkin şərtlərin yaradılmasına yönəldilməlidir. İkinci mərhələdə isə əsas siyasət daha çox iqtisadi artımın tarazlığının təmin edilməsinə və onun sürətinin artırılmasına yönəldilməlidir.

Bu gün müstəqillik əldə etmiş respublikamızda struktur investisiya siyasəti ictimai, iqtisadi və siyasi problemlərin təsiri altında formalaşır və struktur siyasətinin başlıca istiqaməti respublikada resursların emalı mərhələsini dərinləşdirməyə imkan verən sahələrin inkişafı ilə bağlıdır. İnvestisiya avans edilmiş kapitaldır və investisiyanın uzunmüddətli məqsədlər üçün qoyulması iqtisadiyyatın sahə quruluşuna təsir edir. Struktur dəyişmələr üçün qoyulan investisiya həmin dövr üçün yeni iqtisadi struktura maddi əməyə və istehsal qabiliyyətinə görə perspektiv elmi texniki tərəqqi üçün istehsal strukturuna səbəb olur, həmçinin iş yerləri və məşğuliyyət səviyyəsinin yüksək olması hesabına istehlak üçün lazım olan resursların artımına səbəb olur. Son nəticədə, respublikada həyata keçiriləcək struktur-investisiya siyasəti Azərbaycanın dünya bazarına çıxış imkanlarının genişləndirilməsinə xidmət etməlidir.

Ümumiyyətlə, struktur dəyişmələrinin əsas meyarı əmək bölgüsünə təsir etməklə, iqtisadi artımın təmin olunmasına və istehlakın təkmilləşdirilməsinə yönəlməli, ümumi daxili məhsulun istehsal strukturunda əmək tutumlu sahələrin artırılması keçid dövrü üçün artması strateji məqsəd olmalıdır. Bu məqsədlərə nail olunması isə ümumi daxili məhsulun

təkrar istehsal strukturunun təkmilləşdirilməsini tələb edir. Ümumi daxili məhsulun istehsal strukturunda mülkiyyət münasibətlərinin tənzimlənməsi və yerli resurslara əsaslanan ənənəvi fəaliyyətin təşkili, xidmət sahələrinin daha üstün artımına yönəldilən struktur dəyişmələri məhz dövlətin himayəçilik siyasəti ilə bağlıdır. Ümumi daxili məhsul dəyər quruluşu ilə onun maddi əşya strukturu, istehlak və istehsal strukturu, təkrar istehsal və artım arasında nisbətlər inteqral effektini nəzərə almaqla idarə olunur. Bu məqsədlə dövlətin proteksionist siyasəti, onun mərhələləri, prioritetləri müəyyən olunmalıdır. Belə ki, dövlət gəlirləri sahibkarlıq subyektləri olaraq, dövlətin, sahibkarların və müştərək müəssisələrin yeni təsərrüfat formalarına eyni şərait yaratmaqla, ədalətli bölgü və yenidən bölgü sistemləri tətbiq etməklə mümkündür. Dövlət gəlirlərinin formalaşmasında bazar tipli vergilərin xüsusi çəkisi artmalı, həmçinin dolayısı vergidən qaçmaqla, birbaşa vergi sisteminin üstün artımını təmin edən struktur vergi siyasəti daha sürətlə inkişaf etdirilməlidir. Həmçinin əhali gəlirləri strukturunda sahibkarlıq və fərdi gəlirlərin inkişafına stimul yaradan himayəçilik və stimullaşdırma mexanizmləri aparıcı rol oynamalıdır.

## ИНВЕСТИЦИОННОЙ ФАКТОР В ПРОЦЕССЕ ВОССТАНОВЛЕНИЯ И БУРНОГО РАЗВИТИЯ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА ПОСЛЕ ПРИОБРЕТЕНИЯ ГОСУДАРСТВЕННОЙ САМОСТЯТЕЛЬНОСТИ

***Абдиев Дж.Я.***

*Бакинская классическая гимназия №160*

В Азербайджане после восстановления государственной самостятельности, обладая всеми предпосылками для ускоренного развития задача состояла в том, чтобы модернизировать экономический комплекс, включая его инфраструктуру и приступить к решению важных социальных задач.

Важным достижением стало увеличение потока иностранных инвестиций в результате создания благоприятного инвестиционного климата. Если в 1993 г. экономика Азербайджана не получила никакого иностранного капитала, то уже в 1994-2000 гг. в страну было привлечено 5,5 млрд долл. прямых инвестиций, включая 3,3 млрд долл. (60%) – в нефтяной сектор и 2,2 млрд долл. – на развитие инфраструктуры в других отраслях промышленности.

Привлечение иностранного капитала было основным предварительным условием восстановления азербайджанской промышленности, строительства, транспорта, коммуникаций и других секторов обслуживания. За последние пять лет местные подрядные организации, победившие во многих тендерах, выполнили по заказу иностранных компаний различных работ объемом приблизительно 600 млн долл. В настоящее время примерно 100 тыс. жителей Азербайджана работают на индустриальных и непроизводственных предприятиях, образованных за счет иностранного капитала.

В течение последних лет параллельно с иностранными инвестициями также устойчиво росли капиталовложения из местных источников. Таким образом, в 1995-

2000 гг. за счет средств из государственного бюджета, местных компаний и частных лиц инвестиции превысили 2,3 млрд долл., в том числе 52% ассигновано на развитие отраслей промышленности, 29 – на строительство жилых зданий и предприятий коммунального обслуживания, 9 – на транспорт и коммуникации и 10% – на строительство объектов торговли и бытового обслуживания, учреждений культуры, гостиниц и т.д.

В сентябре 1994 г. Азербайджан вступил в соглашение с основными международными нефтяными компаниями об объединенной разработке ряда месторождений, которое назвали Контрактом столетия. Объем иностранных инвестиций по этим контрактам составил свыше 60 млрд долл. В настоящее время нефтедобывающая промышленность находится на пороге бума.

Однако, несмотря на огромное его значение для экономики страны, в настоящее время доля нефтяного сектора в национальном ВВП не превышает 18-19%, остальная продукция приходится на такие отрасли, как машиностроение, черная и цветная металлургия, химическая и нефтехимическая индустрия, легкая и пищевая промышленность, производство строительных материалов (последняя составляет примерно 20%).

Поток иностранных инвестиций играет важную роль в ускорении интеграции Азербайджана. Кроме проектов международных нефте и газопроводов, предназначенных для обеспечения экспорта в Европу энергоресурсов не только из Азербайджана, но и Казахстана и Туркмении, страна максимально стремится использовать свое выгодное географическое положение, представляющее превосходную перспективу стать центром транзита по маршруту Европа – Кавказ – Азия.

По мнению экспертов, предполагаемый транспортный маршрут будет наиболее эффективным из всех существующих. Если, как ожидается, грузовой транзит через Азербайджан увеличится в 8-10 раз в ближайшем будущем, это будет приносить ежегодный доход более 1 млрд долл.

Концептуальные направления развития промышленности, сельского хозяйства и инвестиционной политики в ближайшем будущем будут осуществляться на фоне смягченного налогового и денежно-кредитного режима. Умеренная инфляция (5-6% в год) и «освобождение» обменного курса маната позволят денежно-кредитной массе увеличиться до 25-30% ВВП. Вероятный сценарий в ближайшие годы – иностранные ссуды и кредиты постепенно прекратят быть основными средствами финансовой стабилизации, уступая эту функцию внутренней банковской системе

# ОСНОВНЫЕ ЭТАПЫ и ИТОГИ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Алекперова Ф.Э.***

*Бакинская классическая гимназия №160*

После восстановления государственной независимости в 1991 году Азербайджан начал вести самостоятельную политику в сфере экономики. Главным направлением этой деятельности стали создание системы экономики, основанной на различных формах собственности, переход к рыночным отношениям и интеграция в мировую экономику.

Экономическое развитие со времени приобретения независимости по сей день можно разделить на два основных этапа. Первый, охватывающий 1991-1995 годы, явился периодом хаоса и упадка, второй - период макроэкономической стабильности и динамического развития экономики, начавшийся с 1996 года и продолжающийся по сей день.

В результате дальновидной политики и напряженного труда общенационального лидера азербайджанского народа Гейдара Алиева, несмотря на тяжелый исходный рубеж, за короткий исторический период после восстановления государственной независимости удалось добиться очень больших успехов в социально-экономическом развитии страны и интеграции в мировую хозяйственную систему. Самое большое достижение заключается в том, что в результате осуществленного в этот период в стране процесса независимого государственного строительства возникала новая по сути развития и экономических реформ модель - Азербайджанская модель.

День 20-го сентября 1994 года золотыми буквами вписан в новейшую историю независимой Азербайджанской Республики и навсегда останется в памяти нынешнего и будущих поколений. Подписание и реализация соглашения, в настоящее время известного во всем мире как "Контракт века", являются наглядным свидетельством претворения в жизнь новой нефтяной стратегии, разработанной Гейдаром Алиевым и составляющей концепцию экономического развития независимого Азербайджана. Для выведения азербайджанской нефти на мировой рынок, в связи со сдачей в эксплуатацию в 1996 году нефтепровода Баку-Новороссийск, а в 1999 году Баку-Супса и в связи со строительством нефтепровода Баку-Тбилиси-Джейхан, было осуществлено подписание соглашения и диверсификация экспортных маршрутов.

29-го декабря 1999 года общенациональный лидер Гейдар Алиев подписал Указ "О создании Государственного Нефтяного Фонда Азербайджанской Республики". Первые средства Фонда были использованы для финансирования мероприятий, направленных на улучшение социально-бытовых условий самой обездоленной категории граждан - беженцев и вынужденных переселенцев.

После восстановления Азербайджаном независимости важное значение во внешней экономической политике уделялось связям с международными финансово-кредитными и экономическими учреждениями. За истекший период проделана

существенная работа в этом направлении. Азербайджан является членом всех авторитетных международных структур.

Для реализации систематических и последовательных мер, направленных на диверсификацию экономики, по указу и распоряжению главы государства, были осуществлены различные пятилетние программы, связанные с социально-экономическим развитием Азербайджанской Республики на протяжении 2004-2013 годов. За последние 15 лет во всех областях в Азербайджане произошел большой прогресс, республика стала одной из самых стремительно развивающихся стран мира. В этот период не было такой сферы, где бы не проводились реформы и не наблюдалось бы развитие.

На протяжении последних 15 лет в экономику Азербайджана было инвестировано около 140 миллиарда долларов, внешнеторговый оборот увеличился в 6,4 раза, а ненефтяной экспорт – в 4,5 раза. В настоящее время доля частного сектора во внутреннем валовом продукте составляет 83, а в занятости – 73,9 процента.

Все это доказывает, что Азербайджан за короткое время превратился в одно из самых экономически мошных государств не только региона, но и мира.

# III BÖLMƏ

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFI

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ MƏDƏNİYYƏT SİYASƏTİ VƏ MƏNƏVİ DƏYƏRLƏR

***Abbasov N.N.***
*AMEA, İqtisadiyyat İnstitutu*

Dünya sosializm sisteminin dağılması nəticəsində mədəniyyət sahəsində dövlət siyasətinə və mədəniyyətin maliyyələşdirilməsinə yenidən baxılması zəruriliyinin, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı sisteminə keçidin reallaşdığı bir dövrdə mədəniyyət siyasəti sahəsində məsuliyyətin əhəmiyyətli bir hissəsi mədəniyyət işçilərinin üzərinə düşür. Mədəniyyət müəssisələrinin idarə edilməsi prosesində meydana çıxan çətinliklər bu məsuliyyətin ağırlığını daha da artırır. Belə ki, imperiya ideologiyasının mənəviyyatımıza vurduğu zərbələrin, siyasi həyatımızdakı təbəqələşmənin elmə, mədəniyyətə tətbiq olunmasının, mənəvi dəyərlərimizin ideoloji zəmində saf-çürük edilməsinin ağrı-acıları nəticə etibarilə bu gün də hiss edilməkdədir. İttifaq respublikaları arasında uzun illər mövcud olmuş mədəni-iqtisadi əlaqələrin qırılması qanunauyğun şəkildə bütün respublikaları demək olar ki, eyni problemlərlə üzləşdirdi. Lakin qərəzli siyasət nəticəsində müharibə vəziyyətinə gətirilmiş müstəqil Azərbaycanın bu problemlərdə payı ikiqat artıq oldu.

Azərbaycan mədəniyyətinin inkişaf perspektivlərini müəyyən etməyə çalışarkən sivil dünyanın mədəni təcrübəsi ilə yanaşı mədəniyyətimizin yaxın keçmişdəki vəziyyətini təhlil etməyə də ehtiyac duyulur. Əgər bu vaxta qədər mədəniyyət müəssisələrinin strukturunda yaxşılığa doğru əhəmiyyətli dəyişikliklər nəzərə çarpmırsa, onlar öz fəaliyyətlərini faktik olaraq əsasən sovet dövründəki forma və vasitələrlə həyata keçirməyə çalışırlarsa, yeni fəaliyyət mexanizmləri hələ heç nəzəriyyə formasında da hazır deyilsə, onda bu təhlilin zəruriliyi daha qaçılmaz olur. Digər tərəfdən erməni işğalının mədəniyyətimizə gətirdiyi bəlaları da nəzərdən qaçırmaq olmaz. Belə ki, işğal olunmuş ərazilərdə mədəniyyət sərvətlərimiz talanmış, maddi və mənəvi mədəniyyət abidələrimiz dağıdılmışdır. Ermənilər təcavüz nəticəsində 500 tarixi artixektura abidəsini, 100-dən çox arxeoloji obyekti, 22 muzey, 4 şəkil qalereyası və 808 klub müəssisəsini, 927 kitabxana, 85 musiqi məktəbi, 10 park, 4 dövlət teatrı və 2 konsert müəssisəsini planlı surətdə məhv etmiş, yaxud özününküləşdirmişlər. Belə bir vəziyyət mədəniyyət müəssisələrinin idarə edilməsi və iqtisadiyyatının təşkili ilə bağlı həlli müşkül olan bir sıra ciddi problemlər meydana çıxartdı.

Müstəqilliyin ilk illərində mədəniyyət müəssisələrinin üzləşdiyi çətinliklər içərisində şəxsi və işgüzar keyfiyyətləri müasir tələblərə cavab verəcək ixtisaslı kadrlar qıtlığı da başlıca əngəllərdən idi. Çünki Mübariz Süleymanlının təbirincə desək, "yalnız mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli

mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanılmasını və inkişafını, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasını, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edən "Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu"nun əsas müddəalarını həyata tətbiq edəcək, onu öz əməli fəaliyətləri ilə reallaşdıracaq, bu qanunun işlək mexanizmini yaradacaq mütəxəssislər ordusu formalaşdırılacağı təqdirdə Azərbaycan mədəniyyətinin inkişafından, məqsədyönlü perspektivlərindən danışmaq olar. Belə bir məsuliyyətli vəzifənin həlli bütün səlahiyyətli dövlət və hökumət strukturları, qurulmları ilə yanaşı, təhsil müəssisələrinin keyfiyyət göstəricilərindən, tədris proqramlarının, dərsliklərin və s. səviyyəsindən də çox asılıdır". İndiyədək respublikamızda mədəniyyət fəaliyyətinin tənzimlənməsi məqsədi daşıyan bir sıra qanunların qəbulu sevindirici haldır. Dövlətə məxsus mədəniyyət sərvətlərindən, bu sərvətlərin və milli mədəniyyətin inkişafı, mühafizəsi, təbliği və artırılması ilə məşğul olan mədəniyyət müəssisələri şəbəkəsindən, mədəniyyəti idarə edən orqanlardan, milli-mədəni əmlakın bərpası, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məşğul olan digər dövlət mədəniyyət təsisatlarından ibarət olan Azərbaycan Respublikasının dövlət mədəniyyət sistemi məhz bu qanunlar çərçivəsində fəaliyyət göstərir. Dövlət mədəniyyət sisteminə daxil olan bir təsisat kimi bütün mədəniyyət müəssisələri də fəaliyyətlərində bu qanunları rəhbər tutmalı, idarəetmə prosesini həmin qanunlar vasitəsilə tənzimləməlidir.

## AZƏRBAYCANDA MÜSTƏQİLLİK İLLƏRİNDƏ İQTİSADİ VƏ SOSİAL COĞRAFİYANIN İNKİŞAFI

***Abdullayeva Z.H.***

*Sumqayıt Dövlət Universiteti*

XX əsrin 20-30-cu illərindən sonra Azərbaycanda sovet iqtisadi coğrafiya məktəbinin təsirilə iqtisadi coğrafiya bir fənn kimi inkişafı etməyə başlamışdır. Bu illərdə bir sıra elmi-tədqiqat işləri aparılmış, onların nəticələri işıq üzü görmüşdür. M.H.Baharlının "Azərbaycan"(1921) və M.Avdeyevin "Muğan və Salyan çölü" (1927) kitabları bu işlər arasında xüsusi əhəmiyyət kəsb edir.

Respublikada aparılan sənayeləşmə, onun elmi əsaslarının işlənib hazırlanmasını, strukturunun təkmilləşməsi istiqamətlərinin müəyyən edilməsini, bu sahənin inkişafı üçün yerli təbii-coğrafi şərait və iqtisadi bazanın qiymətləndirilməsini tələb edirdi. Bu dövrü respublikada iqtisadi coğrafiyanın inkişafında ilkin mərhələ kimi ayırmaq olar.

20-ci illərin sonu, 30-cu illərin əvvəllərindən başlayaraq ölkədə aparılan torpaq islahatları və kollektiv təsərrüfatların yaradılması iqtisadi coğrafiya qarşısında da kənd təsərrüfatının müasir tələblərə uyğun ərazi təşkili, torpaq və su ehtiyyatlarından istifadə edilməsi məsələsini məqsəd kimi qarşıya qoyurdu. Bu illər Azərbaycanda coğrafiya sahəsində elmi-tədqiqat işlərinin və onun tədrisinin təşkilində H.V.Əliyevin müstəsna rolu olmuşdur. Bu dövr iqtisadi coğrafiyanın inkişafında ikinci mərhələ hesab edilir.

40-50-ci illərdə iqtisadi coğrafiyanın mühüm qolu olan əhali coğrafiyası müstəqil tədqiqat sahəsinə çevrildı. İqtisadi coğrafiyanın inkişafında üçüncü dövr hesab edılən bu

illərdə Ə.M.Hacızadənin apardığı tədqiqatlar Azərbaycanda iqtisadi coğrafiyanın əsasını qoymuş və ilk dəfə bu sahədə doktorluq dissertasiyası müdafiə edilmişdir.

50-60-ci illərdən sonra respublikamızda sistemli şəkildə iqtisadi-coğrafi tədqiqatlar genişləndi. Beləki respublikanın fiziki coğrafiyası, təbii komponentlərin təbii-iqtisadi qiymətləndirilməsi, Xəzər dənizinin öyrənilməsi və təsərrüfatın müxtəlif sahələrində istifadə edilməsi üzrə mühüm elmi-praktiki əhəmiyyəti olan tədqiqat işləri aparılmışdır. Bu tədqiqatların aparılmasında Ə.A.Mədətzadə və Q.Gülün xüsusi əməyi olmuşdur.

Azərbaycanda 70-80-cı illərdə regionların öyrənilməsinə diqqət artırılmış, ayrı-ayrı iqtisadi rayonların və onlarda formalaşan sənaye mərkəzlərinin iqtisadi-coğrafi cəhətdən öyrənilməsi, əhalinin məskunlaşması üzrə tədqiqarlar genişlənmişdir.

Müstəqilliyin ilk illərində elmin digər sahələrində olduğu kimi iqtisadi coğrafiya sahəsində də durğunluq yaranmışdır. Belə ki, elmi işlərin aparılmasına, kadr hazırlığına ayrılan maliyyə vəsaitinin azalması bu sahədə böhranlı vəziyyətə gətirib şıxarmışdır. Lakin yeni təsərrüfat sisteminin və bazar iqtisadiyyatının formalaşması, təsərrüfat obyektlərinin qurulmasında və ərazi təşkilində müasir prinsiplərin tələb edilməsi iqtisadi coğrafiyada da yeni yanaşma tələb edirdi. Keçid dövründən əvvəlki illərdə formalaşmış təsərrüfatın ərazi təşkili, iqtisadi rayonların ayrılması prinsipləri öz əhəmiyyətini itirdi, yeni istiqamətlərin işlənib hazırlanması zərurəti yarandı. İqtisadi coğrafi tədqiqatlara qoyulan tələblərin dəyişməsi yeni metodologiya əsasında elmi işlərin aparılmasını tələb edirdi.

İqtisadi coğrafiya sahəsində yeni tədqiqat işlərinin istiqaməti 90-cı illərin ikinci yarısından etibarən müəyyənləşdi. Bunlar arasında əhali coğrafiyası, turizm, təbii fəlakətlərin öyrənilməsi məsələlərinə daha geniş yer verildi. Qeyd etməliyik ki, təsərrüfatın əsas sahələri kimi sənaye, kənd təsərrüfatı, nəqliyyat, iqtisadi əlaqələr və xidmət sahələrində tədqiqatlar çox ləng gedir.

90-cı illərin ortalarından başlayaraq elmə diqqət xeyli artmış, kadr potensialının hazırlıq səviyyəsinin yüksədilməsi istiqamətində işlərə başlanmışdır. Ali təhsildə ikipilləli sistem-bakalavr və magistr pillələrinin tətbiqi, kredit sisteminə keçilməsi kadr hazırlığına ciddi təsir göstərmişdir.

AMEA Coğrafiya İnistitutu müstəqillik illərində iqtisadi coğrafiya üzrə elmi kadrların hazırlanmasında əhəmiyyətli işlər həyata keçirmişdir. Burada Müdafiə Şurası fəaliyyət göstərir. Bu illərdə T.G.Həsənov təsərrüfat sahələrinin ərazi təşkili prinsipləri, N.B.Soltanova və A.H.Salmanov turizm və rekrasiya təsərrüfatının inkişafı, Ç.N.İsmayılov neft-qaz təsərrüfatinin ərazi təşkili, A.İ.İbrahimov xarici ölkələr coğrafiyası kimi sahələr üzrə tədqiqatlar aparmışlar.

Azərbaycanda hazırda təsərrüfat sahələr ilə yanaşı, kadr hazırlığı və elmi-tədqiqat işlərinin aparılmasında da inteqrasiya prosesi gedir. Regional səviyyədə və dünyada elmin inkişafına öz töhfəmizi vermək üçün dünyanın digər ölkələrindəki tələblərə uyğun tədqiqat işlərinin aparılması vəzifəsini həyata keçirməliyik.

## MƏKTƏBLİLƏRƏ AZƏRBAYCANIN TARİXİ İRSİNİN ÇATDIRILMASINDA MUZEYEYLƏRİN ROLU

***Abuzərov Ə.Ə.***
*Azərbaycan Dövlət Memarliq və İnsaat Universiteti*

Respublikamızın əldə etdiyi nailiyyətlər özünü ictimai-siyasi, sosial-iqtisadi, mədəni-quruculuq sahələrində, həmçinin muzeylərin fəaliyyətində özünü göstərir. Son dövrlər Azərbaycan muzeylərində əsas prioritet muzeylə ziyarətçilər arasında kommunikasiyanın yaranmasına yönəldilib. Bu baxımdan muzey məkanında təşkil olunan spesifik oyunların rolu artmaqdadır. Muzey oyunları artıq bir sıra dünya muzeylərinin uşaqlarla iş metodikasının tərkib hissəsinə çevrilib. Muzey işinin hər zaman inkişaf etdiyi Azərbaycanda da artıq bir sıra muzeylər məktəblilərə muzey oyunlarını təklif edirlər.

Muzey oyunları strategiyaya görə

- az hərəkətli: uşaqlar oturaraq və ya ayaq üstündə oynayırlar;
- estafet oyunu: ikidən və daha çox komandaların yarışması. əsas məqsəd ekskursiyadan sonra bələdçinin onlara verdiyi məlumatı necə mənimsəmələrini yoxlamaq və öyrəndiklərini möhkəmləndirilməsidir;
- səhnə oyunu: ekskursiyanın verə biləcək məlumatın səhnələşdirilməsi;
- iki komandalı mübarizə: bu oyunda məktəblilər iki komandaya bölünərək öz aralında bilik mübarizəsi aparırlar;
- simulyasiya oyunu: uşaqlar hər hansı fəaliyyəti simulyasiya edirlər.

Qeyd etmək lazımdır ki Azərbaycan muzeylərində, əsasən, iki komandalı mübarizə, az hərəkətli və simulyasiya oyunları strategiyasından istifadə edilir. Hal-hazırda muzey oyunlarının istifadə olunduğu muzeylər Qobustan Milli Tarix Bədii Qoruğu və Qala Dövlət Tarix Etnoqrafiya Qoruğudur.

Uğurlu təcrübənin olması üçün tətbiqdən qabaq muzey oyunları hərtərəfli tədqiq olunmalıdır. Əsas məqsəd uşaqların psixoloji xüsusiyyətlərinin öyrənilməsi ilə muzey oyunlarının lazımi strategiyasının yaradılmasıdır.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN BEYNƏLXALQ ƏLAQƏLƏR TARİXİNİN TƏDQİQİNƏ DAİR

***Ağalarlı M.Z.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

XXI əsrdə beynəlxalq münasibətlər sistemində fəal şəkildə iştirak edən müstəqil Azərbaycan dövləti özünün çağdaş istiqlal tarixinin mühüm səhifələrini yazır. Ölkəmizdə keçmiş dövlətçilik ənənələri inkişaf etdirilir, xarici siyasi əlaqələr genişlənir. Çağdaş dönəmdə Azərbaycan dövlətinin xarici siyasətinin inkişafında orta əsr Azərbaycanın dövlətçilik prinsiplərinin, diplomatik ənənələrinin və zəngin xarici siyasət təcrübəsinin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Odur ki, Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan Azərbaycan Səfəvilər dövlətinin beynəlxalq əlaqələr tarixini araşdırmaq, ölkəmizin bölgədə baş verən siyasi hadisələrdə oynadığı rolu öyrənmək, müvafiq nəticələr çıxarmaq həmişə öz aktuallığını saxlamışdır.

Azərbaycan Səfəvilər dövlətinin beynəlxalq əlaqələr tarixi, hələ sovet imperiyası dövründən tədqiq olunmağa başlanmış, bu sahədə müxtəlif istiqamətli elmi əsərlər yazılmışdır. Lakin o dövrdə Azərbaycanın tarix elmi sovet ideologiyasının təsiri altında olduğu üçün tədqiqatlar zamanı nəzərəçarpacaq dərəcədə neqativ hallara yol verilmişdir.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid yeni tədqiqatlar aparılmış, obyektiv və fundamental əsərlər yazılmışdır. Həmçinin Azərbaycan Səfəvi dövlətinin beynəlxalq əlaqələr tarixinə dair geniş tədqiqatlara başlanılmış və bu sahəyə aid olan onlarla monoqrafiya nəşr olunmuşdur.

Azərbaycanın beynəlxalq əlaqələr tarixinin öyrənilməsində professor Y.M.Mahmudovun tədqiqatları olduqca əhəmiyyətlidir. Onun XV-XVII əsrlərdə Azərbaycanın xarici siyasəti, xüsusilə də Azərbaycan-Avropa əlaqələri tarixi ilə bağlı apardığı tədqiqatlar Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti və diplomatik əlaqələrinin öyrənilməsi baxımından olduqca vacibdir. Onun “Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər)” adlı monoqrafiyasında XVI-XVII əsrlərdə Azərbaycan dövlətlərinin Avropa dövlətləri ilə diplomatik əlaqələri geniş və müqayisəli şəkildə araşdırılmışdır.

XVI əsr Azərbaycan tarixinin öyrənilməsində səfəvişünas-alim, professor O.Ə.Əfəndiyevin tədqiqatları mühüm rola malikdir. Onun “Azərbaycan Səfəvilər dövləti” əsəri Azərbaycan Səfəvilər dövlətinin etnik-siyasi tarixi ilə yanaşı, XVI əsrdə Azərbaycanın xarici ölkələrlə əlaqələrinin öyrənilməsi üçün də olduqca əhəmiyyətlidir.

Azərbaycan Səfəvi dövlətinin beynəlxalq əlaqələr tarixinin öyrənilməsində tarixçi-alim Ş.F.Fərzəliyevin əsərlərinin də əhəmiyyəti olduqca böyükdür. Onun “Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər)” adlı monoqrafiyası, XVI əsrdə Azərbaycan Səfəvi dövlətləri ilə Osmanlı imperiyası arasında mövcud olan siyasi münasibətləri öyrənmək və bu sahədə davamlı tədqiqatlar aparmaq üçün olduqca əhəmiyyətlidir.

XVI əsrdə Azərbaycan Səfəvi dövlətinin Mərkəzi Asiya dövlətləri ilə beynəlxalq əlaqələr tarixinin öyrənilməsində R.Ə.Ağayevin “Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər)”əsəri də olduqca əhəmiyyətlidir. Əsərdə XVI əsrdə Azərbaycanda hökmranlıq etmiş Səfəvi sülaləsinin Mərkəzi Asiyada mövcud olmuş Şeybanilər və Böyük Moğol dövlətləri ilə qarşılıqlı siyasi əlaqələri tədqiq olunmuşdur.

F.A.Hüseynin “Osmanlı-Səfəvi müharibəsi 1578-1590-cı illər” adlı monoqrafiyasında XVI əsrin II yarısında mövcud olan Osmanlı-Səfəvi münasibətləri araşdırılmışdır.

Ə.S.Quliyevin “XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti (Mikel Membrenin “Səyahətnamə”si əsasında)” adlı monoqrafiyası Azərbaycan-Avropa əlaqələrinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Xüsusilə də, əsərdə Venesiya səyyahlarının Azərbaycan Səfəvi dövləti haqqındakı maraqlı məlumatları tariximiz üçün olduqca əhəmiyyətlidir.

N.S.Musalının I Şah İsmayılın hakimiyyəti (“Aləmara-yi Şah İsmayıl” əsəri əsasında)” adlı monoqrafiyası I Şah İsmayılın hakimiyyəti zamanında Azərbaycan Səfəvilər dövləti və bu dövlətin qonşu dövlətlərlə siyasi münasibətlərinə həsr olunmuşdur.

R.İ.Dadaşovanın "Səfəvilərin son dövrü ( İngilisdilli tarixşünaslıqda)" adlı monoqrafiyası da Azərbaycan Səfəvilər dövlətinin son dövrlərində baş verən siyasi hadisələrin və səfəvilərin beynəlxalq əlaqələrinin ingilis tarixşünaslığında əks olunmasını özündə ehtiva edir [10].

D.Əzimlinin Azərbaycanın Qərbi Avropa dövlətləri ilə ticarət əlaqələri (XV əsrin II yarısı – XVII əsrin I yarısı) sahəsində apardığı tədqiqatlar da olduqca təqdirəlayiqdir. Bu tədqiqatlarda orta əsrlərdə Azərbaycan dövlətlərinin Avropa dövlətləri ilə ticarət əlaqələri araşdırılmış, bu əlaqələrdə Osmanlı imperiyasının rolu tədqiq olunmuşdur.

XV-XVI əsrlərdə Azərbaycanın beynəlxalq münasibətlər tarixinin öyrənilməsində M.Z.Ağalarovun tədqiqtlarının əhəmiyyəti olduqca böyükdür. Müəllif bu sahədə apardığı tədqiqatlarda XV-XVI əsrlərdə Azərbaycan dövlətlərinin xarici dövlətlərlə siyasi və diplomatik münasibətlərini araşdırmış və Azərbaycanın Yaxın və Orta Şərq bölgəsində baş verən siyasi hadisələrdə oynadığı rolu təhlil etmişdir. Onun "XV-XVI əsrlərdə Azərbaycan beynəlxalq münasibətlər sistemində" adlı əsəri orta əsr beynəlxalq əlaqələr tarixinin öyrənilməsində əhəmiyyətli rola malikdir.

Ümumiyyətlə, müstəqillik dövründə Azərbaycan Səfəvi dövlətinin beynəlxalq əlaqələr tarixinə aid onlarla monoqrafiya və elmi məqalələr dərc olunmuş və elmi ictimaiyyətin müzakirəsinə təqdim olunmuşdur.

## AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL SİSTEMİNİN SƏMƏRƏLƏŞDİRİLMƏSİ

***Aslanov A.H.***

*Sumqayıt Dövlət Universiteti*

1993-cü ilin iyun ayında Heydər Əliyevin ölkə rəhbəri vəzifəsinə qayıtması ilə bağlı Azərbaycan Respublikasında ictimai həyatın sosial-siyası sahəsinin sabitləşdirilməsi dövlət siyasətinin bütün istiqamətlərinə, o cümlədən ölkədə təhsil sisteminin mükəmməlləşdirilməsinə müsbət təsir göstərdi. Təhsil sistemində islahatlar aparılmasının əsas prinsipi Azərbaycan Respublikasının bütün dövlət maarif müəssisələrində tədris prosesinin hərtərəfli səmərələşdirilməsi oldu.

Maarif sisteminin səmərələşdirilməsi tədris və tədrisdənkənar vaxtın, ictimai işin bütün formalarını, şəxsiyyətlərarası ünsiyyəti, müəllimlər və şagirdlərin asudə vaxtının mənəvi, əxlaqi, mədəni-estetik məna ilə doldurulmasını, tədrisin bütün səviyyələrində şagirdlərə fərdi xeyirxah köməyi və onların şəxsiyyətinin formalaşmasına diqqət yetirmə şəraitini nəzərdə tutur. Təhsilin səmərələşdirilməsi və inkişafının əsas istiqaməti tədris-tərbiyə prosesində idrak, əxlaqi və estetik aspektlərin birliyinə nail olunmasıdır. Formalaşan şəxsiyyətin şuruna məqsədyönlü humanistik təhsil həqiqətə, xeyrə və gözəllik hissinə istiqamətləndirməni daxil edir.

1993-cü ildən başlayaraq son 23 il ərzində Azərbyacan Respublikasında təhsil sisteminin davamediciliyi və tədricən islah edilməsi müşahidə olunur. İslahatların istiqaməti göstərir ki, ölkə rəhbərliyi ölkənin iqtisadi və mənəvi dirçəldilməsinin təmin edilməsinin vəsaiti kimi təhsilin humanitarlaşdırılmasını düzgün seçib. Təhsil sahəsində dövlət

tərəfindən aparılan siyasətin son məqsədi böyüyən nəslin hərtərəfli hormonik inkişafıdır. Onun yetişdirilməsi və ümümbəşəri əxlaqi dəyərlərin üstünlük təşkil edilməsinə və müasir dünya sivilizasiyanın maddi-texniki və mədəni irsinə yiyələnməsinə əsaslanır.

1995-ci ilin noyabr ayının 12-də ümüxalq referendumun nəticələri əsasında qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan cəmiyyətinin ümumilikdə və xüsusən təhsil sisteminin inkişafının humanist vektoru təsdiq etdi. Yeni Konstitusiya vətəndaşların ödənişsiz orta təhsil almaq hüququnu tətbiq etdi, etnik azlıqlara doğma dildə təhsil almaq hüququna zamin oldu. Ümumi orta təhsilə qayıdış və istedadlı şəxslər üçün ödənişsiz təhsilin davam etdirilməsinə dövlətin zamin olması dövlət tərəfindən intelektual mülkiyyətdə hüququn müdafiə edilməsinın, Konstitusiya tərəfindən zəmin olunmuş, fikir, söz, vicdan və yaradıcılıq azadlıqları dövlət rəhbərliyinin təhsil sisteminə diqqətin yetirilməsinin, onun problemlərinin başa düşülməsinin və onun inkişafına humanist istiqamətin verilməsinin, bu prosesin məqsədlərinin və vəzifələrinin müasir başa düşülməsinin sübutudur. Əhalinin geniş kütlələrini, xüsusilə, gəncləri Konstitusiyanın əsas bəndləri ilə tanış etmək məqsədi ilə orta məktəblərin və internatların yuxarı siniflərində, orta xüsusi və ali təhsil müəssisələrinin proqramlarında onların istiqamətlərindən asılı olmayaraq, ayrıca tədris fənni kimi Azərbaycan Respublikası Konstitusiyasının əsaslarının tədrisi daxil edilir.

1993-2008 illər ərzində Azərbaycan Respublikasının Prezidentləri Heydər Əlirza oğlu Əliyev və İlham Heydər oğlu Əliyev Azərbaycan cəmiyyətinin elmi-tədris sahəsinin səmərələşdirilməsinə istiqamətləndirilmiş bir sıra qanun, fərman və sərəncam imzalyıblar. Bu “Xüsusi istedada malik və yüksək idman nailiyyətləri əldə edən gənclərə ali və orta xüsusi tədris müəsisələrinə qəbul zamanı güzəştlərin verilməsi haqqında” 27.07.1993-cü il tarixli sərəncam, aspirantlara, “ATM-in və OİTM-nin tələbələrinə, TPM-nin şagirdlərinə təqaüd verilməsi haqqında” 22.05.1996-cı il tarixli sərəncam, “Azərbaycan Respublikasının “Müəllif hüquqlarının müdafiəsi haqqında” 05.06.1996-cı il qanunu, Azərbaycanın Gənc istedadlarına dövlət yardımının göstərilməsi haqqında” 22.06.1996-cı il tarixli fərman, Gənc istedadlar üçün hər ay 1 milyon manat həcmində xüsusi təqaüdün verilməsi haqqında” 13.09.1997-c il tarixli fərmandır. Bundan əlavə, 1993-2008-ci illər ərzində elm-təhsil sahəsinin işçilərinin maaşları, ATM və OTM tələbələrinin təqaüdləri dəfələrlə artırılıb, təhsil müəsisələrinin daxili həyatının demokratlaşdırılması üzrə tədbirlər görülüb, məktəb və tələbə şuralarının, oxuyan gənclərin elmi şuralarının, yaradıcı cəmiyyətlərin, konkursların, festivalların, ŞHK-in fəaliyyəti yenidən bərpa olundu. Tədris müəssisələrində humanitar fənlərin tədris olunması proqramlarına yenidən baxıldı, yeni tədris və metodiki vasaitlər yaradılıb, istiqamətdən asılı olmayaraq tədris müəssisələrində yeni humanitar fənlər daxil olundu. ATM-ə abuturiyentlərin testlə qəbul sistemi mükəmməlləndirildi, xüsusilə, ali təhsilin humanitarlaşdırılması yolunda vacib addım 2001-ci ildən başlayaraq qəbul imtahanlarında məcburi ümumtəhsil blokunun testlərinin daxil olunması oldu.

Bütün bu faktlar sübut edir ki, Azərbaycan Respublikasında təhsil sisteminin səmərələşdirilməsi müəyyən nailiyyətlər əldə etdi. Azərbaycan cəmiyyətinin sisyasi və iqtisadi sabitliyinin qorunması, ictimai həyatın bütün sahələrinin dinamik inkişafı halında

gənclərin humanist idealları ruhunda tərbiyə edilməsi və tədris olunması vəzifəsi uğurla yerinə yetiriləcəkdir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İNCƏSƏNƏTİN İNKİŞAFI (1969-2003-cü illər)

**_Babayeva G.F._**
*Sumqayıt Dövlət Universiteti*

Ulu Öndər Heydər Əliyev hələ məktəb illərində uzaqgörənliyi, hərtərəfli bacarığı ilə fərqlənirdi. Öz yaşıdları arasında həmişə seçilirdi,onlardan bütün sahələrdə bir addım irəlidə olurdu. Heydər Əliyev Muxtar Respublikanın müxtəlif rayon və kəndlərindən seçilmiş intelektual baxımdan yüksək bacarığa sahib uşaqların toplandığı beynəlmilər məktəbdə təhsil almışdı. İncəsənətə sevgi Ulu Öndərdə necə yaranmışdı, o necə olduki teatra və musiqiyə bu qədər bağlandı?

Heydər Əliyev öz xatirlələrində söyləyir ki,təhsil aldığı məktəb o dövr üçün öz mükəmməlliyi ilə seçilirdi.Burada elmlə yanaşı incəsənət,xalqımızın tarixi və vətənə sevgi hissləri şagirdlərə müəllimlər tərəfindən dərindən və xüsusi sevgiylə çatdırılırdı.

Estetik təhsili genişləndirmək üçün müəllimlərin məsləhəti ilə, beynəlmiləl məktəbin şagirdləri şəhərin Pionerlər Evində müxtəlif dərnəklərdə məşğul olurdular.Burada Bakıdan yenicə, yəni 1937-ci ildə Naxçıvana teatra işləməyə gəlmiş İbrahim Qəmzəyəv teatr dərnəyi açmışdı.İbrahim Qəmzəyevlə Heydər Əliyevin tanışlığı təsadüfən baş verir və Heydər Əliyev onun teatr dərnəyinə yazılır.Həmin gün Heydər Əliyev Pionerlər evində məşqə gəlmişdi,lakin yoldaşından musiqi alətini götürməyə çatmadığı üçün onu məşqə buraxmamışdılar. Öz dərnəyində məşqə tələsən İbrahim Həmzəyev məyus olmuş gənc oğlanı görüb ayaq saxlayır və onu öz dərnəyinə dəvət edir. Heydər Əliyev müsahibələrinin birində qeyd edir ki,teatra məhəbbət və professional səhnə incəsənəti haqqında bilikləri o məhz bu dərnəkdə İbrahim Qəmzəyevdən almışdır. Heydər Əliyevin görkəmi: hündür boyu, düz qaməti,gözəl üzü, səsinin ahəngi və səlis nitqi İbrahim Qəmzəyevin teatr tamaşaları üçün bir tapıntı idi.

Uşaqlıqdan adına uyğun hər zaman irəlidə olan Ulu Öndər burada da hər kəsdən seçilir və oynadığı rollar onun uşaqlar arasında nüfuzunu artırmaqla yanaşı onda teatra və incəsənə sevgi aşılayırdı. Teatrın Heydər Əliyev şəxsiyyəti və dahi siyasətçinin yetişməsində əvəzsiz rolu olmuşdur.Teatr siyasətçi üçün-həyatı dərk etmək üçün açardır. Heydər Əliyev Azərbaycanda hakimiyyətinin birinci dövründə yəni 1969-1982- ci illərdə teatrın inkişafını daim diqqətdə saxlayır. 1973-cü ildə Azərbaycan Milli Teatrının 100 illik yubileyinin təntənəli qeyd edilməsinə şəxsən rəhbərlik edir. Təntənəli tədbirdə Heydər Əliyev çıxış edir.Bu emossional çıxış, teatra ilahi sevgiylə bağlı, teatr səhnəsi haqqında dərin biliyə malik bir aktyorun teatrını xatırladırdı.Heydər Əliyev vurğulayır ki,Azərbaycanda 1873-cü ildə Müsəlman Şərqində ilk dünyəvi teatr yaranmışdır və bu çox mühüm əhəmiyyətə malik bir hadisə olmuşdur.

Heydər Əliyev yalnız teatr deyil incəsənətin bütün sahələrini sevirdi,musisi və gözəl rəsm əsərlərinin vurgunu idi.

Azərbaycanın xalq rəssamı Səttar Bəhlulzadə Heydər Əliyevi özünün yeganə, ən yaxın dostu hesab edirdi. Öz xatirələrində o qeyd edir ki, Heydər Əliyev, atalar sözündə deyildiyi kimi, "sevincini söylə, ikiqat artsın" məhz o dostlardan idi.

XX əsrin 80-ci illərinin əvvəllərində Rəssamlar İttifaqında Azərbaycanın tarixini, təbiətini, gözəlliklərini tərənnüm edən xalq rəssamımız Səttar Bəhlulzadəni sıxışdırmağa başlayırlar. Bütün yüksək dövlət mükafatlarına layiq görülmüş xalq rəssamının yaradıcılığı tənqid olunur və o diqqətdən kənarda qalır. Onun həyatının qara səhifəsi başlayır. Sadiq yoldaşı Tahir Salahov Səttar Bəhlulzadəni Azərbaycanımızın ovaxtki rəhbəri Heydər Əliyevin görüşünə gətirir. Sonralar öz xatirə gündəliyində Səttar Bəhlulzadə qeyd edir: "O, o qədər müsbət emotsiyaya sahib idi ki onunla danışdıqca bütün küskünlüklərim sanki əriyib yox oldu və sanki heç bir dərdim olmamışdı". O, çox diqqətlə və mənalı baxışlarla sənə baxır,rentgen şüaları kimi insanın qəlbinə daxil olur və gizli künclərə nəzər salaraq sənin səhvlərini sənə anladır və sən həyatı tam başqa rənglərlə görürsən. Ən əsası, o mənim yaradıcılığımla tanışdır.Mənim incəsənətə gətirdiyim yeni stil və janrları alqışlayır.O, öz sevimli tablolarının adlarını da söylədi:"Muğan gözəli"," Xəzər axşamı","Kəpəzin göz yaşları".Bu sözləri Xalq Rəssamı Səttar Bəhlulzadə Ulu Öndərlə ilk görüşdən sonra söyləmişdi.

Heydər Əliyevin təşəbbüsü ilə Moskvada Kuznetsk körpüsündə Səttar Bəhlulzadənin sərgisi təşkil olunur.Bu sərgi onun şöhrətini artırır və ittifaqda Səttar Bəhlulzadə yaradıcılığı ilə Azərbaycanın mədəniyyəti və təbiəti tərənnüm edilir,tanıdılır.

Heydər Əliyevlə görüş Səttar Bəhlulzadəni yeni əsərlər yaratmağa ruhlandırdı, ona özünə inam verdi.Səttar Bəhlulzadə bütün dünyada məhşur olan "Göyçay","Şahnabad dağları","Göygöl" və s. tabloları yaratdı. Naxçıvan təbiəti haqqında əsərlərində İlandağla,Əlincəqala,Gəmiqaya ilə digər dağların vəhdətini tablolarında əks etdirərək Naxçıvanın portretini yaratması onun dostu Heydər Əliyevin şərəfinə yazılmış bir himnə bənzəyirdi!

Ölkənin çətin günlərinə baxmayaraq, Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə "Respublika"(indiki Heydər Əliyev adına ) sarayında Səttar Bəhlulzadənin 85 illik yubileyi qeyd olunur. Tədbirdə çıxış edən Heydər Əliyev qeyd edir ki: "Mən Səttar Bəhlulzadəni bir rəssam və insan kimi sevirdim". Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Səttar Bəhlulzadə yaradıcılığını digər ölkələrdə yaymaq missiyasını öz üzərinə götürür. Xarici dövlətlərə rəsmi səfərləri zamanı o,Səttar Bəhlulzadənin əsərlərindən ibarət sərgiləri özü ilə götürərək İngiltərə,Almaniya və digər ölkələrdə böyük təəsüratlar yaratmış ekspozisiyalar təşkil edir. Səttar Bəhlulzadənin tabloları ilə Heydər Əliyev Azərbaycanımızın əsarəngiz təbiəti və gözəlliklərini bir növ sözzsüz tərənnüm edirdi.

## QİYMƏTLƏNDİRMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ TƏHSİL PROSESİNİN MÜHÜM TƏRKİB HİSSƏSI KİMİ

***Baxşəliyeva A.N.***
*Azərbaycan Dillər Universiteti*

Qiymətləndirmə həmişə təhsil prosesinin yekun və vacib elementi olmuşdur. Müəyyən dövrlər yeni qiymətləndirmə sistemlərinin keçilməsinə cəhdlər edilmişdir. SSRİ-nin süqutundan sonra Azərbaycanda da bir sıra postsovet ölkələrində olduğu kimi ümumtəhsil məktəblərində qiymətləndirmə üçün fərqli şkalalar tətbiq edilməyə başlanmışdır. Bu istiqamətdə eksperimentlər aparılmış, lakin 2001-2002-ci tədris ilindən başlanan eksperimentlər sonradan 2008-ci ildə dayandırılmışdır.

Azərbaycanda "qiymətləndirmə" dedikdə bəziləri bunu yalnız təhsil alanın təlim nəticələrinə aid olan məsələ kimi qəbul edirlər. Lakin dünya təcrübəsində təhsil alanın biliyinə verilən qiymət həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynin təhsilə münasibətinə, məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir. Ənənəvi qiymətləndirmə məzmunun tərkib hissəsi sayılmadığından həmişə müəllimin subyektiv mülahizələrinə əsaslanırdı, şagirdlərdə təlimə marağı artırmaq əvəzinə, şagirdləri qiymət xatirinə oxumağa sövq edirdi.

Müasir qiymətləndirmə üsullarından istifadə təcrübəsinin məhdudluğu, mütəxəssislərin bu sahədə hazırlıq səviyyəsinin aşağı olması, tədris proqramlarını hazırlayanlar və qiymətləndirmə fəaliyyəti ilə məşğul olan mütəxəssislər arasında qarşılıqlı əlaqənin zəif olması bu prosesə mane olan ən ciddi problemlərdəndir.

Obyektiv aparılmış qiymətləndirmə, hər şeydən əvvəl, real vəziyyətin aşkara çıxarılmasında mühüm vasitədir. Məhz real vəziyyətin təhlili nəticəsində buraxılan nöqsanlar müəyyən edilir, onların aradan qaldırılması yolları dəqiqləşdirilir və gələcək üçün proqnozlaşdırma aparılır. Bütün bu məsələlər, eləcə də şagird nailiyyətlərinin qiymətləndirilməsinə yeni yanaşma 2006-cı ildə edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədində öz əksini tapmışdı. Həmin sənəddə şagird nailiyyətlərinin qiymətləndirilməsi təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi təqdim olunur, təhsilin keyfiyyətinin dəyərlənməsinə xidmət etməsi vurğulanır.

Həmin sənədin qiymətləndirmə ilə bağlı müddəaları əsas tutularaq Təhsil Nazirliyi onların həyata keçirilməsi istiqamətində əməli tədbirlərə başladı. İlk olaraq 2006-2007-ci dərs ilində pilot kimi müəyyənləşdirilən 4 məktəbdə cari qiymətləndirmədən imtina olunaraq summativ qiymətləndirmə modeli tətbiq edildi. Bu eksperiment V və VIII siniflərdə ana dili və riyaziyyat fənlərini əhatə edirdi. Eksperimentin səmərəliliyinin təmin edilməsi məqsədilə göstərilən siniflərdə dərs deyən fənn müəllimləri treninqlərdən keçirildi, xüsusi formada sinif jurnalları tərtib olundu. Eksperimentin nəticələri sonrakı mərhələlərdə məktəbdaxili qiymətləndirmə mexanizmlərinin hazırlanmasında faydalı oldu.

Həm məktəbdaxili qiymətləndirmə növləri, eləcə də milli və beynəlxalq qiymətləndirmə 2009-cu ildə Azərbaycan hökuməti tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası"nda öz geniş əksini tapmışdır. Diaqnostik qiymətləndirmə konkret bir mərhələdə təhsil alanın nailiyyətlərinin

səviyyəsini müəyyən etmək üçün aparılır. Bu qiymətləndirmə növünü ilkin səviyyənin qiymətləndirilməsi də adlandırırlar. Formativ qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini və səmərəliliyini, şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir, onların təlim ehtiyaclarının öyrənilməsinə lazımi şərait yaradır. Summativ qiymətləndirmə təhsilin hər hansı bir mərhələsində şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Bu qiymətləndirmə məzmun standartlarının mənimsənilmə səviyyəsinin etibarlı göstəricisidir.

Bugünkü qiymətləndirmə siyasətində milli qiymətləndirmənin möhkəm yer tutması müstəqillik illərində Azərbaycan təhsilinin inkişaf etmiş ölkələrin təhsil sistemlərinə məqsədyönlü inteqrasiyasının nəticəsidir.

Qiymətləndirmə sahəsində işlərin səmərəsinin artırılması üçün beynəlxalq təcrübədən istifadənin davamı, qabaqcıl mütəxəssislərin iştirakı ilə təlimlərin təşkili, bu sahə üzrə tədqiqatların istiqamətlərinin müəyyənləşdirilməsi, müəllimlər üçün qiymətləndirmə üzrə təlim kurslarının təşkilinə diqqət yetirmək olduqca vacibdir.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİX DƏRSLƏRİNİN TƏDRİSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜSULLARI HAQQINDA

***Baxşəliyev S.F***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ümummilli lider Heydər Əliyev "Hər bir Azərbaycan gənci öz tarixini mükəmməl bilməlidir. Çünki tariximizin hər səhifəsi bizim üçün əzizdir. Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır" kimi tapşırığı ümumtəhsil sistemində çalışan bütün tarix müəllimləri qarşısında çox ciddi vəzifələr irəli sürür.

Belə vəzifələrdən biri də tarix fənninin tədrisi vəziyyətini yaxşılaşdırmaq, şagirdlərin fənnə olan maraq və meyillərini gücləndirmək, bilik və məlumatlarını genişləndirmək üçün istər dərs vaxtı, istərsə də dərsdən kənar vaxtlarda ən müxtəlif üsul və metodlardan istifadə edilməsdir.

Ümumtəhsil məktəblərində tədris ili ərzində "Azərbaycan tarixi" aylıqlarının keçirilməsi məsələsi bu baxımdan, bəlkə də, ən fəal və səmərəli vasitə hesab olunur. Məhz peşəkar və səriştəli tarix müəllimləri "Azərbaycan tarixi" aylığı gedişində məktəbdə çoxsaylı, ən rəngarəng tədbirlərin keçirilməsini və bu zaman əksər şagirdləri bu tədbirlərin iştirakçısı, bəzən hətta təşkilatçısı edə bilər. Bu cür tədbirlər isə ən müxtəlif ola bilər. Tarix müəlliminin rəhbərliyi və əsasən yuxarı sinif şagirdlərinin iştirakı ilə il ərzində ən əlamətdar hadisələr və bayramlar üzrə elmi-praktik konfranslar keçirmək, fənn üzrə proqram və dərsliklərin müzakirəsini təşkili kimi üsulları ilk olaraq qeyd etmək istərdim. Bu müzakirələrdə yaxşı olardı ki, əla bilik göstəricilərinə malik şagirdlərin rəy, təklif və mülahizələri dinlənilsin.

Lakin bu istiqamətdə görülmüş işlər o zaman daha səmərəli olar ki, məktəb rəhbərliyi, sinifdənxaric işlər üzrə təşkilatçı, dərnək və bölmə rəhbərləri, dil-ədəbiyyat, rəsm və musiqi müəllimləri, sinif rəhbərləri tarix müəllimlərinə fənn aylığı gedişində bütün tədbirlərin yüksək səviyyədə keçirilməsinə kömək göstərsinlər.

Azərbaycan tarixi aylığı çərçivəsində fənn kabinetlərinin tərtibatı məsələsi də gündəmdə idi. Kabinetlər əyani vəsaitlər, xəritə, cədvəllər, tarixi şəxsiyyətlərin portretləri, şagirdlərin əl işləri və audio-vizual materiallarla zənginləşdirildi.

"Azərbaycan tarixi" aylığı çərçivəsində paralel siniflərdə təhsil alan şagirdlər arasında bilik yarışları müntəzəm keçirilir. Qoyulan suallar elə olmalıdır ki, Azərbaycan tarixinin bütün dövrlərini əhatə etməklə bərabər, düşündürücü və əyləncə xarakteri daşısın və şagirdlərin marağına səbəb olub diqqətlərini cəlb etsin. Bu zaman ən yadda qalan anlar qaliblərin müəyyən edilməsi və mükafatlandırılmasıdır.

Aylıq münasibəti ilə xüsusi divar qəzeti və bulletenlər hazırlanması, şagirdlərin ən yaxşı sərbəst gördüyü işlərdən ibarət sərgi təşkili və bütün bunların şagirdlərin daha çox keçdikləri və gördükləri yerlərdə yerləşdirilməsi olduqca vacibdir.

Şagirdlər yaşadıqları şəhər və rayonların hüdudları daxilində fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərinə, indi hər bir rayon mərkəzində mövcud olan Heydər Əliyev mərkəzinə gedərək orada çox zəngin məlumatlar əldə bilərlər və bu, şagirdlərə "Azərbaycan tarixi"ndəki mövzularının öyrənilməsində əvəzsiz yardımçı ola bilər.

"Azərbaycan tarixi" aylığı gedişində ən müxtəlif mövzu və hadisələr üzrə də həftələrin keçirilməsi olduqca zəruridir. Məsələn, ənənəvi hərbi-vətənpərvərlik həftəsi, əsl Azərbaycan qadını necə olmalıdır disputu həftəsi, Milli qəhrəmanlarımızı daha yaxından tanıyaq və s. Hətta belə həftələrin gedişində tariximizdə silinməz izlər qoymuş tarixi şəxsiyyətlərimiz haqqında bədii əsərdən götürülmüş və şagirdlərin özlərinin canlandırdığı səhnələrin təşkili onların yaddaşında silinməz izlər buraxır.

Azərbaycan xalqı zəngin tarixi keçmişə, maddi mədəniyyət abidələrinə, sabit dövlətçilik ənənələrinə malikdir. Xalqımızın tarixi keçmişi qəhrəmanlıq səhifələri ilə zəngindir."Azərbaycan tarixi" aylığı bu səhifələri bir daha vərəqləyərək unudulmaz şəxsiyyətlərin tarixi xidmətlərini və tarixdə onların yerini, hadisələrin mahiyyətini dərk etməyə əvəzsiz kömək edir.

Sözsüz ki, Azərbaycan tarixi fənni üzrə aylıqların təşkili proqram materiallarının şagirdlər tərəfindən yaxşı mənimsənilməsi ilə yanaşı, onların yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik cəmiyyət üzvü kimi formalaşmasına da kömək edir. Biz problemin yalnız bəzi məqamlarından danışdıq. Sözsüz ki, bu məqamlar olduqca çoxdur və istifadəsi müəllimin təcrübəsindən və istəyindən asılıdır.

**AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRA TƏHSİL SİSTEMİNDƏ YENİ İNNOVATİV TƏDRİS VASİTƏLƏRİNDƏN İSTİFADƏ OLUNMASI İMKANLARI HAQQINDA**

***Baxşəliyev F.E.***
*Bakı Dövlət Universiteti*

Müasir dövrdə cəmiyyətin modernləşməsi, ümumitəhsil məktəblərində tarixi biliklərin məzmun dairəsinin genişlənməsi tarix müəllimlərindən öz dərslərində yeni innovativ dərs metodları və üsullarından geniş istifadə edilməsini bir vəzifə kimi irəli sürür. Bunlar ən müxtəlif: fəal, qeyri-standart, müxtəlif səpkili olub şagirdlərin tədris prosesinə daha fəal qatılmasına əlverişli şərait yaratmağa xidmət etməlidir.

Tarixi biliklərin məzmunun da müasirləşdiyi bir vaxtda tədris prosesinin gedişində elə yeni forma, metod və üsullara keçilməsi ona görə zəruridir ki, onlar şagirdlərə dərs zamanı daha çox dərəcədə yeni biliklər məkanına daxil olmağa imkan versin. Bütün bunlar da öz növbəsində yeni biliklərini yeni şəraitdə həyata tətbiq etməyə imkan verər. Öz növbəsində belə yeni düşüncə tərzinə malik şagirdlər ətrafdakılarla daha tez konstruktiv münasibətlər qurmağı bacarar, sərbəst olaraq qərarlar qəbul edə və gördükləri işlərin məsuliyyətini dərindən dərk edə bilərlər. Yeni biliklərə malik və tam fərqli düşüncə tərzli şagirdlər tərbiyə etməyi qarşısına məqsəd qoymuş tarix müəllimi ilk növbədə şagirdlərini nəyə öyrətməli olduğunu müəyyən etməlidir.

Əslində qabaqcıl məktəblərdəki tarix müəllimləri belə bir məqsədi qarşılarına qoyurlar ki, elə bir şagirdlər formalaşdırmağa nail olsunlar ki, onlar həm sonradan öz tarixi biliklərini formalaşdırmağı müstəqil şəkildə bacara bilsinlər, həm müstəqil şəkildə düşünə bilsinlər, həm də gələcəkdə istənilən bir şəraitdə qarışıya çıxan çətinliklərin öhdəsindən özləri gələ bilsinlər. Buna görə də hal-hazırda tədris prosesində bilik, bacarıq və vərdişlərin müəllimdən şagirdlərə ötürülməsi deyil, həm də məktəb təhsil sisteminin başlıca vəzifələrindən biri olaraq şagirdlərin sərbəst surətdə hər hansı bir tədris-təlim vəzifəsini qarşısında məqsəd qoymağı, onların həyata keçirilməsi yollarını müəyyən etməyin, öz fəaliyyətinə nəzarət etməyi, əldə olunmuş nəticələri qiymətləndirməyi, başqa sözlə, düşünməyi müəyyən etməyi, ümumiləşdirib nəticə çıxarmaq bacarığı formalaşdırmağı prioritet vəzifə kimi qiymətləndirilir.

Bunun reallaşdırılması üçün isə ilk növbədə tarix müəllimi öz üzərində daim çalışmalı, bilik və bacarıqlarını təkmilləşdirilməlidir. Ən çox tədris prosesində ən yeni və səmərəli təlim üsullarından istifadə etməlidir.

İndi cəmiyyət belə bir istiqamədə surətlə inkişaf edir və öyrənmək, ümumiləşdirmək, təhlil etmək bacarıqları daha çox tələb olunur. Məktəbdə tədris prosesi şagirdləri müstəqil həyata, cəmiyyətdə sərbəst yaşamağa öyrədir. Lakin nə dünya, nə də cəmiyyət əvvəlki deyil. Bu baxımdan məktəb, o cümlədən tarix fənnini tədris edən müəllimlər də yenilik və dəyişikliklərdən geri qalmamalıdır. Çünki bütün bilik sahələri kimi tarix elmi də yeni biliklərlə zənginləşir, yenilənir, çoxalır. Bu baxımdan ümumtəhsil məktəbləri qarşısında duran ən mühüm vəzifələrindən biri də məzunlarını həm də dünyamızı yaxından dərk etməyə, insanlarla ən yaxşı formada ünsiyyət qurmağı öyrətmək və alışdırmaqdır.

Yaşadığımız XXI əsrin ilk illəri bəşəriyyətin yeni inkişaf tarixinə qədəm qoyduğunu hər addımında büruzə verir. İndi alimlər, siyasətçilər, sahibkarlar, müəllimlər hamılıqla yeni informasiya erasının başladığını birmənalı qəbul edir.

Kompyuter texnologiyasının sürətlə inkişaf etdiyi bir şəritdə bunlardan tarix dərslərində istifadə edilməsi imkanları günbəgün artmaqdadır. Çünki belə istifadə tarixi hadisələrin bütün incəliklərini dəqiq şəkildə şagirdlərə çatdırmağa imkan verir.

İnformasiya texnologiyalarından isdifadənin genişləndiyi bir şəraitdə tarix dərslərinin gedişi işgüzar şərait, şagirdlər arasında səmimi münasibətlər, şagird və müəllim arasında qarşılıqlı münasibətlərin yaranması, dərsə ayrılan vaxtın səmərəli bölgüsü, qarşıya qoyulmuş məqsədə nail olunması, onun səmərəliliyi və gedişində intellekt, emosiya, dinamika elementlərinin müşahidəsi ilə müşayiət olunur.

Tarix müəllimi təlim texnologiyasının seçilməsi qarşısında duran məqsəd və vəzifələrə çatmaqda mühüm rol oynayir. Belə metod və texnologiyalardan üçünü qeyd etmək isdərdim: 1)tarixin tədrisində inkişaf etdirici texnologiya. Bu, "tədris" məqsədinin müəyyən edilməsidir və "müəyyən edin", "izah edin", "tapın, "istisna edin" sözləri ilə müşayiət olunur; 2)problem tədrisidir. Bu zaman şagirdlər özləri müstəqil tarixi problemi müəyyən edib həlli yollarını tapmalıdırlar. Şagirdlər müxtəlif yol və metodlar seçir axırda ən səmərəlisini söyləyirlər; 3)Layihə metodu texnologiyasıdır. Layihə növləri: oyun, informasiya, tədqiqat, yaradıcı olur.

## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ

***Bəşirova G.H.***

*Azərbaycan Hərb Tarixi Muzeyi*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü mədəniyyət siyasətinin nəticəsidir ki, son illər ölkəmiz bir sıra beynəlxalq konfrans və festivallara ev sahibliyi etməkdədir. Xalqımızın milli mədəni dəyərlərinin qorunması, təbliği, gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində ölkəmiz dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib və xalqımızın çoxəsrlik tolerant, mehriban birgə yaşama mədəniyyəti dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsində və inkişafında nümunə kimi göstərilir. Son illər Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinın ənənə şəklini alması bunu bir daha sübut edir. Belə Forumların keçirilməsində əsas məqsəd xalqları, sivilizasiyaları bir araya gətirməkdən ibarətdir. Prezident İlham Əliyevin dediyi kimi «Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar. Bu, bizim böyük sərvətimizdir. Azərbaycan kimi ölkələrin nümunəsi yaxşı göstəricidir ki, multikulturalizm yaşayır və biz müsbət meylləri stimullaşdırmalıyıq». Bu gün mədəniyyət sahəsinin inkişafı müxtəlif formalarda özünü göstərir. Çünki ildən-ilə mədəniyyət müəssisələrinin tikinti və əsaslı təmiri genişlənir, əhalinin mədəni istirahəti üçün hərtərəfli şərait yaradılır, mədəniyyət və incəsənət sahəsində

istedadların aşkara çıxarılması, mədəni irsimizin qorunması və gələcək nəsillərə çatdırılması üçün geniş miqyaslı tədbirlər həyata keçirilir. Son illər 25 dövlət teatrının, 219 muzeyin, 35 rəsm qalereyasının, 3161 kitabxana-informasiya sahəsinin, 100-dən çox mədəniyyət saraylarının maddi-texniki bazası müasir tələblər səviyyəsində qurulmuşdur. Bölgələrdə Heydər Əliyev Mərkəzləri tikilmişdir. Artıq Azərbaycan mədəniyyətinin daha geniş auditoriyalarda təbliğinə xidmət edən genişmiqyaslı layihələr həyata keçirilir. Bu sahədə Heydər Əliyev Fondunun Prezidenti, İNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə milli-mənəvi və mədəni sərvətimizin qorunması, onun gələcək nəsillərə çatdırılması, xalq sənətkarlığının inkişafı, muğam sahəsində yeni istedadların üzə çıxarılması, eləcə də mədəni irsimizin müxtəlif sahələrində reallaşdırılan layihələr dövlətimizin mədəniyyət sahəsində həyata keçirdiyi siyasətə böyük dəstək kimi qiymətləndirilir. Bir çox şəhərlərin müxtəlif xarakterik meyarlara görə mədəniyyət paytaxtlarının seçilməsi 2015-ci ildə də davam etdirilmişdir. 2015-ci ildə Şamaxı «Ədəbiyyat Paytaxtı», Qax «Milli Mətbəx Paytaxtı» elan edilmişdir ki, bu da mədəniyyət dəyərlərinin qorunması və inkişafına şərait yaradılması deməkdir. Daha bir yenilik «Bölgələrdən - Paytaxta» adlı mədəniyyət layihələrinə start verilməsi olmuşdur. Bu layihə çərçivəsində Masallı, Qəbələ, Gədəbəy, Quba, İsmayıllı, Şəki və Şəmkirin mədəniyyət kollektivlərinin Bakı şəhərinin ən nüfuzlu konsert salonlarında çıxışları müsbət qarşılanmış və böyük marağa səbəb olmuşdur. 2015-ci il mədəniyyət sahəsində çox möhtəşəm bir tədbirlə də yadda qaldı. «Bakı-2015» I Avropa Oyunları ərəfəsində keçirilən kütləvi mədəni tədbirlər Avropaya, eləcə də dünyaya bir daha sübut etdi ki, dövlətimiz sürətlə inkişaf edir. Azərbaycan xalqı qədim zəngin milli-mədəni sərvətlərə malikdir, qonaqpərvər, sülhsevərdir, tolerantdır, həm də idman ölkəsidir.

2015-ci ildə keçirilən beynəlxalq festivallarda Azərbaycan musiqisinin dünya miqyasında, möhtəşəm salonlarda səslənməsi qürur doğuran mədəniyyət hadisələridir. 2015-ci ildə ilk dəfə olaraq Cənubi Amerikada, Braziliyanın Rio-de-Janeyro şəhərində «Azərbaycan mədəniyyəti həftəsi» keçirilmişdir. «Muğam aləmi» IV Beynəlxalq Muğam Festivalının, Bakıda təşkil olunan VIII Beynəlxalq Rostropoviç Festivalı, VII Üzeyirbəy Hacıbəyli Beynəlxalq Musiqi Festivalının, Bakı Beynəlxalq Caz Festivalının keçirilməsi yaddaqalan mədəniyyət tədbirlərindəndir. 2015-ci il milli kinomuzun tarixində də əlamətdar il olmuşdur. «Nabat», «Axınla aşağı», «Çölçü» bədii və «Lahıc» sənədli filmləri ayrı-ayrı festivallarda mükafatlar qazanmış, yeni ekran əsərləri beynəlxalq kino festivallarında uğurla nümayiş etdirilmişdir. Qədim və milli ənənəyə malik Azərbaycan teatrı son iki ildə dünyanın 20-dən artıq ölkəsində keçirilmiş beynəlxalq tədbirlərdə iştirak edib. Respublikada kitab nəşri, kitabxana işi, milli ədəbiyyatın təbliği sahəsində də uğurlar əldə olunub. Prezident İlham Əliyevin sərəncamları ilə hər il tanınmış yazıçı və şairlərin, mədəniyyət və incəsənət xadimlərinin yubileyləri qeyd olunur. 2015-ci ildə MDB üzrə keçirilən «Kitab sənəti» müsabiqəsində Azərbaycan kitabı böyük uğur qazanıb, mükafatlara layiq görülüb.

Gənc nəslin milli-mənəvi dəyərlərə sadiqlik və azərbaycançılıq ruhunda tərbiyə olunmasında Heydər Əliyev Mərkəzində keçirilən tədbirlərin böyük əhəmiyyəti olmuşdur. İl ərzində bu mövzu ilə bağlı Mərkəzdə 24 tədbir keçirilmiş, 3114 nəfər Mərkəzin xidmətindən istifadə etmişdir. Azərbaycan xalqının zəngin mədəniyyətinin, tarixinin, folklor

və etnoqrafiyasının təbliği və tanıdılmasında rayon və Xoylu kənd Tarix-Diyarşünaslıq Muzeylərinin imkanlarından istifadə olunmuş, il ərzində müxtəlif tədbirlər keçirilmiş, 3000-dən çox insan muzeylərin xidmətindən istifadə etmiş, hər iki muzeyin fondlarına daxil olmuş 52 maddi mədəniyyət nümunələri tamaşaçılara nümayiş etdirilmişdir. 51 nəfər xarici ölkə vətəndaşı muzey tamaşaçılarının sırasında olmuşdur. 2015-ci ildə Dövlət Rəsm Qalereyası tərəfindən 11 rəsm sərgisi təşkil olunmuş, gənc rəssamlardan Lamiyə Mustafayevanın, Çinarə Xəlilzadənin fərdi yaradıcılıq sərgiləri keçirilmişdir. Eyni zamanda Dövlət Rəsm Qalereyasının fondunda saxlanılan rəsm əsərləri Naftalan şəhərində və Xocalı rayonunda nümayiş etdirilmişdir. Əhalinin asudə vaxtının səmərəli təşkili məqsədilə yerli aktyorların və həvəskarların iştirakı ilə «Qəhrəmanlıq nümunəsi», «Hacı Qara», «Dəli Alı» əsərlərindən hazırlanmış tamaşalar göstərilmiş, «Fəryad, «Ruhların fəryadı», «Qatillə görüş», «Xoca», «Bəxtiyar», «Axırıncı aşırım» filmləri nümayiş etdirilmişdir.

## AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNDƏ DÖVLƏT MÜSTƏQİLLİYİ DÖVRÜNDƏKİ İQTİSADİ İNKİŞAF SAHƏSİNDƏKİ NAİLİYYƏTLƏRİN ÖYRƏDİLMƏSİ

***Cəbiyeva G.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın milli dövlət müstəqilliyi əldə etdiyi 1991-ci il xalqımızının həyatında xüsusi əhəmiyyətli olan ən əlamətdar ən yeni tarixin əvvəli oldu. Lakin 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdığı vaxt əvvəlki illərdən ona çox ağır miras qalmışdı. Məhz H.Əliyevin uzaqgörən və gərgin əməyi sayəsində qısa vaxtda sosial - iqtisadi sahələrdə dünya təsərrüfat sisteminə qoşulmağımız üçün çox böyük nəticələr əldə edildi. Nəticədə, ölkəmizdə müstəqil dövlət quruculuğu illərində iqtisadi inkişafın və islahatların yeni – Azərbaycan modeli yarandı.

Bu illər ərzində əldə etdiyimiz yüksək iqtisadi nailiyyətlər də ali və orta məktəblərdə Azərbaycan tarixi dərsliklərindəki müxtəlif mövzularının tədrisi zamanı məqsədəuyğun şəkildə istifadə etmək olar. Proqramdakı "Milli dövlətçiliyin möhkəmləndirilməsi və hüquqi dövlət qurmaq uğrunda mübarizə" mövzusunun tədrisi zamanı tarix müəllimi Ümummilli Lider H.Əliyevin bərbad vəziyyətdə olan iqtisadiyyatımızın bərpası üçün gördüyü işlərdən faktlarla ətraflı danışmalıdır. Dərslikdəki "Bazar iqtisadiyyatına doğru. İqtisadi dirçəlişin başlanması" mövzusunun tədrisi zamanı diqqəti əsas uğurlarımızdan biri – 1994-cü ilin may ayından milli valyuta-manatın respublikada yeganə ödəniş vasitəsi olmasına yönəltməlidir. Yenə bu mövzunun izahı zamanı bildirilməlidir ki, respublikada 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında dövlət proqramı qəbul edildi. Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsinə gəlincə isə bildirilməlidir ki, özəlləşmənin ikinci proqramının qəbul edilməsi ilə onun inkişafında yeni mərhələ başlamışdır.

"Xarici siyasətdə uğurlar. Beynəlxalq iqtisadi əlaqələr" mövzusunun tədrisi zamanı müəllim bildirməlidir ki, 1994-cü il sentyabrın 20-də Azərbaynan Dövlət Neft Şirkəti və xarici neft şirkətləri konsorsiumunun imzaladığı Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqda 30 illik saziş -"Əsrin müqaviləsi" bütün iqtisadiyyatı

canlandırdı. Bu mövzunun izahı zamanı həm də o öyrədilməlidir ki, 1998-ci il sentyabrın 8-də Bakıda 32 ölkə və 13 beynəlxalq təşkilatın iştirakı ilə İpək Yolunun bərpası üzrə beynəlxalq konfrans keçirilmişdir və burada "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş əsasında keçən müddət ərzində nəzərdə tutulmuş inşaat işlərinin çox hissəsi yerinə yetirilmişdir.

"Sosial-iqtisadi inkişaf" mövzusunun tədrisi zamanı ölkəmizin neft strategiyasının əsas istiqamətlərindən biri – Azərbaycan nefti və qazının dünya bazarına nəql edilməsi xüsusi ilə qeyd edilməlidir. Əsası ötən əsrin sonlarında qoyulmuş Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri artıq reallığa çevrildi. 2001-ci il martın 12-də Türkiyə, sentyabrın 29-da Gürcüstan Respublikası ilə Bakı-Tbilisi-Ərzurum qaz kəmərilə Azərbaycan qazının tranzit nəqli və satışı haqda sazişlər imzalandı. Bu sazişlərin nəticələri artıq real olaraq dövlət büdcəmizə hər il milyardlarla beynəlxalq valyuta daxil edilməsinə səbəb olmuşdur.

H.Əliyevin və onun dövlətçilik siyasətinin layiqli davamçısı İlham Əliyevin hakimiyyəti dövründə də qazanılmış iqtisadi nailiyyətlər xüsusi ilə çox olmuşdur. 2004-cü il 11 fevralda qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı Dövlət proqramı"na müvafiq olaraq qısa vaxtda bölgələrdə yeni sənaye obyektləri işə salınmış, minlərlə iş yeri açılmışdır. Hər il yeni sənaye obyekti və minlərlə iş yerlərinin açılması ənənəyə çevrilmişdir.

Sözsüz ki, müstəqillik dövründə qazanılmış iqtisadi nailiyyətlərin hamısı haqqında danışmağa vaxt məhdudluğunun imkan vermir. Buna görə də müəllim bütün iqtisadi nailiyyətlərimizi əhatə edən mövzular üzrə şagirdlərin və tələbələrin referat və sərbəst işlərinin hazırlamasını və onların müzakirəsini təşkil edə bilər.

## MÜSTƏQİL AZƏRBAYCANIN MƏDƏNİ SİYASƏTİNİN UĞUR STRATEGİYASI

***Cəbrayılova G.Ə.***

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini elan edərək yeni tarixi inkişaf yoluna qədəm qoydu. Tarixdə sınanmış faktdır ki, hər bir xalq öz dövlət müstəqilliyini, milli suverenlik hüququnu, azadlığını əldə etmək üçün mübarizə aparır. Qazanılmış müstəqilik dünya xalqları kimi özünəməxsusluğu, fərqliliyi ilə seçilir. Müstəqillik həmin xalqın özünəməxsus dövlətçilik ənənələrinin, milli-mənəvi irsinin, yaxın və uzaq tarixi keçmişinin, qloballaşma prosesində iştirakının göstəricisi olur. Dövlət müstəqilliyimizin ilk dövrü – 1991-93-cü illər, əsasən, qarışıqlıq, böhran, parçalanma dövrü kimi xarakterizə edilir.

Azərbaycanın dövlət müstəqilliyini qazandığı, müasir, qloballaşan dünya ilə çoxşaxəli əlaqələr qurub inkişaf etdirdiyi dövrdə azərbaycançılığın iqtisadi, sosial, mədəni aspektləri diqqət çəkir. Azərbaycançılıq ideologiyasının əsas bazası ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü, uzaqgörən siyasət xalqın tarixinin şanlı səhifələrindəndir.

Mədəniyyət siyasətinin həyata keçirilməsinin əsas vasitələrindən olan hüquqi cəhətdən dünya standartlarını və milli özəllikləri nəzərə alan qanunların hazırlanmasına diqqət yetirilmişdir. "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması

haqqında", "Turizm haqqında", "Nəşriyyat işi haqqında", "Muzeylər haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" qanunlar, 2003-cü il daxil olmaqla 21 qanun Milli Məclisdə qəbul edilmiş və ölkə Prezidenti tərəfindən təsdiqlənmişdir.

1993-cü ildə Azərbaycanda yaranan mürəkkəb tarixi şəraitdə Azərbaycanın kitabxana şəbəkələri məhv olmaq dilemması ilə üzləşmişdi. Bu dövrdə ulu öndərin xalqın təkidi ilə yenidən Azərbaycana rəhbərlik etməyə başlaması, elmi, mədəniyyəti dağıdılmaqdan xilas etdiyi kimi, kitabxana şəbəkələrinin də məhvinin qarşısını almışdır. 1995-ci ilin sentyabr ayında ulu öndər "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı Fərman imzalamışdır. Bu fərmanın imzalanması kitabxanaların qorunub saxlanmasına şərait yaratmış oldu. Heydər Əliyev kitabxana işi ilə bağlı bir sıra dövlət əhəmiyyətli qanun və fərmanlar vermiş, 1996-cı ildə "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" Qərar, 1998-ci ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, həmin qanunun tətbiqi ilə bağlı ulu öndərimiz 12 mart 1999-cu il tarixdə Fərman imzalamışdır. Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanunu dövlət kitabxana şəbəkəsinin formalaşdırılmasında, kitabxana sahəsinə dair normativ hüquqi bazanın yaradılmasında, kitabxana işçilərinin sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynamışdır. 1993-2000-ci illərdə respublikada ali və orta ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanmasına xüsusi diqqət yetirilmiş, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində ali ixtisas təhsilli, Bakı Mədəni-Maarif Texnikumunun Kitabxanaçılıq bölməsində orta ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanması müvəffəqiyyətlə davam etdirilmişdir.

Ölkəmiz beynəlxalq konvensiyalara, "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında", "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında", "Arxeoloji irsin qorunması haqqında" konvensiyalara qoşulmuşdur. 1997-ci ildə Mədəniyyət haqqında Avropa Konvensiyasını ratifikasiya etdikdən sonra Azərbaycan Avropa Şurasının Mədəniyyət, Siyasəti üzrə Departamenti ilə əməkdaşlıq edir. "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" məruzəsi hazırlanmış, Strasburq şəhərində təqdimatı keçirilmiş və müxtəlif dillərdə çap olunmuşdur. Azərbaycan UNESCO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə də uğurlu əməkdaşlıq edir.

2004-cü ildən başlayaraq ölkənin mədəni həyatının tənzimlənməsində, mədəniyyət siyasətinin səmərəli həyata keçirilməsində dövlət orqanları ilə birlikdə qeyri-hökumət təşkilatları Heydər Əliyev Fondu yaxından iştirak edir. Heydər Əliyevin mədəniyyət siyasətinin, ideyalarının davamçısı olan Heydər Əliyev Fondu tərəfindən ölkədə analoqu olmayan "Azərbaycan" informasiya portalı yaradılmışdır. Fond həmçinin ingilis dilində "Qarabağ həqiqətləri" toplusunu nəşr etdirmişdir. Nəşr ingilis, fransız, alman, rus, macar və yapon dillərində hazırlanan "Qarabağın tarixi haqqında qısa məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri" adları altında nəşr olunmuş bukletlərdən ibarətdir.

Heydər Əliyev Fondunun Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun mütəxəssisləri ilə birgə hazırladığı "Pirlər və müharibə" kitabında Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonlarında düşmən tapdağı altında qalan ziyarətgahlar, dağıdılmış tarixi memarlıq abidələri, pirlər haqqında məlumatlar öz əksini tapmışdır. Heydər Əliyev Fondu Azərbaycan Regional Muzeyi də yaradılmışdır ki, burada əsas məqsəd Azərbaycanın müxtəlif bölgələrinin tarixi keçmişini, sosial-iqtisadi vəziyyətini, mədəni-dini abidələrini, yerli adət-ənənələrini etnik qruplarını əks etdirməkdir.

2003-cü ildən sonra Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövrün tələblərinə uyğun davam etdirilir. Bir sıra ali təhsil ocaqlarının, o cümlədən Azərbaycan Diplomatik Akademiyası, Ədliyyə Akademiyası, Azərbaycan Turizm və Menecment Universiteti, Moskva Dövlət Universitetinin Bakı filialının təsis edilməsi, inteqrasiya məqsədi ilə Boloniya təhsil sisteminin tətbiq edilməsi, tələbələrin nüfuzlu xarici ali təhsil ocaqlarına dövlət hesabına göndərilməsi, mədəniyyət sahəsində iş yerlərinin açılması, Ümumdünya İrsi Siyahısına 2007-ci ildə "Qobustan" tarixi-mədəni qoruğunun daxil edilməsi, gələcəkdə həmin siyahıya salınmaq üçün digər abidələrin - Atəşpərəstlik məbədi "Atəşgah", Naxçıvandakı "Möminə Xatun", "Gülüstan", "Qarabağlar" və "İbn Hüseyn" türbələrinin sənədlərinin yeni tentativ vərəqinin həmin mərkəzə təqdim edilməsi, 2011-ci ildən başlayaraq hər il "Bakı Beynəlxalq Humanitar Forumu", vokalçıların Bülbül adına Beynəlxalq Müsabiqəsinin və Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalının, Qəbələdə Beynəlxalq Musiqi Festivalının Azərbaycanda keçirilməsi, incəsənət və mədəniyyət xadimlərinin abidələrinin ucaldılması, teatr binalarının təmiri, park və digər istirahət guşələrinin abadlaşdırılması və yenilərinin salınması, Kristal-Hollun və "Heydər Əliyev Mərkəzi"nin inşa edilməsi, milli qoruqların, "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu, "Keşikçidağ" və "Atəşgah" məbədi dövlət tarix-mədəniyyət qoruqlarının, "Korçay" dövlət təbiət qoruğunun, "Göygöl" milli parkının yaradılması, "Neft" muzeyi, "Azərbaycan bayrağı muzeyi", "Müasir incəsənət" muzeyi, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-ci illərdə inkişafı üzrə dövlət proqramı", "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması, "Təhsilin inkişafı üzrə Dövlət strategiyası" haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları və həyata keçirdiyi genişmiqyaslı mədəni quruculuq işləri deyilənləri parlaq şəkildə sübuta yetirir. Azərbaycan Xalq Cümhuriyyətinin böyük siyasi-mədəni əhəmiyyətə malik olan İstiqlal Bəyannaməsinin Azərbaycan və fransız dillərindəki itirilmiş orijinal nüsxələrinin axtarılıb tapılaraq Vətənə qaytarılması Prezident İlham Əliyevin səyi nəticəsində mümkün olmuşdur.

2000-ci ildə 1300 illik yubileyi qeyd olunmuş "Kitabi-Dədə Qorqud" möhtəşəm türk abidəsi hələ eramıza qədərki dövrdə xalqımızın böyük bir mədəniyyətə sahib olduğunun sübutudur.

2015-ci ildə "Kitabi-Dədə Qorqud"un alman dilindən tərcüməsi və nəşrinin 200 illiyinin qeyd olunması haqqında Prezident İlham Əliyev tərəfindən sərəncam imzalandı. Bu dastanın nəinki milli-mədəni dəyərlərin, irsimizin qorunub saxlanılması və yeni, gənc nəslin azərbaycançılıq ruhunda tərbiyə olunmasında rolu böyükdür. "Kitabi-Dədə Qorqud və

Fridrix fon Dits-200" adlı birinci və ikinci beynəlxalq kollokviumların keçirilməsi "Qorqudşünaslıq" elminin inkişafına dəyərli töhfələrdəndir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə alman alimi Fridrix fon Ditsin "Kitabi-Dədə Qorqud" dastanı haqqında yazdığı müqəddimə və "Basatın Təpəgözü öldürdüyü" boy 25 dilə - Azərbaycan, ingilis, rus, türk, ərəb, macar, italyan, fransız, yunan, Çin, Ukrayna, fars, hind, gürcü, erməni, yapon, ivrit, talış, ləzgi, kürd, udin, avar, tat, xınalıq dillərinə tərcümə olunaraq kitablar şəklində nəşr olunub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Almaniyanın Drezden şəhərində Saksoniya Dövlət Kitabxanası, Humbolt Universitetinin Azərbaycan tarixi kafedrası, Auqsburq Universiteti və Osvald Volkenşteyn Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirdiyi "Kitabi-Dədə Qorqud" dastanlarında tolerantlıq Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqlarından biri kimi" adlı elmi konfrans da bir tolerantlıq nümunəsidir.

Azərbaycanın ən yeni tarixində bütün bir əsri özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, hüquqi, iqtisadi, sosial-mədəni, elmi əsaslar yaradan onların sistematik inkişafının təminatçısı olan siyasi kursun, milli inkişaf strategiyasının aktuallığı, Azərbaycana daha da böyük qələbələr gətirəcəyinə əminlik, özündə milli dövlətçilik inkişafını cəmləşdirən nəzəri konsepsiya dünyaya Azərbaycan modeli kimi tanıdılmışdır.

## BƏRDƏNİN İLK ORTA ƏSR SƏNƏTKARLIĞININ TARİXİ-ARXEOLOJİ CƏHƏTDƏN TƏDQİQİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

***Cəfərov P.T.***
*Sumqayıt Dövlət Universiteti*

Müasir Azərbaycanın qurucusu olan ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bütün sahələrə olduğu kimi arxeologiya sahəsinə də xüsusi diqqət yetirmişdir. Bu xüsusi diqqət sayəsində arxeologiya elminin, arxeoloji tədqiqat işlərinin Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Bərdə şəhərində inkişaf edən xətlə yüksəlməsini 2 mərhələyə bölmək mümkündür. I mərhələ H.Əliyevin Azərbaycan SSR-yə rəhbərlik etdiyi dövrlə, II mərhələ isə H.Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlə bağlıdır. Sovet imperiyası dövründə H.Əliyev Respublikada rəhbərliyə gələnədək Azərbaycan ərazisindəki orta əsr şəhərlərinin meydana gəlmə səbəbləri, eləcə də onların inkişafı, mənbələrdə onlar haqqında məlumatlar istənilən səviyyədə öyrənilməmişdir. Xüsusilə, ən qədim Azərbaycan şəhərlərindən biri olan Bərdə şəhəri 60-70-ci illərə qədər arxeoloji cəhətdən çox zəif öyrənilmiş, orta əsr Bərdə şəhərinin sənət sahələri haqqında elə bir qiymətli elmi fikir söylənməmişdir. 50-ci illərin sonu 60-cı illərin əvvəllərində V.Y.Qranikin rəhbərliyi ilə aparılan tədqiqat işləri zamanı Bərdə şəhərinin arxeoloji cəhətdən öyrənilməsinə təşəbbüs göstərildi, lakin elə bir mühüm nəticələr əldə olunmadı. Bərdə şəhəri ərazisinin tarixi-arxeoloji cəhətdən fundamental şəkildə tədiqiqi yuxarıda da qeyd etdiyimiz kimi, ümumilli lider Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə aparılmışdır. Heydər Əliyevin 1993-cü ildən etibarən müstəqil Azərbaycan Respublikasına rəhbərlik etməsindən sonra bütün sahələrə

olduğu kimi, arxeologiya sahəsinə də xüsusi diqqət ayrıldı. Dövlət büdcəsindən arxeologiyanın inkişafına böyük miqdarda vəsait yönəldildi. Bu gün də ölkə başçısı İlham Əliyevin bu sahəyə dövlət səviyyəsində dəstək verməsi arxeologiya elminin davamlı inkişafına səbəb olmuşdur. Bəhs etdiyimiz dövrdə aparılan tarixi-arxeoloji tədqiqat işləri nəticəsində qədim Bərdə şəhərinin tarixi kompleks şəkildə öyrənilmişdir:

I. Bərdə şəhərinin həm yazılı mənbələr, həm də arxeoloji materiallar əsasında öyrənilməsi sahəsində ilk addımlar N.İ.Xanıkov, B.Dorn, N.O.Solosani tərəfindən atılmışdır. XX əsrin 50-60-cı illərində B.Y.Qranikin rəhbərliyi ilə Bərdə şəhərində kəşfiyyat xarakterli arxeoloji qazıntı işləri aparılmışdır. XX əsrin 70-ci illərin axırlarında Bərdənin ən qədim bölgəsində Şatırlı kəndi yaxınlığındakı Şortəpə ərazisində kəşfiyyat xarakterli arxeoloji tədqiqat işləri aparılmışdır. Bərdə ərazisində intensiv arxeoloji qazıntı işləri yalnız 80-ci illərdən başlanmışdır. 80-ci illərin ortalarından başlayaraq A.B.Nuriyevin rəhbərliyi altında arxeoloji ekspedisiyanın apardığı qazıntılar nəticəsində müxtəlif sənətkarlıq sahələrinə aid külli miqdarda maddi-mədəniyyət nümunələri əldə edilmişdir. Şortəpədə arxeoloji tədqiqatlar 2006-cı ildə arxeoloqlar İ.Babayev, A.Məmmədov və Q.Hacıyev tərəfindən davam etdirilmişdir.

II. Bərdə şəhərinin tarixindən bəhs edərkən qarşıya çıxan ilk sual "Bərdə" adının etimologiyası ilə bağlıdır. Hal-hazırda Bərdə şəhəri Qarabağ düzənliyinin mərkəzində inzibati rayon mərkəzi və respublika miqyasında əhəmiyyəti olan bir şəhərdir. Akademik V.V.Bartold qeyd etmişdir ki, əslində, bu şəhərin tarixini öyrənmədən Azərbaycanın tarixini öyrənmək olmaz. Şəhər zamn-zaman Partab, Bərdaa, nəhayət Bərdə adlandırılmışdır. E.ə. VIII-VII əsrlərdə sakların Azərbaycana gəlməsi və Kür-Araz ovalığında yayılması məlumdur. Saklar indiki Bərdə şəhərindən Qafqaz dağlarına qədər böyük bir ərazini tutmuşdu. Həmin sak tayfaları içərisində Bərdar adlı tayfanın mövcud olduğundan bəhs olunur. Bərdə adının bilavasitə bu sözlə bağlı olması və "pərtab" sözünə uyğun olaraq "ağzı qaçaq", "ağzı başına" və "iti" mənasını verməsi haqqında mülahizə mövcuddur.

III. XX əsrin 80-ci illərində Bərdə şəhərində aparılan arxeoloji qazıntı işləri zamanı eramızdan əvvəl II minillikdən başlayaraq son orta əsrlərə qədər uzun bir dövrü əhatə edən çoxsaylı maddi mədəniyyət nümunələri əldə edilmişdir. Əldə edilən materiallar III-VIII əsrlərdə Bərdə şəhərindəki dulusçuluq məmulatı haqqında ətraflı danışmağa imkan verir. Arxeoloji tədqiqatlar zamanı VII-VIII əsrlərə aid edilən dulus çarxı, eləcə də az da olsa, ayaq dəzgahında formalaşdırılmış qabların əldə edilməsi bu dövrdə ayaq dəzgahının sıradan çıxmadığını göstərir. Burada əldə edilən əsas dulus məmulatı məişət və təsərrüfat qablarından, tikinti materiallarından və eləcə də qismən zoomorf qablar və uşaq oyuncaqlarından ibarətdir. Dulusçuluq məmulatı içərisində ən çox rast gəlinən şirsiz məişət və təsərrüfat qablarıdır. Burada qismən də olsa, şirli məişət qablarına da rast gəlinir. Bərdənin şirsiz məişət və təsərrüfat qablarını aşağıdakı qruplara bölmək olar: iri və orta həcmli təsərrüfat küpləri, qazanlar, su qabları, bardaqlar, sərniclər, çıraqlar, dopular, kuzələr, eləcə də müxtəlif qablara məxsus qapaqlar.

IV. Erkən orta əsrlərdə Bərdə şəhər əhalisinin məşğul olduğu sənət sahələrindən biri də metalişləmə və dəmirçilik olmuşdur. Bərdənin Albaniya dövrü (III-VII əsrlər) abidələrində aparılmış arxeoloji tədqiqat işləri zamanı zəngin və bənzərsiz metal nümunələrinin aşkar

edilməsi, onlarda olan yerlilik əlamətləri istehsalın yüksək səviyyəsindən xəbər verir. Tədqiqatlar nəticəsində aşkara çıxarılan təsərrüfat alətləri, məişət qabları, bədii sənət nümunələri, müxtəlif silah növləri qalıqları və numizmatik materiallar Bərdədə metalişləmənin həmin beş əsas istiqamətdə inkişaf etdiyini düşünməyə əsas verir. Tədqiqatlar zamanı ilk orta əsrlər dövrünə aid edilmiş çoxlu dəmir parçası və çıxdaşları Bərdədə metalişləmənin dəmirçilik sahəsinin daha çox inkişaf etdiyini göstərir.

V. Bərdə şəhəri ərazisində və onun ətrafında aparılmış arxeoloji qazıntı işləri zamanı aşkar edilmiş materiallar içərisində ilk orta əsrlər dövrünə aid zəngin şüşə məmulatı xüsusi yer tutur. Bərdədə şüşə qab-qacaq nümunələrinin geniş istehsalı IV-V əsrlərdən etibarən başlanmışdır. Məlumdur ki, həmin dövrdən etibarən Albaniyanın ictimai-siyasi və iqtisadi həyatında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Paytaxtı Bərdə olan Albaniya ərazisi şüşəyə lazım olan kvarslı qum yataqları, odadavamlı gillər, onun bişirilməsinə lazım olan yanacaq vasitələri, şüşənin boyanmasında istifadə edilən xammal cəhətdən zəngin idi. Bu dövrdə Bərdənin şüşə ustaları yalnız bəzək əşyaları deyil, bir sıra məişət qabları da istehsal edirdilər. Bərdədə yerli şüşə istehsalının olmasını sübuta yetirən əsas vasitələrdən biri də çıxar (qüsurlu) qabların aşkar olunmasıdır. Məlumdur ki, tarix boyu xarici ticarət üçün hazırlanan nümunələr qüsursuz olmuşdur.

VI. İlk orta əsrlərdə Bərdə əhalisinin məişətində, təsərrüfat həyatında və tətbiqi sənətkarlıq sümük məmulatı da geniş tətbiq edilmişdir. XX əsrin 80-ci illərində aparılan arxeoloji qazıntı işləri zamanı əldə edilən materiallar əhalinin sümükdən hazırlanmış iy, bıçaq sapı, daraq, düymə və s. bu kimi əşyalardan istifadə etdiyini sübut edir. Hələlik bizə məlum olan ən qədim sümük əşya III-VIII əsrlərə aid olan təbəqədən aşkar edilmişdir. Bütün bunlara əsasən, demək olar ki, erkən orta əsrlərdə Bərdə əhalisinin məşğul olduğu əsas sənət sahələrindən biri sümükişləmə sənəti olmuşdur.

Bütün bunlara əsasən deyə bilərik ki, Bərdə şəhərinin qədim tarixi həm də Azərbaycanımızın, Qarabağımızın qədim tarixinin tərkib hissəsidir. Baxmayaraq ki, Bərdə şəhərinin qədim tarixi kompleks şəkildə tarixi-arxeoloji cəhətdən tədqiqat obyekti olmuşdur. Yenə də Bərdə şəhərinin tarixi neçə-neçə elmi əsərlərin, monoqrafiyaların tədqiqat obyekti olaraq qalır.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA TƏHSİLİN İNKİŞAFI

***Eldarov N.Ş.***

*Sumqayıt Dövlət Universiteti*

Müasir qloballaşma dövründə təhsil sisteminin daha yüksək səviyyəyə qaldırılması və keyfiyyətinin artırılması dövlətimizin qarşısında duran əsas prioritet vəzifələrdən biridir. Bu inkişafın əsasında isə, şübhəsiz, Ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən siyasi-strateji kurs dayanır.

Respublikamızın inkişaf konsepsiyasına uyğun olaraq, insan kapitalının inkişafına önəm verən, insan resurslarının yetişdirilməsini və idarə edilməsini reallaşdıran müasir təhsil sisteminin yaradılması müstəqillik dövrünün məhsuludur. Həyata keçirilən proqramlar orta məktəblərdə kurikulum, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili,

Azərbaycanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasını və s. sahələri əhatə edir. Bu sahədə bir sıra islahatlar müvəffəqiyyətlə həyata keçirilmışdir.

2006 - Milli Kurikulumun konsepsiyası

2009 - Təhsil haqqında qanun

2010 - Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)

15 iyun 1999-cu il tarixində "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunmuşdur. İslahat Proqramı 1999-2013-cü illəri əhatə etmişdir. Kurikulum islahatı təhsil islahatının əsas istiqamətlərindən biridir.

Artıq ümumtəhsil məktəblərimizdə 2016/17-ci dərs ilində IX siniflər yeni fənn kurikulumları (təhsi proqramları) ilə dərs keçəcəklər. Bütün bunlara uyğun dərslik komplektləri hazırlanmış, müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Dərsliklərin təkmilləşdirilməsi davam edir. Müəllimlərin diaqnostik qiymətləndirməsinin həyata keçirilməsi, işə qəbulu, iş yerlərinin dəyişdirilməsi, məktəb direktorlarının işə qəbulu, təhsil şöbələrinin işinin təkmilləşdirilməsi və s. həyata keçirilən çoxsaylı yeniliklərdəndir.

Prezident İlham Əliyevin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nda təhsil sisteminin bütün pillələrinin yeniləşməsi ilə bağlı mərhələlərlə həyata keçiriləcək tədbirlər sistemi öz geniş əksini tapıb. Hazırda nəzərdə tutulmuş həmin tədbirlər məqsədyönlü şəkildə müvəffəqiyyətlə həyata keçirilir.

Müstəsna əhəmiyyət kəsb edən təhsil haqqında Dövlət Strategiyası ölkəmizdə səriştəli kadr potensialına və qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Onlardan biri bacarıqlı pedaqoji kadrların hazırlanmasıdır. Bu baxımdan müasir tələblərə cavab verən müəllim hazırlığı sisteminin formalaşması, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, məktəb tikintisi, yeni təlim texnologiyaları və informasiya vasitələrindən professional səviyyədə istifadə yollarının müəyyənləşdirilməsi kimi məsələlərin həlli böyük əhəmiyyət kəsb edir. Sinif otağı və auditoriyaların kompüterləşdirilməsi, elektron lövhələrlə təchizi, internet şəbəkəsi sisteminə qoşulması, müəllimlərin informasiya-kommunikasiya texnologiyalarından istifadə etməsi təhsilin keyfiyyətinə müsbət təsir göstərir. O cümlədən bizim universitetdə də bu sahədə çox işlər görülür.

Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin mühüm strateji istiqamətlərindən biri və bəlkə də ən başlıcasıdır.

Beləliklə, bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən hər islahat, baş verən hər bir hadisə ilk növbədə Azərbaycanın parlaq gələcəyinə hesablanıb.

## AZƏRBAYCAN XALQININ AZADLIQ MÜBARİZƏSİNƏ DAİR

***Əliyeva L.E.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın çar Rusiyası tərəfindən işğalına həsr olunmuş ilk əsərlər hələ XIX əsrdə, bu işğalın gedişi zamanı və sonrakı illərdə meydana gəlmişdir. Həmin dövr müəlliflərindən S.B. Bronevski, P. Zubov və başqalarını qeyd etmək olar. Bütövlükdə Qafqazın Rusiya tərəfindən işğalı dövrünün müxtəlif problemlərinə həsr olunmuş mənbə xarakterli bu əsərlərdə İrəvan bölgəsi əhalisinin çarizmin işğalçılıq siyasətinə qarşı mübarizəsi barədə məlumat verilir.

XIX əsrin ikinci yarısında bu problemə dair yazılmış əsərlərdən İ.Şopen, N.F. Dubrovin, V.V. Potto, K.Şulqin, P.Q. Butkov, Şerbatov və başqalarının tədqiqatlarında Qafqazın Rusiya tərəfindən işğalı məsələlərindəndə bəhs olunur.

Oktyabr çevrilişinə qədərki tarixşünaslıqda bu problemə yer ayırmış müəlliflərdən P.İ.Kovalevski, A.L.Gizetti, S.Esadze və başqalarını da göstərmək olar. Onların əsərlərində də problemə yanaşmada əvvəlki müəlliflərdən fərqli heç nə ortaya qoyulmurdu, onlarda sələfləri kimi Rusiyanın Qafqazı işğal etməsini onun İran və Türkiyə ilə geosiyasi maraqları fonunda verir, bu zaman yerli xalqların düçar olduqları əzab-əziyyət isə demək olar ki, arxa plana keçirirlər.

Həmin vaxtı işıq üzü görmüş əsərlərdə Qafqazın, o, cümlədən də onun ayrı-ayrı bölgələrinin çar Rusiyası tərəfindən işğalı könüllü birləşmə kimi təqdim olunurdu. Baxmayaraq ki, bəhs olunan dövrdə İrəvan xanlığının ərazisində yaşayan əhalinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edirdilər, həmin əsərlərdə xanlığının tarixi erməni tarixinin bir hissəsi kimi, Qərbi Azərbaycan torpaqları Şərqi Ermənistan adıyla təqdim olunurdu.

Sovet dövrünün son illərində işıq üzü görmüş əsərlərin bəzilərində isə problemə daha obyektiv yanaşma müşahidə olunur. Həmin əsərlərdə artıq Rusiyanın Qafqaz maraqları, Azərbaycan xanlıqlarının iri dövlətlərin bu bölgədə toqquşan maraqları arasında manevr etməsi, onlardan bəzilərinin isə bu güclərdən hansısa birinə meyl etmək məcburiyyətində qalmaları kimi məsələlər tədqiq olunurdu.

Problemin əsl obyektiv şəkildə tədqiqi, əlbəttə ki, müasir dövr Vətən tarixşünaslığına aiddir. Məhz bu zaman əzəli Azərbaycan ərazisi olan İrəvan bölgəsinin obyektiv tarixi araşdırılır. Bu dövrdə meydana gəlmiş tədqiqatlarda tutarlı dəlillər və faktlarla bu bölgənin əzəli Azərbaycan torpağı olması əsaslandırılır, ermənilərin buraya çar Rusiyası tərəfindən mərhələlərlə köçürülərək məskunlaşdırıldığı arxiv sənədləri və digər ilkin mənbələrin məlumatları əsasında sübut olunur.

Vətən tarixşünaslığından bəhs edərkən Mehman Süleymanovun bilavasitə bu problemə həsr olunmuş “İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən” adlı əsərini qeyd etmək lazımdır.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun təşəbbüsü və rəhbərliyi altında Tarix İnstitutunda hazırlanmış “İrəvan

xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" əsərini isə bu istiqamətdə görülmüş çoxillik gərgin əməyin bəhrəsi kimi qiymətləndirmək olar.

Vətən tarixşünaslığında bu problemə həsr olunmuş əsərlərdən E.T. Qarayevin 2010-cu ildə nəşr etdirdiyi "İrəvan xanlığı. (1747-1828)" monoqrafiyasını da qeyd etmək lazımdır.

Müasir dövr tarixşünaslığımızda eləcə də XIX əsrin birinci yarısı tarixi məsələlərinin tədqiqinə həsr olunmuş əsərlərdən F.Əliyev və M.Əliyevin "Naxçıvan xanlığı (1747-1828)", F.Əliyev və U.Həsənovun "İrəvan xanlığı", T.Mustafazadənin "XVIII yuzillik-XIX yuzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri" və "Azərbaycan xanlıqlarının qısa tarixi", G.Nəcəflinin "Azərbaycan xanlıqlarının Osmanlı dövlətilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı)" , V.Umudlunun "Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)" monoqrafiyalarını qeyd etmək olar. Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycanın itirilmiş torpaqlarının tədqiqi daim öz aktuallığını saxlayır, belə bölgələrimizin tarixinə mümkün qədər çox müraciət olunmalıdır.

## AZƏRBAYCANDA ELM VƏ TƏHSİL SAHƏSİNDƏ İNNOVASİYALAR

***Əliyeva C.M., Babakişiyeva S.F.***
*Azərbaycan Texnologiya Universiteti*

İnformasiya cəmiyyəti IKT-nin inkişafı nəticəsində formalaşan yeni tip cəmiyyətdir. Burada insanın rifahının əsas şərti bilik, informasiya və onların səmərəli tətbiqidir. Informasiya cəmiyyəti zaman, məkan və siyasi sərhədləri aşaraq informasiya mübadiləsinə imkan verir. İnformasiya cəmiyyəti tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının iqtisadi inkişafının strateji məqsədi xammala əsaslanan iqtisadiyyatdan yüksək texnologiya-lara, innovasiyalara əsaslanan iqtisadiyyata keçiddən ibarətdir.

Bu gün daha çox elmi informasiya istehsal edən ölkələr yox, bu informasiyadan səmərəli istifadə edən, onları təcrübədə operativ tətbiq edən ölkələr intensiv inkişaf edir. Çin, Yaponiya, Cənubi Koreya kimi ölkələrin innovativ inkişafında bu amil aydın sezilir. Bu gün İnnovasiyalar İnternet vasitəsilə informasiyanın, intellektual tutumlu məhsulun elektron ticarəti olaraq, İnformasiya Cəmiyyətində intellektual sahibkarlığın mühüm növü kimi qlobal fəaliyyət meydanına çevrilməkdədir. Məlum olduğu kimi, ölkəmizdə iqtisadiyyat sahəsində keçid dövrü artıq başa çatmışdır. Deməli, bundan sonrakı mərhələdə elm və təhsilin inkişafı üçün daha əlverişli maliyyə imkanları yaranacaq. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" qəbul edilmişdir. Bu sənəddə qeyd edilir ki, elm və texnologiyanın inkişafı, qabaqcıl innovasiya sisteminin yaradılması, tətbiqi dövlətin elm siyasətinin strateji məqsədlərindəndir. Strategiyanın mühüm bölmələrindən biri elm, təhsil və istehsalın inteqrasiyası məsələlərinə həsr edilmişdir.

Universitetlərin təkamülü cəmiyyətin inkişafı ilə sıx bağlıdır. Müasir universitetin inkişaf strategiyası innovasiyalara əsaslanmalıdır. Universitetin yeniliklərə, innovasiyalara açıq olması, innovativ inkişaf yolunu tutması onun sürətlə inkişaf edən qlobal tələblərə

uyğunlaşması, rəqabətə davamlı olması üçün mühüm şərtdir. Müasir universitetlərə xas olan geniş muxtariyyət, elm və təhsil proseslərinin vəhdəti, məhsuldar innovativ fəaliyyət, sənaye və bizneslə möhkəm əlaqələrin qurulması XX əsrin sonuna yaxın sürətli elmi-texniki inkişafı təmin etmişdir.

Universitetlər ölkənin gələcəyinin cəmləşdiyi məkandır. Bu gün ölkənin təhsili, universitetlərin səviyyəsi necədirsə, sabah ölkənin vəziyyəti buna uyğun olacaqdır, yəni ölkənin gələcəyi universitetlərdən asılıdır. Bu mənada universitetlərimizi yeni texnoloji cəmiyyətdə, innovasiya cəmiyyətində, qlobal rəqabət şəraitində fəaliyyətə, inkişafa hazırlamalıyıq.

Universitetin innovativ inkişafı innovasiyaların və innovativ fəaliyyətin universitet fəaliyyətinin bütün sferalarına sistemli tətbiqi prosesidir. Universitetin inkişafının innovativ xarakteri onun fəaliyyət nəticələrinin innovasiyalar hesabına təmin edilməsidir. İnnovativ inkişaf informasiya cəmiyyətində universitetin rəqabətə davamlı olması, dinamik inkişafı üçün əsas şərtdir. Burada ənənə və yeniliyin mübarizəsi, vəhdəti, davamlı inkişaf məsələləri özünü göstərir. İnnovativ təhsil tədrisdə innovasiyaların yaradılması, inkişafı, yayılmasına istiqamətlənmiş proses kimi xarakterizə edilir. İnnovativ təhsil ənənəvi təhsilin informasiya cəmiyyəti tələbləri səviyyəsinə transformasiya edilməsi onun informasiya cəmiyyəti texnologiyaları ilə reallaşması deməkdir. Bu zaman təhsildə müəllimin rolu və statusunun dəyişməsi, onun məsləhətçi tyutor funksiyası daşıması, təhsil vasitəsi ilə cəmiyyətin texnoloji, sosial-iqtisadi sifarişinin reallaşması müşahidə edilir.

İnformasiya cəmiyyətinin inkişafı universitetlərin fəaliyyət xarakterini, inkişaf strategiyasını, idarəetmə sistemini də dəyişdirir. Universitetlərin təşkilatı strukturunda yeni bölmələr yaranır: "Texnopark"lar, "Təhsil keyfiyyətinin menecmenti" departamenti, "Marketinq" departamenti, "Elektron təhsil" departamenti, "İnformasiya sistemləri və proqram təminatının yaradılması və istismarı" departamenti kimi yeni bölmələrin yaradılması nəticəsində universitetlərin fəaliyyəti və idarəedilməsi daha çox istehsalat müəssisəsini xatırladır.

Təhsildə innovasiyaların yaradılması və tətbiqi universitetin bazar iqtisadiyyatı şəraitində maliyyə imkanlarını artırmaqla yanaşı, innovativ universitet modeli qurmağa imkan verir.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN-QAZAXISTAN MƏDƏNİ ƏLAQƏLƏRİ

***Ələkbərov Ə.B.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Azərbaycan və qazax xalqları arasındakı mədəni əlaqələrin tarixi çox qədim və zəngindir. Bu gün bu çoxəsrlik əlaqələrin öyrənilməsi, tədqiqi və təbliği olduqca vacib və aktualdır.

Böyük Azərbaycan dramaturqu və filosofu M.F.Axundov "Kəmalüddövlə məktubları" əsərində göstərmişdir ki, dünya xalqları bir-birindən təcrid olunmuş şəkildə yaşaya bilməz. Hər hansı bir xalqın mədəniyyəti, başqa xalqların mədəniyyətləri ilə ünsiyyətdə olmadan

inkişaf edə bilməz, həmin mədəniyyət bütün xalqların əldə etdiyi nailiyyətlərlə zənginləşməli və bütün bəşəriyyətin malı olmalıdır.

Məşhur qazax yazıçısı A.Alimcanov düzgün olaraq yazırdı ki, heç bir xalq təcrid olunmuş halda yaşaya bilməz. Onun tarixi bilavasitə digər xalqların tarixi ilə yaxınlaşır. Belə ki, qarşılıqlı zənginləşmə, dilin və mədəniyyətin qarşılıqlı təsirlənməsi, qarşılıqlı anlaşma olmadan heç bir inkişaf mümkün deyildir. Bu barədə bizim sələflərimiz olan böyük demokrat- maarifçi Ç.Vəlixanov və Abay, İ.Altınsarin dəfələrlə demişlər. Onlar dəfələrlə söyləmişlər ki, qazaxların tarixi və mədəniyyəti bizim bütün qardaş xalqların tarixi və mədəniyyəti ilə bağlıdır.

Azərbaycanın mərhum prezidenti H.Əliyev 1997-ci il iyunun 10-11-də Qazaxıstan Respublikasına rəsmi səfəri zamanı demişdir:” Tarixin çox-çox qədim dövrlərinə gedib çıxan köklərimiz, xalqlarımızın kökləri bizim hamımız üçün olduqca qiymətlidir və əslinə qalsa, bütün tarix ərzində qazax və Azərbaycan xalqları arasında mövcud olmuş və mövcud olan qarşılıqlı münasibətlərin başlıca əsasıdır. Tarix qazaxlar üçün də, azərbaycanlılar üçün də keşməkeşli olmuşdur. Lakin nə kimi çətinliklər, nə kimi müsibətlər olsa da, xalqlarımız bir-birini həmişə dəstəkləmiş, bir-birinə həmişə arxa- həyan olmuşlar, xalqlarımız həmişə hiss etmiş və anlamışlar ki, onlar eyni köklərə mənsubdur, böyük əcdadlarımızın varisləridir. Bütün zəngin və qədim ümumi mədəniyyətimiz, bizim qədim Şərq, türk sivilizasiyası elə bir əsasdır ki, qazaxların və azərbaycanlıların bir çox nəsilləri bu əsas üzərində əlaqə saxlamış və indi malik olduğumuz nə varsa, hamısını bu əsas üzərində bizə çatdırmışlar.”

İki xalqın tarixi dostluğu və qardaşlığını Qazaxıstan Respublikasının prezidenti N.A.Nazarbayev belə qiymətləndirmişdir:” Bizim xalqlarımız ta qədimdən ümumi etno-mədəni məkanda yaşamışlar. Ona görə də bizim mədəni əlaqələrimiz belə sıx çulğaşmışdır... Biz sevinci, kədəri, nailiyyətləri və uğursuzluqları bərabər bölüşməyə çoxdan adət etmişik.Talelərin ümumiliyinə çevrilən bu tarixi vərdişi xalqlarımızın tarixinin ən çətin vaxtlarında yaşamaqda, duruş gətirməkdə, ləyaqətimizi qoruyub saxlamaqda həmişə bizə kömək etmişdir.”

Sovetlər dönəmində iki xalq arasındakı mədəni əlaqələr yüksələn xətlə getmişdir. Ancaq bu əlaqələr, heç də xalqların istək və arzuları ruhunda yox, daha çox “mərkəz”in maraq və məqsədləri dairəsində qurulmuşdur. Gurultuya, hay-küyçülüyə xidmət etmiş və kampaniyaçılıq xarakteri daşımışdır. Mədəniyyət günləri, kino və teatr festivalları, kitab sərgiləri, uşaq bədii filmləri həftəsi, ədəbiyyat və incəsənət günləri və s. kimi kütləvi tədbirlər daim təzələnsə də, bir-birini əvəzləsə də, səmimiyyət və doğmalıq biçimində olmamış, sovet ideologiyasının kərpic daşları kimi onun yalanlarına, uydurmalarına və ədalətsizliyinə xidmət etmişdir.

Azərbaycan və qazax xalqları tarixi müstəqilliklərinə qovuşduqdan sonra, öz azadlığı, öz taleyi və mədəniyyətinin də sahibi oldular. Daha özgə, yad düşüncənin işığında deyil, doğma duyğuların, qırılmaz türk qardaşlığının sevincində bir-birinə qucaq açdılar.

Mədəni əlaqələr yenidən canlandı. Yeni ovqatda, yeni biçimdə yüksəlməyə başladı. Xalq ruhu, xalq sevgisi bu inkişafı addım-addım izlədi. Keyfiyyət etibarı ilə yeni mahiyyət kəsb edən milli ruhlu və milli məzmunlu mədəniyyətin əlaqə imkanları genişləndi. Bu əlaqə

sırasına şair və yazıçıların əsərlərinin tərcüməsi və nəşri, yubiley tədbirlərinin keçirilməsi, bədii filmlərin mübadiləsi və nümayişi, təsviri sənət sərgilərinin açılması, musiqi kollektivlərinin və teatr xadimlərinin çıxışları və s. daxil idi.

Azərbaycan-qazax mədəni əlaqələrinin inkişafında görkəmli qazax şairi, alim və ictimai-siyasi xadimi O.Süleymenovun xidmətləri böyükdür. Onun Azərbaycanla əlaqə, bağlılıq tarixini iki mərhələyə bölmək olar: 1. Azərbaycanın müstəqilliyinə qədərki dövr; 2. Müstəqillik dövrü.

Birinci dövr sovet sisteminin qapalı, planlı və çərçivə hüdudları ilə məhdudlaşan münasibətləri üzərində qurulub, ədəbi əlaqə, ədəbiyyat və incəsənət günləri, şair və yazıçıların yubiley tədbirlərində iştirakı ilə tamamlanırdı. Bu mərhələdə şairin iki kitabı – "Şeirlər" (1975) və "Səhraların nəfəsi" (1984) Azərbaycanda çap olunmuşdur.

O.Süleymenovun Azərbaycanla əlaqə, bağlılıq tarixinin ikinci mərhələsi sovet dönəminin dağılması və müstəqil türk dövlətlərinin öz müstəqilliklərini inadlı və ardıcıl şəkildə möhkəmləndirməsi ilə bir vaxta düşür. Bu mərhələdə O.Süleymenov bütün varlığı, bütün ruhu və bütöv şəxsiyyəti ilə türk dünyasının, o cümlədən Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafına, möhkəmlənməsinə can atır.

O.Süleymenova xalqımızla bağlılığı və Azərbaycan üçün böyük xidmətlərinə görə Beynəlxalq Rəsul Rza mükafatı (2000), Azərbaycanın "Şöhrət" ordeni (2006), Bakı Dövlət Universitetinin (2006) və Azərbaycan MEA Ədəbiyyat İnstitutunun (2016) fəxri doktoru diplomları verilmiş və şair "ədəbi-ictimai fəaliyyətində Azərbaycan həqiqətlərinə görə" "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə (2016, 16 may) təltif edilmişdir.

2006-cı il iyunun 21-də Bakıda "Muğam klubu"nda O.Süleymenovun 70 illik yubileyinə həsr olunmuş gecədə Azərbaycanın xalq şairi S.Rüstəmxanlı demişdir: "Mən hesab edirəm ki, Oljas Süleymenov təkcə Qazaxıstanın yox, həm də Azərbaycanın şairidir. Və mən onun bizim Yazıçılar Birliyinə üzv qəbul edilməsini alqışlayıram... Mənə elə gəlir ki, Oljas Süleymenov həm də Azərbaycanın xalq şairidir..."

Müstəqilliyin əldə olunduğu 25 il ərzində ədəbi əlaqələrin genişləndirilməsi istiqamətində müsbət addımlar atılmışdır. Görkəmli qazax şairi və mütəfəkkiri A.Kunanbayevin və xalq akını Canbulun anadan olmalarının 150 illiyi Azərbaycanda qeyd edilmiş, qazax şairlərindən O.Süleymenov, Z.Asim, K.Beqmanov və K.Şaxanovun şeirləri müxtəlif mətbuat orqanlarında dərc edilmiş, görkəmli qazax yazıçısı B.Şaxanovun "Böyük çölün hekayələri" (2012) kitabı Bakıda çap olunmuşdur.

Bakıda tədqiqatçı alim, filologiya elmləri doktoru A.Feyzullayevanın 17,5 çap vərəqi həcmində "Oljas Süleymenov (yaradıcılığının spektral tədqiqi)" (2004) adlı monoqrafiyası və "Oğuz eli" qəzetinin xüsusi buraxılışı olan "Yazıçı" seriyasının 40 səhifəlik "Oljas Süleymenov" toplusu (2010) nəşr edilmişdir.

2013-cü ildə Astanada Vidadi Salahov və Klemaş Beqalinovanın həmmüəllifliyi ilə "Böyük Azərbaycan mütəfəkkirləri Nizami, Nəsimi və Füzulinin yaradıcılığı" kitabı çap olunmuşdur.

Şair C.Cavadlının azərbaycanlıların Qazaxıstana sürgün həyatından bəhs edən "Qazaxıstan dəftərindən" silsilə şeirləri Azərbaycanın müxtəlif mətbuat orqanlarında çap olunmuş və 28,5 çap vərəqi həcmində "Sürgün" kitabı (1996) Bakıda nəşr edilmişdir.

Almatıda keçirilən Azərbaycan mədəniyyəti günləri (2004) iki ölkə arasında mədəni əlaqələrin genişlənməsinə böyük təsir göstərdi. Almatıdakı "Qazaxıstan" kinoteatrında və "Dostluq" evində keçirilən Azərbaycan mədəniyyəti günləri məşhur "Qayınana" bədii filminin nümayişi ilə başlamış, bir həftə ərzində Azərbaycan kitablarının sərgisi keçirilmiş, "Arzu", "Ozan" və "Azərbaycan təranələri" ansambllarının solistləri muğam, xalq mahnıları və təsniflərimizi ifa etmişlər. "Qədim musiqi alətləri" ansamblının rəhbəri M.Kərimovun ifa etdiyi xalq havaları da yadda qalan olmuşdur.

2006-cı il avqustun 24-26-da Qazaxıstanın Aktau şəhərində "Xəzər dostluq dənizi" adlı Beynəlxalq festivalda Azərbaycan nümayəndələri də iştirak edirdilər. Nümayəndələrimiz festivalda yüksək mükafatlara layiq görülmüşdülər. Rəssam M.Əmirov ən yüksək mükafata – Qran-priyə sahib olmuş, 12 rəssamın iştirak etdiyi bu festivalda həmyerlimizin Xəzər dənizinə həsr olunmuş 3 əsəri qızıl medal qazanmışdır. Foto rəssam M.Həsənov da uğur qazanaraq, birinci yeri götürməklə qızıl medalla təltif olunmuşdur.

Gənc ifaçılar – B.Mirzəyeva (xanəndə), S.Paşazadə (tar) və T.Əsədullayevdən ibarət trio ikinci yerə sahib olmuş, estrada ifaçısı E.Hüseynəliyev diplomla təltif edilmişdir.

Respublikamızı festivalda təmsil etmiş rejissor R.Əsədovun "Arxada qalmış gələcək" filmi ikinci yerə layiq görülmüşdür.

Qazaxıstanın söz və sənət adamları Azərbaycanda keçirilən Beynəlxalq əhəmiyyətli tədbirlərdə layiqincə təmsil olunurdular. Onlar Bakıda keçirilən I Beynəlxlaq Aşıq Festivalı (2010), III Bakı Beynəlxalq Teatr Konfransı (2014) və III Beynəlxalq Muğam Festivalında (2013) iştirak etmişdilər.

Azərbaycan və Qazaxıstan respublikaları arasındakı mədəni əlaqələrin inkişafında TÜRKSOY-un və Astana şəhərindəki Beynəlxlaq Türk Akademiyasının təşkilatçılığı ilə keçirilən tədbirlərin də müsbət təsiri var idi.

İki xalq arasındakı mədəni əlaqələrin daha da inkişaf etdirilməsi olduqca vacibdir. Bu, müstəqil dövlətçiliyimizin möhkəmlənməsi və inkişafına öz müsbət təsirini həmişə hiss etdirməkdədir.

## MÜSTƏQOLLİK İLLƏRİNDƏ COĞRAFİYADA CİS SİSTEMİNİN TƏTBİQİ

***Əliyeva L.F.***

*Bakı Dövlət Universiteti*

Goğrafi məkanla bağlı informasiyanın əldə olunması, ötürülməsi sahəsindəki qazanılan uğurlar XXI əsrin ən böyük nailiyyəti kimi qeyd edilməlidir. İstər coğrafiya, istərsə də digər elm sahələrdə müasir informasiyaları öyrənmək üçün yeni yanaşmalardan istifadə olunur. Zaman ötdükcə xəritələrin tərtibində bir sıra üsullar meydana çıxmışdır. Bu informasiyaların toplanması, istifadəçiyə çatdırılması üçün müxtəlif üsullar mövcuddur ki, onlar arasında Coğrafi İnformasiya Sistemlərinin (CİS) rolu inkar olunmazdır. Coğrafi İnformasiya Sistemi (CİS) coğrafi obyektlərin tədqiqində ən müasir üsulllardan biridir.

Goğrafi tədqiqatlar genişləndikcə xəritələrin də informasiya yükü genişlənmişdir. Xəritələrin keyfiyyət və kəmiyyətinin artması informasiya axının artması deməkdir. Çoğrafi kəşflər və tədqiqatlar nəticəsində əldə edilmiş ideyalar əsasında tərtib olunmuş xəritələr

üzərindəki informasiyalar CİS-in predmetini təşkil edir. CİS informasiyaların saxlanılması üçün nəzərdə tutulmuş funksional imkanları özündə birləşdirən proqramdır. Bu sistem özündə bir çox sahələri birləşdirir və aşağıdakı əsas funksiyaları var:

. Coğrafi məlumatları səmərəli və ətraflı toplamaq və idarə etmək;

. Qarşıya qoyulan məqsəddən asılı olaraq, coğrafi məlumatları monitorda nümayiş etdirmək və çap etmək;

Bu əsas funksiyalarına görə deyə bilərik ki, CİS bir məlumat bankı və ya da məlumat mənbəyi kimi də işlədilə bilər. Onu qeyd etməliyik ki, Coğrafi İnformasiya Sistemlərinin meydana çıxması məlumatların toplanması, sistemləşdirilməsi, xəritələşdirilməsi baxımından yeni mərhələnin başlanğıcını qoymuşdur. Təsadüfü deyil ki, artıq ölkəmizdə də bir neçə dövlət strukturlarında CİS tətbiq edilir.

## TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN QORUNMASI VƏ BƏRPASI

***Əsədova A.V.***

*Sumqayıt Dövlət Universiteti*

Bu gün Azərbaycan tolerant, çoxmillətli və çoxkonvensiyalı dövlət kimi dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir. Ölkənin siyasi həyatı ilə yanaşı, mədəni həyatında da uğurlu siyasət aparılır. Bu işlərin görülməsində və həyatı keçirilməsində Heydər Əliyev Fondunun çox böyük əməyi var. Heydər Əliyevin siyasi ideyalarına sadiq qalan fond 2004-cü il 10 may tarixində Mehriban Əliyeva tərəfindən yaradılmışdır.

Fond əsas olaraq ictimai əlaqələrin möhkəmləndirilməsi ilə Azərbaycanın hər tərəfli inkişafına xidmət edir. Fondun fəaliyyətinin əsas istiqamətlərindən birinin humanitar sahəyə yönəlməsi olduqca təqdirəlayiq hadisədir. Heydər Əliyev Fondu həm də ölkəmizin qədim tarixi abidələrinin qorunması və bərpasına da xüsusi diqqət yetirir. 2004-2014-cü illər ərzində fond Azərbaycanda və xarici ölkələrdə bu istiqamətdə mühüm layihələr həyata keçirib. Fondun dəstəyi ilə Azərbaycanın tarixi şəxsiyyəti Cavad xanın qəbri üzərində 2005-ci ildə məqbərə ucaldılıb. 2007-ci ildə Mərdəkan mədəniyyət sarayı yenidən qurulub. Bu işləri görməkdə fondun əsas məqsədi Azərbaycanın tarixini özündə əks etdirən hər bir tarixi abidənin qorunub gələcək nəsillərə çatdırılmasıdır.

Görülən işlər nəticəsində 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılmışdır. Bu kompleks açıq muzey kimi fəaliyyət göstərir. Bu da Azərbaycana gələn turistlərə tariximizin təqdimatında mühüm əhəmiyyət kəsb edir. 2011-ci ildə Qala Azərbaycan Etnoqrafik Muzey Kompleksi ərazisində Etno-Ekoloji mərkəz və Qala antik əşyalar muzeyi də yaradılmışdır. Antik əşyalar muzeyi bu gün turizm mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanı sevib, daim tarixinə sahib çıxan ulu öndər H.Əliyevin ideyaları Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrlə qorunub saxlanılır. Ölkə prezidenti bu gün fondun ən böyük dəstəkçisidir. Çünki ölkə başçısının da,

fondunda bu gün ən böyük əməli Azərbaycan və azərbaycançılıqdır. Heydər Əliyev fondunun gördüyü işlər nəticəsində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi beynəlxalq miqyasda qeyd edilmişdir. Həmçinin YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Sarayı Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın daxil edilməsini xüsusi ilə diqqətəlayiq hesab etmək olar. Fondun xarici ölkələrdə tarixi-mədəniyyət abidəsinin bərpasına xüsusi ilə qeyd etmək lazımdır. 2006-ci ildə Tiflis şəhərində Azərbaycanın şəxsiyyətlərinin – Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsənbəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələri yaradılmışdır. Müxtəlif mədəniyyətlərə aid abidələrin təmiri və bərpası üçün 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında Anlaşma Memorandumu imzalanmışdır. Fondun həyata keçirdiyi "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Strasburq Kasedrol kilsəsi bərpa edilmişdir. Fond tarixi abidələrin bərpasında heç bir dini, etnik ayrıseçkilik yaratmır. Hətta Azərbaycanda yaşayan milli azlıqlarında adət-ənənələrinə hörmətlə yanaşılır, onlara hər cür şərait yaradılır. Bu isə ölkəmizdə dövlət siyasətinin multikultural dəyərlərlə həyata keçirilməsinə sübutdur. YUNESKO-nun 2005-ci il oktyabrın 20-də qəbul etdiyi "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında konvensiya"ya uyğun olaraq ölkəmizdə yaşayan milli azlıq və etnik qrupların adət-ənənələri Azərbaycanın mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf etdirilir.

Eyni zamanda dünyanın ən qədim muzeylərinin eksponatları Azərbaycanda da təbliğ edilir. Həmçinin Azərbaycan Luvr muzeyinin İslam incəsənəti deportamentinin yaradılmasında iştirak etmişdir. Bundan başqa, Heydər Əliyev Fondu Luvr, Versal sarayı, Strasburq kasedrol kilsəsi və digər dünya miqyaslı dəyərli tarixi abidələrin bərpasına yardım etmişdir. Bundan əlavə, fond Parisdə Azərbaycanın tarixi Etnoqrafiya mədəniyyətinə aid Mədəniyyət Mərkəzi yaratmışdır. Bu isə bizdən hər şeyi oğurlayıb dünyaya öz tarixi-mədəniyyəti kimi təqdim edən ermənilərə bir zərbədir. Fond ölkənin bir çox şəhər və rayonlarında mədəni tədbirlər həyata keçirir. Beynəlxalq əhəmiyyət daşıyan bu tədbirlərdə Azərbaycanın xalçaları, geyimləri, tarixini əks etdirən eksponatlar arxeoloji tapıntılar, qədim pullar, misgərlik məmulatları xarici ölkə vətəndaşlarına təqdim olunur. Heydər Əliyev Fondunun ən böyük missiyası isə Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasın. Çünki bu gün Azərbaycanın 20%-nin işğal altında olan torpaqlarında 900 dən çox dini-mədəni, tarixi abidələr ermənilər tərəfindən məhv edilmişdir. Bu isə Azərbaycan tarixinə və mədəniyyətinə vurulan ən böyük zərbədir.

Gördüyü işlər sayəsində fond rəhbəri Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri təyin edilmişdir. Eyni zamanda İSESKO-nun xoşməramlı səfiri adını qazanan Azərbaycan qadınının vətəni üçün gördüyü işlər dövlət başçısı tərəfindən də yüksək qiymətləndirilir.

Bu gün Azərbaycanda tarixi mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə "Dövlət proqramları" icra edilməkdədir. Heydər Əliyev Fondunun gördüyü işlər sayəsində milli, tarixi mədəni irsin Azərbaycana məxsusluğu bu gün dünya tərəfindən qəbul edilir.

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ ÇAP OLUNMUŞ ÇOX QİYMƏTLİ TARİXİ MƏNBƏ BARƏDƏ BƏZİ QEYDLƏR

***Fəzəliyev Ş.F.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Azərbaycan tarixinin müxtəlif dövrlərini, o cümlədən orta əsrlər dövrünü ilkin mənbələrsiz araşdırmaq mümkün deyildir, lakin mənbələrin böyük əksəriyyəti isə (bəzi epistolyar irs, həmçinin məktublar və sənədlər nəzərə alınmazsa) bir neçə müəllifin milliyyətcə azərbaycanlı olmalarına baxmayaraq, qeyri dillərdə – ərəb və fars dillərində qələmə alınmış, müəlliflər dövrün yazı ənənəsinə uyğun olaraq ölkəmizin siyasi, sosial-iqtisadi əsərləri ideoloji, diplomatik və başqa sahələrini əhatə edən kitablarını öz doğma dillərində yazmamağı daha münasib bilmişlər. Həmin tarixi mənbələrin ən dəyərli nümunələrindən biri olaraq İsgəndər bəy Münşinin «Dünyanı bəzəyən Abbasın tarixi» («Tarixe-aləmaraye-Abbasi», Bakı, "Şərq-qərb" Nəşriyyat evi, I kitab 2010, II kitab 2014) göstərmək heç də təsadüfi deyildir. Belə ki, düz 400 il bundan əvvəl, 1616-cı ildə yazılmağa başlayan, XV-XVII əsrlərin birinci qərinəsini əhatə və I Şah Abbas Səfəvinin doğulması, hakimiyyətə gəlməsi və fəaliyyətini hərtərəfli təsvir edən edən bu əsərin Azərbaycanın və ona qonşu ölkələrin tarixini öyrənmək baxımından qiyməti şübhəsizdir.

İsgəndər bəy Münşi I Şah Abbasla birlikdə Azərbaycanın, demək olar ki, bütün böyük şəhərlərində, o cümlədən Təbriz, Ərdəbil, Naxçıvan, Əhər, Xoy, Maku, Gəncə, Ordubad, Şamaxı və Bakıda olmuş, öz münşilik (katiblik və tarixnevislik) fəaliyyətinə uyğun tapşırıqları yerinə yetirmiş, bəzən əyninə zirehli libas geyinib silaha sarılmış və döyüşdə iştirak etmişdir.

«Tarixe-aləmaraye-Abbasi» əsərinin müxtəlif əlyazma nüsxələri dünyanın bir çox kitabxanalarında (Moskva, Leninqrad, Daşkənd, İstanbul, Edinburq, Kabul, Bağdad, Tehran, Berlin, Bakı, Tiflis və s.) hifz olunmaqdadır.

Bu mənbənin mühüm fayda və əhəmiyyəti barədə aşağıdakıları bildirmək olar:

- XV əsrdən başlayaraq XVI əsrin ilk qərinəsinədək dövlət quruluşu, hərbi təsisatlar, ordunun vəziyyəti, həmçinin vəqf institutu, maddi və şəri məsələlərin işıqlandırılması;
- Səfəvilər dövlətinə qonşu olan bir sıra ölkə xalqlarının (osmanlılar, gürcülər, teymurilərin Hindistanda hakimiyyətdə olan padşahları, Məvəraünnəhr türkləri və s.) adət və ənənələrinin geniş təsviri;
- Səfəvi dövrünün alimləri, üləmaları, qoşun başçıları, mülki vəzifə sahibləri, habelə rəssamlar, xəttatlar, şairlər və musiqiçilərlə bağlı məlumatların verilməsi;
- Dövlət və hərbi aparatda hakimiyyət illərində bir sıra tayfa və onların başçıları, həmçinin müxtəlif vəzifələr haqqında geniş məlumatın nəzərə çatdırılması;
- Dövrümüzdə artıq unudulmuş müxtəlif söz və istilahların işlədilməsi;
-Bəzi kitablarda təsadüf olunmayan onlarla tarixi hadisələrin təsviri və s.

Məlum olduğu kimi, İsgəndər bəy Münşi öz əhəmiyyətli kitabını 14 il müddətində (1616-1629) yazmış, bir tərcüməçi olaraq biz də 14 il ərzində onu doğma dilimizə tərcümə etmişik. Demək azərbaycanlı İsgəndər bəyin fars dilində yazdığı əsər başqa bir azərbaycanlı tərəfindən 4 əsrdən sonra azərbaycan dilində, nəhayət ki, oxucularımıza təqdim olundu.

Beləliklə, «Tarixe-aləmaraye-Abbasi» kitabının 2505 səhifədən ibarət olmaqla məhz müstəqillik illərində (2010, 2014) tərcümə və çap olunmasını müstəqilliyimizin bu sahədəki nailiyyəti kimi dəyərləndirmək olar.

## SALATIN ƏHMƏDLİNİN "HEYDƏR ƏLİYEV VƏ ƏDƏBİ-TARİXİ PROSES" MONOQRAFİYASI HAQQINDA

***Hacıyev Q.Ə.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixinin 40 il illik bir dövrünün simvolu olmuşdur. Mübaliğəsiz demək olar ki, Azərbaycanın müasir tarixi onun banisi kimi Heydər Əlirza oğlu Əliyevin adına yazılmışdır.

Filologiya üzrə fəlsəfə doktoru Salatın Əhmədovanın monoqrafiyası dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycanın memarı, böyük mütəfəkkir Heydər Əlirza oğlu Əliyevin ədəbi-nəzəri irsinə həsr olunmuşdur. Müəllifin yazdığı kimi, həqiqətən də, bədii-fəlsəfi fikirlərlə zəngin Azərbaycan ədəbiyyatı Ulu öndər üçün hər şeydən öncə Azərbaycan xalqını dünyada tanıtmaq, onun qədimliyini, bəşəri düşüncəyə malik olmasını sübut etmək, türk xalqlarının birliyini nümayiş etdirmək vasitəsi idi. Ədəbiyyat Heydər Əliyev üçün istiqlal məfkurəsi olan - azərbayçançılıq fəlsəfəsinin məxəzi idi. Onun ədəbiyyat və mədəniyyət haqqında konsepsiyaları Azərbaycan dövlətçiliyinin mənafelərinə tabe edilmişdi.

Monoqrafiya ilk növbədə dünya şöhrətli dahi bir siyasi xadimə həsr edilməsi ilə aktualdır. Müəllifin göstərdiyi bu mötəbər təşəbbüsün əsas səbəbi Heydər Əliyev fenomeninin bir sıra yüksək xüsusiyyətləri ilə bağlıdır.

Heydər Əliyevin milli sərvəti olan nəzəri-fəlsəfi irsinin dəyərini artiran, Azərbaycan oxucuları üçün nəzərdə tutulan bu əsər tarixilik baxımından da çox dəyərlidir.

Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş kitablarda Ulu Öndər tarixçi, pedaqoq, tibb mütəxəsisi, mühəndis, nəqliyyatçı, yaxud dəmiryolçu və ya daha hansı sahələrin böyük bilicisi kimi təqdim olunur.

Maraqlı cəhətlərdən biri də odur ki, müəllif Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı oxuculara tam məlum olmayan bir çox məqamları açıqlamış, bəzi hallarda məlum olanları daha dəqiq işıqlandırmışdır.

Heydər Əliyev, həqiqətən monoqrafiyada yazıldığı kimi öz bacarığı, dərin biliyi, dahiyanə ağlı, qeyri-adi məharəti, dəmir məntiqi, tükənməz sərbəstliyi ilə xalqımızın əsl lideri, himayəçisi və istəklisi idi.

Bu monoqrafiyanın özü də xalımıza, onun böyük oğluna məhəbbət hissi ilə yazılmışdır. O, bizim böyük rəhbərimizə, ulu öndərimizə – XX-XXI əsrin Böyük Azərbaycanlısının özünə böyük məhəbbətlə yazılmışdır.

Heydər Əliyevin söz sənətinə marağı onun ədəbi-tarixi proses konsepsiyasinin yaranmasina səbəb olması, ədəbiyyat tarixinə yeni ədəbi təmayülün yaranmasina münasibəti, sənətkar şəxsiyyəti və yaradıcılıq prosesi haqqında fikirləri hərtərəfli işıqlandırılmışdır. Eləcə də, burada Heydər Əliyevin klassik irs təlimi, Heydər Əliyevin irsində tarixilik və müasirlik, Heydər Əliyev qüdrətinin Füzuli şöhrətinə, Cavidin taleyinə töhfəsi öz əksini tapmış, XX əsr ədəbiyyatı konsepsiyasına, XX əsr ədəbiyyatında tarix və şəxsiyyətin yeri və roluna, Ədəbi əlaqələr nəzəriyyəsinə, xüsusilə, Heydər Əliyevin ədəbi

dil təliminə dair məsələlərə geniş yer verilmişdir

Heydər Əliyevin söz sənətinə verdiyi qiyməti üstün tutan Salatın xanım öz münasibətini belə dilə gətirir: "Dünyada elə şəxsiyyətlər var ki, onların adı ilə təkcə mənsub olduqları xalqın, millətin tarixi taleyi deyil, böyük bir epoxa bağlı olur. Bunlar tarix yaradan böyük şəxsiyyətlərdir. Sovet ideologiyasının, onun fəlsəfəsi olan marksizm-leninizmin belə bir yanlış ideyası hakim idi ki, tarixi kütlələr yaradır. Elə həmin tarix dönə-dönə sübut edir ki, tarixi böyük şəxsiyyətlər yaradır. Böyük şəxsiyyətlər tarixi hərəkətə gətirir, onun simasını formalaşdırır. ... Qarşısında böyük şəxsiyyəti, lideri olmayan xalq başsız kimidir. Biz xoşbəxtik ki, xalqımızın yetişdirdiyi dahi şəxsiyyətlər olub və onlar hərəsi öz zamanının və əlbəttə, həm də sonrakı illərin tarixini yaradıb. Böyük şairlərimiz, musiqiçilərimiz, alimlərimiz, sərkərdələrimiz, xatunlarımız tarixdə məşhurdur. ... Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi, tarix yaradan böyük şəxsiyyətlərin öndəri Heydər Əlirza oğlu Əliyevdir. ... Böyük dövlət xadimi Heydər Ənyev istər kənd təsərrüfatından, istər sənayedən, istər elm və mədəniyyətdən, istərsə də ədəbiyyatdan danışarkən öz ətrafını yüksək professionallığı ilə heyrətdə qoyurdu.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ TƏHSİLİN İNKİŞAFINDA ROLU (1993-2013-cü illər)

***Həsənov V.S.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra həmkarlar ittifaqlarının fəaliyyətində əsaslı dönüş baş verdi. Müstəqilliyin ilk illərində həmkarlar ittifaqlarının fəaliyyətində durğunluq hökm sürsə də sonradan bu təşkilatlar öz işini yeni dövrün tələblərinə uyğun şəkildə qura bildi. Xüsusilə,1993-cü ilin fevralında Azərbaycan həmkarlar ittifaqlarının həyatında əlamətdar hadisə oldu. Həmkarlar İttifaqlarının XIX qurultayında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) yaradıldı. Sahə həmkarlar ittifaqlarına müstəqillik verildi, onların işi konfederativ prinsiplər əsasında quruldu. Bundan sonra həmkarlar ittifaqlarının işində canlanma baş verdi. 1994-cü ildə "Həmkarlar İttifaqları haqqında" Azərbaycan Respubikası qanununun qəbul edilməsi, Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunların qəbul edilməsi həmkarlar ittifaqlarının fəaliyyətinin güclənməsi üçün hüquqi baza yaratmışdır. Bütün sahələrdə olduğu kimi həmkarlar ittifaqları təhsil məsələlərinə də diqqəti artırdılar. Respublikanın xalq təsərüfatı üçün mütəxəssislərin hazırlanması işinin yaxşılaşdırılması, təhsil alan gənclərin həvəsləndirilməsinə, onların yaradıcı və ictimai fəaliyyətə cəlb olunmasına imkan yaradılması məqsədilə Konfederasiya "Respublikanın ali məktəb tələblərinə və orta ixtisas məktəbi şagirdlərinə Azərbaycan Həmkarlar İttifaqları mükafatlarının verilməsi haqqında" qərar qəbul etmişdir. 6 mükafat uğrunda əla qiymətlərlə oxuyan, təşəbbüskar, elmi işdə, tələbə özünü idarəetməsində, müsabiqə və konfranslarda fəal iştirak edən gənclər bu işə qoşuldular. 1994-1997-ci illərdə bu məsələ üzrə 87 namizədin sənədinə baxılmış, qaliblərə AHİK-in diplomu və pul mükafatı təqdim olunmaqla laureat adı verilmişdir. Təhsil işçilərinin Təhsil işçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinə müraciəti əsasən əmək haqqı, məzuniyyətlərin, müavinətlərin, təqaüdlərin düzgün hesablanıb verilməməsi ilə

bağlı olurdu. Təkcə 1997-ci ildə Respublika Komitəsinə 270 müraciət daxil olmuşdur. Onlardan 130 ərizə maddi yardımla, 20 ərizə güzəşt və imtiyazlarla, 33 ərizə əmək haqqı və dərs bölgüsü, 7 ərizə işdən çıxarılma, 10 ərizə əməyin mühafizəsi, 70 ərizə yollayış, uşaq pulu, xəstəlik vərəqəsi ilə əlaqədar olmuşdur. 1996-cı ildə sahə işçilərinə 1589 yollayış ayrılmışdısa, 1997-ci il üçün bu rəqəm 1212 olmuşdur. Sahə Həmkarlar İttifaqları Respublika Komitəsi təhsil işçilərinin əmək haqqı və tələbələrin təqaüdləri məsələsini dəfələrlə öz məclis iclaslarında, plenumlarında müzakirə etmişdir. Təhsil işçilərinin uşaqlarının yay istirahət düşərgələrində istirahəti məsələsi problem olaraq qalır. Bu düşərgələrin çoxu qaçqınlar tərəfindən tutulmuşdur. Buna baxmayaraq, həmkarlar ittifaqları təhsil işçilərinin uşaqlarının Şamaxı və İsmayıllı rayonlarında istirahətlətinin təşkilinə nail olmuşdur.

1996-1997-ci illərdə Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi öz doğma yurdlarını tərk etmiş təhsil işçilərinin əməyin sosial müdafiəsi, müalicəsi, istirahəti və təhlükəsizliyi ilə əlaqədar vacib məsələləri həll etməyə çalışmışdır. Həmkarlar İttifaqı təhsil işçilərinin qanuni hüquqlarının müdafiəsində durur, əmək haqqı, məzuniyyət, müavinət, təqaüd, yardım, yollayış və digər məsələlərlə əlaqədar onlara kömək edir. Respublika Komitəsinin tövsiyyəsi ilə ali məktəblərin rektorları və həmkarlar ittifaqları komitələri arasında bağlanmış müqaviləyə əsasən bütün işçilər əmək haqqına əlavə alırlar. BDU və Azərbaycan Dillər Universitetinin yeməkxanalarında əməkdaşlara yemək 50% güzəştlə verilir.Bakı şəhərində fəaliyyət göstərən ali məktəblərin 45 əlaçı tələbəsinə Respublika Komitəsinin təsis etdiyi təqaüd verilir. Ehtiyacı olan 75 nəfər ali məktəb tələbəsinə sahə komitəsinin vəsaiti hesabına gündəlik isti yeməklər təşkil olunur. Təkcə BDU-da 100 tələbə pulu Həmkarlar İttifaqı Komitəsi tərəfindən ödənilməklə pulsuz yeməklə təmin edilir.

2002-ci ildə Təhsil İşçiləri Həmkarar İttifaqı Respublika Komitəsi 1700 nəfərə sanatoriya və istirahət evlərinə güzəştli yollayış vermişdir. Komitə təkcə 2002-ci ildə 210 nəfərə 11 mln. manatdan artıq yadım göstərmişdir. AHİK-in "Kadr siyasəti" Konsepsiyasının əsasında gənc kadrların hazırlanması məsələsi durur. İcraiyyə Komitəsinin qərarı ilə AHİK-in nəzdində Gənclər Şurası yaradılmış və uğurla fəaliyyət göstərir. Şuranın Əsasnaməsinə uyğun olaraq həmkarlar ittifaqlarının bütün səviyyələrində gənclər şuraları yaradılmışdır. 2012-ci il avqust ayının əvvəlində Bakıda Pan Avropa Regional Şurası ilə AHİK-in birgə təşki etdikləri "Həmkarlar İttifaqları və gənclərin məşğulluğu" mövzusunda beynəlxalq konfransa 10 ölkədən 60 nəfər gənc qatılmışdı. AHİK şagirdlərə və tələbələrə adlı təqaüdlər verir. 2008-2012-ci illərdə 1500-dən artıq gəncə adlı təqaüd verilmişdir. Konfederasiya 50 imkansız tələbənin illik təhsil haqqının bir hissəsini ödəmişdir. 7115 tələbəyə maddi yardım göstərilmişdir. 1795 tələbəyə isə pulsuz yemək veriməsi təşkil olunmuşdur.

**MÜSTƏQİLLİK DÖVRÜNDƏ CƏNUBİ AZƏRBAYCAN MÖVZUSUNUN TƏDQİQİNDƏ YENİ İNKİŞAF MƏRHƏLƏLƏRİ**

***Hüseynova A.H.***
*Sumqayıt Dövlət Universiteti*

XX əsrin sonlarında ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycan bütün sahələrdə, xüsusən, mədəniyyət sferasında özünün yüksək inkişaf mərhələsinə qədəm qoydu. Mədəniyyətin ayrılmaz tərkib hissəsi olan milli ədəbiyyatımız da Ulu Öndər Heydər Əliyevin daimi qayğısı sayəsində dünya standartları səviyyəsinə yüksəlmiş, dünya mədəniyyət xəzinəsinə töhfələr verən mənəvi fenomenə çevrilmişdir. H.Əliyev hələ sovet dövründə vətənin, millətin bütövlüyündə ədəbiyyat amilinin həlledici rolunu göstərərək Cənubi Azərbaycanda gedən ədəbi proseslərə də diqqəti cəlb etmişdir. Bu dövrdə həm keçmiş SSRİ-də, həm də İranda «bölünmüş vətən» ideyasına müraciət etmək qadağan olunmasına baxmayaraq, görkəmli dövlət xadimi H.Əliyev Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaranmasına, Azərbaycan ədəbiyyatının bütövlüyünə özünün əvəzsiz töhfələrini vermişdir.

Müstəqillik dövründə Cənub mövzusunun tədqiqinə diqqət və qayğının artması cənubşünaslıq elmi məktəbinin yaranmasına və onun yüksək inkişaf mərhələsinə qədəm qoymasına səbəb oldu. Problemlə bağlı tədqiqatlarda yeni metodoloci yanaşmalar, yeni baxışlar formalaşdı. Əvvəla, Azərbaycanın XIX əsrdə Rusiya və İran arasında parçalanaraq Şimali Azərbaycanın Rusiyaya «könüllü birləşməsi» işğal faktı kimi dəyərləndirildi. İkincisi, Sovet dövründə Azərbaycan yazıçılarının, mühacirətdə olan Cənubi Azərbaycan söz sənətkarlarının «beynəlmiləlçilik» ideyaları, xüsusilə, düşmən, qaniçən ermənilərlə «qardaşlıq» münasibətləri yeni prizmadan nəzərdən keçirilmiş və dəyərləndirilmişdir. Üçüncüsü, cənub mövzusu ilə bağlı tədqiqatlar Şimali Azərbaycanda gedən ədəbi proseslərlə qarşılıqlı əlaqədə olan vahid ədəbi prosesin tərkib hissəsi olan bir fenomen kimi göstərilmiş, Cənubdakı vətənpərvər ədəbiyyatın demokratik, milli dəyərləri müqayisəli təhlilə cəlb olunmuşdur. Dördüncüsü, müstəqil Azərbaycanda bölünmüş vətən və milli-mənəvi bütövlük ideyası ilə bağlı azəraycançılıq ruhunda aparılan tədqiqatlarda Cənubi Azərbaycan türkcəsinin vahid Azərbaycan dilinin ayrılmaz tərkib hissəsi kimi göstərilməsi İrandakı bu dillə bağlı bütün qeyri-elmi və qərəzli konsepsiyalara ağır zərbə vurmuşdur. Beşincisi, Cənubi Azərbaycanla bağlı dissertasiya, monoqrafiya və elmi məqalələrdə həm mühacirət ədəbiyyatı və həm də oradakı fərqli ədəbi proseslər qarşılıqlı əlaqədə araşdırılır. Cənubda və Şimalda yaranan ədəbiyyatın vahid vətənin, bütöv milli-mənəvi dəyərlər vəhdətinin bədii inikası olduğu diqqətə çatdırılır. Altıncısı, Cənubi Azərbaycandakı ədəbiyyatın ümum Azərbaycan ədəbiyyatını zənginləşdirən özünəməxsus spesifik bir proses kimi orada milli özünüdərkin, vətənçilik ideyalarının tərənnümçüsü olan inkişaf xüsusiyyətləri də şərh olunur.

Yeddincisi, hələ Sovet dövründə əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu cənublu soydaşlarımızın Şimali Azəraycanda təhsil alması, elmi-tədqiqatla məşğul olması, ədəbi-mədəni əlaqələrin qurulması ənənəsi bu gün yüksək səviyyədə davam edir. Səkkizincisi, Şimali və Cənubi Azərbaycanda milli, ədəbi birliyimizə, bütövlüyümüzə xidmət edən

görkəmli şəxsiyyətlərin fəaliyyəti yenidən, daha obyektiv, aşkarlıq və millilik nöqteyi-nəzərindən dəyərləndirilir.

Müstəqillik dövründə Cənubi Azərbaycan mövzusuna diqqət yetirilməsi gələcəkdə bu mövzunun tədqiqatı ilə bağlı daha ciddi addımlar atılmasını tələb edir:

1. Şimali Azərbaycanda gənc nəsillərdə vahid Azərbaycan ideyasını formalaşdırmaq üçün Cənubi Azərbaycan ədəbiyyatının ümummilli ədəbi prosesin tərkib hissəsi kimi orta və ali məktəblərdə tədris edilməlidir.

2. Cənubi Azərbaycanın bütöv Azərbaycanın tərkib şissəsi olduğunu nəzərə alıb «Azərbaycan tarixi», «Azərbaycan ədəbiyyatı tarixi», «Azərbaycan mədəniyyəti tarixi», «Azərbaycan fəlsəfə tarixi» və s. tədqiqatlara Cənubi Azərbaycanın tarixi, ədəbiyyatı, fəlsəfi, ictimai-mədəni prosesi də daxil edilməlidir.

## NƏRİMAN NƏRİMANOVUN SATİRİK BƏDİİ NƏSRİNDƏ MİLLİ MÜSTƏQİLLİK İDEYALARI

***Hüseynova P.A.***
*Mingəçevir Dövlət Universiteti*

Böyük ictimai xadim, həkim, müəllim, yazıçı, dramaturq və publisist Nəriman Nərimanovun fəaliyyəti hərtərəfli olmuşdur. Onun siyasi baxışları müəyyən mənada Azərbaycan Demokratik Respublikasının qurucuları ilə uyğun gəlməsə də, böyük ədibin publisistik və satirik irsində Vətənimizin müstəqilliyi, azadlıq mücadiləsinə çağırış qızıl xətt kimi keçir.

Nəriman Nərimanovun XX əsrin əvvəllərində qələmə alınan ana dilində olan publisistik irsi əsasən "Həyat", "İrşad", "Bürhani-tərəqqi", "Bəsirət", "Yeni iqbal" "Açıq söz" qəzetlərində "Nər", "Arı bəy" təxəllüsləri, "Nəriman", "doktor N.Nərimanov" imzası ilə çap olunmuşdur. Bu məqalələrdə dilimiz, yazımız, mədəniyyətimizin nəzərə çarpan problemləri qabardılır, ana dilində məktəb, milli təfəkkürə istiqamətlənən təlim və tərbiyə, milli birlik kimi məsələlər qoyulur, milli münaqişələrin həllində ziyalıların rolu yer alır, xalqımızın mənafeyinə yönələn digər əhəmiyyətli suallar müzakirə edilir, bununla yanaşı milli həmrəyliyə dəvət və istibdada qarşı mübarizəyə çağırışlar edilirdi.

Nəriman Nərimanovun belə proqram xarakterli nəsr nümunələrindən biri də "1899-cu ildə Bakıda nəşr olunan "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" adlı kitaba yazılmış müqəddimədir ki, bu yazı onun digər publisistik əsərləri ilə də həmahəngdir. Müəllif həmin "Müqəddimədə" dilimizin saflığının qorunması, imlamızın sadələşdirilməsi, ana dilinin müqəddəsliyi kimi məsələləri qoyur və tövsiyələrini verir. Bununla da Nəriman Nərimanov Mirzə Fətəli Axundzadənin davamçısı, Cəlil Məmmədquluzadənin silahdaşı kimi çıxış edir. "Müqəddimə"də müəllif üzünü ərəbcə, farsca yazan mədrəsələrdə müəllimlik edən mollalarımıza tutaraq yazırdı: "O ana ki, sənə o dildə tərbiyə veribdir, sənə o dildə yaxşı-yamandan tanıdıbdır, sənə o dildə layla deyibdir və axırda haman o dildə allahını tanıdıbdır! Heyf! Görəsən, bu barədə fikir edən varmı? Axır sual: hansında qalmalıyıq? Hansı dil bizim ana dilimizdir? Cavab istəyirik".

Nəriman Nərimanov bu yazısında XX əsrin əvvəllərində geniş müzakirələrə səbəb olan, bizi sadəcə "müsəlman" adlandırmaqla etnik kimliyimizi kölgədə qoyanlara dilimizin, xalqımızın mənşəyi və milli kökümüz haqqında da məlumat verir, "özümüzü türk-Azərbaycan tayfasından hesab edirik", - deməklə tutarlı cavab verir.

Nəriman Nərimanovun felyetonlarında da milli məsələ önə çəkilir. Məsələn, "Həyat" qəzetində 1906-cı ilin sentyabrında tarixində dərc olunan ""Həftə fəryadı" adlı yazısında müəllif müsəlmanlar arasında əqidə birliyinin olmamasından şikayətlənir. O, 1905-ci il erməni-müsəlman davası zamanı ümumi təhlükəyə qarşı müvəqqəti birləşən xalqın təhlükənin sovuşduğunu güman edib yenə də köhnə adətlərinə uyğun olaraq boş, mənasız daxili münaqişələri, məzhəb davalarını, qan davasını davam etdirməsinə heyifislənir. Atalar sözü və məsəllərin mənasını özünəməxsus şəkildə izah edən ədib tənqidi fikirlərini satiranın nüfuzedici dili ilə belə ifadə edir: "İki il bundan müqəddəm Bakı müsəlmanlarına adam lazım deyil idi, hər gecə bir-birini öldürürdülər. "Şeytanın", görünür, müsəlmanlara heyfi gəlibdir; müsəlmanları öz erməni qonşuları ilə yağı etdirdi: erməni-müsəlman davası meydana gəldi, müsəlmanlar dedilər: dəxi yetər! İndi adam "adama gərəkdir". Bir-birimizi puç etməyək, gücümüzü bir yerə cəm edib, düşmənin müqabilində durmalıyız.... Bəli, bir neçə vaxt ittihad etdilər, bir-birini öldürmədilər... İndi erməni-müsəlman davası qurtarır!... Boş durmaqdan fayda yoxdur... İndi bizə "adam gərək deyil" ... ölünüz! Öldürünüz! Sonra belə fürsət ələ düşməz, yenə başımız qarışar..." Müəllifin sarkazmı və təlmihi də maraq doğurur. "Şeytan" deməklə o, üstüörtülü şəkildə çar Rusiyasına işarə etmiş olur.

Milli birliyə çağırış Nəriman Nərimanovun publisistikasının əsas istiqamətlərindəndir. O, ilk növbədə milli ziyalıların milli ideya ətrafında birləşməsini arzu edirdi. Müəllifin 1906-cı ilin 21 may tarixində "Həyat" qəzetində dərc olunan "Müsəlman müəllimləri yığıncağı münasibəti ilə bir neçə söz" adlı məqaləsində ermənilərin dini lideri ətrafında birləşərək müəllimlərin qurultayını (syezdini) çağırması məsələsini milli birliyə və mədəni tərəqqiyə nümunə olaraq göstərir. O yazır: "Erməni milləti, xah ruhaniləri, xah camaatı ibtidadan kəndi millətinin xoşbəxtliyini məktəbdə görüb, onun hər cəhətdən tərəqqi tapmağına böyük qeyrət və hümmət göstərirdilər. ...Ana dilini uşaqlar üçün vacib bilib, bu barədə böyük tərəqqi göstərmişdilər. Müəllimlərə artıq hörmət edib, onların hər cəhətindən dərdlərinə əlac edirdilər... İndi cənab Katalikosun fikri ilə meydana gələn ictimai milli məktəblərin daha ziyada tərəqqi tapmağına səbəb olacaqdır".

Nəriman Nərimanovun milli birliyə ilk çağırışını səsləndirdiyi yazılarından biri, bəlkə də birincisi elə yuxarıda haqqında məlumat verdiyimiz "Mühüm bir məsələ" felyetonudur. Müəllif bu məqaləsində obrazlı bənzətmədən istifadə edərək mövcud vəziyyəti doğru dəyərləndirib, fürsəti əldən verməməyə çağırır. O yazırdı: "İndi Rusiyada hamı millətlər dərya misal bir hürriyyət əmvacinə düçar olublar. Üzmək bilənlər həmin mövclərdən xilas olub kənara çıxacaqlar, üzmək bacarmayanlar ləpələrin arasında qalacaq, əlləri hər yerdən üzülüb "dərya heyvanlarına" yem olacaqlar... Mövc və girdabdan xilas olmaq, nəhənglər, timsahlar tərəfindən udulmamaq üçün mətin bir səfinə bir gəmi lazımdır ki, o gəmi də camaatın özündən ibarətdir". Göründüyü kimi, məqalə müəllifi burada "dərya heyvanları", "nəhənglər, timsahlar" deməklə hegemon dünya dövlətlərini, imperialist ölkələri nəzərdə

tuturdu. Xalqı birliyə dəvət edib onun öz dili ilə desək, "sahili-nicata çıxaracaq çarə"ni tapmağa çağırırdı.

Nəriman Nərimanov milli müstəqillik idealına addımlayan yolda üç mühüm addımın "milli dil, milli məktəb, milli mətbuat" olduğunu qeyd etmişdi. O məhz bu yolla milli ideal uğrunda mübarizəyə hazır olan ziyalının yetişə biləcəyini göstərirdi. Yuxarıda son adı gedən məqalədə müəllif yazırdı: "Belə olan surətdə çalışmalıyıq ki, vəkillərimiz millətin dərdlərini bilən olsunlar və haman dərdlərə çarə nərdən olmağını düşünsünlər..."

Bu məqalələr və onlarda səslənən arzu və ideallar Nəriman Nərimanovun xalqı uğrunda mübarizə aparan, dilini və vətənini sevən bir ziyalı olduğunu, bir ideoloq kimi ilk növbədə milli birliyə, xalq kütlələri arasında əqidə birliyinə çalışdığını göstərməkdədir. Həmin yazılar onu təkcə bir ictimai-siyasi xadim kimi yox, eyni zamanda mətbuatı, bədii publisistikanı, ciddi fikirlərin satirik ifadə tərzini özünə bir ideoloji silah seçən istedadlı yazar, mühərrir kimi də xarakterizə edir.

## AZƏRBAYCANDA ALİ TƏHSİLİN AVROPA STANDARTLARINA UYĞUNLAŞDIRILMASI VƏ İNKİŞAFI ÇƏRÇİVƏSİNDƏ TEMPUS PROQRAMININ ƏHƏMİYYƏTİ

***İsmayılov Ş.M.***
*Sumqayıt Dövlət Universiteti*

Tempus proqramı Avropa İttifaqının maliyyə dəstəyi ilə 1995-ci ildən fəaliyyət göstərir. Tempus universitetlər üçün Avropa Mobillik proqramıdır.

Azərbaycanda bir neçə ali məktəb, o cümlədən Sumqayıt Dövlət Universiteti tempus proqramında iştirak edir. Avropa İttifaqının yaratdığı bu proqramın məqsədi Avropa və Asiya qitəsində yerləşən ölkələrlə (27 ölkə) təhsilin yeniləşdirilməsi, Avropa universitetləri ilə əməkdaşlıq, təcrübə mübadiləsi və s. məsələləri həyata keçirmişdir. Ali təhsilin dünya standartları səviyyəsinə qaldırılması əsas hədəf kimi seçilmişdir.

Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı ilə ali təhsil sahəsində əməkdaşlığı tempus proqramı çərçivəsində həyata keçirilmişdir. Onu da qeyd edək ki, tempus əməkdaşlıq proqramı əsasən MDB (keçmiş sovet respublikaları) ölkələrini əhatə edir. Ali təhsilin təkmilləşdirilməsi, maliyyələşdirilməsi, Avropa təhsil məkanına inteqrasiya, proqramın qarşısına qoyduğu əsas vəzifələrindən biridir.

Tempus proqramı Belçikanın paytaxtı Brüsseldə yerləşən Avropa Komissiyasının Təhsil və Mədəniyyət üzrə Baş Direktorluğu tərəfindən idarə olunur və Avropa Təhsil Fondu tərəfindən texniki yardım göstərilir.

Tərəfdaş ölkələrdə, o cümlədən Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri, təqdim olunan layihələrin həyata keçirilməsində mövqeli tərəf kimi iştirak edir və proqram çərçivəsində birgə layihələr işlənib hazırlanır.

Ümumiyyətlə, tempus proqramı ali təhsil müəssisələrində tədrisin yenidən qurulmasına kömək etməklə, universitetlərə mühəndislik fakültəsini yenidən qurmaq, yaxud universitetin idarə olunması və akademik planlaşdırma üçün müasir texniki vasitələr təqdim etmişdir. Ali

məktəblərdə kredit sisteminin tətbiqində, yaxud universitet–istehsalat əməkdaşlığı strategiyasının hazırlanmasında yardım göstərmişdir. Ayrı-ayrı ali təhsil müəssisələrini xüsusi ixtisaslar üzrə kadr hazırlığında birgə işləməyə həvəsləndirmişdir. Məsələn: qaz və neft mühəndisliyi texnologiyası şəbəkəsinin yaradılmasına kömək göstərmişdir. Ali təhsil müəssisələrinə sosial, iqtisadi və qeyri-akademik fəaliyyət sahələrində yardım göstərməklə təlimlər təşkil etmişdir. Tempus layihələri məqsədlərinə çatmaq üçün zəruri olan maddi köməyi təmin edə bilmişdir. Məsələn, akademik jurnallara abunə yazılışına, kompüter və tədris materiallarının alınması da daxil olmaqla, kitabxanaların yenidən qurulmasına yardım göstərmişdir.

Tempus proqramının hər bir tərəfdaş ölkə üçün müəyyən etdiyi prioritet istiqamətlər bir-birindən fərqlənir. Azərbaycan üçün müəyyən olunan prioritetlər proqramının hər dəfə yeni mərhələsi başlandıqda ali məktəblərin təklifləri əsasında Təhsil Nazirliyi tərəfindən Avropa Komissiyasının Tempus Departamentinə təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tempusun Azərbaycandakı milli ofisi ilə yaxından əməkdaşlıq etmişdir. Hər il payızda yeni tempus layihələrinin təqdimat mərasimi keçirilmişdir. Bakıda və regionlarda yerləşən ali məktəblərin beynəlxalq əlaqələr üzrə qurumlarının rəhbərlərinin, eləcə də bu sahə ilə maraqlanan professor və müəllimlərin iştirak etdikləri bu tədbirlər maarifləndirmə məqsədi daşımışdır. Bu təqdimatlarda hər növbəti ildə Azərbaycan üçün müəyyən olunmuş prioritetlər, layihələrin hazırlanma qaydaları və s. məsələlər müzakirə olunmuşdur.

Göründüyü kimi, tempus layihələri ali təhsildə, demək olar ki, bütün sahələri əhatə etməklə bu proqramdan bəhrələnmək üçün həlledici rol oynamışdır.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAF AMİLLƏRİ

***Qasımova N.Z.***

*Sumqayıt Dövlət Universiteti*

Müstəqillik dövründə mədəniyyətimizin və incəsənətimizin səviyyəsi çox rəngarəng olmuşdur. Sözsüz ki, hər bir xalqın mədəni inkişafının xüsusi olaraq seçilən, fərqlənən dövrləri olmuşdur. Azərbaycan mədəniyyəti də özünəməxsus fərqləndirici tarixi dövrlər yaşamışdır. Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanan Azərbaycan dövlətinin mədəniyyət siyasəti ölkəmizin tarixində əsaslı yer tutur. Müstəqillik dövründə mədəni inkişafın başlanğıcı məhz ulu öndər Heydər Əliyevin siyasətinin əsas göstəricisidir. Bu baxımdan müstəqillik dövründə Azərbaycan mədəniyyətinin inkişafına nəzər salmaq maraqlıdır. Təbii ki, dövrün ictimai-siyasi hadisələrindəki dəyişikliklər özünü mədəniyyətin inkişaf axarında göstərdi. Bu dövr (1991-2016) milli mədəniyyətimizin formalaşması dövrü kimi tarix səhifəsində yer aldı. Xüsusi ilə müstəqillik dövründə həm maddi, həm də qeyri-maddi mədəni irsin dünyaya təqdim olunmasında böyük hadisələr baş verdiyinin şahidiyik. Şərq və Qərb mədəniyyətinin bir araya gətirildiyi Azərbaycanın hümanitar sahədəki təcrübəsi dünya xalqlarının marağına səbəb olub. Son 20 ildə Azərbaycanda, xüsusən,

paytaxt Bakıda, eləcə də bir çox şəhərlərmizdə, məsələn, Şəkidə, Gəncədə, Qəbələdə keçirilən beynəlxalq tədbirlərin sırasına nəzər salsaq, bu şəhərlərdə yüzlərlə toplantının adını çəkə bilərik. Təkcə 2000-ci ildə "Kitabi Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi böyük hadisə idi. 1998 ci ildən Bakıda keçirilən Hümanitar Əməkdaşlıq Forumları artıq bir ənənə halını almışdır. 2009-cu ildən başlyaraq Heydər Əliyev fondu Qəbələ şəhərində hər il Beynəlxalq musiqi festivalında dünyanın 20 dən çox ölkəsindən ABŞ, Fransadan, İsraildən, Mekskadan, Polşadan, Rusiyadan, Türkiyədən, Orta Asiya ölkələrindən tanınmış musiqiçilər iştirak edirlər. Azərbaycanda müxtəlif beynəlxalq musiqi müsabiqələrinin keçirilməsi, Beynəlxalq Muğam Mərkəzinin yaradılması, Avrovizion Mahnı Müsabiqəsindəki qalibiyyət Azərbaycanda mədəniyyətin sürətli inkişafının və ona dövlət qayğısının əsas göstəricilərindəndir. Təsadüfi deyil ki, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın mədəniyyət sahəsindəki xidmətləri danılmazdır. Belə ki, Qobustandakı qayaüstü rəsmlərin, "İçərişəhər"qoruğunun dünyanın mədəniyyət mərkəzlərində tanınmasına nail olmuşdur. Gənclərin formalaşmasında da milli mədəniyyətin, milli incəsənətin, milli təhsilin də əhəmiyyəti danılmazdır.

2016-cı il Azərbaycanda multikulturalizm ili elan edilmişdir. Bu da onu göstərir ki, Azərbaycan multimədəni dövlət olaraq, dünya müstəvisində artıq öz sözünü deyə bilən bir ölkədir. Tarixən ölkəmiz unikal, çoxmillətli cəmiyyət olduğu üçün bu mədəniyyət siyasətinin prioritet istiqamətlərindəndir.

## AFAQ MƏSUDUN MÜSTƏQİLLİK DÖVRÜ YARADICILIĞININ SPESİFİKASI

***Qaragözova E.E.***

*AMEA, Nizami adına Ədəbiyyat İnstitutu*

Afaq Məsud Azərbaycan ədəbiyyatında özünəməxsusluğu ilə seçilən qadın yazarlarımızdandır. Onun yaradıcılığı oxucunu sadə, aydın və eyni zamanda fəlsəfi təhkiyəsi ilə cəlb edir. Afaq Məsud dedikdə gözlərimiz önündə maraqlı, emosional, daxili aləmini səmimiyyətlə, komplekssiz şəkildə oxucuya açan və oxucunun özünə belə etiraf etməyə çəkindiyi duyğuları, yaşantıları cəsarətlə söyləyən obrazlar canlanır.

Afaq Məsudun müstəqillik dövrü yaradıcılığı əvvəlki dönəmdən bir qədər fərqlənir. Daha öncəki yaradıcılığında yazıçı fəlsəfi notları sadə insanların, gündəlik həyatın təsviri ilə çox incə şəkildə, ustalıqla birləşdirirdi və bu sintezi oxucu çox təbii qarşılayırdı, sevirdi. Afaq Məsudun son dövr yaradıcılığına nəzər saldıqda aydın olur ki, yazıçı artıq gündəlik həyat lövhələrini təfərrüatlı təsvirindən bir qədər uzaqlaşıb daha çox fəlsəfi notlar üzərində köklənib. Lakin Afaq Məsudun özünəməxsusluğu ondadır ki, əsərlərində fəlsəfi məqamlar artdıqca forma mürəkkəbliyi yarandıqca səmimilik azalmır, əksinə, artır və bu da həmin əsərləri oxucuya sevdirir. Bu baxımdan onun "İzdiham" romanı olduqca maraqlı və qeyri-ordinar bir əsərdir. Tədqiqatçılar haqlı olaraq bu əsəri Azərbaycan ədəbiyyatının ən qeyri-adi nümunələrindən biri hesab edirlər.

Afaq Məsudun yaradıcılığında hekayə janrı mühüm yer tutur. Ədəbi yaradıcılığa hekayə janrı ilə qədəm basan nasirin bədii irsində bu janr özünəməxsusluğu ilə seçilir. Belə ki, Afaq Məsudun hekayələri Azərbaycan bədii nəsrinə tam fərqli bir ab-hava gətirdi. Afaq Məsudun müstəqillik dövrü yaradıcılığında da hekayə janrı mühüm yer tutur. Yazıçının bu dövr hekayələrində psixologizm güclü olmaqla yanaşı, fəlsəfi notlar da üstünlük təşkil edir.“Almankilsəsi” hekayəsində pianoya, klassik musiqiyə böyük marağı olan bir qızın və onun anasının yaşantıları qələmə alınıb. əsərin qəhrəmanı Rəna Alman kilsəsindəki konsertdən sonra tamamilə dəyişir. “Aysun” hekayəsində də müəllif bir yazıçının müahidəsi ilə kübar cəmiyyətin kiçik bir zərrəsi olan bir ailənin fonunda insan talelərinə işıq salır. Vəzifə sahibi olan, imkanlı, ömrü boyu min-bir əziyyətlə çalışıb həyatda uğur qazanan bir insanın gizlin faciəsini Afaq Məsud olduqca canlı və eyni zamanda soyuqqanlı bir şəkildə oxucuya danışır.

Yazıçı qəhrəmanın daxilindəki boşluğu, ağrını açmaq üçün maraqlı bir priyomdan istifadə edir, qəhrəmanı və onun əhatəsindəki insanları bir qonaqlıqda təsvir edir.

Afaq Məsudun yaradıcılığında mühüm yerlərdən birini “Yasaq yuxular” romanı tutur. Bu roman oxuculara digər bir adla “Azadlıq” adı ilə də tanışdır. Ümumiyyətlə, roman Azərbaycan ədəbiyyatında yuxu arxetipinin yaradıldığı dəyərli nümunələrdən biri kimi diqqəti cəlb edir.

## ARXEOLOGİYA ELMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA XİDMƏTLƏRİ

***Qocayev S.M.***
*Sumqayıt Dövlət Universiteti*

Zəngin tarixi keçmişi olan Azərbaycanın arxeoloji cəhətdən tədqiqinə çox gec-XIX əsrin II yarısından başlanılsa da ,bu istiqamətdə XX əsrin əvvələrinə qədər elə bir ciddi addım atılmamışdır. Tarixi-arxeoloji ədəbiyyatlara istinad etməklə deyə bilərik ki, akedemik Meşşaninovun “yeraltı muzey” adlandırdığı Azərbaycanın arxeolji cəhətdən hərtərəfli araşdırılması işi öz başlanğıcını XX əsrin II yarısından götürür. Çünki XX əsrin I yarısına qədər müəyyən obyektiv və subyektiv səbəblərlə bağlı respublikada kompleks arxeoloji tədqiqatlar aparılmamışdır. XX əsrin 50-60-cı illərindən isə Azərbaycan üzrə böyük arxeoloji mədəniyyətlərin kompleks şəkildə öyrənilməsinə müəyyən diqqətin ayrılırdığını görə bilrirk. Lakin ölkə ərazisinin tarixi-arxeoloji aspektdən fundamental şəkildə tədqiqinə Azıx, Qobustan, Aveydağ, Daşsalahlı, II Kültəpə kimi dünya şöhrətli arxeoloji obyektlərin aşkara çıxarılıb öyrənilməsinə ümummilli lider Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə başlanıldığı heç kimə sirr deyildir. Maraqlıdır ki, 1982-ci ildə Ulu öndərin Moskvaya məsul vəzifəyə aparılmasından sonra arxeoloji tədqiqat işləri durğunluq dövrünə qədəm qoyur. Dünya şöhrətli siyasətçinin 1993-cü ildən etibarən ikinci dəfə öz xalqının istəyi ilə müstəqil Azərbaycan dövlətinə rəhbərlik etməyə başlamasından sonra bütün sahələrdə olduğu kimi, arxeologiya elmində də yenidən canlanma baş verir. Dövlət başçısının bu sahəyə xüsusi diqqət ayırması, dünya üzrə nüfuzlu

arxeoloqların respublikaya dəvət olunmasına şəxsən nəzarət etməsi, müxtəlif qrant layihələrini arxeoloji qazıntı işlərinin genişləndirilməsinə yönəltməsi, dövlət büdcəsindən arxeologiyanın inkişafına böyük miqdarda vəsait ayrılması haqqında göstəriş verməsi tezliklə öz uğurlu bəhrəsin verir. 1993-1995-ci ildən başlayaraq Prezident H.Əliyevin Azərbaycan arxeologiya elminin inkişafına xüsusi diqqət ayırması və bu gün də ölkə başçısı İlham Əliyevin bu sahəyə dövlət səviyyəsində qayğını davam etdirməsi arxeolji tədqiqat işlərinin genişləndirilməsinə, yeni-yeni bölgələrin tədqiqata cəlb edilməsinə stimul yartmışdır. Dövlət qayğısı ilə tarixi-arxeoloji aspektdən kompleks tədqiqinə başlanılan bölgələrdən biri kimi Balakən zonasının da adını qeyd edə bilərik.

• Azərbaycan Respublikasının şimal-qərbində yerləşən Balakən zonası tarixi-arxeoloji cəhətdən bu vaxta qədər kompleks şəkildə tədqiq olunmaması ilə diqqəti cəlb edir. Düzdür ayrı-ayrı tarixçi alimlər; mənbəşünas, etnoqraf , numizmat, antropoloq və arxeoloqlar , eləcə də bölgəni öyrənən memarlar tərəfindən ərazidə aşkara çıxarılmış hansısa abidə haqqında müəyyən məlumatlar verilmişdir. Lakin mövzunun əhatə etdiyi IV-XIII əsrlər xronoloji cərçivəsində bölgədə geniş şəkildə tədqiqat aparılmamışdır.

• Balakən zonasının topniomiyasını öyrənmək də vacib şərtlərdəndir. Balakən sözünün etimologiyasını qədim türk dili ilə bağlayıb sakların yaşadığı çöl kimi izah etsək heç də yanılmarıq. Bu amili əsas götürüb bölgəni qədim zamanlardan - e.ə. VIII-VII əsrlərdən əzəli türk tayfaları sırasına daxil edilmiş sakların kompakt halında yaşadığı yer kimi də tədqiqata cəlb edə bilərik. Bölgədə yerləşən həmdövr abidələrdən əldə olunmuş maddı-mədəniyyət nümunələri arasındakı varislik ənənəsi də fikrimizə dayaq dura bilər. Balakəndəki Qullar, Gərəkli, Tuli, Qazma, Hunbol, Qarcabinə, Çökəkbinə, Şanbülbinə, Arlıqbinə, Aclıqbinə, Poştbinə kimi toponimlər də bu ərazinin əzəldən türk yurdu olmasına dəlalət edir. Bu gün bölgədə yaşayan əhaliyə gəldikdə isə burada avar etnosunun çoxluq təşkil etməsi məlumdur. Lakin avarların da tarixi köklərinə, təsərrüfat həyatlarına, maddi və mənəvi mədəniyyətlərinə nəzər saldıqda yaşayış tərzlərində türkçülük elementlərinin üstünlük təşkil etməsini izləyə bilərik. Avarların və digər türk etnoslarının bir araya gəlməsi nəticəsində yaradılmış və VI-VII əsrlərdə yüksəliş dövrü keçirmiş Avar türk imperatorluğunun Şərqi Romanı, Frank dövlətini daim basqı altında saxlaması faktı dünya tarixindən bizə məlumdur. Bu gün Balakən zonasında məskunlaşan və çoxluq təşkil edən digər etnos muğallar sayılır ki, onların da türk mənşəli olması hamıya bəllidir.

• Balakən zonasında IV-XIII əsrlərə aid yaşayış yerlərinin, qəbir abidələrinin, müdafiə qurğularının tədqiqi, və onların təsnifatının aparılması tədqiqat işinin qarşısında duran ən vacib məsələrdən biri sayıla bilər. Buradan aşkar olunmuş orta əsr yaşayış yerlərini əsasən kənd və şəhər tipli yaşayış məskənləri kimi qruplaşdıra bilərik. Qəbir abidələrinə gəldikdə isə onları dünyəvi dinlərə qədərki dini inanclarla bağlı qəbirlər, xristian və islam dövrü qəbirləri kimi iki qrupa ayıra bilərik. Zonada tədqiqat işinin əhatə etdiyi çərçivədə yaşayış yerlərinin və qəbir abidələrini öyrənilməsi yerli əhalinin orta əsr yaşayış tərzinə, təsərrüfat həyatına, maddi və mənəvi mədəniyyətinə, mədəni-iqtisadi əlaqələrinə, dini inamlarına və adət-ənənələrinə aydınlıq gətirməyə xidmət edir.

• Balakən zonası tarixən Azərbaycanın şimal-qərbində yerləşməklə düşmən hücumlarından müdafiə ilə bağlı strateji əhəmiyyət kəsb etmişdir. Başqa sözlə desək

Balakən Azərbaycanı şimal-qərb istiqamətidə düşmən hücumlarından müdafiə edən mühüm strateji məntəqə rolunu oynamışdır. Bunu Balakən zonasında IV-XIII əsrlərdə bir sıra müdafiə qalalarının, istehkamların, müdafiə sədlərinin ucaldılamsı faktı da təsdiqləyir. Bu vaxta qədər Balakəndə bir neçə müdafiə qurğusu qeydə alınmışdır. Bunlardan biri Katex kəndində qeydə alınmış böyük Qafqaz səddinin xarabalığı sayıla bilər. Marqlıdır ki. İlk orta əsr fars mənbələrində bu sədd "Qala sur" adlandırılmışdır . Sovet tarixi ədəbiyyatlarında isə bu müdafiə qurğusu "Zaqatala səddi" kimi göstərilmişdir. Halbuki xarablığı indiki Balakən rayonunun Katex kəndində yerləşir. Tarixi-arxeoloji cəhətdən və eləcə də memarlıq üslubunun təyini ilə bağlı haqqında bəhs etdiyimiz səddin ciddi şəkildə şəkildə tədqiqinə ehtiyac duyulmaqdadır. Bundan əlavə, zonaya aid Gərəkli kəndində yerləşən "Pəri qala"abidəsinin öyrənilməsi tədqiqatın qarşısında duran əsas vəzifələrdəndir. Qeyd edək Azərbaycan ərazisində "Pəri qala" adlı bir neçə müdafiə qurğusu qeydə alınsa da, onlardan ən əzəmətlisi Gərəkli kədindəki dağın zirvəsində qərar tutmuş eyni adlı müdafiə qalası sayılır. Beretbinə, və Poştbinə qalaları da Balakən zonsında qeydə alınmışdır.

• Tədqiqata cəlb olunan bölgənin dini inanclar baxımından öyrənilməsi də qarşıya qoyulan məqsədlər sırasına daxildir. Balakən zonasının abidələr kompleksində xristian dövrünə aid məbəd tiklilərinin də özünəməxsus yeri vardır. Əgər nəzərə alsaq ki, üzdəniraq qonşularımız ermənilər xristian dininin yayılmasını, Cənubi Qafqazda təbliğini, və Azərbaycanda ilk orta əsrlər dövründə ucaldılmış xristian məbədlərini müxtəlif saxtakarlıqlar yolu ilə öz adlarına çıxırlar, onda bu alban xristian abidələrinin tarixi-arxeoloji cəhətdən tədqiqinə nə qədər böyük ehtiyac duyulduğunu vurğulaya bilərik. Öyrənilən zonada yerləşən Katex xiristian məbədinin də tədqiqinə ciddi ehtiyac vardır. Əlbəttə, yaddan çıxarmaq olmaz ki, Balakən əhalisinin ən qədim inancları təbiət qüvvələrinə, səma cisimlərinə, daşa, eləcə də ağaca inamla bağlı olmuşdur. Balakəninin Tuli kəndi ərazisindən tapılan məbəd qalığı Ay allahına sitayişlə bağlanır. Balakən camatının bu gün də daş və ağacı müqəddəs sayıb onlara tapınması həm arxeoloji. həm də etnoqrafik cəhətdən maraq doğurmaya bilməz. Balakən zonasında İslam dini abidələri də az deyil. Balakənin islam dini abidələri sırasına rayon mərkəzində yerləşən Minarəli məscidin, Katex məscidinin, Qaracalı və İtitala məscidlərinin adlarını daxil edə bilərik. Rayonun mərkəzindəki minarəli məscid Azərbaycanda İslam dövrü memarlığının ən unikal abiləri sırasına daxil edilmişdir.

Beləliklə, Balakən zonasının bu vaxta qədər kompleks formada tədqiqata cəlb olumadığını əsas götürüb ərazinin tarixi-arxeoloji aspektdən öyrənilməsini vacib hesab edirik. Bölgəni tarixi-arxeoloji cəhətdən kompleks şəkildə öyrənməklə, həm üzdəniraq qonşularımızın dünyanı çaşdıran saxtakar əməllərindən birinə tutarlı cavab vermiş olarıq , həm də Azərbaycan tarixinin qaranlıq səhifələrindən birinə də aydınlıq gətirə bilərik.

# TƏLƏBƏLƏRİN BİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN ÇOXBALLI SİSTEMİN TƏTBİQİ

***Mahmudova G.H.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin təhsil sisteminin Avropa və dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiya prosesi başlandı və bu, təhsil sistemimizə yeni, daha mütərəqqi elementlərin gətirilməsi zəruriliyini yaratdı. Təhsildə belə yeniliklərdən biri də qiymətləndirmənin 100 ballıq sisteminin tətbiq olunmağa başlaması oldu.

Əsasnamədə deyilir ki, çoxballı sistem tələbələrin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsinin mövcud sistemini təkmilləşdirmək, onun səmərəliliyini artırmaq məqsədi daşıyır və hər bir tələbəyə fərdi yanaşmanı təmin etməklə tədris prosesinin aşağıda göstərilən əsas sahələrini əhatə edir:

- mühazirə, seminar (məşğələ), laboratoriya dərslərində və s. iştirakı;
- laboratoriya və seminarların (məşğələlərin) nəticələrinə görə bilik səviyyəsinin qiymətləndirilməsi;
- əsas və əlavə ədəbiyyatlarla müstəqil işi;
- tədris üçün zəruri olan mətnlərin tərtibi, yoxlama işlərinin və sərbəst tapşırıqların icrası;
- kurs layihələrinin (işlərinin) və referatların yazılması və onların müdafiəsi.

Tələbənin bir semestr (tədris ili) ərzində hər hansı fənn üzrə toplaya biləcəyi maksimum balın miqdarı 100-ə bərabərdir. Bunun yarısı semestr (tədris ili) ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə görə toplanır. Balların ümumi miqdarı aşağıdakılara görə müəyyənləşir:

- 50 bala qədər imtahanın nəticəsinə;
- 20 bala qədər seminar (məşğələ) və laboratoriya dərslərinə davamiyyətə və mətnlərin tərtibinə;
- 10 bala qədər - kurs işlərinin (layihələrinin) yazılması və müdafiəsi.

Konkret fənn üzrə semestr (il) ərzində toplanmış balın miqdarına görə tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir:

- 50 baldan aşağı (50-də daxil olmaqla), - "qeyri kafi", 51-70 bal – "kafi", 71-90 bal – "yaxşı", 91-100 bal – "əla".

Əsasnamə təsdiq edildikdən sonra Təhsil Nazirliyi 1999-2000-ci illərdə bir neçə dövlət ali məktəbində bu sistemin tətbiq olunmasına başladı.

1999-cu il sentyabr ayının 1-dən "Eksperimental ali baza təhsil proqramları" və "Tələbələrin biliyinin qiymətləndirilməsində çoxballı sistem haqqında müvəqqəti Əsasnamə" eksperiment 10 ali məktəbdə 10 istiqamət (ixtisas) - M.Ə.Rəsulzadə adına BDU-da Biologiya, N.Tusi adına ADPU-da Tarix, ADNA-da Elektron texnikası, BƏKİ-də Əmtəəşünaslıq, ATU-da Elektron texnikası, Radiotexnika, AİMU-də Memarlıq, NDU-də İnzibati idarəetmə, ADDU-də Dilşünaslıq istiqamətləri üzrə tətbiq olunmağa başlanmış, eksperimentə 850 nəfər tələbə cəlb olunmuşdu.

Sonrakı illərdə eksperimentin tətbiq dairəsi genişləndirildi, eksperiment aparılan ali məktəblərin sayı 16-ya, istiqamətlərin sayı 40-a, ixtisasların sayı 80-ə çatdırıldı. Eksperimentə cəlb olunmuş tələbələrin sayı 30 mindən çox idi .

Çoxballı sistem tələbələrin biliyinin qiymətləndirilməsində tətbiq olunan mövcud sistemdən aşağıdakı üstünlüklərə malikdir:

1. Tələbələrin fəaliyyətinin ritmliyinin və yarışma meyllərinin artırılması;

2. Təlimin fərdiləşdirilməsinin təmin edilməsi;

3. Semestr ərzində tədris materiallarının sistemli və dərindən mənimsənilməsinin təmin olunması;

4. Biliyin qiymətləndirilməsində obyektivliyin təmin olunması;

5. Tələbələrin semestr boyu fəaliyyətinə və biliyinin qiymətləndirilməsi haqqında dolğun məlumat əldə olunmasına imkan yaradılması və s.

Təhsil Nazirliyi bu sistemin təkmilləşdirilməsi və ali məktəblərdə onun daha geniş müstəvidə tətbiq olunması istiqamətində mühüm işlər gördü. Məhz bu məqsədlə Təhsil Nazirinin 15 may 2003-cü il, 420 saylı əmri ilə tələbələrin biliyinin qiymətləndirilməsinin 100 ballıq sistemi haqqında əsasnamə xeyli dəyişikliklərlə yeni redaksiyada təsdiq edildi. Bundan sonra 100 ballıq qiymətləndirmənin tətbiq dairəsi xeyli genişləndi.

## HEYDƏR ƏLİYEVİN SUMQAYIT ŞƏHƏRİNDƏ ALİ TƏHSİLİN İNKİŞAFINA QAYĞISI (1969-2000-ci illər)

***Məmmədov R.S.***
*Sumqayıt Dövlət Universiteti*

*"Biz addım-addım irəliləyərək,*
*dünya ilə əməkdaşlıq binasını ucaldırıq".*
*Heydər Əliyev*

Əməkdaşlıq binası... Bina... İstənilən bina yalnız o zaman möhkəm və möhtəşəm, zəlzələ və qasırğalara davamlı və uzun ömürlü olur ki, onun bünövrəsi, özülü hərtərəfli ölçülüb-biçilmiş, hesablanmış olsun, keyfiyyətli və saf, hər cür korroziyaya davamlı materialdan qurulmuş olsun. Bu, bir aksiomdur.

Dövləti onun ərazisində xalqların yaşadığı möhtəşəm bir binaya bənzətmək olar. Elə bir binaya ki, dahi Azərbaycan alimi Nəsirəddin Tusinin təbirincə desək, bu bina ancaq ədalət əsasında qurulduqda uzun müddət yaşaya bilər. Alim ədalətin birinci şərtini isə onda görürdü ki, xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaradılsın. O hələ 700 il bundan əvvəl "Əxlaqi-nasiri" adlı əsərində yazırdı ki, insan sağlamlığı dörd ünsür arasındakı tənasüblükdə olduğu kimi, cəmiyyət arasında uyğunluq da dörd sinifin (*qələm əhli, qılınc əhli, müamilə əhli* və *ziraət əhli*) qarşılıqlı fəaliyyətində olar. Bu dörd sinifin nümayəndələri birgə, əlbir, ahəngdar fəaliyyət göstərdikdə mədəniyyət, ədalət və səadət sistemi əmələ gəlir.

Nəsirəddin Tusi bu "dörd sinif, ictimai təbəqələr arasında birinci yerdə ilk növbədə məhz *qələm əhlini*, yəni alimləri və maarifçiləri görürdü. Böyük filosofun *qələm əhlinə* belə

yüksək qiymət verməsini təsadüf hesab etmək, əlbəttə, səhv olardı. Çünki *qələm əhli* - alim *fikir, ideya* irəli sürür, onu formalaşdırır; maarifçi, ilk növbədə təhsil işçiləri isə *fikiri, ideyanı* əhali arasında yayır, gənc nəsillərin təhsili və tərbiyəsi ilə, onların həyata hazırlanması ilə bilavasitə məşğul olur. Çünki dövlətin və millətin gələcəyi ağıldan, zəkadan asılıdır. Ölkənin potensial gücü, onun dəyərli sərvəti insan ağlıdır. Təbii ehtiyatlar, coğrafi mövqe isə yalnız köməkçi amillərdir və əslində nəinki özü-özlüyündə hələ var-dövlət, xoş güzəran demək deyildir, işıqlı sabahlar üçün yetərincə zəmanət vermir, əksinə, millətin ağlı, zəkası zamanın nəbzinə uyğun gəlmirsə təbii sərvətləri onun bəlasına çevrilir, acı iztirablarına səbəb olur.

Elmi-siyasi ədəbiyyatda rast gəlinən belə bir fikirlə razılaşmamaq mümkün deyildir ki, dünya ölkələri ilə ictimai həyatın bütün sahələrində geniş inteqrasiyaya getdiyimiz bir dövrdə inkişafımız üçün xarici köməyin mümkünlüyü və imkanları barədə kor-koranə illüziyalardan imtina edilməlidir. Unudulmamalıdır ki, nə Yaponiyadakı indiki zənginliyi “Makartur islahatları", nə də Almaniyadakı xoş güzəranı “Marşall planı” vermişdir. Heç şübhəsiz, Yaponiyanı yaponlar yaratmış, Almaniyanı isə almanlar dirçəltmişlər.

Deməli, Azərbaycanı da yalnız azərbaycanlılar, Azərbaycan xalqı dirçəltməlidir. Xalqın özünü *yaradan*, onu formalaşdıran amillərdən birincisi isə, əlbəttə ki, *qələm əhli* sayılmalıdır. Axı dahi Nizami əbəs yerə deməmişdir:

Qüvvət elmdədir, basqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!

Müsəlmanların müqəddəs kitabında yazılmış bir müdrik kəlamı da yada sal- maq yerinə düşər. Orada deyilir: *Alim öldü - aləm öldü*. Yeri gəlmişkən, dilimizdə geniş işlənən ərəb mənşəli *elm, alim, məlum, məlumat, müəllim, təlim, təlimat, aləm* və sairə bu kimi sözlərin eyni bir kökdən (lm) olduğunu oxucunun diqqətinə çatdıraq və bu faktın özünün də təsadüfi olmağını qeyd edək.

Beləliklə, aləmi yaşatmaq üçün onun alimini, elmini və biliyini, təhsilini yaşatmaq lazımdır.

Məlumdur ki, hər hansı bir ölkənin bir ictimai-siyasi quruluşdan yeni, həm də dəqiq məlum olmayan (ələlxusus başlanğıcda) bir quruluşa keçməsi prosesində ən çox zərər çəkən sahələrdən biri də təhsil sistemi olur. Təhsil sistemində meydana çıxan çətinlikləri yalnız bütün içtimaiyyətin və dövlətin gücü ilə aradan qaldırmaq mümkündür. Bu da, artıq, bir aksiomdur.

Dünya sosializm sistemi adlanan, əslində isə amiranə-inzibatçılıq ictimai-siyasi sistemin və onun onurğa sütununu təşkil edən Sovetlər İttifaqının süqutu nəticəsində müstəqillik əldə etmiş bütün respublikalarda müşahidə edildiyi kimi, Azərbaycan Respublikasında da ictimai həyatın bütün sahələri böhranlara məruz qalmışdır. Ölkənin elm və təhsil sisteminin ciddi tənəzzülə uğraması elmin və təhsilin, *qələm əhlinin* - alimin və müəllimin cəmiyyətdəki mövqeyinin yolverilməz, faciəli dərəcədə zəifləməsinə gətirib çıxarmışdı. Xalq Cəbhəsi hakimiyyəti illərində elm və təhsillə bağlı qəbul olunmuş səriştəsiz, əsassız qanun və qərarlar, əslində, populist xarakter daşıdığından ictimai həyatın ölkədaxili və ölkəxarici axarları ilə qətiyyən uzlaşdırılmadığından nəinki bu sahədə tənəzzülün qarşısını ala bilməmiş, əksinə onun daha da dərinləşməsinə səbəb olmuşdu. İş o

yerə çatmışdı ki, *qələm əhlinin* - alimin və müəllimin bir aylıq əməyinə verilən məvacibə yalnız bir kisə un almaq mümkün idi. Azərbaycan Respublikası Elmlər Akademiyası *"olum ya ölüm"* dilemması qarşısında qalmışdı ...

25 il bundan əvvəl, 1993-cü ilin iyun ayında Azərbaycan xalqı yenicə əldə etdiyi dövlət azadlığının sevincini təzəcə dadmağa başlamışdı ki, onu yenidən itirmək təhlükəsi ilə üzləşdi. Ölkə vətəndaş müharibəsi, qardaş qırğını ərəfəsində idi. Bir yandan erməni daşnaklarının apardıqları millətçilik, separatçılıq siyasəti nəticəsində məcburən müharibəyə cəlb olunmuşduq, digər tərəfdən isə müəyyən mənada tarixi təsadüf nəticəsində hakimiyyətə gəlmiş xalq cəbhəsinin səriştəsiz, təcrübəsiz rəhbərləri ilə bir qrup ambisiyalı, silah işlətməklə, zor gücünə hakimiyyəti ələ almağa çalışan adamlar xalqı parçalamağa, qarşı-qarşıya qoymağa az qala nail olmuşdular. Belə mürəkkəb bir şəraitdə, 1993-cü il iyunun 15-də xalqın çağırışı və ürəyinin hökmü ilə Heydər Əliyev hakimiyyətə qayıtdı, Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin gün müasir tariximizə Milli Qurtuluş günü kimi daxil oldu. Bu gün elə bir gün oldu ki, tariximizdə və taleyimizdə onun oynadığı rol illər ötdükcə, zaman keçdikcə daha dərindən dərk edilir, öz dəyərli, həqiqi qiymətini alır.

Heydər Əliyevin hakimiyyətə qayıdışı, hər şeydən əvvəl, ölkənin ictimai-siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində, o cümlədən elm və təhsil sahələrində qalaq-qalaq toplanıb qalmış, düyünə düşmüş problemlərin yavaş-yavaş, düşünülmüş, hərtərəfli araşdırılaraq planlı şəkildə, addım-addım həll edilməsinə şərait yaratdı.

Ölkə prezidentinin təhsilə, elmə qayğısı Sumqayıt şəhərində fəaliyyət göstərən yeganə ali təhsil ocağının timsalında özünü əyani şəkildə biruzə verir. Bu ali məktəbin yaranması, təşəkkül tapması və inkişafı tarixinə qısa bir nəzər salaq.

Məlum olduğu kimi, XX əsrin 30-cu illərində Bakı şəhərinin 30 kilometrliyində Xəzər sahilində yerləşmiş *Sumqayıt* adlanan ərazidə mülki əhali hələ məskunlaşmamışdı, buralar bom-boş quru səhra idi. 30-cu illərin axırlarında minlərlə, on minlərlə işçi qüvvəsi tələb edən nəhəng sənaye müəssisələrinin tikilməyə başlanması buraya SSRİ-nin demək olar ki, bütün bölgələrindən və həmçinin də respublikamızın şəhər və kəndlərindən intensiv insan axınına səbəb olmuş, şərait yaratmışdır. Təsadüfi deyilki, bu gün şəhərimizi burada yaşayan əhalinin mənşəcə tərkibinə görə Azərbaycanın kiçik xəritəsi adlandırırlar.

Respubikanın müxtəlif rayonlarından Sumqayıt tikintisinə gələnlərin böyük əksəriyyəti kənd həyatı şəraitindən çıxmış, sənaye istehsalı haqqında adi təsəvvürə belə malik olmayan, əksər hallarda heç ibtidai təhsil də almamış adamlar idi. Bu azsavadlı, sənaye peşələri olmayan adamları sənaye və mülki obyektierin tikintilərinə, həmçinin istehsalatın müxtəlif sahələrinə istiqamətləndirən, orada yerləşdirilən, idarə edən kadrlar isə əksərən Bakı şəhərindən, böyük öikənin digər sənaye mərkəzlərindən göndərilmiş mütəxəssislər idi.

Əvvəllər, yəni 1949-cu ilin noyabr ayında şəhər statusu alanadək, Bakının rayonlarından biri olmuş Sumqayıtda çox qısa bir zamanda, 60 il müddətində mükəmməl təhsil sistemi yaradılmışdır. İşə qəbul edilən yüzlərlə, minlərlə fəhləyə tikinti və sənaye müəssisələrində peşə öyrədən qısa müddətli kurslardan start götürmüş təhsil sistemində "***ibtidai - natamam orta - orta ümumtəhsil - orta ixtisas*** - və, nəhayət, – ***ali ixtisas***" təhsil

mərhələləri təşəkkül tapmışdır.

Respublikanın ikinci böyük sənaye şəhəri sayılan Sumqayıtda təhsil sisteminin təşəkkül tapmasında, təkmilləşməsində və inkişaf etməsində dahi rəhbər Heydər Əliyevin xüsusi rolu, onun Sumqayıt və sumqayıtlılara daim qayğı göstərməsi təkzibolunmaz bir faktdır. H.Əliyev Sumqayıtda keçirdiyi geniş müşavirələrindən birində söylədiyi səmərəli fəaliyyət üçün proqram xarakterli nitqində şəhərimizə yüksək qiymət verərək demişdir: "Sumqayıt Azərbaycanın gözəl bir şəhəridir. Mən keçmişdə Azərbaycanın başçısı olarkən Sumqayıtın inkişaf etməsi, burada sənaye müəssisələrinin yaradılması üçün, onların yüksək səviyyədə işləməsi üçün çox işlər görmüşəm".

Respublikada, o cümlədən Sumqayıtda sənaye müəssisələrinin yaradılmasında, idarə olunmasında və inkişaf etdirilməsində H.Əliyevin böyük rolu olmuşdur. Lakin bu ayrıca geniş mövzudur və biz burada bircə rəqəmi göstərməklə kifayətlənirik.

Sosioloqların hesablamalarına görə, Azərbaycanda 1969-cu ilədək təxminən 100 il ərzində 735 böyük sənaye obyekti tikilmişdir. Bundan sonrakı 14 il ərzində, yəni H.Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə, onların sayı 43% artmış, 313 yeni böyük sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir.

Dövrün tələblərinə və respublikanın maraqlarına uyğun olaraq tikilmiş yeni sənaye obyektlərinin xeyli hissəsi Sumqayıtda yerləşmişdir. Bu müəssisələrin tələblərini ödəmək üçün mühəndis kadrları hazırlayan və 1961-ci ildən M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun fəhlə hazırlıq qrupu statusu ilə işə başlayan təhsil ocağının müstəqil ali texniki təhsil məktəbi kimi formalaşması H.Əliyevin Sumqayıta göstərdiyi xüsusi qayğının nəticəsində mümkün olmuşdur. Belə ki, məhz H.Əliyevin göstərişi ilə 1972/73-cü dərs ilindən etibarən Sumqayıt Ali Texniki Təhsil Məktəbində əyani təhsil forması tətbiq edilməyə başlandı.

Əgər bu vaxtadək fəaliyyət göstərdiyi 11 il ərzində bu ali məktəbə hər il yalnız axşam şöbələrinə və ən çoxu 150 nəfərədək tələbə qəbul olunurdusa, artıq 1975/76-ci dərs ilində institutun əyani və axşam şöbələrinə 400 nəfər tələbə qəbul edilmişdi, yəni tələbə qəbulu 2,7 dəfə artmışdı.

Təxmini hesablamalara görə 1961-2000-ci illər ərzində şəhərimizin *yeganə* ali təhsil ocağını 15 minə qədər tələbə bitirib ali təhsilli mühəndis diplomu almışdır.

Beləliklə, ötən illər ərzində institut öz funksiyasını layiqincə yerinə yetirmiş, şəhərin, respublikanın və keçmiş SSRİ-nin sənaye müəssisələri üçün minlərlə yüksək ixtisaslı mühəndis-texniki kadrlar hazırlamışdır. Sumqayıtda yerləşmiş sənaye müəssisələrinin əksəriyyətini idarə edənlər, şəhərin və respublikamızın bir çox idarə və təşkilatlarının rəhbərləri, aparıcı mütəxəssisləri məhz bu institutun məzunlarıdır.

İnstitutun məzunlarından Natiq Talıbov, Naib Hacıyev, Tamella Əhmədova, Mahal Muradov, Ulduz Ağayev, Ramiz Hüseynov, Musa Mustafayev, Aynurə Yəhyayeva, Lalə Mahmudova, Aşurə Həşimova və başqaları təhsil aldıqları ali məktəbdə öz müəllimləri ilə bu gün çiyin-çiyinə müxtəlif vəzifələrdə – prorektor, dekan, dekan müavini, kafedra müdiri, dosent, baş müəllim kimi çalışır, öz bilik və bacarıqlarını gənc mütəxəssislərin yeni nəsillərinin hazırlanmasına həsr edirlər.

Həyat, əlbəttə, bir yerdə dayanmır, daim dəyişir, inkişaf edir. SSRİ- nin süqutundan

sonra bütün respublikalar müstəqillik əldə etdi və hər kəs öz iqtisadiyyatını sərbəst şəkil- də qurmaq yolunu tutdu. Təəssüflər olsun ki, respublikamızda 1993-cü ilin iyununa qədər baş verən çəkişmələr, Dağlıq Qarabağ problemi, muharibə, ölkə daxilində hakimiyyət uğrunda gedən çəkişmələr Sumqayıtdan da yan keçmədi və sənaye müəssisələrinin bazar iqtisadiyyatı prinsipinə uyğun şəraitdə yaşamaq, inkişaf etmək perspektivi, demək olar ki, itirildi.

Sumqayıtın sənaye müəssisələrində istiehsal prosesi ilbəil azalmağa, dayanmağa başlasa da şəhərin ali məktəbində həmin müəssisələr üçün kadr hazırlığı prosesi əvvəlki və hətta bir qədər də artıq həcmdə davam etdirilirdi. Sənaye müəssisələrində mühəndis kadrlarına tələbatın kəskin surətdə azalması isə bu ali məktəbdə təhsilin keyfiyyətinə öz mənfi təsirini ciddi surətdə göstərməyə başlamışdı və bu ali təhsil ocağının texniki ixtisaslar üzrə mütəxəssis hazırlığını davam etdirmək perspektivini demək olar ki, heçə endirirdi. İnstitutun gələcəyi çox dumanlı idi.

Belə bir şəraitdə “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı 13 iyun 2000-ci il tarixli fərmanının 11-ci bəndi ilə Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universitetinin yaradılması bu ali təhsil ocağının üstünü almış dumanı, çəni dağıtdı, sumqayıtlıların və xüsusən tələbə gənclərin, onların valideynlərinin hədsiz sevincinə səbəb oldu.

Fərman imzalandığının ertəsi günü, iyunun 14-də Sumqayıt Dövlət Universitetində professor-müəllim, tələbə və şəhər ictimaiyyəti nümayəndələrinin geniş iştirakı ilə keçirilmiş toplantıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin respublika təhsil sisteminin səmərəliliyinin yüksəldilməsinə xidmət edən genişmiqyaslı islahatların həyata keçirilməsinə daim qayğı göstərdiyi, 13 iyun tarixli fərmanın professor-müəllim heyətində, tələbələrdə xüsusi məmnunluq hissi yaratdığı vurğulandı, müdrik rəhbərimizə minnətdarlıq bildirildi.

Xalqımızın Ulu Öndəri Heydər Əliyevin imzaladığı həmin tarixi fərmandan sonra Sumqayıt şəhərində fəaliyyət göstərən ali təhsil ocağının – Sumqayıt Dövlət Universitetinin yeni inkişaf mərhələsi başlanır ki, bu da ayrıca bir tədqiqat işinin mövzusudur.

## AZƏRBAYCAN TARİXİ ELMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Məmmədov A.A.***
*Sumqayıt Dövlət Universiteti*

Yola saldığımız illər Azərbaycan dövləti üçün çox keşməkəşli, əzab-əziyyətli, məşəqqətli olub. XX əsrin əvvəllərində Azərbaycan müstəqillik əldə etdi, lakin qısa müddətdən sonra onu itirdi. Bundan sonra zor gücünə Sovet imperiyasının tərkibinə qatıldı və uzun müddət imperiyanın təsiri altında qaldı. Bu dövrdə azərbaycanlılara qarşı açıq-aşkar ayrı-seçkilik edilir, millətimiz sıxışdırılırdı. Ötən əsrin 60-cı illərinin sonuna qədər bu ayrı-seçkilik özünü daha qabarıq şəkildə büruzə verirdi. Azərbaycanlılar qabaqcıl dünya elminin nailiyyətlərindən xəbər tuta bilmir və ya çox gec xəbər tuturdular. Təhsilə, elmə və elm

adamlarına qayğı aşağı səviyyədə idi. Bəzi mədəniyyət və incəsənət xadimləri, ziyalılar təqiblərə məruz qalırdılar. Xalqın öz gerçək tarixi, mədəni-milli kökündən zorla qoparılmasına cəhdlər göstərilirdi. Respublikanın o vaxtkı rəhbərlərinin cəsarətsizliyi, Kremlin tapşırıqlarının xalqımızın inkişafına təsir edib-etməyəcəyinə varmadan sözsüz yerinə yetirmələri Azərbaycandakı mövcud vəziyyəti daha da ağırlaşdırırdı. Bütün bu proseslər təxminən yarım əsr, 1969-cu ilədək davam etdi. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Heydər Əlirza oğlu Əliyev seçildi və məhz bundan sonra Azərbaycan tarixində keyfiyyətcə yeni mərhələ başlandı. Azərbaycana və azərbaycanlılara qarşı münasibət tədricən dəyişdi. O, doğma Azərbaycanı təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada tanıtdı. Heydər Əliyev öz böyük şəxsiyyəti, düşmənləri lərzəyə gətirən əzəməti və əyilməz vüqarı ilə mənsub olduğu Azərbaycan xalqının adına misilsiz şan-şöhrət gətirdi.

Azərbaycanın yeni tarixi Heydər Əliyevin adı ilə, Heydər Əliyev səhifələri ilə başlandı və Azərbaycan dünyada "Heydər Əliyevin əsəri" kimi məşhur oldu. Heydər Əliyevin tarixi hünəri bir daha sübuta yetirdi ki, tarixdə şəxsiyyətin rolu danılmazdır. Heydər Əliyev Azərbaycanın yeni tarixini ölməz əməlləri ilə bu günün, sabahın və uzaq gələcəyin nəbzini tutan müdrik sərəncamları və tarixi qərarları ilə yazdı. Məhz Heydər Əliyevin sərəncamı ilə Azərbaycan tarixinin yenidən yazılmasına başlanıldı. Bununla əlaqədar ulu öndərimiz alimlərimizə, ziyalılarımıza yerinə yetirilməsi son dərəcə vacib tapşırıqlar verib. Bu tapşırıqlarda ən ümdə məsələlərdən biri: azərbaycançılığın -Azərbaycan xalqının ulu inamlarının, milli adət-ənənələrinin, soy düşüncəsinin, dünya sivilizasiyasına Azərbaycan xalqının bəxş etdiyi yaradıcılıq nailiyyətlərinin həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərilməsinə nail olmaqdır. Ulu öndər təkidlə tələb edirdi ki, məhz yeni tədqiqatların aşkara çıxara biləcəyi biliklər, tapıntılar, kəşflər əsasında Azərbaycan xalqının tarixi yazılmalıdır; bunların da əsasında biz Azərbaycanı və Azərbaycan xalqını dünyaya yenidən tanıtmalıyıq. Dünya Azərbaycanı yenidən kəşf etməlidir. Biz doğma Azərbaycanımızın keçmiş əzəmətini və şöhrətini aşkar etməli, qiymətləndirməli və özünə qaytarmalıyıq. Dahi rəhbərimiz bu sahədəki nöqsanlarımızdan narahat danışırdı. Ulu öndər 2002-ci ilin avqustunda MEA Naxçıvan bölməsinin yaradılmasına həsr edilmiş müşavirədə söylədiyi proqram nitqində deyirdi: "Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, Azərbaycanın, xalqın, ümumiyyətlə, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir. Bununla onu demək istəyirəm ki, Azərbaycan nadir bir ölkədir, bəşər tarixində Azərbaycan bir ərazi kimi və Azərbaycan xalqı bir xalq kimi, böyük tarixi proseslərin iştirakçısı olubdur. Biz indi müstəqil Azərbaycanda özümüz ölkəmizin, torpağımızın sahibi olduğumuz halda, gərək bu qədim, çox zəngin tariximizi araşdırıb meydana çıxaraq və bu gün də, gələcəkdə də xalqımızın o dərin köklərini ümumi, bəlkə də, bəzən çox gözəl ifadələrlə, bəzənmiş sözlərlə yox, elmi sübutlarla, elmi əsaslarla həm öz xalqımıza çatdıraq, həm də dünyaya göstərək ki, Azərbaycan xalqının kökü haradandır, tarixi nədir və Azərbaycan bir ölkə kimi bəşər tarixində hansı yeri tutur. Mən açıq deyə bilərəm ki, görkəmli yer tutur. Ancaq biz bunu indiyə qədər göstərə bilməmişik". Ulu öndərimiz deyirdi: "İnsan həmişə öz tarixi, öz

keçmişi ilə, öz tarixi kökləri ilə, müasir nailiyyətləri ilə fəxr edir. Bunu bizim xalqımız bilsin. Amma bunu bilmir. Bəzi müttəfiq respublikalar bunu bizdən yaxşı edirdilər. Bu həqiqəti demək lazımdır.Biz öz keçmiş zəngin mədəniyyətimizi dünyaya tanıtmalıyıq".

Heydər Əliyevin əməli fəaliyyətinin ayrı-ayrı aspektləri, o cümlədən onun konkret elm sahələri ilə bağlı fəaliyyəti, düşüncə və tövsiyələri, bütövlükdə ulu öndərin elmə və elm adamlarına münasibəti xüsusi araşdırma tələb edən kifayət qədər geniş bir tədqiqat mövzusudur. O, ixtisasca tarixçi olduğundan, şübhəsiz, tarix elmini və onun problemlərini digər elmlərdən daha yaxşı və daha dərindən bilirdi. O, Dövlət Təhlükəsizliyi orqanlarında çalışarkən, daha sonra isə respublika partiya təşkilatına rəhbərlik edərkən Azərbaycan tarixinin problemlərinə və Azərbaycanda tarix elminin durumuna daha dərindən bələd olub.Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən ilkin olaraq gördüyü tədbirlərdən biri Azərbaycan ərazisindəki tarix və memarlıq abidələrinin uçotunun dəqiqləşdirilməsi və onların yenidən qeydiyyata alınması işi oldu. Nəticədə, əvvəllər dövlət qeydiyyatında olmayan bir çox yeni abidə aşkar edilərək qeydiyyata alındı. Ümummilli liderin 31 yanvar 1997-ci il tarixdə Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdəki çıxışında tarix elminin digər elmlər sırasında yeri, rolu və əhəmiyyəti, onun problemləri və inkişaf perspektivləri ilə bağlı konkret fikir və istiqamətlər öz əksini tapmışdır. Heydər Əliyev tarixçi alimlərə heç vaxt göstəriş vermirdi. O, daha çox öz təkliflərini, məsləhət və tövsiyələrini bölüşürdü: " Mən bir məsələ barəsində konkret təklifimi bildirmək istəyirəm. Bu da Azərbaycanın tarixi ilə bağlıdır. Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və, xüsusən, millətin, xalqın tarixidir. Bu indi bizim üçün xüsusi ilə lazımdır. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. Ona görə də biz indi xalqımızın tarixinin yazılması işini gərək diqqət mərkəzinə alaq. 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyası qarşısında vəzifə qoymuşdum ki, Azərbaycan tarixi yazılmalıdır".

Bu gün məmnunluq hissi ilə qeyd etməliyik ki, ulu öndərin Azərbaycan tarixi elminin gələcəyi ilə bağlı narahatlığı, qayğı və düşüncələri, məsləhət və tövsiyələri nəticəsiz qalmadı. Son illər Azərbaycanın tarixçi alimləri tərəfindən tariximizin həm qədim, həm orta əsrlər, həm də XIX-XX əsrlər dövrünə aid yüksək peşəkarlıqla hazırlanaraq nəfis şəkildə çap olunan və bir sıra xarici dillərə tərcümə edilən çoxsaylı sanballı əsərlər Heydər Əliyev ideallarına sədaqətlə xidmət nümunəsi kimi dəyərləndirilə bilər.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİNİN KEŞİKÇİSİ KİMİ

***Məhərrəmova Ş.K.***
*Sumqayıt Dövlət Universiteti*

Millətin varlığının əsas şərtlərindən, atributlarından biri də dildir. Ana dili hər bir xalqın milli sərvətidir, qürur mənbəyidir. Dil millətin milli mənlik və qürurudur.

Azərbaycan dilinə nəzər salanda dilimizin nə qədər qədim bir dil olduğunu görürük. Lakin Azərbaycan dili də xalqımız kimi ciddi sınaqlarla üzləşmişdir. Belə ki, 1920-ci ildən bəri Sovet Rusiyasının ruslaşdırma siyasətindən sonra millətimizlə bərabər dilimizə də hücumlar başladı. "Sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət Azərbaycanda da özünü göstərirdi. Belə ki, ölkədə rəsmi dövlət dili rus dili idi. Rəsmi tədbirlərdə çıxışlar bir qayda olaraq rus dilində aparılırdı. Radio, televiziya və mətbuatda da oxşar vəziyyət idi. Rus dili sürətlə hegemon dilə çevrilirdi. Ölkədə elə psixoloji mühit yaranmışdı ki, adi insanlar arasında da Azərbaycan dilində danışmaq, rus dilini bilməmək qəbahət hesab olunurdu. Bu ürəkağrıdan da olsa, real mənzərə idi və həmin acı gerçəklik 1970-ci illərə qədər davam etmişdi. Heç kəsə gizli deyil ki, Azərbaycanda da onilliklər boyu bilinqvizm – ikidillilik mövcud idi. Dövlət idarələrində isə bu vəziyyət Azərbaycan dilinin xeyrinə deyildi – rus dilinin bütün sahələrdə geniş işlənməsi milli dillərin, eləcə də Azərbaycan dilinin dövlət dili kimi inkişaf edib zənginləşməsinin qarşısına sədd çəkirdi.

1969-82-ci illərdə Sovet Azərbaycanına rəhbərlik edən H.Əliyev Azərbaycan dilinə sevgisini, hörmətini öz əməli ilə sübut etdi. Belə ki, ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxışlar etməklə dilimizə olan sevgisini, hörmətini bir daha sübut etdi. H.Əliyev yaradıcı təşkilatların, xüsusən də Yazıçılar İttifaqının qurultaylarında, irimiqyaslı yubiley tədbirlərində Azərbaycan dilində sərrast və gözəl danışmaq nümunəsi göstərməklə yanaşı, həm də ziyalıların, geniş ictimaiyyətin diqqətini ana dilimizin inkişafına yönəldirdi. O, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin istifadəsinə dair göstərişlər də vermişdir.

Məhz H.Əliyevin ana dili məsələsindəki prinsipiallığı və təkidi sayəsində ziyalıları və geniş ictimaiyyəti dövlət dili ilə bağlı müzakirələrdə o, 1977-ci ildə qəbul olunan Azərbaycan Sovet Konstitutsiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının Dövlət dili olduğunu təsbit edən məşhur 73-cü maddəni daxil etməyə nail oldu. Azərbaycan SSR-nin Konstitutsiyasına əsasən ilk dəfə olaraq rus dili ilə yanaşı Azərbaycan dili rəsmi dil statusu əldə etdi. Əsas qanun səviyyəsində milli dilə Dövlət dili statusu verən yeganə türk-müsəlman respublikası idi.

Tarix üçün o qədər də böyük olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi, həqiqətən, böyük tarixi olan aşağıdakı işləri görmüşdür:

-Birincisi, Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-nin müvafiq qanunlarında, (xüsusilə, Konstitutsiyasında) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib.

-İkincisi, Azərbaycan dilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, Azərbaycanda ana dilində təhsilə üstünlük verilib.

-Üçüncüsü, Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün əlindən gələni edib. Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb. Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları – "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib.

-Dördüncüsü, Azərbaycan dilinin tarixi geniş araşdırılaraq, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yazıldı. Həmin kitablardan biri ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Beləliklə Azərbaycan dilinin tarixini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilərək ana dilinin nüfuzu bir daha təsdiq edildi.

Müstəqil Azərbaycan dövlətinə rəhbərlik etməyə başladığı dövrdən ulu öndər H.Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili dövlətlərarası münasibətlərin dilinə, siyasi dialoqların, diplomatik danışıqların dilinə çevrilib, dünyanın onlarca ölkəsində səslənib, dövlət başçısının öz doğma dilinə məhəbbətini hər yerdə təcəssüm etdiribdir. Məhz H.Əliyevin yorulmaz əməyi nəticəsində tarixən vətəndaşlıq hüququ qazanmış və dünya miqyasında geniş yayılmış "Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı.

Beləliklə, minilliklər boyu formalaşan və müxtəlif təzyiq və repressiyalara məruz qalaraq bu günümüzə qədər gəlib çatan Azərbaycan dili xalqımızın milli sərvəti, qürur mənbəyidir. Bu gün müstəqil dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər H.Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimiz uğurların əsasını təşkil edir.

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASINDA PRAKTİK MƏŞĞƏLƏLƏR VƏ LABORATORİYA DƏRSLƏRİNİN ROLU

***Məmmədov S.C., Qurbanov M.M.***
*Sumqayıt Dövlət Universiteti*

Uzun illərin pedqoji təcrübəsi göstərir ki,tələbənin bir şəxsiyyət kimi formalaşmasında, onu əhatə edən mühitin ,tərbiyəçinin və xüsusilə də əmək tərbiyəsinin rolu çox böyükdür.

Ali məktəblərə qəbul olunmuş tələbələr valideyinlərindən irsən götürdükləri bir çox müsbət keyfiyyətlərlə yanaşı, təhsil aldıqları orta məktəb dövründə, həmçinin onları əhatə edən ətraf mühitdən götürdükləri bir sıra xoşagəlməyən komplekslərə malik olurlar. Ali məktəb dövründə onlar artıq yetkin bir şəxsiyyət kimi formalşmalıdılar. Bu baxımdan ali məktəb müəllimlərinin və tərbiyəçilərinin işi daha ağır olur.

Tələbə şəxsiyyətini daha düzgün istiqamətdə formalşdırmaq üçün, onunla iş aparan hər bir tərbiyəçi tələbədə olan aşağıdakı keyfiyyətləri düzgün müəyyənləşdirməlidir:

1. Tələbə hansı təbii göstəricilərə malikdir.Buraya onun necə ailədən çıxması,hansı mühitdə və hansı orta məktəbdə təhsil alması,fiziki sağlamlığı, nitq mədəniyyəti,temperamenti və s.daxildir.

Bütün bu keyfiyyətlər müəllimlə tələbənin ilkin tanışlığında və onunla aparılan fərd söhbətləri nəticəsində müəyyənləşdirilir.

2.Tələbənin daha düzgün ixtisas seçimi etdiyini və bu ixtisasa marağının nə dərəcədə olduğunu müəyynləşdirmək: Buraya tələbənin seçdiyi ixtisas fənindən orta mıktədə

aldığı qiymətlər,qəbul imtahanı zamanı yığdığı keçid balı, seçdiyi ixtisasın, ixtisas seçimi zamanı neçənci sırada yazılması, ixtisasın tələbənin özü tərəfindən, yoxsa valideyibləri tərəfindən seçilməsi, orta məktəbdə həmin ixtisas fənni üzrə fən olimpiadalarinda iştirakı və s.aid edilə bilər.

Bu qeyd olunan göstəricilər tam aydınlaşdırıldıqdan sonra həmin tələbə ilə düzgün iş qurmaq və onun səxsiyyətini düzgün istiqamətdə formalaşdırmaq olar.

Məlum olduğu kimi ali məktəblərdə təhsil zamanı tədrisin müxtəlif növlərindən: mühazirə praktik məşğələlər, laboratoriya dərsləri, kurs işlər, buraxlış işləri,pedaqoji və istehsalat təcrübələrindən istifadə edilir. Bütün bu tədris növləri içərisində müəllimlərin tələbələrlə ən cox təmasda olduğu (vaxt baxımından) və ən cox yaradıcılıq əlaqəsində olduğu dərslər məhz praktik məşğələlər və laboratoriya dərsləri olur. Təcrubə göstərir ki, bu dərslər aşağıdakı şəkildə təşkil edilən zaman tələbə şəxsiyyətinin formalaşmasını daha düzgün aparmaq olur.

1. Məşğələ dərslərində keçiləcək mövzu e'lan edildikdən sonra az müddətdə həmin mövzuya dair nəzəri bilikləri yoxlamaq məqsədilə sorğu aparmaq.
2. Həll olunacaq məsələlərin şərtini oxuduqdan sonra, tələbələr tərəfindən təkrarlandırmaq.
3. Verilmiş məsələlərin hər biri tələbə tərəfindən fərdi həllini təşkil etmək.
4. Məşğələ və mühazirə dərsləri arasında qarşılıqlı əlaqə yaradaraq və həmin mövzunun perspektiv tətbiq sahələri haqqında məlumat vermək.
5. Həll edilən məsələlkərin ümumi şəkildə auditoriyada müzakirəsini təşkil etmək.
6. Məsələ həlli zamanı fəal iştirak eden tələbələri obyektiv qiymətləndirmək.
7. Mövzunun möhkəmləndirilmısinə dair ev tapşırıqları vermək.
8. Növbəti məşğələnin əvvəlində ev tapşırığını yoxldıqdan sonra daha aktiv və daha çox yaradıcı tələbənin adını qeyd etmək.
9. Məsələ həlli zamanı daha çox məntiqi həll olunan və tətbiqi məsələlər seçilmək.

Laboratoriya dərsləri aşağıdakı ardıcılıqla aparıldıqda tələbələrdə yardıcılıq imkanlarını daha çox aşkara çıxarmaq və inkişaf etdirmək olur.

1. Laboratoriya işləri haqda ümumi məlumat verdikdən sonra, həmin işlərə dair nəzəri məsələlərin öyrənilməsinin vacibliyi və hansı nəzəri materialların öyrənilməsi tapşırılmalıdır.
2. Laboratoriya işlərinin fərdi qaydada aparılmasına üstünlük verilməlidir. Bu zaman tələbələrin yaradıcılıq qabiliyyətləri aşkara çıxarılır və tələbələrin gələcəkdə elmi – tədqiqat işinə cəlb edilməsi imkanları müəyyənləşdirilir.
3. Laboratoriya işlərinin hesabatlarının qəbulu daha diqqətlə aparılmalidir. Burada hər bir tələbənin nəzəri bilikləri ilə bərabər qrafik qurmaq bacarığı, hesabatın necə tərtib edilməsi, riyazi biliyi və elecə də onun fənnə olan marağı daha çox aşkara çıxarıla bilir. Bu sahədə tələbəyə dəyərli məsləhətlər vermək imkanı yaranır.

Tələbənin biliyinin obyektiv şəkildə qiymətləndirilməsi, onun adının auditoriyada, kafedrada, konfrans və məqalələrdə çəkilməsi, həmin tələbənin şəxsiyyətinin düzgün

istiqamətdə formalaşmasına daha çox təsir göstərir.Tələbəlrin özünə inamı artır, seçdiyi ixtisasa daha çox bağlanır və onda maraqlandığı fənni daha dərindən öyrənmək meyli yaranır.

İstər məşğələ və laboratoriya dərslərində, istərsə də tədrisin digər növlərində tələbələrin müstəqil işləmələrinə üstünlük verilməli və onlara xüsusi şərait yaradılmalıdı. Kurs işləri və buraxlış işlərində mövzu seçimi tələbələrin özünə həvalə edilməlidir.

Magistratura dərsləri daim qarşılıqlı müzakirə şəraitində qurulmalı və bu halda tələbələrin yaradıcı fikirlərinə hörmətlə yanaşmalıdı.

Praktik təcrübələr və onların hesabatları bütün qrup tələbələrin iştirakı ilə geniş diskussiya şəraitində kecirilməlidir. Məşğələ və laboratoriya dərsləri zamanı, yaxud dərslərdən sonra tələbələrin hər hansı bir sahəyə aid yeni laboratoriya işi qoymaq və ya müstəqil məsələ tərtib, etmək təkliflərinə hörmətlə yanasılmalıdı. Bu təkliflər auditoriyada müzakirə edilərək həmin təklifin kafedra tərəfindən müsbət qarşılanması elan edilməlidi. Yekun olaraq onu qeyd etmək lazımdır ki,yekin bir şəxsiyyət formalaşdırmaq üçün, tələbə ilə ilk tanışlıqdan və onunla aparılan bütün işlərin başlanğıcından, ona şəxsiyyət kimi yanaşılmalıdır.

## AZƏRBAYCAN RESPUBLİKASINDA ÜMUMTƏHSİL SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROSESİNDƏ MÜƏLLİMİN YERİ VƏ ROLU MƏSƏLƏSİ

***Paşayeva T.Ş.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bu gün Azərbaycanda digər sahələrdə olduğu kimi, təhsil sahəsində də islahatlar aparılır, inkişaf proqramları həyata keçirilir, təhsilin keyfiyyətinə və onun nəticələrinə böyük diqqət yetirilir. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkədə təhsil sahəsində start verilən köklü islahatların aparılması ilk nəticələrini göstərir.

Müasir müəllimin yaxşılar sırasında olması üçün müvafiq kvalifikasiyaya, tədris təcrübəsinə, akademik biliklərə, fənn biliklərinə malik olmaq, öz ideyalarını aydın formada ötürə bilmək, müxtəlif səviyyəli məktəblilər üçün sinifdə effektiv təlim atmosferini yaratmaq, müəllim və məktəbli arasındakı ünsiyyəti inkişaf etdirmək, öz işinə rəğbət bəsləmək, yardımcı olmaq, həmkar və valideynlərlə effektiv şəkildə işləmək lazımdır.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənən Azərbaycan Respublikasında təhsilin inkişafı strategiyası təhsil sahəsində kadr potensialının inkişafını nəzərdə tutur. Bu istiqamət innovativ təhsil metodlarının tətbiqini nəzərə alır, peşəkar təminatçının, təhsil məzmununun effektiv şəkildə mənimsənilməsi və peşəkarlığın artırılmasını təmin edən təhsilin formalaşdırılmasına, təhsil alanların uğurlarının qiymətləndirilməsi, təhsil alanlar arasında istedadlı şəxslərin aşkarlanması və inkişafı üzrə yeni sistemin yaradılması, xüsusi qayğı tələb edənlər üçün inkluziv tədris metodologiyalarının yaradılmasını nəzərə alır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 yanvar 2015-ci il tarixli sərəncamına əsasən, dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılmışdır.

Gördüyümüz kimi, müəllimlərin diaqnostik qiymətləndirməsinin hazırlıq mərhələsində müəllimlərə verildiyi vədlər əməl olunur, təhsildə islahatlar uğurla davam etdirilir, müəllimin təhsildə innovativ təşəbbüsləri və əməyi qiymətləndirilir.

Təhsil Nazirliyinin həyata keçirdiyi uğurlu layihələrdən bəhs edərək xüsusilə SABAH layihəsini qeyd etmək olar. Bu layihə ali təhsildə tədrisin.

Azərbaycanda təhsilin inkişafı istiqamətində aparılan islahatlar, ölkəmizin təhsil siyasətinin yeni istiqamətləri ilə bağlı Təhsil Nazirliyinin dəstəyi ilə İctimai televiziyada hazırlanan “Açıq dərs”, “Abituriyentin Hədəf saatı” və digər verilişlərdə müəllimin cəmiyyətdə rolu, cəmiyyətin müəllimə münasibəti; tədrisdə nüfuzlu müəllim problemi; dərsliklərlə təminatın vəziyyəti; müəllimlərin dərs bölgüsünun aparılmasında qarşılaşdıqları problemlər; ali məktəblərdə yay semestrinin təşkili qaydaları və kreditlərin sayı; inteqrativ qiymətləndirmə; məktəblərdə yeni qida standartları tam tətbiq olunması; müəllimlərin sınaq qiymətləndirilməsi; ali və orta ixtisas təhsili müəssisələrində tələbə köçürmələri; Azərbaycanda peşə-ixtisas təhsili müəssisələrinə qəbul qaydaları; aztəminatlı ailələrdən olan gənclərə təhsil kreditlərin verilməsi; Azərbaycanda təhsil alanların biliyinin attestasiyası; gənc nəslin mütaliəyə, kitaba maraqları və digər problemlər müzakirə edilib və sosial şəbəkələrdə istifadəçilər tərəfindən bəyənilib.

Müəllimlərin peşəkar təcrübəsi təhsil sisteminin uğurunun şərtlərindən biridir. Öz peşəkar inkişafı üzərində çalışan müəllimlər təhsil sisteminin inkişafına da öz töhfəsini verir. Müəllimlərin biliyi, səriştə və peşəkar bacarıqları müasir dövrün tələblərinə uyğun olaraq artmalıdır. Monitorinq sisteminin vasitəçiliyi ilə tədris fəaliyyətinin keyfiyyəti də artmalıdır. Təhsil sahəsində yüksək keyfiyyətli tədrisi təmin etmək məqsədi ilə monitorinq, keyfiyyət və fəaliyyət üzrə göstəricilər sistemi təkmilləşdirilməlidir.

Təhsilin inkişafı strategiyasında ixtisaslı pedaqoji kadrların hazırlanması, təlimlər vasitəsi ilə onların bilik və bacarıqlarının artırılması, habelə tərbiyəçi və müəllimlərin peşəkar və innovativ fəaliyyətinin stimullaşdırılmasının əhəmiyyəti vurğulanmışdır. Kvalifikasiyalı və innovativ müəllimlərin olmasında ən çox valideynlər maraqlıdır. Onlar istəyir ki, övladları öz gələcək peşəsinin müəyyənləşdirilməsində və öz həyatlarında istifadə edə biləcəkləri bilik və praktik bacarıqları məktəblərdə yüksək təhsilli müəllimlərdən öyrənsin. Keyfiyyətli təhsilə nail olunmasında valideynlərin məktəbə köməyinin artırılması üçün valideyn-müəllim əməkdaşlığının inkişafına yönəlmiş təhsil birlikləri məktəb müdirləri ilə birgə əməkdaşlıq və razılaşdırılma nəticəsində qısa müddətli layihələri, tədbirləri həyata keçirə bilərlər.

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN – ÖZBƏKİSTAN MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFI TARİXİNDƏN ( 1991 – 2010)

***Ramazanova N.M.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitu*

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında qarşılıqlı münasibətlərin tarixi uzaq əsrlərə qədər gedib çıxır. Bu ölkələrdə yaşayan xalqların bir-birinə isti, doğma münasibətinin səbəbi onlar arasındakı milli adət-ənənə, ümumi dil, mədəniyyət və din yaxınlığıdır. Hər iki dövlət uzun illər boyu SSRİ-nin müttəfiq respublikaları olmuşdur. İndi isə həm Azərbaycan, həm də Özbəkistan müstəqil dövlətlərdir.

Müstəqillik əldə etdikdən sonra hər iki ölkə hərtərəfli əlaqələrin inkişafına və möhkəmləndirilməsinə böyük əhəmiyyət vermiş və bu gün də həmin siyasət davam etməkdədir.

Bütün dövrlərdə cəmiyyətin inkişafında mədəniyyətin rolu əvəzolunmazdır. Mədəniyyət xalqların mənəvi aləminin zənginləşməsində böyük rol oynayır.Azərbaycan xalqı öz mədəniyyətini başqa ölkələrin xalqları, ilk növbədə türk xalqları ilə əməkdaşlıq, ədəbiyyat və incəsənətin qarşılıqlı surətdə zənginləşdirilməsi və milli nailiyyətlərin mübadiləsi əsasında inkişaf etdirir.

Biz Azərbaycanla Özbəkistan arasında ədəbi- mədəni əlaqələrdən bəhs edərkən bu ölkələr arasında yaradıcılıq görüşlərinin, festivalların, görkəmli şəxsiyyətlərin yubileylərinin, ədəbiyyat və incəsənət günlərinin keçirilməsini, tərcümə problemlərini, müzakirələri, elmi əlaqələri və s. nəzərdə tuturuq.

Müstəqillik dövründə - 1996-1997-ci illərdə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Özbəkistan Respublikasına və Özbəkistan Respublikasının Prezidenti İslam Kerimovun Azərbaycan Respublikasına, eləcə də 2004-cü ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana rəsmi səfərləri zamanı hər iki ölkə rəhbərlərinin qarşılıqlı çıxışlarında ədəbi-mədəni əlaqələrin bundan sonrakı inkişafının əsas istiqamətləri də müəyyənləşdirilmişdir.

Azərbaycan və Özbəkistanın şair və yazıçıları bu ölkələr arasında mədəni əlaqələrin inkişafı sahəsində böyük fəallıq göstərmişlər. Ədəbiyyat sahəsində bu əlaqələr əasasən bədii tərcümə və ədəbiyyatın təbliğində özünü göstərmişdir.

Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin inkişafında araşdırmaçı alimlərimizin xidməti az deyildir.

Müstəqillik dövründə Azərbaycan Özbəkistan ədəbi-mədəni əlaqələrinin araşdırmaçısı olan Almaz Ülvinin "Azərbaycan-özbək (Cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər)" monoqrafiyası həm aktuallığı, həm də istər Azərbaycanda, istərsə də Özbəkistanda müstəqillik dövrünün, istiqlal məfkurəsinin yeni tələblərinə cavab verməsi ilə seçilir.

Mədəni-humanitar sahədə ölkələrimiz arasında artmaqda və inkişaf etməkdə olan əməkdaşlıq haqqında danışan Özbəkistanın Azərbaycandakı səfiri Şerzod Farziyevin dediyi kimi bu sahədə olan əməkdaşlıq bizim əlaqələrimizdə əsas prinsiplərdən biridir.

Özbəkistanın mədəniyyət nümayəndələri Azərbaycanda, Azərbaycanın mədəniyyət və incəsənət xadimləri isə Özbəkistanda müxtəlif tədbirlərdə fəal iştirak edirlər.

Azərbaycan incəsənət ustalarının Özbəkistanda keçirilən " Şark taronaları" beynəlxalq festivalında iştirakı çox uğurlu olmuşdur.

Azərbaycanla Özbəkistan arasında mədəni əlaqələr bununla məhdudlaşmır. İki ölkə arasında elmi sahədə olan əməkdaşlıq da nəzərəçarpacaq dərəcədə inkişaf etməkdədir. Azərbaycan və özbək alimləri bu ölkələrdə keçirilən görüşlərdə, simpoziumlarda, elmi konfranslarda mütəmadi olaraq iştirak edir və fikir mübadiləsi aparırlar. Belə ki, 2010-cu il iyun ayında Azərbaycan alimləri Səmərqənd Dövlət Universitetində keçirilən " Nizami və Nəvai: tarixi və mədəni əlaqələr" adlı beynəlxalq elmi konfransda iştirak etmişlər.

Biz əminliklə deyə bilərik ki, Azərbaycanla Özbəkistan arasında dostluq və qardaşlıq əlaqələri bundan sonra da artacaq və inkişaf edəcəkdir.

## NAXÇIVANDA MƏDƏNİ-TARİXİ İNKİŞAFIN MÜSTƏQİLLİK DÖVRÜ MƏRHƏLƏSİ

***Seyidov A.Q.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisində mədəni-tarixi inkişafın bir qolunu arxeoloji və memarlıq abidələri təşkil edir. Bölgənin arxeoloji abidələrinin öyrənilməsi tarixini 3 mərhələyə bölmək olar: XİX əsrin ikinci yarısından - 1920-ci ilədək olan dövr; 1920-1991-ci illər; və 1991-2016-cı illər.

Bütün uğurlarımız dövlətimizin qayğısından irəli gəlib. 1974-cü ildə AEA-nın Tarix İnstitutu nəzdində Arxeologiya və Etnoqrafiya Sektoru təşkil olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 iyul tarixli Qərarı ilə Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılır.

1993-cü ildə Heydər Əliyevin yenidən siyasi rəhbərliyə qayıtmasından sonra Naxçıvan ərazisində arxeoloji qazıntı və kəşfiyyat işləri yeni vüsət alır. Bu illərdə arxeoloqlar–V.H.Əliyev, V.B.Baxşəliyev, A.Q.Seyidov, N.M.Müseyibli, B.İ.İbrahimli, S.Qaşqay, Q.H.Ağayev, S.H.Aşurov, L.Ristvet, Ə.H.Bədəlov, A.Zeynalov, H.Gopnik, Q.M.İsmayılzadə, T.Xəlilov, Z.Quliyeva və b. tərəfindən aparılan arxeoloji tədqiqatlar zamanı Gəmiqaya, Şahtaxtı, Plovdağ, Sumbatan, Ovçulartəpəsi, Oğlanqala, I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc, I Kültəpə, Meydantəpə, Qazma mağarası, Rəsul dərəsi və s. kimi arxeoloji abidələrdə tədqiqat işləri davam etdirilir, yeni elmi nəticələr əldə olunur.

Ovçulartəpəsi və Oğlanqala abidələrində arxeoloji tədqiqatlar ABŞ və Fransa arxeoloqlarının iştirakı ilə Beynəlxalq səviyyədə aparılır. Tədqiqatların nəticəsi olaraq "Naxçıvan abidələri Enisklopediyası", "Naxçıvan tarixi Atlası", "Ərəbyengicə", "Xələc", "Naxçıvanda arxeoloji tədqiqatlar" "Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri", "Qıvraq yaylasının arxeoloji abidələri", "Naxçıvan arxeologiyası", "Tarixdən səhifələr", "Naxçıvan tunc dövründə", "Naxçıvanın ilk tunc dövrü abidələri və onların dövrləşdirilməsi", "Azərbaycanın müdafiə tikililəri", "Orta əsr Kiran şəhəri", "Qədim Şərur", "Qədim Ordubad", "Sədərək", "Naxçıvan - 5000", 3 çildlik "Naxçıvan tarixi" və s.

kitab və monoqrafiyalar nəşr olunur. Kitab və monoqrafiyalarda Naxçıvanın qədim mədəniyyət nümunələri haqqında geniş məlumatlar verilir, onların mənşəyi və dövrləşməsi haqqında yeni fikirlər irəli sürülür.

2004-2009-cı illərdə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən Ordubad rayonu ərazisində yerləşən II Plovdağ nekropolunda aparılan arxeoloji tədqiqatlar qədim Naxçıvan tayfalarının Mesopotamiya ilə mədəni-iqtisadi əlaqələrinə dair yeni və qiymətli faktlar aşkar edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən 2005-ci ilin dekabrın 6-da imzalanmış «Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında» Sərəncamına əsasən muxtar respublikanın bütün abidələri nəzarətə alınır. Yeni araşdırmalar nəticəsində 1200-dən artıq mədəniyyət abidəsi qeydə alınaraq pasportlaşdırılmışdır ki, onların da əksəriyyətini yeni arxeoloji abidələr təşkil edir. Müstəqillik dövründə Naxçıvanda aparılmış tədqiqatların nəticəsi olaraq bir çox konfrans və simpoziumlar keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun ayırdığı qrant əsasında dünyaca məşhur I Kültəpə ətrafında 50-dən artıq abidə qeydə alınaraq xəritələşdirilmişdir ki, onların da 23-ü Neolit və Eneolit dövrlərinə aiddir. 2013-cü ildən AMEA Naxçıvan Bölməsinin müstəqil arxeoloji ekspedisiyası yaradılıb. 2006-cı ildən fəaliyyətə başlayan Azərbaycan-ABŞ və Azərbaycan-Fransa arxeoloji ekspedisiyası hal-hazırda Şərur rayonu ərazisində işləyir. Arxeoloji abidələrin GPS-lə qeydiyyatına başlanılıb. Tədqiqatların nəticələri ilə bağlı Fransanın 10-dan artıq informasiya vasitəsində məlumat yerləşdirilib.

Müstəqillik illərində Möminə Xatun, Yusif Küseyir oğlu, Qarabağlar türbələri, Şeyx Xorasan xanəgahı, Xan sarayı, Ordubad buzxanası, Naxçıvanqala, Əlincəqala və digər abidələrdə bərpa və təmir işləri aparılıb.

## MƏDƏNİ İRSİMİZİN QORUNMASI MƏDƏNİYYƏT SİYASƏTİMİZİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİDİR

***Yaqubova N.Ş.***
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

Azərbaycan gənc dövlət və qədim ölkədir. Təbii ki, gənc dövlət olaraq onun siyasi,iqtisadi prioritetləri ilə yanaşı, mədəni prioritetləri də müəyyənləşdirilməli, mədəniyyət siyasəti formalaşdırılmalı idi. Bu mənada dövlətin vəzifəsi dəyərlərin qorunması,yeni nəsillərin həmin dövlətin özünəməxsus adət və ənənələri əsasında tərbiyələndirilməsi üçün şərait yaradılmasından ibarət olmalıdır. Azərbaycanın əsrlər boyu qorunub saxlanılmış mədəni irsi, ənənələrimiz musiqimiz, dilimiz, adətlərimiz siyasi sabitliklə birlikdə bizim müstəqilliyimizin təminatçısıdır.

Hal-hazırda dünyada münaqişələr baş verir, müharibələr gedir. Bütün bəşəriyyətə məxsus olan tarixi və mədəni dəyərlər məhv edilir, bəziləri isə birdəfəlik silinir. Dağlıq

Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində xalqımızın yüzlərlə qədim memarlıq və mədəniyyət abidələri dağıdılıb. Bunu nəzərə alaraq mədəni irsimizin qorunması ən vacib mədəni istiqamətlərdən sayılmalıdır.

Qloballaşma prosesi nəticəsində mədəniyyətlərarası münasibətlər genişlənir, hər bir mədəniyyət özünü bəşəri mədəniyyətin bir hissəsi kimi hiss edir. Amma qloballaşma həm də təhlükələr yaradır. Bu mədəni dəyərlərin itirilməsi, həmçinin milli özünəməxsusluğun itirilməsidir. Dünyaya inteqrasiya və qloballaşma fonunda mədəni irsin, mədəni dəyərlərin qorunması zərurəti yaranır.

Tarixən xalqımızın maddi və qeyri-maddi mədəni irsinin saxtalaşdırma və özgəninkiləşdirmə təhlükələri ilə qarşılaşıb. Mədəni irsimizə yönələn təhdidləri belə qruplaşdırmaq olar :

1.Şifahi xalq ədəbiyyatının populyar nümunələri, o cümlədən dastanlar,nağıllar.
2.Xalq mahnıları
3.Milli musiqi alətlərimiz: balaban, kamança və s.
4.Azərbaycan mətbəxinə daxil olan xörək nümunələri
5.Azərbaycan xalçalarının mənimsənilməsi.

Azərbaycan xalqı çağdaş dönəmdə müstəqil dövlətini bərpa etdikdən sonra bütün sahələrdə öz milli və strateji hədəflərini müəyyən edən bir sıra konsepsiya və qanunvericilik aktları qəbul etmişdir. Bu sıradan 2007-ci ildə qəbul edilmiş Milli Təhlükəsizlik Konsepsiyası və Elm Strategiyasının əhəmiyyəti vurğulanmalıdır.Milli Təhlükəsizlik Konsepsiyası milli maraqların mühafizəsi və strateji hədəflərini müəyyən etmişdir. Elm strategiyası Azərbaycan elminin dünya elminə inteqrasiya edilməsində mühüm vəzifələr müəyyən edib. Bu konsepsiya Azərbaycan xalqının özünəməxsusluğunun qorunması və təbliği problemini özündə ehtiva etməklə 2 istiqamət müəyyən edib :

1.Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsi.
2.Azərbaycançılıq ideyasının, milli özünəməxsusluğun möhkəmləndirilməsi.

Müstəqilliyimizi əldə etdikdən sonra qəbul olunduğumuz ilk təşkilatlardan biri Yunesko olub (3 iyun 1992-ci il). Yunesko 1972-ci ildə qəbul edilən Təbii və Mədəni Dünya İrsi Qorunması Müqavilələrindən başlayaraq əhəmiyyətli qərarlar qəbul edib. Azərbaycan da 2003-cü ildə Yuneskonun ən mühüm konvensiyalarından biri olan "Qeyri-maddi mədəni irsin qorunması haqqında" konvensiyanı təsdiq etmişdir. Bu konvensiya 155 dövlət tərəfindən təsdiq edilib. Bundan əlavə, mədəni incilərimiz, İçərişəhər,Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi 2000-ci ildə Ümumdünya irs siyahısına daxil edilib. Muğam, Aşıq sənəti, Novruz bayramı, Ənənəvi Azərbaycan xalçaçılıq sənəti, Tar və onun ifaçılıq sənəti, Çövkən ənənəvi Qarabağ atüstü oyunu, ənənəvi kəlağayı sənəti və simvolizmi, Lahıcın misgərlik sənəti reprezentetiv siyahıya daxil edilmişdir.

# ÇAĞDAŞ AZƏRBAYCAN BƏDİİ DETEKTİVİ

*Şərifova S.Ş.*
*AMEA, Nizami adına Ədəbiyyat İnstitutu*

Detektiv ədəbiyyatı Azərbaycan ədəbiyyatında XX əsrin ortalarında meydana çıxdı ki, bu da sovet dövrü Azərbaycan ədəbiyyatına təsadüf edir. Çağdaş Azərbaycan ədəbiyyatında detektivin geniş yayılmasını müşahidə edirik. Bu özünü, əsasən, siyasi, kəşfiyyat (şpion), kriminal, sosial-psixoloji, macəra, məişət və intelektual detektivlərin inkişafında büruzə verir. Detektiv həm realist, həm də postmodern ədəbiyyatında öz yerini tapmışdır. Maraqlı məqamdır ki, detektiv daha çox realist nəsrdə təmsil olunmuşdur. Bu da detektivin janr xüsusiyyətlərindən irəli gəlir. Lakin bir sira hallarda, detektivlər drama xas janrlarda yaradılmışdır.

Əvvəl "detektiv" anlayışına aydınlıq gətirmək lazımdır. Detektiv anlayışı haqqında mübahisələr davam etməkdədir. Detektiv ədəbiyyatına münasibət birmənalı olmamışdır və detektiv janr kimi, ədəbiyyatda bir istiqamət kimi və ya metajanr forması kimi qəbul edilir.

Dünya ədəbiyyatında detektiv janrı kimi ilk dəfə tədqiq edən Q.K. Çesterton olmuşdur. O, detektivin «daxili quruluşu»nu əsas götürərək detektiv janrına xüsusi konstruksiya növü kimi yanaşırdı. R. Ostin Frimen isə «Detektiv incəsənəti» əsərində detektiv janrda qələmə alınmış əsərdə süjetin özünəməxsus olması, problem qoyuluşunun, onun həll yollarının vacib dəlillər əsasında aşkarlanması, həqiqətin müəyyən edilməsi üçün təhqiqatının yekunlaşması, bunun yekunu kimi nəticənin əldə olunması, həmçinin detektivi araşdıran təhqiqatçının apardığı müşahidələrin izlənilməsini əsas amillər kimi təqdim edir. Detektiv janr kimi A. Adamov, T. Kestheyi, Y. Kovalev, B. Raynov kimi tədqiqatçılar tərəfindən qəbul edilir.

"Janr" tərəfdarlarına qarşı çıxaraq Y. Markulan qeyd edirdi ki, detektiv bir janr kimi «növlərin» sistemli cədvəlinə çox asan daxil olmur, epos və dramla bağlıdır, komediya, pyes, reportaj, sənədli nəzm, povest, novella, film, roman ola bilər.

Qeyd etmək lazımdır ki, detektivi janr və ya istiqamət kimi qəbul edən tədqiqatçılar kifayət qədər əsaslı tezislər irəli sürürlər. Bununla belə, bu iki yanaşmanın hər biri "detektiv" anlayışının müəyyən məzmunu qabardaraq, digər hissəsini inkar edir. Belə ki, "janr" tərəfdarları detektivin müxtəlif bədii janrlarda mövcud olmasını, "istiqamət" tərəfdarları isə bütün detektivlərə eyni metodun xas olmasını inkar edirlər. Bu baxımdan detektivin metajanr forması kimi qəbul edilməsi daha düzgün olardı. Metajanr adi janrlar üzərində mövcud olan və onları ümumi əlamət altında birləşdirən böyük forma kimi mövcuddur. Lakin yalnız bir ölçüsü metajanrı bəzi böyük ənənəvi janrlardan ayırmağa imkan vermir (məsələn, ədəbi nağıl). Metajanr ənənəvi janrların növ və ədəbi-formal hüdudlarından kənara çıxır. Metajanr ədəbiyyat sərhədlərini aşır və mədəniyyətdə mövcuddur. Metajanr eyni zamanda ədəbiyyatda, musiqidə, rəsm və heykəltəraşlıqda mövcuddur. Podlubnovoyun fikrincə, metajanrın əsasını struktur təşkil edir, mədəni-tematik əlamətlər yox. Öz ölçüsünə görə metajanr janrlardan yüksəkdə dayanır. Metajanrın fərqləndirici əlaməti epoxanın mədəniyyəti ilə əlaqəli olmasındadır. Metajanrın xüsusiyyəti növlərarası janr qarışıqlığındadır. Detektivin metajanr forması olması onun mədəniyyətin

müxtəlif formalarında özünü büruzə verməsində göstərmişdir. Metajanrın müxtəlif janrlarda yaradılmasına baxmayaraq, oxşar metod və qanunauyğunluqları əsasında formalaşması ilə təsdiqlənir.

